ISSN 2218-5178



HÜQUQİ MÜSTƏVİ
ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNAL

ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNAL

# HÜQUQİ MÜSTƏVİ

## Legal plane

## Юридическая плоскость

## Hukuki düzey

№ 2
BAKI - 2020



“Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır.”.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.




«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

**HEYDƏR ƏLİYEV**

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:


**Arif PAŞAYEV** – *Redaksiya şurasının sədri, Milli Aviasiya Akademiyasının rektoru, akademik, fizika-riyaziyyat elmləri doktoru;*

**Aytən MUSTAFAZADƏ** – *Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq üzrə elmlər doktoru;*

**İrina SOPİLKO** – *Ukrayna Milli Aviasiya Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq üzrə elmlər doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq üzrə elmlər doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, professor, hüquq üzrə elmlər doktoru;*

**Arif QULİYEV** – *Ukrayna Milli Aviasiya Universiteti, Beynəlxalq Əlaqələr İnstitutunun Beynəlxalq hüquq kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İbrahim QULİYEV** – *Milli Aviasiya Akademiyası "Hüquqşünaslıq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi yurnalın baş redaktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Nazim ƏLİYEV** – *Daxili İşlər Nazirliyi Polis Akademiyasının rəisi, polis general-mayoru, dosent, hüquq üzrə elmlər doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq üzrə elmlər doktoru.*

**№2(2)**

**2020-ci ilin yanvar ayından çıxır.**

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq üzrə elmlər doktoru.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)

*Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.*

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

*Redaksiyanın ünvanı:*

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az

## REDAKSİYA HEYƏTİ:

**Elmi redaktor** — ***MƏMMƏDOV R.F.*** — Bakı Dövlət Universiteti Hüquq fakültəsi Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Məsul redaktor** — ***MƏMMƏDOV Ə.Q.*** — BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı** — ***HÜSEYNOVA F.E.*** — BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Böyük redaktor:** — ***Zümrüd TURABXANQIZI***.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas;

— ***ƏLƏSGƏROVA S.Q.*** — Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin əməkdaşı – operator;

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

27 fevral 2020-ci il tarixdə 270 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

**2020**

I RÜB

# AZƏRBAYCANIN İNKİŞAFINI XXI ƏSRİN ÇAĞIRIŞLARINA UYĞUNLAŞDIRAN LİDER

**Ramiz MEHDİYEV,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti.**

*(Əvvəli ötən sayımızda)*

Amma hər halda özlərinin xaricdəki ağalarından pay alanlardan soruşmaq lazımdır ki, indiki Azərbaycanı İlham Əliyevdən yaxşı kim idarə edə bilər, kim öz xalqını dünya sivilizasiyasına qovuşdura bilər, öz xalqının maddi və mənəvi tələbatını daha yaxşı təmin edə və bu əsasda sabit dövlət yarada bilər. Bu halda legitim hakimiyyətlə "inqilabi savaşlarda" müxalifət sıralarında iştirak etməmiş V.Putinin və C.Buşun (oğul) nümunəsini nəzərə almaq lazımdır. Əslində, dünyada müdrik siyasi liderlər, fəaliyyəti XXI əsr cəmiyyətinin yaradılmasına yönəldilmiş şəxslərin axtarışı meyillərini Azərbaycan müxalifəti özü də yaxşı görür.

Görkəmli mütəfəkkir və filosof F.Hegel (1770-1831) yazırdı ki, böyük insanlar praktiki siyasi xadimlər olublar. Onlar, eyni zamanda, işin mahiyyətini, nə etmək və nə vaxt etmək lazım olduğunu başqalarından yaxşı anlayan, düşünən insanlar olublar.[11]

Prezident İlham Əliyev dövlət siyasətini ölkənin insan resurslarını, ictimai və sosial-iqtisadi resurslarını əsas götürərək qurur. Dövlət idarəçiliyi mexanizmlərinin təkmilləşdirilməsi ölkənin inkişafının konkret məsələlərinin həllinə yönəlib. Təbii ki, Prezident bu siyasəti həyata keçirərkən öz komandasına, yəni, onun yüksək etimad bəslədiyi və ölkənin dəyişdirilməsi ideyalarının həyata keçirilməsində ona səriştəli şəkildə kömək edən insanlara güvənir.

2003-cü ildən bəri ölkədə yürüdülən siyasətin mahiyyəti Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursuna zidd deyil, əksinə, Prezident İlham Əliyev dünyada cərəyan edən dəyişikliklər prosesinin intensivliyini nəzərə alaraq, bu kursu təkmilləşdirib, onun reallaşması metodikasına düzəlişlər edib. Heydər Əliyevin yürütdüyü müstəqil dövlət, onun iqtisadi, sosial və mədəni bazasının yaradılması siyasəti Azərbaycan xalqının ümidlərini tamamilə doğrultdu. Bu siyasət Prezident İlham Əliyevin dövlətçilik siyasətinin əsası, onun siyasi kursunun təməli oldu. O, prezidentliyi illərində bu siyasi kursdan kənara çıxmayıb. Əvvəlki dövlət idarəçiliyinin quruculuq xəttinə riayət edən dövlət xadiminin siyasətini dövlətçilik sənəti adlandırırlar. Bu tipli dövlət xadimlərinə o qədər nadir rast gəlinir ki, Otto Bismark (1815-1898) onların siyasətini incəsənət adlandırırdı.

Prezident İlham Əliyevin siyasəti milli maraqların reallaşmasına nail olmaq sənətidir. Onun əsas vəzifələrindən biri də mənəviyyatın bərqərar olmasıdır. Məsələ burasındadır ki, bu gün insanların müəyyən qrupunun fikrincə, təəssüf ki, insanın cəmiyyətdə sosial vəziyyətinin dərəcəsini yalnız maliyyə və maddi tərkib hissələr müəyyənləşdirir. Belə insanlar üçün mə-

nəviyyat kateqoriyası öz sosial dəyərini itirib. Onlar qazanc əldə etmək, varlanmaq həvəsindədirlər. Bu, onların həyatının mənasıdır. Onlar üçün aqressivlik mədəniyyət norması, eqoizm isə ünsiyyət həddidir. Milli mədəniyyət beşiyinə baş vurmaq istəyi onlara yaddır.

2003-cü ilin oktyabrından başlayaraq bütün bu dövrdə İlham Əliyev xalqın mənəvi inkişafı, dini etiqad azadlığı, multikulturalizm və tolerantlıq ənənələrinin dəstəklənməsi siyasətinə çox böyük diqqət yetirib. Gənclərin sosial, təhsil və mədəni problemlərinin həlli məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq edilib, xüsusi Gənclər Fondu yaradılıb. Gənclər siyasəti dövlətin fəaliyyətinin prioritet istiqamətlərindən biri, dövlət idarəçiliyinin prinsipidir.

Siyasətçinin rolunun həqiqi miqyası konkret işlərin reallaşmasında üzə çıxır. Prezident İlham Əliyevin dövlətçilik fəaliyyəti (2003-cü il oktyabrın əvvəlindən) Azərbaycanın siyasi, iqtisadi və mədəni landşaftını dəyişib. Ölkə həyatının bütün sahələrində Azərbaycan xalqının daha yaxşı yaşamasını təmin etmək üçün stimul yaranıb. Xalq öz liderini tamamilə dəstəkləyir. “Praqmatizm”, “çeviklik”, “açıqlıq”, “müəyyənlik”, xarici siyasətdə “sistemli vektorluluq”, “milli maraqların ardıcıl təbliği”, “yüksək mənəviyyat”, “həssaslıq”, “təvazökarlıq” – bu keyfiyyətlər Prezident İlham Əliyev şəxsiyyətini səciyyələndirən anlayışların az bir qismidir.

O, müasir şəraitdə dövlət başçısı üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. İlham Əliyevə Azərbaycan xalqını öz arxasınca aparmaq missiyasını tarix, yeni dövr özü həvalə edib. Məhz o, ölkə tarixinin məsul mərhələsində müstəqil dövlətin inkişafını və cəmiyyətin bir formasiyadan digərinə keçidinin başa çatmasını təmin edə bilib. Azərbaycan onun zəkası və siyasi istedadı sayəsində müasir dünya nizamına xas olan mürəkkəb şəraitdə öz mövqelərini möhkəmlədib.

Həqiqi lider bütün sınaqlara sinə gərmək və getdikcə daha güclü, daha israrlı olaraq bu sınaqlardan çıxmaq üçün zəruri olan vərdişlərə malikdir. Milli lider olmaq, sadəcə, dövlət başçısı olmaqdan qat-qat artıqdır.

ABŞ-dan olan müəlliflərin fikrincə, bütün görkəmli liderləri birləşdirən cəhət onların dörd zəruri keyfiyyətidir. Birincisi – ümumi həllin axtarışına başqa adamları cəlb etmək qabiliyyəti. İkincisi – inandırma istedadı. Üçüncüsü – prinsiplərə sədaqət və dürüst dəyərlər sistemi. Dördüncüsü – adaptasiya etmək qabiliyyəti. Bu keyfiyyət iki əsas aspektə bölünür: vəziyyəti tez dərk etmək qabiliyyəti və xarakterin möhkəmliyi. Həmin müəlliflər yazırlar: “İlk növbədə, məhz xarakterin möhkəmliyi və vəziyyəti tez dərk etmək qabiliyyəti birlikdə həm çətin sınaqlardan salamat çıxmağa, həm də bu sınaqlardan zəruri ibrət dərsi almağa, daha güclü, daha israrlı və öz işinə sadiq olmağa imkan verir. Bu keyfiyyətlər ən gərgin vəziyyətə düşdükdə belə liderlərin sınmamasına, əksinə, başqalarının yalnız ümidsizlik gördüyü yerdə böyümək imkanı tapmalarına kömək edir. Həqiqi liderliyin mahiyyəti bundan ibarətdir”. [12]

Əsla şübhə yoxdur ki, İlham Əliyev XXI əsrdə siyasi lider üçün zəruri keyfiyyətlərə malikdir. Çiçəklənən müasir Azərbaycan onun əsəridir, millətin həqiqi lideri kimi onun iradəsinin, zəkasının və istedadının nəticəsidir. Öz əcdadlarının genlərini daşıyan bu cür şəxsiyyətlərin sayı çox deyil, belələri tək-tək olur. Bu, çox nadir haldır. Lakin onların azsaylı olmasına baxmayaraq, cəmiyyətin həyatının istənilən sahəsində lokomotiv rolu oynayırlar.

Prezident İlham Əliyev fitri liderlik istedadına malikdir. Doğrudur, bəzi tədqiqatçılar hesab edirlər ki, "liderlik vərdişləri fitri deyil. Onları formalaşdırmaq və inkişaf etdirmək olar". Mənim fikrimcə, liderlik xüsusi keyfiyyətdir və heç də hər insan özündə bu keyfiyyəti formalaşdıra bilməz. Liderlik fərdin fiziologiyasının xüsusiyyətidir. Bu, başqa məsələdir ki, dövlət idarəçiliyi elmdir və bu elmi öyrənmək olar. Lakin idarəçilik elminin öyrənilməsi heç də həmişə insana sevinc gətirmir. Nahaq yerə demirlər ki, bundan ötrü "acı dərman içmək", yəni, bu mərhələni yaşamaq lazımdır. Ona görə də möhtəşəm niyyətlərin həyata keçirilməsi liderdən xüsusi enerji və eyni zamanda, səbir tələb edir. Siyasi liderlər öz tərəfdarlarını ruhlandırır, onları həvəsləndirir, onlarda təşəbbüskarlıq keyfiyyəti yaradır. Lakin bu, həmin tərəfdarların lazımi istiqamətdə hərəkət etməyə məcbur olunması hesabına baş vermir. Məsələ ondadır ki, siyasi liderin çağırışları insanların nailiyyətlərə can atmaq, ümumi işdə iştirak hissi və özünə hörmət zərurəti, ictimai etiraf istəyi, özünü öz taleyinin sahibi hesab etmək və öz ideallarına uyğun yaşamaq imkanı kimi təbii ehtiyaclarını təmin etməyə imkan verir. Bu çağırışlar insan qəlbinin dərinliyinə nüfuz edir və cavab reaksiyası doğurur.

Həqiqi siyasi liderlər müxtəlif motivasiya texnologiyalarını mənimsəyirlər. Əvvələn, onlar gələcək barədə öz təsəvvürünü şərh edərkən müraciət etdikləri insanlara hansı mənəvi dəyərlərin xas olduğunu həmişə nəzərə alırlar. Bunun sayəsində çağırışlar öz tərəfdarlarının nəzərində daha əhəmiyyətli olur. İkincisi, siyasi liderlər tərəfdarlarının aparıcı heyətini öz niyyətinin həyata keçirilməsinin mümkün yollarının müzakirəsinə cəlb edirlər. Bunun sayəsində həmin adamlar hiss edirlər ki, onların fikrini eşidirlər və onlar cəmiyyətin həyatına təsir göstərirlər.

Həqiqi siyasi liderlər öz komandasının üzvlərinin şəxsi qabiliyyətlərini qiymətləndirir və onları həvəsləndirmək fürsətini əldən vermirlər. Bu, onlara həm uğur sevinci, həm də bunu başa düşmək imkanı verir ki, bu insanlar onları qiymətləndirən komandanın bir hissəsidir. Əgər siyasi lider bütün bu qaydalara riayət edərsə, onun fəaliyyəti komandası üçün ilham mənbəyinə çevrilir.

Cəmiyyət dəyişikliklərə nə qədər güclü məruz qalarsa, komanda üzvlərinin diqqət və mənəvi dəstək təzahürü bir o qədər əhəmiyyətlidir. Siyasi lider problem barədə öz təsəvvürünü komandasının üzvlərinə aşılamağa nail olanda komanda onun ideyasının canlı təcəssümünə çevrilir. Çünki komandanın üzvləri idarəçiliyin bütün səviyyələrində öz işgüzar qabiliyyətlərini üzə çıxarırlar. Bu, çox vacib və qiymətli nai-

liyyətdir, çünki əgər komanda salamat qalmaq və dəyişikliklər uğrunda mübarizədə möhkəmlənmək istəyirsə, onda təşəbbüslər kütlələrdən gəlməlidir. Qarşıya qoyulmuş hədəfə az səylə nail olmaq mümkün deyil.

İlham Əliyev böyük təşkilatçılıq və idarəçilik qabiliyyətlərinə malikdir, onu dövlətin mənafelərinə sədaqəti fərqləndirir. O, bütün varlığı ilə dövlətçidir. Bu, İlham Əliyevin çox mühüm siyasi keyfiyyətidir, xüsusən ona görə ki, dünya siyasət meydanında əsas oyunçular əvvəlki kimi yenə milli dövlətlərdir.

Bu gün aşkardır ki, dünya siyasətinin subyektləri praktiki olaraq hər yerdə ciddi sınaqlara məruz qalır, iqtisadi, siyasi, humanitar və ekoloji çağırışlarla, beynəlxalq terrorizm təhdidləri və başqa hallarla üzləşirlər. Dünyada yaranmış mürəkkəb vəziyyətin əsas səbəblərindən biri liderlik problemidir. Bir sıra dövlətlərdə yaranmış vəziyyət ona dəlalət edir ki, həmin dövlətlərdə rəhbərliyi həyata keçirən şəxslər bütövlükdə millətin maraqlarını deyil, müəyyən korporativ qrupların mənafelərini ifadə edirlər. Dünyada baş verən, heç də təsəlliverici olmayan hadisələr göstərir ki, həmin liderlərin geniş təfəkkürü və ən başlıcası, müstəqil idarəçilik fəaliyyəti üçün səriştəsi və qabiliyyəti yoxdur.

"Böhranlı vəziyyətlərdə cəmiyyətin xüsusi rəhbərlərə ehtiyacı olur. Artıq neçə onillikdir ki, Qərb ölkələrində yeni strateji ideyalar irəli sürməyə və reallaşdırmağa qabil olan Ruzvelt, Çörçill, yaxud de Qoll kimi "güclü" liderlər yetişmir. Köhnə metodlar (və köhnə liderlər) isə böhrandan çıxmağa kömək etmir, ehtimal ki, böhranı daha da dərinləşdirirlər".[13]

Dövlət başçısını liderə çevirən, ilk növbədə, onun zəkası, səriştəsi və fəaliyyət əzmidir. Onun şüurunda millətin keçmişi, bu günü və gələcəyi cəmləşməlidir. Deyə bilərik ki, siyasi lideri təbii imkanlarla yanaşı, həm də həyati proseslər, dövr formalaşdırır. O, müasir dövrün və keçmişin parlaq zəkaları ilə dialoq vasitəsilə milli ideyanı dərk edir. Milli siyasi liderin əhəmiyyətinin bir meyarı da onun vətənpərvər və tərbiyəçi obrazıdır, o, öz xalqı ilə sıx bağlı olmalı, xalqın maraqları ilə yaşamalıdır.

Şübhəsiz, siyasi lider milləti oyatmaq və sıx birləşdirmək qabiliyyətinə malik olmalıdır. Dövlət başçısı yalnız o halda siyasi lider statusu əldə edir ki, millətin ona ehtiyacı olsun, millətin əksəriyyətinin ideyası və iradəsi konkret şəxsiyyətdə birləşsin və təcəssüm etsin, xalqın gözləntiləri bu şəxsiyyətdə əks olunsun. Millət həmin şəxsiyyətə lider və dövlət başçısı mandatını yalnız o halda təqdim edə bilər ki, bu şəxsiyyət öz iradi, mənəvi, siyasi göstəricilərinə, təşkilatçılıq qabiliyyətinə, intellektinə və sağlamlığına görə millətin ümidlərinə uyğundur. Əslində, siyasi lider daha yaxşı həyat uğrunda mübarizə aparmağa hazır olan millətin iradəsinin daşıyıcısıdır. Öz növbəsində, lider də millətinə, daha yaxşı həyata gedən yolda, hətta qeyri-populyar qərar qəbul edilməsinə görə də millətin onu dəstəkləyəcəyinə inanmalıdır. Yadda saxlamaq lazımdır ki, iradə və qüvvə məhz inam sayəsində yaranır. Deməli, inam, iradə və qüvvə milləti XXI əsr cəmiyyəti yaratmağa doğru hərəkət etdirən amillərdir.

Güclü xarakter, prinsipiallıq, səmimiyyət, məsuliyyəti öz üzərinə götürmək cə-

sarəti siyasi lider üçün istisnasız olaraq hamının xoşuna gəlmək arzusundan qat-qat vacibdir. Yalnız bu psixoloji xüsusiyyətlərin birləşməsi əsasında siyasi liderin yeni keyfiyyəti yaranır, bu keyfiyyət millətə sirayət edir, onun psixotipik portretini gücləndirir. Millətin öz hədəfinə nail olmasına yalnız əzmkarlıq və qətiyyət imkan verir. Millət öz istəyinə yalnız o halda inam qazanır ki, öz siyasi liderində fəaliyyətə hazırlıq, əzmkarlıq və qətiyyət görsün.

XXI əsrin əvvəlində İlham Əliyev əsl milli lider kimi müasir dövrün mürəkkəb sədlərini dəf edərək millətin daxili enerjisini ölkə qarşısında duran quruculuq məsələlərinin həllinə yönəltməyə, Azərbaycanı əsaslı şəkildə dəyişdirməyə müvəffəq olub. Onun yaradıcı dövlətçilik və siyasi fəaliyyəti Azərbaycan xalqına firavanlıq gətirir, sabit həyat yaradır. İlham Əliyevin təşkilatçılıq istedadı və uzaqgörənliyi, onun yürütdüyü quruculuq siyasəti sayəsində bu gün Azərbaycan regionda lider statusu qazanıb və dünya dövlətləri birliyində layiqli yer tutur.

Prezident İlham Əliyevin uzaqgörənliyi, ona xas olan enerji, nitqlərinin məntiqi, natiqlik qabiliyyəti və praktiki fəaliyyəti istənilən qərəzsiz adamı valeh etməyə bilməz. Ona xas olan daha bir nadir keyfiyyət də nəzərdən qaçmayıb. Tərbiyə edilməsi, yaradılması, inkişaf etdirilməsi mümkün olmayan bu keyfiyyət incə duyum, intuisiyadır.

Səmimi etiraf edirəm ki, Prezident İlham Əliyevin dünyada siyasi dəyişikliklər küləyinin güclə sezilən hərəkətini, ölkədə cəmiyyətin əhval-ruhiyyəsini əsl vaxtında duyması, respublikanın regionlarında əhali ilə çoxsaylı görüşlərdə onların sosial xarakterli gizli niyyətlərini hiss etməsi məni həqiqətən valeh edir. Bu keyfiyyət yalnız təcrübəli və uzaqgörən siyasi xadimlərə xasdır. Bu cür güclü intuisiya heç də hər bir dövlət rəhbərinə xas olmur. Yeri gəlmişkən, psixologiya elmində intuisiya "kifayət qədər məntiqi əsaslar olmadığı şəraitdə çox vaxt praktiki olaraq ani şəkildə məsələnin həllinin axtarışından ibarət intellektual proses" kimi izah edilir.[14]

Aşkardır ki, intuisiya yalnız bu incə hissi ana südü ilə qanlarına, canlarına hopdurmuş az sayda insana xasdır. Bu cür uzaqgörənlik yalnız böyük dövlət xadiminə və siyasi xadimə xasdır. Tarix göstərir ki, yalnız son dərəcə güclü siyasi duyuma malik olan şəxslərin tarixə düşmək şansı var. İlham Əliyev bu müstəsna və nadir siyasi keyfiyyətə – duyuma malikdir. Bu mənada o, Heydər Əliyevin təkrarıdır, Heydər Əliyev də bu keyfiyyətə artıqlaması ilə malik idi.

Dünyanın aparıcı nəşrlərindən olan "Harvard Business Review" jurnalında (sentyabr 2000-ci il) dərc edilmiş "Tanınmış lider olmağın yolu" sərlövhəli məqalənin müəllifləri Robert Qoffi və Haret Cons yazırlar: "İntuisiya siyasi liderin əvəzedilməz keyfiyyətidir. Belə adamlar haqqında deyirlər ki, onlar şəraiti yaxşı hiss edirlər. Onlar ətraf mühitdən gələn siqnalları instinktiv olaraq qəbul edir və nə baş verəcəyini əvvəlcədən duya bilirlər, hərçənd bu hadisələrin bütün təfərrüatını onlara heç kəs izah etməyib.

O, ən kiçik eyhamların mənasını başa düşür və müşahidə qabiliyyəti az olan in-

sanların nəzərindən qaçan cəmiyyətdə əhval-ruhiyyənin cüzi dəyişmələrini izləyir. Bütün görkəmli şəxsiyyətlər kəskin intuisiyaya malik olan insanlardır".[15]

Prezident İlham Əliyevə siyasi xadim üçün çox vacib olan bir keyfiyyət də xasdır: o, əvvəlki sərəncamın əhəmiyyətinin tükəndiyini, onun potensialının başa çatdığını yəqin edəndə çox fikirləşmədən əvvəl qəbul edilmiş qərarı dəyişir və ya ona müvafiq düzəlişlər edir. Bu, çox ədalətli, bəlkə də zəruri yoldur, ona görə ki, dünyada geosiyasətin dəyişkən xarakteri və həyatın özünün dinamikası ilə hesablaşmamaq olmaz.

Mən dəfələrlə fikirləşmişəm: Prezident İlham Əliyevin hansı şəxsi keyfiyyətləri onu digər dövlət başçılarından (indiki həmkarlarından) fərqləndirir, yeni dövrdə siyasi liderə daha hansı keyfiyyətlər lazımdır və sair. Mən yəqin etmişəm ki, Azərbaycan Prezidentinin xarakterində (yəni, fərdi xüsusiyyətində) onun şəxsiyyətinin və mənəvi əsaslarının təməlini təşkil edən cəhətlər obyektiv olaraq İlham Əliyevi XXI əsrin nəhəng dövlət xadimi və siyasi xadim kimi səciyyələndirir. Bu şəxsiyyət özünü xalqının və dövlətinin firavanlığına həsr edib.

İlham Əliyevin prezidentlik illəri bunu söyləməyə əsas verir ki, o, Azərbaycanın bənzərsiz rəhbəridir, Heydər Əliyevlə müqayisə edilə biləcək müstəsna şəxsiyyətdir. O, böyük siyasi xadimlər kimi nəzakətli və siyasi liderlər kimi mərd olması ilə seçilir, problemləri dərindən duymaq və ölkənin gələcəyini dəqiq təsəvvür etmək qabiliyyətinə malikdir.

İlham Əliyevə siyasi uzaqgörənlik xasdır: o, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün komandasının potensialından səmərəli istifadə edir, son dərəcə təmkinlidir, problemi hərtərəfli dərk edəndən sonra qərar qəbul edir.

İlham Əliyev dünya siyasətini və beynəlxalq iqtisadiyyatı praktikada sınaqdan çıxarılmış idarəçilik istedadı ilə, uzaqgörən və məqsədyönlü şəkildə öyrənir. Onun siyasi nailiyyətlərindən biri ölkədə əsası Heydər Əliyev tərəfindən qoyulmuş ictimai-siyasi sabitliyi qoruyub saxlamaqdır. O, paytaxtda və regionlarda insanlar üçün təhlükəsiz həyat şəraiti yaratmağa, ölkənin hərbi potensialını əhəmiyyətli dərəcədə inkişaf etdirməyə nail olub.

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf etmiş ölkələr sırasına çıxıb, Bakı isə dünyanın ən gözəl şəhərlərindən birinə, çoxsaylı müxtəlif beynəlxalq sammitlər, konfranslar və forumlar keçirilən mərkəzə çevrilib. Prezidentin şəxsi fəaliyyəti sayəsində 2003-cü ildən sonra Bakı dünyada ən çox ziyarət edilən turizm mərkəzlərindən biri olub.

Görkəmli siyasi liderlərdən biri kimi dünyada tanınmış İlham Əliyev Heydər Əliyevlə yanaşı, son yüz ildə Azərbaycanın ən yaxşı lideridir. O, millətin lideri kimi artıq Azərbaycanın və müasir dünyanın çoxəsrlik tarixinə daxil olub.

Xalq-iqtidar birliyi platformasına əsaslanan İlham Əliyev ölkədə ictimai qaydanı möhkəmləndirib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını təmin edib, xalqın həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə nail olub.

Azərbaycan vətəndaş sülhünün və ictimai asayişin möhkəmliyinə görə bütün MDB ölkələrindən irəlidədir. İqtisadiyyat, ölkə vətəndaşlarının sosial təminat sistemi dinamik inkişaf edir. Prezidentin yürütdüyü düşünülmüş xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu xeyli artıb, onun geosiyasi mövqeləri möhkəmlənib, qlobal məsələlərdə Azərbaycanın siyasi rolu danılmazdır.

Azərbaycanda demokratik təsisatların möhkəmlənməsinə və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş siyasət ardıcıl olaraq həyata keçirilir. Çoxpartiyalı siyasi sistem yaradılıb, siyasi plüralizm ictimai həyatın dəyişməz prinsipidir. Söz, mətbuat və informasiya, internet və sosial şəbəkələrin azadlığının təmin edilməsi dövlət siyasətinin mühüm istiqamətidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet telekanalı və 16 radiostansiya fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Prezident xalqın və dövlətin qarşısında çox böyük məsuliyyət hiss edir, səmimiyyət, sədaqət və vətənpərvərlik ona xas olan cəhətlərdir. Onun xarici siyasi fəaliyyətində milli maraqların təbliği və qorunması, dövlətlərarası münasibətlərdə nəzərdə tutulan hədəflərə nail olmaq əsas məqamdır. O, milli mənafelərin müdafiəsi məsələsində həmişə prinsipialdır, ölkəyə zərər vura biləcək hər hansı qərarlara və güzəştlərə imkan vermir.

Prezident vəzifəsində 16 illik fəaliyyətində İlham Əliyev Azərbaycanın şəksiz lideri kimi dövlət başçılarının və beynəlxalq təşkilatların rəhbərlərinin hörmət və rəğbətini qazanıb. İlham Əliyev şəxsiyyətinə münasibətdə bu yüksək hörməti təkcə onun beynəlxalq tərəfdaşları deyil, xarici siyasətçilər sırasından olan opponentləri də təsdiqləyir və eyni zamanda, onun şəxsi məziyyətlərini vurğulayırlar. Azərbaycan Prezidenti bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin və əlaqələrin tərəfdarıdır. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti BMT üzvü olan dövlətlərin, dünya ictimaiyyətinin nəzərinə çatdırmaq məqsədilə şəxsən böyük iş aparır. Bu, 2019-cu il oktyabrın 3-də Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasındakı çıxışında və 2019-cu il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçılarının Sammitindəki çıxışında daha aşkar şəkildə təzahür edib. O, müsəlman dövlətlərinin beynəlxalq arenada uzlaşdırılmış fəaliyyətinə nail olmaq məsələsində uğurlu nümunə göstərib.

Xarici siyasətdə hücum mövqeyi tutan İlham Əliyev Azərbaycana qarşı daim əsassız iddialar səsləndirməyə və ölkəmizdə həyata keçirilən siyasəti qərəzli şəkildə tənqid etməyə "adətkar" olan beynəlxalq strukturların rəhbərləri ilə dialoqda Azərbaycanın mənafelərini güzəştsiz olaraq müdafiə edir. O, hökumətin üzvlərindən, digər rəhbər işçilərdən də mübariz mövqe tutmalarını tələb edir. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil alması, dissertasiya müdafiə etməsi və MDBMİ-də müəllimlik fəaliyyəti, diplomatiya tarixinə dair geniş biliklər, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, həmçinin Azərbaycan Prezidenti vəzifəsində fəaliyyəti, yüksək intellekti ona

rəhbər missiyasını uğurla həyata keçirməkdə kömək edir.

Xarici siyasət elə bir sahədir ki, orada beynəlxalq strukturlar tərəfindən düzgün qərar qəbul edilməsinə Prezident İlham Əliyevin təsiri daha yaxşı görünür. Burada onun təfəkkürünün çevikliyi və diplomatik qabiliyyətinin yüksək dərəcəsi daha yaxşı nəzərə çarpır.

Prezidentin analitik təfəkkürü xarici siyasət taktika və strategiyasının formalaşmasına, kəskin şəraitdə səhvsiz qərarlar qəbul edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Dünyada mövcud problemlərin bütün elementlərinə dərindən nüfuz etmək, onların nisbətini və qarşılıqlı əlaqəsini, xarakterik xüsusiyyətlərini aşkar etmək məharəti İlham Əliyevə siyasi səhnə arxasında gizlinləri, ən başlıcası isə, dünya qüvvə mərkəzlərinin geosiyasi maraqları ilə səbəb-nəticə əlaqələrini görməyə imkan verir. O, dünyada və ya regional siyasətdə baş verən müxtəlif hadisələri sadə proseslər, yaxud təsadüfi, əhəmiyyətsiz hadisələr hesab etmir, problemin dərinliyinə varır, beynəlxalq qüvvələrin və ayrı-ayrı dövlətlərin əsas məqsədləri və siyasi maraqları ilə əlaqəni səhvsiz aşkar edir.

Prezidentin psixoloji portretini çəkməyə cəhd göstərsək, yekun xarakteristika olaraq bunu deyə bilərik ki, İlham Əliyev psixoloji baxımdan güclü şəxsiyyətdir. O, məntiqə əsaslanaraq qərar qəbul edən və işi ən səmərəli üsulla təşkil edən praqmatik təfəkkürlü intovertlərə (anlayan, düşünən və mühakimə yürüdən fərd) aiddir. Prezident sağlam düşüncəli, məsuliyyət hissinə malik olan ciddi adamdır. O, verdiyi sözün üstündə durur. Başladığı işi sona çatdırmaq qabiliyyətinə malikdir. Azərbaycan xalqı öz dövlətinin rəhbəri vəzifəsində məhz bu cür şəxsiyyəti və siyasi xadimi görmək istəyir, çünki o, xalqın mentallığına, istəklərinə və gözləntilərinə müvafiqdir.

Bu xarakteristikaya onu da əlavə etmək olar ki, İlham Əliyev liderlik qabiliyyətinə malik olmaqla yanaşı, təmkinli insandır, ifrat ajiotaja varmadan hər hansı arzuedilməz proseslərə, təbii kataklizmlərə, istehsal qəzalarına sakit münasibət bildirməyi, müxtəlif xoşagəlməz faktlara dözümlü olmağı bacarır, sağlam mühakimə yürüdür, bununla da ölkədə ümumi vəziyyətə müsbət təsir göstərir. İlham Əliyev öz intellektinə, şəxsi üslubuna, davranışına, temperamentinə, qərarlar qəbul edilməsində ona kömək edən obrazlı təfəkkürünə görə müasir dövlət başçılarının çoxundan fərqlənir. Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri keçmiş təcrübənin köhnəlmiş sxemləri ilə ağırlaşdırılmayan yeni prinsipial qərarlar axtarışında çox mühüm rol oynayır və bu halda öz qərarlarından irəli gələ biləcək nəticələrində səhvə yol vermir.

Ölkədə multikulturalizm siyasətinin həyata keçirilməsi, milli tolerantlıq ənənələrinin qorunması onun əqidəsinin güclü tərəfləridir. İlham Əliyev aldığı informasiyanı yadda saxlamaq baxımından nadir qabiliyyətə malikdir. Təfəkkürünün çevikliyi və sürəti onun çox mühüm xarakterik cəhətidir. Bəli, İlham Əliyev siyasi lider kimi çevik və sürətli təfəkkürə malikdir, lakin ölçülüb-biçilmiş və ehtiyatlı qərarlar qəbul etməyə meyillidir. Məsul və təxirəsalınmaz, o cümlədən xarici siyasi qərarlar

qəbul etmək üslubu ölkə üçün ən üstün cəhətdir. Bu, Prezidentin qiymətli keyfiyyətlərindən biridir. Ehtiyatlılığı qətiyyətsizliklə eyniləşdirmək lazım deyil. Prezident İlham Əliyev kifayət qədər iradəli və qətiyyətli insandır. Əksinə, ehtiyatlılığa meyil etməsi zəruri hallarda cəsarətlə düzgün qərar qəbul etməsinə mane olmur. Belə misallar çoxdur. Təfəkkür çevikliyi onun problem barədə öz təsəvvürünü, bundan ötrü tutarlı əsaslar olduqda, dəyişməyə imkan verir. O, yeni ideyaları çox tez qəbul edir. Bu, onun novatorluq və innovasiyalara meyil etmək qabiliyyətinə sübutdur. Əməkdaşlarının onunla razılaşdırmaq istədikləri məsələni dərhal başa düşür və onun mahiyyətinə vararaq zəruri göstərişlər verir.

Şəxsiyyətlərarası münasibətlərdə İlham Əliyev etika normalarına riayət edir, yaşlı müsahibinə hörmət və ehtiramla yanaşır. Komanda üzvlərinin fikrini, onların məsləhətlərini diqqətlə dinləyir, lakin son qərarı özü qəbul edir. Tabeliyində olan işçilərlə münasibətdə yumşaq qətiyyətlilik prinsipini gözləyir, tələbkar olmaqla yanaşı, vəziyyəti süni şəkildə gərginləşdirmir, bu isə ahəngdar iş üçün çox vacibdir. Mən elə bir hal xatırlamıram ki, Prezident tabeliyində olan insanların ləyaqətini alçaltmış olsun. Başqasının halına acımaq qabiliyyəti çox güclü inkişaf edib, hərçənd, bunu nümayişkaranə və emosional şəkildə büruzə vermir.

Ölkə Konstitusiyasına müvafiq olaraq öz administrasiyasını yaradarkən Prezident bir məqama həmişə xüsusi diqqət yetirirdi ki, əməkdaşların intellektual səviyyəsi və mənəvi siması onların statusuna uyğun olsun. 2019-cu il oktyabrın 23-dən etibarən Prezident öz administrasiyasının heyətini yeniləşdirməyə, onun strukturunda islahatlar aparmağa başlayıb. Əlbəttə, bu islahatın mahiyyəti ondan ibarətdir ki, yeni işçilər varislik prinsiplərinə riayət etməklə yüksək tələblərə uyğun olsunlar, qarşıdakı illərdə Prezidentin həll etmək istədiyi məsələlərin xüsusiyyətini tez başa düşsünlər və ən başlıcası, Prezidentin yüksək etimadını qiymətləndirsinlər. Bu, çox vacibdir.

Aparılan genişmiqyaslı islahatlar nəticəsində ölkəmiz yeni, əhəmiyyəti heç də az olmayan aktual məsələlərin həllinə başlayıb. Ona görə çox vacibdir ki, Prezident komandasının hər bir üzvü buna hazır olsun, ona tapşırılmış iş sahəsi üçün yüksək məsuliyyət hiss etsin, problemlər yaratmadan bu məsələləri lazımi səviyyədə həll etsin, öz işinin peşəkarı, təvazökar insan olsun, əxlaq kodeksinə riayət etsin. Vahid ideya ətrafında sıx birləşmək Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş məqsədlərə nail olmağın zəruri şərtidir.

Qeyd etməliyəm ki, administrasiyanın əməkdaşları heç vaxt Prezidentin diqqətindən kənarda qalmayıblar. Prezidentin iş üslubunun çox dəyərli bir xüsusiyyəti var – administrasiya şöbələrinin rəhbərlərinə tapşırıqları bilavasitə özü verir, bu da ona şöbələrdə mənəvi, sosial-psixoloji mühiti duymaq, əməkdaşların peşəkar səviyyəsini və iş qabiliyyətini bilmək imkanı yaradır. Bu cür nəzarət metodu işçilərin öz funksiyalarını icra etmək məsuliyyətini artırır.

Tez-tez respublikanın regionlarına səfərlər edən, sənaye, kənd təsərrüfatı və mədəniyyət obyektlərinin, tibb mərkəzlə-

rinin, məktəb binalarının, qaçqınlar və məcburi köçkünlər üçün qəsəbələrin və yaşayış evlərinin istifadəyə verilməsi mərasimlərində iştirak edən Prezident ölkədə vəziyyət barədə hərtərəfli məlumata malikdir. O, əhali ilə yaxın ünsiyyətdə olur, necə deyərlər, ilk mənbədən məlumat alır, bu isə insanların əhval-ruhiyyəsini, onların iqtidara münasibətini hiss etməyə əsas verir və bütün bunlar Prezidentin idarəçilik fəaliyyətinə kömək edir.

Dünyanın güc sahibləri heç cür başa düşə bilmirlər: Prezident İlham Əliyev 16 il ərzində yetərincə mürəkkəb geosiyasi regionda Azərbaycana uğurla rəhbərlik etməyə necə nail olur. Elan olunmamış müharibə nəticəsində ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş ölkədə sosial partlayışın qarşısını almaq necə mümkün olub? O, ölkəsinin dövlətlərarası qarşıdurmalardan yan keçməsinə, siyasi sabitliyi təmin etməyə və Azərbaycanı uğurlu dövlətlər sırasına çıxarmağa necə nail olur? Öz maraqları naminə xalqlara onların milli ənənələrinə, mənəvi həyat tərzinə və dəyərlərinə zidd olaraq öz demokratiya modelini zorla qəbul etdirənlər üçün müəmmalı suallar çoxdur.

Prezident İlham Əliyev qüdrətli bir qüvvəyə – xalq ilə iqtidarın birliyinə güvənərək öz qurucu fəaliyyəti ilə bütün bu suallara cavab verir. O tələb edir ki, dövlət məmurları xalq ilə birgə olsunlar, çünki dövlət məmurları, o cümlədən Prezident də xalqın xidmətçiləridir. "Xalq bizə etimad göstərib və biz hər gün bu inamı və etimadı doğrultmalıyıq".[16]

Prezident çox gözəl bilir ki, qarşıya qoyulmuş məqsədə çatmaq yolları barədə də strateji təsəvvür olmadan gələcəyi qurmağa başlamağın mənası yoxdur. Əhalidə ardıcıl surətdə vahid millətə mənsub olmağın davamlı şəkildə dərk edilməsi şüuru formalaşmadan Azərbaycanın siyasi inkişafını təmin etmək mümkün deyil. Ölkədə yaradılmış sağlam mənəvi-siyasi mühitin və ictimai münasibətlərin təsiri ilə insanlarda yeni təfəkkür formalaşır. Qeyd etmək lazımdır ki, Azərbaycanda məhz müasir ictimai-tarixi praktika ölkə vətəndaşlarının özlərinin yaratdığı obyektiv mənzərəni öz şüurlarında əks etdirmələrinə imkan verir.

Prezident İlham ƏIiyev Azərbaycanın xarici tərəfdaşlarını ölkənin seçdiyi demokratikləşmə yolunun dəyişməzliyinə inandırmaq üçün çox səy göstərib. O, qəti əmindir ki, hər bir xalq yalnız öz tarixinə, öz ənənələrinə və mədəniyyətinə əsaslanaraq cəmiyyəti demokratikləşdirməlidir. Yabançı demokratiya heç vaxt konkret milli şəraitə uyğunlaşa bilmir. Prezident İlham Əliyevin düşünülmüş siyasəti və siyasi istedadı sayəsində Azərbaycanın beynəlxalq arenada nüfuzu artmaqda davam edir. Azərbaycan hadisələri süni şəkildə sürətləndirmədən Qərbdə – ABŞ, Fransa, Almaniya, İsveç, İtaliya və digər ölkələrdə olduğu kimi, milli simalı demokratiyaya tərəf irəliləyir. Heç kəs bu faktla mübahisə etməz ki, həmin ölkələrdə demokratiyanın öz spesifikası var.

Prezident İlham Əliyevə xas olan bir xüsusiyyət də sakit qüvvə və müsbət əhvaldır. Hərçənd, o, həyatda çətin sınaqlardan keçib. Onun həyatının həmişə xoş keçdiyini,

obrazlı şəkildə desək, xoşbəxt ulduz altında doğulduğunu demək olmaz. Ümumrusiya Dövlət Teleradio Komitəsinin teleaparıcısı Vladimir Solovyovun fikrincə, İlham Əliyev "çox mehriban, mükəmməl təhsilli, dərin zəkalı siyasi xadim, lakin deyərdim ki, başqa tipli siyasi və dövlət xadimidir... O, həm öz xalqı və ölkəsi, həm də öz atası qarşısında böyük məsuliyyət hiss edən dərin zəkalı insandır. Bu, ənənənin davamıdır. Mənə belə gəlir ki, yeni, gələcək Avrasiya İttifaqında Əliyevin çox gözlənilməz rolu, tamam fərqli hərəkətləri ola bilər".[17]

2018-ci il aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçirildi. ABŞ-dan olan bir analitik mərkəz tərəfindən fevral-mart aylarında aparılmış sosioloji sorğu göstərdi ki, İlham Əliyev yenidən ölkənin prezidenti seçiləcək. Bu sorğu bütövlükdə təsdiqləndi: İlham Əliyev seçkilərdə iştirak edən seçicilərin 86,03 faizinin səsini toplayaraq 7 il müddətinə Azərbaycan Prezidenti seçildi. Əslində, həmin andan etibarən Azərbaycan tarixində xüsusi, yeni mərhələ başlandı. Prezidentin qarşısında yenə üç mühüm vəzifə dururdu. Birincisi, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş fəaliyyət xəttinə sadiqliyi təsdiq etmək. İkincisi, dövlətin inkişafının yeni mərhələsində daha mürəkkəb sosial-iqtisadi məsələlərin həllinə başlayarkən əvvəlki illər ərzində qazanılmış uğurları "diaqnozlaşdırmaq", ölkəni yeni inkişaf yüksəkliklərinə aparan yolda əsas maneələri müəyyən etmək. Təbii ki, təhlil nəticəsində inkişafa əsas təhdidlər müəyyən olunacaq. Üçüncüsü, ölkə əhalisini yeni, daha mürəkkəb məsələlərin və planların həyata keçirilməsinə, maneələrin aradan qaldırılmasına və mövcud təhdidlərə qarşı mübarizəyə səfərbər etmək. Azərbaycan bütün bu məsələləri yerinə yetirəndən sonra XXI əsrin üçüncü onilliyində güclü və modernləşdirilmiş müstəqil dövlət kimi özünü qoruyub saxlamaq üçün hər cür imkana malik olacaq.

Qeyd etmək lazımdır ki, hər bir ölkədə siyasi liderliyin və hakimiyyət münasibətləri ənənələrinin mahiyyətinin spesifikası, ilk növbədə, dərin məna kəsb edən siyasi mədəniyyətin və siyasi psixologiyanın – dövlətçilik ideologiyasının və əcdadların dəyərlərinin formalaşması ilə müəyyən olunur.

Bütövlükdə siyasi liderlik anlayışı və onun dövlətdə hakimiyyət münasibətləri qurulmasında rolu öz növbəsində siyasi mədəniyyətin xüsusiyyətlərinin konseptual tərtibatında mühüm rol oynayan aşağıdakı tərkib hissələrlə müəyyən olunur:

Xalqın mədəni-tarixi inkişafının xüsusiyyətləri;

Cəmiyyətin siyasi sistemə müvafiq struktur quruluşu;

Hakimiyyətin və siyasi liderliyin qavranılmasında, cəmiyyətin baza dəyərlərinin konstruksiyasında metodoloji ideya rolu oynayan dünyagörüşü. Bu halda xalqın şüurunun etnik xüsusiyyətləri böyük əhəmiyyət kəsb edir.

İlham Əliyev dövlət başçısı kimi öz fəaliyyətində Azərbaycanın Konstitusiyasını rəhbər tutur, o cümlədən hakimiyyətin qanunverici, icra və məhkəmə hakimiyyəti

qollarına bölünməsi prinsipinə əsaslanan Azərbaycan siyasi sisteminin xüsusiyyətlərini əsas götürür.

2018-ci ilin dekabrında Rusiya Prezidenti Vladimir Putin İlham Əliyevə doğum günü münasibətilə ünvanlandığı məktubda yazır: "Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız".[18]

Həqiqətən tarix özü, ölkəmizdə cərəyan edən ictimai-siyasi hadisələr İlham Əliyev kimi dərin zəkalı və istedadlı siyasi xadimin timsalında Azərbaycan xalqına müstəqil inkişaf etmək üçün daha bir şans verib. Xalq inanır ki, o, istənilən sınaqları, onlar nə qədər mürəkkəb olsa belə, uğurla dəf edəcək. Xalq başa düşür ki, qarşıda milli əraziləri erməni işğalçılardan azad etmək, islahatları davam etdirmək və ölkəni modernləşdirmək uğrunda mübarizə dayanır. Yürüdülən siyasət Azərbaycanın düşmənlərdən müdafiəsinin təmin olunmasına yönəlib.

Uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri olan İlham Əliyev zamanla ayaqlaşır, ölkədə inkişaf səviyyəsini qabaqlayan və gələcəyə doğru irəliləmək üçün zəruri baza yaradan addımlar atır.

Məşhur yazıçı Çingiz Aytmatov Azərbaycan Prezidenti İlham Əliyevi qloballaşan dünyanın müasir liderinin etalonu kimi səciyyələndirib. Əlbəttə, İlham Əliyev birdən-birə lider etalonu və sadəcə lider olmayıb. Bundan əvvəl uzun illər boyu həyatın sınaqlarında möhkəmlənib, idarəçilik məharəti cilalanıb. Bütün bu adi həyati və siyasi aspektlər həmişə istedadla, iti zəka və yüksək mədəniyyətlə möhkəmlənib.

İlham Əliyev "Əsrin kontraktı"nın – Xəzərdəki neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin hazırlanmasına və imzalanmasına sanballı töhfə verib. Kontrakt 1994-cü ilin sentyabrında imzalanıb. 23 il keçəndən sonra – 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin davam etdirilməsinə dair "Yeni Əsrin kontraktı" imzalandı. Kontraktın şərtlərinə görə, Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılıb. Neftdən gələn mənfəətdən Azərbaycanın payı 75 faiz olacaq.

Yüksək peşəkarlıq. Diplomatik duyum. Müasir liderin yüksək keyfiyyətləri. Məhz bu cəhətlər İlham Əliyevin siyasi karyerasında fərqləndirici və cəlbedici xüsusiyyətlərdir. O, bütün məsələlərə novator islahatçı kimi yanaşır. Dünyada baş verən proseslərin və dəyişikliklərin məntiqinə əsaslanan İlham Əliyev Azərbaycanın davamlı inkişafını sürətləndirən mühüm addımlar atır.

O, uğurlu və bənzərsiz şəxsiyyətdir. Zəngin insani dəyərləri, kübar davranışını, rasional təfəkkür tərzini, sarsılmaz vətənpərvərliyi, praqmatizmi və milli mentaliteti özündə birləşdirən bu insan Azərbaycanın ictimai və siyasi həyatına yeni nəfəs, müasirlik və intellektuallıq gətirir.

İlham Əliyev Ümummilli Liderin siyasi kursuna sadiqdir. O, Heydər Əliyevdən prinsiplərə sadiqlik, parlaq intellekt, cəmiyyət üçün açıqlıq, tolerantlıq, səmimilik,

humanizm kimi keyfiyyətləri əxz edib. Qətiyyət, əzmkarlıq, zehni potensial və təşəbbüskarlıq ona xas olan cəhətlərdir.

İdarəçilik keyfiyyətləri, bu və ya digər problemin müzakirələrində fəal iştirak, 1950-1970-ci illərin Qərb liderlərinə xas olan imic və ən başlıcası, qüsursuz nüfuz Heydər Əliyev fenomeninin ən əsas amilləri idi. Bu gün eyni keyfiyyətlər Prezident İlham Əliyevi də səciyyələndirir.[19]

Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev yazır: “Çox təcrübəli dövlət xadimi, həssas diplomat və müstəsna istedadlı siyasətçi olan İlham Heydər oğlu Əliyev Azərbaycanı günbəgün inkişaf və firavanlıq yolu ilə irəli aparır. Dünyada çox mürəkkəb siyasi və iqtisadi şəraitə baxmayaraq, Azərbaycan həyatın bütün sahələrində sanballı nailiyyətlər qazanmağa müvəffəq olub, çünki Prezident İlham Əliyev özünün uğurlu daxili və xarici siyasəti ilə milyonlarla azərbaycanlının arzularını reallığa çevirir”.[20]

O, dövlətə rəhbərlik etdiyi illər ərzində özünü siyasi strateq, gərəkli icraçıları öz ətrafında birləşdirməyi, hədəflər müəyyənləşdirməyi, onların qarşısında vəzifələr qoymağı, cəmiyyəti sıx birləşdirən proqram hazırlamağı və onun uğurla həyata keçirilməsini təmin etməyi bacaran böyük təşkilatçı və idarəçi kimi göstərib. O, milli lider kimi hakimiyyətin geniş ictimai bazasının maraqlarını birləşdirməyi bacarır. Bu xüsusiyyətləri qiymətləndirərkən təkcə milli lider kimi onun şəxsi keyfiyyətlərini deyil, həm də həll edilməli ümumi dövləti vəzifələri ifadə etmək qabiliyyətini vurğulamaq lazımdır. Bu halda İlham Əliyevin xüsusi yaradıcı keyfiyyətlərini yadda saxlamaq lazımdır.

Deyilənlərə bunu da əlavə etmək olar ki, Prezident İlham Əliyev siyasi lider olmaqla özünü müstəsna səriştəli dövlət xadimi kimi göstərir, təkcə ölkə əhalisinin mütləq əksəriyyətinin deyil, həm də dünyada 155 dövlətin başçılarının nəzərində şəksiz yüksək nüfuz və dəstək qazanıb. O, ölkə Prezidenti üçün çox zəruri olan, milli dəyərlərə müvafiq yüksək keyfiyyətlərə malikdir.

“Mən İlham Heydər oğlu ilə ilk dəfə görüşmürəm, o, çox genişmiqyaslı dövlət xadimi təsiri bağışlayır, hazırda Avropada belələri azdır. Əslində, ona dəstək reytinqi də buna sübutdur. İlham Əliyev ilə ünsiyyət böyük və dərin təsir bağışlayır. O, müstəqil düşünən, gözəl danışan, yüksək təhsilli, fiziki və mənəvi baxımdan sağlam adamdır. Düşünürəm ki, bu cür Prezidenti olmaqda Azərbaycanın bəxti gətirib”. Prezident İlham Əliyevin şəxsiyyətinə və xüsusi keyfiyyətlərinə bu cür qiymət verən məşhur jurnalist, siyasi televiziya şərhçisi, “Rossiya seqodnya” agentliyinin baş direktoru Dmitri Kiselyovdur.[21]

İlham Əliyevin müasir dövrdə Azərbaycan millətinin həqiqi lideri olmasına təkcə müxtəlif siyasi tədqiqatçıların subyektiv müşahidələri deyil, həm də onun praktiki fəaliyyətinin nəticələri dəlalət edir.

Gələcək nəsillər müasir Azərbaycanın inkişaf tarixini öyrənərkən XXI əsrdə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və inkişafında, milli ideyanın reallaşdırıl-

ması üçün Azərbaycan millətinin sıx birləşməsində mühüm rol oynamış İlham Əliyevin tarixi rolunu qeyd edəcəklər. Prezident İlham Əliyev hakimiyyətdə olduğu illər ərzində Azərbaycan xalqının sevgisini və dərin hörmətini qazanıb. Prezident ilə xalqın bu qarşılıqlı hissləri İlham Əliyevə qüvvət və əminlik verir ki, onun ölkəni apardığı yol, sadəcə yol deyil, doğru yoldur. Məhz bu yol Azərbaycan xalqını daha yaxşı gələcəyə çatdıracaq.

***

Burada şərh edilənlərin hamısı mənim Prezident İlham Əliyevin Administrasiyasının rəhbəri vəzifəsində işlədiyim 16 il ərzində müşahidələrimin nəticəsidir.

**Ədəbiyyat siyahısı:**


[1] (http://files.preslib.az/site/ialiyev/2003.pdf).
[2] “Azərbaycan” qəzeti, 29 iyul 2005-ci il.
[3] “Бакинский рабочий” qəzeti, 19 oktyabr 2019-cu il.
[4] Эйнулла Фатуллаев. Росчерк Алиева между прошлым и будущим. Соц.сеть Haqqın.az, 9 февраля 2018.
[5] Азербайджан вошел в ТОП-20 реформаторских стран в рейтинге Doing Business-2020. – Report.az, 24 октября 2019 г. - https://report.az/ru/biznes/azerbaydzhan-voshel-v-top-20-reformatorskih-stran/
[6] Global Competitiveness Report 2019: How to end a lost decade of productivity growth. World Economic Forum, 2019 - https://www.weforum.org/reports/how-to-end-a-decade-of-lost-productivity-growth .
[7] Bax: “Известия” №179. Тематическое приложение Азербайджан 25.09.2008 года.
[8] Bax: “Бакинский рабочий” qəzeti, 27 aprel 2017-ci il.
[9] Bax: Александр Караваев. Лидер всей властной системы. “Азербайджанские Известия” qəzeti, 17 aprel 2018-ci il.
[10] “Бакинский рабочий” qəzeti, 1 iyun 2010-cu il.
[11] Bax:Гегель. Философия истории СПб., «Наука», 1993 г., стр.82.
[12] Bax: Уоррен Беннис, Роберт Томас. Горнило лидерства. Журнал Harrard Business Review. Лидерство. Сборник. Перевод с английского. М.2018, стр. 139-140.
[13] Родюков А.Ф. К вопросу о роли личности в истории: диалектический и синергетический подходы. Вестник Пермского университета. Философия. Психология. Социология. 2013, выпуск 3, стр.76.
[14] Bax: И.М. Кондаков. Психология. Иллюстрированный словарь. 2-е издание. Санкт-Петербург. 2007, стр.228.
[15] Bax: Роберт Гоффи, Гарет Джонс. Как стать признанным лидером. Статья в журнале Harvard Business Review. За сентябрь 2000 года. Включена в сборник. Лидерство. М. 2018., стр.110-111.
[16] Bax: “Бакинский рабочий” qəzeti, 28 yanvar 2017-ci il.
[17] Bax: Беседа телерадиоведущего ВГТРК Владимира Соловьева с Президентом Азербайджана Ильхамом Алиевым. «Вестник Кавказа» 12 апреля 2017 года.
[18] Bax: “Бакинский рабочий” qəzeti, 25 dekabr 2018-ci il.
[19] Bax: “Бакинский рабочий” qəzetinin 25 dekabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş “Ильхам Алиев – президент всех азербайджанцев” sərlövhəli məqalə.
[20] Bax: “Бакинский рабочий” qəzeti, 25 dekabr 2018-ci il.
[21] Bax: Дмитрий Киселев. Азербайджану повезло с Президентом. “Бакинский рабочий” qəz. 29 oktyabr 2016-cı il.

# XX ƏSRİN FENOMEN ŞƏXSİYYƏTİ

***Hər bir toplumun, millətin və xalqın bir yolgöstərəni, rəhbəri, başçısı, lideri olur. Lakin onların heç də hamısı ümummilli lider səviyyəsinə yüksələ bilmir. Dünyada belələri barmaqla sayılacaq qədər azdır. Bu liderləri fərqləndirən cəhətlər hansılardır? Belə liderlərin siyasi portretlərini incələyərkən, mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən məlum olur ki, burada müdriklik, mübarizlik, mətinlik, uzaqgörənlik, yüksək intellektual səviyyə və ilk növbədə xalqa bağlılıq üstünlük təşkil edir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun tarixində məhz bu nəcib keyfiyyətlərə malik Heydər Əliyev kimi bir siyasi lider, fenomen şəxsiyyət XX əsr tariximizə öz möhürünü vuraraq əbədiyaşarlıq qazanıb.***

Siyasi müdriklik, dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların hər şeydən üstün tutulması, qətiyyətlilik və dəmir iradə ümummilli liderlərin fəaliyyətinin ana xəttini təşkil edir. Azərbaycanın milli dövlətçiliyinin xilaskarı və müstəqilliyinin təminatçısı, bütöv bir xalqı böyük məhrumiyyətlərdən qorumağa və onun ən şərəfli tarixini yaratmağa nail olmuş ümummilli lider Heydər Əliyevin siyasi irsi, ölməz ideyaları, bizim üçün əmanət buraxdığı prinsiplər həmişə aktualdır və canlıdır. Ulu öndərlik missiyasını layiqincə daşıyan Heydər Əliyevin siyasi kursu vəfatından sonra da yaşadı, uğurla davam etdirildi və indi də etdirilir. Bu gün dahi rəhbərin Fəxri xiyabanda ucaldılmış abidəsi millətimizin ziyarət etdiyi əbədi məkanlardan birinə çevrilib.

Heydər Əliyevi digər liderlərdən fərqləndirən cəhət onun doğma xalqının qəlbini fəth etməsidir. Buna görə də o, xalqının, bugünkü və gələcək nəsillərin qəlbində əbədi yaşayır və yaşayacaqdır. Ulu öndərin şəxsiyyəti, irsi tam öyrənilməmiş bir salnamədir. Onu dönə-dönə oxumaq, öyrənmək, təbliğ etmək lazımdır, çünki Heydər Əliyevin ömrü elə yaşadığımız Azərbaycan tarixinin parlaq səhifələridir. Bu tarixin otuz ildən artıq dövrü məhz onunla bağlı olmuşdur. İstər Azərbaycana rəhbərlik etdiyi sovet dönəmində, istər Moskvada SSRİ kimi nəhəng və qüdrətli bir dövlətin ən yuxarı eşelonunda yüksək rəhbər vəzifədə işlədiyi vaxtlarda Heydər Əliyev sadə adamlardan tutmuş, ən böyük siyasi xadimlərin də etiraf etdiyi kimi, aydın zəkası, siyasi təcrübəsi baxımından həmişə seçilmişdir. Şəxsən Heydər Əliyev mənim üçün böyük müəllim və dahi rəhbər olmuşdur.

Yaxşı xatirimdədir ki, Moskvada xüsusi orta milis məktəbində təhsil aldığım illərdə Heydər Əliyevə çox böyük maraq var idi, hər kəs ulu öndərin iti zəkasına,

idarəçilik məharətinə həsəd aparır, onun barəsində çox müsbət fikirlər səsləndirirdi. Bu, dahi şəxsiyyətə olan xüsusi rəğbətimin təzahürü idi ki, ulu öndərin çıxışlarını mütəmadi mütaliə edir, hətta imtahanlar verərkən Heydər Əliyevdən sitatlar gətirməyim müsbət qiymətləndirilirdi. Bu, ondan irəli gəlirdi ki, Heydər Əliyevin qüsursuz, anlaşıqlı, dolğun çıxışları onu ustad bir müəllim kimi xarakterizə edirdi. O zaman Heydər Əliyevin sovet hakimiyyətinin ən yüksək eşelonunda təmsil olunmasını qısqanclıqla qarşılayanlar ona qarşı paxıllıq, riyakarlıq nümayiş etdirərək və çirkin kampaniyalar apararaq, 1987-ci ildə ulu öndərin istefaya göndərilməsinə nail oldular. Buna baxmayaraq, ulu öndəri tanıyanlar, sevənlər bununla heç cür barışmır, əksinə, ona olan məhəbbətini, dəstəyini əsirgəmirdilər.

Hələ 1988-ci ilin ilk mitinqlərindən başlayaraq, Azərbaycan xalqı üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçini görür və onun yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını arzulayırdı. Lakin həmin vaxtlarda görkəmli siyasətçi, dövlət xadimi Heydər Əliyev ciddi təqib olunur, onun və tərəfdarlarının xalqla birləşməsinə hər vəchlə əngəl törədilirdi. Minlərlə adamın mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxması onu yenidən rəhbər görmək arzusunun ümumxalq miqyasında, açıq şəkildə ifadəsi idi. Sabunçu (o vaxtkı Lenin rayonu) Polis İdarəsində cinayət-axtarış bölməsinin rəhbəri olduğum həmin illərdə dahi rəhbərin portretini iş otağında böyük fəxarət hissi ilə saxlayırdıq.

Təsadüfi deyildi ki, xalqın öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxan imperiya Heydər Əliyevin Azərbaycana qayıtmasına hər vəchlə mane olurdu. Sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciə törətdiyi ən ağır vaxtda Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükə altına ataraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş, burada təşkil olunan etiraz mitinqində 20 Yanvar faciəsinə görə mərkəzin və respublika rəhbərliyinin hüquqazidd əməllərini ifşa etmişdir.

Tarixin bu məsuliyyətli və çətin, lakin şərəfli dövründə xalqı ilə bir olmağı, ona kömək etməyi vacib sayan Heydər Əliyev 1990-cı ilin iyulunda Bakıya gəldi və onu qarşılayanlardan biri kimi ulu öndərlə ilk tanışlığımız orada oldu. Həmin vaxt qardaşı Cəlal Əliyevin evində qalan Heydər Əliyevə qarşı təhdidlər səngimir, onu Bakını tərk etmədiyi təqdirdə istənilən hadisənin baş verə biləcəyi ilə hədələyirdilər. Heydər Əliyev Naxçıvana getmək məcburiyyətində qaldı.

Yaxşı xatirimdədir, Cəlal Əliyevlə görüşümüzdən sonra ertəsi günü Vasif Talıbovla (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri) birgə Heydər Əliyevi Naxçıvana yola salmaq üçün aeroporta apardıq və onu təyyarənin salonunadək ötürdük. Sonralar Naxçıvanda ulu öndərlə görüşlərimiz olmuşdur. Yaşının çox və səhhətində müəyyən problemlərin olma-

sına baxmayaraq, hər zaman qamətli duruşu, daxili gücə və özünə inama malik olması, möhkəm iradəlilik və qətiyyətlilik əlamətləri, səsindəki amiranəlik ümummilli lideri ilk görünüşdən məğrur sərkərdəyə bənzədir, onun hələ bundan sonra da xalqına xidmət etmək iqtidarında olduğunu göstərirdi. Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı hər zaman barışmaz idi. O, güclü siyasi fəhmə, taleyüklü məsələləri həll etmək bacarığına, dəmir iradəyə və zəngin idarəçilik təcrübəsinə malik idi. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdu.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız çox çətin sınaqlardan keçmiş, qanı bahasına qazandığı müstəqilliyi yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Həmin dövrdə Azərbaycanda müstəqil dövlətçilik maraqları ilə üst-üstə düşməyən, bir çox hallarda isə onlara zidd olan qeyri-ardıcıl, səriştəsiz siyasətin aparılması, silahlı birləşmələrin özbaşınalığı, xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü bu təhlükəni daha da dərinləşdirirdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, "əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik". Məhz belə bir ağır dövrdə – 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdaraq müstəqilliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı öz üzərinə götürdü. O dövrdə təsəvvür etmək çətin idi ki, çoxsaylı təhdidlərə məruz qalan Heydər Əliyev ömrünün bu çağında hakimiyyətə qayıtsın. Buna rəğmən o güclü şəxsiyyətin heç nədən çəkinmədən, öz həyatını belə təhlükəyə ataraq, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram"– deyib, meydana atılması xalqı və dövləti qarşısında misilsiz fədakarlıq idi.

Məhz ulu öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub saxlanılmış, atəşkəsə nail olunmuş, dövlətlə xalqın birliyi təmin edilmiş, bütün sahələrdə demokratik islahatlara başlanılmış, güclü dövlətin möhkəm təməli qoyulmuşdur. Hamımızın yaxşı xatirindədir ki, müstəqilliyin ilk illərində olan vəziyyət dövlət qurumlarından da yan keçməmiş, respublikanın prokurorluq, ədliyyə, polis, milli təhlükəsizlik, gömrük orqanlarında kadr siyasəti ciddi şəkildə təhrif olunmuş, həmin orqanlar öz üzərlərinə düşən sabitlik və əmin-amanlığın qorunması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi vəzifəsini unudaraq, hərəsi bir siyasi qüvvəyə xidmət edirdi.

Respublikada cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı bilirdi ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, ölkədə demokratik, hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət – dövlətçiliyi qorumalıdır", – fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək, ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkmişdi. Onun ölkədə geniş vüsət almış cinayətkarlığın bütün təzahürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü il avqustun 9-da imzaladığı xüsusi fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratmışdı. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq, bu ümumbəşəri sosial bəla ilə mübarizəyə başlanılmışdı. Heydər Əliyev qətiyyətinin ifadəsi olan bu mühüm tədbirlərin həyata keçirilməsində iştirakımı daim xatırlayır, ulu öndərin fəaliyyətimə verdiyi dəyərdən böyük fəxarət duyuram. Həqiqətən 10 ilə yaxın bir müddətdə bu dahi şəxsiyyətlə birgə çalışmaq, onun rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirak etmək qürurvericidir.

Ümummilli liderin etimadı sayəsində 1993-cü ildən etibarən uzun müddət Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsində işləmişəm. 1993-1998-ci illər Azərbaycanda ən gərgin illər idi. Bu illərdə Bakı şəhəri kimi böyük bir şəhərin təhlükəsizliyi, sözsüz ki, təmin olunmalı idi. Az qala, hər gün mitinqlər keçirilir, təxribat xarakterli müxtəlif addımlar atılırdı. Bütün bunların öhdəsindən gəlmək isə asan iş deyildi.

Dahi rəhbərin qarşımızda qoyduğu tapşırıqları yerinə yetirmək ən ümdə vəzifəmiz idi. 1994-cü ilin oktyabrı və 1995-ci ilin martında baş vermiş dövlət çevrilişinə, ölkə Prezidentinin fiziki məhvinə yönəldilmiş sui-qəsd cəhdləri gördüyümüz kompleks və çevik əməliyyat tədbirləri nəticəsində tamamilə aradan qaldırılmış, onların təşkilatçıları ifşa olunaraq, respublikada siyasi qarşıdurma yaratmaq istəklərinə qətiyyətlə son qoyulmuşdur.

1995-ci ildə Heydər Əliyevə sui-qəsd təşkil etmək istəyən şəxslərin hamısı işlədiyim dövrdə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən aşkarlanaraq yaxalanmışdır. Hətta o zaman Heydər Əliyev bu cinayətin açılmasına görə bizə təşəkkür də etmişdi. "Hər bir insanın taleyi xalqın taleyinə çevrilməlidir", – deyən Heydər Əliyev necə böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü sonrakı dövrdə öz cinayətkar əməllərini dayandıran, qanuna əməl edən qanunsuz silahlı birləşmələri də cinayət məsuliyyətindən azad etməsi ilə təsdiqlədi. Heydər Əliyevin böyüklüyü, dövlətçilik səriştəsi onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və

düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikliklə bacarırdı. Onun hər zaman xalqının yanında olduğuna, Heydər Əliyevi böyük bir izdihamın müşayiət etdiyinə, hər bir vətəndaşa qayğı ilə yanaşdığına şahid olmuşam, bir rəhbər kimi onunla birgə tədbirlərdə iştirak etmişəm.

Azərbaycanlı olması ilə fəxr etməsi, Azərbaycan kəlməsini gözləri yaşara-yaşara söyləməsi ulu öndərin Vətənə olan sevgisinin sübutudur: "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

Xalqın əbədi sevgisini qazanan ulu öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Azərbaycan dağılmaqda olan ölkədən inkişaf, tərəqqi edən dövlətə çevrildi. Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın xilaskarı kimi Azərbaycanın müstəqillik tarixini yazan ümummilli liderimiz Heydər Əliyev qısa zamanda misilsiz xidmətləri ilə, köklü demokratik hüquqi dövlət quruculuğu, mütərəqqi sosial-siyasi, iqtisadi və məhkəmə-hüquq islahatları ilə tariximizin parlaq səhifələrini yazdı.

Azərbaycanın özü qədər əbədi olan dahi öndər Heydər Əliyevin ölkənin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, dövlətimizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində müstəsna xidmətləri xalqımız tərəfindən sonsuz məhəbbət və dərin ehtiram hissi ilə yad edilir, onun əziz xatirəsi daim qəlbimizdə yaşayır.

Bu gün ölkəmizin sürətli və hərtərəfli inkişafı onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlarımız müstəqil dövlətçilik prinsipləri ilə daha da möhkəmlənir. Çünki bu iş, bu siyasi xətt müasir şəraitdə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, ölkəmizin tərəqqisinə və xalqımızın rifahına hesablanmış genişmiqyaslı və ardıcıl islahatlar bu gün öz real bəhrəsini verir. Bizim isə ən böyük vəzifəmiz Heydər Əliyevin ideyalarının inkişafı və Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, ona layiqli yardımçı olmaqdır.

**Məhərrəm ƏLİYEV,**
**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik.**

# *İLHAM ƏLİYEV:* BİZ ELƏ ETMƏLİYİK Kİ, XALQIMIZ DAHA YAXŞI YAŞASIN, HEÇ BİR SOSİAL GƏRGİNLİK OLMASIN

**2001-ci il oktyabrın 2-də Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir:**

**"...Bizim bu on illik tariximiz yazılmalıdır. Bəlkə də bu on ilin gündəliyi yazılmalıdır. Hansı gün nə olub, Azərbaycan hansı gün nə vəziyyətdə olubdur, hansı gün nə fəlakət qarşısında olubdur. Çünki bu dövr, zaman gələcək, Azərbaycan müstəqil bir dövlət kimi daha da möhkəmlənəcək, iqtisadi cəhətdən inkişaf edəcək, Azərbaycan möhkəm və qüdrətli bir dövlət olacaqdır. Ancaq gələcək nəsillər də gərək bunu unutmasınlar. Ona görə də bu on il təhlil edilməlidir...".**

Azərbaycanın iqtisadi inkişaf tarixinin son 25 ilini, sözün əsl mənasında, iqtisadiyyatımızın gücünün, xalqımızın sosial həyatının yaxşılaşması tarixində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması tarixidir.

1993-2003-cü illərdə Ulu öndər Heydər Əliyev gənc müstəqil dövlətin siyasi, iqtisadi əsaslarını möhkəmləndirirdi, Azərbaycanın beynəlxalq aləmdə tanınması, ən aparıcı transmilli şirkətlərin dağılmış vəziyyətdə olan ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkədə sivil bazar münasibətlərinə cavab verən yeni iqtisadi sistemin qurulması üçün titanik fəaliyyət göstərdi. Azərbaycanı xilas etdi, onun müstəqilliyinin əbədi, sarsılmaz olması üçün hər cür çətinliyə, təzyiqlərə məruz qalmadı, arzu etdiyi məqsədə çatdı. Ulu öndərin Azərbaycan xalqı qarşısında unudulmaz və tarixi xidməti ondadır ki, o, ölkəsinin yaxın və uzaq gələcək üçün də dinamik inkişafının möhkəm əsaslarını yaratdı. Azərbaycanın müstəqilliyinin qorunması üçün titanik fəaliyyət göstərdi. Bu gün Azərbaycan beynəlxalq aləmdə dinamik və keyfiyyətli inkişaf edən qitələri birləşdirən, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirak edən ölkə kimi tanınır. Bütün bu uğurların təməlində Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.

2003-ci ildə keçirilən prezident seçkilərində İlham Əliyev seçicilərin həlledici hissəsinin etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

İlham Əliyevin seçkiqabağı və ondan sonrakı dövrdə işgüzar adamlarla görüşləri, həyata keçirdiyi proqramlar birmənalı şəkildə sübut edir ki, Heydər Əliyev siyasətini bundan sonra da davam etdirəcəkdir. Azərbaycanın gələcək inkişafına, milli maraqlara xidmət edən Azərbaycan iqtisadiyyatı, onun inkişaf perspektivləri barədə baxışları elmi dəlillərlə, reallığın obyektiv, sistemli təhlilinə, respublikamızın malik olduğu elmi-texniki, istehsal, əmək potensialının düzgün qiymətləndirilməsinə əsaslanır.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev demişdir:

“Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Azərbaycana hörmət edirlər. Azərbaycanda demokratiya daha da inkişaf edəcəkdir, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm. Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.

Prezident seçkilərinin yekunları, İlham Əliyevin seçicilərin dörddə üç hissəsindən çoxunun səsini qazanması və Azərbaycan Respublikasının Prezidenti seçilməsi yaranmış ab-havanın, ictimai-siyasi həyatın sağlam və sabit olmasından xəbər verir. Azərbaycan xalqı tam əmindir ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş düzgün inkişaf strategiyası respublikamızın uğurlu gələcəyi üçün yeni perspektivlər açır. Cəmiyyətdə taleyüklu problem ətrafında formalaşmış konsensus dinamik inkişafın güclü amilinə çevrilir. İslahatların sosial səmərəsini artırmaq istiqamətində genişmiqyaslı addımlar atılır, yeni iqtisadi sistemin dayaqları möhkəmlənir. Məhsuldar əməyə, yaradıcılığa, vətən torpağının çiçəklənməsi üçün maddi və mənəvi stimulların tətbiqinə diqqət artırılır. Bir sözlə, gələcək inkişafımızın təməli möhkəmlənir. Prezident İlham Əliyev bu amili fundamental əsas kimi qəbul edərək sosial-iqtisadi inkişafla bağlı daha miqyaslı tədbirlərin həyata keçirilməsini dövlət fəaliyyətində ən taleyüklü vəzifə kimi müəyyənləşdirmişdir.

2009-cu ildə Prezident İlham Əliyev ölkə iqtisadiyyatında keçid dövrünün başa çatmasını bəyan etdi. Dövlət başçısının bu bəyanatı Azərbaycan reallığını tam əks etdirirdi. Bunun üçün kifayət qədər əsas yaradılmışdı. Ölkədə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni iqtisadi sistem qurulmuş, sərt inzibati amirlik sisteminə əsaslanan iqtisadi mexanizmlərdən istifadə minimuma endirilmiş, yeni güclü iqtisadi qanunvericilik bazası yaradılmışdır. İldən-ilə miqyası genişlənən irimiqyaslı layihələrin həyata keçirilməsi ölkə iqtisadiyyatının sahə, ərazi quruluşunun şaxələndirilməsi, sahibkarlığın inkişafı istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasını, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirak edən qitələrin birləşdirilməsinə xidmət edən mühüm nəqliyyat dəhlizinə çevrilməsi, dünyanın neft siyasətində fəal oyunçu kimi çıxış etməsini şərtləndirmişdir.

Buna heç şübhə yoxdur ki, hər hansı bir dövlətin müstəqilliyinin təmin edilməsi onun iqtisadi qüdrəti, gücü ilə bağlıdır. Burada ölkənin ərazisinin həcmi, əhalisinin miqdarı təbii ki, vacib rol oynayır. Lakin bunlar həlledici amillər sayıla bilməz. İctimai-siyasi hadisələrin qloballaşdığı bir şəraitdə, hətta ərazisi nəinki o qədər də böyük olmayan dövlətlər öz müstəqilliklərini qo-

ruyur, eyni zamanda, dünya siyasətində fəal iştirak edir, iqtisadiyyatın gücünü möhkəmləndirir, inkişaf səviyyəsini yüksəldir.

Ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən əsas göstəricilərin kompleks təhlili sübut edir ki, respublikanın davamlı inkişafını, əhalinin layiqli həyat səviyyəsini təmin etmək məqsədi daşıyan dövlət siyasəti müvəffəqiyyətlə həyata keçirilir. Son illər Azərbaycan bütövlükdə iqtisadiyyatın inkişaf səviyyəsini səciyyələndirən mühüm göstəricisinin – ÜDM-in artım sürətinə görə lider ölkələr sırasındadır.

Azərbaycanın dövlət başçısı bildirir ki, biz eyni zamanda, bu inkişaf dinamikasını daima diqqət mərkəzində saxlamalıyıq ki, qlobal rəqabət mübarizəsində uduzmayaq, keyfiyyətli inkişafdan geri qalmayaq, real sektorun mütərəqqi istiqamətlər üzrə inkişafının, müasir texnologiyaya əsaslanan məhsul və xidmətlərin istehsalının genişləndirilməsini, insan kapitalından səmərəli istifadə etmək üçün bütün işlərin yüksək sürətlə və keyfiyyətlə görülməsinin təmin edək.

2014-cü il noyabrın 11-də Budapeştdə Prezident İlham Əliyevin də iştirak etdiyi Azərbaycan-Macarıstan Biznes Forumunda Macarıstanın Baş naziri Viktor Orban belə bir fikir işlətdi: "Bəzi ölkələr bu gün çətinliklər yaşayır, öz milli maraqlarını aydın şəkildə vurğulaya, milli təsisatları qura bilmir, bununla da dost və tərəfdaş ölkələrdən məhrum olurlar. Digər ölkələrdən yardım istəyən ölkələr də var. Xanımlar və cənablar, bu ölkələrin gələcəyi yoxdur. Bütün bəşəriyyət bu gün çox çətin və mürəkkəb dövr yaşayır. Münaqişə regionlarına diqqət yetirsəniz, bu gün bunları hesablamaq üçün əlimizdəki barmaqlar çatmaz. Bu gün xəbərlərə baxanda görürük ki, dünyanın müxtəlif yerlərində insanlar əzab-əziyyət, iztirab içindədirlər. Çünki bəzi dövlətlərdə səriştəli rəhbərlik yoxdu".

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, onun İlham Əliyev kimi lideri var. Dünyanın çox minillik tarixi göstərir ki, Lider və dövlət, lider və inkişaf - bunlar bir-birinə sıx vəhdət təşkil edir. Lideri olmayan dövlət heç vaxt tərəqqi edə bilməz. Lideri olmayan dövlət heç vaxt tanına, beynəlxalq aləmdə nüfuz qazana bilməz. Lideri olmayan dövlət üzləşdiyi taleyüklü problemləri həll edə bilməz, dinamik və sabit inkişafdan qalar. Lideri olmayan dövlətin xalqı həmişə narahat yaşayar. Bu gün qloballaşan dünyada ən məşhur siyasətçilər, proqnozlaşdırıcılar şəxsiyyətin təntənəsi amilinin müasir dövrün ən aparıcı inkişaf amillərindən sayırlar.

Bəli, lideri olmayan dövlətin, xalqın taleyi həmişə sual altında olmuş və olacaq. Ətrafımızda baş verənlər bu deyilənləri bir daha təsdiq edir.

Ölkə inkişaf etdikcə, dövlətin, xalqın üzləşdiyi problemlər də öz həllini tapır. "Biz elə etməliyik ki, xalqımız daha yaxşı yaşasın, heç bir sosial gərginlik olmasın. Əminəm ki, növbəti illərdə bu vaxta qədər edə bilmədiyimiz məsələlər də öz həllini tapacaqdır. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm. Əgər onu hiss etməsəydim, tam əminəm ki, görülən işlərin bəlkə heç 10 faizini etmək mümkün olmazdı. Nə ölkə daxilində, nə xarici müstəvidə, nə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsində, nə də ki, Azərbaycan inkişafın təmin edilməsində bu işləri görmək mümkün olmazdı".

İnkişafın Azərbaycan modeli, həm də ona görə uğurlu nəticələr əldə etməyə imkan verir ki, iqtisadi və siyasi islahatlar bir-biri ilə qarşılıqlı əlaqəli şəkildə aparılır. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan dövləti sosialyönümlü bazar iqtisadiyyatının qurulmasında məqsəd və vəzifələri, hədəfləri dəqiq əsaslandırılmış strateji proqramlardan istifadə etməli, sosial tərəqqini, keyfiyyətli inkişafı xarakterizə edən göstəricilərin daim yaxşılaşmasını özünün vacib vəzifələrindən hesab etməlidir.

Əhalinin taleyüklü sosial problemlərin həllini təmin etmək üçün güclü dövlət, güclü iqtisadiyyat, səmərəli dövlət tənzimlənməsi, inkişafın sosialyönümlülüyünün diqqət mərkəzində saxlanılması zəruridir.

Uzağa getməyək. Qlobal maliyyə böhranı, neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycan dövləti strateji proqramların, layihələrin heç birini dayandırmadı. Büdcə-maliyyə resurslarının bölüşdürülməsində müəyyən dəyişikliklər etdi, inflyasiya risklərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər gördü.

Dövlət başçısı İlham Əliyev deyir: “Bu günlərdə dünyada yaşanan maliyyə böhranı da, demək olar ki, bir çox ölkənin iqtisadi potensialına zərbə vurubdur. Amma Azərbaycan özünü tam əmin hesab edir. Biz beynəlxalq xəbərləri izləyərkən görürük ki, dünyada nə qədər böyük narahatlıq var. Bu narahatlığı həm dövlət və hökumət nümayəndələri, həm adi vətəndaşlar ifadə edirlər, həm də vətəndaşların əmanətləri artıq təhlükə altındadır. Bir neçə ən böyük maliyyə qurumları, demək olar ki, iflic vəziyyətinə düşübdür və böyük maliyyə qurumları artıq dövlət nəzarəti altına keçirlər. Yəni bütün bunlar çox narahatedici hadisələrdir. Amma biz düşünülmüş siyasətlə və yaradılan güclü iqtisadiyyatla özümüzü bu böhranlı vəziyyətdən qoruyuruq. Nə Azərbaycan dövləti, nə Azərbaycan iqtisadiyyatı, nə də Azərbaycan vətəndaşı bu böhranı hiss edir. Bu, böyük nailiyyətdir və bir daha onu göstərir ki, bizim düşünülmüş iqtisadi siyasətimiz, risklərə çox ehtiyatlı yanaşmağımız ən düzgün siyasətdir”. Böhran heç kəsi sevindirə bilməz. Amma digər tərəfdən bu böhran bir həqiqət anı idi. Kimin nəyə qadir olduğunu çox qabarıq şəkildə göstərdi. İlk növbədə bu onu göstərdi ki, Azərbaycan dövləti istənilən iqtisadi sınaqlardan şərəflə çıxa bilər, bu sınaqlar əhalinin sosial vəziyyətinə ciddi təsir göstərə bilməz! Hansı vəziyyət olmasından asılı olmayaraq Azərbaycanda sosial və infrastruktur tədbirləri səngimək bilmədən davam etdiriləcəkdir.

Bu prinsipial məsələ barədə dövlət başçısının mövqeyi müstəqil Azərbaycanın inkişafı üçün tarixi əhəmiyyət kəsb edir.

**Neft vasitə deyil – məqsəddir**

Azərbaycan dövlətinin başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyən etdiyi neft strategiyasının həyata keçirilməsi ilə əlaqədar məsələləri daima diqqət mərkəzində saxlayır. O, Azərbaycanın neft strategiyasının reallaşması ilə bağlı dünyanın ən nüfuzlu şirkətləri ilə fəal və işgüzar danışıqlar aparır, meydana çıxan problemlərə yüksək peşəkarlıqla müdaxilə edir və milli mənafeləri gözləməklə onların həllinə nail olur.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev dedi:

"Bu işin ərsəyə gəlməsində beynəlxalq əməkdaşlıq yarandı: üç ölkə – Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, xarici maliyyə qurumları, yerli mütəxəssislər, neftçilər, fəhlələr, hüquqşünaslar. Bu işlərdə əməyi olan bütün insanlara mən Azərbaycan dövləti adından öz dərin minnətdarlığımı bildirirəm".

"Bakı-Tbilisi-Ceyhan" layihəsinin reallaşmasından danışan Prezident İlham Əliyev dedi:

"Diqqəti ona cəlb edirik ki, bölgənin inkişafı bundan sonra tam başqa formalarla zənginləşəcəkdir. Bu gün Azərbaycan, Türkiyə və Gürcüstan regional müstəvidə müttəfiq ölkələrdir. Bizim müttəfiqliyimiz artıq həyatda öz əksini tapıbdır. Bizim müttəfiqliyimiz bölgəyə təhlükəsizlik, sabitlik gətirir. Biz bunu istəyirik, sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik. İstəyirik ki, xalqlarımız rifah içərisində yaşasınlar, problemlər öz həllini tapsın və ölkələrimiz möhkəmlənsin. Hər üç ölkə bu layihənin həyata keçirilməsindən böyük faydalar götürəcəkdir. Bəlkə də, bu gün onların hamısını təsəvvür etmək mümkün deyildir. Amma vaxt keçdikcə, həyat keçdikcə biz bunların bariz nümunələrini açıq görəcəyik. Bakı-Tbilisi-Ceyhan bizim müstəqilliyimizi möhkəmləndirəcək, enerji müstəqilliyimizi təmin edəcəkdir. Belə olan halda, biz müstəqil siyasət apararaq xalqlarımızın rifah halını yaxşılaşdıracağıq, milli maraqlarımızı daha da inamla müdafiə edəcəyik. Bir sözlə, bu, strateji əhəmiyyət daşıyan, ölkələrimizin müqəddəratını təmin edən, xoşbəxt gələcəyini təmin edən layihədir".

2007-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri tam gücü ilə işləməyə başladı. 2007-ci ildə Azərbaycan ilk dəfə qaz ixracatçısı oldu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışından sonra Azərbaycan qazı Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladı və bu, eyni zamanda, "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi" layihəsi üçün bünövrə yaratdı.

2014-cü ildə Səngəçalda Cənub Qaz Dəhlizinin təməli qoyuldu. 2015-ci ildə Azərbaycan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi.

2017-ci ilin sentyabrın 14-də Prezident İlham Əliyevin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş imzalandı. Bununla da "Əsrin müqaviləsi"nin davamına dair yeni müqavilə imzalandı və layihənin müddəti 2050-ci ilədək uzadıldı. Bu hadisə həqiqətən Azərbaycan xalqının tarixi nailiyyətlərindən biri kimi qiymətləndirilir.

Yeni sazişə əsasən, BP layihənin operatoru olaraq qalacaq. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-də iştirak payı 11,65 faizdən 25 faizə qaldırılır, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Beynəlxalq tərəfdaş şirkətlər ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Növbəti 32 il müddətində AÇG-yə 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı var.

Bütün dünyaya bəyan edildi ki, "Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilib...". "İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır...". "Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdə biri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır...".

Azərbaycan dövlətinin düşünülmüş investisiya siyasətindən danışarkən Türkiyənin İzmir şəhərində 19 oktyabr 2018-ci ildə "Star" neft emalı zavodunun açılış mərasimini qeyd etməmək mümkün deyil. Hələ 2011-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təməli atılan "Star" zavodu hər iki ölkənin, bütövlükdə isə bu bölgənin iqtisadi inkişafına və enerji təhlükəsizliyinin təmin olunmasına öz müsbət töhfəsini verəcək tarixi layihədir. Qeyd edək ki, illik istehsal gücü 10 milyon ton olan "Star" neft emalı zavodu ilk beş il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcək.

### Ölkənin davamlı inkişafına, iqtisadi təhlükəsizliyinə xidmət edən investisiya siyasəti

"Əsrin müqaviləsi"nin imzalanması respublika iqtisadiyyatının inkişafına güclü təkan verdi. Bu ilk növbədə ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi hesabına əldə edildi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatına investisiyaların təsiri məsələlərinə toxunaraq deyir:

"Azərbaycanın inkişafının ilk illərində biz əsas diqqəti xarici sərmayələrə yönəltmişdik. Bu da təbii idi. Çünki ölkədə iqtisadi durum çox acınacaqlı idi, demək olar ki, müəssisələrin böyük əksəriyyəti fəaliyyət göstərmirdi, sahibkarlıq sıfır səviyyəsində idi. Olan sahibkarlığa da sahibkarlıq deyə bilməzdik. Çünki o, daha çox kölgə iqtisadiyyatının təzahürü idi. Ona görə 1994-1997-ci illərdə biz daha çox xarici sərmayəyə ümid edirdik. Bu, təbii proses idi.

Xarici sərmayə Azərbaycana imkan verdi ki, neft sektoru inkişaf etsin. Çünki xarici sərmayənin əsas ünvanı neft sektoru idi. Ancaq neft sektoruna qoyulan hər bir dollar qeyri-neft sektoruna da minimum bir dollar gətirir. İndi isə Azərbaycanda formalaşan sahibkarlar ölkə iqtisadiyyatına sərmayə qoyur. Çünki xarici investisiyalar hər bir ölkə üçün çox önəmlidir. Amma bizim daxildə də imkanlarımız var. Ona görə gərək sahibkarlar bu gözəl işgüzar mühitdən səmərəli istifadə etsinlər".

Bir qayda olaraq ölkəyə xarici kapital axını onun inkişaf imkanlarını artırır, yerli istehsalat amillərinin səfərbər edilməsinə və onların daha səmərəli istifadəsinə, qiy-

mətlərin aşağı düşməsinə və idxalı əvəzləyən məhsulun və milli iqtisadiyyatın keyfiyyət göstəricilərinin yaxşılaşmasına kömək edir.

Son 16 ildə Azərbaycan iqtisadiyyatına investisiya qoyan ölkələrin coğrafiyası xeyli genişlənmişdir. Heç şübhəsiz ki, hər iki tərəfin maraqlarına cavab verən bu kimi əlaqələrin inkişafı, xarici investisiyaların gələcəkdə digər sahələrə, xüsusilə də qeyri-neft sektoruna yönəldilməsi sürətləndirəcəkdir. Çünki ölkədə investisiya, biznes mühiti ildən-ilə yaxşılaşır.

Eyni zamanda, onu da məmnunluqla qeyd etmək lazımdır ki, investisiyaların strukturunda daxili investisiyaların xüsusi çəkisi xeyli yüksəlmişdir ki, bu da heç şübhəsiz ki, Azərbaycan dövlətinin mühüm uğurlarından biri kimi qiymətləndirilməlidir.

Xaricin işgüzar adamlarının iştirakı ilə keçirilən forumda Prezident İlham Əliyev deyir:

"Bu gün bizim qonaqlarımız öz çıxışlarında Azərbaycana yeni sərmayələr, kreditlər verilməsini və gəlib burada iş görmələrini arzu edirlər. Bu çox sevindirici haldır. Onlar da öz çıxışlarında qeyd etdilər və bu da həqiqətdir ki, müstəqil Azərbaycanda bizim yaratdığımız ictimai-siyasi sabitlik olmasaydı, əgər müstəqil dövlət kimi Azərbaycan Dünya Birliyində etibar qazanmasaydı, əgər xarici banklar, Avropanın çox böyük, nəhəng şirkətləri Azərbaycan hökumətinə, dövlətinə inanmasaydılar, onları, necə deyərlər, zəncirlə də dartıb buraya gətirmək mümkün deyildi. Amma indi özləri gəlirlər, xahiş edirlər, özləri müraciət edirlər. Çünki xarici şirkətlərin Azərbaycanda səmərəli işləməsi üçün, təbiidir ki, özlərinin fayda götürməsi üçün və ölkəmizə vəsait qoyması üçün çox gözəl, münbit şərait yaranıbdır. Bu şəraiti biz yaratmışıq. Bu da Azərbaycanın müstəqilliyinin yeni böyük nailiyyətidir".

Qeyri-neft sektorunun inkişafına yönəldilmiş vəsaitin ümumi həcmi 2003-cü illə müqayisədə 6,1 dəfə artaraq 2017-ci ildə 8,3 milyard manat olmuşdur, onun xüsusi çəkisi cəmi vəsaitlərin 49,6 %-ni təşkil etmişdir. 2004-2018-ci illərdə ölkədə 8119 çarpayılıq 106 xəstəxana, bir növbədə gəlişlərin sayı 8912 olan 156 ambulatoriya-poliklinika müəssisəsi, 514,8 min şagird yerlik 1457 ümumtəhsil məktəb binası, 21039 yerlik 204 məktəbəqədər təhsil müəssisəsi, 6880 yerlik 41 klub və digər sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdir. Bütün bunlar ölkədə investisiya proseslərinin canlanmasını xarakterizə edir.

Prezident İlham Əliyev dövlətin investisiya siyasətinin uğurlarından danışarkən daha maraqlı məsələyə diqqəti çəkir:

"Azərbaycanın qeyri-neft sektoruna böyük həcmdə investisiyalar qoyulur və biz bunu hər gün görə bilərik. Bakının müasirləşən, gözəlləşən siması bunu göstərir. Özəl şirkətlər tərəfindən həm infrastruktur, həm xidmət sektoruna çox böyük investisiyalar qoyulur. Əgər infrastruktur layihələri dövlət tərəfindən icra olunmasaydı, əlbəttə ki, nə paytaxtda, nə də bölgələrdə xidmət sektoruna heç kim investisiyalar qoymazdı. Bu gün bizim bölgələrdə beşulduzlu hotellər, gözəl istirahət mərkəzləri tikilir. Bölgələrimizdə turizm imkanları çox genişdir. Bu gün artıq gözəl təbii şəraitimiz, təbiətimiz səviyyəsində müasir istirahət və mehmanxana kompleksləri tikilir ki, bu, Azərbaycanın turizm imkanlarını böyük dərəcədə artıracaqdır.

Beləliklə, dövlət tərəfindən özəl sektora

verilən həm siyasi, həm maddi dəstək, həm də güzəştli şərtlərlə ayrılan kreditlər - bütün bunlar iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyini artırır və şaxələndirilməsi üçün çox möhkəm əsas yaradır".

Əgər 2000-2004-cü illərdə özəl sektorun payı əsaslı vəsait qoyuluşunun 3,1 milyard manatını təşkil edirdisə, 2015-2018-ci illərdə bu rəqəm 15,7 milyard manat olmuş, yəni 5 dəfə artmışdır. Görülən tədbirlər sayəsində əsaslı tikintidə xeyli mütərəqqi dəyişikliklər baş vermiş, onun texniki-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. 2005-2018-ci illərdə tikinti işlərinin həcmi 5,5 dəfə artmış, 80 milyard manatlıq əsas fondlar istifadəyə verilmişdir.

Son 16 ildə tikintinin inkişaf sürəti ÜDM-in artım sürətini üstələyir. Bu meylin güclənməsi müəssisələrin modernləşdirilməsi, şəhər və rayonların kompleks inkişafı, resurslardan irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Azərbaycanda iqtisadiyyata yönəldilmiş investisiyaların adambaşına düşən miqdarı və artım sürətinə görə Azərbaycan MDB məkanında ən yüksək yerə qalxmışdır. Son 16 ildə Azərbaycan iqtisadiyyatına 260 milyard dollar vəsait qoyulmuşdur.

Dövlət başçısı deyir:

"Biz resursları maliyyə resursları, kreditlər, investisiyalar şəklində ölkə iqtisadiyyatına qoymalıyıq ki, həmin layihələr də öz növbəsində milli gəlir gətirsin və bunun hesabına Azərbaycanın büdcəsi dolsun. Bu istiqamətdə görülmüş işlər təqdirəlayiqdir. Əgər biz çox böyük investisiyaları qoymasaydıq, əgər biz bəzi beynəlxalq məsləhətçilərə qulaq assaydıq və ehtiyatları sadəcə olaraq yığsaydıq, bu gün Azərbaycan iqtisadiyyatı çox ağır vəziyyətə düşə bilərdi. Biz bu böhrandan məhz ona görə uğurla çıxdıq ki, qeyri-neft sektoru hesabına iş yerləri açıldı, yerli istehsal işə başladı, idxaldan asılılıq azaldı. Biz demək olar ki, ərzaq məhsulları ilə özümüzü maksimum dərəcədə təmin edirdik. Əgər kreditləri verməsəydik, infrastruktur layihələrini həyata keçirməsəydik, yolları çəkməsəydik, elektrik stansiyaları tikməsəydik, qazlaşdırma aparılmasaydı, onda bunların heç biri də olmazdı... Məhz o vaxt biz bax bu "Holland xəstəliyi" ilə üzləşə bilərdik. Amma biz öz yolumuzu seçdik. Biz ehtiyatları da yığdıq – bax, bu il artan valyuta ehtiyatlarımız onu göstərir ki, bu artım gedir – eyni zamanda, lazım olan sahələrə investisiyaları böyük həcmdə yönəldə bildik. Bu gün Azərbaycan hərtərəfli inkişaf edən ölkədir. Bizim şəhərlərimiz abad, gözəl şəhərlərdir. Hər bir sahədə işlər gedir, sosial məsələlər həllini tapır. Abadlıq, quruculuq işləri aparılır. Deyə bilərəm ki, bu investisiyaları ölkəyə lazım olan sahələrə tətbiq etməklə böyük uğurlara nail ola bilmişik...".

Müstəqilliyin ilk illərində investisiyalara ciddi ehtiyac hiss edən ölkə indi dünyanın bir sıra ölkələrinə kapital yönəldir. Bu prosesin qarşıdakı illərdə də davam etməsi ölkəmizin siyasi, iqtisadi gücünün artmasına öz müsbət təsirini göstərəcəkdir.

Azərbaycan hökuməti belə hesab edir ki, dövlət investisiya siyasətində qarşıdakı dövrdə aşağıdakı əsas istiqamətlərin diqqət mərkəzində saxlanılması, investisiyaların qeyri-neft sektorunun və regionların sürətli və tarazlı inkişafına yönəldilməsi; ölkənin investisiya siyasətinin müasir inkişaf meyillərinə, davamlı və keyfiyyətli inkişaf strategiyasına uyğun olaraq müəyyənləş-

dirilməsi; ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin daha da gücləndirilməsi, insan kapitalına qoyulan investisiyaların prioritetliyinin təmin edilməsi; nanotexnologiyalar və azkarbonlu istehsal sahəsinə dövlət investisiyalarının qoyuluşunun ön plana çəkilməsi; iqtisadiyyatın aparıcı sahələrinə, o cümlədən ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrdə yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi qarşıdakı dövrün prioritet vəzifələrindən hesab edilməlidir.

**Regionların tarazlı inkişafı iqtisadi və sosial tərəqqinin vacib amilidir**

Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının mühüm istiqamətlərindən biri regionların inkişafında mövcud uyğunsuzluqların əhəmiyyətli dərəcədə yumşaldılması, mövcud maddi əmək resurslarından səmərəli istifadə edilməsidir.

11 fevral 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında sərəncam imzaladı.

"Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı"nda müxtəlif məqsədləri əhatə edən 714 tədbir nəzərdə tutulmuşdu ki, bunun da 46-sı makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi, 668-i 9 iqtisadi rayonu, eləcə də hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilmiş tədbirlərdir.

Bu barədə dövlət başçısı demişdi:

"Bu, demək olar ki, ümumiyyətlə, bizim iqtisadi baxımdan görülən işlərin yeni bir istiqamətidir. Düzdür, həmişə bu sahəyə diqqət göstərilirdi, amma belə kompleks, sistem şəklində, düşünülmüş bir proqram çərçivəsində, demək olar, bu istiqamətin əsas parametrləri bu il müəyyən olunubdur. Deyə bilərəm ki, bizim bu sahədə gördüyümüz işlər də təqdirəlayiqdir. İndi regionlarda böyük canlanma var, böyük işlər – abadlıq, quruculuq işləri görülür.

Azərbaycanı inkişaf etdirmək üçün kifayət qədər imkanlar var ki, onların da reallaşması işsizlik, yoxsulluq problemlərinin həlli ilə müşayiət olacaq. Əlbəttə, problemlər də mövcuddur. Biz bu problemləri bilirik. İşsizlik, yoxsulluq, digər problemlər var, amma biz onları həll edirik. İstərdik ki, daha da sürətlə həll edək. İstərdik ki, yeniləşmə, müasirləşmə, yaxşılığa doğru meyillər daha da sürətlə getsin".

Dövlət başçısının rayonlara və şəhərlərə müntəzəm səfərləri, yerlərdə sosial-iqtisadi vəziyyətlə tanış olması, əhali ilə görüşləri, regionların inkişafı, yoxsulluğun azaldılması ilə bağlı müəyyən edilmiş strateji proqramlar üzrə tapşırıqların yerinə yetirilməsi barədə məlumatları dinləməsi və dərhal sonra konkret qərarlar verməsi artıq ənənəyə çevrilmişdir.

Birinci Dövlət Proqramının icrası nəticəsində (2004-2008-ci illər) Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artması, 766 min yeni iş yeri açıldı, sənaye istehsalının 2,5 dəfə artması təmin edildi. Yoxsulluq səviyyəsi kəskin azalaraq 49 faizdən 13,2 faizə düşdü.

Regionların inkişaf proqramlarında aqrar sektorun inkişafı, ona dövlət dəstəyinin göstərilməsi istiqamətində iri miqyaslı işlər görüldü ki, bütün bunlar da öz müsbət nəticəsini verdi.

Bakı ilə yanaşı Naxçıvan, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba, Xaçmaz, Abşeron, Dağlıq Şirvan, Aran iqtisadi rayonlarında dünya standartlarına cavab verən ofislər, binalar, istehsal sahələri, nəqliyyat, energetika, qaz təchizatı sistemində müsbət dəyişikliklər edilmiş, beynəlxalq tələblərə cavab verən rabitə stansiyaları, qovşaqları açılır, o cümlədən ucqar kəndlərdə əhaliyə xidmətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir. Respublikamızın bölgələrində beynəlxalq standartlara cavab verən yollar salınır, körpülər, aeroportlar tikilir, müasir diaqnostika mərkəzləri, istirahət ocaqları istifadəyə verilirdi.

Müstəqillik illərində, xüsusilə də son 16 ildə Naxçıvan MR-də, Gəncə, Mingəçevir, Şirvan, Neftçala, Qəbələ və digər şəhər və rayonlarda bir sıra maşınqayırma, yüngül, yeyinti sənaye müəssisələri istifadəyə verilmişdir ki, bunlar da rayonların inkişaf səviyyəsini yüksəltməyə, yeni iş yerlərinin yaradılmasına öz müsbət təsirini göstərmişdir. Bəzi faktları qeyd edək.

Müqayisə olunan dövrdə əksər məhsulların istehsalının artırılmasında müsbət meyillər güclənmiş, taxıl (42,3 faiz), şəkər çuğunduru (3,2 dəfə), pambıq (2,1 dəfə), dən üçün günəbaxan (62,6 faiz), tütün (13,5 faiz), tərəvəz (34,3 faiz), bostan məhsulları (22,8 faiz), kartof (18,8 faiz), üzüm (2,4 dəfə), meyvə və giləmeyvə (66,9 faiz) istehsalı sahəsində yüksək göstəricilər əldə edilmişdir. 2018-ci ildə 2003-cü ilə nisbətən ət istehsalı 70,7 faiz, süd istehsalı 73,3 faiz, yumurta istehsalı 2,5 dəfə və yun istehsalı 32,7 faiz artmışdır.

2018-ci ildə əsas ərzaq məhsulları, o cümlədən ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 82,7 faiz, yumurta üzrə 101,5 faiz, süd və süd məhsulları üzrə 86,7 faiz, balıq və balıq məhsulları üzrə 87,8 faiz, kartof üzrə 92,5 faiz, tərəvəz üzrə 113,8 faiz, bostan məhsulları üzrə 99,7 faiz, meyvə və giləmeyvə üzrə 123,1 faiz, şəkər üzrə 81,2 faiz, un üzrə 95,9 faiz, meyvə və tərəvəz konservləri üzrə 91,7 faiz, kərə yağı üzrə 71,1 faiz, marqarin üzrə 98,8 faiz, duz üzrə 103,1 faiz təşkil etmişdir.

Dövlət başçısının prinsipial mövqeyi ondan ibarətdir ki, "real sektorun inkişafında özünü göstərən meyillər daha da güclənsin, daxili bazar qorunsun, yerli istehsalçılara daha da əlverişli şərait yaradılsın, aqrar sektorun rəqabətə davamlılığı artsın, kənd təsərrüfatı istehsalının ixtisaslaşması istiqamətində əməli tədbirlər görülsün".

Naxçıvan Muxtar Respublikasında quruculuq və abadlıq işləri geniş vüsət alıb. Yeni parklar salınır, məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Burada qazlaşdırma 100 faiz təmin edilib. Həmçinin, elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır, içməli suya olan tələbatın ödənilməsi ilə bağlı layihələr uğurla icra edilir.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti.**

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ MİLLİ MARAQLARIMIZA UYĞUN OLARAQ UĞURLA HƏYATA KEÇİRİLİR

***Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov 2019-cu ilin yekunları ilə əlaqədar kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb.***

**– 2019-cu ili Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar baxımından necə qiymətləndirirsiniz? Tərəflər arasında hansı konkret məsələlər müzakirə olunub? Bu il ərzində tərəflər münaqişənin həlli çərçivəsində humanitar tədbirlərin həyata keçirilməsi təşəbbüsləri ilə çıxış etdilər, bu xüsusda KİV nümayəndələrinin qarşılıqlı səfərləri baş tutdu. Bu təşəbbüslərin faydalı olduğunu düşünürsünüzmü və gələcəkdə bu kimi səfərlərin davamı gözlənilirmi?**

– Bu il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş naziri arasında 29 mart tarixində Vyanada bir görüş, Xarici İşlər nazirləri səviyyəsində isə 16 yanvar Paris, 15 aprel Moskva, 20 iyun Vaşinqton, 23 sentyabr Nyu-York və 4 dekabr tarixində Bratislavada olmaqla 5 görüş keçirilmişdir. Görüşlərin keçirilmə intensivliyindən çıxış edərək hər iki tərəfin danışıqlar prosesinin irəli aparılmasında maraqlı olduğu qənaətinə gəlmək olar. Lakin, Ermənistan tərəfinin il ərzində səsləndirdiyi tamamilə əsassız və ziddiyyətli bəyanatları, eləcə də keçirilən görüşlərdə hər hansı konkret nəticənin əldə olunmadığını nəzərə alsaq, təəssüflə qeyd etməliyik ki, 2019-cu il münaqişənin həlli üzrə "itirilmiş imkanlar ili” kimi dəyərləndirilə bilər.

Bir tərəfdən münaqişənin sülh yolu ilə həllində maraqlı olduğunu bəyan edən Ermənistan rəhbərliyi, digər tərəfdən qondarma "müstəqillik” və "miatsum” kimi ziddiyyətli fikirləri ilə danışıqlar prosesinə və ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin səylərinə zərbə vurmuş oldu. Doğrudur, keçirilmiş görüşlər nəticəsində humanitar müstəvidə tədbirlərin həyata keçirilməsi və iki ölkə əhalisinin sülhə hazırlanması təşəbbüsləri irəli sürüldü, hətta bu xüsusda ilk addım olaraq Azərbaycan və Ermənistan mətbuat nümayəndələrinin qarşılıqlı səfərləri reallaşdırıldı. Ancaq bu təşəbbüsün sonradan Ermənistan tərəfindən siyasiləşdirilməsi və təbliğat vasitəsi kimi istifadəsi cəhdləri bu ölkənin əhalisini sülhə hazırlamağa nə dərəcədə hazır olduğu sualını ortaya qoydu. Əslində

təşəbbüsə cəlb olunmuş jurnalistlər, xüsusilə də onları bu prosesdə dəstəkləyən tərəf məsuliyyəti hiss etməli və prosesə xələl gətirməməlidir. Əks təqdirdə bu kimi təşəbbüslərin və iki xalq arasında körpülərin qurulması cəhdlərinin heç bir mənası olmaz. Beləliklə də gələcəkdə bu təşəbbüslərin davam etdirilməsinə məhz bu prizmadan yanaşmaq və növbəti addımlar haqqında danışmaq olar.

Hər zaman qeyd etdiyim fikri yenidən xatırlamaq istərdim, biz iki qonşu ölkəyik və tez ya da gec, münaqişənin həllindən sonra iki icmanın nümayəndələri yenidən ölkəmizin Dağlıq Qarabağ bölgəsində birgə yaşamalı olacaqlar. Bu baxımdan həyata keçirilən etimad təbirləri, humanitar təşəbbüslər məhz münaqişənin həllini irəli aparmaq, Azərbaycan ərazilərinin işğalı amilini aradan qaldırmaq və məcburi köçkünlərin öz evlərinə, mülklərinə geri dönməsini təmin etməyə xidmət etməlidir.

**– Münaqişənin həlli üzrə aparılan danışıqlarda yeni təkliflərin irəli sürülmədiyini nəzərə alaraq, qeyd etmək olarmı ki, danışıqlar dalana dirənib? Bu illər ərzində danışıqların aparılması bizə nə verib, danışıqların səmərəsi nədən ibarətdir? Ermənistanla Azərbaycan arasında vasitəçilər olmadan danışıqlar aparıla bilərmi və Dağlıq Qarabağın Azərbaycanlı icması bu danışıqlara necə cəlb oluna bilər?**

– Doğrudur, münaqişənin həlli üzrə danışıqlar prosesində bu il ərzində konkret irəliləyiş olmayıb, lakin bunu "danışıqlar dalana dirənib” kimi dəyərləndirmək düzgün olmazdı. İl ərzində irəli sürülən çoxsaylı görüşlər və konkret təşəbbüslər danışıqlar prosesinin davam etdirilməsinə müəyyən ehtiyac olduğunu göstərir. Biz hər zaman bəyan etmişik ki, nə qədər ki, münaqişənin danışıqlar, sülh yolu ilə həlli imkanı var, biz bu imkandan istifadə edəcəyik. Əlbəttə, məqsəd mahiyyət üzrə, substantiv danışıqlar aparıb prosesi irəli aparmaqdır.

Bunun üçün bütün prinsiplər, elementlər, mərhələlər işlənib hazırlanıb, müzakirə edilib və yenidən nəzərdən keçirilib. Bu günədək hazırlanmış bütün sənədlərdə münaqişənin mərhələli həlli, işğal olunmuş ərazilərimizin azad olunması, məcburi köçkünlərin geri qayıtması, növbəti mərhələdə status məsələsinin həlli məsələlərinə aydınlıq gətirilir. Bu elementlərlə tanış olmaq üçün ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bu ilin 9 mart tarixli bəyanatı ilə tanış olmanız kifayətdir. Ermənistan tərəfindən davamlı şəkildə qaldırılan təhlükəsizlik və status məsələsinə gəldikdə, bir daha vurğulamaq istərdim ki, hər iki məsələ həll prosesi çərçivəsində, ATƏT-in müvafiq qərarlarına, habelə bildiyiniz kimi tətbiqi üçün zaman məhdudiyyəti olmayan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq tənzimlənməlidir. Qarabağın Azərbaycanlı əhalisi geri qayıtmadan, hansı statusdan danışa bilərik? Eləcə də təhlükəsizlik məsələsi bölgənin erməni icması ilə yanaşı, azərbaycanlı icması üçün də kifayət qədər önəmlidir və burada beynəlxalq sülhü qoruma mexanizmlərindən istifadə olunmasına ehtiyac duyulduğu hamıya bəllidir.

Soruşursunuz ki, danışıqların aparılması bizə nə verib. Münaqişəni həll etmək danışıqlar aparmaq deyil, bəs nədir? Münaqişə yenidən alovlanarsa belə, yenidən danışıqlar başlayacaq, çünki nə əbədi davam edən müharibə, nə də danışıqlar mövcud deyil. Danışıqları ona görə aparırıq ki, pozulmuş beynəlxalq hüquq normalarını bərpa edək, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyini bərpa edək, Azərbaycanın sözündə və əməlində bir olduğunu və sülh yolu ilə həlli potensialı bitməyənədək danışıqlara sadiq qaldığını nümayiş etdirək. Danışıqları aparırıq ki, Azərbaycan ərazilərini işğaldan azad edək!

Bu gün Ermənistanın işğalçılıq siyasəti səbəbindən Azərbaycanla Ermənistan arasında diplomatik münasibətlər mövcud deyil və tərəflər arasında danışıqlar, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas beynəlxalq qurum – BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, dünyanın üç aparıcı ölkəsinin vasitəçilik səyləri ilə aparılır.

**– Ermənistan əsir və girovların dəyişdirilməsinə dair "hamının hamıya" prinsipinə razılıq vermir, bu ölkə qanunsuz şəkildə saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevi azad etmək istəmir. Qarşılıqlı etimada zidd olan bu addım münaqişənin nizamlanması prosesinə necə təsir edir?**

– Doğrudur, Azərbaycan beynəlxalq humanitar hüququn normalarını rəhbər tutaraq əsir və girov götürülmüş mülki şəxslərin "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi təklifi ilə çıxış edib. Ermənistan tərəfi isə mülki şəxslərin girov götürülməsini qadağan edən və hərbi münaqişələr zamanı mülki şəxslərə münasibətdə humanist davranış tələb edən 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarının müddəalarına zidd olaraq, beynəlxalq səviyyədə götürdüyü bu öhdəliklərini kobud şəkildə pozmaqda davam edir. Artıq 5 ildir ki, soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev Ermənistan tərəfindən girovluqda saxlanılır, həm də işğal olunmuş ərazilərimizdəki qanunsuz rejimin qurama "məhkəmə qərarı" ilə. Ermənistan tərəfinin "cinayətkar" kimi qələmə verdiyi bu şəxslər, Azərbaycanın hazırda hərbi işğal altında olan Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət etmək üçün öz torpaqlarına gediblər; əgər öz doğma evlərinə getmək cinayətdirsə, o zaman bu insanları yaşadıqları torpaqlardan qovub onları fundamental hüquqlarından məhrum etmək nədir?!

Bilirsiniz, Ermənistan tərəfi artıq anlamalıdır ki, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının fundamental hüquqları bərpa olunmadan və bu insanlar öz evlərinə geri qayıtmadan münaqişənin həlli istiqamətində irəliləyiş mümkün deyil. Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Ermənistanın işğalçı tərəf kimi məsuliyyətini müəyyən etməklə bərabər, azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və ya daimi yaşayış yerlərinə qayıtmaq hüququnu bir daha təsdiq edib. Qeyd etmək istərdim ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəkilləri Avropa İnsan Hüquqları

Məhkəməsinə şikayətlə müraciət ediblər və Azərbaycan Hökuməti də bu işdə iştirak edir. Ümid edirik ki, Məhkəmə tezliklə bu işlə bağlı öz mövqeyini açıqlayacaq.

– **Azərbaycanın cari il ərzində xarici siyasət sahəsində fəaliyyətini, 2019-cu ilin yekunlarını necə qiymətləndirirsiniz?**

– Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici siyasət kursu uğurla davam etdirilmişdir. Ölkəmizin həm ikitərəfli, həm də çoxtərəfli platformalarda fəal şəkildə iştirakı, xarici ölkə və təşkilatlarla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi, Azərbaycan haqqında, xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi edilməsi, eləcə də mühüm beynəlxalq təşəbbüslərdə iştirakımız və töhfəmiz davam etdirilmişdir.

Təqdirəlayiq haldır ki, bu il ölkəmiz iki beynəlxalq təşkilatın zirvə görüşünə ev sahibliyi etmişdir. Qoşulmama Hərəkatı və Türk Şurasına sədrlik qarşıdan gələn il ərzində ölkəmiz tərəfindən həyata keçiriləcəkdir. Ölkəmiz, həmçinin növbəti il digər iki regional təşkilata GUAM və TRACECA-ya sədrliyi həyata keçirəcəkdir. Bu əlbəttə ki, bu təşkilatların çoxsaylı üzv ölkələri tərəfindən Azərbaycana göstərilən etimadın bariz nümunəsidir. Bu il Azərbaycan beynəlxalq və regional təşkilatlarda təmsilçiliyinin coğrafiyasını daha da genişləndirərək dünyanın 135 dövlətini öz sıralarında birləşdirən Qrup 77-yə üzv olmuş, eləcə də Sakit okean Alyansı təşkilatında müşahidəçi statusu almışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi iştirak etdiyimiz bütün beynəlxalq platformalarda gündəlikdə saxlanılaraq, münaqişənin həlli ilə bağlı hüquqi bazanın daha da möhkəmləndirilməsinə xidmət edən bəyanat, tövsiyə qətnamə və sənədlər qəbul olunmuşdur.

Cari il ərzində Tanzaniya Birləşmiş Respublikası, Barbados və Namibiya Respublikası ilə diplomatik münasibətlərin qurulmasına dair birgə kommünikelər imzalanmış və beləliklə də Azərbaycan Respublikasının diplomatik münasibətlər qurduğu ölkələrin sayı 185-yə yüksəlmişdir. Cari il ərzində ölkəmizdə Monteneqronun və Slovakiya Respublikasının səfirlikləri fəaliyyətə başlamışdır.

İlin yekunlarına dair yerli jurnalistlərə verdiyi müsahibəsində Prezident İlham Əliyev tərəfindən qeyd olunduğu kimi, il ərzində həm ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün, həm də ikitərəfli formatda 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər edib. Həmçinin eyni çərçivədə 61 ölkənin Xarici İşlər naziri ölkəmizə səfər etmiş, eləcə də Azərbaycan Xarici İşlər naziri olaraq mənim 27 ölkəyə rəsmi və işgüzar səfərlərim baş tutub. Həyata keçirilən hər bir səfərin ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərimizin inkişafına verilən töhfə olduğunu diqqətə alsaq, o zaman 2019-cu ilin ölkəmizin əməkdaşlıq çərçivəsini ge-

nişləndirməsi baxımından nə dərəcədə mühüm bir il olduğu nəticəsinə gəlmək olar.

– **Azərbaycanla Avropa İttifaqı bu il ərzində ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edəcək, strateji tərəfdaşlıq haqqında Sazişi imzalaya bilmədilər. Danışıqlardakı vəziyyəti necə qiymətləndirmək olar? Avropa Komissiyasının tərkibinin yeniləndiyini nəzərə alaraq, bu faktın danışıqların uzadılmasına təsir edəcəyini söyləmək olarmı?**

– Azərbaycanla Avropa İttifaqı (Aİ) bərabərhüquqlu, qarşılıqlı hörmət və etimada əsaslanan tərəfdaşlıq münasibətlərini bölüşürlər. Aİ rəsmilərinin çoxsaylı bəyanatlarında, eləcə də Avropa Parlamentinin qəbul etdiyi qətnamələrdə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstək ifadə olunur və Azərbaycan İttifaqın etibarlı və mühüm tərəfdaşı kimi qiymətləndirilir.

Məlum olduğu kimi, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında Saziş 1999-cu ildə qüvvəyə minmiş və son 20 il ərzində Azərbaycanda bir çox dəyişikliklər baş vermiş, Azərbaycan regionda və dünyada vacib geosiyasi oyunçulardan birinə çevrilmiş; ölkəmiz bir sıra dünya və regional səviyyəli əhəmiyyətli nəqliyyat, enerji, mədəni və siyasi layihələrin təşəbbüskarı və icraçısı olmuşdur. Vətəndaşların sosial rifahının yüksəldilməsi, ədliyyə, sosial və dövlət idarəçiliyi sahəsində uğurlu islahatlar aparılır. Azərbaycan hazırda bölgədə iqtisadi layihələrin həyata keçirilməsi üçün ən iri investorlardan birinə çevrilmiş və Şərq Tərəfdaşlığı ölkələri arasında Aİ-yə ən çox sərmayə qoymuş ölkəyə çevrilmişdir. Ölkəmiz Avropanın iqtisadi böhran içində boğulduğu zaman "Cənubi Qaz Dəhlizi" layihəsi vasitəsilə yalnız Yunanıstanda beş min yeni iş yerinin yaranmasına dəstək vermiş, 15 milyard avro miqdarında Avropaya sərmayə qoymuşdur. 2020-ci ilin ilk yarısında Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan "TAP" layihəsi vasitəsilə Avropaya ilk Azərbaycan qazının nəql edilməsi nəzərdə tutulmuşdur. Ölkəmiz 1990-cı illərdə Aİ-nin yatırımına ehtiyac olan diyardan hazırda Avropanın inkişafına real dəstək verən dövlətə cevrilmişdir. Bir sözlə, Azərbaycan Aİ ilə münasibətlərdə keyfiyyətcə yeni vəziyyət yaranmışdır.

Məhz bu səbəblərə görə Azərbaycan Aİ ilə münasibətlərin inkişaf etdirilməsi və genişləndirilməsi üçün xüsusi, bərabərlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan yol seçmiş, "Strateji tərəfdaşlıq Saziş" layihəsi üzrə danışıqların aparılmasını təklif etmiş və Brüssel bu təklifi qəbul etdi. Beləliklə, siyasi və iqtisadi münasibətlərin Tərəflər arasında əməkdaşlıq çərçivəsinin genişlənməsi, enerji sahəsində strateji səviyyədə tərəfdaşlığın həyata keçirilməsi, həmçinin artıq 9 Aİ üzv dövləti ilə strateji mahiyyətli sənədlərin imzalanması yeni və hərtərəfli sazişin işlənib hazırlanması ehtiyacını labüd etdi. 2017 cı ilin fevral ayından Azərbaycan tərəfi təqdim etdiyi layihəyə əsasən Aİ ilə yeni sənəd üzrə danışıqlara başlandı.

Üç ildən az müddət ərzində böyük həcmli layihə üzrə çoxsaylı danışıqlar raundu keçirilmiş, sənədin əksər hissəsi razılaşdırılmışdır. Tərəflər danışıqların yekunlaşması və sənədin paraflanması və imzalanması ilə bağlı heç vaxt hər hansı tarix məhdudiyyətlərini nəzərdə tutmamışlar. Bizim üçün danışıqlarda kəmiyyət və vaxt məhdudiyyətləri deyil, keyfiyyət önəmlidir. Şablon yanaşmadan uzaq, reallıqlara söykənən və hər iki tərəfi qane edən yanaşma müsbət nəticənin əldə olunmasında mühüm amillərdən biridir. Azərbaycan tərəfi Avropa Komissiyasının yeni rəhbər heyəti ilə bu istiqamətdə işləməyə davam edəcəkdir. Azərbaycan keyfiyyətli sazişin tərəfdarıdır və onun ölkəmizin milli mənafelərinə uyğun olması mütləqdir.

**– 2019-cu il Azərbaycan-Rusiya əlaqələri baxımından olduqca məhsuldar, səmərəli il olub. Növbəti il iki ölkə əlaqələrində nə ilə yadda qalacaq? Burada Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya, həmçinin Rusiyadan olan rəsmi şəxslərin Azərbaycana müntəzəm səfərləri qeyd olunmalıdır. Bununla yanaşı, XİN-lərin rəhbərləri səviyyəsində illik əsasda qarşılıqlı səfərlər təcrübəsi mövcuddur və bu çərçivədə Sizin rusiyalı həmkarınız bir qədər öncə Bakıya səfər edib. Bu baxımdan, Sizin 2020-ci ildə Moskvaya səfəriniz gözlənilirmi? Ümumiyyətlə, sizin fikrinizcə, növbəti il iki ölkə əlaqələrində nə ilə yadda qalacaq?**

– Öncə, Azərbaycan ilə Rusiya arasında münasibətlərin inkişafı baxımından başa çatmaqda olan ilin yekunlarına verdiyiniz yüksək qiymətlə razılaşmaq istərdim. Məmnuniyyətlə qeyd etməliyəm ki, bu münasibətlər ildən-ilə sabitlik və dinamizm nümayiş etdirir. Bu il başa çatmaq üzrədir və bu müsbət dinamika da inkişaf etmişdir. Sözsüz ki, sualınızda bəhs etdiyiniz yüksək siyasi rəhbərlik səviyyəsindəki sıx əlaqələr və etibarlı dialoq həlledici rol oynamaqda davam edir. Bu, siyasi münasibətlərdən tutmuş ticarət, iqtisadi və humanitar əməkdaşlığa qədər münasibətlərimizin bütün spektrini əhatə edən strateji tərəfdaşlığın gələcək inkişafı üçün əlverişli zəmin yaradır.

Məlum olduğu kimi, əlaqələrimizin inkişafı məqsədyönlü və proqram xarakteri daşıyır. Konkret istiqamətlər üzrə "yol xəritələri"ndə nəzərdə tutulan və həyata keçirilən tədbirlərdən altısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Rusiya Federasiyasına ötənilki rəsmi səfəri zamanı, ikisi isə bu ilin dekabrında Bakıda keçirilmiş İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın on səkkizinci iclasının yekununda imzalanmışdır. İlkin hesablamalara görə, 2019-cu ildə ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 3 milyard ABŞ dolları səviyyəsinə çatacaq.

2019-cu ildə müsbət bir tendensiya, bir milyon insan sayına yaxınlaşmaqla Rusiyadan turist axınının davam etməsi olub. Bu, çox mühüm bir göstəricidir və insanlar arasındakı təmasların intensivliyinin əyani

təsdiqi kimi bizi sevindirir. Əlbəttə, bu, onu göstərir ki, rusiyalılar Azərbaycanda özlərini rahat hiss edirlər, burada səmimi qəbul ilə üzləşirlər və dil baryerinin olmamasının üstünlüklərindən istifadə edirlər.

Bütün bu müsbət tendensiyaların gələn il də davam edəcəyini gözləyirik. Ümid edirəm ki, çox faydalı hesab etdiyim xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində qarşılıqlı səfər mübadiləsi təcrübəsinin davam etdirilməsi də bu prosesə öz töhfəsini verə biləcəkdir.

Əlbəttə, Rusiya Federasiyasının da həmsədr qismində çıxış etdiyi ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin intensivləşməsinə xüsusi ümid bəsləyirik. Hesab edirik ki, bölgədəki sülh və sabitlik maraqları tez bir zamanda hiss oluna biləcək siyasi nəticələrə nail olmaq zərurətini diktə edir. İnanırıq ki, Rusiya, münaqişə düyününün açılmasının başlanılmasında əsas rollardan birini oynamağa qadirdir.

Beləliklə, ümumiyyətlə gələcəyə nikbinliklə baxırıq və öz tərəfimizdən inkişafımızın strateji hədəflərinin reallaşması istiqamətində fəaliyyət göstərməkdə qərarlıyıq.

**– Ekspertlər arasında belə bir fikir var ki, postsovet ölkələri Avropa İttifaqı və Avrasiya İqtisadi İttifaqı arasında seçim etməyə məcburdurlar. Bəs Azərbaycan barədə də eyni sözləri demək olarmı?**

– Azərbaycan seçim baxımından "ya-ya da" prinsipi əsasında düşünmür. Bütün xarici siyasət qərarlarımız, ilk növbədə, ölkəmizin inkişafı maraqlarına söykənir. Kənardan bu və ya digər seçimi tətbiq etmək cəhdləri uğursuzluğa düçar olur və bunu, son onilliyin təcrübəsi də daxil olmaqla, bütün müasir tarix nümayiş etdirir. Bu reallıqları bu cür cəhdləri edən xarici qüvvələr də artıq birmənalı şəkildə dərk edir.

Həm qonşu dövlətlərlə, həm də əsas qlobal tərəfdaşlarla qarşılıqlı faydalı bərabərhüquqlu əməkdaşlığın inkişafı kursunu davam etdirərək, Azərbaycan artıq mühüm nəticələr əldə etmişdir. Əminik ki, bu qarşılıqlı əlaqənin genişləndirilməsi və dərinləşdirilməsi xəttini düzgün qurmaqla daha da böyük uğurlara imza atacağıq.

Ancaq ümumilikdə, ATƏT Nazirlər Şurasının bu yaxınlarda Bratislavada keçirilən iclasında yenidən səsləndirilən - fərqli vektorlarda çox şaxəli əməkdaşlığın inkişafına mane olmayan ümumi təhlükəsizlik məkanının birliyi və bölünməzliyindən irəli gələn mövqedən çıxış edirik.

**– Bu il diqqət mərkəzində olan əsas məsələlərdən biri də Azərbaycanla Gürcüstan arasında sərhədlərin delimitasiyası məsələsi olub. Bu xüsusda fikirlərinizi öyrənmək istərdik. Sərhədin delimitasiyası məsələsində tərəflər arasında mövcud olan fikir ayrılığını qarşıdan gələn il ərzində aradan qaldırmaq mümkün görünürmü?**

– Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, aparılır. Bildiyiniz kimi, 1996-cı

ildən iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası fəaliyyət göstərir. Komissiyanın sonuncu iclası bu il Bakıda keçirilib. İki ölkə arasındakı 480 kilometrlik sərhədin 314 kilometri razılaşdırılıb, razılaşdırılmamış166 kilometrlik xətti üzrə danışıqlar davam etdirilir. Cari il ərzində ekspertlərin iki görüşü keçirilib, növbəti görüşünün isə gələn ilin əvvəli Tbilisidə keçirilməsi gözlənilir.

Fikir ayrılığı dediyiniz, əslində razılaşdırılmamış sahələrin mövcud olmasıdır və bunun üçün də mütəxəssislər tərəfindən müvafiq araşdırma, o cümlədən arxiv və kartoqrafik materialların öyrənilməsi kimi tədbirlər həyata keçirilməlidir. Önəmlisi ondan ibarətdir ki, həm Azərbaycan, həm də Gürcüstan delimitasiya prosesinin tezliklə yekunlaşdırılmasının tərəfdarıdır. Ümidvaram ki, iki ölkə arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübəyə əsaslanaraq hüquqi müstəvidə və strateji tərəfdaşlıq münasibətlərimizə uyğun şəkildə həll olunacaq.

– **Son iki il ərzində Xəzər dənizi bölgəsinin ölkələri arasında fəal qarşılıqlı fəaliyyət müşahidə olunub və bölgə ölkələri arasında əməkdaşlığa maneə törədən amillər aradan qaldırılıb. Xəzər dənizi bölgəsində gələcəkdə daha effektiv fəaliyyətin perspektivlərini necə qiymətləndirirsiniz?**

– Ötən il Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması regionumuz və ölkəmiz üçün mühüm addım olmuşdur. Bu sənəd Xəzəryanı ölkələr arasında münasibətlərin daha da inkişaf etdirilməsinə, eyni zamanda Xəzər dənizi bölgəsində sabitlik, tərəqqi və qarşılıqlı etimad mühitinin inkişaf etməsinə xidmət edir. Xəzər dənizi regionundakı əməkdaşlıq tərəflərin qarşılıqlı maraqları, bir-birinin ərazi bütövlükləri və suverenliklərinə hörmət əsasında aparılır. Konvensiya dənizdə həyata keçirilən təsərrüfat-iqtisadi fəaliyyətin davamlılığını və təhlükəsizliyini təmin etməklə, bu cür fəaliyyətin gələcəkdə daha da genişləndirilməsinə münbit zəmin yaradır. Hal-hazırda Konvensiyanın bütün iştirakçılar tərəfindən ratifikasiya olunması qarşımızda duran əsas məsələlərdən biridir. Növbəti mərhələdə Konvensiyanın qüvvəyə minməsi və ondan irəli gələn məsələlərin öz həllini tapması vacibdir. Xatırladım ki, Konvensiyanın səmərəli həyata keçirilməsi məqsədilə Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrup fəaliyyət göstərir.

Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi regionumuz və dünya üçün böyük əhəmiyyət kəsb edən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin reallaşdırılmasına böyük töhfəsi olacaqdır. Belə ki, artıq regionda fəaliyyət göstərən subyektlər üçün Xəzər dənizinin hüquqi statusu ilə qeyri-müəyyənlik dövrü bitmişdir. Konvensiyada dənizin tranzit potensialının həyata keçirilməsinin vacibliyi nəzərə alınmış, Xəzəryanı dövlətlər üçün ticarət gəmiçiliyinin azadlığı və təhlükəsizliyinin təmin olunması prinsipi təsbit

olunmuşdur. Azərbaycan hər bir Xəzəryanı ölkə ilə siyasi və iqtisadi sahədə sıx əməkdaşlıq edir. Bu, Xəzərdə qarşılıqlı təhlükəsizliyin və etimadın təmin edilməsi üçün mühüm amildir.

**– Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinə aydınlıq gətirməyinizi istərdik. Azərbaycan nə zaman təşkilatın dialoq üzrə tərəfdaşı statusunu alacaq?**

– Məlum olduğu kimi, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Asiya regionunda önəmli regional təşkilatlardan biri hesab edilir və onun əsas məqsədlərindən biri regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsidir. Ölkəmizin ŞƏT ilə münasibətlərinə gəldikdə isə qeyd edilməlidir ki, artıq 9-10 iyul 2015-ci il tarixində ŞƏT-in Ufada keçirilən zirvə görüşündə Azərbaycana ŞƏT-də dialoq tərəfdaşı statusunun verilməsinə dair qərar qəbul edilmişdir. Ölkəmiz ilə ŞƏT arasında mövcud əməkdaşlıq sahələri isə 2016-cı ildə tərəflər arasında imzalanmış memorandumda öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası ilə ŞƏT arasında əməkdaşlıq istiqamətləri sırasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə və regional təhlükəsizliyin və sabitliyin təminatı məsələləri yer alır. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təbliğ edilməsi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir. Bununla yanaşı, Azərbaycanın transregional multimodal nəqliyyat qovşağı kimi təşviqi çərçivəsində ŞƏT daxilində mühüm yer tutan iqtisadiyyat, nəqliyyat və telekommunikasiya, ticarət və investisiya sahələrində əməkdaşlıq həmin təşkilatla qarşılıqlı fəaliyyət istiqaməti kimi müəyyən olunmuşdur.

ŞƏT çərçivəsində növbəti əməkdaşlıq pilləsi isə müşahidəçi statusudur və artıq ölkəmiz 2018-ci ildə bu statusun əldə edilməsi məqsədilə rəsmi şəkildə təşkilata müraciət etmişdir. Hazırda bu məsələyə ŞƏT daxilində baxılır və hesab edirik ki, ŞƏT ilə Azərbaycan Respublikası arasında mövcud fəal əməkdaşlıq sözügedən müşahidəçi statusunun verilməsindən sonra daha da inkişaf edəcəkdir.

**– Azərbaycan BMT TŞ-nin qeyri-daimi üzvlüyü dövründə quruma sədrliyi zamanı təşkilatın tarixində ilk dəfə olaraq BMT və İƏT arasında tərəfdaşlığın möhkəmləndirilməsi mövzusunda yüksək səviyyəli iclasın keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu dövrdə, həmçinin BMT TŞ üzvlərinin Afrikaya səfəri təşkil olundu. Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan müxtəlif bölgələrdə yerləşən, müxtəlif təşkilatların üzvləri olan ölkələr arasında təmasların qurulması səyləri göstərəcəkmi?**

– Əvvəlcə, bir daha Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyin üzərinə götürməsinin vacibliyini bir daha vurğulamaq istərdik. 25-26 oktyabr 2019-cu il tarixdə 159 nümayəndə heyətinin iştirakı ilə Bakıda keçirilən üzvlərinin sayına görə BMT-dən sonra ikinci qlobal siyasi plat-

formanın XVIII Zirvə Görüşü, habelə onun nəticələrinə dair Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstəyin ifadə edilməsi daxil olmaqla, qəbul edilmiş sənədlər ölkəmizin dünya miqyasında nüfuzunun daha da artmasını əyani şəkildə nümayiş etdirdi. Bu baxımdan, 2011-ci ildə Hərəkata qoşulan Azərbaycanın səkkiz il sonra hazırkı dinamik şəraitdə aktual olan bir sədrlik gündəliyi təklif etməsi ilə sədr seçilməsi faktı özü özündən bəhs edir. Belə ki, biz fundamental Bandunq prinsiplərinin inkişaf etdirilməsi ruhuna uyğun, Hərəkatın beynəlxalq sülh və təhlükəsizliyin qorunması sahəsindəki fəaliyyətinə yeni bir təkan vermək və əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaratmaq niyyətindəyik.

Ümumiyyətlə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Hərəkatın beynəlxalq münasibətlər sistemində mövqeyini və nüfuzunu gücləndirmək məqsədi daşıyacaq. Qoşulmama Hərəkatının gücləndirilmiş mövqeyi onun üçün yeni əməkdaşlıq imkanları açacaq və beynəlxalq məsələlərə töhfə imkanlarını genişləndirəcək. Bu yöndə prioritet istiqamətlərdən biri digər regional və beynəlxalq təşkilatlarla dialoq mexanizmlərinin təsis edilməsi olacaq. Xüsusilə Afrika, Latın Amerikasi və Asiyada yerləşən ölkələrlə və təşkilatlarla əməkdaşlıq çərçivələrinin genişləndirilməsi sahəsində səylər göstəriləcək.

**– Növbəti il üzrə Azərbaycanın xarici siyasət prioritetləri nədən ibarətdir? 2020-ci il ərzində diplomatik fəaliyyətimizin hansı istiqamətlərdə davam etdiriləcəyini və hansı sahələrə daha çox diqqət ayrılacağını qeyd etmək olar?**

– Azərbaycanın xarici siyasəti ölkəmizin milli maraqlarına uyğun olaraq dövlət başçısının birbaşa rəhbərliyi altında həyata keçirilir və xarici siyasət prioritetlərimiz dəyişilməz olaraq qalır. Buraya ölkəmizin beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyinin bərpa edilməsi, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin davam etdirilməsi və daha da genişləndirilməsi, beynəlxalq münasibətlərdə fəal şəkildə iştirak etmək, beynəlxalq sülh və təhlükəsizliyə, inkişafa, tərəqqiyə töhfə verən təşəbbüslərdə iştirak etmək, Azərbaycanın beynəlxalq müstəvidə layiqincə təşviq edilməsi və digər məsələlər daxildir.

Hər bir prioritet istiqamətə uyğun olaraq il ərzində həyata keçiriləcək konkret tədbirlərə gəldikdə isə, burada ənənəvi şəkildə atılan addımlara əlavə olaraq, ölkəmizin dörd beynəlxalq/regional təşkilat çərçivəsində (Qoşulmama Hərəkatı, TRACECA, Türk Şurası, GUAM) gələn il ərzində sədrliyi vəzifələrindən irəli gələn məsələlərin həyata keçirilməsinə də diqqət ayrılacaq. Azərbaycanın maraqlarının diplomatik nümayəndəliklərimizin birbaşa iştirakı ilə ikitərəfli və çoxtərəfli müstəvilərdə fəal şəkildə təşviq olunmasına davam ediləcək.

**AZƏRTAC**

# TÜRK DÜNYASI VƏ PARLAMENTARİZM

*Son 10 il ərzində türkdilli ölkələr arasında münasibətlər inkişaf edərək keyfiyyətcə yeni mərhələyə keçmişdir*

***Türkdilli ölkələr arasında çoxtərəfli formatda əlaqələrin qurulmasına ötən əsrin 90-cı illərinin əvvəllərində başlanmışdır. 1992-ci ildə Türkdilli Dövlət Başçılarının Birinci Zirvə Toplantısı keçirildi və bundan sonra ölkələrimizin liderləri müntəzəm olaraq bir araya gəlib əməkdaşlığın əsas prioritetləri və istiqamətlərini müzakirə edirdilər. Lakin o dövrdə zirvə toplantıları daha çox məsləhətləşmələr funksiyasını daşıyırdı və əməkdaşlığın daimi platforması formalaşmamışdı.***

İllər keçdikcə ölkələr arasında həm iqtisadi, həm mədəni, həm də siyasi münasibətlər sürətlə inkişaf edirdi və həmin münasibətlərin institusional çərçivəyə salınması zamanın tələbi idi. 1993-cü ildə TÜRKSOY-un yaradılması, 2008-ci ildə TÜRKPA-nın, ardından 2009-cu ildə Türk Şurasının təsisi bu zərurətdən irəli gəlmişdir. Qeyd olunan qurumların yaradılması regionda Türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti və əməkdaşlığı üçün önəmli təkan vermişdir. Daha sonra Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və Miras Fondu və Türk Biznes Şurası kimi təşkilatların qurulması müvafiq sahələrdəki əməkdaşlığımızı daha da dərinləşdirmişdir.

Təbii ki, türkdilli ölkələr arasında əməkdaşlıq və əlaqələrin inkişafından danışanda müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Ulu Öndər Heydər Əliyevin xidmətlərini xüsusilə vurğulamaq lazımdır. Ulu Öndər bütövlükdə türk dünyasının birləşməsi ideyasının gerçəkləşməsi, türkdilli xalqlar arasında birlik və həmrəylik uğrunda qətiyyətli və ardıcıl mübarizə aparmışdır. Heydər Əliyev çağdaş Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, müasir Azərbaycan parlamentinin banisi sayılır. Azərbaycana rəhbərlik etdiyi dövrdə, Heydər Əliyev hakimiyyət orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltmişdi. Bu dövrdə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə ölkədə aparılan quruculuq işlərinin hüquqi bazasının yaradılmasında mühüm rol oynamışdır. Bu baxımdan, Heydər Əliyevin Azərbaycan parlamentarizminin inkişafında müstəsna rolu olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin türk dünyasının qarşılıqlı əlaqələri və inkişafı strategiyasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam və inkişaf etdirməkdədir. Bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən irəli sürülən və türkdilli ölkələr arasında müxtəlif sahələr üzrə əlaqələrin inkişafına yönəldilmiş layihələrin əhəmiyyətini xüsusilə qeyd etməliyik. TÜRKPA və eyni zamanda Türk Mədəniyyəti və Miras Fondunun qərar-

gahlarının Bakıda yerləşməsi Azərbaycan Prezidenti İlham Əliyevin türk dövlətləri arasındakı münasibətlərin inkişafına olan dəstəyi, diqqət və qayğısının bariz nümunəsidir.

Təbii ki, ölkələr arasında müxtəlif sahələr üzrə qanunların yaxınlaşdırılması və əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində önəmli rolu parlamentlər həyata keçirir. Bu baxımdan, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) regional əməkdaşlıq platforması kimi Türk əməkdaşlığının parlament səviyyəsində təzahürüdür. TÜRKPA Türk dünyasında çoxtərəfli əməkdaşlığın parlament səviyyəsində tək formasıdır. Təşkilat 21 noyabr 2008-ci ildə İstanbul sazişi ilə təsis edilmişdir. Assambleyanın vəzifəsi və məqsədi türk əməkdaşlığı çərçivəsində parlamentlərarası əlaqələri genişləndirmək, irəli sürülən təşəbbüslərə və öhdəliklərə hüquqi dəstək verməkdir.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə TÜRKPA-nın təsisçi üzvləridir. Macarıstan Parlamenti 2014-cü ildən etibarən assambleyanın fəaliyyətində müşahidəçi qismində iştirak edir.

TÜRKPA digər Türkdilli dövlətlər ilə sıx qarşılıqlı əlaqələrin qurulmasında xüsusən maraqlıdır. Belə ki, Türkmənistan və Özbəkistan parlamentləri ilə təmasların qurulması prosesi davam edir. Qeyd etmək lazımdır ki, Özbəkistan da artıq Naxçıvan sazişini imzalamışdır. Məlum olduğu kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Dövlət Başçılarının VII Zirvə görüşü 15 oktyabr 2019-cu il tarixində Azərbaycanda keçirilmişdir və Özbəkistan Prezidenti Şevkat Mirziyoyev Zirvə görüşündə Türk Şurasının tamhüquqlu üzvü kimi iştirak etmişdir. Həm TÜRKPA Ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri və həm də Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq inanıram ki, Özbəkistan parlamenti yaxın zamanlarda TÜRKPA-nın fəaliyyətlərində də tamhüquqlu üzv kimi iştirak edəcəkdir.

Türkdilli ölkələr arasında əməkdaşlığın parlament ölçüsü olaraq assambleya üzv ölkələr arasında hüquqi, iqtisadi, sosial-mədəni, ətraf mühit və ortaq maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün hüquqi zəmin təmin edir. Təşkilatın ana xətti məhz inteqrasiya prosesinin inkişafı üçün qanunvericilik bazasının yaradılmasıdır. Bu kontekstdə TÜRKPA çərçivəsində dörd ixtisaslaşmış komissiya hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyası, sosial, mədəni və humanitar məsələlər komissiyası, iqtisadi əməkdaşlıq komissiyası və ətraf mühit və təbii ehtiyatlar komissiyası fəaliyyət göstərir.

Hazırda TÜRKPA çərçivəsində dörd ölkənin mümkün olan istiqamətlərdə qanunvericilik bazasının yaxınlaşdırılması məsələsi oyrənilir və bu sahədə müəyyən addımlar atılır. TÜRKPA-nın təsis sənədi olan İstanbul sazişi assambleyanın prioritet məsələlərindən biri kimi üzv ölkələrin qanunvericiliklərinin yaxınlaşdırılmasını özündə əks etdirir. Bu məqsədlə TÜRKPA-nın dörd daimi komissiyası fəaliyyət sahələri çərçivəsində model qanun layihələrinin hazırlanması ilə məşğuldur. Bu sahədə, TÜRKPA katibliyi üzv ölkə parlamentlə-

rinin hüquq ekspertləri ilə birgə sıx əməkdaşlıq edir. İndiyə kimi TÜRKPA üzv ölkələrinin milli qanunvericiliklərinin uyğunlaşdırılması üzrə hüquq ekspertlərinin iştirakı ilə 4 seminar keçirilmişdir. Seminarlar zamanı üzv ölkələr üçün model qanun layihələrinin hazırlanması istiqamətində prioritet sahələr müzakirə edilib müəyyənləşdirilmişdir.

Əməkdaşlığın parlament ölçüsü olaraq, TÜRKPA siyasi, iqtisadi, humanitar və digər önəmli sahələrdə dialoqun inkişaf etdirilməsini hər zaman diqqətdə saxlayır. BMT-nin Minillik İnkişaf Hədəflərinin əsasında formalaşdırılmış Davamlı İnkişaf Hədəfləri, başqa sözlə desək, Qlobal Hədəflər dünyanın bütün ölkələri üçün çətir rolunu oynayır. Assambleya öz komissiyalarının fəaliyyətlərində BMT-nin Minillik İnkişaf Hədəflərindən önəmli platforma kimi istifadə edir.

Təsis edildiyi 2014-cü ildən etibarən komissiyamız 5 iclas və komissiya çərçivəsində 3 seminar keçirmişdir. Bütün iclas və seminarların mövzuları BMT-nin Davamlı İnkişaf Hədəflərində əks olunmuş məsələlərə həsr olunmuşdur. İclas və seminarların yekun hesabatları və tövsiyə qərarları qəbul edilərək üzv ölkələrin parlamentlərinə göndərilmişdir.

Cari ilin 14 iyun tarixində, TÜRKPA tərəfindən "Davamlı İnkişaf Məqsədlərinə nail olmasında Türk Dünyası Qadınlarının rolu” mövzusunda qadın parlamentarilərin Beynəlxalq Konfransı Bakı şəhərində keçirilmişdir. Bunlar Davamlı İnkişaf Hədəflərinə nail olunması istiqamətində TÜRKPA fəaliyyətlərindən bəzi nümunələrdir və təşkilat bu məsələlərə çox böyük diqqət yetirir.

TÜRKPA İstanbul anlaşmasına uyğun olaraq parlamentlərarası əməkdaşlığı inkişaf etdirmək və təcrübənin daha geniş mübadiləsini təmin etmək məqsədilə üzv parlamentlərin aparat işçiləri arasında təcrübə mübadilə proqramlarını həyata keçirir. Bu sahədə uğurlu nəticələr əldə edilmişdir.

2010-cu ildən etibarən TÜRKPA-nın təsis etdiyi seçkilər üzrə beynəlxalq müşahidəçilər missiyası üzv ölkələrdə keçirilən prezident və parlament seçkilərini müşahidə edir. TÜRKPA bugünə qədər üzv ölkələrdə keçirilmiş seçkiləri müşahidə etmiş və bəyannamələrini yaymışdır. Assambleyanın seçki müşahidəsi işlərində üzv ölkələrdən olan millət vəkilləri və TÜRKPA katibliyində işləyən diplomatlar iştirak edirlər. Seçki müşahidələri qısa dövrlü müşahidə işləri olub, seçkilərə aid qanuni çərçivə, seçici, partiya və namizədlərin qeydiyyat əməliyyatları, seçki kampaniyaları, səs vermə, sayma və siyahıyaalınma kimi mövzuları əhatə edən bir şəkildə həyata keçirilir. Qeyd etmək olar ki, artıq TÜRKPA-nın müşahidəçilər mandatı beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan və tanınan missiyaya çevrilmişdir.

TÜRKPA beynəlxalq münasibətlər sistemində aktiv fəaliyyət göstərir. TÜRKPA parlament diplomatiyasının gələcək inkişafına töhfə verməyə və Avrasiya regionunda mövcud parlamentlər və beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsində maraqlıdır. Təşkilat beynəlxalq əməkdaşlıq çərçivəsində bir çox uğurlara imza atmışdır. TÜRKPA Beynəl-

xalq Parlamentlərin Baş Katibləri Assosiasiyasına üzv, 179 ölkəni birləşdirən dünyanın ən boyük beynəlxalq parlament təşkilatı olan Beynəlxalq Parlamentlər Birliyi (IPU), İslam Əməkdaşlığı Təşkilatının Parlamentlər İttifaqı, (İƏT Pİ) Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfrans (CICA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏTPA) və Asiya Parlament Assambleyasına (APA) müşahidəçi kimi qəbul olunmuş, ATƏT Parlament Assambleyasında isə qonaq statusunda iştirak etmək hüququna nail olmuşdur. Avropa Parlamenti, MDB Parlamentlərarası Assambleyası, GUAM Parlament Assambleyası kimi qurumlarla da əməkdaşlıq möhkəmləndirilmiş və inkişaf etməkdədir.

TÜRKPA Türkdilli ölkələr arasında iqtisadi, siyasi, mədəni və elmi əməkdaşlıq üzrə birgə model formalaşdırmaq üçün Türk Şurası, Türk Akademiyası və TÜRKSOY-la sıx əməkdaşlıq edir. Bundan başqa, TÜRKPA üzv ölkələrin akademik və təhsil müəssisələri, habelə Türk əməkdaşlığında iştirak edən digər təşkilatlarla səmərəli əməkdaşlıq mexanizmlərinin yaradılmasına və çərçivə əməkdaşlığın qurulmasına önəm verir. Bu istiqamətdə TÜRKPA Türk Akademiyası, Türk Dünyası Bələdiyyələr Birliyi, Manas Qırğız-Türk Universiteti və Ahmet Yassavi Qazax-Türk Universiteti ilə əməkdaşlıq haqqında memorandumlar imzalayıb.

Türkdilli dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr üzrə əməkdaşlıq platformaları mövcuddur və hazırda ikitərəfli əməkdaşlıq sahələri genişləndirilir. TÜRKPA öz növbəsində, Türk əməkdaşlığı qurumlarının qeyd olunan bütün sahələrdəki fəaliyyətlərinə, layihə və təşəbbüslərinə qanunvericilik sahəsində dəstəyinin təmin edilməsi öhdəliyini üzərinə götürmüşdür. TÜRKPA bu istiqamətdə Türk əməkdaşlığı qurumlarına hər zaman dəstək verməyə hazırdır.

Sonda qeyd etmək istərdik ki, TÜRKPA qlobal dialoqun parlamentlərarası platformasının möhkəmlənməsinə xüsusi önəm verir. Ənənəvi diplomatiyanı tamamlayan bir amil kimi parlament diplomatiyasından istifadə olunmasının dünyada sülhün, demokratiya və iqtisadi inkişafın bərqərar olmasında xüsusi rol oynayacağına inanır. TÜRKPA-nın Avropa və Asiya beynəlxalq institutları ilə sıx işbirliyi, dünyada çox vacib faktor olan mədəniyyətlər və dinlərarası dialoqun intensivləşməsində və tolerantlıq amilinin ön plana çıxmasında önəmli rol oynamaqdadır.

İnanırıq ki, TÜRKPA çərçivəsində üzv ölkələr arasında və eyni zamanda Türk işbirliyi qurumları arasındakı əməkdaşlıq regional və beynəlxalq sabitlik, həmçinin təhlükəsizlik məsələlərinə mühüm töhfələr verəcəkdir.

**Əhliman ƏMİRASLANOV,**
**Milli Məclisin Səhiyyə Komitəsinin sədri, TÜRKPA Ətraf mühit və təbii ehtiyatlar komissiyasının sədri, akademik.**

# ZƏMANƏMİZİN DAHİ AZƏRBAYCANLISI

***Ötən il bir çox hadisələrlə yanaşı, zəmanəmizin nəhəng şəxsiyyəti, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi ilə də yadda qalacaq. Bu gün ulu öndər aramızda olmasa da, onun ideyaları Azərbaycanı xoşbəxt gələcəyə doğru aparır. Onun zəngin həyat yolunu, çoxşaxəli titanik fəaliyyətini, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işləri, bütövlükdə, xalqımızın və dövlətimizin inkişafında həyata keçirdiyi fövqəladə missiyanı bir daha təhlil etmək zərurəti yaranır. İctimai elm çoxdan mütləq həqiqəti ortaya qoymuşdur: böyük dövlət xadimlərinin fəaliyyəti müqayisəli-tarixi aspektdə qiymətləndirilməli, onların ölkəsinin və xalqının taleyində oynadığı rolu yalnız zaman özü dəyərləndirməlidir. Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Ölkəmizdə son 50 ildə baş verən proseslərə və həmin proseslərin mərkəzində dayanan ulu öndər Heydər Əliyevin fövqəladə missiyasına nəzər saldıqda, o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik.***

İlk dəfə Azərbaycanda siyasi hakimiyyətə 1969-cu il iyulun 14-də gələn Heydər Əliyev qısa zamanda ölkəmizin sosial-iqtisadi və mədəni yüksəlişinin əsasını qoydu. Bu illərdə respublikamızın sosial-iqtisadi tərəqqisi yolunda əsl dönüş yarandı: 250-dən çox zavod, fabrik istifadəyə verildi, 630 min nəfərlik yeni iş yeri yaradıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün beş xüsusi qərar qəbul etdi. 1971-1985-ci illərdə iqtisadiyyata sərmayə qoyuluşunun həcmi 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 2,1 dəfə çox idi.

1985-ci ildə Cənubi Qafqazda ən iri poladəritmə zavodu istifadəyə verildi, Dərin Dəniz Özülləri zavodu tikildi. Sənayedə struktur dəyişiklikləri aparıldı. Bakı məişət kondisionerləri zavodu qısa müddətdə tikilib istifadəyə verildi (1975). "Ulduz", "Azon" cihazqayırma zavodları, Sumqayıt kompressorlar zavodu, Bakı elektrik qaynaq avadanlığı zavodu işə düşdü. Onlarca istehlak malları istehsal edən, o cümlədən Abşeron, Siyəzən broyler fabrikləri, Bakı şampan şərabları zavodu, Sumqayıt şüşə zavodu, Ələt ağac emalı kombinatı və s. müəssisələr istifadəyə verildi. Araz, Tərtər, Şəmkir su-elektrik stansiyaları, "Azərbaycan" DRES-i işə salındı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu.

Böyük meliorasiya proqramı həyata keçirildi. Baş Mil, Abşeron, Lənkəran, Şəmkir kanalları, Araz, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Şəmkir və başqa dəryaçalar istifadəyə verildi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıqçılıq rayonlarına çevrildi. Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında tərəvəzçilik daha da

inkişaf etdirildi. Üzüm plantasiyaları 1970-ci ildəki 121,6 min hektardan 1985-ci ildə 268 min hektara çataraq 2,2 dəfə artdı. İri heyvandarlıq kompleksləri tikildi.

Kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981-1985-ci illərdə 1966-1970-ci illərin səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı. Geniş iqtisadi quruculuq sayəsində əmək məhsuldarlığı sənayedə 2,1, kənd təsərrüfatında 1,8 dəfə, xalq təsərrüfatında gəlir 335 faiz və ya Ümumittifaq göstəricisindən 2 dəfə çox artdı. Həmin illərdə yaradılmış iqtisadi, elmi-texniki və mədəni potensial gələcəkdə respublikanın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı.

XX əsrin 70-80-ci illərində SSRİ-də öz iqtisadiyyatını müstəqil idarə etməyə qadir olan 2 respublikadan biri Azərbaycan idi. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilirdi. Bakı, Sumqayıt, Gəncə və digər şəhərlər böyüyür, ətrafında yeni yaşayış massivləri salınırdı. Azərbaycanda 20 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verildi, yüzlərlə müasir bina tikildi, yollar, körpülər, kənd və qəsəbələr salındı. Azərbaycan az vaxt ərzində inkişafın başlıca keyfiyyət ölçülərinə görə müttəfiq respublikalar içərisində önə çıxdı. Sürətli sosial-iqtisadi inkişaf nəticəsində ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə İttifaq miqyasında Azərbaycanın rolu xeyli artdı.

Respublikada elm, təhsil, ədəbiyyat, incəsənət və memarlığın inkişafına da diqqət artırıldı. Ali, orta ixtisas, ümumtəhsil məktəbləri, teatr, klub, muzey, kitabxanalar şəbəkəsi xeyli genişləndi. Azərbaycanda onlarca yeni elmi-tədqiqat müəssisəsi yaradıldı. 1975-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının nəzdində "Xəzər" Elmi Mərkəzi fəaliyyətə başladı. 1978-ci ildə mərkəzin əsasında Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu, 1981-ci ildə isə Kosmik Tədqiqatlar Elmi İstehsalat Birliyi təşkil edildi.

Respublikada kitab çapı və mətbuat xeyli inkişaf etdi. 1969-cu ildə "Qobustan" almanaxı nəşr edilməyə başlandı. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Xalqın mədəni və mənəvi dəyərlərinə diqqət artırıldı. Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Hüseyn Cavid kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyi təntənə ilə qeyd olundu. Azərbaycan tarixinə və dilinə aid qiymətli araşdırmalar yüksək dövlət mükafatlarına layiq görüldü. 1974-cü ildən ali məktəblərdə Azərbaycan tarixinin tədrisinə ayrılan saatlar artırıldı. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu və bu sahədə səmərəli işlər görüldü. Vaxtilə "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cənazəsinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə erməni separatçıları açıq çıxış-

lardan çəkinirdilər. 1977-ci ilin noyabrında onların Dağlıq Qarabağ məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı qətiyyətlə alındı. Qısa müddətdə Azərbaycan SSR-in sürətli sosial-iqtisadi və mədəni inkişafı keçmiş SSRİ rəhbərliyində Heydər Əliyevə böyük nüfuz qazandırdı. Ulu öndər 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında Siyasi Büroya üzv seçildi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildi və bu imkanlardan da Azərbaycanın inkişafı naminə istifadə etdi.

Bütövlükdə, 1969-1987-ci illər Azərbaycanın quruculuq salnaməsinə parlaq səhifələr kimi daxil olub. Bu dövrdə müasir müstəqil Azərbaycan Respublikasının təməli qoyulub.

Sovet İttifaqının dağılması ərəfəsində SSRİ rəhbərliyi mühüm geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə fərqlənən Azərbaycana qarşı məkrli siyasət həyata keçirməyə başladı. İlk növbədə, bu proseslərin qarşısını ala biləcək, məhz öncəki illərdə Azərbaycan xalqına qarşı hər hansı təxribatın qarşısını cəsarətlə almış bir insan – ulu öndər Heydər Əliyev sovet rəhbərliyindən düşünülmüş şəkildə uzaqlaşdırıldı. Məhz bundan sonra Azərbaycana qarşı istənilən təxribatı həyata keçirmək mümkün oldu. SSRİ-nin dağılması nəticəsində iqtisadi böhran, ərazilərin itirilməsi, qaçqın, köçkün ordusunun yaranması Azərbaycanın inkişafına, iqtisadi-siyasi durumuna mənfi təsir göstərdi. Ölkəyə səriştəsiz insanların rəhbərlik etməsi həm iqtisadi, həm də siyasi böhran şəraitində müstəqilliyimizin, dövlətimizin mövcudluğunu belə sual altında qoymuşdu.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra siyasi, iqtisadi, sosial, mədəni sferalarda böyük inqilabi dəyişikliklər baş verdi. Azərbaycan xalqı, ilk növbədə, özünə lider qazandı – uzun illər respublikamızı idarə etmiş, əməyi sayəsində özünü təsdiqləmiş, daim xalqın uğuruna çalışmış, respublikamızı çox çətin bir dövrdə ağır bəlalardan qurtaran, millətin gələcəyinin, dövlətçiliyin təməlini quran, siyasi sabitliyi, əmin-amanlığı təmin edən, gələcək iqtisadi inkişafın əsasını qoyan bir lider. Ulu öndərin hələ sovet dövründə bu amallar uğrunda böyük xidmətləri olmuşdu. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, C.Naxçıvanski adına hərbi liseyin, ölkədə müstəqil sosial-iqtisadi infrastrukturun yaradılması və inkişafı, istehsal müəssisələrinin artırılması gələcək müstəqilliyin təməlini qoyurdu. Ulu öndər özü də deyirdi ki, dili, ordusu olan bir ölkə, iqtisadiyyatı güclü olan dövlət müstəqil sayılır.

Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, ata-babalarımızın müstəqillik arzuları yadel-

li işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də rolu olub. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu XVIII əsrdə – bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə dövlət idarəçiliyində təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı ciddi səhvlər xalqımızı çətinlikər qarşısında qoydu. Siyasi didişmələr və qeyri- qanuni silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə çatdırdı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və zəngin idarəçilik təcrübəsinə malik şəxsiyyət Heydər Əliyev var idi.

Xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidi ilə Bakıya gəlib Ali Sovetin Sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində Heydər Əliyevin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən varmaq ehtiyacı duyuruq.

Heydər Əliyevin Ali Sovetin Sədri seçilərkən etdiyi çıxışın mətni xüsusi diqqət çəkir. Ötən illərin arxasından həmin proqram xarakterli çıxışa nəzər saldıqda görürük ki, ulu öndərin bütün sonrakı fəaliyyəti o tarixi çıxışdakı müddəaların addım-addım gerçəkləşdirilməsindən ibarətdir. Millət və dövlət qarşısında götürülmüş öhdəliklərə

sədaqətin bundan böyük nümunəsini təsəvvür etmək çətindir. Ulu öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq, onu, öz təbirincə desək, dönməz və əbədi etmişdir. Həmin çıxışda müəyyən edilən digər iki istiqamət – demokratik islahatların həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxardı. Məhz ölkə başçısı İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yerlərdən birini tutdu. Dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə respublikamız həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi.

Mən bir şərqşünas alim kimi, ilk növbədə, görkəmli dövlət xadimi Heydər Əliyevin xarici siyasətindən danışmaq istərdim. Ulu öndər dövlətin xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin xarici siyasətində, Şərqə, qonşu ölkələrlə, xüsusən Türkiyə, İran və digərləri ilə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Azərbaycanla çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də uğurla davam etdirilir. Burada, əsasən, dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan, bizə coğrafi və siyasi cəhətdən yaxın ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və digərləri aiddir. Bu və İslam Konfransı Təşkilatına (indiki İslam Əməkdaşlıq Təşkilatı) daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyevin apardığı siyasət nəticəsində böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Heydər Əliyevin hakimiyyətə qayıdışından və Elmlər Akademiyasının üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən, bunun nəticəsində atdığı addımlardan sonra akademiya sistemində mövcud olan dərin böhran, tənəzzül, hətta iflas proseslərinin qarşısı alındı. Elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrlar hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ümummilli liderin 2001-ci il 15 may tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verildi.

Bu tarixi fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi. Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu sahədə islahatları, elmin inkişaf strategiyası istiqamətlərində müvafiq sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi üçün mühüm addımlar atdı.

Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə, elmin inkişafına yönəldilən xərclər, təxminən, 7 dəfə artırılıb. Azərbaycanda elmin inkişafı üzrə Milli Strategiya təsdiq olunub, onun həyata keçirilməsi üçün dövlət proqramı qəbul edilib və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır. Elmimizin dünyaya inteqrasiyası məsələsinə gəldikdə isə bu proses davamlı olaraq həyata keçirilir. Hazırda bu istiqamətdə böyük işlər gedir, mütəmadi beynəlxalq konfrans, simpozium, seminarlar təşkil edilir.

İstənilən şəxsin Vətən, xalq qarşısında xidməti onun gördüyü işlərlə, yaratdığı maddi sərvətlərlə, harada olursa-olsun, Vətəninin, xalqının mənafeyini hər şeydən uca tutması ilə ölçülür. Dahi şəxsiyyət Heydər Əliyevin həyat yolunu nəzərdən keçirərkən, bir daha əmin oluruq ki, onun çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycana, xalqa fədakarcasına xidmətin bariz nümunəsidir. Bu keçmiş sovet dövründə də belə olub, Vətənimiz müstəqillik əldə edəndən sonra da. Ulu öndər Heydər Əliyevin bütün rəhbərliyi dövrü apardığı ümumi siyasət bu olmuşdur: Azərbaycanın ümummilli mənafelərini istənilən səviyyədə müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın və ölkənin təhlükəsizliyini təmin etmək. Hesab edirəm ki, ulu öndər tarixboyu xalqımızın yaşadığı ən möhtəşəm renessans dövrünün banisidir. Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinə böyük qurucu kimi daxil olub.

Bu gün dahi rəhbər Heydər Əliyevin memarı olduğu Azərbaycan dövlətinin sükanı arxasında onun siyasi kursunun ən layiqli davamçısı – Prezident İlham Əliyev və dövlət başçısının ən yaxın silahdaşı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva durur. Onlar ulu öndərin ideyalarını yaşadaraq, çiçəklənən Azərbaycanı daha uca zirvələrə aparırlar. Ulu öndərimiz bu yolda daim bizimlədir, onun siyasi kursu uğurla davam etdirilir. Çünki Heydər Əliyevin ömrü Vətənə fədakarcasına xidmətin bariz nümunəsi, dövlətimizin tarixinin parlaq səhifəsi, xalqımızın həyatının ayrılmaz bir parçasıdır.

**Gövhər BAXŞƏLİYEVA,**
**akademik, Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru.**

# MƏHKƏMƏ HAKİMİYYƏTİNİN MÜSTƏQİLLİYİNİN REAL TƏMİNATÇISI

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əsaslı islahatlar ölkə həyatının bütün sahələri kimi, məhkəmə-hüquq sistemini də əhatə edir. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun müəllifi olduğu bu məqalədə son 16 ildə məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, bu sahədə şəffaflığın artırılması, yeni informasiya texnologiyalarının tətbiqi və digər mütərəqqi addımlardan bəhs olunur.**

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin qurub yaratdığı və əbədilik qazandırdığı müstəqil Azərbaycan dövlətini inamla irəli aparan möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkəmizin tərəqqisinə, xalqımızın rifahına hesablanmış hərtərəfli islahatlar həyata keçirilməklə müasir tariximizin şanlı səhifələri yazılır.**

Ulu öndər Heydər Əliyev 2003-cü ildə xalqa müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu gün tam əminliklə söyləyə bilərik ki, möhtərəm Prezidentimiz bu inamı xalqın dəstəyi ilə ötən dövrdə atdığı uğurlu addımlarla gerçəkləşdirdi. Ölkəmiz Ulu Öndərin müəyyən etdiyi və yeganə düzgün olan yol ilə gedərək möhkəm təməllər üzərində, dünyada baş verən təhlükəli proseslərə, böhranlara baxmayaraq, davamlı inkişaf etdi. Xalqımızın təhlükəsizlik, sabitlik şəraitində yaşayışı təmin olundu, Azərbaycan dünyada hörmətlə qəbul edilən və dəstəklənən, yüksək nüfuza sahib ölkəyə, etibarlı tərəfdaşa və regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildi.

Bu dövrdə elə bir sahə olmayıb ki, orada islahatlar aparılmasın və inkişaf müşahidə edilməsin. Son 16 ildə ümumi daxili məhsul 3 dəfədən çox artdı, işsizliyin səviyyəsi 5 faizədək endi, yoxsulluq təxminən 10 dəfəyədək azaldı. Valyuta ehtiyatlarımız 50 milyard dollara çatdı. Ölkəmizin iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyuldu.

Prezident İlham Əliyev güclü siyasi iradəsi, qətiyyətli və prinsipial mövqeyi ilə Azərbaycanı dünyanın inkişaf edən dövlətləri sırasına çıxardı. Bu gün respublikamız iqtisadi rəqabətqabiliyyətliliyinə görə dünyada öncül, ən islahatçı ölkə, eyni zamanda, irimiqyaslı layihələrin təşəbbüskarı və uğurlu icraçısı kimi tanınır, tolerantlıq və multikulturalizm məkanı kimi nümunə olması etiraf edilir, dövlət xidmətlərinin ictimai modeli olan və təcrübəsi dünyada yayılan ASAN brendinin müəllifidir.

Dövlətimizin başçısının həyata keçirdiyi çoxşaxəli islahatlara dəyərli töhfələr verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalq-iqtidar birliyini daha da gücləndirir.

Ötən dövrdə demokratik inkişaf yolu ilə gedən Azərbaycanda qanunun aliliyini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını siyasətinin ən mühüm prioriteti kimi müəyyən edən Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və əsas vəzifəmiz insanlara layiqli xidmət etməkdir. Cənab Prezident xalqa xidmətləri ilə hər bir vətəndaşın prezidenti olduğunu sübut etməklə hər bir dövlət məmuruna təvazökarlıq, saflıq və vətənə xidmət nümunəsi göstərir.

Ölkə başçısının ictimaiyyəti hər zaman dövlət idarəetməsində fəal iştiraka, ictimai nəzarətə çağırışı, korrupsiyaya qarşı mübarizədə sərt mövqeyi, vətəndaşlara xidmət sahəsində şəffaf və innovativ metodların geniş və səmərəli tətbiqinə üstünlük verməsi cəmiyyətimiz tərəfindən daim dəstəklənir. Bu istiqamətdə mühüm dövlət proqramları və milli fəaliyyət planları qəbul olunaraq həyata keçirilir, konkret əməli tədbirlər görülür.

Respublikamızın hərtərəfli inkişafına adekvat olaraq aparılan məhkəmə-hüquq sistemində mütərəqqi islahatların müəllifi də məhz möhtərəm Prezidentimiz İlham Əliyevdir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları ötən dövrdə dövlət başçısı tərəfindən müasir çağırışlara uyğun uğurla inkişaf etdirildi. Prezident İlham Əliyev bütün məsələlərdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də novatorluq və islahatçı yanaşmalar tətbiq etdi, dünyada mövcud olan ən mütərəqqi təcrübələrə əsaslanaraq məhkəmə sisteminin təkmilləşdirilməsinin respublikamızın hərtərəfli inkişafı, demokratik, hüquqi dövlətin möhkəmlənməsi üçün başlıca şərt olduğunu vurğuladı. Cənab İlham Əliyev ölkə Prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən məhkəmələrin insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunduğu, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin həyata keçirildiyi instansiyaya çevrilməsini prioritet hesab etdi.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olaraq ötən dövrdə dövlət başçısı tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, məhkəmələrə əlçatanlığın və müraciət imkanlarının asanlaşdırılması, şəffaflığın artırılması, sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı mütərəqqi addımlar atıldı.

Sözsüz ki, bu addımlar ölkə başçısının qəti siyasi iradəsinə, onun islahatçılığına əsaslanır. Təsadüfi deyil ki, həyata keçirdiyi islahatların miqyasına görə Azərbaycan Prezidentinin adı dünyanın ən islahatçı liderləri sırasında çəkilir və dövlət başçı-

sının islahatlara meyilliliyinə görə nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında ölkəmiz dünyada 5-ci yerə yüksəlib.

İslahat o zaman uğurlu nəticə verir ki, onun həyata keçirilməsi zəruriliyi cəmiyyətin inkişaf tempinə, dövrün tələblərinə uyğun olsun. Bu amili nəzərə alan dövlət başçısının ötən dövrdə imzaladığı çoxsaylı mühüm fərman və sərəncamlar məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara uyğun təkmilləşməsinə və müasirləşməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə xidmət etdi.

Ölkə başçının ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarının icrası çərçivəsində 2004-cü ildə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradılaraq bu sahədə mühüm qanun layihələri hazırlandı və nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə Avropa Şurasında ekspertizadan keçirildi. “Məhkəmələr və hakimlər haqqında” Qanuna əsaslı dəyişikliklər edildi, “Məhkəmə-Hüquq Şurası haqqında” yeni Qanun qəbul olundu. 2005-ci ilin fevralında ölkəmizdə yeni təsisat – məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası fəaliyyətə başladı.

Elə ilk gündən ədalət mühakiməsinə əlçatanlığı asanlaşdırmaq, məhkəmələrə ictimai etimadı və inamı yüksəltmək naminə məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin ən şəffaf prosedurlarla seçiminin aparılması, tədrisinin müasir tələblər səviyyəsində qurulması və peşəkarlığının artırılması kimi vacib məsələlər Məhkəmə-Hüquq Şurasının hədəfləri sırasına daxil oldu. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması baxımından Şuranın səlahiyyətləri davamlı olaraq genişləndirildi, məhkəmə sistemi ilə bağlı bütün məsələlər, o cümlədən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi və vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb olunması və həvəsləndirilməsi onun müstəsna səlahiyyətlərinə aid edildi.

Dövlət xidmətlərinin vətəndaşlar üçün hər zaman əlçatan və asan olmasını, insanların dövlət orqanlarına daha rahat müraciət etmələrini vacib sayan Prezident İlham Əliyev məhkəmə-hüquq sahəsində də bu məsələyə xüsusi diqqət yetirdi. Məhkəməyə əlçatanlığın məhkəmə sisteminin quruluşundan, xüsusilə ixtisaslaşdırılmış və regional məhkəmələrin fəaliyyətindən çox dərəcədə asılı olduğunu nəzərə alaraq məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı 2006-cı il 19 yanvar və 2010-cu il 15 iyul tarixli fərmanlarla bu sahədə institusional islahatlar aparıldı. Belə ki, regionların sosial-iqtisadi inkişafı şəraitində ölkə başçısının tapşırıqlarına uyğun olaraq bölgələrdə yaşayan insanların məhkəmələrə çatımlığının yaxşılaşdırılması məqsədilə 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, habelə əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edildi. 2010-cu ildə isə respublika üzrə vahid olan ağır cinayətlər məhkəməsinin

əvəzində bölgələrdə yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı ümumilikdə 5 oldu, hərbi məhkəmə sistemi təkmilləşdirildi.

Eyni zamanda, məhkəmə-hüquq sistemimizin inkişafında ən mühüm hadisələrdən biri kimi ilk dəfə olaraq inzibati ədliyyə institutu təsbit edildi. 2011-ci ildən ölkəmizin 7 bölgəsində dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayan yeni inzibati məhkəmələr fəaliyyətə başladı.

İslahatlar həyata keçirilərkən Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olması nəzərə alınaraq əhali üçün əlverişli şəraitin yaradılması məqsədilə orada da yeni məhkəmələr təsis olundu, Muxtar Respublikanın Ali Məhkəməsi tam apellyasiya instansiyası xarakteri aldı.

Dövlət başçısının rəhbərliyi ilə iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkəmizdə mülki dövriyyənin genişlənməsi, habelə əhalinin məhkəmələrə çatımlığının asanlaşdırılması üzrə görülən ardıcıl tədbirlər məhkəmələrə daxil olan işlərin sayına da əsaslı təsir göstərdi və məhkəmələrdə baxılan mülki işlərin sayı ilbəil çoxaldı. İşlərin baxılması keyfiyyətinə mənfi təsir göstərən amillərdən biri kimi hakimlərin iş yükünün çox olması nəzərə alınaraq, ölkə Prezidenti tərəfindən hakimlərin sayı 2 dəfə artırılaraq 600-ə çatdırıldı, məhkəmə aparatı işçilərinin sayı 75 faiz artırıldı, hər bir hakimə köməkçi ştatı ayrıldı.

Vakant hakim ştatlarının komplektləşdirilməsi məqsədilə ölkəmizdə hakimliyə namizədlərin seçimi prosesi əsaslı surətdə təkmilləşdirildi, onların Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası təsbit olundu, ayrıca müstəqil qurum – Hakimlərin Seçki Komitəsi yaradıldı.

Tətbiq olunan şəffaf seçim proseduru sayəsində ölkəmizin məhkəmə korpusunun 70 faizdən çoxu yeni nəsil hakimlərlə təzələndi. Bu sahədə Azərbaycanın müsbət təcrübəsini öyrənən Avropa Şurası və Avropa İttifaqı onu yaxşı praktikaların maraqlı modeli kimi dəyərləndirərək digər dövlətlərə ondan bəhrələnməyi tövsiyə etdi.

Bütün bu tədbirlər insanların məhkəmələrə müraciət imkanlarının genişlənməsinə, hakimlərin iş yükünün, süründürməçilik və digər pozuntuların azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına, insanların məhkəmə hakimiyyətinə inamının artırılmasına şərait yaratdı, habelə bölgələrdə digər hüquq institutlarının inkişafına əsaslı təkan verdi.

“Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik”, – deyən Prezident İlham Əliyev cəmiyyət həyatının bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının, şəffaf və innovativ metodların daha geniş tətbiqinə çox böyük önəm verir.

Dövlət başçısı həyata keçirdiyi islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi ilə bağlı innovativ addım atdı – “Elektron məhkəmə” informasiya

sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoydu. Yeni sistem insanlara məhkəməyə gəlmədən, elektron formada müraciət etmək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal almaq, habelə məhkəmə proseslərini audio-video və digər texniki vasitələrlə qeydə almaq, proses iştirakçıları üçün məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olmaq imkanı yaratdı.

Artıq məhkəmələrdə elektron sənəd dövriyyəsi, işlərin elektron qaydada bölgüsü, elektron idarəetmə və "Elektron-bildiriş" informasiya proqramları, proseslərin elektron qeydiyyatı sistemi tətbiq olunur.

Eyni zamanda, hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı (www.courts.gov.az) təşkil edildi, hər bir məhkəmə və hakim barədə ətraflı məlumatlar həmin portalda yerləşdirildi. Portal vasitəsilə vətəndaşlara məhkəmələrə onlayn rejimində müraciət etmək və cavab almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, qəbul günləri və s. barədə ətraflı məlumat almaq imkanı yaradıldı.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılmasını çox ciddi islahat adlandıran dövlətimizin başçısı onun tətbiqinin şəffaflığı təmin etməklə məhkəmə sistemini daha da müasir və daha da böyük inama malik olan sistemə çevirəcəyini vurğuladı.

Ötən dövrdə, həmçinin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin əhəmiyyəti nəzərə alınaraq məhkəmələrdə əsaslı təmir və yenidənqurma işləri aparıldı, iş şəraiti müasir tələblərə uyğunlaşdırıldı, dövlət başçısının tapşırığı ilə paytaxtda və bölgələrdə yeni məhkəmə binaları və kompleksləri inşa olunaraq istifadəyə verildi, Ali Məhkəmə üçün məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun, xüsusi memarlıq üslubu ilə yeni əzəmətli binanın inşa edilməsi ölkəmizin hüquq həyatında əlamətdar hadisələrdən oldu.

Həmçinin dövlət başçısının tapşırıqları və dəstəyi ilə Dünya Bankı ilə birgə "Ədliyyə sisteminin müasirləşdirilməsi" və "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihələri uğurla həyata keçirilərək bu sahədə ardıcıl tədbirlər görüldü.

Məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin təzahürü olaraq Prezident İlham Əliyevin bir çox yeni məhkəmə bina və komplekslərinin açılışlarında şəxsən iştirakı bir daha təsdiq edir ki, dövlət başçısı hər zaman verdiyi tapşırıqların icrası ilə yerində maraqlanır, görülən işlərə bilavasitə nəzarət edir.

Qeyd olunmalıdır ki, ölkə Prezidentinin rəhbərliyi ilə bu sahədə həyata keçirilən islahatlar beynəlxalq aləmdə təqdir olunur və təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihəni ən uğurlu layihələrindən biri kimi qiymətləndirərək "Vətəndaşlara daha yüksək key-

fiyyətli xidmətlərin göstərilməsi üçün innovativ üsulların yaradılması və tətbiqi" nominasiyalarının qalibi elan etdi. Həmçinin ölkəmiz Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak edərək məhkəmə sistemindəki nailiyyətlərinə görə "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilindi.

Dünya təcrübəsi göstərir ki, bu sahədə islahatlar davam edən bir prosesdir. Hər bir ölkənin inkişafında məhkəmə-hüquq sisteminin təkmilləşməsinin çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayan dövlətimizin başçısının qeyd etdiyi kimi, bu proses hətta inkişaf etmiş ölkələrdə də daim gedir. Yəni, bu prosesin əvvəli var, amma sonu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatlar 2019-cu ildə müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçdi. Belə ki, cari ildə bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində mütərəqqi islahatların daha intensiv aparılacağı və yeni mərhələyə keçəcəyi anonsunu verən möhtərəm Prezidentimiz aprelin 3-də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalayaraq onun icrasının bu sahədə ciddi dönüşə səbəb olacağını vurğuladı. Bu, dövlətimizin başçısının cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılmasına, vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürüdür.

Ölkə Prezidentinin məhkəmə sisteminə qayğısı, bu sahədə atdığı bütün addımlar, mühüm qərarlar əhali tərəfindən yüksək qiymətləndirilir və bu dəstək vətəndaşların dövlət başçısına ünvanladığı məktub və müraciətlərdə də aydın ifadə olunur.

Ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olan Fərmanın aidiyyəti qurumlarla birgə təxirəsalınmadan icrasına başlanılaraq qısa müddətdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görüldü. İlk növbədə, kommersiya məhkəmələrinin təşkili, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən alternativ – özəl ekspertizanın tətbiqi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması və digər məsələlərlə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmaqla 40-dək normativ aktın layihəsi işlənib hazırlandı.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə ədliyyə və məhkəmə sisteminin daha səmərəli fəaliyyətinin təmin edilməsində mühüm rol oynayan bir sıra yeni qanunlar qəbul edildi. Bu ilin iyul ayında qəbul olunmuş ilk qanunvericilik aktları paketi islahatların institusional komponentini əhatə etdi. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və çevik baxılmasını təmin etmək məqsədilə ölkə Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə yeni regional kommersiya

və inzibati məhkəmələr yaradıldı. 2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayan həmin məhkəmələrin ərazi yurisdiksiyası, aparılmış təhlillərə uyğun olaraq hakim və aparat işçilərinin ştat sayı müəyyən edildi, infrastruktur, maddi-texniki təminatla bağlı zəruri tədbirlər görüldü.

Bundan əlavə, hakimlərin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirildi, məhkəmə fəaliyyətinin təminatı yaxşılaşdırıldı. Dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında ikinci qanun layihələri paketi isə bu günlərdə qəbul olundu. 2020-ci il martın 1-dən qüvvəyə minəcək həmin dəyişikliklər məhkəmə-hüquq islahatlarının iki mühüm istiqamətini əhatə edir.

Məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bu günədək vahid məhkəmə təcrübəsini formalaşdırmağa imkan verən mexanizmlər qanunvericilikdə kifayət qədər tənzimlənmirdi.

Bununla əlaqədar, yeni qanunvericiliyə əsasən Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsi "Məhkəmələr və hakimlər haqqında" Qanunda birbaşa təsbit edilir, Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahların əhəmiyyəti artırılır, həmin izahlardan fərqli qərarların qəbul edilməsinin konkret hüquqi nəticələri müəyyən edilir.

Bundan əlavə, yeni qanunvericilikdə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə, Ali Məhkəmənin Plenumunun müvafiq izahlar verməsi, sonra bu sahədə məhkəmə fəaliyyətinin monitorinqinin təşkil edilməsi və monitorinq zamanı nöqsanlar aşkar edildiyi təqdirdə bunun hakimlər üçün müvafiq məsuliyyət yaratması təsbit olunur.

Qanunvericilik paketinin digər mühüm istiqaməti keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsində, ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən məhkəmə ekspertizası fəaliyyətini əhatə edir. Mühüm yenilikləri nəzərdə tutan bu dəyişikliklər nəticəsində məhkəmə ekspertizasını həyata keçirmək, habelə ekspertizanın keçirilməsini təyin (sifariş) etmək hüququ olan subyektlərin dairəsi genişləndirilir. Təcrübədə bir sıra hallarda haqlı şikayətlərə səbəb olan ekspertizanın keçirilməsi və ekspert rəyinin verilməsi müddətləri dəqiqləşdirilir. Dəyişikliklər nəticəsində ölkəmizdə ilk dəfə tətbiq edilən özəl ekspertiza institutu bütün fiziki və ya hüquqi şəxslərə, həmin şəxslərin vəkilləri və nümayəndələrinə imkan verəcək ki, onlar özəl məhkəmə ekspertləri ilə bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş etsinlər.

Qeyd etmək lazımdır ki, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslər qanunvericiliklə müəyyən

edilmiş tələblərə cavab verdikləri təqdirdə Ədliyyə Nazirliyi tərəfindən onlara şəhadətnamə veriləcək və reyestrləri aparılacaq. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə biləcəkdir.

Fərmanın icrası çərçivəsində, həmçinin icra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin layihəsi işlənib hazırlandı. "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına dair konkret addımlar atıldı.

İcranın alternativ mexanizmləri, o cümlədən özəl icra institutu ilə bağlı müxtəlif dövlətlərin təcrübəsi ilə yerində tanış olundu, ölkəmizdə onun pilot qaydada tətbiqi məqsədəmüvafiq bilinərək müvafiq hazırlıq işləri görülür.

Ötən dövrdə hakimlərin sayının artırılmasına baxmayaraq, ölkəmizdə onların əhaliyə nisbətdə sayı Avropa dövlətləri ilə müqayisədə hələ də az olmaqda qalırdı – bəzi Avropa dövlətlərində hər 100 min nəfərə 20-dən artıq hakim düşdüyü halda Azərbaycanda bu göstərici cəmi 6 hakim təşkil edirdi. Məhkəmələrdə ağır iş yükünün olması və hakimlərin sayının kifayət qədər olmaması, təbii ki, işlərin baxılma müddətinə və keyfiyyətə mənfi təsir göstərir. Bu baxımdan dövlət başçısı tərəfindən Fərmanla hakimlərin sayı mövcud korpusun üçdəbiri qədər – 200 vahid artırıldı və yeni ayrılan ştatların doldurulması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçim qaydası təkmilləşdirilərək bu prosesdə çeviklik artırıldı. İmtahanların müasir texnologiyalar tətbiq edilməklə keçirilməsi, hər bir namizədin sualları kompüter vasitəsilə, fərdi qaydada cavablandırması və nəticələrin dərhal elan olunması təsbit edildi.

Cari ildə hakimliyə namizədlərin sənədlərinin qəbulu davamlı xarakter alaraq sənədlərini təqdim etmiş namizədlərlə qeyd olunan üsullarla test və yazılı imtahanlar keçirildi. Hər iki mərhələdən uğur qazanmış 81 nəfər namizədlə hazırda Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilir. Növbəti test imtahanında uğur qazanmış 108 nəfər namizədlə isə bu ərəfədə yazılı imtahan keçirilib.

Şübhəsiz ki, hakim ştatlarının komplektləşdirilməsi məhkəmələrdə iş yükünün azalmasına, işlərə keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

Bununla yanaşı, hakimlərin iş yükünün digər vasitələrlə azaldılması diqqətdə saxlanılaraq cari ildən qanunvericiliyə edilmiş dəyişikliklərlə əlaqədar məhkəmə baxışının tezliyinin təmin olunması məqsədilə kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat proseduru təsbit olundu, iqtisadi işlər üzrə icraatın yalnız elektron qaydada – "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması və məhkəmə proseslərinin fasiləsiz audio-video yazılışı təmin edildi, mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlərin məhkəmədən kənar, elektron

qaydada notariusun icra qeydi ilə asan həlli imkanı yaradıldı.

Fərmanın icrası çərçivəsində mübahisələrin məhkəmədən kənar həllində mühüm vasitə olan mediasiyanın respublikamızda tətbiqi ilə bağlı Avropa İttifaqı ilə birgə yeni layihənin icrasına başlanıldı, növbəti ildən tətbiq ediləcək "Mediasiya haqqında" Qanunun implementasiyası ilə əlaqədar nazirlik tərəfindən çoxsaylı normativ sənəd layihələri hazırlanaraq qəbul olundu. Həmçinin ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqi ilə bağlı Avropa İttifaqı ilə birgə "Biznes mühitinin inkişafı ilə əlaqədar normativ hüquqi bazanın dəstəklənməsi" layihəsi çərçivəsində yerli və beynəlxalq qanunvericilik təhlil olundu, qabaqcıl təcrübələr nəzərə alınmaqla yol xəritəsi hazırlandı.

Bundan əlavə, hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilələrin və digər neqativ halların aradan qaldırılması və s. məsələlər üzrə mühüm qanunvericilik və institusional tədbirlər həyata keçirildi, o cümlədən Fərmanla qarşıya qoyulmuş məsələlərin icrası məqsədilə Məhkəmə-Hüquq Şurasında "qaynar xətt" və monitorinq sektorları yaradıldı.

Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən Fərmandan sonrakı dövrdə 50-yə yaxın məhkəmədə monitorinqlər aparıldı, yol verilən pozuntular 100-dən artıq hakimin və məhkəmə sədrinin diqqətinə çatdırıldı, daha kobud pozuntularla bağlı isə 39 hakim barəsində intizam icraatlarına baxılaraq onlardan 6-sı tutduğu vəzifədən azad olundu, 2 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verildi, digərləri barəsində isə müxtəlif intizam tənbehi tədbirləri görüldü.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin respublikanın bütün ərazisində əhatə olunması və sistemin bütövlükdə ahəngdar işləməsinin təmin edilməsi, funksionallığının artırılması üzrə əməli tədbirlər görüldü, o cümlədən məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştirak etməyə və s. imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlandı. Ölkəmizdə rəqəmsal transformasiyanın daha bir nümunəsi olaraq, yaradılan "Mobil məhkəmə"nin dünyada tətbiqinə çox az rast gəlinir və demək olar ki, Azərbaycan bu sahədə birincilər sırasındadır.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması yolunda növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı hədiyyə olan "Mobil məhkəmə" məhz bu gündən – 24 dekabr tarixindən istifadəyə verilir. Artıq bu tarixdən etibarən vətəndaşlar "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından mobil qaydada istifadə edəcək və faydalana biləcəklər. Bu məqsədlə "Fairmont" otelində millət vəkillərinin, hakim, prokuror və vəkillərin, habelə vətəndaş cəmiyyəti və çoxsaylı KİV nümayəndələrinin iştirakı ilə həmin proqram

təminatının ictimaiyyətə geniş təqdimatı keçirilir.

Ölkə Prezidentinin Fərmanda verdiyi mühüm tapşırıqlardan biri məhkəmə hakimiyyətinin nüfuzunun artırılması, cəmiyyətdə məhkəmələrə ictimai etimadın möhkəmlənməsi, şəffaflığın artırılması ilə bağlıdır. Bu sahədə görülən işlər çərçivəsində məhkəmə fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması, o cümlədən kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə məhkəmələrdə media ilə işləyəcək hakimlər müəyyən edildi. Bununla bağlı Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə çoxsaylı KİV rəhbərləri və nümayəndələri ilə görüş keçirilərək məhkəmələrlə media orqanları arasında səmərəli əməkdaşlıq, məhkəmə fəaliyyəti barədə əhalinin mütəmadi, dolğun və düzgün məlumatlandırılması məsələləri müzakirə olundu, həmin spiker-hakimlər KİV təmsilçilərinə təqdim edildi.

Fərmanın icrası üzrə görülən işlər, bütövlükdə məhkəmə-hüquq sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər beynəlxalq aləmdə təqdir olunur, o cümlədən Dünya Bankının "Doing Business 2020" hesabatında yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiqi üzrə görülən tədbirlər müsbət nəticələr kimi əks olunub.

Ölkə başçısının "İslahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma, tərəqqi deməkdir" fikrinə əsaslanaraq deyə bilərik ki, məhkəmə-hüquq sistemi dövlətimizin başçısının qayğısı ilə daim təkmilləşir və inkişaf edir. Ölkəmizdə həyata keçirilən hərtərəfli, o cümlədən məhkəmə-hüquq islahatının aparılmasında dövlətimizin başçısının göstərdiyi güclü siyasi iradə, islahatlara verdiyi müstəsna əhəmiyyət və dəstək hər birimizi üzərimizə düşən vəzifələri bundan sonra da böyük məsuliyyət və şərəflə yerinə yetirməyə səfərbər edir.

Fürsətdən istifadə edib, doğum günü, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dövlətimizin başçısını, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı və onların ölkəmizin hərtərəfli tərəqqisinə dəyərli töhfələr verən bütün ailə üzvlərini ədliyyə işçiləri adından təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik və səadət, doğma Vətənimizin daha da çiçəklənməsi naminə yorulmaz fəaliyyətlərində uğurlar arzulayırıq. Qəti əminik ki, qədirbilən xalqımız dövlətimizin başçısı cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə hələ uzun illər yeni-yeni möhtəşəm qələbələrin şahidi olacaq, müstəqil dövlətimiz gündən-günə inkişaf edərək daha da möhkəmlənəcəkdir.

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri.**

# HEYDƏR ƏLİYEV YOLU AZƏRBAYCANI DAHA YÜKSƏK ZİRVƏLƏRƏ APARACAQ

***Ulu öndər Heydər Əliyevin anım günü xalqımız tərəfindən böyük ehtiramla yad edildi. Ümummilli liderimiz Heydər Əliyev xalqımız üçün böyük siyasi irs, dövlətçilik məktəbi, inkişaf, tərəqqi yolu qoyub. Ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının yeganə yolu Heydər Əliyev yoludur. Heydər Əliyev elə böyük şəxsiyyətdir ki, onun xalqımız üçün gördüyü misilsiz işləri saymaqla qurtaran deyil. Bu fəaliyyət yeni nəslə mütləq çatdırılmalıdır. Gənc nəsil ulu öndərimiz haqqında məlumatları kitablardan oxuyur, televiziyalardan izləyir və s. Amma elə nəsil var ki, dahi şəxsiyyətlə bir dövrdə yaşayıb, işləyib, fəaliyyətinin nəticələrini öz həyatında hiss edib. Yeni Azərbaycan Partiyasının funksioneri kimi mən ulu öndər Heydər Əliyevlə tədbirlərdə iştirak etmişəm, görüşmüşəm, onun dəyərli tövsiyələrini dinləmişəm.***

Tarixi şəxsiyyət bizim xatirəmizdə əbədi yaşayır. Mən Heydər Əliyevi ilk dəfə canlı olaraq tələbəlik illərində – 1973–1978-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil alarkən görmüşəm. O vaxtlar Yeni il ərəfəsində axşam saat 7–8 radələrində Bakının mərkəzində yerləşən “Azərbaycan” kinoteatrının yanında tələbə yoldaşlarımızla gəzirdik. Kinoteatrla üzbəüz ərzaq dükanı var idi. İlk dəfə Heydər Əliyevi orada gördüm. O vaxt Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd idi. Həmin vaxt Heydər Əliyevə çox yaxın dayanmışdıq. O, ətrafındakı insanlarla söhbət etdi, o cümlədən bizə də suallar verdi, təhsilimizlə maraqlandı. Bu xoş hadisəni hər zaman xatırlayıram.

Daha sonra müstəqillik illərində ulu öndər hakimiyyətə qayıtdıqdan sonra siyasi proseslərdə iştirakım və YAP-da vəzifə daşımağım onunla görüşmək, birgə tədbirlərdə iştirak etmək, tövsiyə və tapşırıqlarını dinləmək imkanı yaratdı.

Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. Ulu öndər dövlət başçısı olması ilə bərabər çox həssas, insanlara qarşı son dərəcə diqqətcil idi. Heydər Əliyevdə əsl lider xüsusiyyətləri və keyfiyyətləri vardı. Bu gün yeni nəsil Heydər Əliyevin nəhəng fəaliyyətini, onun zəngin irsini dərindən öyrənərək mənimsəməkdədir.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi respublikamızın həyatında əsaslı dönüş yaratdı. Xalqını, millətini, Vətənini sonsuz məhəbbətlə sevən ulu öndərin hələ sovetlər dönəmində hakimiyyətə gəlməsi Azərbaycanın həyatında dönüş nöqtəsi idi. Hakimiyyətə gələnə qədər Azərbaycan keçmiş İttifaq miqyasında geridə qalan respublikalardan biri idi, aqrar respublika hesab olunurdu. Amma 1969-cu ildən sonra Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində Azərbaycan müttəfiq respublikalar arasında öncül yerə yüksəldi.

Tarixdə şəxsiyyətin rolunu heç kim in-

kar edə bilməz və Heydər Əliyev fəaliyyəti ilə bu fikri bir daha təsdiqlədi. O, misilsiz xidmətləri sayəsində 1969–1982-ci illərdə Azərbaycanı sonuncu yerdən ən yüksək yerə qaldırdı. Aqrar respublika olan Azərbaycan sənaye-aqrar respublikasına çevrildi. Bu illər ərzində respublikamızda xeyli sayda böyük sənaye müəssisələri yaradıldı, kənd təsərrüfatında yüksək inkişaf baş verdi, çoxlu sayda ali məktəb açıldı. Eləcə də, yeni, savadlı, intellektual ziyalı nəsli formalaşdı, elm, yaradıcı insanların dünya miqyasında tanınması, yüksək dövlət mükafatları ilə təltif olunması istiqamətində tədbirlər görüldü.

Yeri gəlmişkən, qeyd edim ki, biz bu gün böyük mütəfəkkir şairimiz İmadəddin Nəsiminin 650 illiyini böyük təntənə ilə qeyd edirik. Amma Heydər Əliyev hələ sovetlər dövründə Nəsiminin 600 illiyinin UNESKO səviyyəsində qeyd edilməsinə nail olmuşdu. Bu hadisə tarixi şəxsiyyətlərimizə sahib çıxmaq deməkdir. Yəni, ulu öndərimiz bütün fəaliyyəti ilə xalqımızın gələcəyi üçün böyük fədakarlıqlar göstərib.

Heydər Əliyev respublikamıza birinci hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinin iqtisadi, ideoloji və kadr bazasını formalaşdırdı. O dövrdə özünü təmin etmək imkanı olan respublikalardan biri Azərbaycan idi. Eləcə də, gənclər keçmiş İttifaq miqyasında nüfuzlu ali məktəblərdə təhsil almağa göndərilirdi.

1978-ci ilin Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Həmin il sərt sovet rejiminin tüğyan etdiyi dönəmdə Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi böyük risk və təhlükə idi. Ancaq xalqına və millətinə sonsuz məhəbbəti olan ulu öndər bu riski etdi və istəyinə nail oldu. Həmçinin ziyalılar, yaradıcı insanlar milli ruhda əsərlər yazmağa başladılar. Bütün bunlar özünəqayıdışın nümunələri idi. Bir sözlə, ulu öndərin bu fədakarlığı nəticə verdi və həmin baza əsasında Azərbaycan sonradan müstəqilliyə qovuşdu.

Ümummilli liderimizin hakimiyyətinin ikinci mərhələsi müasir tariximizdə müstəqilliyimizin əbədiyyətə çevrilməsi, Azərbaycanın müstəqil dövlət kimi dünya birliyində tanınması, xalqımızın qarşılaşdığı bəlalardan xilas edilməsi və istiqlaliyyət yolunda qətiyyətli addımları ilə yadda qalıb. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı həm strateji, həm də ümummilli baxımdan çox mühüm əhəmiyyət kəsb edən hadisə idi. Ulu öndərin siyasi hakimiyyətə qayıdışı günü milli müstəqil dövlətimizin həyatında, bütövlükdə Azərbaycanın tarixində müstəsna yer tutan günlərdən biridir.

Hər bir hadisəyə nəticəsinə görə qiymət verilir. Heydər Əliyevin 15 iyun 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtması böyük hadisə olmaqla, Azərbaycan üçün milli baxımdan ciddi nəticələr verdi. Ümummilli liderimizin siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin həyatında dönüş nöqtəsi idi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı. Bu qayıdış milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi.

Heydər Əliyev hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycanı dağılmaqdan, ölkəmizi iflasdan, iqtisadi tənəzzüldən, xaos-

dan, özbaşınalıqdan xilas edərək inkişaf yoluna qədəm qoymaq üçün zəmin yaratdı. Dahi şəxsiyyət siyasi hakimiyyətə qayıdana qədər Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Onun hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda, regionda öz mövqeyini möhkəmləndirdi, sosial, mənəvi, iqtisadi, psixoloji sahələrdə Azərbaycan millətinin maraqlarına uyğun siyasət həyata keçirdi.

Heydər Əliyev müstəqil dövlətimizin təməl prinsiplərini yaradıb. Bu gün Azərbaycan həmin prinsiplər əsasında inkişaf edir. Bu təməl prinsipləri müasir çağırışlara uyğun olaraq müəyyən yeniliklərə məruz qalsa da, onun nüvəsi dəyişməzdir.

Ulu öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri də möhkəm təməllər üzərində qurulan bu dövlətin inkişaf siyasətinin davamı ilə bağlı siyasi varis yetişdirməsi oldu. Azərbaycanın dövlət idarəçiliyində siyasi varislik anlayışı var. Siyasi varislik prinsipi Yeni Azərbaycan Partiyasının proqramında da öz əksini tapır. Burada söhbət dövlətin söykəndiyi təməl prinsiplərinin davam etməsindən gedir. Ona görə də, hər bir cəmiyyətdə varislik prinsipi olmalıdır. Bu prinsip pozularsa, təbəddülatlar baş verə bilər. Məsələn, Türkiyədə bu dövlətin qurucusu Mustafa Kamal Atatürkün müəyyən etdiyi prinsiplər var. Qardaş ölkədə ayrı-ayrı partiyalar hakimiyyətə gəlsələr də, həmin prinsiplər təməl olaraq bu gün də qalır. Bu mənada, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi prinsiplər dövlətçiliyimizin təməl prinsipləridir. Azərbaycançılıq ideologiyası, qanunçuluq, hakimiyyətin mənbəyinin xalq olması, vətəndaş həmrəyliyi təməl prinsiplərimizdir. Ulu öndərin müəyyən etdiyi prinsiplər ölkəni daim irəliyə aparır. Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasəti də bu təməllər üzərindədir və bu gün ölkəmiz uğurla inkişaf edir.

Bu gün Azərbaycan nəinki regionun lider dövlətidir, eyni zamanda, dünyada böyük nüfuza sahibdir, reytinqi getdikcə yüksəlir, əlaqələri daha da genişlənir. Dünyanın inkişaf etmiş dövlətləri ölkəmizlə hərtərəfli əməkdaşlığa böyük maraq göstərirlər. Azərbaycanın dinamik inkişafı bütün sahələri əhatə edir, əhalinin rifahı davamlı olaraq yüksəlir, Azərbaycan gücünü, qüdrətini daha da artırır. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr beynəlxalq miqyasda Azərbaycanın mövqeyini gücləndirir. Bu amillər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə də dəstək verməkdədir.

Bütün bu nailiyyətlərin əsasında Heydər Əliyev siyasəti dayanır. Biz Azərbaycan xalqı olaraq ulu öndərin əziz xatirəsini həmişə yad edirik və bundan sonra da edəcəyik. Heydər Əliyev yolu Azərbaycanı daha yüksək zirvələrə aparacaq.

**Mübariz QURBANLI,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini.**

# İLHAM ƏLİYEV ELƏ AZƏRBAYCAN DEMƏKDİR!

*2019-cu ilin 2020-ci illə qovuşub zamanın aramsız axınındakı yerini ona ötürməsinə sayılı dəqiqələr qalmışdı...*

**Bəlkə siz də duymusunuz bunu, Yeni il ərəfəsində adamın qəlbini qəribə bir həyəcan bürüyür, insan özünə də, ölkəsinə də, ümumən yaşadığımız dünyaya da xoş arzular diləyir və bu arzuların həyata keçəcəyinə sidq-ürəkdən inanır. Nəsə xoş şeylərin baş verəcəyini gözləyir. Yeni il günlərini ən çox bu həyəcanına görə sevirəm...**

**Beləcə xoş bayram ovqatı içində 2020-ci ilin gəlişini gözləyirdik. Saatın əqrəblərinin 12 rəqəminin üzərində dayanmasına bir neçə dəqiqə qalmış illərin ənənəsinə uyğun olaraq kanalı Azərbaycan Televiziyasına çevirdim, hamımız ekran qarşısına yığışdıq və televiziya önündə baba-nənələrdən körpə nəvələrə qədər üç nəsli özündə birləşdirən maraqlı ailə portreti yarandı.**

**"Əziz həmvətənlər.**

2019-cu il arxada qalır. Bu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz inkişaf yolu ilə uğurla gedib..."

Prezident İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza təbriki artıq başlamışdı və dövlət rəhbərinin təbrik çıxışını dinləyirdik.

Bir anlıq düşündüm ki, indi dünyanın müxtəlif səmtlərində kanalı Azərbaycan televiziyasına çevirib ekran qarşısına toplaşaraq dövlət rəhbərinin çıxışına diqqət kəsilən nə qədər Azərbaycanlı ailəsi var. Bu ailələr hamısı bir yerdə Böyük Ailəmizin – Azərbaycan ailəsinin möhtəşəm rəsmini cızır, milli həmrəyliyimizin portretini yaradır.

"...Azərbaycan xalqı 2019-cu ildə təhlükəsizlik şəraitində yaşamış, qurmuş, yaratmışdır".

Cənab İlham Əliyev özünəməxsus təmkin və qətiyyətlə çıxış edirdi. Azərbaycan Prezidentinin çıxışının bir kəlməsini də ötürməməyə, dinlədikcə özüm üçün təhlil etməyə çalışırdım.

Bu çıxışda keçmişin dəyərləndirilməsi də vardı, ötən müddət ərzində Azərbaycan adına görülmüş işlər haqqında dünyadakı bütün soydaşlarımız və ümumən tarix qarşısında verilən hesabat da, gələcəyə ümid və inam da...

Amma şəxsən mənim üçün bu çıxışın dəyəri bir başqa idi...

Azərbaycan Prezidentinin təbrik nitqini böyük bir tarixi salnamə kimi dinləyirdim...

***

Dövlət rəhbərlərinin, hökumət başçılarının, ümumən xalqın səlahiyyət verdiyi idarəçi şəxslərin öz üzərlərinə düşən vəzifələri yerinə yetirərək bu barədə vətəndaşları məlumatlandırması, əslində bütün dünyada əsrlərin formalaşdırdığı təcrübədir.

Eləcə də dünyanın ən müxtəlif ölkələrində dövlət rəhbərləri Yeni il ərəfəsində xalqa təbrik sözlərini çatdırır, görülmüş və görüləcək işlər haqqında məlumat verirlər. Burada qeyri-adi heç nə yoxdur, bir çox cəmiyyətlər üçün, bəlkə də bu, sıradan bir təqvim hadisəsidir.

Amma xalqların, dövlətlərin tarixində elə dönəmlər olur ki, onların hər ilinə, hətta ayına, həftəsinə, gününə belə adi bir təqvim faktı kimi yanaşa bilmirsən. Çünki xalqın, dövlətin keçmişi, bu günü və gələcəyi, tarixi taleyi üçün bu dönəmə aid ən kiçik zaman parçası da həlledici əhəmiyyət daşıyır.

Məhz o dönəmdə görülən işlər, verilən qərarlar, atılan addımlar keçmiş haqqında düşüncələri müəyyən edir. Keçmişin doğrularından xalq bu gününün və gələcəyinin bütün məqamlarında barınır, o, doğruların möhkəm təməlləri üzərində yeni inkişaf ucalıqları yüksəldir.

Xalq o doğrulardan başlanır... Əslində dövlət də o doğrulardan başlanır...

Vətənin nailiyyətləri məhz o taleyüklü məqamlarda itirilməmiş vaxtlardan, fövtə verilməmiş fürsətlərdən rişələnib zamanın hüdudlarından boy göstərir...

Yanlışlarla, tərəddüdlərlə, səhv qərarlarla dolu keçmiş isə xalqın bu günü və gələcəyinə acı peşmanlıqlardan başqa heç nə buraxmır. Zamansa axıb gedir. Əfsus ki, onu geri çevirib, yanlışları aradan qaldırmaq, bir də heç zaman mümkün olmur. Necə ki, biz müstəqilliyimizin ilk illərində ölkənin idarəçilik sükanını təsadüfən ələ keçirib Azərbaycanı məhvə doğru aparan savadsız, səriştəsiz, üstəlik məsuliyyətsiz və vicdansız qaragüruhçuların yol verdikləri tarixi yanlışları aradan qaldırmaq, bais olduqları itkiləri geri qaytarmaq, insanlara çəkdirdikləri acıları ovutmaq gücündə deyilik.

Bircə təsəllimiz var ki, tarix bu acı səhifəsini tez qapayır, bu səhifədə Azərbaycan xalqı üçün son ümidlər də öləziməmiş qapanır və 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin insanlarımızın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra müstəqillik tariximizin tam fərqli, bütün nəsillərin hər anı ilə qürur duya biləcəkləri inkişaf dolu yepyeni bir səhifəsi başlanır...

1993-cü ildən Azərbaycan yeni bir başlanğıca daxil olur...

Elə Prezident İlham Əliyevin 2019-cu ilin son günündə bütün dünya Azərbaycanlılarına ünvanlanmış təbrik sözünə qulaq asınca da bir anlıq mənə elə gəlirdi ki, təkcə ötən bir ilin deyil, 1993-cü ildən üzübəri yaşanmış bütün illərin, müstəqillik tariximizin 26 illik möhtəşəm bir dönəminin, bu illərlə yaşıd olan misilsiz uğurlarımızın hesabatını dinləyirəm...

Amma bu, təkcə keçmişə aid hesabat deyildi ki...

Azərbaycan Prezidenti təbrik nitqində sanki ölkənin 30 il sonrakı gələcəyinin də hesabatını verirdi. Keçmişin və bu günün uğurlarına, irəliyə doğru addımladığımız düzgün yolun əminliyinə, qarşıya qoyulmuş strateji hədəflərin aydınlığına əsaslanaraq, insanların nəzərində ən azı 2050-ci ilin Azərbaycan mənzərəsini canlandırmağa çalışırdı...

Və cənab İlham Əliyevin hər kəlməsində o mənzərəni görə bilmək çox möhtəşəm duyğu idi.

***

"Molodaya Qvardiya" nəşriyyatında "Görkəmli adamların həyatı" seriyasından rus yazıçısı Viktor Andriyanovla birgə həmmüəllifliyimlə nəşr olunan və indiyədək 40-dan artıq xarici ölkədə, dildə çap edilən "Heydər Əliyev" kitabında bir məqamı dəfələrlə vurğulamışam: Ümummilli Lider bütün dövrlərdə 20-30 il sonranın Azərbaycanını görə bilirdi.

Eyni bəsirəti indi cənab İlham Əliyevdə də müşahidə edəndə buna əsla təəccüblənmirəm. Liderlik qabiliyyətləri haqqında azdan-çoxdan oxuduqlarım, eşitdiklərim öyrədir ki, əsl lider üçün ən mühüm keyfiyyət, məhz elə onun vizyonudur. Yəni rəhbərlik etdiyi xırda bir təşkilatdan tutmuş, böyük topluma, ölkəyə, xalqa qədər onların gələcəyini təfəkküründə şəkilləndirməyi bacarmasıdır.

Belə bir liderə sahiblik böyük bir şansdır əslində... Çünki əgər düşüncələrində hər hansısa bir gələcəyin mənzərəsini cızmağı bacarırsansa, real həyatda ona yetişmək, artıq təfərrüatdır, gec-tez o mənzərə gerçəkliyə çevriləcək...

Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin Vətənə qazandırdığı tarixi nailiyyətlərin təməlində də elə gələcəyi irəlicədən duya bilmək qabiliyyəti durur...

***

...Azərbaycan Prezidenti öz təbrik nitqini artıq tamamlamış, saatın əqrəbləri 12 rəqəminin üzərində bərabərləşmiş və möhtəşəm atəşfəşanlıq başlanmışdı. Bakı səmasında ulduz kəhkəşanına çevrilən rəngarəng fişənglərin gözəlliyini seyr etməkdən ötrü biz də eyvana çıxmışdıq.

Bayram atəşfəşanlığının, şəhərin hər yerindən eşidilən partlayışların səs-küyü bütün paytaxtı bürümüşdü, Xəzərdən atılan top atəşləri bu qarışıq sədalar içində xüsusi seçilirdi.

Televiziya da artıq Bakı bulvarından canlı reportaja başlamışdı. Uşaqlı, böyüklü yüz minlərlə insan bayram atəşfəşanlığını yerindəcə seyr etmək, bu təkrarsız mənzərəyə şəxsən şahid olmaq üçün Xəzərin sahilinə toplaşmışdı.

Aşağıdan səmanı seyr edən insanlar fişənglərin göydə yaratdığı rəngarəng ulduz kəhkəşanını tez-tez alqışlayırdılar, ani gözəlliyin yaratdığı çılğın sevinc hissini bu şəkildə ifadə edirdilər.

Şəhərin üzərini tüstü dumanı bürümüşdü, havadan barıt qoxusu duyulurdu...

Bu mənzərəni seyr etdikcə bir anlıq dünyanın yaxın-uzaq ölkələrində tez-tez eşidilən atəş səslərini, havadan gələn barıt qoxusunu, ölkələrin üzərinə çökmüş qara buludları, insanların ah-naləsini də xatırladım...

Və bir cəmiyyət üçün ən böyük xoşbəxtliyin əslində nədən ibarət olduğunu az qala iliklərimə qədər duydum...

Onda hələ ABŞ-la İran arasında son qarşıdurma başlanmamışdı, İran generalı İraqda raket atəşi ilə öldürülməmişdi, İran qisas almaq üçün ABŞ-ın İraqdakı bazalarını vurmamışdı, Ukraynaya məxsus təyyarə İran səmasında səhvən vurulub parça-parça yerə tökülməmişdi, dünyanın müxtəlif səmtlərindən yüzlərlə günahsız sərnişin bu hadisədə həyatını itirməmişdi, bir sözlə, aləm bir-birinə qarışmamışdı...

2020-ci ilin hələ ilk dəqiqələri idi, amma bilirdik ki, yaxın-uzaq ölkələrdə yenə silah səsləri eşidilir, yenə insanlar qorxu altında yaşayır, ani bir silah atəşindən ölüm təhlükəsi milyonlarla insanı təhdid edir, havadakı barıt iyi əslində nə qədər insanın həyatını bürümüş faciələrin qoxusunu gətirir...

Həmin dəqiqələrdə Bakı səmasında izlədiklərimsə zahiri əlamətləri – səsləri, rəngləri, qoxusu çox bənzəyən bu mənzərənin mahiyyətcə tamam əks üzü idi...

O dəqiqələrdə Azərbaycan paytaxtını da atəş səsləri bürümüşdü. Amma bu atəş səsləri insanlara ölüm, faciə, göz yaşları deyil, sevinc gətirən, fərəh bəxş edən, bayram sevincinə unudulmaz çılğınlıq, yüksək ovqat qatan atəş səsləri idi. Bu atəşləri insanların qəlb sızladan hönkürtüsü deyil, ürəyi ehtizaza gətirən alqışları, sevinc sədaları müşayiət edirdi...

Həmin dəqiqələrdə Bakı səmasında seyr etdiklərim faciələrimizin deyil, xoşbəxtliyimizin, bugünkü uğurlarımızın, gələcəyə ümid və inamımızın rəsmini yaradırdı...

O anlarda paytaxt səmasından burnuma dolan barıt qoxusu acılarımızın, itkilərimizin yox, xoşbəxtliyimizin ətri idi...

Və bu gerçəkliyi bütün ruhumla duya-duya 2020-ci ilin mənim üçün ilk və ən müqəddəs duasını ürəyimdə zikr edirdim ki, Tanrım, bu gözəl günləri, xoş zəmanəni bizə çox görmə...

Lütfünü, sevgini həmişə bu yurdun insanlarına rəhnüma et...

Arzularımızı, diləklərimizi eşit, vəhdətimizi daha da möhkəmləndir, Vətəni bəlalardan, fitnə-fəsadlardan uzaq tut...

Azərbaycanı qoruyan insanı – İlham Əliyevi Sən də qoru...

Onun xalq, ölkə, ümumən bəşəriyyətin xoşbəxt gələcəyi naminə yürütdüyü siyasəti, irəli sürdüyü ideyaları məqsədinə çatdır...

***

İnsanlarımızın o gecəki bayram sevinci, fərəhi, qayğısızlığı güclü, sosialyönümlü bir dövlətə aidlik duyğusunun verdiyi rahatlıqdan, yaxşı mənada arxayınlıqdan irəli gəlirdi.

Ötən il dövlət nə qədər adam sıxıntı çəkməsin, banklarla üz-göz olmasın, ölkədə iqtisadi inkişaf öz ahəngində getsin deyə, onların problemli kredit borclarını öz üzərinə götürdü. Əslində bu, dövlətin yox, o kreditləri götürərkən xərclərini düzgün planlaşdırmayan bəzi insanlarımızın məsuliyyəti, daha doğrusu, məsuliyyətsizliyi idi. Amma elə ya belə, problem yaranmışdı, insanlar çətinliklə üzləşmişdi və dövlət bu işə əncam çəkdi.

Yaxud yeri gələndə əllisini əlli yerdə xərcləyən, amma mallarını sığortalamağa pulu qızırğalanan və bir hadisə baş verəndə də naçar vəziyyətdə qalan nə qədər sahibkarı dövlət müşküldən qurtardı, dəstək olub ayağa qaldırdı.

Təbii fəlakətdən ziyan çəkmiş nə qədər insan üçün ev tikildi. Hətta evi bir qədər ziyan görmüş və təmirlə düzəldiləsi olan vətəndaşlara belə hər cür şəraiti olan yeni evlər inşa edildi ki, dövlətin onlara daha böyük faydası çatsın...

Milyonlarla insanı əhatə edən sosial paket, getdikcə artan maaşlar, pensiyalar, bütün ölkə boyu həyata keçirilən infrastruktur layihələri, yaradılan yeni iş yerləri, davamlı islahatlar və onların sadə vətəndaşların həyatına gətirdiyi xoş yeniliklər...

Bugünkü Azərbaycan reallıqları tariximizin və taleyimizin bizə bəxş etdiyi böyük bir lütfdür...

Dövlət rəhbərimizin də qeyd etdiyi kimi, dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır.

Azərbaycan paytaxtı bu gün dünyanın ən gözəl, sakit, hüzur dolu şəhərləri sırasında yer alır. XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyanın enerji mərkəzi kimi tanınan, ötən əsrin ortalarında dünyanı sarmış faşizm kabusunun aradan qaldırılmasında öz nefti ilə həlledici rol oynayan Bakı indi başqa bir tarixi missiyanı da yerinə yetirir.

Qlobal proseslər doğma Bakımızı dünyanın xoş məramlarla döyünən qəlbinə çevirib. Bu şəhər indi qlobal miqyasda sülhün və əmin-amanlığın şəhəridir, bütün bunların təminatı üçün önəmli çağırışların əsas mərkəzlərindəndir. Bəşəriyyətin gələcəyinə yönəlik bir çox ideyalar, mütərəqqi təşəbbüslər Şərqlə-Qərbin görüş yeri olan bu sevimli şəhərimizdən başlanır.

Müasir dövrdə insanların böyük narahatlığına səbəb olan sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirəsinin aparıldığı bir çox mötəbər beynəlxalq tədbirlərə məhz Bakı evsahibliyi edir.

Bakıdan dünyanın bu günü və gələcəyinə taleyüklü çağırışlar ünvanlanır...

***

Azərbaycan bu gün türk və ümumən islam dünyasının da mütərəqqi inkişaf mərkəzidir, XXI əsrin ümumi mənzərəsinin türk və islamın ali dəyərləri işığında müəyyənləşməsi üçün güvənli bir bələdçidir.

Bu baxımdan 2019-cu ildə Azərbaycan həyatında yaşanmış ən mühüm tarixi hadisələrdən biri ötən ilin oktyabrında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) VII Zirvə Görüşünün keçirilməsi oldu. Şuranın bu toplantısı qurumda bir araya gələn ölkələr arasında inteqrasiyanın və əməkdaşlığın daha da inkişafı üçün yeni üfüqlər açdı. Ulu Öndərimizin, sonradan isə Prezident İlham Əliyevin türk dünyası üçün böyük bir gələcəyin

müjdəsi kimi dilə gətirdiyi "XXI əsrin türk əsri olacağı" barədə fikirlərinin, arzularının çin çıxacağı günlərin artıq çox yaxında olduğunu, Azərbaycanın öz strateji təşəbbüsləri ilə o böyük günləri addım-addım xəyallardan reallığa çevirdiyini əks etdirdi.

Türk dünyasının birliyində Azərbaycanın rolunun danılmazlığı bir daha göründü!

Bu müstəsnalığı şərtləndirənsə ölkəmizin geosiyasi mövqeyi, tarixən türk dünyasında oynadığı strateji rolun müasir qlobal reallıqlardakı yeni təzahürü, getdikcə artan iqtisadi qüdrətimiz, ən əsası isə Azərbaycan Prezidentinin şəxsi nüfuzudur.

Cənab İlham Əliyev öz şəxsiyyəti ilə bu gün təkcə Azərbaycanda xalqın milli vəhdət rəmzi kimi çıxış etmir. O, eyni zamanda ümumən türk və islam dünyasında da fərqli mövqeləri bir araya gətirməyə qabil lider kimi qəbul olunur. Azərbaycan Prezidentinə hörmətlə yanaşır, onun rəyi ilə hesablaşır, tövsiyələrini mütləq nəzərə almağa çalışırlar.

Çünki zaman İlham Əliyevi bütün yanaşmalarında, baxışlarında, mövqelərində haqlı çıxarıb!

Çox ölkələr, cəmiyyətlər, dövlət rəhbərləri regiondakı barış, inkişaf mühitinin qorunmasına görə İlham Əliyevin təmkininə, qətiyyətinə, comərdliyinə, ona olan yüksək güvənə, çox kritik zamanlarda tutduğu düzgün mövqeyə və ehtiyac anlarında uzatdığı yardım əlinə minnətdardır.

Məhz bu şəxsiyyətin gücü, ona olan inam sayəsində Azərbaycan hazırda türk-islam dünyasını Avropa ilə birləşdirən ən əsas ölkəyə çevrilib...

***

2019-cu ilin ən önəmli tarixi hadisələrindən biri də Qoşulmama Hərəkatının ötən ilin oktyabrında Bakıda keçirilmiş XVIII sammitində Azərbaycanın növbəti 3 il müddətinə bu təşkilatın sədri seçilməsi oldu. Dəyərli oxucularımın yaddaşını təzələmək üçün qısaca xatırlatma edim ki, Qoşulmama Hərəkatı soyuq müharibə dövründə bir sıra dövlətlərin iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün təsis olunub. Təşkilatın hazırda 120 üzvü var. Eyni zamanda 17 dövlət və 10 beynəlxalq təşkilat da burada müşahidəçi statusunda təmsil olunur. Qoşulmama Hərəkatı 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etməkdir. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır.

Və müstəqillik yaşı vur-tut heç 30 ilə də çatmayan Azərbaycanın belə bir nüfuzlu qurumun sədri olmasının bizim üçün tarixi əhəmiyyətini indi özünüz təsəvvür edin...

Bu, Azərbaycanın beynəlxalq nüfuzunun bariz göstəricisidir. Təxminən 30 il əvvəl beynəlxalq siyasət meydanına doğru ilk kövrək qədəmlərini atan Azərbaycanın indi bu meydanda nə qədər möhkəmləndiyinin, özünə tutduğu layiqli yerin, sözümüzün

ötkünlüyünün, bizə qoyulan hörmətin ifadəsidir.

Qlobal dünyanın bu Azərbaycanını cənab İlham Əliyev yaradıb!

Tarixinin bu ən güclü Azərbaycanı zəmanəsinin ən parlaq liderlərindən birinin – İlham Əliyevin əsəridir!

***

2019-cu ildə Azərbaycan Dünya dini liderlərinin II Sammitinə də uğurla evsahibliyi etdi. Zəngin tolerantlıq ənənələrinə, fərqli dinlərə, mədəniyyətlərə hörmət ruhuna malik Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə evsahibliyi etməklə bütün dünyada dinlərarası dialoqun inkişafına daha bir töhfəsini verdi. Dünyada xeyir əməllərin hüdudlarını, dinlərin insanlara təlqin etmək istədiyi əxlaqi dəyərlərin hüdudlarını bir qədər də genişləndirdi. Multikulturalizmin Azərbaycanda bir həyat tərzi olduğunu göstərdi və bu ideyanın başqa ölkələrdə də özünə yer tutması məramı ilə növbəti addımını atdı.

Ötən il ölkəmizdə həm də "Nəsimi ili" kimi yadda qaldı. Xalqımızın yetirdiyi bu böyük mütəfəkkirin 650 illik yubileyinə həsr olunmuş dövlət əhəmiyyətli tədbirlərlə Azərbaycan öz inkişafını, keçmişini, bu gününü və gələcəyini milli köklər üzərində qurduğunu, milli-mənəvi dəyərləri ən böyük sərvət bildiyini, gənc nəsli də milli ruhda, ənənəvi dəyərlər işığında tərbiyə etdiyini sərgilədi.

"Nəsimi ili"nin Azərbaycanın müxtəlif məkanlarında gənc könüllülərin iştirakı ilə 650 min ağacın əkilməsi ilə tamamlanmasının, cənab İlham Əliyevin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə ağacəkmə tədbirlərində şəxsən iştirakının, İmadəddin Nəsiminin qardaşı Şah Xəndanın Şamaxıdakı türbəsinin ziyarətinə getməsinin, burada aparılan abadlıq işlərinin və 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsinin də şəxsən mənim üçün çox böyük rəmzi mənası var. Bunlar zahirən fərqli tədbirlər kimi nəzərə çarpsa da, hamısı böyük bir hadisənin, ümumi bir mənzərənin parçaları kimi birləşir.

Prezident İlham Əliyev Nəsimi, Şah Xəndan kimi tarixi şəxsiyyətlərimizə verdiyi dəyərlə xalqımıza öz böyüklüyünü dərk etdirir, bu fikir xəzinəsinə sahib xalqın inkişaf axınından qıraq düşməsinə, xürafata, cahilliyə qapılıb qalmasına, kimlərinsə bizə yuxarıdan aşağı baxmasına, başımıza ağıl xocası kəsilməsinə izn verməyə haqqının olmadığını göstərir.

İlham Əliyev "Nəsimi ili"ndən sonrakı ili "Könüllülər ili" elan etməklə xalqın mənəvi dünyasının ən dərin qatlarından gələn düşüncə xəzinəsini, ali dəyərləri gənc nəslə, gələcəyimizə ötürür, onlarınkı edir.

Obrazlı desək, bir il əvvəl Nəsimi ruhuna sevgi ilə torpağın köksünə basdırılmış fidanlar, gənc könüllülərimizin həyatında, mənəviyyatında, Azərbaycana xidmətində, ağlında, zəkasında böyüyüb boya-başa çatır, Nəsimi ruhundan qidalanaraq, şirələnərək bəşəriyyətin gələcək tarixində boyumuzu uca, özümüzü min budaq edir.

İlham Əliyev Azərbaycan xalqına qürur yaradır, qürur yaşadır. O, bu qürurun, bu

düşüncənin müəllifi olan, öz xalqına yeni bir ruh gətirən, xalqın ruh yüksəkliyinə çevrilən Liderdir.

Bu fikri bir neçə dəfə yazmışam və burada bir daha təkrar edirəm, Heydər Əliyev yazılanda Azərbaycan, Azərbaycan yazılanda Heydər Əliyev oxunur.

Son 16 ildən də artıq müddətdə Azərbaycan üçün etdikləri, bu Vətən naminə gördüyü işlər, bu yurda qazandırdığı nailiyyətlərlə artıq İlham Əliyev də Azərbaycan deməkdir!

İlham Əliyev adı Azərbaycandır!

Azərbaycan adı həm də İlham Əliyevdir!..

***

Bir qədər əvvəl "Könüllülər ili" haqqında danışdım, gənclər və onların şəxsində ölkəmizin gələcəyi haqqında söhbət açdım.

Nədənsə könüllülər deyiləndə əsasən gənclər nəzərdə tutulur. Çox güman belə bir təsəvvür dünyada könüllülük hərəkatının tarixindən, bu sahədə beynəlxalq təcrübədən irəli gəlir. Dünyanın hər yerində könüllülük hərəkatının əsas hərəkət qüvvəsi enerjili, həvəsli, cəmiyyətə nəsə bir fayda vermək istəyi ilə dolu gənclərdir. Ona görə bizdə də "Könüllülər ili" deyəndə daha çox gənclərin ictimai fəallığı ilə bağlı, gənclərin fəaliyyəti ilə zəngin olacaq bir il gəlir adamın ağlına.

Fikrimcə, könüllülük qətiyyən yaşla məhdudlaşmır, üstəlik könüllülük müddəti də konkret bir zamanla, konkret bir tədbirlə məhdudlaşmır. İnsan bütün yaşlarında, ömrünün bütün anlarında könüllü ola bilər və əslində olmalıdır.

Könüllülük insanın ruh halıdır...

Dünyaya və insanlara faydalı olmaq, özünü başqaları üçün gərəkli hiss etmək duyğusudur.

Könüllülük bir könül işidir... Məşğul olduğun işə qəlbinin sevgisini qatmaqdır...

Və məsələyə bu baxış bucağından yanaşanda mən Azərbaycanın birinci könüllüsü gözündə Mehriban xanım Əliyevanı görürəm.

Ölkənin birinci şəxsinin ömür-gün yoldaşı kimi o qədər də ictimai fəallıq göstərməyib, çox üzdə olmayıb gündəlik iş qayğılarından, insanların saysız-hesabsız sosial problemlərindən uzaq bir həyat seçmək imkanı varkən bu qədər ağır missiyanı öz qəlbinin səsi ilə üzərinə götürmək, hər detalını gərgin zəhmət bahasına nəzarətdə saxlayaraq həyata keçirdiyin çoxşaxəli layihələrlə cəmiyyətə fayda vermək, göstərdiyin köməklə milyonlarla insanın ümidpənah ünvanına çevrilmək ən böyük könüllülük deyilmi?!

Düşünürəm ki, bu, Mehriban xanıma doğulub böyüdüyü, sonra isə gəlini olduğu ailə ocaqlarından, görüb-götürdüyü böyüklərindən keçmiş davranış tərzidir, mənəvi tətbiyədir...

Onlar da başqalarına saysız-hesabsız yaxşılıqlar edərkən öz fəaliyyət sahələri üzrə illərin gərgin zəhməti hesabına elmi, bədii-publisistik, tarixi nailiyyətlər yaradarkən bunu hansısa zərurətə görə yox, məhz qəlblərinin səsi ilə könül işi kimi yerinə yetirirdilər...

Bu gün Mehriban xanımın fəaliyyətində də eyni davranışlar müşahidə olunur. O, məşğul olduğu bütün işlərə hansısa vəzifə

öhdəliyi kimi yox, könül işi kimi yanaşır, ona qəlbinin sevgisini qoyur, məhz bu səbəbdən onun adı olan bütün işlər böyük uğur qazanır, insanlarda rəğbət doğurur.

Buna saysız-hesabsız nümunələr gətirilə bilər. Amma iki epizodik nümunə ilə kifayətlənəcəyik. Baxın, ölkənin Birinci vitse-prezidentinin bir şəhid anası ilə görüşməsi, ona diqqət göstərməsi normal haldır, vəzifə öhdəliklərindən irəli gələn bir tərzdir. Dünyanın bütün ölkələrində bunu edirlər. Amma o şəhid anasının yanında yerdə əyləşməsi, əllərindən tutması, doğma övladı kimi ona qəlbinin hərarətini, şəfqətini ötürməsi, bir anda bütün vəzifələri unudub o ananın balasına çevrilməsi artıq sevginin özüdür, insanın ruh halıdır...

Dünyanın heç bir vəzifəsi, statusu o mərtəbədən üstün deyil...

Mehriban xanım bu üstün mərtəbədədir, xalqın qəlbində, nəzərində...

***

Ya da başqa bir nümunə: dekabrın 30-da Azərbaycanın Birinci vitse-prezidenti qızları Leyla və Arzu ilə birgə Bakının Nərimanov rayonundakı "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzinə getmişdilər. Bu mərkəz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Qurumun fəaliyyəti, təminatı, burada müalicə alan uşaqların gündəlik qayğıları da onun daimi nəzarətindədir, bunlar öz yerində...

Mərkəzə səfəri zamanı Azərbaycanın Birinci vitse-prezidenti buradakı vəziyyətlə tanış ola, əvvəlcədən hazırlanmış protokol tədbirində iştirak edə, uşaqlara bayram təbriklərini çatdıraraq sağollaşıb gedə bilərdi. Amma tədbirdən sonra Mehriban xanım mərkəzin mətbəxinə keçdi, önlüyünü, əlcəklərini geyinib əsl Azərbaycan xanımına xas kulinar məharəti ilə o binəva uşaqlar üçün tort hazırladı və bunu onlara da öyrətdi.

Mətbəxə qədərki hissənin bir çox elementləri ola bilər ki, kimlər üçünsə sırf vəzifə öhdəliyi kimi görünürdü, amma Mehriban xanımı Reabilitasiya Mərkəzinin mətbəxinə aparan, o önlüyü, o əlcəkləri geyinməyə, o ləziz tortu öz əlləri ilə bişirməyə sövq edən o qüvvənin, o səmimiyyətin, o istiliyin adı sırf sevgidir...

Bəşəriyyətin bu sevgiyə həmişə ehtiyacı var.

İnsanlar, xalqlar, dövlətlər öz işlərini vəzifə öhdəliyi kimi deyil, məhz könül işi kimi yerinə yetirən İlham Əliyev, Mehriban Əliyeva kimi şəxsiyyətlərə hər zaman ehtiyac duyurlar.

Tamam, qoy 2020-ci il ölkəmizdə daha çox gənc könüllülərin ili olsun. Amma könüllülük heç birimiz üçün heç bir zaman bitməsin.

Azərbaycana, dünyaya, bəşəriyyətə, bu günə və gələcəyə bacardığımız qədər fayda verməyi hamımız bir ömürlük könül işimiz bilək...

İlham Əliyev kimi...

Mehriban xanım kimi...

**Hüseynbala MİRƏLƏMOV,**
**YAP Xətai Rayon Təşkilatının sədri.**

# YENİ İLDƏ SOYDAŞLARIMIZ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ ƏTRAFINDA DAHA SIX BİRLƏŞƏCƏKLƏR

**Bəzi xalqlarla müqayisədə Azərbaycan diasporunun tarixi çox da uzağa getmir. Azərbaycanlıların xarici ölkələrə köçü 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra cümhuriyyət qurucularının Türkiyəyə, Avropa ölkələrinə, Amerikaya getməsi ilə başlayıb və demək olar ki, diasporumuz da məhz həmin tarixdən etibarən formalaşmağa başlayıb.**

Azərbaycanlıların növbəti köçü isə artıq Sovet İttifaqının dağılması və ölkəmizin dövlət müstəqilliyini bərpa etməsindən sonrakı illərə təsadüf edir. Hesab edirəm ki, qloballaşma dövründə bütün dünyada miqrasiyanın sürətləndiyi vaxtda azərbaycanlıların da yaşamaq, eləcə də işləmək üçün müxtəlif ölkələrə üz tutması təbii bir prosesin tərkib hissəsidir. Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması prosesi isə ulu öndər Heydər Əliyevin 1993-cü ildə ölkəyə rəhbərliyi dövründə başlayıb və 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi, 2002-ci ildə isə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin təsis olunması ilə davam edib.

Azərbaycan diasporunun əsası və milli həmrəyliyin təşəkkül tapması ulu öndər Heydər Əliyevin, diaspor quruculuğunun inkişafı, təşkilatlanması işinin təkmilləşdirilməsi Prezident İlham Əliyevin adları ilə bağlıdır. Heç şübhəsiz, ölkəmizin maraqlarına xidmət edən lobbi quruculuğu istiqamətindəki bugünkü fəaliyyətin uğurlarında, Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, tarixinin təbliği sahəsində qazanılmış nailiyyətlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əvəzedilməz xidmətləri vardır. Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanımın təşəbbüsü ilə həyata keçirilən humanitar layihələr müxtəlif beynəlxalq təşkilatlarda, ayrı-ayrı dövlətlərdə və dini icmalarda ölkəmiz haqqında müsbət imicin yaradılmasına böyük təsir göstərib. Ölkəmiz barədə həqiqətlər daha geniş yayılıb və nəticədə həmyerlilərimizin, diaspor üzvlərinin yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiyası intensivləşib, lobbi quruculuğuna münbit zəmin yaranıb.

Biz bu gün inamla deyə bilərik ki, xaricdə yaşayan soydaşlarımızın, təşkilatların koordinasiyası işi dövrün tələblərinə cavab verir, həmrəylik, birlik ideologiyası ətrafında formalaşması prosesi yüksək səviyyədədir və lobbi quruculuğuna doğru qətiyyətli addımlar atılmaqdadır.

Ölkəmizin diaspor siyasətinin reallaşması prosesləri cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla irəliləyib, soydaşlarımızın təşkilatlanması, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdı-

rılması, ölkəmizin təbliği istiqamətində bir sıra mühüm işlər görülüb. Lakin müasir dövrün çağırışlarına uyğun olaraq diaspor siyasətində də müasir tələblərə cavab verən yeni bir strategiyanın hazırlanması zərurəti yaranmışdı. Möhtərəm cənab Prezident İlham Əliyev Dövlət Komitəsi qarşısında həlli vacib olan vəzifələr qoyub ki, onlardan da ən mühümü xaricdə yaşayan soydaşlarımızın daha sıx birliyinə və koordinasiyalı fəaliyyətinə nail olmaqdır.

Bu zərurətə əsaslanaraq, qısa müddət ərzində Avropanın soydaşlarımızın daha çox məskunlaşdığı Almaniya, Fransa, Belçika, Niderland kimi ölkələrinə, eləcə də Amerika Birləşmiş Ştatlarına və Ukraynaya davamlı səfərlər təşkil olunub, həmvətənlərimizlə görüşlər keçirilib, onların problemləri öyrənilib, milli mənəvi dəyərlərimiz, dövlətimiz və dövlətçiliyimiz üçün həmrəylik çağırışları edilib. Beləliklə, soydaşlarımızın təşəbbüsü ilə 7-si 2019-cu ildə olmaqla 11 Koordinasiya Şurası yaradılmışdır ki, bunlar da ümumilikdə 29 ölkəni əhatə edir. Bu şuraların məqsədi indiyədək pərakəndə formada fəaliyyət göstərən təşkilatların və azərbaycanlıların diaspor fəaliyyətinin səmərəliliyini artırmaq, koordinasiyalı fəaliyyətlə daha böyük uğurlara nail olmaqdır.

Amerika Birləşmiş Ştatları və Türkiyədə şuraların təsis edilməsi məqsədilə işçi qrupu yaradılıb. Bu işlər "Strateji Yol Xəritəsi"nə uyğun şəkildə davam etdirilir. Birlik ideyası ciddi fikir ayrılıqları olan diaspor rəhbərlərinin bir araya gəlməsində, Azərbaycan dövlətinin, xalqının maraqlarının müdafiəsində birgə fəaliyyət üçün uğurlu addım oldu. Biz bunun bariz nümunəsini Ukraynada görə bilərik. Burada Azərbaycan diaspor təşkilatlarının təmsil olunduğu Ukrayna Azərbaycanlıları Radasının yaradılması bütün qarşıdurmaları, anlaşılmazlıqları aradan qaldırdı.

Bu istiqamətdə atılan əhəmiyyətli addımlardan biri də Rusiyada yaşayan soydaşlarımız və diaspor rəhbərləri ilə keçirilən görüş oldu. Ümumilikdə, 2019-cu il Azərbaycan diasporu ilə bağlı bir çox müsbət hallarla yadda qalıb. "Diaspor fəaliyyətində xidmətə görə" medalı təsis edilib, 10 Azərbaycan evi yaradılıb, soydaşlarımızın istifadəsinə verilib, 4 ölkədə "Qarabağ" adlı Azərbaycan məktəbləri fəaliyyətə başlayıb.

Komitənin nəzdində Azərbaycan Diasporuna Dəstək Fondu fəaliyyət göstərir. Fond indiyədək təşkilatlar tərəfindən təqdim edilmiş 66 layihədən 32-sini, o cümlədən fərdi şəxslərin verdiyi 17 layihəni maliyyələşdirib, komitənin internet televiziyası Diaspor TV, internet radiosu Diaspor FM yaradılıb. Ayda iki dəfə İctimai televiziyada "Vətən uzaqda deyil" adlı veriliş yayımlanır. Bu verilişlərdə xaricdə yaşayan soydaşlarımızın, bütövlükdə Azərbaycan diasporunun həyata keçirdiyi tədbirlər, Dövlət Komitəsinin fəaliyyəti işıqlandırılır.

"Azərbaycan alimləri diasporu" informasiya sistemi yaradılıb. Bu, davamlı olaraq zənginləşdirilir, hazırda sistemdə 500 azərbaycanlı alim haqqında informasiya yerləşdirilib. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların bioqrafiyalarının toplandığı və davamlı olaraq təkmilləşdirilən www.azerbaycan.li internet ünvanı qurulub. İlk dəfə olaraq infoqrafik diaspor xəritəsi

yaradılaraq açıq istifadəyə təqdim edilib. Hazırda xəritədə 48 ölkədən 538 təşkilat haqqında informasiya yerləşdirilib.

Diaspor təşkilatlarına texniki dəstək çərçivəsində onların internet saytlarının hazırlanması, e-poçt xidmətlərinin yaradılması istiqamətində 106 təşkilata müvafiq dəstək göstərilib və bu proses davam edir.

Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və dəstəyi ilə 16-21 dekabr 2019-cu il tarixlərində "Liderliyin inkişafı proqramı" layihəsi çərçivəsində Almaniya, Fransa, Türkiyə, Ukrayna və Gürcüstandakı Azərbaycan icmalarını təmsil edən nümayəndələr ölkəmizə səfər ediblər. Səfər proqramına ümummilli liderin məzarını və Şəhidlər xiyabanını ziyarətlə başlayan nümayəndə heyəti Heydər Əliyev Mərkəzində olub, habelə ölkənin bir sıra yüksək səviyyəli dövlət və hökumət rəsmiləri ilə görüşüb.

Səfər çərçivəsində soydaşlarımız Masazır qəsəbəsindəki məcburi köçkün ailələri, Xocalı şəhidi və Aprel şəhidi ailələrinə baş çəkiblər. Həmçinin Cocuq Mərcanlı kəndinə səfər edən qonaqlar erməni işğalından azad edildikdən sonra burada aparılmış geniş miqyaslı quruculuq işləri, yaradılmış müasir infrastruktur və yaşayış şəraiti ilə tanış olub, Aprel şəhidlərinin xatirə abidəsi, kənd orta məktəbi və kənd məscidini ziyarət ediblər.

Dövlət komitəsinin "Beyin qazanmaq" adlı digər bir layihəsi çərşivəsində xaricdə uğur əldə etmiş gənclərimizin ölkəmizə səfərləri təşkil edilir. Gənclərin burada universitet rəhbərləri, kollektiv və tələbələrlə görüşləri keçirilir. Bu istiqamətdə artıq iki nəfər gənc ölkəmizdə ADA Universiteti və Azərbaycan Texniki Universitetində olub və müvafiq görüşlər keçirib.

Diasporla İş üzrə Dövlət Komitəsi 2019-cu il yanvarın 29-da Azərbaycan Milli Elmlər Akademiyası ilə, fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, iyulun 1-də isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumları imzalayıb.

Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər görülüb. "Diaspor fəaliyyətində xidmətə görə" medalının təsis olunması ilə bağlı qanun layihəsi hazırlanıb və qəbul edilib. Bununla bağlı Prezident İlham Əliyevin 25 dekabr 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanuna dəyişiklik edilib. Bütün bunlar, Dövlət Komitəsi tərəfindən görülən işlərin müəyyən bir hissəsidir.

Ayrı-ayrı ölkələrdə xalqımız üçün mühüm əhəmiyyət kəsb edən tarixi günlər kütləvi tədbirlərlə qeyd olunur, Avropanın iri şəhərlərində izdihamlı mitinqlər keçirilir. Bu ilin 23 fevral tarixində Brüsseldə Avropa Parlamentinin binası qarşısında keçirilən mitinqi xüsusi qeyd etmək istərdim. Avropanın müxtəlif ölkələrində yaşayan, siyasi baxışından asılı olmayaraq, yüzlərlə soydaşımız Azərbaycanın haqq səsini çatdırmaq üçün həmin mitinqə axışmışdı. Bundan başqa, Azərbaycan torpaqlarında qurulmuş qondarma rejimin "xarici işlər naziri" Masis Mailyanın ABŞ-a səfəri və Konqresdəki görüşlərinə qarşı soydaşlarımızın etiraz

aksiyasını xüsusi qeyd etmək lazımdır. Onu da qeyd edim ki, yeni strategiyaya uyğun surətdə Azərbaycan həqiqətlərinin təbliğini gücləndirmək məqsədilə xaricdəki gənc azərbaycanlılarla aparılan ideoloji fəaliyyət gücləndirilib.

Diaspor gənclərinin yay düşərgəsi, Brüsseldə keçirilmiş Azərbaycan diaspor Gənclərinin Qış Məktəbi bu sahədə görülən işlərdəndir. Layihədə iştirak edən gənclərə düşərgə müddətində tarixi vətənləri ilə daha yaxından tanış olmaq imkanı verilir, onlara Azərbaycana dair müxtəlif biliklərlə yanaşı, Qarabağ həqiqətləri də aşılanır, maarifləndirilir, informasiya texnologiyalarının inkişaf etdiyi dövrdə yaşadıqları ölkələrin cəmiyyətinə, müvafiq qurumlarına əsl həqiqətlərin çatdırılması mexanizmləri öyrədilir, erməni təxribatları ilə üzləşdikdə necə davranmaları və onun qarşısının alınması ilə bağlı təlimlər keçilir. Belə düşərgələrin təşkilinin digər bir vacib əhəmiyyəti də dünyada yaşayan azərbaycanlı gənclərin şəbəkəsinin formalaşmasıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir sıra ölkələrdə açılan "Qarabağ" Azərbaycan məktəblərinin də bu baxımdan faydası danılmazdır. Artıq Fransa, İsveçrə, İsveç və Polşada fəaliyyətə başlayan bu məktəblərin məqsədi həmin ölkələrdə böyüməkdə olan azərbaycanlı uşaqlara ana dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini tədris etməklə yanaşı, ölkəmizlə bağlı həqiqətləri də onlara indidən aşılamaqdır ki, gələcəkdə milli kimliyini qoruyub saxlasın, onu təbliğ edə, xalqımızın və dövlətimizin maraqlarını müdafiə edə bilsinlər.

Bu, artıq bir faktdır ki, Azərbaycan dövləti gücləndikcə, diaspor fəaliyyətimiz lobbiçiliklə möhkəmləndikcə erməni yalanları üzə çıxır, ermənilərin Azərbaycana qarşı haqsız və heç bir hüquqa söykənməyən ittiham və iddiaları mütərəqqi dünya ictimaiyyəti tərəfindən qəbul edilmir. Vaxtilə xəyal kimi görünən məsələlər bu gün tamamilə bizim xeyrimizə dəyişir. Bu gün dünyada 900-ə yaxın erməni diaspor təşkilatı fəaliyyət göstərsə də, onlar dünyanın hər hansı ölkəsində Azərbaycana qarşı təxribatlara əl atarsa, qarşısında güclü və mütləq mütəşəkkil Azərbaycan diasporunu görəcək, adekvat cavabını alacaq.

Azərbaycan diasporunun birliyi və indiki aktivliyi belə deməyə əsas verir. Xarici səfərlər zamanı, soydaşlarımızla görüşlərdə müşahidə edilən vəziyyət azərbaycanlıların vətənlərinə, dövlətlərinə bağlılığını göstərir. Təbii ki, regionlar üzrə diasporun fəaliyyəti və təşkilatlanması istiqamətində davamlı işlər aparılır. Dövlət komitəsinin nümayəndə heyətinin Moskva səfərinin özü, buradakı bir-biri ilə fikir ayrılıqları olan diaspor rəhbərlərinin bir yerə toplanaraq görüş keçirməsi, müzakirələr aparması artıq uğurlu başlanğıcdan xəbər verir.

Minlərlə soydaşımızın yaşadığı ölkələrdən biri də qonşu Gürcüstandır. Gürcüstandakı soydaşlarımızın problemləri artıq mərhələli şəkildə öz həllini tapmağa başlayıb. Dövlət komitəsinin nümayəndə heyəti bir neçə dəfə Gürcüstana səfər edib. Nümayəndə heyəti azərbaycanlıların sıx yaşadığı bölgələrdə kəndbəkənd gəzərək onları dinləyib, problemlərini, narahat edən məsələləri öy-

rənib. Bütün bunlar ümumiləşdirilərək müvafiq qurumlarla, eləcə də Gürcüstan rəsmiləri ilə keçirilən görüşlərdə müzakirə edilib.

Bu müzakirə və səfərlərin nəticəsi olaraq, azərbaycanlıların yaşadığı Marneuli rayonunda İnteqrasiya Mərkəzi açılıb, bir neçə rayona Heydər Əliyev Fondu tərəfindən müasir texniki avadanlıqla təchiz olunmuş təcili tibbi yardım maşınları, əlil arabaları təqdim edilib, bir sıra kəndlərdəki sosial-iqtisadi problemlərin həllinə yönəlik layihələrin icrasına başlanılıb, Azərbaycan məktəblərinin dərsliklərlə, kompüterlərlə təminatı məsələsi müvafiq dövlət qurumları ilə birgə əməkdaşlıq nəticəsində həllini tapıb.

Gürcüstan azərbaycanlıllarının problemləri hər zaman Azərbaycan dövlətinin diqqətində olub, hazırda da Heydər Əliyev Fondunun dəstəyi, Dövlət Komitəsinin xətti ilə orada yaşayan soydaşlarımızın vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra layihələr həyata keçirilməkdədir.

Azərbaycanlıların sıx yaşadığı ölkələrdən biri də Türkiyədir. 1990-cı illərin əvvəllərindən Azərbaycandan, xüsusilə də Naxçıvandan Türkiyənin müxtəlif şəhərlərinə, əsasən də İstanbula böyük axın olub. Həmin vaxt SSRİ pasportu ilə bu ölkəyə gedən soydaşlarımızın bir qismi müxtəlif səbəblərdən geri qayıda, şəxsiyyətini təsdiq edən sənədi ala bilməyib. Beləliklə, minlərlə insan qüvvədən düşmüş pasportla illərlə bu ölkədə qanunsuz yaşayaraq, bir çox hüquqlardan məhrum olublar. Çox təəssüf ki, həmin insanların böyüməkdə olan övladları, hətta nəvələri də bu ölkədəki yaşayışını qanuniləşdirə bilməyib, bununla da qeyri-leqal miqrant ordusuna çevriliblər. Hazırda İstanbulun bir bölgəsində kompakt yaşayan bu insanların təhsil, səhiyyə və bir sıra digər problemlərinin həlli üçün Azərbaycan və Türkiyə hökumətləri birgə səy göstərirlər. Məhz bu çərçivədə Diasporla İş üzrə Dövlət Komitəsi, Miqrasiya Xidməti, Xarici İşlər Nazirliyi və digər qurumların nümayəndələrindən ibarət qrup Türkiyənin müvafiq dövlət strukturları ilə birgə bu istiqamətdə fəaliyyətə başlayıb.

Bu ilin sentyabrında Türkiyəyə səfər çərçivəsində İstanbul valisi Ali Yerlikaya ilə keçirilən görüşdə soydaşlarımıza indiki mərhələdə "İnsani" adlanan müvəqqəti yaşamaq icazəsinin verilməsi haqqında razılıq əldə edilib. Bu razılaşmaya uyğun olaraq dövlət komitəsi onlardan bir qrupunun siyahısını hazırlayaraq Türkiyə tərəfinə təqdim edib və yaxın vaxtlarda həmin siyahıya əsasən vəsiqələrin paylanılmasına başlanacaq.

Bu məsələ təkcə Türkiyə yox, Qazaxıstan, Rusiya kimi ölkələrdə yaşayan soydaşlarımız üçün də aktualdır və biz bu istiqamətdə də fəaliyyətimizi davam etdiririk.

Dövlət komitəsi son dövrlərdə bütün ölkələrdə olduğu kimi, Türkiyədə də diasporumuzun akademik səviyyəyə qaldırılması, əsasən tələbə-gənclərlə, müxtəlif elm-təhsil müəssisələrində çalışan alimlərlə, iş adamları, yaşadıqları cəmiyyətin mədəniyyətinə, incəsənətinə töhfə vermiş soydaşlarımızla əməkdaşlığın qurulmasına və genişləndirilməsinə üstünlük verir. Çoxsaylı tədbirlər keçirilib və bunlar davamlı xarakter daşıyır. Bu müddət ərzində Türkiyədə yaşayan soy-

daşlarımızla bir neçə dəfə görüş keçirilib, bu görüşlər çərçivəsində Azərbaycan icmasının nümayəndələri tərəfindən irəli sürülən layihələrin dəstəklənməsi ilə bağlı Azərbaycan Diasporuna Dəstək Fondunun geniş təqdimatı olub. Eyni zamanda, 7 fevral 2019-cu ildə Azərbaycan Diasporuna Dəstək Fondu (ADDF) ilə Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. Bundan başqa, Türkiyədə yaşayan Cümhuriyyət varisləri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlətçilik ənənələrinə diqqətinin təzahürü kimi "Cümhuriyyətin 100 illiyi" medalı ilə təltif ediliblər.

Soydaşlarımızın müraciəti əsasında ADDF vasitəsilə Türkiyədə Azərbaycan mədəniyyyəti və incəsənətini təbliğ edən layihəyə dəstək göstərilib. Ən son Türkiyədə dövlət komitəsinin, səfirliyin və Azərbaycanlı Həkimlər Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan "Nümunəvi həkim olmağa" doğru həkimlərin Ankara şəhərində keçirilən növbəti – VI forumunu da əhəmiyyətli tədbirlərdən hesab etmək olar.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Qazaxıstan Respublikasının Vətəndaşlar Fondu və Türkiyə Respublikasının Xaricdə Yaşayan Türklər və Əqrəba İcmalar İdarəsi arasında diaspor siyasəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb. Eyni zamanda, Türk dünyasında baş verən aktual və əhəmiyyətli xəbərləri, Türkiyə və Azərbaycan diasporunun fəaliyyəti haqqında məlumatları özündə əks etdirən "Türkiyə-Azərbaycan" jurnalının nəşrinə başlanılıb. Jurnal dövlət komitəsinin dəstəyi ilə türk dilində rübdə bir dəfə 1000 nüsxə tirajla çap edilir. Türkiyədə, Azərbaycanda və dünyanın müxtəlif ölkələrində dövlət və ictimai qurumlara, diaspor təşkilatlarına pulsuz şəkildə paylanılır.

Hələ 2018-ci il noyabrın 8-də Türkiyədə keçirilən iclasda Türkiyə və Azərbaycanın diaspor sahəsində malik olduqları təcrübənin Türk Şurasının digər üzv ölkələri ilə bölüşməsi, 2018-2019-cu illərdə Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə təcrübə-mübadilə proqramı çərçivəsində seminarların təşkili, beynəlxalq gənclər düşərgəsinin Qazaxıstanda təşkil olunması təşəbbüsü yekdilliklə qəbul olunub. Bununla yanaşı, 2019-cu ildə Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın diaspor təşkilatları arasında birlik və həmrəylik hissinin artırılması üçün diaspor və vətəndaş cəmiyyəti nümayəndələri üçün birgə təlimlərin Türkiyə tərəfinin təşkilatçılığı ilə Almaniyada, Azərbaycan Respublikasının təşkilatçılığı ilə Amerika Birləşmiş Ştatlarında təşkil edilməsi istiqamətində razılıq əldə edilib.

Ankarada keçirilən 3-cü iclasdan sonra 8 fevral 2019-cu ildə Bakı şəhərində Təcrübə mübadiləsi proqramının açılışı olub. Toplantıda Diasporla İş üzrə Dövlət Komitəsinin, Türkiyə, Qazaxıstan və Qırğızıstanın müvafiq qurumlarının təmsilçiləri, həmin ölkələrin Azərbaycandakı səfirləri və digər qonaqlar iştirak ediblər. Təcrübə mübadiləsinin səmərəliliyinin artırılması üçün toplantıda fikir və təkliflər səsləndirilib, konkret tədbirlər müzakirə olunub.

Türkdilli Diasporların I Potensial artırma təlim proqramının növbəti tədbiri 2019-cu il martın 27-də Almaniyada təşkil edilib. Təlim proqramının təşkilində əsas məqsəd türkdilli ölkələrin diasporlarının qarşılıqlı əlaqələrinin gücləndirilməsi və birgə fəaliyyətinə nail olmaqdır.

28 sentyabr 2019-cu ildə Amerika Birləşmiş Ştatlarında Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diasporlarının növbəti toplantısı – potensialın təkmilləşdirilməsi üzrə proqram təşkil edilib.

Gələcək əməkdaşlığın daha da gücləndirilməsi, ümumtürk diasporunun formalaşdırılmasına dəstək məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinin türkdilli dövlətlərin diaspor gənclərinin ortaq düşərgələrinin təşkil olunması barədə təklifi də müzakirə predmetidir. Eyni zamanda, Dövlət Komitəsi tərəfindən işlənib hazırlanmış “Türkdilli diasporların inkişafına dair Strateji Yol Xəritəsi” qəbul edilib və gələcək fəaliyyətin Yol Xəritəsinə uyğun qurulması ilə bağlı razılığa gəlinib.

Dövlət komitəsinin fəaliyyət istiqamətlərindən biri də gənclərlə bağlıdır. Azərbaycan diasporunda gənclər olduqca aktivdir, Vətənini və dövlətini sevirlər. Diaspor fəaliyyətində də gənclər önə çıxır və bu təbiidir. Ona görə ki, gənclər daha çevikdir, dil bilikləri, dünyagörüşləri zəngindir, müasir informasiya-kommunikasiya vasitələri ilə çevik davrana bilirlər. Bütün bunlar gənclərin daha da önə çıxmasına imkan yaradan təbii zərurətdir. Gənclərin iştirak etdiyi yay düşərgələri keçirilir. Şəki şəhərində “Cümhuriyyətin 100 illiyi” adlı birinci və Şamaxı şəhərində “Nəsimi-650” adlı II yay düşərgələri keçirilib. Düşərgələrdə iştirak üçün 54 ölkədən 700 gənc müraciət edib, 280 gəncin iştirakı təmin edilib. Avropanın siyasi mərkəzi olan Brüsseldə diaspor gənclərinin qış düşərgəsi keçirilib. “Azərbaycan Diaspor Könüllüləri” proqramı həyata keçirilir. 609 gənc diaspor könüllüsü olmaq üçün müraciət etmişdir. Belə kütləvi müraciəti nəzərə alaraq, Nizami Kino Mərkəzində onlarla ümumi bir görüş keçirdik. Daha sonra isə könüllülər qrup şəklində təlimlərə cəlb edildi.

Qloballaşan dünyada Azərbaycan dilinin, milli kimliyin və mədəniyyətin qorunması məsələsi Azərbaycan diasporu üçün aktual məsələlərdəndir. Bu məsələ ilə bağlı Dövlət Komitəsinin təşəbbüsü və dəstəyi ilə xaricdəki soydaşlarımız üçün “Azərbaycan dili” dərsliyi hazırlanıb. Kitabın müxtəlif ölkələrdəki Azərbaycan məktəblərində paylanılması, daha bir neçə ölkədə “Qarabağ” məktəblərinin açılması nəzərdə tutulub.

Hazırda Amerika Birləşmiş Ştatları və Rusiya Federasiyasında keçirilməsi nəzərdə tutulan çox sayda mədəni layihələr üzərində iş aparılır. 2020-ci ilin fevralından bu layihələrin reallaşdırılmasına start veriləcək. Növbəti ildə həmvətənlərimizin də səbirsizliklə gözlədiyi “Soydaşlar haqqında Qanun” layihəsinin yeni parlamentdə qəbul olunacağına ümid edirik. “Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası”nın formalaşdırılması üzərində də iş aparılır.

Soydaşlarımızın ünsiyyəti üçün yeni

unikal bir platforma üzərində işləyirik. Hazırda iş yekunlaşmaq üzrədir, böyük ehtimalla fevral ayından həmvətənlərimizin istifadəsinə verə biləcəyik.

2019-cu il xaricdə yaşayan soydaşlarımız üçün "Azərbaycan evləri" ilə də yaddaqalan olub. Ümumilikdə, Almaniya, Macarıstan, İspaniya, İtaliya, Belçika, Polşa, Ukrayna, Gürcüstan və Türkiyədə Azərbaycan evləri yaradılaraq soydaşlarımızın istifadəsinə verilib və bu istiqamətdə işlər davam edir. Almaniyada Azərbaycan evləri həm Berlin, həm də Köln şəhərlərində fəaliyyət göstərir. Növbəti ildə də daha 8 evin açılması planlaşdırılır. "Azərbaycan evləri olduqca mühüm əhəmiyyət kəsb edir. Soydaşlarımızın birliyi, birgə fəaliyyəti, öz aralarında və yerli cəmiyyətə inteqrasiya baxımından xüsusi önəm kəsb edir. Bu mənada evlərin fəaliyyətinə xüsusi diqqət verilməlidir. Bu evlər Azərbaycan dövlətini və xalqını sevən, milli maraqlarımızı üstün tutan hər bir kəsin üzünə açıqdır. Ümid edirəm ki, Azərbaycan evləri xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, birliyi istiqamətində ciddi və əhəmiyyətli rol oynayacaq. Koordinasiya Şuralarının təsis edilməsi ilə bünövrəsi qoyulmuş birliyimiz daha da möhkəmlənəcəkdir.

Biz dövlətimizin siyasətinə və dövlət başçısının tapşırıqlarına uyğun olaraq, dünya azərbaycanlılarının şəbəkələşməsi, türk dünyası birliyinin möhkəmləndirilməsi üçün bütün mümkün olanları edirik və bu işlər ardıcıl şəkildə aparılır. Bu gün Azərbaycan diasporu ilə bağlı xəbərlər 7318 e-mail vasitəsilə, yaşadığı yerdən asılı olmayaraq, şəxslərin e-mail ünvanına, əl telefonuna göndərilir. Soydaşlarımızın müsahibələri, xaricdəki yaşayışları, fəaliyyətləri ictimaiyyətə təqdim edilir, biblioqrafiya bankı formalaşdırılır. Onların dövlətimiz və dövlətçiliyimiz ətrafında fəaliyyətləri təşviq olunur. Azərbaycan diasporu ilə bağlı xəbərlər komitənin rəsmi saytı vasitəsilə və sosial şəbəkə üzərindən operativ şəkildə işıqlandırılır. Təbii ki, bu işlər davamlı xarakter daşıyır və mütəmadi olaraq təkmilləşdirilir.

Önəmli layihələrimizdən biri də Azərbaycan-Türkiyə Mədəniyyət Fondunun yaradılmasıdır. Bununla bağlı bütün texniki məsələlər həll olunub, gələn il açılması planlaşdırılır. Türkdilli ölkələrin diaspor gənclərinin yay düşərgəsinin keçirilməsi ilə bağlı təkliflər müzakirə olunur, yaxın vaxtlarda bununla bağlı konkret qərarların veriləcəyi gözlənilir. Dövlət komitəsi tərəfindən Azərbaycanlı alimlərin şəbəkələşməsi ilə bağlı layihələrin də üzərində işlənilir.

Dövlət Komitəsi davamlı olaraq Azərbaycan diasporunun fəaliyyətinin gücləndirilməsi və lobbi quruculuğunda aktiv iştirak edir, xalqımızın tarixi və mədəni irsinin təbliği istiqamətində maraqlı və səmərəli layihələr həyata keçirir.

Hədəfimiz budur ki, yaşadığı ölkədən asılı olmayaraq hər bir soydaşımız müstəqil, qüdrətli Azərbaycan dövlətini öz yanında görsün.

**Fuad MURADOV,**
**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri.**

# AZƏRBAYCANIN LİDERLİK STRATEGİYASI

**XXI əsr dünyada qlobal siyasi rəqabətlərin, kataklizmlərin gücləndiyi, milli dövlətlərin özünütəsdiqi, innovasiyalar, rəqəmsal strategiya dövrüdür. Müasir Azərbaycan Avropa ilə Asiyanın kəsişməsində yerləşən mühüm geosiyasi məkandır, keçmiş sosializm sistemindən müstəqil suveren dövlətçilik yoluna qədəm qoymuş hüquqi, azad respublikadır. U.Rastou qeyd edirdi: "Keçidin modeli və ya ideal tipi iki və ya üç empirik nümunənin öyrənilməsi əsasında alına bilər, sonra isə başqa nümunələrə tətbiq edilmək yolu ilə yoxlanıla bilər" (U.Rastou. Perexodı k demokratii: popıtka dinamiçeskoy modeli. Pol.is., 1996, № 5). Məhz bu nöqteyi-nəzərdən də müasir Azərbaycanın dövlətçilik institutunun strateqi ulu öndər Heydər Əliyev demişdir: "Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun" (H.Əliyev. Müstəqillik yolu. 1997, s.30). Bu mənada təqdim etdiyimiz təhlildə ulu öndər Heydər Əliyev siyasi məktəbinin uğurlu davamçısı Prezident İlham Əliyev "çox təcrübəli və dünyanı biləndir". Və nəinki dünyanı bilən, həmçinin dünyanın da bildiyi, tanıdığı milli liderdir.**

Prezident İlham Əliyev müasir Azərbaycana rəhbərlik edənə qədər ali məktəbdə müəllimlikdən Baş nazir vəzifəsinədək böyük bir təcrübə məktəbi keçmiş, ən əsası isə ümummilli lider Heydər Əliyev dühasından həm genetik, həm də siyasi anlamda mükəmməl dərs almışdır. İlk dəfə 2003-cü ilin 15 oktyabrında prezident seçkilərində qələbə qazanan ölkə başçısı İlham Əliyev həmin il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm" – deyə bəyan etdi.

Məhz bu siyasi kursu davam etdirən Prezident cənab İlham Əliyev son 16 ildə müasir Azərbaycan üçün çoxvektorlu strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanmasının və onların işlək mexanizmlər əsasında həyata keçirilməsinin əsas müəllifi olmuşdur. Gənc Prezident "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" – tezisini irəli sürmüş, bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və mətin əzmkarlıq nümayiş etdirmişdir.

III minillikdə Azərbaycana rəhbərlik edən dövlət başçısı hər bir mərhələ üçün qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirmiş, islahatların sistemli və ardıcıl şəkildə, təkamül yolu ilə gerçəkləşdirilməsini istiqamətləndirmişdir. Burada maraqlı bir sual ortaya çıxır: – Dünyada gedən qərbləşmə prosesində Azərbaycanın modernləşməsi necə olmalıdır? Cəmiyyətdə antimodernist potensialı aradan qaldırmaq, ənənəçilik qalıqlarını neytrallaşdırmaqla,

ölkənin milli maraqlarını qorumaqla, iqtisadi rifahı tənzimləməklə, vətəndaşların sosial müdafiəsini, dini etiqad, insan hüquqları azadlığının təminatını ictimai və texnoloji yenilənmələrlə dəyişməkdir.

Bu mənada 2003–2019-cu illər Azərbaycanın iqtisadi inkişafının əsas hədəfi rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və dünya sisteminin müxtəlif təsərrüfat sahələrinə səmərəli inteqrasiyası yolu ilə uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarət olmuşdur. Prezident İlham Əliyev bu illər ərzində imzaladığı fərmanlar, təsdiq etdiyi dövlət proqramlarında dünyanın müasir çağırışlarına hədəflənən istiqamətlərin reallaşdırılması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirmişdir. Buraya ölkədə mövcud iqtisadi resursların gücləndirilərək kompleks şəkildə səmərəli reallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan dövlətinin qurulması yolunda çoxşaxəli iqtisadiyyatın formalaşdırılması), hər bir regionun potensialından tam və səmərəli istifadə olunması, onların inkişafının tarazlaşdırılması, çoxsaylı yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişafına dəstək verilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması və bu kimi həm iqtisadi, həm siyasi, həm mədəni və s. digər mühüm vəzifələri aid etmək olar.

Nəzərə çatdıraq ki, müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyev söyləyirdi: “Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik” (H.Əliyev. Müstəqillik yolu, Bakı, səh.48). Həqiqətən də, ulu öndər müstəqil Azərbaycanın dünyanın aparıcı ölkələri, nüfuzlu korporasiyaları ilə birtərəfli əməkdaşlıq müqaviləsi imzaladı. Və tədricən Azərbaycan dünyanın “böyük səhnəsində” özünəməxsus aparıcı rollardan birini apardı. 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması ilə “yeni neft strategiyasının” uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, “qara qızıl”dan əldə olunan gəlirlərin güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi tarixə yazıldı. Bunun nəticəsidir ki, ötən illərin iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş sosial-iqtisadi yüksəlişi ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir. Şotlandiyalı politoloq C.Pyer yazır ki, “milli dövlət qloballaşma şəraitində öz əhəmiyyətini itirmir, bununla belə, iqtisadiyyatı idarə etmək bacarığını saxlaya bilir” (Siyasi elmin tarixi, B., 2005, s.176).

Ümumilikdə qəbul edilən əsaslı qərarlar, imzalanan fundamental sərəncamlar YAP-ın və onun lideri Prezident İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, reallığa adekvat

olduğunu deməyə ciddi əsaslar verir. Yeni islahatlar mərhələsi bu yolun dialektik məntiqli davamıdır. G.Almandın məntiqi ilə desək, "dövlətin qayıtması" prosesi sanki başladı və dövlətçilik institutu daha da möhkəmləndi.

Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsi həm də sahibkarların, orta sinfin milli həyatda aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. Bu təsadüfi olmayıb, əksinə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən irəli gəlir. Azad bazar iqtisadiyyatı münasibətlərinin fəal tərəfdarı kimi çıxış edən Prezident İlham Əliyev inkişaf prosesində orta sinfin rolu barədə əsaslı konsepsiyanın da yaradılmasına istiqamət verdi. Prezident İlham Əliyev deyir: "Sahibkarlıq bizim üçün prioritet məsələlərdən biridir. Sahibkarlığın inkişafı üçün həm siyasi dəstək verilir, eyni zamanda, dövlət qurumları tərəfindən çox böyük metodiki dəstək göstərilir" (az.trend.az 2743168 html).

XXI əsr Azərbaycanında həyata keçirilən islahatlar, köklü dəyişmələr həm də dövlət idarəçiliyinin modernləşdirilməsi, elitaların yeniləşməsi, şəffaflaşdırılması, müasir dövrün tələblərinə uyğunlaşdırılması tədbirləri ilə müşayiət olunur. XX əsrin böyük mütəfəkkiri F.F.Hayek "Köləliyə aparan yol" kitabında yazırdı: "Özlərini yedirə biləcəyinə əmin olmayan insanlarda müstəqil ağla və güclü xarakterə nadir hallarda rast gəlmək olur". Müəllifin bu fikri praktikada təsdiqini tapır – reallıq yalnız yüksək maddi rifah şəraitində özünə möhkəm ictimai dayaqlar tapa bilir. Ölkə vətəndaşlarının yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərməyə başlayan müsbət keyfiyyət dəyişiklikləri, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri xarakter daşıyan demokratik normaların ictimai rəydə düzgün dərk olunmasına, qavranılmasına və qiymətləndirilməsinə əlverişli şərait formalaşdırır. Prezident İlham Əliyev qeyd etdiyi kimi, "Azərbaycan demokratiya yolu ilə uğurla gedir" (https://wwwbbc.com>azeriy).

Azərbaycanın üçüncü minillikdə sürətli inkişaf tempi cəmiyyətdə konsensusun əldə olunmasına, sosialyönümlü tərəqqiyə və modernləşməyə xidmət edən hüquqi-siyasi, demokratik islahatlar kursunun daha da genişləşdirilməsini obyektiv zərurətə çevirmişdir. Bir sıra siyasi analitiklərə görə, demokratiya tam şərtlər kompleksinin reallaşması nəticəsində möhkəmlənir. Bu mətndə A.Przevorski məntiqində: "Demokratiya o halda möhkəmlənir ki, mövcud siyasi və iqtisadi şəraitdə müəyyən təsisatlar sistemi təbii şəkildə mümkün oslun" (A.Przeworski 1991. Democracy and the Market Political Reforms).

Təcrübə də təsdiq edir ki, inkişaf səviyyəsi yüksək olan ölkələr postindustrial dövrünün tələblərinə uyğunlaşma məsələlərini yalnız müasir bilikli demokratik cəmiyyətin kifayət qədər formalaşmış təsisatları mövcud olduqda həll edə bilərlər. Bu təsisatların inkişafı cəmiyyətin yeniləşməyə meyilləri ilə birləşəndə səmərə verir. Buna nəzərən, demək olar ki, Azərbaycanda da milli gəlirin artım tempi ilə siyasi-hüquqi, mədəni-ictimai, sosial-mənəvi islahatların həyata keçirilməsi prosesi

mütənasiblik təşkil edir. Məhz belə bir mərhələdə ictimai münasibətlərin xarakterində dövrlə bağlı fundamental dəyişikliklərin baş verməsini labüd və qarşısıalınmaz proses kimi səciyyələndirmək olar. Digər əsas bir məsələ – "informasiya iqtisadiyyatı" da formalaşır, bu isə müxtəlif dövlət qurumlarında vətəndaşların cəlb edildiyi ən mürəkkəb idarəetmə əməliyyatları tam elektron formada tətbiq edilir. "E-dövlət" və "vətəndaş-dövlət" seqmentində də Azərbaycanın dünyaya model kimi təqdim etdiyi "Asan xidmət" də Prezident İlham Əliyevin siyasi xəttidir.

Ölkədə həyata keçirilən iqtisadi, siyasi və hüquqi islahatlar mahiyyətcə cəmiyyətdə sosial liberallaşmaya, sivil və milli siyasi və əxlaqi davranış normalarının möhkəmlənməsinə xidmət etdiyindən, Azərbaycanda müxalifətçiliklə bağlı nihilist, radikal və anarxist yanaşmalarda da tədricən dəyişikliklərin baş verəcəyi şübhəsizdir. Ölkə iqtidarı da Azərbaycan sosiumunun inkişafının üç əsas amilini – milli birlik və həmrəyliyi, siyasi suverenliyi və firavanlığı, mənəvi dəyərlərin bütövlüyünü təmin etmək üçün ölkəni zəruri inkişaf səviyyəsinə çatdırmağa çalışır. S.Hantinqton məntiqi ilə desək: "Əgər uğur qazanmaq istəyirsinizsə, onda siz də bizim kimi olmalısınız: bizim yolumuz yeganə yoldur" (S.Hantinqton. Stolknovenie sivilizasiy. M.2003, str.104). Yəni, Azərbaycanın yolu demokratiyadır. Yeni siyasi şəraitdə demokratiya təkcə müəyyən olunmuş gündə səsvermə qutularına yaxınlaşıb səs verməkdən ibarət deyildir. Demokratiya cəmiyyətin həyatının bir hissəsi, onun üzvlərinin təfəkkür tərzi, habelə onların arasında qarşılıqlı hörmətin təzahür formasıdır. Bu proses dövlətin tənəzzülünə deyil, onun güclənməsinə və inkişafına imkan yaradır.

2019-cu ilin oktyabrından, belə demək mümkünsə, dəyişən payız fəslində ölkədə siyasi mühit də dəyişdi. Son proseslər, Prezident İlham Əliyev tərəfindən atılan qətiyyətli addımlar da göstərir ki, ölkə iqtidarı siyasi məkanın yenilənməsinə olan ictimai tələbatı aydın dərk edərək, bu istiqamətdə əməli tədbirlər həyata keçirir. Siyasi cəhətdən sabit və oturuşmuş, iqtisadi kontekstdə davamlı inkişaf edən, mənəvi-ideoloji bütövlüyünü təmin edən müasir Azərbaycan idarəçilik sistemində yeni "işgüzar, sosial və birliklər strategiyası" tətbiq olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu ərəfədə son çıxışları (BDU-nun 100 illik yubileyinə həsr olunan mərasimdə, eləcə də ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəsmi Moskva səfəri ilə əlaqədar və s.), sərəncamları, söylədiyi fikirləri bu baxımdan xüsusi maraq doğurur.

### İslahatların yeni mərhələsi və modernləşmə

Müasirlik prosesi mürəkkəbdir. Prezident İlham Əliyevin dövlət quruculuğunun möhkəmləndirilməsi ilə bağlı apardığı strateji xətti ölkənin modernləşməsinin ən yeni mərhələsidir. Dövrün artıq başlıca məqsədi biliklər iqtisadiyyatı, sosial kapitala əsaslanan dövlət–cəmiyyət sisteminin təkmilləşdirilməsidir. Bu isə ictimai sərvət və dəyərlərə, prioritet və meyarlara keyfiyyətcə yeni münasibət bəsləməyi nəzərdə tutur. F.Fukuyamanın fikirləri ilə yanaşsaq:

"Postsənaye ölkələrinin ümumi trayektoriyası multimədəniyyət cəmiyyətinin yaradılması istiqamətində inkişaf edir" (Bax: LeTigaro (Fransa) 4 dekabr 2003-cü il). Müasir şəraitdə isə buna seçilmiş addımlarla, prioritet və dəyərlərin köməyi ilə, başqa sözlə, müasirliyi texniki və informasiya imkanlarını milli ənənələrlə birləşdirərək, elmin inkişafına impuls verməklə nail olmaq olar.

Akademik Ramiz Mehdiyevin "Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider" kitabının I fəslində bu məsələ ətraflı və dərindən təhlil olunur. İlk növbədə, ölkəmizin sürətli inkişafı üçün bu proseslərin mərkəzində bilikli insan və vətəndaşı olmalıdır. İkincisi, biliklər iqtisadiyyatına və sosial kapitala əsaslanmış sistemin təkmilləşməsi azərbaycançılıq ideologiyasının inkişafını və yayılmasını bir vəzifə kimi qarşıya qoyur. Bunun üçün isə o, müasir fəlsəfi-tarixi, hətta siyasi-sosioloji metodologiyaya əsaslanaraq, müasirliyin ortaya çıxarmış olduğu ən mühüm suallara və çağırışlara cavab verə bilməli, mentalitetimizin və milli təcrübəmizin ən layiqli tərəflərini əks etdirməklə onu gələcək nəsillərə ötürə bilməlildir.

Azərbaycançılıq ideologiyasının əsasını ümummilli lider Heydər Əliyev qoymuşdur. Prezident İlham Əliyev bu strategiyanı davam etdirir. Biz ictimaiyyətşünaslıqla məşğul olan alimlərin üzərinə isə həmin ideologiyanı inkişaf etdirmək və yaymaq məsuliyyəti düşür. Başqa sözlə, islahatların yeni mərhələsində məhz inkişafın Azərbaycan modeli azərbaycançılıq ideologiyasının mərkəzində durmalıdır. Ulu öndər Heydər Əliyev qətiyyətlə bəyan edirdi ki: "Azərbaycanın özündə də bugünümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir" (H.Əliyev. Müstəqillik yolu, B., 1997, s.85-86). Keçmişə ehtiramla yanaşmaq, onu dərindən bilmək və onun ən gözəl nümunələrini gənclərin mənəvi, estetik və vətənpərvərlik ruhunda tərbiyə işində istifadə etmək günümüzün vəzifələrindən biridir. Lakin bu biliklər ölkəmizin müasir inkişaf məqsədlərinə xidmət etməli və gələcəyə yönəlməlidir.

Üçüncüsü, ölkənin müasirləşməsi və biliklər iqtisadiyyatına yol təhsil sahəsində yüksək səviyyənin təmin olunmasını tələb edir. Gənclər ən yüksək keyfiyyətli bilik almağa layiq olmaqla informasyia cəmiyyəti şəraitində yaşamağı bacarmalıdır. Həm də bu yaşam tərzində yeni elitalara daxil olmalıdırlar. Müasir informasiya cəmiyyətinə keçid yalnız müasir texnologiyadan istifadə etmək demək deyildir. Eyni zamanda, onu, informasiyanı, bir strateji resurs kimi, sərvətin yeni növü kimi anlamaqdır, başqa sözlə, biliklər iqtisadiyyatında izafi dəyər prosesi zəhmət sayəsində deyil, bilik iqtisadiyyatında fərdlərlə qarşılıqlı əlaqə uğur gətirir. Ona görə də cəmiyyətdə milli ideologiyanın və qarşılıqlı etimadın, vətənpərvərlik və milli dəyərlərin olması olduqca vacibdir, eyni zamanda, ənənə və yenilik arasında isə mütləq əsas olaraq ölçü-balans gözlənilməlidir. Azərbaycan Prezidenti İlham Əliyev bu tezisi Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş yubiley tədbirində qeyd etmişdir: humanitar elmlərlə yanaşı, qeyri-ictimai elmlərə olan ehtiyac da təmin olunmalıdır. Dördüncüsü, təbii ki, Azərbaycanda siyasi liderliyin siyasi

strategiyası və islahatların yeni mərhələdə etibarlı inkişafı mövzusunun aktuallaşması deməkdir.

Qloballaşma dövründə elitaların dəyişməsi məsələləri ciddi risklərlə bağlıdır və birlik, həmrəylik, razılaşma mövqelərindən bu risklərin qarşısını qabaqcadan almaq lazımdır. İndiki mərhələdə elitaların keyfiyyəti, dövlətin və ölkənin demokratikləşməsini təmin edir. Demək olar ki, bu tezis ölkənin alimləri, ictimaiyyəti üçün demokratiyanın dərk olunmasında irəliyə doğru bir sıçrayışdır. Həm də bir çoxları hələ də əmindirlər ki, demokratiya xalq hakimiyyəti və seçkilər deməkdir. Lakin bunun həm də peşəkarlıq, seçmə və seçmə meyarları olduğunu, keyfiyyətli menecerləri seçə bilmək, insanları peşəkar keyfiyyətlərinə görə vəzifəyə təyin etmək bacarığı olmadan demokratiyanın inkişafa qadir ola bilməyəcəyini unudur və ya bilmirlər. Buna görə də sakitliyi qoruyub saxlayaraq elitaları dəyişikliklərində bir ölçü, bir balans tapmaq lazımdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin oktyabrından başlayan qətiyyətli, əzmkar və siyasi modernə söykənən son addımları bu məsələnin gündəmdə olmasının göstəricisidir. .

### Lider, xalq və elita: müasir siyasi mədəniyyətin təşəkkülü məsələsi

Liderlik olduqca məsuliyyətli, ciddi və ağır yükdür və onun altına yalnız tolerant, müdrik, təcrübəli siyasətçilər girə bilərlər. D.Tramp, Si Cinpin, V.Putin, R.T.Ərdoğan və s. bu tip siyasətçilər yalnız onlara, əsasən də öz ölkələrinin mənafeyinə uyğun strategiyalar həyata keçirirlər. Bu böyük ölkələrin dövlət və institusional quruluşları fərqlidir. Bu sıralarda öz strategiyası ilə özünəməxsus və dünya siyasətində parlaq yeri Prezident İlham Əliyev tutur.

Zaman ümumi, həm də konkretdir. Azərbaycanın da qarşısında yeni tələblər, yeni hədəflər, çağırışlar və seçimlər qoyur. Müasir dövrün demokratik dəyərlərinin təşəkkülü cəmiyyətləri sivilizasiyalı inkişafla eyniləşdirən yeni rəmzlərin gəlməsi üçün zəmin yaratmışdır. Sivilizasiyalara zaman səkisi, bu və ya digər cəmiyyətlərin tarixi vəziyyəti kontekstində baxılır, onların əlamətləri, məsələn, urbanizasiya ilə, əhalinin sürətlə artması ilə, təhsil sisteminin və elmi biliklərin inkişaf dərəcəsi ilə, əmək məhsuldarlığı ilə əlaqələndirir (Bax: R.Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. B., 2008, s.219). Məhz bu aspektdən də yanaşanda S.Hantinqtonun sözləri ilə desək, “insanların ən yüksək mədəni birliyi və mədəni identifikasiyanın ən geniş səviyyəsi” kimi başa düşülür (S.Hantinqton. Stolknovenie sivilizasiy. M., 2003, str.51).

Artıq XXI əsrin ikinci onilliyinin sonunda sabitlik və nisbi firavanlıq dövründə bəzi adamların əvvəlcədən sezdiyi bir şey aydın oldu: özü-özlüyündə iqtisadiyyat və pul qüdrətli, güclü demokratik, hüquqi və sivil dövlət yaratmır və hətta fərdi xoşbəxtliyi belə təmin edə bilmir. Lakin indi – müasirləşmə və sosiomədəni transformasiya dövründə bu məsələnin tədqiqi transformasiya prosesinin təmayüllərini, istiqamətini, dəyərlərə, ideologiyaya və elitaya olan tələbatı aşkar etməyə imkan verir.

Aydındır ki, ideologiya həmişə etik dəyərlər, hakimiyyət, elita və xalq arasında dialoq əsasında yaradılmış olur.

Əlbəttə, transformasiya yalnız bazar iqtisadiyyatının qurulması ilə məhdudlaşdırıla və dövlətin ədalətli, demokratik, hüquqi və sivil olması zəruriliyinə təfavütsüz ola bilərdi. Lakin bir halda ki, müasir XXI əsr Azərbaycanın lideri əsaslı transformasiyaya – cəmiyyət həyatının bir çox tərəflərini, onun siyasi mədəniyyətinin dəyişdirilməsinə, hüquqi dövlətin və vətəndaş siyasi mədəniyyətinin formalaşdırılmasına çalışır, onda, təbii ki, qeyri-maddi, etik, ideoloji, siyasi-fəlsəfi və s. amillərin nəzərə alınmasına indi daha diqqətli yanaşmaq lazımdır. Bu mənada Prezident İlham Əliyevin bütün uğurlarının fövqündə dayanan məslək, milli ideya və qüdrətli məfkurə – azərbaycançılıq ideologiyası – milli-mənəvi dəyərlərin qorunması, təbliği, dəyərli bir ideya kimi Azərbaycan reallığında bərqərar olmuşdur.

O hakimiyyət parlaq, tərəqqisevər sayılır ki, ilk növbədə öz xalqının qeydinə qalmış olsun. Burada cəmiyyətin müxtəlif qruplarının, insanlara hansı qayğının lazım olduğu barədə təsəvvürlərdə ilk fərqlənmə əks oluna bilər. Bəzilərinə total, hətta belə desək, paternalist qayğı lazımdır. Başqalarına isə yalnız yardım göstərmək, onları müdafiə etmək, amma müstəqil olmalarına mane olmamaq lazımdır. Buradaca İ.Kantın fikirlərinə müraciət edək: “Dövlət hüquqi qanunlara tabe olan çoxsaylı insanların birləşməsidir. Hər bir dövlətdə üç hakimiyyət, yəni ümumi tərzdə üç simada birləşdirilmiş iradə mövcuddur: qanunvericiliyin simasında ali hakimiyyət (suverenlik), hökmdarın simasında icra hakimiyyəti (qanuna əsasən idarə edən) və hakimin simasında məhkəmə hakimiyyəti (qanuna əsasən hər kəsi özününkünə məhkum edən)… Qanunverici hakimiyyət yalnız xalqın birləşmiş iradəsinə mənsubdur” (Antoloqiya mirovoy politiçeskoy mısli. T.1.m. 1997, s.478).

Hər bir ölkənin özünün siyasi, iqtisadi, intellektual və digər tərkib hissələrinə ayrıla və ya bütövlükdə, qavranıla bilən müəyyən mədəniyyəti vardır. Bir qayda olaraq, mədəniyyətlərin differensiasiyası prosesi, cəmiyyəti peşəkarlığın əhəmiyyətini dərk etməyə hazır olması ilə düşüncənin bütün həyat fəaliyyəti sahələrində üstünlük təşkil etməsinə, cəmiyyətin mütəxəssisləri özünün bütün işlərində ekspertlər kimi qəbul etməsinə hazır olmasını, cəmiyyətdə ekspertlərin fəaliyyətinin dəyərləndirilməsi meyarlarının formalaşmasına kömək etməlidir. Təbiidir ki, bu cür elitanın və belə bir cəmiyyətin təşəkkülü, indiki şəraitdə, orta sinfin mənafe və dəyərlərinin üstünlük təşkil edən qüvvə kimi təsbit olunması ilə bağlıdır.

Orta sinif elita deyil, amma nəzərə alaq ki, onun ən yaxşı nümayəndələri elitaya daxil olub, onu tamamlamalıdır. Bu mənada da Prezident İlham Əliyev Azərbaycanda XXI əsrin ikinci onilliyinin sonunda “yeni elitanın” formalaşması kursuna start verdi. Daha təhsilli, bacarıqlı, innovativ təfəkkürlü, menecment qabiliyyətlərinə malik peşəkarlardan ilbarət yeni komandanın formalaşmasına təkan verdi. Məhz bu amil də onu tarixə islahatçı, yenilikçi Prezident

olaraq daxil edəcəkdir. Bu təbəqə, əlbəttə, nisbi olaraq, düzgün rəqabətyönlü islahat aparmağa, test və hər bir digər imtahanlardan çıxmağa hazırdır. Lakin nəzərdə saxlamaq lazımdır ki, bir çox qruplar hələ də rəqabəti hər cür yolla kənara qoyulası, xoşagəlməz bir şey hesab etsələr də Prezident İlham Əliyev öz balanslı yanaşma siyasəti ilə hər işi sahmana qoyur. Bu nöqteyi-nəzərdən də ulu öndər Heydər Əliyevin məntiqi ilə desək, "hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin" (Heydər Əliyev. Müstəqillik yolu. B., 1997, s.20).

Digər bir məsələdə sosiomədəni modernləşməni orta sinfin cəmiyyətdə təsbit olunması kimi başa düşmək olar. Azərbaycanın da bu qəbildən olduğu transformasiya olunan cəmiyyətlərdəki kimi bu proses mərhələ-mərhələ və tədricən həyata keçməlidir. Yəqin ki, elə buna görə də Azərbaycanda da müasirləşmənin üç mərhələsindən danışmaq olar. Vesternizasiya (Qərbləşmə) adlandırdığımız birinci mərhələdə bütün sosiumu təcəssüm etdirən ulu öndər Heydər Əliyevin rolu çox böyükdür. İkinci mərhələdə orta sinfin inkişafına təkan verən lider, elitanı formalaşdırır. Üçüncü mərhələdə isə çox güman ki, orta sinfin üstünlüyünün zəif tərəflərinin yenidən dərk olunması, elitaların cəmiyyətin həyatında rolunun dəqiqləşdirilməsi və s. ilə bağlı olacaq. Əlbəttə, hər bir sxem kimi, bu da məhduddur, prosesi ümumi şəkildə təsvir edir, lakin o, cəmiyyətimizdəki təmayülləri, ən yaxın və uzunmüddətli perspektivləri anlamağa kömək edir.

Beləliklə, ulu öndər Heydər Əliyevin strateji kursunu davam etdirərək və yaradılmış sosial-iqtisadi bazaya əsaslanaraq, Prezident İlham Əliyev zamanın yeni çağırışlarına cavab verir, bu isə sənaye cəmiyyəti problemlərini sürətlə həll etmək və postsənaye (informasiya) cəmiyyəti quruculuğuna keçilməsi deməkdir. Eyni zamanda, Prezident İlham Əliyev cəmiyyətin bütün sahələrinin yenilənməsinə çalışır. Demək olar ki, onun yanaşması Azərbaycanın inkişaf yollarının innovasion dərkinin daimi axtarışıdır. Bu kontekstdə Azərbaycan alimlərinin modernləşmə nəzəriyyəsini dərindən tədqiq, onun müxtəlif mərhələlərinin təhlil və keçmişin cəmiyyətin müasirləşdirilməsinə kömək edə bilən fenomenləri xüsusiyyətlərinin dərk etməsi siyasi-fəlsəfi və nəzəri əhəmiyyət kəsb edir.

Fikrimizi Prezident İlham Əliyevin BDU-nun 100 illik yubiley mərasimində söylədiyi tarixi, siyasi, fəlsəfi məzmunlu məntiqi ilə yekunlaşdıraq: "Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə də güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə nikbin baxan dövlətdir".

**İlham MƏMMƏDZADƏ,**
**AMEA Fəlsəfə İnstitutunun direktoru,**
**professor.**

# XİLASKAR LİDER

***Tarixdə ilk hüquqi dövlətin yaradıcılarından Hamurapiyə aid edilən çox maraqlı bir fikir var. Müdrik Babil hökmdarı deyirdi ki, "Keçmişini unudan onu yenidən yaşamağa məhkumdur..."***

Bu kəlam ayrı-ayrılıqda fərdlərə də, bütöv xalqlara da aid edilə bilər. Keçmiş öz tarixi sınaqları, acılı-şirinli xatirələri, qazandırdığı təcrübə ilə hər nə qədər dəyərli olsa da, onun yenidən yaşanması tənəzzül deməkdir. Fərd üçün də, xalq üçün də böyük bir dövrün inkişaf imkanlarının itirilməsidir. Çünki zaman, həyatın təkamül qanunauyğunluğu keçmişdən bugünə, bugündən isə gələcəyə doğru yol alır. Keçmişi yenidən yaşamaq gələcəyə doğru yolu itirmək deməkdir. Ona görə də keçmişi tez-tez xatırlamaq, onu olduğu kimi öyrənmək və yeni nəsillərə də öyrətmək lazımdır. Bu, olub-keçənlərin təcrübəsindən ibrət almağa, eyni yanlışları bir daha təkrarlamamağa kömək göstərir.

**Keçmişə aydın baxış**

Sumqayıt şəhərinin 70 illik, daha sonra isə Bakı Dövlət Universitetinin fəaliyyətinin 100 illik yubileylərindəki çıxışlarında Azərbaycan Respublikasının Prezidenti çox maraqlı məqamlara toxundu. Cənab İlham Əliyevin yaxın keçmişimizin ayrı-ayrı səhifələri ilə bağlı diqqətə çatdırdığı tarixi həqiqətlər bu yazının ideyasına çevrildi. Dövlət rəhbərimizin çıxışını dinlədikcə tarixə verilən obyektiv qiymətin xalqın, dövlətin bu günü və gələcəyi üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyinin bir daha fərqində oldum. Və bu mövzuda düşüncələrimi qələmə almağı da özümə borc bildim.

Düşünürəm ki, bu mövzuda nə qədər yazılsa, nə qədər söhbət açılsa, bir o qədər faydalı olar. Nəsillər dəyişdikcə bəzən keçmişə münasibət də dəyişməyə başlayır. Tarixi həqiqətləri o dövrün canlı şahidləri olmamış gənclərə təhrif edilmiş şəkildə çatdırmağa cəhd göstərənlər də tapılır. Bu yanlış yanaşmalar isə ayrı-ayrı xalqların həyatında müəyyən dönəmlərdə tarixi yanlışlıqların təkrarlanmasına da rəvac verə bilir. Bu səbəbdən, Azərbaycanın yeni tarixindəki hadisələrin gənc nəslə olduğu kimi çatdırılması həmin dövrün şahidi olmuş, baş verənlər haqqında aydın təsəvvürlərə malik hər kəsin mənəvi borcu olmalıdır.

Azərbaycan Prezidentinin tarixi mövzulara həsr olunmuş hər iki tədbirdə ötən əsrin 80-ci illərinin sonlarından etibarən keçmiş sovet məkanında, o cümlədən, Azərbaycanda baş verənlərə obyektiv baxışı, tarixə dürüst qiymət verilməsi, bir neçə on il əvvəl olanların tarixşünaslıq prizmasından şərhi çox mühüm əhəmiyyətə malikdir.

Bu çıxışlarının birində Prezident İlham Əliyev SSRİ-nin süquta uğraması səbəblərinə diqqət yönəltdi. İqtisadi münasibətlərin düzgün qurulmamasını, planlı iqtisadiyyatın özünü doğrultmamasını ilkin səbəblərdən biri kimi göstərdi. Həqiqətən Sovet İttifaqının inkişafı 1980-ci illərdə daha çox neft amilinə söykənirdi. Neftin qiyməti dünya bazarlarında kəskin şəkildə

düşəndən sonra isə gəlirlər azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Bu gün Azərbaycan dövlətinin qeyri-neft sektoruna həyati vacib məsələ kimi baxması, bu istiqaməti inkişaf etdirməsi, iqtisadiyyatın neft amilindən asılılığının azaldılması, insan kapitalına qoyulan sərmayə on illər əvvəl sovet iqtisadiyyatının yol verdiyi yanlışlıqlardan çıxarılan dərsdir, həyati təcrübədir.

Ötən əsrin 80-ci illərinin sonlarına doğru Sovet İttifaqında milli siyasət sahəsində buraxılan kobud səhvlər haqqında Azərbaycan Prezidentinin fikirləri də tarixi həqiqətləri əks etdirirdi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan həm də milli siyasət idi. Amma 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Xüsusilə müsəlman respublikalarına qarşı çox mənfi siyasət yürüdüldü. Müsəlman respublikalarının rəhbərlərinə, o cümlədən, uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevə qarşı qarayaxma kampaniyalarına başlandı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilirdi. Elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, kritik həddə çatıb və bu respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. "Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdı" – Azərbaycan Prezidenti müsəlman xalqlarına qarşı hər kəsə bəlli olan mənfur münasibəti M.S.Qorbaçovun simasında keçmiş SSRİ rəhbərliyinin həyata keçirdiyi yanlış milli siyasətə belə qiymət verdi.

**Gün işığına çıxarılan həqiqətlər**

Bu, illərin o üzündə görünən digər həqiqətləri də gün işığına çıxarır. 1987-ci ildə Heydər Əliyev yüksək dövlət vəzifələrindən uzaqlaşdırılandan sonra Azərbaycanın başına gətirilənlər ona qarşı həyata keçirilən qərəzli kampaniyaların son məqsədi idi. Ulu Öndər həmin dövrdə yüksək dövlət vəzifəsində qalsaydı, Azərbaycana rəhbərlik etsəydi, ermənilər və onların havadarları Dağlıq Qarabağ münaqişəsini yaradaraq torpaqlarımızı işğal edə bilməyəcəkdilər.

Bu barədə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin keçmiş birinci katibi A.Koçinyan yazırdı: "Mənim rəhbərliyim dövründə Qarabağ məsələsi neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu, mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdi".

1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən cəmi iki həftə sonra Azərbaycana qarşı amansız planlar işə düşdü. Xalqın başına min bir müsibət açıldı. 1990-cı ilin 20 yanvarında sovet ordusu Bakı küçələrini günahsız vətəndaşların qanına boyadı.

Torpaqlarımız işğal edildi, yüz minlərlə soydaşımız yurd-yuvasından didərgin salındı. İqtisadiyyat dağıdıldı, Heydər Əliyevin ölkəyə 14 illik rəhbərliyi dövründə qurub yaratdıqları cəmi bir neçə ilin içində yerlə-yeksan edildi. İnsanlarımız bir tikə çörəyə möhtac vəziyyətə salındı.

O ağır illərdə də Moskvada, xüsusi xidmət orqanlarının nəzarətində, ən məhdud imkanlar çərçivəsində olsa belə, xalqın haqq səsinə səs verməyə çalışan, başımıza açılan oyunları dünyaya çatdırmaq üçün həyatı ilə risk edən yenə də Heydər Əliyev idi.

Bir anlıq təsəvvür edək: Bakıda 20 Yanvar qətliamı törədilib. Azərbaycan xalqı faciənin miqyasından sarsılıb. Hamı böyük acı içindədir. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənən Vəzirov respublikanı tərk edərək hərbi təyyarə ilə Moskvaya qaçıb. Ölkənin heç bir rəhbər işçisinin bu qanlı cinayəti qınayan qətiyyətli fikri eşidilmir. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə ailə üzvləri, o cümlədən, o vaxt Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun gənc müəllimi olan İlham Əliyevlə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək səsini ucaldır. Bütün dünyaya 20 Yanvar faciəsi haqqında cəsarətlə məlumat verir. Sovet İttifaqının rəhbərliyini qınayır, onların siyasətini pisləyir və uzun illər xidmət göstərdiyi Kommunist Partiyasının ədalətsiz sıralarını tərk edir.

"O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, hətta onun həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun ən yaxın tərəfdarı qətlə yetirildi. Bundan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. Ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başladı". Ümummilli Liderin ən yaxın silahdaşlarından biri kimi cənab İlham Əliyev həmin illərdə yaşananları öz çıxışında belə xatırlayırdı.

**Fəlakətə yol açan AXC-Müsavat iqtidarı**

1987-ci ildən Azərbaycana qarşı qurulmuş hiyləgər plan Heydər Əliyevin Naxçıvana dönüşündən sonra öz yeni mərhələlərinə qədəm qoydu. Azərbaycana başçılıq edən səriştəsiz rəhbərlərin naşı idarəçiliyi üzündən ölkə çıxılmaz girdaba düşmüşdü. Cəbhə bölgəsində kəndlər, rayonlar bir-birinin ardınca erməni işğalçılarına təslim edilirdi. Başı hakimiyyət davasına qarışmış vəzifə hərislərinin etinasızlığı üzündən erməni cəlladları 1992-ci ilin 26 fevral günü Xocalıda dinc əhaliyə qarşı ötən əsrin ən dəhşətli soyqırımını törətdilər.

1992-ci ilin mayında hərbi çevriliş nəticəsində qanunsuz yolla hakimiyyətə gələn AXC-Müsavat cütlüyü ölkəni yeni-yeni fəlakətlərə sürüklədi. Əslində, Azərbaycanın taleyinin AXC-Müsavat hakimiyyətini təmsil edən antimilli ünsürlərin əlinə keçməsinin özü elə ən böyük fəlakət idi.

Gənclər o dövrdə ölkəni idarə edən səriştəsiz kəslərin kimliyinə diqqət yetirsələr, bu fəlakətin miqyasını az-çox təsəvvürə gətirə bilərlər. Ölkə Prezidenti olaraq son dərəcə taleyüklü bir vəzifəni həyata keçirən, bu qədər ağır, məsul yükün altına girmiş şəxs heç bir idarəetmə səriştəsi olmayan elmi işçi idi. Onun zəifliyi, iradəsizliyi, qətiyyətsizliyi ölkənin milli maraqlarına zidd olan hər cür qərarların həyata keçməsinə, xarici dairələrin Azərbaycanı öz məqsədlərinə uyğun yönəltmələrinə, ölkədə hərc-mərcliyə şərait yaradırdı. Bəzi xarici ölkələrin Azərbaycandakı səfirləri ölkə rəhbərinə istədiklərini diktə edirdilər. Prezidentin məsuliyyətsiz bəyanatları, düşünülməmiş addımları Azərbaycanın qonşu ölkələrlə münasibətlərini korlamışdı. Respublikaya qarşı xarici təhdidlər güclənmişdi. Müxtəlif regionlarımızda separatizm ocaqları qalanmaqda idi.

Ovaxtkı rəhbərliyin naşı, təcrübəsiz, səriştəsiz mövqeyi dövləti, xalqı uçuruma aparır, xalq bunu açıq-aşkar görürdü. Həmin hadisələrə və o hadisələrin günahkarlarına obyektiv və tam aydın münasibət Azərbaycan Prezidentinin onlara verdiyi qiymət o dövrü yaxşı xatırlayan hər kəsin rəyi ilə tam üst-üstə düşür: "Bax budur xalq cəbhəsi, müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər. Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı”.

**İstiqlal yolumuza işıq salan ümid çırağı**

Bu mənada Azərbaycanın istiqlal yolu əslində məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan öz dövlət müstəqilliyini 1991-ci ilin 18 oktyabrında elan etmişdi. Amma bu, demək olar ki, formal bir məsələ idi. Üçrəngli bayrağımızın Milli Məclisdə qaldırılmasının hansı çətinliklər, maneələr hesabına başa gəldiyini, yəqin ki, heç kim unutmayıb. Halbuki Heydər Əliyev hələ 1990-cı ilin 17 noyabrında bu bayrağı Naxçıvan Ali Məclisində ucalda bilmişdi. Xalq müstəqilliyin ilk günlərindən bütün nəzərlərini Ulu Öndərin məskun olduğu Naxçıvana dikmişdi. Nicat, qurtuluş yolunu yalnız oradan gözləyirdi. İnsanlar onu arzulayırdılar, onu görmək istəyirdilər. Əgər Heydər Əliyev 1990-cı ildə Moskvadan Naxçıvana yox, Azərbaycanın istənilən bölgəsinə – Qarabağa, Şirvana, Şəkiyə, Gəncəbasara getsəydi, yenə də vətəndaşlarımız onu bağırlarına basacaqdılar, qoruyacaqdılar. Özlərindən bir addım da kənara buraxmayacaqdılar. Çünki düşdüyümüz vəziyyətdən xilas gücünü onda görürdülər. Bu məqamda Ulu Öndər də təkcə Allahın ona verdiyi fitri qabiliyyətə yox, həm də öz xalqına güvənirdi.

Hər xalqın öz adına çıxdığı, çox məşhur ifadə var: ümid axırıncı ölür. Xalqın xoşbəxt günlərində bəlkə də bu ifadəni yada salan olmur. Amma milli böhran anlarında, kritik dönəmlərdə, bütün ümidlərin az qala puça çıxdığı vaxtlarda bu aforizm yada düşür. Heydər Əliyev hər zaman biz azərbaycanlıların ümid yeri olub. Bu ümid heç vaxt öləziməyib. Əksinə, insanların qəlbində

çıraq kimi yanıb, onları mübarizəyə səsləyib, yaşamağa ruhlandırıb.

**Heydər Əliyev olmasaydı...**

İndi düşünürəm: kaş ki, Heydər Əliyev hakimiyyət rəhbərliyinə iki il gec yox, heç olmasa 1991-ci ilin oktyabrından, elə müstəqilliyimizin ilk günlərindən qayıdaydı. Çünki 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək olan dövr Azərbaycanda dövlət quruculuğunun inkişafı yönündə əldən çıxmış, boşa getmiş illər oldu. Nə qədər torpağımız işğal edildi. Neçə-neçə igid övladımızı itirdik. Həmin illər Azərbaycan dövlətinin təşəkkülü yox, tənəzzülü dövrü kimi yaşandı. Hər hansı sahədə inkişaf bir yana qalsın, 1969-1982-ci illərdə yaradılanların da çoxu dağıdıldı. Ölkənin iqtisadi potensialı sarsıldı. Siyasi hərcmərclik, anarxiya, siyasi ambisiyalar xalqı təngə gətirdi. Azərbaycan faktiki olaraq parçalanma təhlükəsi qarşısına, uçurumun bir addımlığına gəlib çatdı.

1993-cü ildə AXC-Müsavat cütlüyünün daxili işlər naziri özü Milli Məclisin iclasında etiraf edirdi ki, əllərdə olan silahların sayı bilinmir, respublikada kriminogen vəziyyət son dərəcə kəskindir. Ölkənin necə deyərlər, altı da, üstü də qaynayırdı.

Ölkədə siyasi mədəniyyətdən əsər-əlamət yox idi. Siyasi partiya adı altında qeyri-qanuni silahlı dəstələr bir-biri ilə didişir, ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoyurdular. Əgər Heydər Əliyev olmasaydı, bugünkü Azərbaycanı qoruyub saxlamaq mümkün olacaqdımı? Bu, o çətin dövrə ünvanlanmış ən mühüm suallardandır.

Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan sonra onunla görüşənlər, söhbətləşənlər, ziyarətinə gedənlər dəfələrlə vurğulayıblar ki, Heydər Əliyev yenidən işləmək, hakimiyyətə qayıtmaq arzusunda deyildi. O, ömrünün axırınadək doğma ata-baba yurdunda yaşamaq, necə deyərlər, min ilin yorğunluğunu canından çıxarmaq, xatirələrini yazmaq fikrində imiş. Amma sən demə, zaman və tale onu dincəlməyə, ömrün ixtiyar çağlarını sakitcə yaşamağa yox, böyük sınaqlara doğru aparırmış.

Ulu Öndərin hakimiyyətə qayıdışı sadəcə hansısa siyasətin tərkib hissəsi deyildi: hakimiyyətdən gedib, sonradan qayıdanlar barədə tarixi məxəzlərdə o qədər məlumatlar var ki... Amma böyük rəhbərin hakimiyyətə yenidən qayıdışı tamamilə ayrı siyasi-fəlsəfi müstəvidə idi. Bu, təbliğatın, təşviqatın, yaxud kimlərinsə istəyinin nəticəsi deyildi. Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışı tarixi zərurət, milli-mənəvi tələbat idi.

**Suallara cavablar**

Heydər Əliyev hakimiyyət rəhbərliyinə qayıdışı ilə Azərbaycanı təkcə parçalanma təhlükəsindən, vətəndaş müharibəsi girdabından xilas etmədi. Ulu Öndər Azərbaycana siyasi mədəniyyət gətirdi. Ona adi lampa işığında yaradılmış Yeni Azərbaycan Partiyası timsalında siyasi mübarizənin əslində necə aparılmalı olduğunu, seçki mədəniyyətini, partiya quruculuğu təcrübəsini öyrətdi. Heydər Əliyev xaotik bir mühitdən demokratik, hüquqi dövlət qurdu. Ölkənin sarsılmış sosial-iqtisadi həyatını aydın inkişaf yoluna çıxardı. Əsl dövlət, əsl dövlət adamı necə olmalıdır,

təcrübəsini və həqiqətini göstərdi. Hakimiyyət rəhbərliyinə bir dövlətçilik ədəbi gətirdi. Milli Məclisin iclas zalında, televiziya efirində siqaret fısqırdan, bir-birini küçə söyüşləri ilə söyən "meydan qəhrəmanları"nın yerlə bir etdikləri siyasi etiket normalarını öz yerinə qoydu.

Ulu Öndər Azərbaycan Prezidenti kimi ali dövlət vəzifəsini tutan, ölkənin və xalqın gələcəyinə görə məsuliyyət daşıyan şəxsin ən çətin məqamlarda necə böyük qətiyyət göstəməli olduğunu nümayiş etdirdi. Müxtəlif dönəmlərin kritik anlarında atdığı qətiyyətli addımlarla, ortaya çıxan suallara doğru cavabları ilə, yeri gələndə sərtliyi, yeri gələndə humanizmi, müdrikliyi, gələcəyə baxışı ilə əsl Lider nümunəsi yaratdı.

Heydər Əliyev AXC-Müsavat cütlüyü hakimiyyətinin yüksək vəzifələrində təmsil olunan şəxsləri də əslində labüd ölümdən xilas etdi. Çünki Ulu Öndər olmasaydı, gözü yeri-göyü görməyən silahlı müxalif dəstələr çox güman ki, onlara divan tutacaqdılar. Canlarının qorxusundan hərəsi bir yerdə gizlənmiş bu "qəhrəmanlar" ara sakitləşəndən sonra Heydər Əliyevə qarşı qərəzli kampaniyalara başlayıb onun nüfuzunu sarsıtmağa çalışsalar da, vətəndaşlarımız kimin kim olduğunu yaxşı bilirdi. Xalqın gözü tərəzidir.

Heydər Əliyev isə belələrinə, demək olar ki, fikir vermirdi. O daha böyük işlərə, tarixi missiyanın icrasına başlamışdı və belə cılız qara qışqırıqçılara necə deyərlər, heç baş qoşmağa belə dəyməzdi.

Dahilərdən biri yazır ki, "Nə üçün" sualına cavab verməyi bacaran insanlar həmişə "Necə" sualına da cavab tapa bilirlər. Böyük Öndər "biz müstəqil Azərbaycan dövlətini quracağıq, möhkəmləndirəcəyik, onun müstəqilliyini əbədi edəcəyik" deyərkən bunun necə baş verəcəyini də bilirdi.

Ulu Öndərin öz cismani sağlığında qurub yaratdıqları da, bu gün Azərbaycanı tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı nailiyyətlər də "necə" sualının cavabıdır. Azərbaycan bu nailiyyətləri ona görə əldə edə bilir ki, xalqdan dəstək alır. Bu dəstək isə kor-koranə bir hiss deyil, insanların inamıdır, güvənidir. Azərbaycan vətəndaşları Heydər Əliyev ideyaları işığında ölkəmizi inkişaf etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə tərəddüdsüz inanırlar. Bu inam ortaya qoyulan real işə əsaslanır. Real əməllərə söykənir. Azərbaycan vətəndaşı görür ki, cənab İlham Əliyev xalqına verdiyi bütün sözlərə sadiqdir. Hər bir işi həyata keçirib onun nəticələri haqqında danışır. Daha boş vədlər üzərində siyasət qurmur.

Vətəndaş ölkəmizin beynəlxalq nüfuzunun getdikcə necə yüksəlməsinin, Azərbaycanın regionda əsas söz sahibinə çevrilməsinin, bu bölgələrdə bir çox irimiqyaslı qlobal layihələrin yalnız Azərbaycanın xeyir-duası ilə həyata vəsiqə qazanmasının fərqindədir.

Bu gün Azərbaycan vətəndaşı hökumətin həyata keçirdiyi sosial siyasətin nəticələrini öz gündəlik həyatında, getdikcə artan məvacibində, pensiyasında, infrastruktur imkanlarında, təhsil, səhiyyə xidmətlərinin yaxşılaşdırılması üçün atılan addımlarda aydın görür. Azərbaycan dövləti bu gün

öz vətəndaşının yanındadır, onun qayğısı isə hər an insanların başı üzərindədir.

Heydər Əliyev ideyaları işığında yaradılmış Heydər Əliyev Fondu indiyədək ayrı-ayrı müvafiq dövlət qurumları ilə birgə nə qədər vətəndaşımızın problemlərinin həllinə kömək göstərib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial-humanitar layihələrdən Azərbaycanda və dünyada nə qədər insan faydalanıb. Son illərdə Azərbaycan vətəndaşının həyatında saya gəlməyən böyük dəyişikliklər baş verib. Cəmiyyətimizdə sosiallaşma meyilləri güclənib. Təhsil, savad, biliklərə yiyələnmə, insan kapitalı Azərbaycan cəmiyyətində də əsl dəyərə çevrilib. Gənclərimizə fərdi inkişaf, karyera uğurları, ölkənin ictimai həyatında yaxından iştirak üçün nə qədər böyük imkanlar yaradılıb.

**Gəncliyə tövsiyə**

Bu gün Azərbaycan gəncliyinin ən böyük vəzifəsi dövlətçilik dəyərlərimizə sadiqlik, Vətənin bu gününə və gələcəyinə sahib çıxmaq, səadətimizi istəməyən xarici qüvvələrin və daxildə onların sifarişlərini yerinə yetirən sapı özümüzdən olan baltaların fitnə-fellərinə uymamaqdır.

Bunun yeganə yolu yenə də bilikdən, təhsildən, tariximizi öyrənməkdən, keçmiş haqqında dürüst qənaətə gəlməkdən, keçmişin dərslərindən ibrət almaqdan, Azərbaycanın bu gününə inanıb Vətənin xoşbəxt gələcəyini yaratmaqdan ibarətdir. Azərbaycan Prezidentinin gənclərimizə ən əsas tövsiyəsi də elə budur: "Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Əminlik var ki, vətənpərvər, aydın zəkalı Azərbaycan gəncləri bu tövsiyələri hər zaman əldə rəhbər tutacaq, biliyi, bacarığı, istedadı, savadı ilə həm vətəndaş olaraq özlərinin, həm də Azərbaycanın firavan gələcəyini təmin etməklə, Heydər Əliyev ideyaları işığında Vətəni daha böyük uğurlara aparacaqlar.

**Nurlana ƏLİYEVA,**
**Bakı Slavyan Universitetinin rektoru, professor.**

# QƏHRƏMANLIQ, RƏŞADƏT RƏMZİ

**20 Yanvar faciəsindən 30 il ötür. Zaman keçdikcə bu qanlı hadisələr yaddaşlarda silinməz izlər qoyur. Dinc, əliyalın, günahsız insanları vəhşicəsinə qətlə yetirmiş imperiya və onun sadiq nökərləri daim nifrətlə xatırlanır.**

1990-cı ilin qanlı Yanvarı Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzinə çevrilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu barədə demişdir: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir... Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər."

Təbii ki, imperiya caynaqlarından qurtulmaq heç də asan deyildi. Xalqımız öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizədə igidlik, mətinlik, əyiməzlik nümayiş etdirirdi. Sözün əsl mənasında 1980-ci illərin sonlarında Azərbaycanda geniş vüsət almış milli azadlıq hərəkatı keçmiş SSRİ rəhbərlərini ciddi narahat etməyə başlamışdı. Kreml nəyin bahasına olursa-olsun xalqımızın azadlıq, demokratiya arzularını beşikdəcə boğmaq, vətənpərvər insanları, azadlıq mücahidlərini susdurmaq üçün məqam gözləyirdi.

Azərbaycana qarşı düşmən mövqe tutan qüvvələr 1987-ci ildə ümummilli lider Heydər Əliyevin Sov. İKR MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmasından sonra daha da fəallaşdılar. Bədnam qonşularımız ölkəmizə qarşı torpaq iddiası irəli sürərək vəziyyəti getdikcə gərginləşdirirdilər.

Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar mərkəzin birtərəfli mövqe tutması, Azərbaycanın haqq səsinə açıq şəkildə soyuqluq, biganəlik nümayiş etdirməsi xalqın ittifaq rəhbərlərinə inamını sarsıtmışdı.

1990-cı ilin əvvəlində hadisələr ən kəskin həddə çatdı. Kreml vəziyyətə nəzarət edə bilmədiyi üçün xalqımıza divan tutmaq yolunu seçdi.1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən 11 min nəfərlik sovet ordusunun xüsusi təyinatlı dəstələri, daxili qoşunların iri kontingenti Bakı şəhərinə daxil oldu. Ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni zabitləri, hətta kursantlar da daxil edilmişdi. Xüsusi amansizlıq, qəddarlıq, misli görünməmiş vəhşiliklərlə müşayiət olunan qanlı faciə nəticəsində Bakı şəhərində 131 mülki şəxs öldürüldü, 700 nəfərdən çox adam yaralandı.

SSRİ rəhbərliyinin göstərişi ilə hərbi birləşmələr paytaxtla yanaşı Sumqayıt, Lənkəran, Neftçala şəhərlərində də qanlı hadisələr törətdilər, əliyalın, günahsız insanları, azadlıq mücahidlərini qanına qəltan etdilər.

İmperiya cəlladlarının törətdiyi qətliama, bəşəri cinayətə don geydirməyə çalışan sovet rəhbərləri hadisələrin guya "SSRİ Konstitusiysının müddəalarına uyğunluğu", "İnsanların hüquq və azadlıqlarının müdafiəsi məqsədi daşıdığını" iddia edirdilər. Lakin həyata keçirilmiş qanlı terrorun qeyri-qanuni, ağır cinayət olduğu artıq hamıya məlum idi.

Törədilmiş faciə insan hüquqlarına dair beynəlxalq sənədlərə, ilk növbədə, "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nə, "Vətəndaş və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, keçmiş SSRİ və Azərbaycan SSR Konstitusiyasının tələblərinin kobudcasına pozulmasına dəlalət edirdi.

Keçmiş SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə əsasən, SSRİ Ali Sovetinin Rəyasət Heyəti SSRİ-nin müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyinin təmin olunması məqsədilə bütün ölkədə və ya onun ayrı-ayrı ərazilərində fövqəladə və ya hərbi vəziyyəti yalnız o halda elan edə bilərdi ki, bu məsələyə müttəfiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti tərəfindən baxılsın. Lakin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bu məsələyə baxılmasına belə imkan verilməmişdir.

Bakıdakı qanlı faciədən dərhal sonra-yanvarın 21-də xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq ailə üzvləri ilə birlikdə Azərbycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi.

O vaxt mən Moskvada təhsil alırdım. Azərbaycan KP MK bürosunun və SSRİ Daxili İşlər Nazirliyinin kollegiya qərarları ilə SSRİ DİN-in İdarəetmə Akademiyasının birinci fakültəsində-müttəfiq respublikalar üçün rəhbər kadrlar hazırlayan fakültədə oxuyurdum.

Dağlıq Qarabağ ətrafında baş verən hadisələri diqqətlə izləyir, çox narahat olurdum. Moskvada yaşayan görkəmli azərbaycanlı alimlərlə, tanınmış ziyalılarla görüşür, fikirlərimizi bölüşürdük. Azərbaycan KP MK katibi Həsən Həsənovun MK-da keçirilən yığıncaqda kəskin çıxışını ziyalılar arasında yayır, Azərbaycanın haqq səsini müxtəlif millətlərin nümayəndələrinə də çatdırırdıq.

Ümummilli liderin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gəlişinin şahidi və orada baş verən hadisələrin iştirakçısıyam. Ulu öndər daimi nümayəndəliyə gələndə onun ətrafına yığışan həmyerlilərimizə və Azərbaycan xalqına faciə ilə əlaqədar başsağlığı verdi. Sonra ölkə və xarici jurnalistlərin, tədbir iştirakçılarının toplaşdığı zala daxil oldu.

Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin rəhbəri Zöhrab İbrahimov tədbiri giriş sözü ilə açaraq 20 Yanvar faciəsi barədə məlumat verdi. Ümummilli lider Heydər Əliyev çıxışa başlayandan bir neçə dəqiqə sonra əvvəlcədən xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, Moskvada təhsil alan azərbaycanlı tələbə qız gözlənilmədən zala daxil oldu və dərhal yersiz suallarla ümummilli liderin çıxışına mane olmağa, tədbiri pozmağa cəhd göstərdi. Mən milis formasında olduğum üçün

zala buraxılmışdım. Çoxlarında, xüsusilə orda iştirak edən və eyni zamanda daimi nümayəndəliyin əməkdaşlarında belə təsəvvür yaranmışdı ki, mən Moskva Şəhər Daxili İşlər Baş İdarəsinin rəhbərliyi tərəfindən ictimai asayişi qorumaq məqsədilə tədbirə göndərilmiş yüksək rütbəli zabitəm. Mən və bir neçə ziyalı dərhal həmin tələbə qıza bildirdik ki, bura belə yersiz sualların, söhbətlərin yeri deyil və zalı tərk etsin. Həmin tələbə qız mənim milis formasında asayişi qoruduğumu zənn edərək zaldan çıxdı.

Sonra ümummilli lider Heydər Əliyev öz çıxışını davam etməyə başladı. Bu zaman ikinci tələbə qız zala daxil olaraq yersiz, mənasız, tədbiri pozmağa yönəlmiş suallar verdi. Eyni qaydada onun da zaldan getməsini təmin etdik.

Maraqlısı budur ki, tədbirin əvvəlində heç bir maneə yaranmadı. Moskvanın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış bu iki tələbə gəncin məqsədi isə xalqımızın ağır günündə onun dərdinə şərik olmağa, başsağlığı verməyə, haqq səsimizi dünyaya çatdırmağa gəlmiş ümummilli lider Heydər Əliyevin verdiyi bəyanata mane olmaq idi.

Xalqımızın yeganə ümidi və pənahı olan Heydər Əliyev nümayəndəlikdə çox sərt bəyanatla çıxış etdi. Bakı şəhərində sovet rəhbərliyinin törətdiyi qanlı hadisələri pislədi, bunu bütöv bir xalqa qarşı zorakılıq, qəddarlıq, misli görünməmiş cinayət adlandırdı. Xarici ölkə jurnalistlərinin gözü qarşısında sovet rəhbərlərini ittiham edərək təcavüzə kəskin etirazını bu cür bildirdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadislərə gəlincə, mən onları hüquqa, demokratiyaya yabancı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm."

Ulu Öndərin bu qətiyyətli çıxışı Azərbaycanın informasiya blokadasına alındığı gərgin dövrdə totalitar rejimə, onun rəhbərlərinə sarsıdıcı zərbə oldu. Qorbaçovun və digər rəhbərlərin ünvanına söylədiyi ittihamlar təkcə Bakıda deyil, təcavüzə məruz qalmış Alma-Ata, Tbilisi, Vilnüs və digər şəhərlərdə, xarici dövlətlərdə böyük rəğbətlə qarşılandı.

Azərbaycanın ağır günlərində ümummilli lider Vətəndə, xalqının yanında olmağı məqsədəuyğun bildi. 1990-cı il iyulun 20-də təyyarə ilə Moskvadan Bakıya gəldi, iyulun 22-də hakimiyyətin təhdidləri və təzyiqləri nəticəsində Naxçıvana getməyə məcbur oldu.

Müdrik rəhbərin "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun 20 Yanvar faciəsi barədə sonralar etdiyi bütün çıxışların, bəyanatların, imzaladığı sənədlərin leymotivinə çevrildi. Ulu öndər Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verən sənədin qəbul edil-

məsinə nail oldu. İlk dəfə olaraq faciə siyasi-hüquqi qiymətini aldı, cinayətin iştirakçılarının və təşkilatçılarının adları açıqlandı. Əlbəttə, bu o dövrdə rəhbərdən böyük siyasi iradə, cəsarət və qətiyyət tələb edirdi.

Ümummilli lider 1993-cü ilin iyun ayında xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdandan sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 1994-cü il mart ayının 29-da Milli Məclis geniş müzakirələrdən sonra "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi.

Sənəddə milli azadlıq hərəkatını boğmaq, xalqın iradəsini, inamını qırmaq üçün 20 Yanvar faciəsini təşkil etmiş Sov. İKP MK, sovet dövləti və hökumətinin rəhbərlərinin, o cümlədən, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi qeyd olundu. Eyni zamanda hərbi təcavüzə görə respublika rəhbərlərinin məsuliyyət daşıdıqları, onların Azərbaycan xalqına qarşı xəyanət etdikləri sənəddə öz əksini tapdı.

Qanları ilə torpağa "Azadlıq" sözünü yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, antihumanist siyasətinə qarşı əliyalın çıxmaqla xalqımızın mübarizə əzmini, igidliyini, qəhrəmanlığını bir daha təsdiqlədilər. Ümummilli liderin dediyi kimi "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdırlar, onlar millətimizin qəhrəmanlarıdırlar."

Azərbaycan Prezidenti cənab İlham Əliyev 13 dekabr 2019-cu il tarixdə "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzalamışdır. Yanvar hadisələrinə çox böyük diqqətlə, həssaslıqla yanaşan ölkə başçısı bu qanlı aksiyanın sovet rejiminin qəddarlığını, saxtalığını və iflasa uğradığını, xalqın azadlıq uğrunda mübarizlik əzminin möhkəmlənməsinə güclü təkan verdiyini önə çəkir, həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş, şəhidlik zirvəsinə ucalmış vətən övladlarının şücaətini yüksək qiymətləndirir.

1990-cı ilin yanvarında Azərbaycan xalqı öz iradəsini bütün dünyaya göstərdi. 20 Yanvar bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. O gündən keçən müddət ərzində Azərbaycan, demək olar ki, yeni mərhələyə qədəm qoydu. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan öz xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi yaşayır, inkişaf edir.

Qanlı Yanvar həm də müstəqillik tariximizin ən şərəfli bir səhifəsidir. Azadlıq, istiqlal uğrunda xalqımızın apardığı mübarizənin zirvəsi kimi çağdaş tariximizə əbədi həkk olunub. O müdhiş şənbə gecəsindən 30 il keçsə də xalqımız bu faciəni heç vaxt unutmur, ağrılarını yaşadır və onu törədənlərə dərin nifrətini bildirir. Bu faciə xalqımızın yaddaşından heç vaxt silinməyəcəkdir.

**İbrahim Quliyev,**
**Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor.**

# HEYDƏR ƏLİYEV FONDU: XEYİRXAHLIQ OCAĞI, ÜMİD YERİ

**Məsuliyyətlərimizdən qaça bilərik, amma qaçışın sonuclarından qaça bilmərik.**

**J.Ç.Stamp,**
**ingilis iqtisadçısı, araşdırmaçı-yazar.**

***Yeni təqvim ilinin ilk günlərini yaşayırıq. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində bir-birimizi aradıq, təbriklərimizi çatdırdıq, xoş arzular ifadə etdik. Ənənəmizə uyğun, bu bayram günlərində də hər birimiz fərdi xeyirxahlıq örnəklərini yaşadıq. Elə bu mövzudan çıxış edərək xeyirxahlıqdan söz açmaq istərdim. Etiraf edək ki, son illərədək bizdə belə bir təsəvvür vardı ki, xeyirxahlıq sanki Hacı Zeynalabdin Tağıyevin adında və dövründə qalıb. Amma Hacıdan öncə və sonra da, xalqımız xeyirxah əməlləri ilə fərqlənib. Əlbəttə, xeyirxahlıq xalqımızın ruhunda, xarakterindədir. Amma institutlaşmış xeyriyyəçilik Heydər Əliyev Fondunun təsis olunması ilə çiçəklədi. Azərbaycan xeyirxahlığı (xarakteri də adı kimi olan) Mehriban xanımın adı ilə Günəş kimi yenidən doğdu.***

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fondun ictimai-mədəni həyatımıza daxil olduğu günü Azərbaycan xeyirxahlıq institutunun bərpası günü də saymaq olar. Bütün digər xidmətləri, məziyyətləri öz yerində, yalnız bu cəhəti ilə belə Heydər Əliyev Fondu yeni dövr Azərbaycan tarixində özünəməxsus yer qazanmağı dərindən haqq etmişdir.

Əhalinin həssas qruplarının – uzun sürən, yaxud sağaldılması çox çətin olan xəstəliklərdən əziyyət çəkənlərin, valideynləri tərəfindən atılmışların, təbii fəlakətlərdən zərər çəkmişlərin, istedadlı balalarımızın, dəstəyə ehtiyac duyan qocaların ümid yeri, inam ünvanı Heydər Əliyev Fondudur. Mehriban xanım həm fondun, həm də özünün adına layiq işlərə imza atır. İstər ucqar qəsəbələrimizə, istərsə də xarici səfərlərdə Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanımın xeyirxahlıqları haqqında əfsanələşmiş faktları, həm sadə adamların, həm də ziyalıların dilindən eşitmək çox xoşdur, könülaçandır.

Bəli, Fond adına yaraşan miqyasda layihələr icra edir. Heydər Əliyev Fondu hansısa siyasi səbəbləri, ötəri hissləri, dini, milli və s. mənsubiyyəti qabartmır, köməyə, dəstəyə ehtiyacı olanları isti ürəklə qarşılayır, hamının ümid yeri, xeyirxahlıq ocağı olduğunu sübut edir və beləliklə də, könül bayrağı dalğalandırır, danılması mümkün olmayan faktların təntənəsini yaradır! Özü də heç bir qarşılıq gözləmədən, tam təmənnasız şəkildə! Dünyada mövcud olan

bir çox fondlardan fərqli olaraq, burada hər hansı missionerlik, altşüur istismarı və s. yoxdur. Fondun fəaliyyəti "yaradılanı Yaradan xatirinə sevmək" kəlamına, haqsızın qarşısında, haqlının yanında olmağa daha çox uyğun gəlir. Bu missiya mübarək missiyadır! Ümidlər belə mandat – missiyalarla cücərir, diləklər çin olur, göy üzü qara buludlardan bu şəkillənmələrlə təmizlənir, Günəşin al-əlvan şəfəqləri görünür... Nəhayət, torpaq, hava, su sevinir, insanlıq sevinir, Tanrıya şükranlıqlar çoxalır...

Fondun saytında ən başda ümummilli liderin bu sözləri yer alır: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz". Bu sözlər, Heydər Əliyev Fondunun beynəlxalq əlaqələrinin mahiyyətini, yeni nəsil kadrların yetişdirilməsinin, fərqli problemlərə baxışın fəlsəfəsini aydın ifadə edir. Gəlin, bir az yaxından tanış olaq. Fond:

– Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;

– respublikanın və xarici ölkələrin fondları, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr reallaşdırmaq;

– yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;

– insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;

– Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;

– uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək kimi ülvi çalışmaları özünün məqsədi elan edib.

Artıq sirr deyil ki, bu məqsəd elanı adi kağız üzərində və ya bilgisayar ekranında oxuduqlarımızdan (necə deyərlər, elanlıqdan) çoxdan çıxıb və gerçək müstəvi üzərində maddiləşib, insanlarımızın üzüntüsünü yox etmək, uğurlarını artırmaq üçün qoca çinar kimi qol-qanad gərib. Bu çinarın kökü dərinlərdən, başı səmadan – mavi buludlardan su içir.

Azərbaycana, azərbaycanlılara diqqətəlayiq xidmətdə zəngin keçmiş qazanmış Fond, ölkəmizin həqiqətlərini xaricdə yaymaqla şöhrət qazanıb. Avropada, Asiyada, yaxında – uzaqda Heydər Əliyev Fondunun adı-sanı var, xeyirxah əməlləri dillərə düşüb.

Hacı Zeynalabdin Tağıyevin bir əsr bundan öncə göstərdiyi tarixi xeyirxahlıq dəstəyinin pakistanlılar tərəfindən unudulmadığını bilirik. Çağdaş dönəmdə isə Heydər Əliyev Fondu, Azərbaycan xeyirxahlıq məktəbini özünəməxsus şəkildə qardaş Pakistanda məktəb xeyirxahlığı ilə davam və inkişaf etdirdi. Bununla da, xalqımızın xeyirxahlığının ötəri olmadığını, yaşadığını, yeni naxışlar qazandığını nümayiş etdirmiş oldu.

Ölkə xaricində isə elə son üç-dörd il ərzində gerçəkləşdirilmiş və yalnız adına diqqət edəcəyimiz yaddaqalan çalışmalar

(müsbət nəticələnmiş layihələr) belə zəngin təəssürat yaratmaq gücündədir:

– Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonu,

– 58-ci Venesiya Biennalesində Azərbaycan pavilyonu,

– “Ağrı” romanı,

– Pekində Azərbaycan– Çin dostluq konserti,

– Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (Tbilisi, Berlin, London, Vatikan, Roma, Varşava, Paris),

– Moskvada “Yeddi gözəl” sərgisi, Nəsimi festivalı, Nəsiminin büstü, “Azərbaycanın payız sovqatları” adlı şəhərcik,

– Həştərxanda Azərbaycan Biznes Mərkəzi,

– Azərbaycan ilə Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr edilmiş sərgi,

– Kannda Azərbaycan mədəniyyəti günləri – 2017,

– Fransada “Azərbaycan parkı” və Xurşidbanu Natəvanın abidəsi,

– 57-ci Venesiya Biennalesində Azərbaycan pavilyonu,

– Moskvada “Abşeron ulduzları. 1960–1980-ci illərin Azərbaycan rəssamları” sərgisi,

– Fransanın Konyak şəhərində Məhsəti Gəncəvinin heykəli,

– VII “Qız qalası” Beynəlxalq incəsənət festivalı,

– Parisdə “Azərbaycan şəhərciyi” – 2016,

– Kannda Azərbaycanın təbliği ilə bağlı sərgilər – 2016,

– Belçikada Xurşidbanu Natəvanın abidəsi...

Azərbaycanın təbliği işi Fondun fəaliyyətinin yalnız bir istiqamətidir. Fondun digər istiqamətləri də bunun qədər dəyərlidir, vacibdir və təxirəsalınmazdır. Bir anlığa düşünək: Heydər Əliyev Fondu olmasaydı, bu təxirəsalınmazlıq necə təzahür edəcəkdi? Açığı, bunu təsəvvür etmək, şəxsən mənim üçün o qədər də asan deyil.

Kütləvi informasiya vasitələrində axtarış verdikdə, Heydər Əliyev Fondu haqqında çoxsaylı bilgilər, internet resursları ilə qarşılaşırıq. Fondla bağlı informasiyaların yalnız bir hissəsini oxucuların diqqətinə çatdırmaqla, həyata keçirilən fəaliyyətlərin coğrafiyasını, janrını, kateqoriyasını aydın görmək mümkündür. Fond özünəməxsus unikallığı ilə seçilir və onu ən yaxşı təqdim etmək üçün bir söz axtarsaq, o söz, “fenomen” olardı. Bu təyini şərtləndirən məqamlardan biri də, Fondun fəaliyyətindəki arasıkəsilməzlik və artan templə çalışma, böyümə əzmidir.

Xronoloji ardıcıllıqla mediamızda yazılanların bir qisminə diqqət edək:

– Heydər Əliyev Fondu qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərini məktəb ləvazimatları ilə təmin edəcək (10 sentyabr 2008);

– Heydər Əliyev Fondu böyrək çatışmazlığı olan xəstələr üçün hemodializ aparatları alıb (6 noyabr 2009);

– Heydər Əliyev Fondunda “Muğam aləmi” nəşrinin təqdimatı olub (11 noyabr 2009);

– Horadiz sakinləri Heydər Əliyev Fonduna minnətdarlıq ediblər (9 iyul 2013);

– Rusiyalı şair Heydər Əliyev Fonduna müraciət etdi (13 avqust 2013);

– Heydər Əliyev Fondu cəbhə rayonunda uşaq bağçaları tikdirir (5 mart 2014);

– Heydər Əliyev Fondu Sumqayıtda “Şəhidlər xiyabanı” kompleksini təmir etdirəcək (28 mart 2014);

– Heydər Əliyev Fondu “Qabusnamə”ni iki dildə nəşr etdirib (10 may 2014);

– Heydər Əliyev Fondunun təşəbbüsü ilə Samuxda uşaq bağçaları tikilir (24 may 2014);

– Heydər Əliyev Fondundan ağır xəstəliyə tutulan jurnalistə vacib dəstək (25 may 2015);

– Heydər Əliyev Fondunun dəstəyi ilə eşitmə qüsurlu şəxslər üzərində əməliyyatlar aparılır (5 oktyabr 2015);

– Heydər Əliyev Fondu xərçəngdən əziyyət çəkən rejissora yardım göstərəcək (12 sentyabr 2016);

– Heydər Əliyev Fondu Braziliya Senatına kitablar hədiyyə etdi (25 noyabr 2016);

– Heydər Əliyev Fondu 165 mindən çox aztəminatlı ailəni sevindirib (29 dekabr 2016);

– Heydər Əliyev Fondu uşaq evində böyüyən gənclərə toy etdi (5 mart 2017);

– Heydər Əliyev Fondunun cəbhə bölgəsindəki humanitar missiyası... (21 aprel 2017);

– Heydər Əliyev Fondu köçkünün evinin sökülməsinin qarşısını aldı (18 oktyabr 2017);

– Heydər Əliyev Fondu Qardabani rayonuna “Təcili tibbi yardım” maşını hədiyyə edib (16 iyun 2018);

– İşıq sürəti ilə hasil olan işıqlı məkanlar – Heydər Əliyev Fondundan yayılan ZİYA (25 sentyabr 2018);

– Heydər Əliyev Fondunun nümayəndələri zəlzələ bölgəsində (6 fevral 2019);

– Heydər Əliyev Fondu meyxanaçı Kərimin müalicə xərclərini öhdəsinə götürdü (8 fevral 2019);

– Fuad Muradov Heydər Əliyev Fondunun hədiyyəsini Gürcüstan azərbaycanlılarına çatdırdı (5 aprel 2019);

– Heydər Əliyev Fondu Pakistanın qızlar məktəbinə hədiyyələr göndərib (5 aprel 2019);

– Aprel şəhidinin övladı Heydər Əliyev Fondunda işə qəbul olunub (5 aprel 2019);

– Heydər Əliyev Fondu Qarabağ müharibəsi əlili üçün yeni ev tikdirib (13 iyun 2019);

– Heydər Əliyev Fondundan aktyorun müalicəsinə dəstək (20 iyun 2019);

– Heydər Əliyev Fondu sosial layihələr müsabiqəsi keçirəcək (2 iyul 2019);

– Heydər Əliyev Fondu ürək qüsurlu uşaqların əməliyyatına dəstək oldu (17 iyul 2019);

– Heydər Əliyev Fondundan şəhid oğlunun müalicəsinə dəstək (24 sentyabr 2019);

– Heydər Əliyev Fondu Oqtay Güləliyevin müalicəsini öz üzərinə götürdü (5 noyabr 2019);

– Heydər Əliyev Fondu şəkər xəstələrinə yardım edəcək (14 noyabr 2019);

– Heydər Əliyev Fondu daha bir "Aprel şəhidi"nin ailəsini sevindirdi (18 dekabr 2019);

– Heydər Əliyev Fondu aztəminatlı ailələrə bayram sovqatları çatdırıb (27 dekabr 2019)...

Bu informasiyaların başlıqlarını niyə xatırladırıq? Bilirsiniz, ictimai fikir və yaxud ictimai fikrə ötürülən impulslar özü də, toplumda məmnunluq, ümid, inam aşılayır, sabitlik əmsalını artırır, inkişafa səsləyir. Üstəlik, bu başlıqlar belə onu göstərir ki, Heydər Əliyev Fondu ardıcıl, ciddi, çoxfunksiyalı çalışma sahəsində sabitqədəmdir və davamlı informasiya mübadiləsini vacib bilir. Bu, özlüyündə həm hesabatlılıq, həm də trendlər yaratmaq imkanını ifadə edir. Bu, ictimai müraciətlər üçün açıq qapı siyasətinin də özünəxas ifadəsi olduğunu da düşünürəm.

Heydər Əliyev Fondunun saytında "Beynəlxalq mətbuat", "Press-relizlər" bölmələri, habelə zəngin "Foto", "Video" bölümləri sırf bu planda dediklərimizi, bir daha təsdiq edir. Doğrusu, respublikamızda, hətta yaxın bölgədə belə bu miqyasda fəaliyyət göstərən və onun ictimai fikirlə, kütləvi informasiya vasitələri ilə sistemli işi timsalında çalışması olan hansısa bir fondun varlığını xatırlamıram. Nə gizlədək, bəzən dövlət büdcəsindən maliyyələşən hansısa mərkəzi icra hakimiyyəti orqanımızın bu qədər mediaya açıqlığını, hesbatalılığını, gur çalışma əzmini görmürük. Deməli, Heydər Əliyev Fondunun, fondun törəmə qurumlarının (məsələn, 12 fevral 2016-cı il tarixdə təsis olunmuş "Regional İnkişaf" İctimai Birliyinin media siyasəti, əlçatanlığı da, özlüyündə bir örnək təşkil edir.

Heydər Əliyev Fondunun digər fəaliyyət istiqamətlərinə nəzər salaq.

– Elm və təhsil sahəsində:

"Uşaq evləri və internat məktəblərinin inkişafı",

"Yeniləşən Azərbaycana yeni məktəb",

"Təhsilə dəstək",

"Məktəbəqədər təhsil müəssisələrinin inkişafı",

– Səhiyyədə:

"Diabetli uşaqlara ən yüksək qayğı",

"Talassemiyasız həyat naminə",

"Tibb müəssisələrinin yenidən qurulması və inşası",

"Xeyriyyə aksiyaları",

– Mədəniyyət sferasında:

"Mədəniyyət obyektləri və tarixi mədəniyyət abidələri",

"Musiqi layihələri",

"İncəsənət festivalları və sərgilər",

"Tolerantlığın ünvanı – Azərbaycan" və s.,

– Sosial,

– İdman,

– İKT,

– Ətraf mühit,

– Nəşrlər...

Bəli, müstəqil Azərbaycanımız belə çoxfunksiyalı, çoxşaxəli çalışma həyatına malik bir fonda sahibdir. On beş ildir ki,

adı Azərbaycanın adı ilə qoşa çəkilən bir fonda!

Fond haqqında rəsmi məlumatda oxuyuruq: "Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiridir".

Bu yerdə, Fondun məqsədlərinə dair bilgiləri də (ixtisarla) oxucularımızla paylaşmağın faydalı olacağını düşünürəm:

– Görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;

– Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;

– Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;

– elmi tədqiqatların aparılmasına yardım etmək;

– xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;

– uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;

– ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;

– Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;

– dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək.

Yəqin ki, Heydər Əliyev Fondundan danışarkən, "Xocalıya ədalət!" kampaniyası haqqında danışmadan keçmək düzgün olmazdı. "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası – Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada bilinməsi, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət istiqamətlərindən biridir. Kampaniyaya 2008-

ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmışdır.

Kampaniya Xocalı soyqırımının (ümumən Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin) tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və digər ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maariflən-dirmənin artırılması məqsədini daşıyır.

Kampaniya, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması və özəlliklə də gənc nəsil tərəfindən unudulmamasına xidmət edir.

Üç dildə yayımlanan "justiceforkhojaly.org" portalından da tanış olduğumuz kimi, kampaniya qlobal səviyyədə fəaliyyət göstərmək və öz müraciətlərini çatdırmaq üçün müxtəlif kommunikasiya vasitələri və resurslarından, o cümlədən media, internet və canlı tədbirlərdən fəal şəkildə istifadə edir.

Leyla xanımın rəhbərlik etdiyi beynəlxalq kampaniya bir sıra ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı mərhələdə 120 mindən çox şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir.

Ağrılı mövzuya həsr edilmiş bu məsuliyyətli kampaniya çərçivəsində təşkil edilən tədbirlərdə əsas diqqət kütləvi qırğınlara, etnik təmizləmə və irqi, etnik və ya dini ayrı-seçkilik hallarına qarşı güclü müqaviməti nümayiş etdirməyə, Xocalı soyqırımı qurbanları ilə həmrəylik göstərməyə və Xocalıda azərbaycanlılara qarşı törədilmiş cinayətlərə görə cəzasızlıq halları ilə mübarizəyə yönəlmişdir.

Sosial şəbəkələr, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər oxşar tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan digər səmərəli vasitələri təşkil edir.

Əlbəttə, 15 ildən artıqdır belə gərgin fəaliyyət göstərən bir təsisat haqqında bir qəzet məqaləsində hər şeyi ehtiva etmək mümkün deyil.

Amma, ürəklə deyə bilirik: Heydər Əliyevin adını daşıyan Fond bax, belə olar!

Cəsarətlə deyirik: Mehriban xanımın rəhbərlik etdiyi Fond möhtəşəm layihələrə imza atır!

O gün olsun ki, Heydər Əliyev Fondunun Şuşada təmir-bərpa işlərinin, Kəlbəcərdə "İstisu müalicə-kurort mərkəzi"nin yenidən qurulmasının, Laçında yolların təmirinin, işğaldan azad edəcəyimiz digər ellərimizdə xeyriyyə aksiyalarının xəbərini paylaşaq! O günə bu gündən salam olsun!

Fondun fəaliyyət bayrağı və müstəqil respublikamızın dövlət bayrağı həmişə uca olsun!

**Əkbər QOŞALI,**
**Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri, Milli QHT Forumu İdarə Heyətinin üzvü, şair – publisist.**

# İSLAHATÇI PREZİDENT

> **Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan**
> **Respublikasının Prezidenti.**

**Tarix şəxsiyyətlər yetişdirir. Bu, aksiomdur. İsbata ehtiyacı olmayan digər həqiqət də ondan ibarətdir ki, şəxsiyyətlər də tarix yaradır. Burada qarşılıqlı asılılıq mövcuddur. Bu asılılığın unikallığı ondadır ki, tarix özünün mürəkkəb çağlarını yaşayarkən daha səxavətli olur. Dühalar doğulur. Onların missiyaları xilaskarlıq olur. Tarixin, dövlətin və millətin xilaskarı missiyası. Həmin missiyanı müasir Azərbaycan dövlətçiliyi tarixində ümummilli lider Heydər Əliyev yerinə yetirdi. Zəmanəmizin dühası, ilk növbədə, Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni xaos vəziyyətindən çıxartdı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli intibaha nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı.**

Azərbaycan xalqı dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır. Həm də ona görə minnətdardır ki, ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 16 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", – qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 16 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Prezident İlham Əliyev Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoymuşdur. Bu missiyanın fəlsəfəsi daha əvvəl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək, ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin 16 il öncə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı.

Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 %) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. Prezidentliyinin ilk 5 ili ərzində İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli olduğu vəzifələrə Azərbaycanda bir çadır şəhərciyinin belə qalmayacağı, məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinin əsas məsələ olacağı, yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcəyi, 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacağı, regionların iqtisadi

inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacağı, sahibkarlığa dövlət qayğısının artıralacağı, transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacağı və s. daxil idi. İlham Əliyevin prezidentlik fəaliyyətinin qeyd edilən dövrü ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərəçarpacaq nailiyyətlər əldə olundu. Yeni iş yerlərinin açılması, neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə qurulması, rəhbər işçilərin məsuliyyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət kursunun yeridilməsi, Avropa və dünya strukturlarına inteqrasiyanın davam etdirilməsi həmin siyasətin real göstəriciləri hesab oluna bilər.

Növbəti seçkilərdə də xalqın mütləq əksəriyyətinin etimadı nəticəsində Prezident seçilən İlham Əliyev iqtisadiyyatın bundan sonra da inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi və idarəetmənin modernləşdirilməsini ölkəmizin qarşısında duran başlıca vəzifələr kimi müəyyənləşdirdi. İqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın azaldılması, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq irəli sürüldü. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün tapılması nəticəsində Azərbaycan hətta dünya iqtisadi-maliyyə böhranı illərində analoqu olmayan iqtisadi inkişaf tempinə nail ola bildi. Bu inkişaf kursu sistemli və davamlı xarakter kəsb edir.

Sabitlik, təhlükəsizlik və inkişaf bu mərhələni xarakterizə edən əsas meyarlardır. Son 16 il ərzində ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürməkdədir. Azərbaycan bu gün müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur. Təkcə sabitliyin olmaması kifayətdir ki, dövlət xaos və anarxiyaya yuvarlansın. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risklər və təhdidlər fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitliyimiz təhlükəsizliymizi şərtləndirir. Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir. Səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır. Prezidentin xalqının sevgisini qazanmasını şərtləndirən əsas amil isə onun hər hansı beynəlxalq siyasi dairənin və ya böyük dövlətin diktəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn bir siyasəti həyata keçirməsidir.

Bu yolda iqtisadi müstəqillik həlledici amildir. İqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi şərtləndirir. Fikrimizi nəzəri mülahizələr, konkret faktlar və arqumentlərlə əsaslandırmağa çalışaq. Bu, bir həqiqətdir ki, Prezident İlham Əliyev tərəfindən iqti-

sadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın minimuma endirilməsi, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq müəyyən edilmişdir. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün seçilməsi nəticəsində Azərbaycan hətta dünya maliyyə-iqtisadi böhranı illərində belə analoqu olmayan iqtisadi inkişaf tempinə malik olmuşdur.

2003-cü ildən indiyədək ölkəmiz öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdisə, hazırda bu göstərici 50 milyard dolları ötmüşdür. Bu illər ərzində ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da təxminən yarısını xarici investisiyalar təşkil edir.

Cənab İlham Əliyev hələ 16 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaqdır. Dövlət başçımızın bu istiqamətdə atdığı mühüm addımlar onun sözü ilə əməlinin eyni olduğunu növbəti dəfə təsdiqlədi. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı artıq 3 Dövlət Proqramı qəbul olunmuş və onların uğurlu icrası təmin edilmişdir. Növbəti–4-cü Dövlət Proqramının icrasına başlanılmışdır. İlk növbədə infrastruktur layihələrinin icrasına start verilmişdir.

Bu, bir həqiqətdir ki, energetika hər bir dövlətin iqtisadiyyatının bel sütunudur. Təsadüfi deyildir ki, cənab İlham Əliyev ölkəmizdə elektrik stansiyalarının mövcud olmasına "dövlətimizin uğurlu və sürətli inkişafının əsas amili kimi" yüksək qiymət vermişdir. 2003-cü ildən bəri 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Məlumat üçün onu da qeyd edək ki, 2004-cü illədək Azərbaycanda 9 elektrik stansiyası var idi və ölkəmiz elektrik enerjisinə olan tələbatı əsasən idxal hesabına ödəyirdi. Hazırda isə özümüzü elektrik enerjisi ilə tam təmin edir və onun ixracını həyata keçiririk. Bu məqsədlə həm ölkə ərazisində, həm də 3 qonşu ölkə ilə–Rusiya, İran və Gürcüstanla elektrik xətlərini birləşdirmişik. Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı imkanları yaranmışdır. Bu il elektrik stansiyalarının generasiya gücünün 2900 meqavata çatdırılması nəzərdə tutulur.

2004-cü ildə ölkədə qazlaşdırmanın səviyyəsi cəmi 5 faiz təşkil edirdisə, hazırda bu göstərici 95 faizə yaxınlaşmışdır. Bütün şəhərlər 100 faiz qazla təmin edilmişdir.

16 il əvvəl ölkəmizdə əhalinin fasiləsiz olaraq içməli su ilə təminatı 26 faiz səviyyəsində idi. Hazırda bu göstərici 67 faizi ötübdür. Bakıda 81 faizə, bölgələrdə isə anoloji göstərici 43 faizə bərabərdir. Bu sahəyə də perspektivdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur.

Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri çəkilmiş, Ceyranbatanda dünyanın ən nəhəng sutəmizləyici qurgusu tikilib istifadəyə verilmişdir. Bu gün bu qurğudan çıxmaqla əhaliyə verilən su keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.

Ölkəmizdə 16 il ərzində geniş meliorativ tədbirlər həyata keçirilmiş, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi 4 iri su anbarı tikilmişdir. Son illər ərzində hər il

təxminən 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilmişdir.

Yol çəkilişi həm iqtisadi, həm də sosial layihədir. Son 16 il ərzində bu istiqamətdə çox böyük uğurlara imza atılmışdır. Təqribən 15 min kilometr uzunluğunda yol çəkilmişdir. 2017-ci ildə şərti olaraq "40 yol" adlandırılan layihə çərçivəsində 500-dən çox kəndin keyfiyyətli yola olan ehtiyacı ödənilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyev sosialyönümlü dövlətin formalaşması və inkişafı kursunu həyata keçirir. Bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Həmin siyasətin sayəsində ölkəmizdə işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faizə enmişdir. Təsadüfi deyildir ki, 2020-ci lin dövlət büdcəsində də sosial xərclər bütün xərclərin 38, 5 faizini təşkil edir.

Ölkəmiz nümunəvi ictimai və sosial xidmət sahələrində innovativ yanaşmaları ilə dünyanın bir çox dövlətlərini qabaqlayır. Həmin nümunəvi xidmətin ən bariz nümunəsi olaraq ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini və onun himayəsi altında fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərini qeyd edə bilərik, Bu günədək ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyonu ötmüşdür. 2019-cu ilin 9 ayı ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edib. Bu baxımdan "ASAN xidmət"in Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülməsi də təsadüfi sayılmamalıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Dövlətimizin siyasəti sosialyönümlüdür və əhalinin həssas qruplarına xüsusi diqqət ilə seçilir. Eyni məntiqlə Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində növbəti qələbə qazandıqdan sonra cənab İlham Əliyevin imzaladığı ilk fərmanın --2018-ci il 19 aprel tarixli fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişləndirilməsinə səbəb oldu. Beləliklə, hər iki fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi (bunun üçün 135 milyon manat vəsait ayrılıb) nəzərdə tutulub. Ötən il noyabrın əvvəllərindən artıq 6200-ə yaxın şəhidin vərəsələrinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. 2019-cu il ərzində digər vərəsələr də birdəfəlik ödəmə ilə təmin ediləcəklər. 28 yanvar 2019-cu il tarixli sərəncamla şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrıldı. "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır",--deyə bəyan edən Prezident İlham Əliyevin bu sözləri onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

Prezident İlham Əliyevin sosial islahatlar paketinin daha bir uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli sərəncamla ölkədə minimum əməkhaqqının 2019-cu il martın 1-dən orta hesabla 40 faiz artırılaraq, 180 manata çatdırılması oldu. 600 min (o cümlədən dövlət sektoru üzrə 450 min, özəl sektor üzrə 150 min) işçinin rifahına ciddi dəstək olan bu artım üçün illik 400 milyon manat əlavə vəsait ayrıldı. Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu. Sərəncamın icrası üçün əlavə olaraq illik 400 milyon manat ayrılması nəzərdə tutulur ki, bu da sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsaitin 2 dəfə artırılması deməkdir. Eyni zamanda, 2019-cu il 26 fevral tarixli sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırılaraq 60 manata çatdırılmaqla, bu müavinəti alan 500 mindən çox məcburi köçkünün rifahına mühüm dəstək verildi. 14 fevral 2019-cu il tarixli sərəncamla 110 minədək tələbənin təqaüdlərinin ciddi şəkildə artırılması da təmin olundu. Ölkədə vətəndaşların sosial problemlərinin həllini öz siyasətində prioriet kimi müəyyən edən Prezident İlham Əliyevin 28 fevral 2019-cu il tarixli fərmanı devalvasiyanın təsirlərini aradan qaldırmağa və problemli kreditlərin həllinə də şərait yaratdı. Ölkənin sosial həyatı üçün mühüm olan, 800 mindən artıq insanın problemli kredit narahatlığını aradan qaldıran bu addım Azərbaycan Prezidentinin yüksək humanizmini, onun daim ölkə vətəndaşının yanında olduğunu bir daha nümayiş etdirdi. 19 fevral 2019-cu il tarixli fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu.

Yuxarıda qeyd olunduğu kimi, Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm addımlardır. Bu sərancamlardan sonra Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılmışdır. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilmişdir. Yeni "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ər-

zində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Artımdan sonra Azərbaycan Respublikasında minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə 1-ci yerdə qərarlaşmışdır. Orta aylıq pensiya həcminə görə isə 3-cü yerdədir.

Beləliklə, ötən dövr ərzində Prezident İlham Əliyevin sosial islahatlar paketi 4 milyon 200 min vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verdi. Bu addımlar büdcə xərclərinin əlavə olaraq 3,7 milyard manat artmasını şərtləndirdi.

Ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritetini təşkil edir.

2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalamış, bir çox proqramlar qəbul edilmişdir. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir.

Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu fəaliyyət iki istiqamətdə aparılır. Birincisi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli tapılanadək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsidir. Bu sahədə aparılan işlər nəticəsində artıq 300 min qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülmüşdür, 106 yeni qəsəbə salınmışdır. Son bir ildə Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində 5 yeni yaşayış kompleksi istifadəyə verilmişdir. 2018-ci ildə 5800-dən çox məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Cari ildə isə 6 mindən çox məcburi köçkün ailəsinə yeni mənzillərin verilməsi nəzərdə tutulmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə ilk dəfə olaraq, özəl sektorun vəsaiti hesabına Bakı şəhərinin Qaradağ rayonu ərazisində 1026 mənzilli "Qobu Park" və 1300 yerlik "Qobu Park-2" yaşayış kompleksi inşa olunaraq istifadəyə verilmişdir. Görülən fəaliyyətin nəticəsi olaraq, 16 il ərzində məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalmışdır.

Digər istiqamət isə dövlət qurumları və beynəlxalq təşkilatların iştirakı, onların rəy və təklifləri, təcrübələri nəzərə alınmaqla, "Böyük Qayıdış" proqramının hazırlanmasıdır. Bu istiqamətdə atılan ilk iki addım kimi, Cocuq Mərcanlı kəndini və əvvəllər Dağlıq Qarabağın inzibati ərazisi olmuş Tərtər rayonunun Şıxarx qəsəbəsini göstərmək olar. Dövlətin məqsədi odur ki, "Böyük Qayıdış" proqramı tam icra olunsun. Əminik ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu məsələ tam həllini tapacaq. Məcburi köçkünlər beynəlxalq hüquqda təsbit olunduğu kimi, könüllü surətdə və ləyaqətlə öz torpaqlarına qayıtmaq hüquqlarından istifadə edəcəklər.

**Elman NƏSİROV,**
**V çağırış Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, siyasi elmlər doktoru, professor.**

# AZƏRBAYCANI DÜNYANIN QÜDRƏTLİ DÖVLƏTLƏRİNDƏN BİRİNƏ ÇEVİRƏN LİDER

**Dövlət müstəqilliyimizin bərpasının 28 ilini artıq geridə qoymuşuq. Ötən dönəmi, müstəqillik illərimizi bir neçə mərhələyə bölmüş olsaq, fəxr, qürur hissi ilə və heç nədən çəkinmədən son 16 ili ölkəmizin əsl tərəqqi, çiçəklənmə və inkişaf dövrü kimi qiymətləndirərdik. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan uğurlu daxili və xarici siyasət kursunun 2003-cü ilin oktyabr ayından Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilməsi nəticəsində Azərbaycan özünün müstəqil inkişafının daha önəmli mərhələsinə qədəm qoydu. 2004-cü ilin fevral ayından regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan ilk dövlət proqramının qüvvəyə minməsi ilə Azərbaycanda islahatlar prosesinin növbəti və daha vacib mərhələsinə start verilmiş oldu. Həmin proqramın çox uğurlu şəkildə icra olunması ilə uzun illər, ötən əsrin 80-ci illərinin ortalarından başlayan və 90-cı illərin ortalarına qədər davam edən tənəzzül dövrü arxada qaldı və tarixin arxivinə göndərildi.**

Azərbaycan regionları, sözün əsl mənasında, ayağa qalxa bildi, siması dəyişdi, yeniləndi. Yüz minlərlə yeni iş yerinin açılması, mühüm əhəmiyyətli müəssisələrin, obyektlərin işə salınması, tikilib-istifadəyə verilməsi ilə regionlarımızda əsl inkişaf, yüksəliş, tərəqqi yaşandı. İnsanların maddi rifahı, sosial durumu, güzəranı yaxşılaşdı, işsizliyin, yoxsulluğun səviyyəsi böyük fərqlə aşağı salındı. Regionlarla iri şəhərlər, sənaye mərkəzləri, o cümlədən, paytaxt Bakı arasında fərq, demək olar ki, minimuma endirildi. Eyni zamanda, ölkədə aparılan məqsədyönlü və düşünülmüş siyasət nəticəsində sənaye mərkəzləri kimi tanınan bölgələrimiz, şəhərlərimiz, xüsusilə, paytaxt Bakımız gözəlləşdi, inkişafının yüksək mərhələsinə çatdı, sənayeləşmə yolunda böyük məsafə qət etdi. Bu gün Bakı şəhəri ilə yanaşı qədim Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri də dünyanın sənaye mərkəzləri ilə rəqabət aparmaq imkanına malikdir.

Birinci dövlət proqramının uğurlu icrası növbəti dövlət proqramlarının imzalanması üçün bir stimul, baza rolunu oynadı. Artıq ötən dövr ərzində üç dövlət prqoqramı reallaşdırılıb və bu ilin əvvəlindən dördüncü dövlət proqramının icrasına start verilib.

Ötən 16 ildə Azərbaycanın nailiyyətləri, zəfərləri sırasında, heç şübhəsiz ki, ən öndə uğurlu neft strategiyası dayanır. Əsası 1994-cü ildə tarixi "Əsrin müqaviləsi" ilə qoyulan yolda ötən illər ərzində böyük zəfərlərə imza atıldı. "Bakı –Tbilisi–Ceyhan", "Bakı –Tblisi – Ərzurum",

"Bakı – Tbilisi – Qars", "Cənub Qaz Dəhlizi" və onun əsas seqmentlərindən olan TANAP layihəsi reallaşdırıldı. Bugünlərdə TANAP-ın ikinci mərhələsi özünün uğurlu sonluğuna --Avropa qitəsinə çatdı. Üzümüzə gələn 2020-ci ildə isə növbəti layihənin –TAP-ın icrasının başa çatdırılması gözlənilir. Həmçinin, 1996-ci ildə başlayan və 22 il davam edən danışıqlar prosesinə son qoyularaq, məhz Azərbaycanın böyük səyləri və fədakarlıqları nəticəsində 2018-ci ilin avqustunda Xəzərin hüquqi statusunu müəyyənləşdirən tarixi Aktau anlaşması baş tutdu. Bununla da, Xəzərin sülh və təhlükəsizlik dənizinə çevrilməsi istiqamətində önəmli addım atıldı. Bu gün fəxr və qürur hissi ilə demək olar ki, Azərbaycan nəinki bölgənin, həmçinin, Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsinin əsas faktorlarından birinə çevrilib. Eyni zamanda, Azərbaycan investisiya yatırılan ölkədən sərmayə qoyan ölkəyə çevrilib. Bunun əyani nümunəsi kimi, qonşu Gürcüstanı, dost və qardaş Türkiyəni, strateji müttəfiqlərimizə çevrilən Macarıstanı, Belarusu, Serbiyanı göstərmək olar. Bu ölkələrə ötən illərdə milyardlarla dollar həcmində investisiya, sərmayə yatırılıb. Həm bu ölkələrin, həm də Azərbaycanın inkişafına töhfələr verilib, ölkəmizin dünyadakı yerinin, nüfuzunun möhkəmləndirilməsinə, lider dövlətlərdən birinə çevrilməsinə nail olunub.

Azərbaycan dünyanın sabitlik və təhlükəsizlik adasına, siyasi, iqtisadi, mədəni, humanitar, hərbi dialoq məkanına, milli və dini tolerantlıq mərkəzinə çevrilib. Ölkəmizin yeri, mövqeyi dünyanın nüfuzlu reytinq mərkəzlərinin mütəmadi açıqladıqları hesabatlarında daha aydın şəkildə görünüb, ölkəmiz ön yerlərdə bərqərar olunub. Ölkəmiz dünyanın ən nüfuzlu təbdirlərinin keçirildiyi məkana çevrilməyi bacarıb, etibar və etimad sahibi olub. Bir müddət öncə BMT-dən sonra dünyanın ikinci ən nüfuzlu təşkilatı olan Qoşulmama Hərəkatının növbəti zirvə toplantısının Azərbaycanda keçirilməsi, quruma sədrliyin növbəti 3 ildə Azərbaycana keçməsi, o cümlədən, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Bakı Zirvəsi, TÜRKPA-nın bugünlərdə paytaxtımızda baş tutan növbəti yığıncağı, sədrliyin Azərbaycana keçməsi və sair, bunlar ölkə Prezidenti tərəfindən aparılan müdrik və uzaqgörən siyasətin bəhrələri, töhfələridir.

Ötən 16 ildə həmçinin Azərbaycan mədəniyyətinin inkişafında böyük nailiyyətlərə, uğurlara imza atılıb. Azərbaycan muğamı, ifaçılıq sənəti ölkə sərhədlərinin hüdudlarını aşaraq, dünyada tanınıb, şöhrətlənib, nüfuz qazanıb. Ölkəmizdə muğam müsabiqələrinin, beynəlxalq festivallarının keçirilməsi, o cümlədən, dünyamiqyaslı "Eurovision" mahnı müsabiqəsinə uğurla evsahibliyi edilməsi bu inkişafın əməli nəticələridir. Bunlar

da məhz Azərbaycan dövlətinin, ölkə rəhbərinin, o cümlədən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın geniş və hərtərəfli dəstəyi, diqqət və qayğısı nəticəsində mümkün olub. Heç təsadüfi deyil ki, bu ilin əvvəllərində ölkə başçısının və Birinci vitse-prezidentin ölkənin ən nüfuzlu və tanınmış yaradıcı insanları ilə bir araya gəlməsi, orada qaldırlan məsələlərin diqqətlə dinlənilməsi və nəzərə alınması nəticəsində Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində ardıcıl fərman və sərəncamlar imzalanıb, dövlət büdcəsindən külli miqdarda vəsait ayrılıb. Bunun özü Azərbaycan dövlətinin inkişafından və qüdrətindən xəbər verib. Əgər Azərbaycan dövləti iqtisadi cəhətdən güclü və qüdrətli olmasaydı, bunlar mümkün olmazdı.

Bu ilin əvvəlində dövlət başçısı tərəfindən 2019-cu ilin "Nəsimi ili" elan olunması və dahi şairimizin 650 illik yubileyinin qeyd edilməsi ilə bağlı sərəncamın imzalanması dövlət və dövlət başçısı səviyyəsində sözə, ədəbiyyata böyük önəm verilməsinin əyani təsdiqidir. Çünki haqq və ədalət carçısı olan dahi Nəsiminin yubileyinin qeyd olunması həm də Azərbaycanın, onun mədəniyyətinin, ədəbiyyatının ədəbi nümunələrinin təbliğ olunması, dünyada tanıdılması baxımından əlavə fürsət və şans demək idi. Bir il ərzində də bu yöndə çoxsaylı tədbirlərin keçirilməsi bir daha qarşıya qoyulan hədəflərə çatılması baxımından çox mühüm faydaları ilə özünü nümayiş etdirdi. Azərbaycan Nəsimi ilə bir daha dünyaya işıq, nur saçdı, daim haqqın və ədalətin yanında olduğunu dünyaya bəyan etdi.

2018-ci ilin 11 aprel seçkilərindən sonrakıdövrü Azərbaycanda inkişafın növbəti və daha sürətli mərhələsi kimi xarakterizə etsək, o biri illərin uğuruna kölgə salmış, haqqına girmiş olmarıq. Çünki 11 aprel prezident seçkilərindən, o cümlədən, bu ilin əvvəllindən Azərbaycanda davamlı xarakter daşıyan islahatlar prosesi özünün ən yüksək mərhələsinə daxil olub. İslahatlar prosesi bütün sahələri əhatə etməklə, günü-gündən geniş vüsət almaqda və dərinləşməkdədir. İlin əvvəlindən pensiyaların, əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin iki dəfə artırılması, pensiyaların 114 manatdan 200 manata, minimum əmək haqlarının 130 manatdan 250 manata çatdırılması Azərbaycan iqtisadi inkişafının, islahatlar prosesinin dərinləşdirilməsinin göstəricisidir.

Eyni zamanda, bu ilin əvvəlində ölkə Prezidentinin də bəyan etdiyi kimi, analoqu olmayan fərmanın imzalanması, problemli kreditlərlə bağlı məsələnin həlli yolunda önəmli qərarın verilməsi, bu prosesin 800 mindən çox insanı əhatə etməsi, 311 mindən çox məhkəmə işinin dayandırılması, ləğv edilməsi sözlə ifadəsi mümkün olmayacaq çox əhəmiyyətli və vacib addımlardandır. Üç ildən artıq cə-

miyyətimizi, insanlarımızı üzən, narahat edən bir problemin dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həll olunması, sözün əsl mənasında, tarixi və humanist addımdır. Bununla Azərbaycan dövləti, ölkə rəhbərliyi bir daha öz vətəndaşının yanında olduğunu əməli addımlarla nümayiş etdirdi. Bununla yanaşı, ilin əvvəllərində Şamaxı–Ağsu bölgələrində zəlzələnin baş verməsi, həmçinin. "Diqlas" ticarət mərkəzində yanğının yaşanması ilə insanlara, ölkə vətəndaşlarına dəyən böyük maddi-mənəvi ziyanın, zərərin dövlət tərəfindən qarşılanması, bu proseslərin dövlət başçısı və Birinci vitse-prezident tərəfindən nəzarətə götürülməsi, kompensasiyalar ödənilməsi ilə bağlı tapşırıqların verilməsi ölkədə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan insanının dayandığı bir daha öz təsdiqni tapdı. Bu, həm də iqtidar-xalq birliyinin, vəhdətinin əyani sübutuna çevrildi.

İslahatlar prosesinin bir daha kadr və srtuktur dəyişikliklərində özünü büruzə verməsi 2019-cu ilin ən böyük uğurlarından sayıla bilər. Yeni strukturların yaradılması, paralel, bir-birini təkrarlayan qurumların birləşdirilməsi, eləcə də, hökumətin tərkibində, icra hakimiyyəti strukturlarında, Prezident Administrasiyasında yenilənmələrin edilməsi, daha uğurlu və layiqli kadrların irəli çəkilməsi Azərbaycanda islahatların, o cümlədən, kadr və struktur islahatlarının dönməz xarakteraldığının, bunun qarşısının heç bir cəhdlə alına bilməyəcəyinin əyani nümayişi oldu. Dövlət başçısı bir daha bu məsələlərdə öz iradəsini, qətiyyətini nümayiş etdirdi. 2019-cu ilin ən önəmli hadisələri sırasında həmçinin, islahatlar prosesinin ruhuna uyğun olaraq, Beşinci çağırış Milli Məclisin buraxılması və yeni seçkilərin təyin olunmasını göstərmək olar. Ölkəmiz, cəmiyyətimiz artıq yeni seçkilərə gedir, 2020-ci il fevralın 9-da növbəti parlament seçkiləri keçiriləcək. İnanırıq qəti əminik ki, bu seçkilər nəticəsində formalaşacaq yeni tərkibli parlament ölkədə islahatlar prosesinin daha da dərinləşdirilməsinə özünün töhfələrini vermiş olacaq, yenilik ruhunu özündə ehtiva edəcək.

Artıq yeni ilin ikinci həftəsidir. Növbəti ilə çox böyük ümidlərlə qədəm qoyuruq. Çünki bu ümidlər üçün böyük baza, güclü, qüdrətli Azərbaycan, onun İlham Əliyev kimi müdrik lideri var. Məhz İlham Əliyevin liderliyi nəticəsində Azərbaycan növbəti 2020-ci ildə də böyük uğurlara, zəfərlərə imza atacaq, bir millət olaraq, hər birimizin ağrısına, acısına çevrilən Qarabağ probleminin ədalətli və müsbət həllinə nail olunması istiqamətində qələbələr qazanacağıq. Buna kimsənin şübhəsi olmasın. Bu, reallıq və həqiqətdir!

**Kamilə ƏLİYEVA,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, beşinci çağırış Milli Məclisin deputatı.**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN NƏQLİYYAT İNFRASTRUKTURU

**Həbib HƏSƏNOV,**
**AR NRYTN Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi.**
e-mail: habib.hasanov@gmail.com

*Müasir tarixin görkəmli siyasi və dövlət xadimləri arasında layiqli öncül yerlərdən birini tutan Heydər Əliyev şəxsiyyəti elə dahi bir simadır ki, onun haqqında söz demək, Azərbaycan xalqının üzləşdiyi ağır çətinliklərin dəf edilməsi və onun parlaq gələcəyi naminə gördükləri işlər haqqında fikir yürütmək olduqca çətin, çətin olduğu qədər də məsuliyyətli və şərəfli bir işdir.*

**Əsas sözlər:** nəqliyyat sektoru, nəqliyyat infrastrukturu, avtomobil nəqliyyatı, nəqliyyat dəhlizi, beynəlxalq nəqliyyat əlaqələri.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə həyatının bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da olan xidmətləri haqqında danışarkən, hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, onun şəxsi qayğısı və əvəzolunmaz xidmətləri sayəsində ölkədə qurulmuş çoxşaxəli nəqliyyat sistemi böyük inkişaf yolu keçmiş və müasir səviyyəyə çatmışdır. Ulu Öndər nəqliyyat sektorunun ölkənin iqtisadi infrastrukturunda tutduğu yerə böyük önəm vermiş və təsadüfi deyil ki, müasir yolu iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat adlandıraraq demişdir: "Yol iqtisadi inkişafın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz". Əsası Ulu Öndər tərəfindən möhkəm iqtisadi baza üzərində qurulan nəqliyyat sektoru hazırda respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olaraq, ahəngdar şəkildə fəaliyyət göstərməkdə və inkişaf etməkdədir.

Nəqliyyat ölkənin müxtəlif iqtisadi sahələri olan sənaye və kənd təsərrüfatı arasındakı əlaqəni təmin edərək, bütövlükdə iqtisadiyyatı vahid kompleks halında birləşdirən bağlayıcı halqadır. Məhz sənayenin, ticarətin və digər xidmət sahələrinin ahəngdar işi yük və sərnişinlərin vaxtında daşınmasından, nəqliyyat müəssisələrinin müntəzəm fəaliyyət göstərməsindən və optimal beynəlxalq nəqliyyat əlaqələrinin qurulmasından funksional şəkildə asılıdır.

Göstərilənləri diqqətə çəkərək, qeyd edə bilərik ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu ilin iyul ayından başlayaraq Azərbaycana rəhbərliyi dövrünün ilk illərindən Azərbaycanda böyük iqtisadi və sosial inkişafın əsası qoyulmuşdur. 1970-80-ci illər ərzində iqtisadiyyatın demək olar ki, bütün sahələri üzrə genişmiqyaslı layihələrin icrasına başlanılmış və böyük uğurlar əldə edilmişdir. Həmin illər ölkəmizin tarixinə siyasi, iqtisadi, mədəni və sosial tərəqqi dövrü kimi daxil olmuşdur. Ölkə iqtisadiyyatının bütün sahələrində aparılan islahatlar, şübhəsiz ki, nəqliyyat infrastrukturu şəbəkəsinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zərurətini yaratmışdır.

Respublikanın avtomobil nəqliyyatı 1970-80-ci illərdə Ulu Öndər Heydər Əliyevin xüsusi qayğısı nəticəsində özünün yüksək inkişaf mərhələsini yaşamışdır. Artıq 80-ci illərin sonlarında respublika üzrə yük daşımalarının 46.9%-ni, sərnişin daşımalarının isə 73.8%-ni yerinə yetirən Avtomobil Nəqliyyatı Nazirliyinin 60 mindən çox əməkdaşı, 140 avtonəqliyyat, 9 sənaye və 11 tikinti müəssisəsi olmuşdur. Ümummilli Lider Heydər Əliyev mövcud avtomobil yolları şəbəkəsinin genişləndirilməsi və yenidən qurulması işlərinə də böyük önəm verirdi. Bu məqsədlə 1974-cü ildə Azərbaycanda mövcud Şose Yolları Baş İdarəsi əsasında Avtomobil Yolları Tikinti və İstismar Nazirliyi yaradıldı. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk 10 il ərzində respublikada avtomobil yollarının təmirinə və təminatına ayrılan vəsait 3.5 dəfə, kapital qoyuluşu isə 2.5 dəfə artdı. Bütün dövlət əhəmiyyətli avtomobil yollarına asfalt-beton örtüyünün döşənilməsi işlərinə başlanıldı. Respublikanın yol təsərrüfatında yüksək göstəricilərə nail olmaq üçün yeni müəssisələr yaradıldı. Həmin illərdə qəbul olunmuş “Azərbaycan SSR-in avtomobil yollarının tikintisi, təmiri və təminatını yaxşıllaşdırmaq üçün gələcək tədbirlər haqqında” qətnamə Azərbaycanın avtomobil yollarının keyfiyyətinin Ümumittifaq səviyyəsinə qaldırılması üçün yol infrastrukturunun inkişafına yönəldilən kapital qoyuluşlarının həcminin əhəmiyyətli dərəcədə artırılması üçün zəmin yaratdı.

Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə dəmiryol nəqliyyatı sahəsi də özünün inkişaf mərhələsini yaşamışdır. Azərbaycanda SSRİ-də dövrünün ən böyük çeşidləyici stansiyalarından biri olan Şirvan stansiyası, Yevlax-Balakən, Güzdək-Qaradağ dəmir yolu xətləri, yeni dəmir yolu stansiyaları inşa edilərək istismara verilmişdir. Görülən işlər nəticəsində dəmir yolu vasitəsilə daşınan yüklərin həcmi illik 80-90 milyon tona çatdırılmışdır. Dəmiryol nəqliyyatı təsərrüfatında 14300 texniki yeniləşmə metodları tətbiq edilmişdir. Eyni zamanda, Heydər Əliyev Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrə qədər Bakı Metropolitenində cəmi 6 stansiya və 8.8 kilometr metro xətti mövcud idisə, 1969-cu ildən sonra Ulu Öndərin səyləri nəticəsində metropolitenin 14 stansiyası və 21.1 kilometr metro xətti inşa edilərək istismara verilmişdir.

Azərbaycanın mülki hava donanmasının tarixinin keyfiyyətcə yeni inkişaf dövrü də 1970-80-ci illərə təsadüf edir. Həmin dövr ərzində Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları yaradılmış, hava limanları tikilərək istifadəyə verilmişdir. Bu hava limanları “Yak-40” reaktiv təyyarələrini qəbul etmək imkanına malik idilər. Həmin dövrdə hava nəqliyyatı sürətli, komfortlu və əlverişli nəqliyyat növünə çevrilməkdə idi və Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın aviaparkı Sovet İttifaqının ərazisində “Tu-134” və “Tu-154” reaktiv təyyarələrini, “Mi-2” və “Mi-8” helikopterlərini ilk alanlardan biri olub.

Həmin dövrdə dəniz nəqliyyatı Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin ən mühüm amillərdən biri olmuşdur. Bu baxımdan dəniz nəqliyyatının maddi-texniki bazasının yaxşılaşdırılması

həmişə Ulu Öndərin diqqət mərkəzində idi. Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldiyi gündən cəmi bir neçə gün sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyulun 22-də keçirilən büro iclasının gündəliyinə "Xalq təsərrüfatı yüklərinin daşınmasının yaxşılaşdırılması sahəsində "Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin işi haqqında"" məsələni daxil etmiş, bu da Ümummilli Liderin respublika iqtisadiyyatının inkişafında dəniz nəqliyyatının əhəmiyyətinə verdiyi böyük önəmin bariz nümunəsidir. Ulu Öndərin səyləri nəticəsində 1970-80-ci illərdə Azərbaycana "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" qazma qurğuları gətirildi. Qurğuların işini təşkil etmək üçün "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər, başqa texniki gəmilər istifadəyə verildi. Ümumiyyətlə, həmin dövrdə Xəzər dənizində Azərbaycana məxsus 400-dən çox gəmi fəaliyyət göstərirdi.

SSRİ-nin süqutundan sonra Azərbaycanda, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da ciddi tənəzzül müşahidə edilmişdir. Lakin 1993-cü ildə Azərbaycan xalqının israrlı tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması nəticəsində ölkə daxilində siyasi sabitliyin bərqərar edilməsi, dövlət idarəçiliyində islahatların və xidməti katarsis işlərinin həyata keçirilməsi ölkə iqtisadiyyatının bütün sahələrində canlanmaya səbəb oldu. Ulu Öndər tərəfindən həyata keçirilən uğurlu yeni xarici siyasət və dünya ölkələri ilə əlaqələrin genişləndirilməsi, düşünülmüş neft strategiyası, ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin bərpası istiqamətində həyata keçirilən tədbirlər, digər sahələr kimi, nəqliyyat sektorunun da fəaliyyətinə müsbət təsir göstərmiş, yük və sərnişin daşımaları sahəsində olan geriləmələr aradan qaldırılmış, sabitləşmə və iqtisadi yüksəliş dövrü başlamışdır.

Azərbaycan Respublikasında Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar nəticəsində dövlət əmlakının özəlləşdirilməsi Dövlət Proqramlarına uyğun olaraq avtomobil nəqliyyatı müəssisələrinin özəlləşdirilməsi həyata keçirilmiş, bu sahədə sahibkarlığın inkişafı, sağlam rəqabət mühitinin formalaşdırılması üçün genişmiqyaslı işlər görülmüşdür. Özünün tənəzzül dövrünü yaşayan avtomobil yolları sektorunda idarəetmənin təkmilləşdirilməsi sahəsində köklü islahatlar həyata keçirilmiş və yol təsərrüfatının inkişafında yeni mərhələ başlamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvana rəhbərlik edən Ulu Öndərin təşəbbüsü və nüfuzu sayəsində 1992-ci il mayın 28-də Türkiyə ilə Naxçıvan arasında Araz çayı üzərində istifadəyə verilən "Ümid" körpüsü həmin dövrdə blokada vəziyyətini yaşayan Naxçıvan Muxtar Respublikasının ağır vəziyyətdən çıxmasında müstəsna rol oynamış, iki qardaş xalq arasında iqtisadi-ticarət və mədəni əlaqələrin genişlənməsinə böyük töhfə vermişdir.

Demək olar ki, iflic vəziyyətində olan dəmiryol nəqliyyatı sahəsində baş verən tənəzzül dayandırılmış və dəmir yolu özünün yenidən dirçəliş dövrünə qədəm qoymuşdur. Həmin dövrdə Azərbaycan dəmir yolunun tarixində ilk dəfə olaraq yumşaq oturacaqlı sərnişin vaqonları ilə təchiz edilmiş "Eks-

press” tipli sərnişin qatarı əhalinin istifadəsinə verilmişdir. Bununla yanaşı, qonşu ölkələrlə dəmir yolları sahəsində əlaqələr bərpa edilmiş, bu da öz növbəsində Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq, Rostov, Mahaçqala, Tümen, Ukraynanın Kiyev, Xarkov, Gürcüstanın Tbilisi, İran İslam Respublikasının Təbriz şəhərləri istiqamətində sərnişin qatarlarının hərəkətinin, eləcə də yük və baqaj daşımalarının bərpası ilə nəticələnmişdir.

Müstəqillik dövründə Ulu Öndərin diqqət və qayğısı sayəsində mülki aviasiya sektoruna 200 milyon dollardan artıq sərmayə qoyulmuşdur. Bu sərmayə aviaparkı müasir “Boeing-757” təyyarələri sayəsində təkmilləşdirmək, uçuşları idarəetmə vasitələrini yeniləmək, iyirmiyədək ixtisas üzrə kadrların hazırlanması sistemini yaratmaq və aerovağzal kompleksini yeniləmək üçün imkanlar yaratmışdır. Bununla yanaşı, “Azərbaycan Hava Yolları” konserninin tərkibində “Azəraeronaviqasiya” hava hərəkətinin idarəedilməsi mərkəzi və “AZALOIL” müəssisəsi yaradılmış, 1999-cu ildə Bakı hava limanında yeni beynəlxalq terminal istifadəyə verilmişdir.

Azərbaycan hakimiyyətinə tarixi dönüşündən sonra Ulu Öndərin səyləri nəticəsində 1994-cü ildən başlayaraq Xəzər Dəniz Gəmiçiliyinin 17 gəmisində müasir peyk naviqasiya sistemi quraşdırılmış, 10 gəmi kompyuter avadanlığı, 7 gəmi isə ən müasir radiologiya sistemi ilə təchiz edilmiş, müəyyən gəmilərdə fototeleqraf sistemi quraşdırılmış, həmçinin gəmi heyəti işçilərinin peşə hazırlığının artırılması üçün müasir təlim avadanlığı alınmışdır. İki ədəd yeni gəmi alınaraq donammaya daxil edilmişdir. Bununla yanaşı, dəniz nəqliyyatı sahəsində idarəetmənin və hüquqi tənzimlənmənin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür.

Ulu Öndərin diqqət və qayğısı nəticəsində boru-kəmər nəqliyyatı da özünün inkişaf dövrünə qədəm qoymuşdur. Belə ki, Ulu Öndərin yeni neft strategiyasına uyğun olaraq, 1994-cü ilin sentyabrın 20-də Bakıda “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi” haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə – Əsrin Müqaviləsi ölkədə neft sənayesinin inkişafı üçün böyük təkan verdi, bu da, öz növbəsində, ölkənin boru-kəmər nəqliyyatı sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini zəruri edirdi. Bununla əlaqədar olaraq, Bakı – Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa edilmiş və ilk dəfə 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyası) nəql olunmuşdur. Eyni zamanda, Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlinin həyata keçirilməsi məqsədilə 1997-98-ci illərdə Bakı – Supsa neft kəməri tikilərək istifadəyə verilmişdir. Əlbəttə, Ulu Öndər üçün neftin nəqletmə marşrutlarının diversifikasiyası böyük önəm daşıyırdı. Bu məqsədlə Ulu Öndərin təşəbbüsü ilə 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Sammitində Amerika Birləşmiş Ştatları, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfin-

dən Bakı-Tbilisi-Ceyhan "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli Lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan Prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikinti işlərinə başlanılmışdır. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi, Ulu öndərin Azərbaycan dövlətçiliyi üçün şah əsərlərdən hesab edilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Azərbaycan qazının beynəlxalq bazarlara çıxarılması üçün qaz kəməri infrastrukturunun yaradılması da böyük önəm kəsb edirdi. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından qaz ixracının təmin edilməsi məqsədilə Ulu Öndərin səyləri ilə 2001-ci il martın 12-də "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" və 2001-ci il sentyabrın 29-da "Təbii qazın Gürcüstan Respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair Azərbaycan və Gürcüstan Respublikaları arasında saziş" imzalandı. Bu sənədlərin tələblərinə uyğun olaraq, 2004-cü ildə Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərinin tikintisi işlərinə başlanıldı və 2007-ci ilin martın 25-də bu boru kəmərinin rəsmi açılış mərasimi keçirildi. 2007-ci ilin 3 iyul tarixindən etibarən bu boru xətti ilə qazın Türkiyəyə nəqlinə başlanıldı. Lakin bununla belə, kəşf edilmiş böyük həcmdə Azərbaycan qazının dünya bazarlarına çıxışını təmin etmək üçün qaz kəməri infrastrukturunun genişləndirilməsi zərurəti vardı. Beləliklə, Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan qazının Avropa bazarlarına çıxışını təmin etmək üçün "Cənub Qaz Dəhlizi"nin yaradılması işlərinə başlanıldı. İlk dəfə idi ki, Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihənin təşəbbüskarı olmuş və onun icrasına başlamışdır. "Cənub Qaz Dəhlizi" özündə Bakı-Tbilisi-Ərzurum boru kəmərinin genişləndirilməsini, Türkiyə ərazisində Trans-Anadolu Boru Kəmərinin (TANAP) tikintisini və Trans-Adriatik Boru Kəməri (TAP) layihəsi ilə əlaqələndirməni özündə ehtiva edirdi. Təsadüfi deyil ki, "Cənub Qaz Dəhlizi"nin təməli 2014-cü il 20 sentyabr tarixində, "Əsrin müqaviləsi"nin 20 illiyinə həsr olunmuş tədbirdə qoyulmuşdu. Çox sevindirici haldır ki, 29 may 2018-ci il tarixində açılışı edilmiş bu layihə Ulu Öndərin uzaqgörən enerji siyasətinin nəticəsi olaraq Azərbaycanın regiondakı geosiyasi önəminin artmasına böyük töhfə vermiş və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir. Eyni zamanda, icra olunan neft və qaz kəməri layihələri iqtisadi üstünlükləri ilə yanaşı Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının qarşılıqlı faydalı əməkdaşlığının bariz nümunələri kimi regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından da əhəmiyyətlidir.

Azərbaycanın nəqliyyat xidmətləri bazarının beynəlxalq nəqliyyat xidmətləri ba-

zarına inteqrasiyasının təmin edilməsi, Azərbaycanın nəqliyyat infrastrukturunun müasir beynəlxalq tələblərə uyğun olaraq təkmilləşdirilməsi Ulu Öndərin nəqliyyat sahəsində böyük önəm verdiyi məsələlərdən idi. Bu məqsədlə müvafiq hüquqi bazanın yaradılması üçün Azərbaycan Respublikası nəqliyyat sektorunun müxtəlif sahələrini əhatə edən onlarla beynəlxalq saziş və konvensiyalara qoşulmuş, eyni zamanda bir çox dövlətlərlə nəqliyyat sahəsində qarşılıqlı əməkdaşlıq məsələlərini əhatə edən ikitərəfli və çoxtərəfli saziş və Müqavilələr imzalanmışdır. Bununla yanaşı, Azərbaycan Respublikası Ulu Öndərin təşəbbüsləri ilə nəqliyyat sahəsində fəaliyyət göstərən bir sıra nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edilmişdir.

Azərbaycanın əlverişli coğrafi mövqeyindən istifadə etməklə Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmək və regionda Azərbaycanın geosiyasi əhəmiyyətini artırmaq Ümummilli Lider Heydər Əliyevin nəqliyyat strategiyasının ən vacib elementlərindən biri idi. Bu baxımdan, Ulu Öndər tarixən Azərbaycan ərazisindən keçən qədim "İpək Yolu"nun bərpasını dəstəkləmiş, bu məsələ ilə bağlı Avropa İttifaqı ilə sıx əməkdaşlıq etmişdir. Heydər Əliyev Azərbaycanın xarici ticarətinin inkişaf etdirilməsində Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılmasının və onun infrastrukturunun təkmilləşdirilməsinin Azərbaycan üçün əhəmiyyətini çox gözəl bilirdi və bu məsələ Ulu Öndərin nəqliyyat sahəsindəki siyasətinin prioritet istiqamətlərindən idi. Ölkəmiz üçün böyük önəm daşıyan bu beynəlxalq əhəmiyyətli layihənin uğurla reallaşmasında Heydər Əliyevin gərgin əməyi, qətiyyəti və hərtərəfli fəaliyyəti böyük rol oynamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində 9 ölkənin dövlət başçısı (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Həmin konfrans zamanı Avropa İttifaqının TRASEKA proqramının əsasında "Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas Çoxtərəfli Saziş" imzalanmışdır. Sazişin müddəaları "Avropa–Qafqaz–Asiya" nəqliyyat dəhlizi ilə yük daşımalarının həcminin artırılması üçün əlverişli zəmin yaradırdı. Beynəlxalq konfransda çıxışı zamanı Heydər Əliyev qədim İpək Yolunun bərpasının region dövlətlərinin bütün sahələrdə inkişafına müsbət təsir göstərəcəyini xüsusilə vurğulamışdır. Bundan əlavə, Çoxtərəfli Sazişin tələblərinin həyata keçirilməsi məqsədilə yaradılan TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin mənzil qərargahı Bakı şəhərində təşkil edilmiş və 21 fevral 2001-ci il tarixində Ulu Öndərin iştirakı ilə onun açılışı edilmişdir.

Beynəlxalq konfrans başa çatdıqdan 2 gün sonra onun yekunları ilə əlaqədar olaraq Ulu Öndər Heydər Əliyev tərəfindən geniş tərkibli iclas keçirilmiş, layihənin ölkəmiz üçün əhəmiyyəti və gələcək perspektivləri nəzərə alınaraq, respublikamızda bu sahədə hazırlıq tədbirlərinin həyata keçirilməsi ilə bağlı tapşırıqlar verilmişdir. Artıq sözügedən konfransdan 20 ildən artıq vaxt keçmiş və Azərbaycan "İpək Yolu"nun bərpası isti-

qamətində üzərinə düşən işləri uğurla və layiqincə yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Avropa–Qafqaz–Asiya beynəlxalq nəqliyyat dəhlizinin 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına ünvanlandığı təbrik məktubunda da qeyd etmişdir ki, fəaliyyət göstərdiyi 20 il ərzində TRASEKA Proqramı üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə həmin ölkələrin iqtisadi potensialının artırılması işinə mühüm töhfələr vermişdir.

Şərq-Qərb nəqliyyat dəhlizi çərçivəsində Azərbaycan, Gürcüstan və Türkiyəni əlaqələndirən dəmiryol xəttinin çəkilişi ilk dəfə 1993-cü ilin iyulunda müzakirə edilmişdir. Əlbəttə, Azərbaycan üçün böyük strateji əhəmiyyət daşıyan bu qlobal layihənin icrası qabaqcıl texniki imkanlar və böyük maliyyə resursları tələb edirdi və yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikası üçün bu layihənin həmin dövrdə həyata keçirilməsi real sayılmırdı. Ümumiyyətlə, istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə bu layihənin reallaşacağına inananlar az idi. Lakin, Ulu Öndərin ideyalarının davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu layihəyə Azərbaycanın strateji maraqları baxımından böyük önəm verirdi. Məhz onun güclü qətiyyəti və iradəsi, habelə layihədə iştirak edən dövlətlərin qarşılıqlı etimadı və dəstəyi nəticəsində 7 fevral 2007-ci il tarixində Tbilisi şəhərində keçirilən ölkə rəhbərlərinin üçtərəfli görüşündə "Bakı–Tbilisi–Qars yeni dəmir yolu xətti haqqında Saziş" imzalandı və beləliklə, bu layihə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Azərbaycan Respublikası layihənin Gürcüstan ərazisindən keçən hissəsinin tikintisi məqsədilə Gürcüstana güzəştli şərtlərlə 775 milyon ABŞ dolları məbləğində kredit ayırdı. "Bakı–Tbilisi–Qars" yeni dəmir yolu xəttinin 21 noyabr 2007-ci ildə Gürcüstan hissəsinin, 24 iyul 2008-ci ildə isə Türkiyə hissəsinin tikintisi işlərinə start verildi. Azərbaycan üçün böyük iqtisadi və siyasi əhəmiyyət daşıyan "Bakı–Tbilisi–Qars" dəmiryol xəttinin 2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında açılış mərasimi keçirildi.

Bu layihənin açılışının Bakı Beynəlxalq Dəniz Ticarət Limanında edilməsi bəlkə də rəmzi məna daşıyırdı. Çünki, Ulu Öndərin ideyalarına uyğun olaraq cənab İlham Əliyevin Azərbaycanın regionda mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətini tamamlayan vacib elementlərdən biri də məhz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi idi. 2010-cu ilin noyabrında təməli qoyulmuş yeni liman kompleksinin 2014-cü ildə bərə terminalı, 2018-ci ilin əvvəlində isə Ro-Ro terminalı istifadəyə verilmişdir. 2018-ci ilin may ayında açılışı edilmiş bu layihənin icrasına nüfuzlu beynəlxalq və yerli şirkətlər cəlb edilmiş, liman kompleksində qabaqcıl informasiya texnologiyaları infrastrukturu yaradılmış və ətraf mühit üçün əlverişli sistemlər tətbiq edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Bakı Beynəlxalq

Dəniz Ticarət Limanı Kompleksi də daxil olmaqla təxminən 400 ha ərazidə azad iqtisadi zonanın yaradılması isə ölkə iqtisadiyyatının şaxələndirilməsində və qeyri-neft sektorunun inkişafında əhəmiyyətli rol oynayacaq, ölkəmizin dünyada və regionda siyasi və strateji əhəmiyyətinin artmasına böyük töhfə verəcəkdir.

Məlum olduğu kimi, "Şimal-Cənub" nəqliyyat dəhlizi haqqında Saziş Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində imzalanmışdır. Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulmanın TRASEKA layihəsi qədər önəmli olmasını Ulu Öndər çox gözəl bilirdi və Azərbaycanın bu dəhlizə qoşulması təşəbbüsü də məhz ona məxsusdur. Artıq 2001-ci ildən başlayaraq Heydər Əliyevin tapşırıqları əsasında Azərbaycan Respublikasının aidiyyəti strukturlarını təmsil edən səlahiyyətli nümayəndələr Rusiya Federasiyasının və İran İslam Respublikasının aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə müzakirələr aparırdı. Aparılan müzakirələrin nəticəsi olaraq Azərbaycan 2005-ci ildə "Şimal-Cənub" nəqliyyat dəhlizi haqqında Sazişə qoşuldu. "Şimal-Cənub" nəqliyyat dəhlizi Cənubi və Cənub-Şərqi Asiya ölkələrindən yüklərin Avropa ölkələrinə daha qısa müddətdə və daha ucuz qiymətlə daşınması baxımından çox əhəmiyyətlidir və Azərbaycanın bu dəhlizdən yararlanması üçün böyük potensial mövcuddur.

Şimal-Cənub nəqliyyat dəhlizi üzrə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məsələsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzində olan məsələlərdəndir. Nəqliyyat dəhlizinin önəmli elementlərindən olan Astara çayı üzərindəki dəmiryol körpüsü və Astara stansiyasından (Azərbaycan) İran sərhədinədək olan 8,3 kilometrlik dəmiryol xətti 2016-cı ilin sonlarında istismara hazır vəziyyətə gətirilmişdir. 2019-cu ilin sonunda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası sərhədindən keçən Samur çayının üzərində tikilən yeni avtomobil körpüsü istifadəyə verilmişdir. Hazırda Azərbaycan ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşən dəmiryol nəqliyyatı infrastrukturunun yenidən qurulması istiqamətində işlər görülməkdədir. Astara çayı üzərində avtomobil körpüsünün və piyada keçidinin tikintisi məsələsi də gündəmdədir və bu istiqamətdə işlər aparılır. Bununla yanaşı, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas tərkib hissəsi olan Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun inşası məqsədilə Azərbaycan tərəfindən İrana 500 milyon ABŞ dolları məbləğində kredit ayrılması, habelə Azərbaycanın İranın Astara şəhərində dəmiryol vağzalının və yük terminalının tikintisində iştirak etməsi cənab İlham Əliyevin Azərbaycanın nəqliyyat və tranzit potensialının artırılmasına verdiyi böyük önəmin bariz nümunəsidir.

Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində olan aktiv iştirakı ölkəmizin nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsi ilə yanaşı ölkəmizin iqtisadi və strateji maraqları baxımından da mühüm əhəmiyyət kəsb edir.

Ulu Öndərin Azərbaycanın nəqliyyat sektorunun inkişafı üçün gördüyü işləri sadalamaqla bitməz. Ulu Öndər tərəfindən hazırlanan uzunmüddətli nəqliyyat strategiyası Azərbaycanın nəqliyyat və ticarət əlaqələrinin təmin edilməsi ilə yanaşı, Azərbaycanın regionda geosiyasi əhəmiyyətinin artmasına da əhəmiyyətli töhfələr vermişdir. Artıq, qeyd edildiyi kimi, hazırda bu işlər Ulu Öndərin davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir, əsası Ümummilli Lider tərəfindən qoyulan nəqliyyat strategiyasına uyğun olaraq, yalnız Azərbaycan üçün deyil, həm də region üçün böyük əhəmiyyət daşıyan genişmiqyaslı layihələr icra edilir. Ümumilikdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi dövründə təxminən 12 min kilometr avtomobil yolu, eləcə də yol qurğuları tikilərək istifadəyə verilmişdir. Bu gün Azərbaycan böyük və müasir yük və sərnişin təyyarə parkına malikdir, ölkədə 6 beynəlxalq hava limanı fəaliyyət göstərir. 2013-cü ildə istifadəyə verilmiş gəmiqayırma zavodu ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi üzrə ixtisaslaşmışdır. Hazırda Azərbaycan Xəzər dənizində ən böyük dəniz donanması olan dövlətdir. Azərbaycanın dəmir yollarında əhəmiyyətli yenidənqurma işləri həyata keçirilir, yeni istiqamətlərdə dəmiryol xətləri çəkilir, hərəkət tərkibinin müasirləşdirilməsi və göstərilən sərnişindaşıma xidmətlərinin keyfiyyətinin artırılması üçün kompleks tədbirlər görülür. Şəhərətrafı və regionlar istiqamətində sürətli qatarlar istifadəyə verilir. Əhaliyə göstərilən ictimai nəqliyyat xidmətlərinin yaxşılaşdırılması məqsədilə yeni avtobuslar və metro qatarları alınır, müasir ictimai nəqliyyat infrastrukturu yaradılır.

Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsləri və səyləri nəticəsində ölkəmizin nəqliyyat sektorunda görülmüş işlər haqqında çox danışmaq olar. Lakin hər birimizdə bir qəti əminlik var ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti, Zati-Aliləri cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilən zəngin dövlətçilik ənənələri və ideyaları əsasında Azərbaycan Respublikası iqtisadiyyatının bütün sahələrində, o cümlədən nəqliyyat sektorunda hələ çox böyük nailiyyətlərə və uğurlara imza atacaqdır.

**İstifadə edilmiş mənbələr:**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1-46 cild/Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı, Azərnəşr, 1997-2013;
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-95 cild/Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı, Azərnəşr, 2003-2020;
3. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik / E.Ə.Əliyev. Bakı, 2011, 676 s.
4. Beynəlxalq nəqliyyat hüququ. Dərslik / E.Ə.Əliyev. Bakı, 2013, 614 s.
5. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər/ Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, 2005, 676 s.
6. «Nəqliyyat hüququ» jurnalı. Bakı, 2004-2019.
7. URL: www.e-qanun.az; www.intranslaw

# AZƏRBAYCAN RESPUBLİKASINDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN OPTİMAL TƏMİNOLUNMA STRATEGİYASI

**Etibar ƏLİYEV,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi «İnsan hüquqları və informasiya hüququ» UNESCO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru, Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü.**
e-mail: a-etibar@rambler.ru

*Məqalədə Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinin optimal təminolunma strategiyasına dair məsələ nəzərdən keçirilir. Qeyd olunur ki, yol hərəkətinin təhlükəsizlik səviyyəsinin yüksəldilməsində əsas yol, başlıca istiqamət – hərəkət sərbəstliyini məhdudlaşdıran, yol hərəkətində iştiraketmənin optimal müddətinə mənfi təsir gəstərən amillərin mümkün olan maksimum dərəcədə aradan qaldırılmasıdır.*

**Əsas sözlər:** yol hərəkəti təhlükəsizliyi, təhlükəsiz yol hərəkəti sistemi, yol hərəkəti iştirakçılarının məsuliyyəti, yol hərəkəti təhlükəsizliyi strategiyası.

Qloballaşma dövründə avtomobil nəqliyyatı ölkənin iqtisadi infrastrukturunda xüsusi yer tutur. İnsanların, cəmiyyətin və dövlətin nəqliyyat tələbatının ödənilməsi, gündəlik yük və sərnişin daşımalarının həyata keçirilməsi məhz avtomobil nəqliyyatının müntəzəm fəaliyyət göstərməsindən əhəmiyyətli dərəcədə asılıdır. Avtomobil nəqliyyatı müəyyən funksiyalar yerinə yetirir ki [1, s.481], bu da onun ahəngdar işinin və iştirak etdiyi yol hərəkəti prosesində təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsini şərtləndirir. Ümumiyyətlə, yol hərəkəti təhlükəsizliyi ümummilli təhlükəsizlik sisteminə aid olan vacib məsələdir və onun təmin olunması dövlətin əsas fəaliyyət istiqamətlərindən biridir. Yol hərəkəti təhlükəsizliyinin aktuallığı küçə yol şəbəkəsində mövcud olan hərəkət şəraiti və avtomobillərin artım tempi ilə funksianal formada qarşılıqlı əlaqəlidir.

Yeri gəlmişkən, yol hərəkəti təhlükəsizliyinin təmin olunması çoxşaxəli fəaliyyətdir və sistemli xarakter daşıyır. Bu sistemin mərkəzi elementi kimi «sürücü» faktoru çıxış edir. Avtomobil parkının dinamik inkşaf tempi yollarda nəqliyyat axınlarının intensivliyini artırır və bu da, öz növbəsində, yüksək təhlükə mənbəyini idarə edən sürücülərə qarşı irəli sürülən tələbləri daha da sərtləşdirir. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi səviyyəsinin yüksəldilməsi və yol-nəqliyyat hadisələrinin sayının azaldılması istiqamətində mühüm nailiyyətlər əldə etmək üçün sürücülərin şəxsi məsuliyyətinin artırılması məsələsi aktual bir problem kimi gündəm-

də durur [2, s.27]. Belə ki, statistik göstəricilərə əsasən dünyada baş verən yol-nəqliyyat hadisələri nəticəsində hər 23 saniyədə bir insan həyatını itirir.

Sözügedən qlobal poblemlərin optimal həllində yol hərəkəti sahəsindəki münasibətləri tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası öz tarixi müstəqilliyini bərpa etdikdən sonra bir sıra beynəlxalq nəqliyyat təşkilatlarına üzv olmuş, beynəlxalq nəqliyyat konvensiyalarına qoşulmuş və nəqliyyat daşımaları sahəsində bir çox dövlətlərlə müvafiq sazişlər bağlamışdır. Respublikada əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi islahatların həyata keçirilməsi həlledici əhəmiyyət kəsb edir. Bu baxımdan, «Yol hərəkəti haqqında» Beynəlxalq Konvensiyaya Azərbaycan Respublikasının qoşulması təqdirəlayiq haldır.

Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu siyasət kontekstində yol hərəkəti təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir, yol infrastrukturu müasirləşir, maddi texniki baza gücləndirilərək yeni informasiya kommunikasiya texnologiyaları tətbiq edilir və bu məsələ Möhtərəm Prezidentin daim nəzarətindədir. Belə ki, «Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbilrlər haqqında» Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2012-ci il dekabrın 26-da müvafiq Sərəncam imzalanmış, habelə ölkə Prezidentinin 2018-ci il 27 dekabr tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı» təsdiq edilmişdir və s [3, s.183-189]. Bu cür aktların qəbul edilməsi göstərdiklərimizə bariz nümunədir.

Sosial-iqtisadi problemlərin geniş spektri arasında yol hərəkəti təhlükəsizliyinin təmin olunması üzrə tədbirlərin işlənilməsi və həyata keçirilməsi vacib əhəmiyyətə malikdir. Belə tədbirlərin reallaşdırılması nəzəri, qanunverici və praktik məsələlərin eyni zamanda həll edilməsi amili ilə mürəkkəbləşir və bu problemə konseptual elmi yanaşmaların formalaşmasını zərurətə çevirir.

Azərbaycan Respublikasında ilk dəfə olaraq qəbul edilmiş «Yol hərəkəti haqqında» Qanunda (1998-ci il) "yol hərəkəti təhlükəsizliyi" termini ifadə olunaraq ona qanunvericilik səviyyəsində aşağıdakı kimi normativ hüquqi anlayış verilmişdir (maddə 1): yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyətidir [4, s.3]. Bu anlayışa verilmiş tərifdən göründüyü

kimi, definisiya iki baza kateqoriyadan ibarətdir: «yol hərəkəti» və «təhlükəsizlik».

Yol hərəkəti mürəkkəb dinamik sistemdir. O, müxtəlif nəqliyyat vasitələrinin və piyadaların küçə və yollarda hərəkətinin məcmusından ibarətdir. Başqa sözlə, yol hərəkəti dedikdə "nəqliyyat vasitəsi-yol" kimi texniki kompleksdən istifadə edilməklə yük və sərnişinlərin məkanda yerdəyişməsi ilə bağlı şəxsi və ictimai tələbatın ödənilməsi üzrə fəaliyyət başa düşülür.

Yol hərəkəti sahəsində «təhlükəsizlik» anlayışını elmi cəhətdən təhlil edərkən, onun mahiyyətini nəzəri cəhətdən əks etdirən üç əsas prinsipi (elementi) fərqləndirmək mümkündür: 1) maraq (dövlət, ictimai və s.); 2) təhlükəyə dayanıqlıq (qəzalardan, yol-nəqliyyat hadisələrindən və s.); 3) yol hərəkəti iştirakçılarının azadlığı. Bu baxımdan, aşağıdakı məzmunda hipotezanı irəli sürmək olar: yol hərəkətinin təhlükəsizlik səviyyəsinin yüksəldilməsində əsas yol, başlıca istiqamət - hərəkət sərbəstliyini məhdudlaşdıran, yol hərəkətində iştiraketmənin optimal müddətinə mənfi təsir göstərən amillərin mümkün olan maksimum dərəcədə aradan qaldırılmasıdır [5, s.17]

Zənn edirik ki, diqqətə çəkilən hipotezanı yol hərəkəti təhlükəsizliyi konsepsiyasında və onun tərkib elementlərinin təmin olunması strategiyasında nəzərə almaq daha məqsədəuyğundur.

Yol hərəkəti təhlükəsizliyi kateqoriyasına xas olan əsas əlamətlər (təhlükə, dövlətidarəetmə fəaliyyəti) və onların arasında mövcud olan dialektik əlaqə onun müstəqil hüquqi təbiətə malik olmasına və ayrıca hüquqi kateqotiya qismində fərqləndirilməsinə imkan yaradır. Söhbət müasir dövrdə formalaşmaqda olan nəqliyyat hüququnun tərkibində «yol hərəkəti təhlükəsizliyi» adlı hüquq institundan gedir. Bu hüquq institutu yol hərəkəti sahəsində təhlükəsizliyin təmin olunması ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemini ehtiva edir. Belə yanaşma həm elmi-nəzəri, həm də hüquqi-praktiki baxımdan, xüsusilə əhəmiyyətlidir [6, s.27].

Yol hərəkəti təhlükəsizliyi analayışının hüquqi təbiəti ilə bağlı qeyd edə biləri ki, o, özünü hüquqi, sosial və iqtisadi kateqoriya kimi biruzə verir və funksional təyinatına malikdir – yol hərəkəti sahəsində hüquq qaydalarının təmin olunması və bərpası, hüquqpozmaların xəbərdarlığı və qarşısının alınması. Bu kortekstdə yol hərəkəti təhlükəsizliyi anlayışı «sürücü–avtomobil–yol» sisteminin bütün komponentlərini əhatə edir.

Hər şeydən əvvəl, yol hərəkəti təhlükəsizliyinin təmin olunması işində yol hərəkətinin təşkili, onun idarə edilməsi və texniki nizamlama vasitələrinin sistemli şəkildə geniş təbliğ olunması hərəkətin orta sürətinin artmasına, yolların ötürmə qabiliyyətinin yüksəlməsinə və nəqliyyat axınının bərabərliyini təmin etməklə, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına yönəlmişdir [7, s.155].

Hər şeydən əvvəl, yol hərəkəti prosesində nəqliyyat təhlükəsizliyi effektiv şəkildə təmin olunmalıdır. Hüquq elmində (doktrinada) formalaşmış mövqeyə əsasən, qeyd etməliyik ki, nəqliyyat təhlükəsizliyi dedikdə təşkilati-texniki, maliyyə və normativ hüquqi tədbirlərlə təmin olunmuş milli nəqliyyat sisteminin vəziyyəti başa düşülür. Belə vəziyyət nəqliyyat sistemində qəzaların, yol nəqliyyat hadisələrinin və bu sistemin fəaliyyətinə qeyri-qanuni müdaxilənin maksimum dərcədə qarşısının alınmasını təmin edir, həmin prosesdə iştirak edən şəxslərin nəqliyyat hadisəsindən və onun nəticələrindən müdafiə olunma dərəcəsini əks etdirir.

Müasir dövrdə nəqliyyat təhlükəsizliyinin üç növü fərqləndirilir: texniki–texnoloji təhlükəsizlik, antiterror təhlükəsizliyi, təşkilati-struktur hazırlıq (təhlükəsizlik).

Eyni zamanda, elmi ədəbiyyat səhifələrində və qanunvericilik aktlarında "nəqliyyatda təhlükəsizlik" anlayışı da işlədillir. Nəqliyyatda təhlükəsizlik dedikdə iki növ təhdidə qarşı tədbirlər başa düşülür: 1) nəqliyyat vasitələrinin hərəkət qaydalarının pozulması; 2) nəqliyyatda ictimai qaydaların, sanitariya, yanğından mühafizə və əmlakın qorunması qaydalarının pozulması.

Beləliklə, nəqliyyat təhlükəsizliyinin təmin olunması elə bir sistemdir ki, o, özü də təhlükədən müdafiə olunmanın iki bloku – «nəqliyyat vasitəsinin istismarında təhlükəsizliyin təmin edilməsi» və «nəqliyyat infrastrukturu obyektlərinə və nəqliyyat vasitələrinə qanunsuz müadxilə aktlarından təhlükəsziliyin təmin edilməsi» üzrə kompleks tədbirləri ehtiva edilir.

Nəqliyyat vasitələrinin istismarı zamanı təhlükəsizliyin təmin edilməsi sistemli şəkildə həyata keçirilir. Bu sistemin tərkib hissəsinə aşağıdakıları aid etmək mümkündür: nəqliyyat vasitələrinin, yolların və nəqliyyat avadanlıqlarının konstruksiyasının layihələndirilməsi, istehsalı, sınağı və istismara buraxılması, istismarı və təmiri; nəqliyyat personalı xidmətçilərin hazırlanması və peşə hazırlığının yüksəldilməsi; tibbi təminat və meteonəzarət; nəqliyyat infrastrukturunun fəaliyyətinə və nəqliyyat vasitələrinin hərəkətinə nəzarət; təşkilati-hüquqi tədbirlər; nəqliyyat hadisələrinin başvermə səbəblərinin müəyyənləşdirilməsi üzrə aparılan tədqiqatlar və xidməti araşdırmalar və s.

Qeyd etməliyik ki, yol hərəkəti prosesi dinamik və kompleks xarakterli bir hadisədir, fəaliyyətdir. İctimai münasibətlərin bir növü kimi bu proses respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf starategiyası çərçivəsində və yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, habelə avtomobilləşmə meyillərinin miqyasca genişlənməsi fonunda daimi dəyişir və təkmilləşir. Bu konteksdə yol hərəkəti təhlükəsizliyinin təmin olunma səviyyəsinin daha da yüksəldilməsi istiqamətində, Dövlət Proqramında (2019-2023-cü illər) nəzərdə tutulduğu kimi, aşağıda göstərilən perspektiv tədbirlərin reallaşdırılması, davamlı

və stabil "təhlükəsiz yol hərəkəti sistemi"nin yaradılması baxımından olduqca aktual görünür:

– yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmənin təkmilləşdirilməsi;

– yol hərəkətinin təhlükəsizliyi sahəsində müasir innovativ metodların tətbiq edilməsi;

– yol-nəqliyyat şəbəkəsində yol hərəkətinin bütün iştirakçılarının səmərəli, təhlükəsiz və rahat hərəkətini təmin edən müvafiq mobillik strategiyasının hazırlanması;

– qəza təhlükəsi zamanı qəzadansonrakı xilasetmə, təcili və təxirəsalınmaz tibbi yardım fəaliyyətinin əlaqələndirilməsi və təkmilləşdirilməsi;

– yol hərəkətinin təhlükəsizliyi sahəsində ictimai iştirakçılığın təmin edliməsi;

– yol hərəkətinin təhlükəsizliyi sahəsində maarifləndirmə, təbliğat və təşviqat işinin təkmilləşdirilməsi;

– yol hərəkəti və nəqliyyatdan istifadə mədəniyyətinin artırılması və s.

Sadalananlarla yanaşı, yol hərəkəti təhlükəsizliyi sferasında vahid dövlət siyasətini formalaşdıran və onun həyata keçirilməsini təmin edən, nəzarət və əlaqələndirmə funksiyasını icra edən fəaliyyətin təşkil edilməsi, bu sahədə şəffaflığın və qanunçuluğun gücləndirilməsi və vətəndaşlarla münasibətdə etik davranış qaydalarına riayət olunmasının təmin edilməsi, milli texniki reqlamentlərin tətbiqi, statistik məlumatların analitik təhlili və preventiv tədbirlərin həyata keçirilməsi, görülmüş işlərin səmərəliliyinin monitorinqi və s. bu kimi zəruri tədbirlərin görülməsi «təhlükəsiz yol hərəkəti sistemi»nin etibarlı və effektiv işləməsinə zəmin yaradan amillər qismində səciyyələnir.

Göstərilən aspektlər Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinin optimal təminolunma strategiyasında vacib rol oynayır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. 3-cü nəşr / E.Ə.Əliyev. Bakı, «UniPrint» nəşriyyatı, 2011, 676 s.
2. Zeynalov R.M., Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi təminat sistemində sürücü faktoru və onun psixoloji durumu. Bakı, «Kooperasiya» nəşriyyatı, 2015, 64 s.
3. Yol hərəkəti təhlükəsizliyinin hüquqi təminatı. Sənədələr toplusu. II nəşr / Tərtib edən: E.Ə.Əliyev. Bakı, «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 562 s.
4. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu/ Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayım Evi", 2017, 180 s.
5. Основы безопасносит дорожного движения: учебное пособие/В.В.Головко, В.И.Майоров. М., Эксмо, 2008, 176с.
6. Əliyev E.Ə. Yol hərəkəti təhlükəsizliyinin hüquqi əsasları. Orta ixtisas məktəbləri üçün dərslik. Bakı, «UniPrint» nəşriyyatı, 2010, 368 s.
7. Əliyev Ə.B. Müasir yol hərəkətinin texniki nizamlama vasitələri və problemləri. Bakı, «Çaşıoğlu», 2000, 160 s.
8. www.e-qanun.az

# AZƏRBAYCAN DƏMİR YOLLARI UĞURLA MÜASİRLƏŞİR

***"Biz hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınmışdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilib. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı-Tbilisi-Qars dəmir yolunu birləşdirə bilmişik" – bu sözləri Prezident İlham Əliyev noyabr ayının 13-də "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovu qəbul edərkən səsləndirib.***

Dövlətimizin başçısının həmin fikri, eyni zamanda, Azərbaycanın nəqliyyat sisteminin əsas qollarından olan dəmir yolu nəqliyyatının bu gün sürətli inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir. Şübhəsiz ki, nəqliyyatın bu sektorunda son 16 il ərzində əldə edilən yüksək nəticələr Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan uğurlu iqtisadi siyasət sayəsində mümkün olub.

Ölkə Prezidentinin kadr islahatları çərçivəsində Cavid Qurbanovun "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyinə gətirilməsindən sonra bu sahədə ciddi irəliləyişlər qeydə alınıb. Dəmir yolları sistemində son bir neçə ildə dövlət başçısının təşəbbüsü və şəxsi nəzarəti altında həyata keçirilən nəhəng quruculuq işləri Azərbaycanda aprılan islahatları hər vəchlə qaralamaq, onları özlərinin kirli "baxış bucaqları" altında görmək istəyənlərə həm də tutarlı bir cavabdır. Belələrinin konkret rəqəmlərlə ifadə olunan, necə deyərlər, əlahəzrət faktlar qarşısında susmaqdan başqa çarələri yoxdur.

Ölkənin nəqliyyat sektorunun aparıcı sahəsi olan dəmir yolları sistemində belə genişmiqyaslı islahatları şərtləndirən əsaslar hansılardır? Nə üçün Prezident İlham Əliyev nəqliyyat sektorunun sözügedən sahəsinə bu qədər diqqət yetirir və sistemin ən qısa zaman kəsiyində beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasını hədəfləyir?

Bu sualları cavablandırarkən, ilk növbədə, onu qeyd edim ki, hazırda yüklərin Azərbaycan üzərindən məhz dəmiryolu vasitəsilə daşınmasına iddialı ölkələrin sayı kifayət qədər çoxdur və bu siyahı getdikcə genişlənir. Yüklərini dəmir yolu ilə daşıtdıran tərəflər yaxşı bilirlər ki, digər nəqliyyat vasitələrindən fərqli olaraq dəmir yolu ilə daşınan yüklər istənilən

hava şəraitində mənzil başına rahat çatdırılır. Eyni zamanda, xüsusilə böyük həcmdə olan və daha uzaq məsafəyə daşınan yüklərin bu nəqliyyat vasitəsilə daşınması tarif baxımından da olduqca sərfəlidir. Elə buna görə də Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb istiqamətində beynəlxalq yükdaşımaların ən uğurlu mərkəzlərindən birinə çevrilməsi üçün avtomobillə daşımalardan 40 faizə qədər ucuz başa gələn dəmir yolu ilə daşımaların beynəlxalq standartlar səviyyəsində təşkili olduqca vacibdir. Beynəlxalq yüklərin ən sərfəli marşrutla və ən münasib tariflərlə daşınması imkanları məhz bizdədir. Buna görə də Azərbaycan Prezidenti bu imkanların reallaşdırılmasına çalışır. Eyni zamanda, dövlətimizin başçısı vətəndaşlarımızın rahatlığını təmin etmək üçün ölkə daxilində dəmir yolu ilə sərnişin daşımaların beynəlxalq standartlar səviyyəsində təşkil olunmasını qarşıya mühüm vəzifə kimi qoyur.

Son bir neçə ildə dəmir yolları sahəsində aparılan islahatların nəticələri artıq beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. Davos Dünya İqtisadi Forumu respublikamızda dəmir yollarının keyfiyyəti ilə bağlı hesabatda göstərib ki, Azərbaycan dəmir yollarının səmərəliliyi baxımından dünyada 12-ci, dəmir yollarının keyfiyyətinə görə isə 34-cü yerdədir.

Yeri gəlmişkən, hesabatda vurğulanan yüksək göstəriciləri şərtləndirən tədbirlərin bir qismini xatırlatmaq istərdim. Belə ki, 2017-ci il oktyabrin 30-da açılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti qədim İpək yolunun polad magistrallar üzərində bərpası deməkdir. Ümumi uzunluğu 846 kilometr olan bu dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın, 263 kilometri Gürcüstanın, 79 kilometri isə Türkiyənin ərazisindən keçir. BTQ dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracaq bir yoldur. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin də bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə multimodal daşımaların həcmini artıracaq. Yolun üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə hər il 3 milyon sərnişin və 17 milyon ton yük daşınacağı nəzərdə tutulur.

Keçən il BTQ dəmir yolu ilə təqribən 300 min tona yaxın yük daşınıb və Azərbaycan hazırda bu sahədə təkcə Asiyadan gələn yüklərlə kifayətlənmir, həm də bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsindən bəhrələnir. Onu da qeyd edim ki, ölkəmiz Çindən konteyner qatarları qəbul etməyə başlayıb və artıq Çin-Qazaxıstan-Azərbaycan-Avropa dəhlizi fəaliyyət göstərir.

Bakı-Tbilisi-Qars dəmir yolunun digər önəmli cəhəti isə Azərbaycanın adıçəkilən layihənin verdiyi imkanlardan istifadə edərək, Türkiyə ilə Gürcüstan ərazisindən

birbaşa dəmir yolu əlaqəsini qurmasıdır. Bu dəmir yolu regionda turizmin inkişafına da güclü təsir göstərəcək. Beləliklə, iki qitəni polad relslərlə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, eyni zamanda, böyük sosial-iqtisadi əhəmiyyətə malikdir. Onun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa olduqca böyük bir töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.

Ölkəmizin önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Bu nəqliyyat dəhlizinin yaradılması tarixi bir hadisədir. Dəhliz Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Layihə çərçivəsində Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələri artıq yerinə yetirib. Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər 8,3 kilometr dəmir yolu çəkilib və Astara çayı üzərində dəmir yolu körpüsü tikilib. Eyni zamanda, hazırda İran Astarasında 35 hektar ərazidə dəmir yolu stansiyası və yüklərin boşaldılması üçün terminallar inşa olunur. Proqnozlar göstərir ki, sözügedən beynəlxalq nəqliyyat dəhlizi tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə Avropa ölkələri, Rusiya, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşməsinə şərait yaradacaq.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının üç dəfəyə qədər az olmasıdır. Belə ki, əgər dəniz yolu ilə daşımalar zamanı yüklər İran körfəzi və Hind Okeanı, Süveyş kanalı, Aralıq Dənizi, Baltik dənizindən keçərək, Helsinki şəhərinə 45-60 günə çatırsa, bu dəhliz vasitəsilə daşımaların müddəti 20-25 gün təşkil edəcək. Ötən il Şimal-Cənub dəhlizi ilə daşınan yüklərin həcmi 8 dəfə, bu ilin 9 ayında isə 70 faiz artıb.

Son illlər ərzində tranzit potensialının gücləndirilməsi istiqamətində uğurlu addımlar atılıb. 2015-ci il avqustun 3-dən isə Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun fəaliyyəti canlandırılıb. Artıq bu marşrut üzrə yük qatarları işləyir.

Cənub-Qərb Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində görülən işlər də təqdirəlayiqdir. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini azaldır. İkin hesablamalara əsasən, Cənub-Qərb dəhlizi ilə yük daşımalarını 7 gün ərzində həyata keçirmək mümkün olacaqdır.

Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, onların çoxşaxəli olması və marşrutlarda iştirakçı dövlətlərin sayının hər il artması sayəsində “Azərbaycan Dəmir Yolları” QSC yükdaşıma coğrafiyasını getdikcə

genişləndirir. Bu yaxınlarda QSC "Trans-sibir Daşımaları üzrə Əlaqələndirmə Şurası" Beynəlxalq Assosiasiyasının üzvü seçilib. Bununla da "Azərbaycan Dəmir Yolları" uzaq Sibirdən yüklərin Türkiyəyə, Aralıq dənizi sahili ölkələri və digər istiqamətdə nəqlinə başlayıb.

Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin gələcəkdə normal fəaliyyət göstərməsini və Azərbaycan üzərindən yük axınının dəfələrlə artmasını təmin edə biləcək əsas işlərdən biri də yerli dəmir yollarının yenidən qurulması, əsaslı təmiri və dəmir yolu parkının yenilənməsidir. 2015-2019 illər ərzində "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 841,7 kilometr yol və 875 dəst yoldəyişən əsaslı təmir olunub, 3101 ədəd yeni yük vaqonları, 32 ədəd yeni lokomotiv alınıb.

Son vaxtlar dəmir yolunda ən müasir standartlara cavab verən texnologiyaların tədbiqinə başlanılıb. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçilməsi, işarəvermə və rabitə sisteminin müasirləşdirilməsi məqsədilə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parklarının yenilənməsi və s. sahələrin müasir tələblər səviyyəsinə çatdırılması üzrə bir sıra mühüm tədbirlər həyata keçirilib.

Dövlət başçısı İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunan səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda "ASAN qatar" sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar "ASAN qatar" gözləmə zalı, laboratoriya, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 4 vaqondan ibarətdir. Bu qatar vasitəsilə 4 dövlət orqanı tərəfindən 9 növ xidmət göstərilir. Eyni zamanda, qatarda 3 növ funksional yardımçı xidmət – foto və tibb xidməti, o cümlədən "Azərpoçt" MMC tərəfindən göstərilən bank xidmətləri təşkil edilib.

Ölkə rəhbəri "Azərbaycan Dəmir Yolları" QSC-nin qarşısında yaxın illərdə reallaşdırılması nəzərdə tutulan bir sıra mühüm vəzifələr qoyub. Bunlardan biri də mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsidir.

Sumqayıt və Gəncədən sonra növbəti sürətli sərnişin qatarı Bakıdan Qəbələ istiqamətində hərəkət edəcək. Qəbələ artıq Azərbaycanın turizm mərkəzlərindən birinə çevrilib. Prezident İlham Əliyev bu il noyabr ayının 13-də QSC-nin sədri Cavid Qurbanovu qəbul edərkən Qəbələ dəmir yolu ilə bağlı deyib: "Bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət otellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni, 9 ayda Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var – Şamaxı-Qəbələ yolu. O yol

da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm trafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır".

"Azərbaycan Dəmir Yolları" QSC tərəfindən reallaşdırılacaq layihələr sırasında ölkəmizin turizm mərkəzlərindən biri olan Qusar rayonundakı Şahdağ xizək kurortuna dəmir yolunun çəkilməsi və Bakı-Yalama xəttinin yeniləşdirilməsi xüsusi yer tutur.

QSC hazırda Bakı dairəvi dəmir yolunun tikintisinin başa çatdırılması istiqamətində təxirəsalınmaz işlər görür. Yan yolları ilə birlikdə bu yolun ümumi uzunluğu 200 kilometrə yaxındır. Dəmir yolu Xırdalan şəhəri də daxil olmaqla, bütün Abşeronu birləşdirir. İndiyə qədər işlərin 80 faizi, elektrik, rabitə və işarəvermə işlərinin isə 70 faizi yerinə yetirilib, 11 modern stansiya tikilib, yol üzərində 18 piyada və 6 avtomobil keçidi inşa olunub.

Bakı dairəvi dəmir yolunun birinci hissəsində qatar Bakıdan çıxaraq Biləcəri, Xırdalan, Sumqayıt, oradan isə Novxanı, Fatmayi, Məhəmmədi, Zabrat-1, Zabrat-2, Zabrat-3, Sabunçu, Bakıxanov, "Koroğlu" istiqamətlərində hərəkət edərək sonda yenidən paytaxta dönüb dairəni qapadacaq. Hazırda Bakı-Sumqayıt dəmir yolu ilə hər gün 12 min sərnişin daşınırsa, dairə tamamlanandan sonra bu göstərici təqribən 25-30 minə çatacaq. Başqa sözlə, bu, hər gün həmin marşurutda hərəkət edən 500-ə qədər avtobusun əvəzlənməsi deməkdir. Sərnişinlərin bu yolla daşınması həm ekologiyanın qorunması, həm də onların vaxt itkisinin 2-3 dəfə azalması deməkdir.

Ötən ilin sonlarından Bakı-Gəncə sürətli sərnişin qatarının istismara verilməsi təkcə bu şəhərlər arasında deyil, eyni zamanda, həmin istiqamətdə yerləşən rayonlar arasında nəqliyyat əlaqələrini genişləndirmək məqsədi daşıyır. Bakı – Gəncə yolunda aparılacaq işlər yaxın vaxtlarda bu xətlə hərəkət edən qatarın sürətini saatda 140 kilometrə qaldırmağa imkan verəcək ki, bu da sərnişinlərə nəticə etibarilə Bakıdan Gəncəyə 3 saat ərzində yetişə bilmək imkanı yaradacaq.

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə ölkəmizin dəmir yollarında aparılan bütün bu quruculuq işləri Azərbaycan iqtisadiyyatının güclənməsinə və büdcə daxilolmalarının artmasına əlverişli zəmin yaradacaq. Bu isə, öz növbəsində, dövlət başçısının Azərbaycan vətəndaşının rifahının yaxşılaşması istiqamətində müəyyənləşdirdiyi strategiyanın yüksək səviyyədə reallaşdırılmasını şərtləndirəcək.

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor,**
**"Ana Vətən" Partiyası sədrinin sosial-iqtisadi məsələlər üzrə müavini.**

# AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİSTEMİNDƏ APARILAN İSLAHATLAR: HÜQUQİ TƏNZİMLƏNMƏ VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Müstəqil Azərbaycan dövlətində gömrük xidməti sahəsinin təşəkkül tapması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, "Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir" – deyən ulu öndər gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirərək, qurumun maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirib, gömrük sahəsində beynəlxalq əməkdaşlıq əlaqələri yaradılıb və getdikcə möhkəmlənib, həmçinin ümummilli lider həmin dövrdə Azərbaycan gömrüyünün gələcək fəaliyyəti və perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirib.***

**Əsas sözlər:** gömrük sistemi, gömrük fəaliyyəti, beynəlxalq ticarət, gömrük sahəsində islahatlar, buraxılış sistemləri.

**Əminəm ki, bu il də gömrük sahəsində aparılan islahatlar davam etdiriləcək və bu, bizə imkan verəcək ki, biz yenə də plandan əlavə vəsait toplayaq və büdcəmizə daxil edək.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Zati-Aliləri İlham Əliyevin prezidentlik fəaliyyəti illərində həyata keçirilən çoxsaylı tədbirlər və hüquqi tənzimlənmə hesabına Azərbaycan gömrüyü dövlətimizin müstəqilliyinin əsas atributlarından birinə çevrilməklə üzərinə düşən missiyanın gerçəkləşməsində, başqa sözlə, ölkəmizin iqtisadi təhlükəsizliyinin təminatı, fiskal siyasətin reallaşması, qaçaqmalçılıq hallarının qarşısının alınması, beynəlxalq ticarətin asanlaşması və sürətlənməsində mühüm rol oynayıb.

### "Kölgə iqtisadiyyatı"na qarşı mübarizə öz səmərəsini verir

Müasir dövrdə Azərbaycanda gömrük fəaliyyəti gömrük nəzarətinin daha səmərəli təşkili, gömrük sisteminin yenidən qurulması və maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, yerlərdə bilikli və bacarıqlı kadrların xidmətə qəbul olunması, bir sözlə, həyata keçirilən islahatlar sayəsində keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub. Bütün bunların nəticəsində isə qurumun dövlət büdcəsinin formalaşmasında rolu xeyli dərəcədə artıb, iqtisadi göstəriciləri dinamik şəkildə yüksəlib. Cari il yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə bu barədə ətraflı danışılıb. Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə bütün sahələrdə, eləcə də gömrük sistemində aparılan uğurlu islahatlar sayəsində 2018-ci ilin proqnoz göstəriciləri ilə müqayisədə 2019-cu ildə gömrük ödənişlərindən faktiki olaraq 1 milyard 970 milyon manat əlavə vəsait toplanaraq dövlət büdcəsinə köçürülüb.

Ümumiyyətlə, ötən il nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə proqnozuna 4 milyard 408 milyon manat səviyyəsində əməl olunub, dövlət büdcəsinə 706,6 milyon manat əlavə vəsait köçürülüb və icra 119,1 faiz yerinə yetirilib. Hesabat dövrü ərzində vergitutma bazası əvvəlki illərlə müqayisədə eyni səviyyədə qalıb. Belə ki, ötən il güzəştlərin tətbiqi diqqətdə saxlanılıb, idxal mallarına 50 faiz həcmində vergi imtiyazı verilib.

"Kölgə iqtisadiyyatı" ilə bağlı mübarizədə gömrük xidmətində reallaşdırılan güzəştlər də mühüm rol oynayıb. Azərbaycan Respublikasına idxal olunan mallara tətbiq edilən gömrük rüsumları üzrə azadolmanın həcminin 65 faiz, əlavə dəyər vergisindən azadolmanın həcminin isə 35 faiz təşkil etməsi bunun bariz ifadəsidir.

Qeyd etməliyik ki, son iki ildə "kölgə iqtisadiyyatı"na qarşı mübarizə və risklərin idarə edilməsi mərkəzi tərəfindən məlumatların əvvəlcədən sistemə ötürülməsi ilə şəffaflıq təmin olunub, xüsusilə də ixracatçı ölkələrlə əlaqədar məlumatların sistemə yerləşdirilməsi nəticəsində sahibkarlar tərəfindən süni qiymətsalma tendensiyası azalıb. Başqa sözlə, sözügedən sahədə aparılan ciddi nəzarət tədbirləri hesabına 300 milyondan artıq əlavə vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin edilib.

### Azərbaycan gömrüyü keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub

Bu gün dövlət başçısının rəhbərliyi ilə ölkədə aparılan islahatların əhatə dairəsi daha da genişləndirilib. Biznes mühitinin yaxşılaşdırılması, gömrük xidmətində idarəetmənin keyfiyyətinin daha da yüksəldilməsi, azad rəqabət mühitinin yaradılması Azərbaycan dövlətinin əsas prioritetləri sırasında yer alıb. Uğurlu iqtisadi islahatlar kontekstində gömrük xidmətində gerçəkləşdirilən islahatlar da xarici ticarət fəaliyyəti iştirakçılarının aktivliyini artırıb, biznes mühitinin əlverişliliyi daha da yaxşılaşdırılıb, rəqabətlilik qorunub saxlanılıb, şəffaflıq təmin edilib, eyni zamanda, dövlət büdcəsinə gömrük ödənişləri üzrə daxilolmaların artırılmasına nail olunub.

Həyata keçirilən islahatların məntiqi nəticəsi kimi, hazırda beynəlxalq təcrübəyə istinadən gömrük orqanlarının etibarını qazanan şəxslərə münasibətdə sadələşdirilən gömrük rəsmiləşdirilməsini və digər imtiyazları özündə ehtiva edən müxtəlif proqramlardan səmərəli istifadə olunur. Mövcud proqramların mahiyyətini dövlət-özəl sektor tərəfdaşlığı, gömrük orqanlarının biznes subyektləri ilə qarşılıqlı əlaqələri təşkil edir.

Gömrük sərhədindən keçirilən malların bəyan edilməsinin sadələşdirilmiş qaydasından istifadə edilməsi üçün gömrük sərhəd buraxılış məntəqələrində çoxkanallı buraxılış sistemlərindən – «Yaşıl dəhliz», «Mavi dəhliz», «Sarı dəhliz» və «Qırmızı dəhliz» rejimlərindən istifadə olunur.

Son dövrlərdə bununla bağlı münasibətlər «Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün «Yaşıl dəhliz» və digər buraxılış sistemlərindən istifadə Qaydaları» ilə tənzimlənir. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 21.05.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir; həmçinin Prezidentin 21.12.2018-ci il tarixli Fərmanı ilə «Xarici ticarət iştirakçılarının «Yaşıl dəhliz» buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi,

həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası» təsdiq olunmuşdur.

«Yaşıl dəhliz» – əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləmdirilməsinin nəticələrinə uyğun olaraq, gömrük sərhəd buraxılış məntəqələrində müvafiq məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük proseduruna uyğun gömrük ərazisinə buraxılışını nəzərdə tutan buraxılış sistemidir.

«Mavi dəhliz» – gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılışından sonra gömrük nəzarəti formalarının tətbiqini ehtiva edən buraxılış sistemidir.

«Sarı dəhliz» – malların və nəqliyyat vasitələrinin xüsusi icazə və digər hüquqmüəyyənedici sənədlərlə müşayiət olunmasının yoxlanmasını və gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemini ehtiva edir.

«Qırmazı dəhliz» isə gömrük məqsədləri üçün lazım olan məlumatların və sənədlərin, eləcə də malların və nəqliyyat vasitələrinin, habelə tələb olunan hallarda şəxsin yoxlanmasını nəzərdə tutan buraxılış sistemi deməkdir.

Qeyd edək ki, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə zamanı şəxslərə gömrük nəzarətinin sadələşdirilmiş formaları tətbiq edilməklə müəyyən üstünlüklər verilir. Belə bir buraxılış sistemindən daimi hüququn əldə olunması ilə əlaqədar 2019-cu il fevral ayının 1-dən daxil olan müraciətlər əsasında 500-dən artıq xarici ticarət iştirakçısına həm idxalda, həm də ixracda mövcud sistemdən istifadəyə icazə verilib.

Yeri gəlmişkən, "Yaşıl dəhliz" və "bir pəncərə" kimi sistemlərin tətbiqi ticarətin asanlaşdırılmasına, tranzit yüklərin daşınmasının sürətləndirilməsinə, eyni zamanda,"kölgə iqtisadiyyatı"na qarşı mübarizədə öz müsbət təsirini göstərib. Belə ki, dövlət başçısının "kölgə iqtisadiyyatı"na qarşı mübarizənin gücləndirilməsi barədə müvafiq icra orqanlarına verdiyi tapşırıqların yerinə yetirilməsinə dair çağırışlara artıq biznes subyektlərinin də qoşulması aparılan xarici ticarət əməliyyatları üzrə uçot və hesabatlılığın düzgün bəyan edilməsini şərtləndirib, dövlət büdcəsinə qanunla müəyyənləşdirilən vergilərin və gömrük rüsumlarının vaxtında və artıqlaması ilə ödənilməsi təmin olunub. Görülən tədbirlər nəticəsində Dövlət Gömrük Komitəsində son iki ildə idxal-ixrac əməliyyatları üzrə şəffaflığın reallaşdırılması ilə beynəlxalq iqisadi münasibətlər kontekstində illik ticarət dövriyyəsi böyük həcmdə artıb ki, bu da "güzgülü statistik" uçotun aparılmasına əlverişli şərait yaradır.

Eyni zamanda, "Yaşıl dəhliz" dünyada ilk olmaqla yanaşı, həm də ən modern layihələrdən biri kimi qəbul olunur və sahibkarlar tərəfindən yüksək dəyərləndirilir. Çünki bu layihənin həyata keçirilməsi sayəsində iş adamlarına məxsus kassalarda on milyonlarla əlavə vəsaitin gəlir olaraq qalması gerçəkləşir. Eyni zamanda, onlar logistika və anbar xərclərindən azad olunurlar. Digər tərəfdən, şəffaflığın tam təmin olunmasına əlverişli şərait yaranır. Belə ki, qanuni ticarətlə məşğul olan sahibkarlar gömrük orqanlarına gəlmədən və heç bir gömrük məmuru ilə təmasa girmədən bütün əməliyyatlarını elektron şəkildə idarə edir və rəsmiləşdirməni yekunlaşdırırlar.

Xatırladaq ki, layihə çərçivəsində sahibkarlara 4 milyondan artıq xidmət göstərilib.

Gömrük işi sahəsində yeni layihələrin reallaşdırılması çərçivəsində elektron xidmətlərin tətbiqinə də daha çox diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, artıq gömrük orqanları tam elektron bəyanetmə sistemində fəaliyyət göstərir, həmçinin informasiya texnologiyalarının daha da genişləndirilməsi hesabına tezliklə mobil gömrük həllərinin reallaşdırılmasına da başlanılacaq.

Qaçaqmalçılıqla bağlı və gömrük hüquqpozmalarına qarşı ciddi mübarizə tədbirləri də müsbət nəticələrlə müşahidə olunub. Belə ki, keçən il ərzində gömrük hüquqpozmalarına qarşı mübarizə genişləndirilib və 13 min 443 hüquqpozma faktı aşkarlanıb. Onlardan 866-sı cinayət xarakterli faktlar olub ki, bunun da əksəriyyəti narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlıdır. Yeri gəlmişkən, Gömrük Komitəsi tərəfindən hesabat dövründə 2 tondan çox narkotik vasitə aşkarlanaraq dövriyyədən çıxarılıb. Qaçaqmalçılıq yolu ilə gətirilərkən tutulan malların ümumi dəyəri isə 300 milyon dollardan artıq olub.

Ölkədə aparılan islahatlardan danışarkən, iki məqamı da xatırlatmaq istərdik. Dövlət başçısının yol infrastrukturu ilə bağlı tapşırıqlarına uyğun olaraq, yolların yenidən qurulması tranzit potensialının əvvəlki illərlə müqayisədə 2 dəfədən çox artmasını şərtləndirib. Sərhəd-keçid məntəqələrində sıxlığın aradan qaldırılması məqsədilə məntəqələrin yeni avadanlıqla təchiz edilməsi, tır və minik avtomobillərinin rahat keçidinin təmin etmək üçün yeni rentgen qurğularının quraşdırılması da ticarət dövriyyəsinin sürətlənməsinə əlverişli şərait yaradıb. Belə vəziyyət, eyni zamanda, ölkəmizə turist axının güclənməsinə müsbət təsir göstərib.

Həmçinin qeyd edək ki, gələcəkdə həm ixrac və idxalı, həm də tranzit potensialını qarşılamaq məqsədilə respublikamızın istər qərb, istərsə də şimal istiqamətlərində artıq yeni keçid məntəqələrinin tikilməsinə başlanılıb və bu işlər cari ildə də davam etdiriləcək.

Müasir dövrdə gömrük sistemində şəffaflığın təmin olunması, hüquqi tənzimlənmə kontekstində idarəçiliyin təkmilləşdirilməsi, elektron xidmətlərin sayının artırılması və digər sahələrdə institusional islahatların əhatə dairəsinin genişləndirilməsi, həm də xidmət mədəniyyətinin yüksəldilməsində, xarici ticarət iştirakçılarında könüllü riayət prinsiplərinin formalaşdırılmasında mühüm rol oynayıb.

**Qulu NOVRUZOV,**
**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, hüquq üzrə fəlsəfə doktoru, dosent.**
e-mail: www.acca.gov.az

**İstifadə edilmiş mənbələr:**

1. Əliyev E.Ə., Novruzov Q.N. Azərbaycan Respublikasının gömrük hüququ: anlayışı və predmeti//Nəqliyyat hüququ. Bakı, 2019, № 2, s. 27-35.
2. Бекяшев К.А., Моисеев Е.Г. Таможенное право. Учебник. М., 2010,с. 8-9.
3. Gömrük işinin təşkili: iqtisadi və hüquqi əsaslar / Əliyev E.Ə., Əliyev V. İ., Gülmalıyev Ü.S. Bakı, 2015, 816 s.
4. www.xalqqazeti.com/Vaqif Bayramov
5. www.e-qanun.az
6. www.customs.gov.az; dgk.gov.az

# ŞƏFFAFLIQ – AZƏRBAYCANIN MÜASİR VERGİ SİYASƏTİNİN ƏSAS CƏHƏTLƏRİNDƏN BİRİ KİMİ

**Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bütün tarixi dövrlərdə vergi mövzusu dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilmişdir. Əlbəttə, dövlət tipi və ictimai quruluşun forması bu məsələnin ümumi dövlət siyasətində əsas və ya fakültativ rolda çıxışını şərtləndirmişdir. Məsələn, yaxın tariximizə əsaslanmaqla deyə bilərik ki, planlı dövlət təsərrüfat sisteminə malik olmuş keçmiş SSRİ-də vergi institutu elə də mühüm iqtisadi alət kimi diqqət çəkməmişdir. Çünki ölkənin iqtisadi-təsərrüfat sistemi, demək olar ki, bütünlüklə dövlət mülkiyyətində olduğundan, vergi yığımı elə də ciddi önəm daşımamışdır. Lakin bu da həqiqətdir ki, dövlətlərin təşəkkül tapdığı və cəmiyyətin siniflərə bölündüyü vaxtlardan başlayaraq vergi yığımı siyasi-hüquqi sistemin maliyyə ehtiyatlarının yaradılmasının əsas mənbəyi olmuşdur. İngilis iqtisadçısı S.Parkinsonun sözləri ilə desək, vergitutma dünyanın özü qədər qədimdir. Məşhur filosof Adam Smit isə hesab edirdi ki, vergilər onu ödəyənlərin heç də köləlik deyil, əslində azadlıq rəmzidir. Bu baxımdan sivil cəmiyyətlərin və dövlətlərin vergi sistemi yaradılarkən, ondan, ilk növbədə, iqtisadi siyasətin məqsədləri üçün istifadə edilir. Burada ulu öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi "Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" fikrinin müdrikliyini bir daha aydın şəkildə görə bilirik.

Vergi siyasətinin əsas məqsədi, şübhəsiz, vergilərin mahiyyəti və funksiyaları ilə sıx bağlıdır və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınması, habelə büdcə vasitəsi ilə onun yenidən bölüşdürülməsində ifadə olunur. Belə bir siyasətin normativləşdirilməsi isə müvafiq qanunvericilik aktlarının qəbulu yolu ilə həyata keçirilir ki, bu da öz əksini dövlətin ümumi iqtisadi inkişaf proqramlarında, iqtisadi (maliyyə) təhlükəsizliyi doktrinasında və s. kimi mühüm konseptual sənədlərdə tapır. Vergi siyasətinin cari dövr üzrə mənzərəsi isə, adətən, dövlət büdcəsi haqqında illik qəbul edilən qanunla formalaşır.

Onu da xatırladım ki, vergi siyasətinin məzmunu hər bir ölkənin ümumi iqtisadi inkişafı və dövlətin tipi ilə bilavasitə bağlıdır. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sosialyönlü bazar iqtisadiyyatının formalaşdırılması, müasir dünya iqtisadiyyatına inteqrasiya istiqamətində aparılan uğurlu iqtisadi siyasət

çərçivəsində çevik vergi prinsipləri həyata keçirilir. Məhz bunun nəticəsidir ki, respublikamız dünyanın iqtisadi və maliyyə seqmentlərində nəzərə çarpan çətinliklərə, böhranlara baxmayaraq, artıq xeyli müddətdir ki, əsas iqtisadi və sosial göstəricilərə görə dünya ölkələri sırasında öncül yerlərdə qərarlaşmışdır. Məsələn, "Doing Business" hesabatında respublikamız biznes mühitinə görə dünya miqyasında 25-ci yerdədir. Son hesabatda Azərbaycan 20 ən islahatçı ölkə sırasında yer almışdır. Bundan başqa, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə dünyada 18-ci yerdə, polis orqanlarına əhali tərəfindən olan inamın səviyyəsinə görə 30-cu yerdə qərarlaşmışdır. Hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan 10-cu, rəhbərliyin dəyişikliklərə, yəni, islahatlara meyillilik səviyyəsinə görə dünyada 5-ci yerdədir.

Bu gün Azərbaycan Respublikasında dövlət vergi orqanları tərəfindən ortamüddətli perspektivdə stimullaşdırıcı vergi siyasəti həyata keçirilməklə, iqtisadi artımın sürətləndirilməsi reallaşdırılır. Eyni zamanda, artıq ardıcıl xarakter daşıyan islahatlar da şəffaf vergi sisteminin qurulmasına, cəlbedici vergi mühitinin formalaşdırılmasına, inzibatçılığın keyfiyyətcə yüksək səviyyəyə qaldırılmasına xidmət edir. Məqsəd isə ölkədə iqtisadi artımı şərtləndirən mövcud əlverişli şəraitin uzunmüddətli perspektiv üçün davamlılığının və etibarlılığının gerçəkləşdirilməsinə nail olmaqdır. Bu sahədə dövlət vergi orqanlarının üzərinə çox mühüm vəzifələr düşür. İqtisadiyyat naziri M.Cabbarov 2018-ci il fevralın 13-də Bakı şəhərində "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda keçirilən konfransdakı çıxışında demişdir ki, vergi ödəmələrinin həcminin artırılması strategiyasının ən doğru yolu vergitutma bazasının genişləndirilməsi və vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı inam atmosferinin təmin edilməsidir: "Vicdanlı vergi ödəyicisi ilə qeyri-vicdanlı davranan ödəyici arasında fərq qoyulmalıdır. Vicdanlı vergi ödəyicisinin səhv etməyə haqqı var. Vergi orqanının vəzifəsi isə bu səhvin başvermə anını gözləmək deyil, onun bütün vasitələrlə qarşısını almaqdır. Belə yanaşma "vergi ödəyicisinə göstərilən xidmətlər" anlayışına yenidən baxılmasını və genişləndirilməsini tələb edir. Bu, eyni zamanda, biznesin təsis edilməsi və reallaşdırılmasına dəstək göstərilməsini də şərtləndirməlidir".

Yeri gəlmişkən, son illərdə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin dairəsi xeyli genişləndirilmiş, kütləviliyi təmin edilmiş, vergi bəyannamələrinin təkmilləşdirilməsi, vergilərin vaxtında ödənilməsi, vergi borclarının yaranmaması üçün profilaktik işlərin təşkili, vergi ödəyicilərinə xidmətin forma və metodlarının sadələşdirilməsi, xidmət sahəsində çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s. istiqamətlər üzrə xeyli mühüm nailiyyətlər əldə olunmuşdur.

Respublikamızın sosial-iqtisadi inkişafında əldə edilən uğurlarda, şübhəsiz ki, vergi daxilolmalarının xüsusi rolu var və bu, dövlət başçısı tərəfindən yüksək qiy-

mətləndirilir. Vergilər hazırkı dövrdə Azərbaycanın iqtisadi inkişafını, biznesin idarə edilməsi şərtlərini müəyyənləşdirən əsas idarəetmə vasitələrindən birinə çevrilmişdir. Vergilər Nazirliyi tərəfindən ölkədə biznes münasibətlərində üfüqi əməkdaşlıq mühitinin yaradılması qarşıya mühüm vəzifə kimi qoyulmuşdur. Bununla bağlı Vergilər Nazirliyi tərəfindən Avropa ölkələrinin qabaqcıl təcrübəsi öyrənilmiş və milli vergi sisteminin bu təcrübəyə uyğunlaşdırılması istiqamətində ciddi işlər görülmüşdür. "Transfer qiymətlərinin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək" adlı Tvinninq layihəsinin uğurla icrası bunun bariz ifadəsidir.

Dövlətimizin müasir vergi siyasəti vahid iqtisadi-maliyyə bazarının fasiləsiz fəaliyyətinin, həm dolayı, həm də birbaşa vergitutmada harmoniyanın təmin edilməsinə, korporotiv vergitutma sisteminin təkmilləşməsinə, vergidən yayınma halları ilə mübarizənin səmərəli təşkilinə yönəlmişdir. Vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması, vergi ödəyiciləri arasında vergitutma rejiminin bərabərləşdirilməsi, respublikanın ixrac potensialının inkişafının təmin edilməsi, vergi sisteminin vahid uçot-informasiya sisteminin yaradılması, vergi və qeyri-vergi ödənişlərinin uyğun səviyyəsinin artırılması, vergi ödəyicilərinin gəlirləri üzərində səmərəli ictimai nəzarət mexanizminin tətbiqi, vergi öhdəliklərinin könüllü icrası üzərində nəzarət sisteminin təkmilləşdirilməsi, vergi hüquq pozuntusu hallarına görə məsuliyyətin həllinə diferensial yanaşmanın reallaşdırılması və s. dövlətimizin müasir vergi siyasətinin əsas amilləridir. Bütün bunlar isə ölkənin təkcə qlobal reytinqinin deyil, həm də milli iqtisadiyyatının inkişafı üçün investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətində tədbirlərin görülməsini şərtləndirir. Eyni zamanda, milli iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması ilə yanaşı, ölkənin iqtisadi-maliyyə təhlükəsizliyinin də lazımi səviyyədə təmin edilməsinə əlverişli şərait yaradır.

Respublikamızda ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən islahatlar onu deməyə əsas verir ki, bu gün dövlətimiz tərəfindən aparılan vergi siyasəti kataklizm olmadan, ağrısız, mərhələli şəkildə, üstəlik, yüksək nəticələrlə müşahidə olunur. Vergilər Nazirliyi ilə sahibkarlıq subyektləri arasında yeni və möhkəm təmələ əsaslanan münasibətlərin yaradılması da bunun bariz ifadəsidir.

Vergi sistemində idarəetmənin təşkili prinsiplərinə yenidən baxılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi, vergi ödəyicilərinin rastlaşdıqları problemlərin operativ həlli üçün apellyasiya sisteminin yenidən qurulması, vergi müvəkkili və ombudsmanı xidmətlərinin təşkili ilə bağlı görülən tədbirlər, həm də şəffaflığın təminatının təzahürüdür. Respublikamızda artıq hüquqi

şəxslərin dövlət qeydiyyatının cəmi 1 prosedurla 20 dəqiqə ərzində həyata keçirilməsinə başlanılmışdır. Vətəndaşların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı məlumatın alınması üçün yeni elektron xidmət istifadəyə verilmişdir. Vergi Məcəlləsinə edilən dəyişikliklər sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, mövcud və yeni veriləcək vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi kimi mühüm istiqamətləri əhatə edir.

Ölkənin ticarət və ictimai iaşə xidməti sektorlarında yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi, kassa çekinin bütöv və qanuni tətbiqinə nail olunması da vergi münasibətlərində şəffaflığın təmin edilməsini şərtləndirir. Bu baxımdan hazırda respublikamızda ƏDV daxilolmalarında rast gəlinən çatışmazlıqların aradan qaldırılması sahəsində həm inzibati, həm də stimullaşdırıcı tədbirlərin görülməsi davam edir. Belə ki, Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli Qanunu ilə Vergi Məcəlləsinə əlavə edilən 165.5-ci maddəyə əsasən, fiziki şəxs olan istehlakçı pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə ödənilmiş ƏDV-nin müəyyən faizini (nağd əməliyyatlar üzrə 10 faizini, nağdsız əməliyyatlar üzrə isə 15 faizini) geri almaq hüququna malikdir. Bundan ötrü nəzarət-kassa aparatının çekində vergi ödəyicisinin adı, çekin vurulma tarixi və s. məlumatlarla yanaşı, malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən, ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği), malın sürətli məlumat kodu (ştrix-kod, Quick Response Code) da öz əksini tapmalıdır. Respublikamızda fəaliyyət göstərən ticarət və ictimai iaşə obyektlərində bu tələblərə cavab verən nəzarət-kassa aparatlarının quraşdırılması işi davam etdirilir.

Son illərdə respublikamızda vergi öhdəliklərinin icrasında könüllü əməletməyə maksimum nail olunması, vətəndaşların bu sahədə aktiv iştirakının təmin edilməsi, operativ nəzarət tədbirlərinin minimuma endirilməsi, rəqəmsal ödənişlərin genişləndirilməsi vergi islahatlarının əsas istiqamətlərini təşkil edir. Müasir texnologiyalar daha keyfiyyətli vergi xidmətinin göstərilməsinə, sahibkarlıq subyektlərində şəffaf nəzarət sisteminin qurulmasına müsbət təsir göstərir.

Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında dəfələrlə ictimai nəzarətin əhəmiyyətindən danışmış, vətəndaşların diqqətinə dövlət idarəçiliyi prosesində fəal iştirakın, mövcud nöqsan və çatışmazlıqlar barədə bilavasitə ona məlumat verilməsinin vacibliyini vurğulamışdır. Düşünürük ki, vergi sahəsində ictimai nəzarəti artıran əlavə stimullaşdırıcı innovativ alətlərin tətbiqi də şəffaflığın və qanunçuluğun təmin edilməsi işinə kömək edəcəkdir.

**Mirəli KAZIMOV,**
**iqtisad üzrə fəlsəfə doktoru, dosent.**

# AZƏRBAYCAN BU GÜN DÜNYADA ƏN İSLAHATÇI VƏ SABİT ÖLKƏ KİMİ TANINIR

**Ötən ilin büdcəsinin vacib elementlərindən biri də ölkə Prezidentinin müvafiq fərmanı ilə icra edilən fiziki şəxslərin problemli kreditlərinin həlli məsələsidir. Bununla əlaqədar 2019-cu ilin dövlət büdcəsində əhəmiyyətli tədbirlər həyata keçirilib və 640 milyon manat məbləğində vəsaitin büdcədən müvafiq bankların hesablarına köçürülməsi təmin olunub. Nəticədə 593 min fiziki şəxs əziyyət çəkdiyi, kreditlərlə əlaqədar dövlətdən böyük bir dəstək alıb.**

Ümumiyyətlə, dövlət büdcəsi qarşısında duran bütün vəzifə və funksiyalar – həm müdafiə, milli təhlükəsizlik, həm də sosial, mədəniyyət, idman sahələrində bütün beynəlxalq tədbirlərin ahəngdar maliyyələşdirilməsi təmin olunub. Xəzinədarlıq orqanları tərəfindən, ilk növbədə, sosial ödənişlərin vaxtında tam icrası yerinə yetirilib. Azərbaycan tarixində xərc baxımından ən böyük büdcə olan 2020-ci il büdcəsinin hazırlanması ilə əlaqədar da müvafiq tədbirlər görülüb.

Hazırda Azərbaycan gömrüyü gömrük nəzarətinin daha səmərəli təşkili, gömrük sisteminin yenidən qurulması və maddi-texniki bazanın möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi, yerlərdə bilikli və bacarıqlı kadrların işə qəbul olunması, bir sözlə, həyata keçirilən islahatlar sayəsində keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub. Bütün bunların nəticəsində isə qurumun dövlət büdcəsinin formalaşmasında rolu xeyli dərəcədə artıb, iqtisadi göstəriciləri dinamik şəkildə yüksəlib. Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə gömrük sistemində aparılan uğurlu islahatlar hesabına 2018-ci ilin proqnoz göstəriciləri ilə müqayisədə 2019-cu ildə gömrük ödənişlərindən faktiki olaraq 1 milyard 970 milyon manat əlavə vəsait toplanaraq dövlət büdcəsinə köçürülüb.

Ümumiyyətlə, ötən il nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə proqnozuna 4 milyard 408 milyon manat səviyyəsində əməl olunub, dövlət büdcəsinə 706,6 milyon manat əlavə vəsait köçürülüb və icra 119,1 faiz yerinə yetirilib. Hesabat dövrü ərzində vergitutma bazası əvvəlki illərlə müqayisədə eyni səviyyədə qalıb. Belə ki, ötən il güzəştlərin tətbiqi diqqətdə saxlanılıb, idxal mallarına 50 faiz həcmində vergi imtiyazı verilib.

Gömrük xidmətində həyata keçirilən islahatlar bu xidmət sahəsində “kölgə iqtisadiyyatı”nın həcminin kəskin azalmasına müsbət təsir göstərib. Azərbaycan Respublikasına idxal olunan mallara tətbiq edilən gömrük rüsumları üzrə azadolmanın həcminin 65 faiz, əlavə dəyər vergisindən azadolmanın həcminin isə 35 faiz təşkil etməsi bunun bariz ifadəsidir.

Ümumiyyətlə, “kölgə iqtisadiyyatı”na qarşı mübarizə və risklərin idarə edilməsi mərkəzi tərəfindən məlumatların əvvəlcədən sistemə ötürülməsi ilə şəffaflıq təmin olunub, xüsusilə də ixracatçı ölkələrlə əlaqədar məlumatların sistemə yerləşdirilməsi nəticəsində sahibkarlar tərəfindən qiymətazaltma tendensiyası azalıb. Başqa sözlə, sözügedən sahədə aparılan ciddi nəzarət tədbirləri hesabına 300 milyondan artıq əlavə vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin edilib.

Aparılan islahatların məntiqi nəticəsi kimi, hazırda beynəlxalq təcrübəyə istinadən gömrük orqanlarının etibarını qazanan şəxslərə münasibətdə sadələşdirilən gömrük rəsmiləşdirilməsini və digər imtiyazları özündə ehtiva edən müxtəlif proqramlardan səmərəli istifadə olunur. Mövcud proqramların mahiyyətini dövlət-özəl sektor tərəfdaşlığı, gömrük orqanlarının biznes subyektləri ilə qarşılıqlı əlaqələri təşkil edir. Bu cür sadələşdirmə proqramlarının ölkəmizdə tətbiqi məqsədilə Azərbaycan Prezidentinin 21 dekabr 2018-ci il tarixli fərmanı ilə “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası” təsdiq olunub.

Yeri gəlmişkən, 2019-cu ildə 530-a yaxın xarici iqtisadi fəaliyyət iştirakçısının həm idxalda, həm də ixracda “Yaşıl dəhliz”lə bağlı statusu tanınıb və qısa müddətə illik 8 milyard dollara yaxın ticarət dövriyyəsi həyata keçirilib.

Xatırladım ki, bu layihə dünyada bir ilk olmaqla yanaşı, ən modern layihələrdən biri kimi qəbul edilir. Layihənin tətbiqilə sahibkarlar logistika və anbar xərclərindən azad olunurlar. Qanuni ticarət fəaliyyəti göstərən sahibkarlar gömrük orqanlarına gəlmədən və heç bir gömrük məmuru ilə təmasa girmədən bütün əməliyyatları elektron qaydada idarə edir və rəsmiləşdirməni başa çatdırırlar.

2019-cu ildə qaçaqmalçılıqla bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə genişləndirilib və 13 min 443 hüquqpozma faktı aşkar edilib. Onlardan 866-sı cinayət xarakterli faktlar olub ki, bunun da əksəriyyətini narkotik vasitələrin qanunsuz dövriyyəsi təşkil edib. Ümumiyyətlə, ötən il ərzində qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilərkən tutulan malların ümumi dəyəri 300 milyon dollardan artıq olub. Ötən il maliyyə sektorunda həyata keçirilən islahatlar nəticəsində müşahidə olunan sabitlik və müsbət trendlər də ölkənin sürətli inkişafında önəmli rol oynayıb. Bu, Mərkəzi Bankın fəaliyyətində daha aydın nəzərə çarpıb. Xatırladaq ki, bu bankın vəzifələrinə görə, onun başlıca funksiyası iqtisadiyyatda qiymət sabitliyinin təmin olunmasıdır. İnflyasiya göstəricisinin 2,6 faiz səviyyəsində qərarlaşması da bunun bariz ifadəsidir. Bu, MDB məkanında ən aşağı inflasiya səviyyələrindən biridir. Belə bir göstərici olduqca mürəkkəb bir şəraitdə, böyük həcmli sosial paket, kreditlərin restrukturizasiyası, o cümlədən, dünyada ərzaq qiymətlərinin 12 faiz bahalaşması fonunda əldə edilib.

O da qeyd edilməlidir ki, Azərbaycan iqtisadiyyatı çox əlaqəli bir iqtisadiyyatdır və belə bir mühitdə, başqa sözlə, pul kütləsi həcminin təxminən 24 faiz qalxdığı bir şəraitdə aşağı inflyasiyaya nail olunub.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə 2019-cu ildə Azərbaycanda adambaşına düşən ümumi daxili məhsulun 4800 dollar, valyuta ehtiyatlarının 51 milyard dollar, ixracın 19,6 milyard dollar, sərmayə qoyuluşunun 13,5 milyard dollar təşkil etdiyini bildirib.

Makroiqtisadi vəziyyətin sabit qalması üçün bu il də əlavə tədbirlər görüləcəyini deyən dövlətimizin başçısı vurğulayıb ki, Mərkəzi Bank 2019-cu il ərzində öz valyuta ehtiyatlarını artırıb: "Mənə verilən məlumata görə, Mərkəzi Banka 630 milyon dollar səviyyəsində vəsait daxil edilib. Bütövlükdə, bankın 6,2 milyard dollar səviyyəsində valyuta ehtiyatları var".

Hazırda valyuta ehtiyatlarımız xarici borcu 5 dəfədən çox üstələyir. Keçən il Mərkəzi Bank, Dövlət Neft Fondu və Maliyyə Nazirliyi tərəfindən bu qurumlara aid ehtiyatlar artırılıb və əhəmiyyətli gəlirlilik müşahidə edilib.

Hesabat dövrü pul siyasətinin yumşaldılması ilə də yadda qalıb. Belə ki, son iki ildə xüsusi olaraq biznes kreditləri üzrə faiz dərəcəsi 5 faiz aşağı düşüb, başqa sözlə, təxminən 16 faizdən 11 faizə enib.

Ölkəmizin xarici kreditor mövqeyi də getdikcə yaxşılaşıb. Azərbaycanın xaricdə yerləşdirdiyi xarici vəsaitlərin həcmi 100 milyard dollardan yuxarı olmaqla, öhdəliklərdən iki dəfə çoxdur. Bu, onu göstərir ki, respublikada möhkəm makroiqtisadi sabitlik və dayanaqlılığın əsasları yaradılıb və bu, iqtisadi artımda və iqtisadi inkişafda mühüm rol oynamağa başlayıb.

Bununla əlaqədar əldə edilən göstəricilərə də nəzər salaq. Təsərrüfat subyektlərinə verilən kreditlər 11 faiz, istehlak kreditləri, əhaliyə verilən kreditlər təxminən 20 faizdən bir qədər şox artıb. Cari ildə isə iqtisadiyyatın, xüsusilə də kişik müəssisələrin mikrokreditləşmə vasitəsilə aşağı, uzunmüddətli kreditlərə əlçatanlığının artırılmasına nail olmaq nəzərdə tutulub.

Burada bir məsələni də xatırlatmaq istərdim. Ötən il manatla müddətli əmanətlər 27 faiz artıb. Bu, onu göstərir ki, sosial sahədə atılan addımlar nəinki əhalinin yüksək istehlak səviyyəsini təmin edib, eyni zamanda, yığımlarında da önəmli rol oynayıb.

Ödəniş sistemində əsas məqsəd, təbii ki, qeyri-nağd ödənişlərin səviyyəsinin artırılması, nağd ödənişlərin isə məhdudlaşdırılmasıdır. Keçən il milli ödəniş sistemi vasitəsilə ödənişlərin həcmi 10 faiz, sayı isə 41 faiz artıb. O cümlədən, ödəniş kartlarının sayı 13 faiz və kart ödənişlərinin sayı 29 faiz, kartlar vasitəsilə qeyri-nağd ödənişlərin həcmi 57 faiz, elektron-bankinq, elektron ticarət üzrə ödənişlər isə 93 faiz yüksəlib.

Ötən il sosial müdafiənin gücləndirilməsi məqsədilə mühüm tədbirlər görülüb və əhalinin 42 faizinin gündəlik gəlirlərinin artırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Bu, 1 milyon 350 min in-

sanın əmək haqqının yüksəlməsində özünü göstərib. Eyni zamanda, əhalinin gəlirlərinin nominal artım tempi 7,4 faiz təşkil edərək, orta illik inflyasiyanı (2,6 faiz) üstələyib. Orta aylıq əməkhaqqının artım tempi isə 16,4 faiz təşkil edib.

Hesabat dövründə əmək haqqı fondu 42,3 faiz artıb. Əmək haqqının sosial ədalət bölgüsünün göstəricisi olan median əməkhaqqı bir ildə 52 faiz yüksəlib. Pensiya islahatları nəticəsində isə minimum pensiyanın artımı ölkəmizi MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci yerə çıxarıb. Nəticədə, ölkədə orta pensiya 2019-cu ildə 15 faiz, ən həssas kateqoriya olan əlilliyə görə pensiya isə 22 faiz artıb. Sosial müavinətlər və təqaüdlərlə bağlı islahatlar üzrə də böyük bir proqram reallaşdırılaraq, 1,3 milyon insanı əhatə edib.

2019-cu ildə 19 növ sosial müavinət və təqaüdün elektron qaydada proaktiv şəkildə, vətəndaşın hər hansı bir müraciəti olmadan təyin edilməsinə başlanıb. Artıq həmin istiqamətdə 20 min təyinat gerçəkləşdirilib. Bu avtomatlaşma tədbirlərinin bu il ərzində davam etdirilməsi 200 min pensiya, müavinət və təqaüd təyinatının elektron qaydada aparılmasına imkan verəcək.

Ötən il sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına da daim həssaslıqla yanaşılıb. Ayrı-ayrı proqramların icrası zamanı bu məsələ xüsusi diqqətdə saxlanılıb. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirib. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılıb, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verib. Son 16 ildə Azərbaycanda 2,2 milyondan çox yeni iş yerinin yaradılması, keçən il isə 98 min yeni iş yerinin açılması bunun bariz ifadəsidir.

İş yerlərinin yaradılması, özünüməşğulluğun təmin olunması ölkədə işsizliyin kəskin şəkildə azalaraq, 5 faizə enməsi ilə nəticələnib. Eyni zamanda, Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılıb, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunub.

Makroiqtisadiyyat, fiskal və monetar siyasətlə eimi və praktiki baxımdan uzun illər məşğul olduğumdan deyə bilərəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bundan sonra da daha böyük uğurlara imza atacaq, dövlətimiz möhkəmlənəcək, iqtisadiyyatımız, maliyyə təminatımız güclənəcək, əhalinin yaşayış səviyyəsi gündən-günə daha da yaxşılaşacaq.

**Əvəz ƏLƏKBƏROV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti "Maliyyə və Maliyyə institutları" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, BMT-nin Sülh səfiri.**

# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ MÜASİRLƏŞMƏ YOLUNDADIR

**2019-cu il Azərbaycanda cəmiyyət həyatının bütün sahələri kimi, ali təhsilimiz üçün də məzmunun təkmilləşməsi və formanın müasirləşməsi istiqamətində praqmatik addımların atılması və əhəmiyyətli uğurların əldə olunması ilə əlamətdar olmuşdur. Bu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən növbəti mərhələdə uğurla davam etdirilən uzaqgörən və düşünülmüş dövlət siyasətinin məzmununda ali təhsilin prioritet yer tutması nəticəsində mümkün olmuşdur.**

Fikrimizcə, 2019-cu il ali təhsilimiz üçün hər şeydən öncə Bakı Dövlət Universitetinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi və təntənəli yubiley mərasimində ölkə rəhbərinin proqram xarakterli çıxışı ilə yadda qalmışdır. Tarixi çıxışı zamanı dövlət başçısı qlobal çağırışlar və Azərbaycanın sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla təhsil işçiləri qarşısında konkret vəzifələr qoymuşdur.

Eyni zamanda 2019-cu ilin mühüm hadisələri sırasında bakalavriat səviyyəsi üzrə ixtisasların yeni təsnifatının təsdiq edilməsini, orta ixtisas təhsili pilləsini bitirən subbakalavrların ali təhsil müəssisələrinə imtahansız qəbulunun həyata keçirilməsini, ali təhsil müəssisələrində dövlət sifarişi hesabına oxuyan tələbələrin sayının 2018-ci illə müqayisədə 66 faiz, təqaüd yerlərinin 16 min vahid artırılmasını, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrasına start verilməsini qeyd etmək olar.

### Universitetin dəyişən mənzərəsi

Ali təhsil sistemində keyfiyyətcə yeni rəqabət mübarizəsi şərtlərinin bərqərar olması, universitetlərin missiyasının və inkişaf məqsədlərinin əhəmiyyətli dərəcədə dəyişməsi ali təhsil müəssisələri tərəfindən adekvat addımların atılmasını zəruri etmişdir. Bu kontekstdə Mingəçevir Dövlət Universitetində (MDU) son dövrlərdə həyata keçirilən kompleks tədbirlər həm milli və beynəlxalq ali təhsil məkanında baş verən trendlərə, həm də universitetin mövcud və potensial imkanlarına əsaslanmışdır.

Pedaqoji, mühəndislik, iqtisadiyyat və idarəetmə istiqamətləri üzrə yüksək ixtisaslı kadr hazırlığı aparılan universitetdə 2019/2020-ci tədris ili üzrə tələbə qəbulu planının dolmasında rekord göstərici qeydə alınmışdır. Hazırda MDU-da bakalavriat səviyyəsində 24 ixtisas, magistratura səviyyəsində 12 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. 2400-

dən çox tələbə və magistrantın təhsil aldığı universitetdə 200-ə yaxın professor-müəllim fəaliyyət göstərir.

Əsas hədəflərimiz ölkə rəhbəri tərəfindən qarşıya qoyulan tapşırıq və vəzifələri layiqincə yerinə yetirməklə regionda yerləşən ali təhsil müəssisəsini paytaxt universitetləri səviyyəsinə çatdırmaqdan, eləcə də MDU-nun Mingəçevir şəhəri və ətraf rayonların sosial-iqtisadi inkişafına töhfələr verməsini təmin etməkdən ibarətdir. Bu hədəflərə çatmaq üçün müasir və çevik universitet idarəetmə texnologiyalarından istifadə etməyə çalışırıq.

Yerləşdiyimiz regionun xüsusiyyətləri, real infrastruktur imkanları və mövcud kadr potensialı nəzərə alınmaqla, MDU-nun hərtərəfli inkişaf etdirilməsi üçün tədrisin keyfiyyətinin yüksəldilməsinə, elmi fəaliyyətin səmərəliliyinin artırılmasına, əməkdaşların maddi rifahının yaxşılaşdırılmasına, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinə diqqət yetiririk. Bu məqsədlə kollektivin hər bir üzvünün potensialından istifadəyə, innovativ tədris və təlim metodlarının tətbiqinə, universitet idarəçiliyində tələbələrin fəal iştirakına və ictimai nəzarətin təmin olunmasına çalışırıq.

**Universitet dəyərlərinə yeni baxış**

Dördüncü sənaye inqilabı, süni intellekt və blokçeyn texnologiyaları dövründə universitetin kadr hazırlığı və elmi tədqiqat fəaliyyəti ilə məhdudlaşmaması, yerləşdiyi regionda ümumi ekosistemin mühüm aktorlarından birinə çevrilməsi, eləcə də innovasiya istehsalçısı missiyasını öz üzərinə götürməsi zərurətini qəbul edirik.

Milli ali təhsilimizin və universitetlərin insan kapitalının formalaşmasındakı artan rolunu qəbul etdiyimiz, daim yeni təşəbbüslərə yüksək dəyər verdiyimiz və konkret hədəflər uğrunda çalışdığımız universitetdə tələbələrə xidmət etməkdən qürur duyuruq. MDU-nu seçən bütün gənclərə uğurlu və mənalı tələbə həyatı vəd edirik. Tələbələrimizə müasir dövrün çağırışlarına uyğun ali təhsil verməyə və onları əmək bazarının tələblərinə uyğun peşəkar kadrlar kimi yetişdirməyə çalışırıq.

**İdarəçilikdə ictimai iştirakçılıq**

Yüksək intellektli, dərin savadlı, geniş dünyagörüşlü və əsl vətənpərvər mütəxəssislər yetişdirməyi hədəflədiyimiz MDU-da idarəetmə prosesində tələbələrin bərabərhüquqlu iştirakına şərait yaradılmışdır. Belə ki, tələbələrimiz MDU Elmi Şurasında, fakültə elmi şuralarında, imtahan qərargahında və apelyasiya komissiyasında təmsil olunurlar.

Eyni zamanda valideynlərin, ictimaiyyət nümayəndələrinin, gənclər təşkilatlarının, kütləvi informasiya vasitələrinin və QHT-nin MDU-nun cari idarəetmə prosesi ilə yaxından tanış olmasına, fəaliyyətimizdə ictimai nəzarətin təmin olunmasına mühüm əhəmiyyət veririk. Universitetin idarə edilməsində şəffaflığın və ictimai hesabatlılığın təmin edilməsi məqsədilə ilk dəfə olaraq 2019-cu ilin

dekabrında MDU-nun İctimai Nəzarət Şurası yaradılmışdır.

**Struktur islahatları**

Son illər milli ali təhsil sisteminin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dünya ali təhsil məkanında baş verən dəyişikliklər və universitetlərin cəmiyyət həyatındakı missiyasının köklü şəkildə yenilənməsi universitetlərdə müasir idarəetmə metodlarının tətbiqini zərurətə çevrilmişdir. Bu kontekstdə idarəetmənin səmərəliliyinin yüksəldilməsi, qərar qəbuletmə və icra prosesində çevikliyin artırılması məqsədilə 2019-cu ildə MDU-da mövcud strukturun təkmilləşdirilməsi qərara alınmışdır.

Struktur dəyişiklikləri universitetdə tədris prosesinin daha səmərəli təşkilini, idarəetmə prosesində paralelliyin aradan qaldırılmasını, elmi fəaliyyətin səmərəliliyinin artırılmasını, innovasiyalar sahəsində işlərin daha effektiv əlaqələndirilməsini, beynəlxalq əməkdaşlığın genişləndirilməsini və ictimaiyyətlə əlaqələrin müasir tələblər səviyyəsində qurulmasını hədəfləyir. İslahatlar nəticəsində universitetdə Tədris şöbəsi, Magistratura və doktorantlarla iş şöbəsi, Elm və innovasiyalar şöbəsi, Beynəlxalq əməkdaşlıq ofisi, İnsan resursları şöbəsi, İctimaiyyətlə əlaqələr şöbəsi və dəftərxana yaradılmışdır.

**Əməkhaqlarında əhəmiyyətli artım**

Dövlət başçısının tapşırıqlarına əsasən universitet əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. Mövcud və potensial maliyyə imkanları təhlil edilməklə, 1 sentyabr 2019-cu il tarixdən MDU-da əməkdaşların aylıq əməkhaqqı orta hesabla 15 faiz artırılmışdır. Eyni zamanda universitet üzrə tədris prosesində iştirak edən professor və müəllim heyətinin saathesabı dərs üçün əməkhaqları 1 sentyabr 2019-cu il tarixdən təxminən iki dəfə artırılmışdır. Əməkdaşlarımız tərəfindən rəğbətlə qarşılanan əməkhaqqı artımları Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ali təhsil sahəsinə göstərilən yüksək diqqət və qayğının nəticəsində mümkün olmuşdur.

**Elmi fəaliyyətə innovativ yanaşma**

Universitetdə elmi tədqiqatların məzmununu təkmilləşdirməyi, nəticəyönümlü və ölçüləbilən elmi fəaliyyətin təşkilini hədəfləyirik. Bu məqsədlə, Təhsil Nazirliyi tərəfindən icra edilən "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" layihəsindən faydalanmağı nəzərdə tuturuq. İlk addım olaraq 2019-cu ildə layihə ekspertləri tərəfindən MDU-da "Beynəlxalq elmi jurnallarda məqalələrin yazılması" mövzusunda təlim seminarı keçirilmişdir.

2019-cu ilin dekabrında MDU-da keçirilən "Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda respublika elmi konfransı ali təhsil və elm ictimaiyyətin yüksək

diqqət və böyük marağına səbəb olmuşdur.

Orta təhsil müəssisələri ilə əməkdaşlığın inkişafına və şagirdlərin tədqiqat fəaliyyətinə cəlb olunmasına xüsusi əhəmiyyət veririk. Bu yöndə atılan ilk addımlardan biri kimi, Təhsil Nazirliyinin "Kiçik akademiya"lar proqramı çərçivəsində Mingəçevir Təbiət-Riyaziyyat və Humanitar Elmlər Təmayüllü liseylə birlikdə təşkil etdiyimiz "Elmin zirvəsinə gedən yol" mövzusunda elmi-nəzəri konfransı qeyd etmək olar.

**Qarşılıqlı faydalı tərəfdaşlıq konsepti**

Qarşımıza qoyulan hədəflərə çatmaq və MDU-nu yeni dövrün tələblərinə uyğun ali təhsil müəssisəsinə çevirmək məqsədilə ölkəmizin qabaqcıl universitetləri ilə qarşılıqlı faydalı əməkdaşlığın yaradılmasına mühüm önəm veririk. Bu konseptin reallaşdırılması istiqamətində ilkin mərhələdə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Texniki Universiteti ilə Anlaşma memorandumları imzalanmış və potensial əməkdaşlıq istiqamətləri razılaşdırılmışdır. İlk olaraq hər üç universitetlə tələbə və müəllim mübadiləsinə start verilməsi nəzərdə tutulmuşdur.

2019-cu ilin noyabrında MDU-da Azərbaycan Texniki Universiteti ilə birlikdə "Sosial-İqtisadi İnkişafın Dayanıqlı Enerji Təminatı: universitet - sənaye işbirliyi və innovativ kadr hazırlığı" mövzusunda I Regional elmi-texniki konfrans keçirilmişdir. Tədbirdə energetika sisteminin kadr təminatında universitetlərin rolu, energetikanın müasir problemləri və digər mövzularda müzakirələr aparılmış, potensial əməkdaşlıq imkanları müəyyən edilmişdir.

2019-cu ilin dekabrında MDU ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi arasında Anlaşma Memorandumu imzalanmışdır. Əməkdaşlığın MDU-da kadr hazırlığının modernləşdirilməsinə mühüm töhfələr verəcəyi, eləcə də İnnovasiyalar Agentliyi ilə Mingəçevir Yüksək Texnologiyalar Parkında birgə yaratdığımız "Simbioz" texnoloji biznes inkubatorun fəaliyyətində tələbə və müəllimlərimizin fəal iştirak edəcəyi qənaətindəyik. Bu əməkdaşlıq universitet – sənaye işbirliyinin yaradılması, MDU-nun startap ekosistemindəki iştirakının genişləndirilməsi, tələbə-gənclərin biznes ideyalarının və innovativ təşəbbüslərinin dəstəklənməsi baxımından böyük imkanlar vəd edir.

Eyni zamanda tələbələrimizdə təcrübi vərdişlərin inkişaf etdirilməsi və onların əmək bazarına daha yaxşı hazırlanması üçün Mingəçevir Sənaye Parkına mütəmadi ekskursiyalar təşkil edirik. Parkın rezidenti "Mingəçevir Tekstil" MMC-nin müvafiq əməkdaşları universitetimizdə tədris prosesinə fəal cəlb olunurlar.

**İctimai fəallıq**

BDU-nun 100 illik yubileyinə həsr olunan növbəti tədbirin 2019-cu ilin 30

sentyabrında MDU-da keçirilməsi professor-müəllim və tələbə heyətimiz üçün mühüm hadisə kimi yadda qalmışdır. Sevindici haldır ki, BDU-nun 100 illik yubileyi münasibətilə bu universitetin məzunları arasında elan edilmiş "BDU xatirələrdə" yazı müsabiqəsində MDU-nun əməkdaşı birinci yerə layiq görülmüşdür.

Ölkə rəhbəri tərəfindən elan olunmuş "Nəsimi ili" çərçivəsində MDU-da çoxsaylı tədbirlər keçirilmişdir. Kollektivimiz Nəsiminin 650 illik yubileyi münasibətilə Mingəçevirdə keçirilən ümumşəhər tədbirlərində də yaxından iştirak etmişdir. Universitetimiz Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Şamaxıda keçirilən "Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı"na qatılmışdır. MDU Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsünə də qoşulmuşdur.

### Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və könüllülük fəaliyyəti

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması əsas prioritetlərimizdəndir. Bu yöndəki fəaliyyətimizin nümunəsi kimi 24 dekabr 2019-cu ildə universitetimizdə "Vətənpərvərlik – Vətənə xidmətin ali zirvəsidir" mövzusunda tədbir keçirilmişdir. Mingəçevir Şəhər Gənclər və İdman İdarəsi və Mingəçevir Peşə məktəbi ilə birgə təşkil etdiyimiz tədbirin əsas məqsədi tələbə-gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onlarda dövlətimizə və milli-mənəvi dəyərlərimizə hörmət hissinin aşılanması olmuşdur. Aprel döyüşləri şəhidlərinin valideynlərinin, Aprel döyüşləri şəhidinin övladının və həmin döyüşlərin iştirakçılarının qatıldığı tədbirdə müstəqilliyimiz uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin böyük hörmət və ehtiramla anıldığı bildirilmiş, şəhidlərimizin keçdiyi şərəfli yolu öyrənməyin və təbliğ etməyin vacibliyi diqqətə çatdırılmışdır.

Paralel olaraq tələbələrimizin könüllülük fəaliyyətinə aktiv cəlb olunması üçün lazımi şəraiti yaradırıq. Bu istiqamətdə daha çox Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramının və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) "ASAN Könüllüləri" təşkilatının təqdim etdiyi imkanlardan faydalanırıq.

### "ASAN xidmət"lə birgə layihələr

MDU-da şəffaf idarəetmə mexanizminin yaradılması və tələbələrimizdə innovativ bacarıqların inkişafı baxımından "ASAN xidmət"lə əməkdaşlıqdan gözləntimiz çoxdur. Bu məqsədlə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun

tabeliyində olan Mingəçevir "Asan Həyat” Kompleksi ilə ilkin təmaslar qurulmuşdur. İlk addım olaraq, MDU "ASAN Könüllüləri” Təşkilatı və "Coca-Cola” fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən "ASAN İnkişaf Modeli - Qadınların işgüzar inkişafı” mövzusunda təlimlərə dəstək vermişdir.

**Beynəlxalq əməkdaşlıqda prioritetlər**

Xarici universitetlərlə əməkdaşlığın inkişafına və bu yöndə Erasmus+ proqramının imkanlarından faydalanmağa çalışırıq. Hazırda tələbələrimiz Erasmus+ proqramı çərçivəsində İspaniyanın Vallodolid Universitetində təhsil alır. MDU "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” mövzusunda Erasmus+ layihəsində fəal iştirak edirlər.

MDU 2019-cu ildə Bolonya prosesi üzrə İşçi Qrupunun növbəti iclasında (Helsinki), X Rusiya-Azərbaycan Regionlararası Forumunda (Moskva) və "Ali təhsil islahatları ekspertlərinin illik konfransı”nda (Praqa), eləcə də İsveçdə, Koreyada, Litvada və Ukraynada keçirilmiş beynəlxalq təlimlərdə təmsil olunmuşdur.

**Mükafatlar və nailiyyətlər**

Təhsil nazirinin əmri ilə 2019-cu ilin oktyabrında 2 əməkdaşımızın "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı, 5 əməkdaşımızın isə Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunması kollektivimiz tərəfindən böyük sevinc hissi ilə qarşılanmışdır.

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-cu ildə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi” VI Ümumrespublika bilik yarışında MDU 8-ci yeri tutmaqla, 49 ali təhsil müəssisəsi arasında 14-18-ci yerləri bölüşmüşdür.

2019-cu ildə 4 tələbəmiz Təhsil Nazirliyinin təsis etdiyi "Gələcəyin müəllimi” təqaüdünə layiq görülmüşdür. 4 tələbəmiz və 1 əməkdaşımız Azərbaycan Respublikasının Gənclər Fondunun 13-cü qrant müsabiqəsinin, 1 tələbəmiz BP şirkəti tərəfindən Azəri-Çıraq-Günəşli layihəsinin 25 illiyi münasibətilə keçirilən müsabiqənin qalibi olmuşdur.

Yeni dövrün reallıqlarına və kreativ düşüncəli tələbə kontingentinin istəklərinə uyğunlaşmağa çalışdığımız fəaliyyətimizdə dövlətimizin, o cümlədən Təhsil Nazirliyinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin və digər tərəfdaşlarımızın davamlı dəstəyindən faydalanırıq. Məhz bu dəstək və qarşılıqlı faydalı əməkdaşlıq formulu elm, təhsil və innovasiyaların üzvi vəhdətinə əsaslanan müasir və rəqabətqabiliyyətli universitetin qurulmasına şərait yaradır.

**Şahin BAYRAMOV,**
**Mingəçevir Dövlət Universitetinin rektoru.**
URL: www.mdu.edu.az

# IMPLEMENTATION OF INTERNATIONAL ELECTORAL STANDARDS INTO THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN

**Nihal Y. Nuri**
**PhD student of law faculty of Baku State University.**

*Primary objective of this Article is to analyze main international electoral standards and standards established in the legal framework for elections of the Republic of Azerbaijan comparatively. International sources of electoral standards, and legislation and main laws of the Republic of Azerbaijan in this field are investigated in the research as well. Particular focus are given to universal documents, Constitution of the Republic of Azerbaijan and Election Code of the Republic of Azerbaijan.*

**Key words:** "legal framework", "transparency", "electoral management bodies", "universal and equal suffrage", "electoral observer", "franchise", "electoral campaign", "voter".

International electoral standards are the prerequisites set out to ensure democratic elections. Electoral standards contribute to uniformity, reliability, consistency, accuracy and overall professionalism in elections, and are regarded as benchmarks to assess whether or not an election is free and fair. These standards should be used to ensure non-discrimination and equality of access for all citizens. The legal framework must therefore ensure that no identifiable societal group(women, ethnic minorities, citizens with disabilities, language minorities, internally displaced persons, refugees etc.) is excluded or marginalized from electoral and political processes.[11] This Article analyses international electoral standards and legal framework for elections (the term "legal framework for elections" generally refers to all legislation and pertinent legal and quasi-legal material or documents related to the elections) of the Republic of Azerbaijan comparatively.

The primary sources for the international standards in this field are various international, regional and un declarations and conventions on human rights and other relevant legal documents. The more important of these instruments include the following:[18]

- The 1948 Universal Declaration of Human Rights(UDHR);
- The 1966 International Covenant on Civil and Political Rights(ICCPR) (Azerbaijan joined in 1992);
- The 1952 Convention on The Political Rights of Women;
- The 1979 Convention on the Elimination of All Forms of Discrimination Against Women;
- United Nations General Assembly Resolution, A/RES/46/137 dated 17 December 1991: Enhancing the effectiveness of the principle of periodic and genuine elections;

- The 1950 European Convention (together with its Protocols) for the

Protection of Human Rights and Fundamental Freedoms(ECHR) (Azerbaijan joined in 1992);

- The 1990 Document of the Copenhagen Meeting of the Conference on the Human Dimension of the Conference for Security and Co-operation in Europe (CSCE);
- The 1948 American Declaration of the Rights and Duties of Man;
- The 1969 American Convention on Human Rights; and
- The 1981 African Charter on Human and People's Rights.

It is worth-mentioning that supplementary sources of international standards play as vital role as primary source since they are more detailed and fill the gaps regarding these norms. The following documents are considered to be supplementary sources for the legal framework for elections:

- Final reports of various election observation missions (international and domestic) where they are available;
- The requirements of any international instruments to which the country is a party, which impact on the election law; and
- Model codes of conduct addressing election issues developed by international, governmental or non-governmental organizations (NGOs).

Above-mentioned documents contain international standards related to structure of legal framework for elections, election rights, electoral system, boundary delimitation of electoral units, electoral management bodies, media access and freedom of expression, electoral observers, and compliance with and enforcement of electoral law.[20] To assess to what degree the legal framework for elections of the Republic of Azerbaijan complies with international electoral standards is very essential. This will provide a set of constructive suggestions for corrections, improvements and possible best practices to strengthen the legislation.

At this point, it is expedient to begin the research with the analysis of the legal framework of Azerbaijan in this field. The legal framework should be so structured as to be unambiguous, understandable and transparent, and should address all components of an electoral system necessary to ensure democratic elections.[16] The main constituents of the legal framework for elections of Azerbaijan are the Constitution of the Republic of Azerbaijan(the Constitution) and the Election Code of the Republic of Azerbaijan(the Code). However, other laws and pieces of laws (such as Criminal Code of the Republic of Azerbaijan, Civil Code of the Republic of Azerbaijan, the Law of the Azerbaijan Republic on Citizenship of the Azerbaijan Republic, Code on Administrative Offenses of the Republic of Azerbaijan etc), regulations attached to electoral law, directives and instructions of Central Election Commission of the Republic of Azerbaijan(related to the electoral law and regulations) related to different facets of electoral process are inseparable parts of legal framework for elections of Azerbaijan. As a common feature of every constitution, the Constitution's electoral provisions only contain fundamental electoral rights and the basic principles of the electoral system(Articles 47-56(these are the set principles in the 1990 Document of the Copenhagen Meeting of the Conference on the Human Dimension of the Conference for

Security and Co-operation in Europe (CSCE), through Articles 5-11). That set of rights include but not limited to the protection from discrimination, freedom of thought, election rights, freedom of peaceful assembly, freedom of association, freedom of speech, right to petition and etc.[17] Moreover, it contains provisions regarding the institutions subject to democratic elections and their terms of office(Articles 83-85(elections to Legislature), 100-102 (elections to Presidency)).

On the other hand, the Code comprises of general election legislation and specific election legislation. Sections of General Part of this Code regulate various facets of electoral process(election and referendum bodies, Central Election Commission, election constituencies, nomination and registration of candidates during elections, etc) thoroughly. The articles those governing issues connected to elections to a specific body of government(Elections to the Milli Majlis(legislature), Presidential and Municipal Elections) or to referendum are incorporated into the Special Part of the Code. One electoral law akin to the Election Code of the Republic of Azerbaijan(regulating all elections) is highly desirable and recommended. It encourages consistency in election administration and practices whilst fostering unified implementation of the law in connection with all elections. Such an approach also simplifies the drafting process in cases where amendments to legislation are needed. The following parts of the article will mainly focus on the manifestation of main electoral standards in the legal framework for elections of the Republic of Azerbaijan.

Having said that, article 56 of the Constitution enshrines the right to vote and to stand for election of the citizens of the Republic of Azerbaijan, while Article 2 of the Constitution recognizes sovereignty of the people of Azerbaijan. Realization of this sovereignty is described as follows:

I. Freely and independently determining their destiny and establishing their own form of governance is the sovereign right of the people of Azerbaijan.

II. The people of Azerbaijan shall exercise their sovereign right directly by nation-wide popular vote - referendum, and through their representatives elected on the basis of universal, equal and direct suffrage by free, secret and personal ballot.[21]

As can be seen from the norm, the Constitution provides foundation for fundamental electoral principles such as universal and equal suffrage, free and secret ballot. These are the standards set out in international documents (UDHR Article 21, ICCPR Article 25, the 1990 Document of the Copenhagen Meeting of the Conference on the Human Dimension of the Conference for Security and Co-operation in Europe (CSCE) Article 7) on political rights. However, it is the Election Code of the Republic of Azerbaijan which describes the legal definitions of these terms through Articles 2-7. Article 3 of the Code defines universal suffrage as the rights of the citizens of the Republic of Azerbaijan to elect, be elected to and participate in referendums, regardless of their race, ethnicity, religion, language, gender, origin, property status, office position, beliefs, affiliation with political parties, trade unions or other public associations, or any other status.[22] According to Article 4 of the Code equal suffrage means that citizens shall enjoy equality in participation in elections and referendums. What stems out from that is each citizen shall have a single vote for

each poll and each vote cast by a citizen shall hold equal weight. Furthermore, Article 6 of the Code guarantees secrecy of voting and prevention of any control over the expression of a voter's will. The definition of the term "direct suffrage" as used in the Constitution is given in the Article 5 of the Code as follows:

1. Citizens shall vote in person for a candidate during elections, and for or against issues addressed by a referendum.

2. Voting in the place of other persons shall be prohibited. The citizens voting in the place of others or providing conditions for voting in place of others shall be subjected to the liability provided for in either the Criminal Code or the Code on Administrative Offenses of the Republic of Azerbaijan.[22]

The foregoing principles are the basic international electoral standards. However, international documents, such as 1) International IDEA-IFES-UN, Administration and Cost of Elections (ACE) Project; 2) The International IDEA Handbook of Electoral System Design (Stockholm: International Institute for Democracy and Electoral Assistance, 1998) and 3) International IDEA, Code of Conduct for the Ethical and Professional Administration of Elections (Stockholm, International Institute for Democracy and Electoral Assistance, 1996)) provide additional standards for elections. These standards could be classified in this order:

- Defining boundaries of electoral units;
- Electoral management bodies (EMBs);
- Voter registration and voter registers;
- Ballot access for political parties and candidates;
- Democratic electoral campaigns;
- Media access and freedom of expression;
- Champaign finances and expenditure;
- Counting and tabulating votes;
- Role of the representatives of the parties and candidates;
- Electoral observers; and
- Compliance with and enforcement of electoral law.

This part is to analyze the mentioned standards as elements of one complex system, nonetheless, it will not be possible to focus on each of them due to the intended volume of this article. As we know, electoral systems are the rules and procedures through which votes cast in an election are translated into seats won in the legislature or some other office and as a rule, the choice of an electoral system should ensure that the political cleavages of a society are properly addressed[16] That being said, elections to different institutions are held on the bases of plurality-majority systems in Azerbaijan(elections to Presidency, and Milli Majlis and municipalities could be considered to be based on majoritarian and plurality systems respectively). This is implied in the particular norms of the legislation(Articles 83 and 101 of the Constitution, Articles 169, 203 and 238 of the Code) of Azerbaijan.

The legal framework for elections should seek to ensure that the boundaries of electoral units are drawn in such a way as to achieve the objective of according equal weight to each vote to the greatest degree possible to ensure effective representation.[8] Section II Chapters 5 and 6 of the Code are commissioned to achieve this goal though Articles 29-39. Since the central electoral management body is the Central Election Commission(the Commission) of the Republic of Azerbaijan, it is the vested right of the Commission to form electoral constituencies as defined in

Article 29 of the Code. On the other hand, administering democratic elections requires that EMBs be, and be seen to be, impartial and independent of government or other influence. Hence, Articles 17-28 of the Code are dedicated to the formation, duties and rights of the Commission and other election and referendum bodies.[11] Principally, Constituency Election Commissions are formed by CEC(Article 29 of the Code) and Precinct Election Commissions by Constituency Election Commissions accordingly.

In a legal framework of a country voter registers must be maintained in a manner that is transparent and accurate, protects the right of qualified citizens to register, and prevents the unlawful or fraudulent registration or removal of persons.[20] The international standard for voter registration is that the register must be comprehensive, inclusive, accurate and up to date, and the process must be fully transparent. In this manner, there is a separate chapter(articles 40-44) in the Code regarding to secure transparency during preparation and conduct of elections(referendum as well). Transparency standard means that the activity of election commissions must be transparent for voters(Article 41.1 of the Code). Moreover, norms of this chapter adjust international standards in relation to domestic and international observers. This is because, provision of internationally-recognized norms regarding observers in the legal framework ensures transparency and increase credibility of elections(referendums as well) in international level.[16] According to these norms, election observation means the purposeful gathering of information regarding an electoral process, and making informed judgements on the conduct of such process on the basis of information collected, by persons who are not inherently authorized to intervene in the process and whose involvement in mediation or technical assistance activities should not jeopardize their main observation responsibilities.

As an ultimate impetus, media (owned or controlled by the state) access and freedom of expression should be enjoyed by all political parties and candidates and unreasonable limitations should not be placed on the right of political parties and candidates to freedom of expression during election campaigns.[19] If political advertising is allowed, private media should charge the same rates to all parties and candidates without any discrimination.[11] Because, a democratic election is not possible where the legal framework for elections inhibits or dampens media access, campaign speeches and free expression.[18] These matters are dealt with through articles 74-88 of the Code.

International standards requires the availability of effective mechanisms and remedies for compliance with the law and the enforcement of electoral rights, defining penalties for specific electoral offenses.[16] The legal framework should provide that every voter, candidate and political party has the right to lodge a complaint with the competent EMB or court when an infringement of electoral rights is alleged to have occurred. A separate chapter(16) of the Code is dedicated to this principle. According to the Code, competent authorities to address issues with regard to the violations of legal framework are election management bodies(CEC and its inferior bodies) and Appellate Courts of the Republic of Azerbaijan. And the laws to

be applied in this regard are Criminal Code(Chapter 21), Civil Code, or the Code on Administrative Offenses(Chapter 6) of the Republic of Azerbaijan(Article 115 of the Code).

It is clear from the foregoing material that legal framework of the Republic of Azerbaijan meets the international electoral standards. However, still there are issues to be reconciled in order to strengthen the effectiveness of the electoral legislation. No doubt, this requires capacious and more comprehensive research of the subject matter.

## Bibliography

1. Constitution of the Republic of Azerbaijan(1995)
2. Universal Declaration of Human Rights(1948)
3. International Covenant on Civil and Political Rights(1966)
4. United Nations General Assembly Resolution, A/RES/46/137 dated 17 December 1991: Enhancing the effectiveness of the principle of periodic and genuine elections;
5. European Convention on Human Rights (1950)
6. The 1990 Document of the Copenhagen Meeting of the Conference on the Human Dimension of the Conference for Security and Co-operation in Europe (CSCE)
7. Election Code of the Republic of Azerbaijan(2003)
8. Carl W. Dundas, Dimensions of Free and Fair Elections: Frameworks, Integrity, Transparency, Attributes, Monitoring (London: Commonwealth Secretariat, 1994)
9. International IDEA-IFES-UN, Administration and Cost of Elections (ACE) Project, http://www.aceproject.org CD-Rom also available in English, French and Spanish
10. Andrew Reynolds and Ben Reilly (eds.), The International IDEA Handbook of Electoral System Design (Stockholm: International Institute for Democracy and Electoral Assistance, 1998)
11. International IDEA, International Electoral Standards, Guidelines for reviewing the legal framework of elections (2002), http://www.idea.int/publications/pub_electoral_main.html
12. International IDEA, Code of Conduct for the Ethical and Professional Administration of Elections (Stockholm, International Institute for Democracy and Electoral Assistance, 1996). http://www.idea.int/publications/conduct/admin/intro.htm
13. Criminal Code of the Republic of Azerbaijan
14. Code on Administrative Offenses of the Republic of Azerbaijan
15. Directives and Codes of Conduct of the Central Election Commission of the Republic of Azerbaijan, available at: http://www.msk.gov.az/en/
16. Ziyafat Asgarov, Constitutional Law, Bakı Universiteti Publ., 2011
17. Lathif Huseynov, International Law, Qanun Publ., 2012
18. Amir Aliyev, Human Rights, “Hüquq ədəbiyyatı” Publ., 2014
19. Maureen Spencer and John Spencer, Nutcases (Human Rights), Sweet and Maxwell (A Thomson Company), 2002
20. United Nations Human Rights Office of the High Commissioner, Manual on Human Rights Monitoring, available online: https://www.un.org/en/
21. Translation of the Constitution of the Republic of Azerbaijan, available online: https:// president.az
22. Translation of the Election Code of the Republic of Azerbaijan ordered by CEC and printed by Printing House of the Milli Majlis of the Republic of Azerbaijan, available online: https://www.legislationline.org/download/id/7885/file/Azerbaijan_Election_am2017_en.pdf

## SEÇKİLƏRLƏ BAĞLI BEYNƏLXALQ STANDARTLARIN AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNƏ İMPLEMENTASİYASI

**Nihal Y. Nuri.**

Bu məqalənin əsas məqsədi seçkilərlə bağlı beynəlxalq standartların və bu sahə ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyində təsbit edilən standartların müqayisəli analizini aparmaqdır. Məqalədə həmçinin, seçkilərlə bağlı standartların beynəlxalq mənbələri, bu sahədəki Azərbaycan Respublikası qanunvericiliyi və əsas qanunları araşdırılır. Beynəlxalq Universal sənədlərə, Azərbaycan Respublikası Konstitusiyasına və Azərbaycan Respublikası Seçki Məcəlləsinə xüsusi diqqət ayrılır.

**Açar sözlər:** “seçki qanunvericiliyi”, “şəffaflıq”, “seçki və referendum orqanları”, “ümumi və bərabər seçki hüququ”, “müşahidəçi”, “səsvermə hüququ”, “seçki(referendum) kampaniyası”, “seçici”.

## ВНЕДРЕНИЕ МЕЖДУНАРОДНЫХ ИЗБИРАТЕЛЬНЫХ СТАНДАРТОВ В ЗАКОНОДАТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Нихал Ю. Нури.**

Основная цель данной статьи состоит в проведении идентификации и сравнительного анализа в применении международных стандартов в связи с выборами в законодательстве Азербайджанской Республики. В статье также исследованы международные источники в связи с выборами, законодательство и основные законы Азербайджанской Республики в этой области. Уделяется особое внимание универсальным международным документам, Конституции Азербайджанской Республики и Избирательный Кодекс Азербайджанской Республики.

**Ключевые слова:** « избирательное законодательство», «прозрачность», «органы по выборам и референдумам», « общее и равное избирательное право», « наблюдатель», «право голоса», « избирательная(референдум) компания», «избиратель».

# İCBARİ TİBBİ SIĞORTA MƏRHƏLƏLİ ŞƏKİLDƏ TƏTBİQ OLUNACAQDIR

**Son illərdə dünyada xəstəliklərin və bu xəstəliklərdən ölənlərin sayı artmaqdadır. Yalnız 2015-ci ildə dünyada 56,4 milyon nəfər müxtəlif xəstəliklər səbəbindən dünyasını dəyişmişdir.**

Dünya Bankının məlumatlarına əsasən, hər həftə xəstəlikdən 200 min 5 yaşına çatmamış uşaq dünyasını dəyişir, 10 min qadın isə doğuş vaxtı ölür. Ümumdünya Səhiyyə Təşkilatının statistik məlumatlarına görə, hər il 7 milyon nəfər ekoloji çirklənmədən dünyasını dəyişir. Proqnozlara görə, 2030-2050-ci illər arasında iqlim dəyişikliyi dünyada 250 min xəstəliyin yaranmasına gətirib çıxaracaqdır. Qeyd olunanlar səhiyyə sisteminin rolunun getdikcə artacağını xəbər verir. Səhiyyə sisteminin səmərəli fəaliyyəti isə onun maliyyələşməsindən birbaşa asılıdır. Dünyada səhiyyənin maliyyələşməsinin mütərəqqi metodlarından biri icbari tibbi sığortadır.

2020-ci ilin yanvarın 1-dən ölkəmizdə də mərhələli şəkildə icbari tibbi sığorta tətbiq olunacaqdır. İcbari tibbi sığorta əhalinin sosial müdafiəsinin gücləndirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. İcbari tibbi sığorta əhalinin həmrəylik prinsipi əsasında tibbi yardım almaq hüququnu təmin edən sistemdir.

Bu sistem sığorta hadisəsi zamanı sığortaolunanların xidmətlər zərfi çərçivəsində tibbi yardımdan istifadəsinə imkan verir. "Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, bütün əhali sığortaolunan hesab edilir və xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərdən yararlanmaqda bərabər hüquqa malikdir.

İcbari tibbi sığortanın bir sıra üstünlükləri var. İcbari tibbi sığorta səhiyyə sistemində şəffaflığı və tibbi xidmətlərin keyfiyyətini artırır, əhalinin sağlamlığı isə daha etibarlı şəkildə qorunur. Bunlarla yanaşı, əhalinin tibbi xidmətlərə xərclədiyi vəsaitlərin payı azalır və s. Onu da qeyd edim ki, icbari tibbi sığorta sisteminin tətbiqi təkcə vətəndaşların deyil, eyni zamanda tibbi heyətin də sosial müdafiəsini gücləndirəcəkdir. Belə ki, icbari tibbi sığorta sisteminin tətbiqi tibbi personalın əməkhaqlarının artımına gətirib çıxaracaqdır. Tibbi personalın əməkhaqları iki – baza və bonus hissələrindən ibarət olacaqdır. Hansı həkim və ya tibb bacısı daha çox xəstə qəbul edib keyfiyyətli xidmət göstərəcəksə, o daha çox qazanacaqdır. Bu da tibbi personalı bilik və bacarıqlarını artırmağa sövq edəcəkdir və səhiyyə sahəsində orta aylıq əməkhaqqının artmasına gətirib çıxaracaqdır. Hazırda isə səhiyyə sahəsində əməkhaqları ölkə üzrə orta aylıq əməkhaqlarından geri qalır.

Bütün bunlar icbari tibbi sığortaya keçidin nə qədər zəruri olduğunu bir daha sübut edir. Lakin ən mütərəqqi sistemin də tətbiqi zamanı müəyyən problemlər meydana çıxa bilər. Bu problemlərin öyrənilməsi və aradan qaldırılması digər iqtisadi rayonlarda və ya bölgələrdə bu sistemin səmərəli fəaliyyətinə zəmin yaradacaqdır. Odur ki, ölkəmizdə icbari tibbi sığortaya keçidin mərhələli şəkildə, yəni əvvəlcə bir və ya bir neçə iqtisadi rayonda tətbiq olunması onun səmərəli fəaliyyəti baxımından vacibdir. Azərbaycan Respub-

likası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə vəsaiti ilə reallaşdırdığımız "İcbari tibbi sığorta: üstünlükləri və perspektivləri" layihəsinin icrası zamanı da ölkəmizdə icbari tibbi sığortaya keçidin mərhələli xarakter daşımasının daha səmərəli olacağına bir daha inam yaratdı. Onu da qeyd edək ki, hazırda icbari tibbi sığorta sisteminin çox uğurla fəaliyyət göstərdiyi ölkələrdə də bu mexanizmin tətbiqi mərhələlərlə həyata keçirilmişdir.

**İcbari tibbi sığorta haqları**

Milli Məclisin 3 dekabr 2019-cu ildə keçirilən plenar iclasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilmişdir. Bu dəyişikliklərə əsasən, icbari tibbi sığortanın xidmətlər zərfi vahid toplu şəklində ambulator-poliklinika və stasionar şəraitdə göstərilən tibbi xidmətləri əhatə edəcəkdir. Qanuna görə, 2020-ci ilin yanvar ayının 1-dən etibarən mərhələlərə bölünməklə dövlət büdcəsinin vəsaiti hesabına bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqı ayrılacaqdır.

Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaqdır. Əgər vətəndaş aylıq 8500 manat əməkhaqqı alırsa, 8000 manatın 2 faizi, qalan 500 manatın isə 0,5 faizi miqdarında icbari tibbi sığorta haqqı hesablanacaqdır. Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən isə aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 1 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaqdır. 2021-ci ildən etibarən isə qeyri-dövlət və qeyri-neft sektoru üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunmuşdur. Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə aylıq gəlirlərinin 8000 manatadək (8000 manat da daxil olmaqla) olan hissəsinin 2 faizi, 8000 manatdan yuxarı olan hissəsinin 1 faizi miqdarında icbari tibbi sığorta haqqı müəyyənləşdirilmişdir.

Qeyd edək ki, icbari tibbi sığorta tarifləri istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrlə müqayisədə respublikamızda daha az nəzərdə tutulmuşdur. Bu tariflər işçilər və işəgötürənlər üçün müvafiq qaydada qonşu Türkiyədə 5 və 8,5 faiz, Almaniyada 9,23 və 8,3 faiz, Litvada 6 və 6,4 faiz, Bolqarıstanda 4,6 və 6,9 faiz, Belarusda 6 faiz təşkil edir.

Həmçinin sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) üzrə minimum aylıq əməkhaqqının 4 faizi miqdarında icbari tibbi sığorta haqqı müəyyənləşdirilib.

"Tibbi sığorta haqqında" Qanuna əsasən, 2023-cü ildən etibarən isə müstəqil ödəyicilər üzrə təqvim ili üçün minimum aylıq əməkhaqqının 48 faizi miqdarında icbari tibbi sığorta haqqı nəzərdə tutulmuşdur. Məsələn, hazırda ölkədə minimum aylıq əməkhaqqının məbləği 250 manatdır. Hə-

min məbləğin 48 faizi miqdarında - təqvim ili üçün 120 manat icbari tibbi sığorta haqqı hesablanacaqdır.

İcbari tibbi sığorta haqlarının bir qisminin Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qaza (hər litrinə görə) və energetik içkilərə (alkoqollu və alkoqolsuz), elektron siqaret üçün mayeyə, tütün məmulatlarına, alkoqollu içkilərə aksiz markasının verilməsinə görə formalaşması məntiqidir. Bu, qeyd edilən malların istər ekologiyaya, istərsə də insan orqanizminə vurduğu ziyanın kompensasiya edilməsi baxımından olduqca vacibdir. Qanunun bu bəndinin tətbiqi, eyni zamanda zərərli vərdişlərdən imtina edilməsi kimi də sosial əhəmiyyətli bir aksiya hesab oluna bilər.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatlarına görə, 2020-ci il üçün icbari tibbi sığorta fondunun büdcəsinin gəlir və xərc istiqamətləri müəyyənləşdirilmişdir. Dövlət büdcəsi tərəfindən adambaşına illik 90 manat olmaqla, ümumilikdə 900 milyon manat, işçi və işəgötürənlərdən hər biri üzrə 229 milyon manat, digər mənbələrdən 185 milyon manat vəsaitin toplanılması proqnozlaşdırılır.

**Maarifləndirmə genişləndirilməlidir**

İcbari tibbi sığortanın tətbiqi zamanı zəruri olan işlərdən biri də əhalinin maarifləndirilməsidir. Bu istiqamətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə vətəndaş cəmiyyəti institutlarının apardığı işlər təqdirəlayiqdir. Ümumiyyətlə, Azərbaycanda dövlət-vətəndaş cəmiyyəti institutları arasındakı əməkdaşlıq gündən-günə güclənməkdədir. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 20 noyabr 2019-cu il tarixində 18 dövlət qurumu, o cümlədən Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə elan etdiyi müsabiqə bunun bariz nümunəsidir.

Fikrimizcə, əhalinin maarifləndirilməsi işi 2020-ci ildən daha da genişləndirilməlidir. Vətəndaş ailə həkimini necə seçəcəyini, hansı tibbi xidmətlərdən istifadə edəcəyini və s. bilməlidir. Odur ki, icbari tibbi sığortadan istifadə mexanizmi ilə bağlı sosial çarxların hazırlanması və KİV-də, sosial şəbəkələrdə yayımlanması, posterlərin artırılması, bukletlərin paylanması, təlimlərin verilməsi zəruridir. Nəzərə alsaq ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2020-ci ildən bu sistemin tətbiqi ilə bağlı işləri daha da artacaqdır, o zaman prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb olunması məsələsi daha da aktuallaşacaqdır. Qeyri-hökumət təşkilatlarının, könüllülərin daha yaxından cəlb olunması bu işin səmərəliliyini artıracaqdır. Əhalinin müxtəlif sosial-demoqrafik qruplarının maarifləndirilməsi ilə bağlı təlimlərə xüsusi yer verməli lazımdır. Tibbi personalın özünün də təlimlərə cəlb olunması olduqca vacibdir. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birlikdə elan etdiyi qrant müsabiqəsi kimi fəaliyyətlər bu işə öz töhfələrini verəcəkdir.

**Rəsmiyyə ABDULLAYEVA,**
**AMEA İqtisadiyyat İnstitutunun elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru, dosent.**

# POSTSOVET MƏKANINDA MİLLİ AZLIQLARIN TƏHSİL HÜQUQLARI DÖVLƏTDAXİLİ VƏ BEYNƏLXALQ-HÜQUQİ TƏMİNATI

**X.R.Məmmədov,**
**hüquq üzrə fəlsəfə doktoru.**

*Nəşrə tövsiyə olunan bu məqalə postsovet məkanında milli azlıqların təhsil hüquqlarının qanunvericilik əsasında təminatı məsələlərinə həsr olunmuşdur. Müəllif konkret ölkələr əsasında milli azlıqların təhsil hüquqlarının verilmə dərəcəsini müəyyənləşdirmişdir. Burada müqayisəli şəkildə bu problemin qoyuluşu və həlli qaydası araşdırılır. Bir sıra postsovet dövlətlərinin misalında (Belarus, Ukrayna, Azərbaycan Respublikası, Gürcüstan, Moldova və Ermənistanın qanunvericiliyi müqayisəli şəkildə təhlil edilmişdir.*

**Açar sözlər:** milli azlıqlar, beynəlxalq-hüquqi təminat, dövlətdaxili hüquqi təminat, təhsil hüququ, qaçqınlar və məcburi köçkünlər, miqrantların təhsil hüquqları, milli azlıqlara mənsub şəxslər, yeni dil siyasəti, ATƏT-in Milli Azlıqların İşləri üzrə Ali Komissarı.

Təhsil milli azlıqların və miqrasiya nəticəsində yaranan yeni azlıqların cəmiyyətə uğurlu inteqrasiyasının təməlidir. Buna görə də tədqiq edilən ölkələrin hamısında son illərdə qanunverici azlıqların təhsil hüquqları məsələsinə böyük diqqət yetirmişdir. Lakin buna baxmayaraq, qeyd olunan məsələlər narahatlıq predmeti olaraq qalır. Nəzərdən keçirilən ölkələrdə təhsil hüquqları müvafiq konstitusiyalarla və qanunlarla tənzimlənir. Konstitusiya səviyyəsində bütün vətəndaşların, o cümlədən milli azlıqlara mənsub şəxslərin təhsil hüququ nəzərdə tutulur. Bundan başqa, bütün vətəndaşlar kimi, milli azlıqların da dövlət ali məktəblərində, bir qayda olaraq, müsabiqə əsasında pulsuz ali və peşə təhsili almaq hüququna təminat verilir [13, 33-34].

Təhsil qanunları habelə təhsil hüququnun hansı dildə həyata keçirildiyini göstərməlidir. Məsələn, Belarusda təhsil dilinin seçilməsi Konstitusiyanın 17-ci maddəsində müəyyən olunur [2]. 1995-ci il referendumindan sonra konstitusion ikidillilik əsasında Belarusda belarus və rus dilləri dövlət dili elan olunmuşdur. Təhsil Məcəlləsinin 6-cı hissəsinin 90-cı maddəsi nəzərdə tutur ki, inzibati orqanların qərarı habelə vətəndaşların xahişi ilə azlıqların dil proqramı yaradıla, həmin proqramlar isə dövlət təhsil müəssisələrinin müxtəlif səviyyələrində milli azlığın dilində tam, yaxud qismən təlimi əhatə edə bilər. Azərbaycanın "Təhsil haqqında" Qanununun 6-cı maddəsinə görə, təhsil dilini seçmək hüququ siniflərin və qrupların yaradılması və onların fəaliyyəti üçün şəraitin təmin edilməsi yolu ilə təmin olunur[1; 4, 259]. Gürcüstanın "Xalq təhsili haqqında" Qanununun 4.3-cü maddəsinə müvafiq surətdə gürcü dili ana dili olmayan Gürcüstan vətəndaşları qanuna müvafiq surətdə işlənib hazırlanmış tədris proqramı üzrə ana dilində tam dövlət təhsili almaq hüququna malikdir. Bu dövlət məktəblərində dövlət dilinin tədrisi məcburidir [10].

Moldova Təhsil Məcəlləsinin 7-ci maddəsi pulsuz dövlət təhsilinin verilməsinə və bütün səviyyələrdə təlim-tərbiyə dilinin seçilməsinə təminat verir. Rusiya Federasiyası Təhsil Qanununun 6-cı maddəsi təhsildə dil azadlığını bəyan edir.O, Rusiya vətəndaşlarının ana dilində əsas (ilkin və əlavə) ümumi təhsil almaq hüququnu nəzərdə tutur. Ukraynanın "Milli azlıqlar haqqında" Qanununun 6-cı maddəsi hamı üçün təhsil və ana dilində təhsil almaq və dil öyrənmək hüququna təminat verir.

Miqrantların təhsil hüquqları təhlil edilən bütün ölkələrin qanunlarında nəzərdə tutulur. Belə ki, Gürcüstanın "Əcnəbilərin statusu haqqında" Qanununun 36-cı maddəsində və Moldovanın "Əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Qanununun 12-ci maddəsində təsbitini tapmışdır [9]. Belarusun "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında" Qanununun 14-cü maddəsində göstərilir ki, Belarus Respublikasında daimi yaşayan mühacirlər təhsil sahəsində Belarus vətəndaşları ilə eyni hüquqlara malikdir [2]. Azərbaycanın "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında" Qanununun 19-cu maddəsində ölkədə daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vətəndaşlarla bərabər təhsil hüququ verilir. Halbuki miqrantların digər kateqoriyaları yalnız təhsil haqqı ödəməklə təhsil ala bilərlər. "Qaçqınların və ölkə daxilində yerini dəyişmiş şəxslərin statusu haqqında" Qanunun 6-cı maddəsinə görə, qaçqınlar və məcburi köçkünlər (miqrantlar) habelə təhsil almaq hüququna malikdir, hərçənd qanun dövlət təhsil müəssisələrində ödənişli təhsil məsələsində "susur" [4, 255-256].

Ukraynada "Qaçqınlar və əlavə, yaxud müvəqqəti müdafiəyə ehtiyacı olan şəxslər haqqında" Qanun Ukrayna qanunlarına müvafiq surətdə təhsil almaq hüququnu nəzərdə tutur (13-cü maddə) [9]. Rusiya qaçqınların təhsil hüquqlarını bilavasitə təsbit edərək, "Qaçqınlar haqqında" Qanunun 8-ci maddəsində müəyyən edir ki, dövlət qaçqın uşaqlarının dövlət və bələdiyyə təhsil müəssisələrinə daxil olmasını dəstəkləməlidir [7, 30-31].

Bütövlükdə yuxarıda göstərilən müddəalar milli azlıqların və miqrantların təhsil hüquqlarına dair beynəlxalq standartlara və Avropa Şurasının müəyyən etdiyi normalara tam uyğundur. Lakin həmin müddəalarda müəyyən çatışmazlıqlar mövcuddur və onların həyata keçirilməsi tədqiq edilən ölkələrdə mütləq səmərə vermir. Bu, bəzi etnik qrupların təhsil imkanları və təhsilin keyfiyyəti baxımından qeyri-bərabərliyini ifadə edir.

Ermənistanda belə ədalətsizlik aşağıdakı səbəblərdən qaynaqlanır:iqtisadi amillər, bəzi şagirdlərin və müəllimlərin etnik azlıqlara mənsub şagirdlərə ayrı-seçkilik münasibəti, dağlıq ərazidə mövsümi miqrasiya səbəbindən xüsusilə yezid və kürd şagirdlərin yüksək dərs buraxma səviyyəsi, əsasən yezidlər və kürdlər arasında qız şagirdlərin təhsildən uzaqlaşmasının yüksək səviyyəsi. [3]

Keyfiyyətli təhsil hüququnun həyata keçirilməsi yolunda daha bir maneə məktəbəqədər təhsil imkanlarının məhdudluğu ilə bağlıdır.Nəticədə etnik qruplara mənsub şagirdlər ibtidai məktəbə gedənə qədər təhsilin aparıldığı erməni dilini öyrənmək imkanına malik olmur və təhsilə başladıqdan sonra erməni şagirdlərindən geri qalırlar. Bundan başqa, milli azlıqlara mənsub şagirdlər üçün məktəblər azdır, yalnız azlıqların dilində

məhdud sayda siniflər mövcuddur. Azlıqların təhsili üçün yalnız rus dilində məktəblər mövcuddur, çünki hakimiyyət orqanlarının fikrincə, milli azlıqlara mənsub şəxslərin əksəriyyəti bütün Ermənistana səpələnmişdir [14, 123-125].

Ali məktəblərə qabul imtahanları haqqında məlumatların və məktəb müsabiqə imtahanlarının yalnız erməni dilində olduğu nəzərə alındıqda bu münasibət milli azlıqlara, xüsusilə immiqrasiya nəticəsində meydana çıxmış azlıqlara münasibətdə ayrı-seçkilik kimi nəzərdən keçirilə bilər.

Beləliklə, Ermənistanda milli azlıqların (xüsusilə yezidlərin, kürdlərin və molokanların) orta və ali təhsil pilləsində iştirakı aşağı səviyyədədir. Buna görə də sonradan azlıqların nümayəndələrinin ictimai həyatın müxtəlif sahələrində zəif təmsil olunması təbii nəticədir.

Belarusda iki dövlət dilində – belarus və rus dillərində və iki azlığın dilində – Litva və polyak dillərində təhsil təklif olunur. Buna baxmayaraq, rus dilində orta təhsil üstünlük təşkil edir, bu da çoxluq təşkil edən millət kimi belarus dili daşıyıcılarını və bəzi milli azlıqları, o cümlədən qaraçı azlıqlarını əlverişsiz vəziyyətə salır. Belarus çoxluğa gəlincə, belarus dilində, o cümlədən ali təhsil səviyyəsində təhsil imkanlarının azalması ilə bağlı narahatlıq ifadə olunur [2].

Azərbaycanda dövlət dilinin mövqeyinin gücləndirilməsinə yönəlmiş islahatlar tezliklə Azərbaycan dilində yeni tədris proqramına keçidi şərtləndirmişdir. Bu, uzunmüddətli perspektivdə milli azlıqların inteqrasiyasının faydalı vasitəsi qismində çəxəş edə bilsə də, təhsil sahəsində dil tələblərinin qəti icrası bəzi azlıq qruplarını təhsil sahəsində, xüsusilə ali təhsil sahəsində və daha sonra əmək bazarında Azərbaycan dilinin daşıyıcıları ilə müqayisədə əlverişsiz vəziyyətə sala bilər [5; 110-111].

2003-cü ildə hökumətin qərarı ilə məktəb yaşlı çeçen uşaqların dövlət məktəblərində təhsil almasına icazə verilmişdir. Həmin dövrdən etibarən vəziyyət yaxşılaşmış və çeçen uşaqları yerli məktəblərdə təhsil almağa başlamışlar. BMT Qaçqınların İşləri üzrə Ali Komissarlığının İdarəsinin məlumatına görə, qaçqınların və sığınacaq axtaran şəxslərin uşaqlarının təxminən 80 faizi təhsil alır. Buna baxmayaraq, hələ də ümumi təhsil üçün real imkanların əldə edilməsi üçün maneələr mövcuddur, bu maneələr xüsusilə yüksək təhsil sahəsində azərbaycanlı tələbələrə də təsir göstərir [13, 47-49].

Gürcüstanın “Dövlət təhsili haqqında” Qanununun 9.1-ci maddəsində göstərilir ki, “hər bir insan öz şəxsiyyətinin tam inkişafı və uğurlu şəxsi və ictimai həyat üçün zəruri bilik və bacarıqlara yiyələnmək üçün dövlət təhsili almaqla bağlı bərabər hüquqlara malikdir” [9].

Qeyri-gürcü məktəblərində vəziyyət uzun müddət milli azlıqlara mənsub şəxslərin Gürcüstanın ictimai həyatının bir çox sahəsində de-akto təcrid olunmasına səbəb olmuşdur. Gürcüstanda xüsusilə etnik azlıqların yığcam yaşadırları regionlarda azlıqların nümayəndələri təhsil sahəsində ciddi maneələrlə qarşılaşır. Belə tələbələr çox aşağı keçid balı topladıqlarından onların Gürcüstan universitetlərinə dail olması xeyli azalmışdır. Bu, azlıqların dillərində təhsil almış bir çox gənci ali təhsil almaq və işdə irəliləmək imkanlarından məhrum edir. Digər tərəfdən, Gürcüstanda milli azlıqlara mənsub əksər məzunların ali təhsilə malik olmaması onların əmək bazarına girmək imkanlarını məhdudlaşdırır. Gürcüstan hökuməti milli azlıqlara mənsub şəxslərin ali təhsil alması və məş-

ğulluq və Gürcüstanın ictimai həyatında iştirak imkanlarının yüksəldilməsi üçün bəzi tədbirlər həyata keçirir. Bu tədbirlər sırasında ali məktəblərə hazırlıq urslarının təşkili qeyd olunmalıdır. Təhsil Nazirliyi qeyri-gürcü məktəblərində gürcü dilinin tədrisinin yeni standartlarını təsdiq etmişdir. Milli azlıqların nümayəndələrinin müraciətləri əsasında təhsil və elm naziri "Gürcü dili Proqramı" çərçivəsində məktəbəqədər yaşlı uşaqlar arasında gürcü dili biliklərinin yaxşılaşdırılması məqsədilə "Azlıq icmalarının məskunlaşdıqları regionlarda məktəbəqədər təlim səviyyəsində gürcü dilinin tədrisinin səviyyəsinin yüksəldilməsi" üzrə dəstək proqramını təsdiqləmişdir. Habelə 2008-ci ildə ATƏT-in Milli Azlıqların İşləri üzrə Ali Komissarının dəstəyi ilə işlənib hazırlanmış "Çoxdilli təhsil vasitəsilə milli azlıqların inteqrasiyası: 2009-2014-cü illər üçün Tədbirlər Planı" adlı sənəd qeyd olunmalıdır. Bütün bu tədbirlər Gürcüstan universitetlərində milli azlıqların nümayəndələrinin sayının artırılmasına yönəlmişdir [9].

Moldovada təhsil Dnestryanı bölgədə moldovan dilli məktəblərin bağlanması nəticəsində etno-siyasi böhran ocaqlarından birinə çevrilmişdir. Hətta Milli Azlıqların İşləri üzrə Ali Komissar bu vəziyyəti "dil təmizləməsi" kimi qiymətləndirmişdir. Sonradan məktəblərin yenidən açılmasına baxmayaraq, təhsil Moldova cəmiyyətinin ən həssas mövzularından biri olaraq qalır və bu sahədə bir sıra islahatlar aparılmışdır[14, 512].

Bu islahatlar nəticəsində 2008-ci ildə qəbul edilmiş Təhsil Məcəlləsinin bir sıra maddələrində milli azlıqlara mənsub şəxslərin bərabər təhsil imkanları təsbitini tapır, habelə mədəniyyətlətarası dialoq və etnik dözümlülük təşviq olunur. Məcəllənin 7-ci maddəsində dövlət təhsilin bütün səviyyələrində təlim-tərbiyə dilinin seçilməsi hüququna təminat verir. Lakin bu hüquqla bağlı məhdudiyyətlər də mövcuddur, çünki tibb, hüquq, ictimai və hərbi təhlükəsizlik kimi sahələrdə yalnız dövlət dilində təhsilə icazə verilir. Dil maneəsi milli azlıqların nümayəndələrini qeyd olunan sahələr üzrə dövlət qulluğunun mərkəzi və yerli orqanlarında işə qəbul baxımından əlverişsiz vəziyyətdə olmasını şərtləndirir.

Dövlət dili olan moldovan dilinin bütün təhsil müəssisələrində tədrisi məcburidir. Bu, olduqca önəmlidir, çünki "milli azlıqlara mənsub bir çox şəxslər dövlət dilini pis bilir, yaxud ümumiyyətlə bilmir və nəticədə onların ictimai işlərdə və sosial-iqtisadi həyatda səmərəli iştirak imkanları azalır".

Moldova hökuməti təhsil hüquqlarının təmin edilməsi istiqamətində səylər göstərsə də, həmin hüquqların icrasının müvafiq beynəlxalq standartlara uyğunluğu baxımından narahatlıq qalmaqdadır. Belə ki, Moldovada etnik mənsubiyyət əlaməti üzrə təhsil sahəsində ayrı-seçkilik, məktəbəqədər müəssisə rəhbərlərinin qaraçı mənşəli valideynlərə ksenofob münasibəti və qaraçı azlığına mənsub şəxslərin təhsil imkanlarının əsassız surətdə məhdudlaşdırılması halları qeydə alınmışdır. Bundan başqa, digər icmalarla müqayisədə qaraçı uşaqlarının, xüsusilə qızların təhsillə əhatə olunma səviyyəsi aşağıdır, təhsildən yayınma göstəriciləri daha yüksəkdir, onların arasında savadsızlıq halları daha çox yayılmışdır [10].

Son illərdə müxtəlif subyektlərin həyata keçirdikləri proqramlara baxmayaraq, milli azlıqlara məktəblərdə və digər müəssisələrdə dövlət dilinin tədrisi üçün ayrılan vəsait əvvəlki tək yetərli deyildir.

Yalnız əsas təlim dilinin rus dili olduğu məktəblərdə azlıqların dilləri tədris olunur. Bu isə milli azlıqlara mənsub şəxslərin çox zaman dövlət dilini pis bilməsinə gətirib çıxarır. Mövcud sistem habelə milli azlıqlara mənsub bəzi şəxslərin özlərini rus dilli azlıqla eyniləşdirmək meylini gücləndirir və öz identikliyini qoruyub saxlamasını çətinləşdirir. Ali təhsil səviyyəsində dövlət dilinin öyrənilməsi imkanının məhdudlaşdırılması habelə məktəblərdə əsas təhsil dili rus dili olan milli azlıqlara mənsub tələbələr üçün maneə yaradır.

Rusiyada müəyyən azlıqlara mənsub uşaqlar təhsil müəssisələrinə daxil olmaqda bir sıra çətinliklərlə üzləşirlər. Bu, xüsusilə qaraçılar və bəzi yerini dəyişən şəxslər daxil olmaqla, vətəndaşlığı olmayan şəxslərə aiddir. Bu çətinliklər onların qeydiyyatının olmaması ilə bağlıdır. "Təhsil haqqında" Qanunun ayrı-seçkiliyin yolverilməzliyini təsbit etməsinə və məktəbə sənədlərin təqdim edilməsi üçün heç bir tələb qoymamasına baxmayaraq, çox zaman qaraçı ailələrindən olan uşaqların təhsil alması çətinləşir, yaxud mümkün olmur [11].

Avropa qurumları habelə ayrı-ayrı ucqar və iqtisadi cəhətdən yoxsul məskənlərdə valideynlərinun məktəbə apara bilmədiyi uşaqların vəziyyətindən narahatlıqlarını ifadə etmişlər. Bu vəziyyətdən, ilk növbədə, milli azlıqlara mənsub şəxslərin, o cümlədən qaraçıların uşaqları, habelə yerini dəyişmiş dargin, çeçen və inquş azlıqlarının uşaqları əziyyət çəkir. Habelə bu azlıqlara mənsub uşaqların məktəbdən yayınma səviyyəsi və ayrıca siniflərdə yerləşdirilməsi meyli yüksəkdir (Bu, ilk növbədə, qaraçılara və digər azlıqlara aiddir) [13, 41].

Ukraynada təhsil ictimai həyatın dil məsələsinin xüsusilə həssas olduğu sahələrindən biridir. Bu, uzun müddət ərzində Ukrayna Konstitusiya Məhkəməsinin müdaxiləsini və dillərdən istifadə ilə bağlı məsələlərin həlli üçün beynəlxalq ekspertlərin bilavasitə iştirakını tələb etmişdir. 1989-cu ildə Ukrayna dilinin dövlət dili kimi təsbitindən sonra Ukrayna hökuməti təhsil sahəsində dilin yeni stasusunun tətbiqinə səy göstərmişdir [10].

Təhsil sahəsində yeni dil siyasəti yerli təlim dilindən asılı olmayaraq bütün növ məktəblərdə Ukrayna dilinin məcburi tədrisini nəzərdə tutur. Bundan başqa, yalnız Ukrayna dilində universitet təhsilinin təmin edilməsi istiqamətində səylər göstərilmişdir. Bu, orta məktəblərdə buraxılış imtahanlarının və ali məktəblərə qəbul imtahanlarının hətta azlıqların dilində tədris proqramını başa vurmuş şagirdlər üçün Ukrayna dilində keçirilməsinə dair Konstitusiya Məhkəməsinin qərarına və Təhsil Nazirliyinin göstərişinə müvafiq surətdə həyata keçirilmişdir. Nəticədə hətta rus dilli sakinlərin əhalinin xeyli hissəsini, yaxud hətta yerli çoxluq təşkil etdiyi regionlarda belə rus məktəblərinin bağlanması meyli müşahidə olunur. Bu regionlarda habelə azlıqların digər dillərində təhsil imkanının mövcud olmaması, yaxud məhdudluğu ilə bağlı şikayətlər meydana çıxmışdır [10].

Bu baxımdan digər azlıqların vəziyyəti də mürəkkəbdir. Məsələn, Zakarpatyedə rumın dilinin hesabına bəzi rumın məktəblərində Ukrayna siniflərinin sayı artır. Qaraçı uşaqları da təhsil sahəsində ayrı-seçkiliyə məruz qalır. Polyakların çoxluq təşkil etdiyi bəzi kəndlərdə yerli hakimiyyət orqanları ikidilli təhsil tətbiq edir. Bolqar əhalisinin çoxluq təşkil etdiyi rayonlarda məktəblərin əksə-

riyyətinə yalnız həftədə 1 saatdan 2 saata qədər bolqar dilində kurslar təşkil etməyə icazə verilir.

Hadisələrin belə inkişafı, azlıqların dillərində olan təhsil müəssisələrində dərsliklərin və ixtisaslı müəllimlərin çatışmaması azlıqların nümayəndələrinin ali təhsil sahəsində və əmək bazarında imkanlarını daha da məhdudlaşdıra bilər.

Etnik azlıqların təhsil ala bilməsi üçün əlverişli mühitin yaradılması, dil vərdişlərinin inkişafının tədris planında nəzərdə tutulması zəruridir. Bu şərait yaradılmadıqca bəzi etnik qrurlar təhsil sahəsində və həyatın digər sahələrində təcrid olunmuş vəziyyətdə qalacaqdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Айдын Балаев. Национально-языковая политика независимого Азербайджана. март 10, 2010. http://ethnoglobus.com/index.php?l=ru&m=n-ews&id=564
2. Билык А., Уральский Ю. Защита прав лиц, принадлежащих к национальным меньшинствам, в Республике Беларусь. http://evolutio.info/content/view/36/38/
3. Гарник Асатрян, Виктория Аракелова. Национальные меньшинства в Армении. http://www.kavkaz-uzel.ru/articles/30125/
4. Жаля Гарибова, Матанат Аскерова. Законодательная поддержка языков, меньшинств в Азербайджанской Республике. «Dirçəliş XXI əsr». 2008. 124-125. с.255-256.
5. Мамедли А. Этническая политика одно из необходимых условий устойчивого развития Азербайджана.http://strategiya.az/old/index.php?m=xe-ber&id=11112; Балаев А. Этноязыковые процессы в Азербайджане в XIX-XX вв. Баку, Нурлар, 2005.
6. Международные и внутригосударственные акты о правах человека. Сборник документов /Сост. Р.М.Валеев, Р.Г.Вагизов. Казань, Казанский государственный университет им.Ульянова – Ленина, 2006.
7. Михалева Н.А. Некоторые аспекты конституционного статуса национальных меньшинств в России // Актуальные проблемы конституционного законодательства. М., Наука, 1992.
8. Распоряжение Президента Азербайджанской Республики Об утверждении Национального плана деятельности по защите прав человека в Азербайджанской Республике. www.migration.ov.az/images/pdf/b0f31862c70b31f-1472dcde291cb5254.pdf
9. Рациональная меньшинства и миграция в Армения, Азербайджан, Беларусь, Грузия, Молдова, Россия и Украина. http://moscow.iom.int/russian/publications/CARMP/iomrf%20pub/Analiticheskij%20doklad_
10. Рудич Ф.М. Национальные меньшинства в современной Украине: политологический и политологический контекст. http://www.saske.sk/cas/archiv/1-2000/rudyc.html
11. Схатум Б.А.Конституционно-правовые вопросы защиты прав коренных малочисленных народов в Российской Федерации. http://www.disser-cat.com/contentixzz3IZJjG8ZP;
12. Clifton John. Studies in Languages of Azerbaijan. Grand Rapids: Color House Graphics, 2002, vol.1, p. 123.
13. Vachudova Milada Anna, Europe Undivided: Democracy, Leverage, & Integration After Communism. Oxford and New York, Oxford University Press, 2005. p.33-34.
14. Wheatley S. Deliberative Democracy and Minorities. European Journal of International Law, Vol.14, 2003. No.3, p.507 – 508.

## ВНУТРИГОСУДАРСТВЕННО- И МЕЖДУНАРОДНО-ПРАВОВОЕ ОБЕСПЕЧЕНИЕ ПРАВ НА ОБРАЗОВАНИЕ НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ В ПОСТСОВЕТСКОМ ПРОСТРАНСТВЕ

**Х.Р.Мамедов,**
**докторант.**

Статья посвящена к исследованию проблем обеспечения прав на образование представителей национальных меньшинств в постсоветском пространстве. Автор на основе конкретного материала(законодательных актов) анализирует процесс и стадии предоставления национальным меньшинствам полного перечня прав на образование. Здесь подвергается к тщательному анализу как процесс предоставления прав на образование национальным меньшинствам, так и стадии реалиизации этих прав в различных государствах постсоветского пространства. При этом используя принцип сравнительного правоведения толкуются соответствующие нормы национального законодательства о национальных меньшинствах. Сравнительный анализ касается таких стран как Беларусь, Украина, Азербайджанская Республика, Грузия, Молдова и Армения.

**Ключевые слова:** национальные меньшинства, международно-правовое обеспечение, внутригосударственное правовое обеспечение, образовательное право, беженцы и вынужденные перемешенные лица, права мигрантов, политика нового языка, Верховный комисар ОБСЕ по делам национальных меньшинств.

## PROVISION OF MINORITIES' RIGHTS TO EDUCATION AT THE INTERNATIONAL LAW LEVEL AND IN THE DOMESTIC LEGISLATION IN THE POST-SOVIET TERRITORY

**Ph. Dr.Kh. R.Mammadov.**

The article is devoted to the study of the problems of ensuring the rights to education of representatives of national minorities in the post-Soviet space. The author, on the basis of specific material (legislative acts), analyzes the process and stages of providing national minorities with a complete list of rights to education. Here, both the process of granting education rights to national minorities and the stage of the realization of these rights in various states of the post-Soviet space are subjected to careful analysis. Moreover, using the principle of comparative law, the relevant norms of national legislation on national minorities are interpreted. A comparative analysis covers countries such as Belarus, Ukraine, Azerbaijan, Georgia, Moldova and Armenia).

**Key words:** national minorities, international legal support, domestic legal support, educational law, refugees and forced mixed persons, rights of migrants, new language policy, OSCE Supreme Committee on National Minorities.

# NƏQLİYYAT SİSTEMİNDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN NORMATİV-HÜQUQİ ƏSASLARI

**Aqil Məhiyəddin oğlu Əsədov,**
**iqtisad üzrə fəlsəfə doktoru, dosent.**
e-mail: a.asadov1976@gmail.com

*Məqalədə nəqliyyat sisteminin səmərəli idarə olunması məsələləri tədqiq edilir. Bu sahədə normativ-hüquqi bazanın rolu aydınlaşdırılır. Normativ-hüquqi baza səmərəli idarəetmənin mühüm elementi kimi təhlil edilir. Məqalədə Azərbaycan Respublikasının "Nəqliyyat haqqında", "Avtomobil nəqliyyatı haqqında" qanunları, Hava məcəlləsi, Gəmiçilik məcəlləsi, Azərbaycanın qoşulduğu Beynəlxalq konvensiyalar təhlil edilir. Xüsusilə, avtomobil nəqliyyatının fəaliyyətinin tənzimlənməsi ilə bağlı normativ sənədlər geniş tədqiq olunur. Məqalədə avtonəqliyyat vasitələrinin texniki sazlığı məsələləri şərh edilir. Nəqliyyat vasitələrinin texniki sazlığı ekoloji baxımdan, eləcə də daşımaların səmərəli təşkili baxımından nəzərdən keçirilir.*

**Açar sözlər:** nəqliyyat sistemi, normativ sənədlər, tənzimləmə, texniki xidmət və təmir, nəqliyyat növləri və s.

Hər bir sahənin idarəedilməsinin əsasında müvafiq normativ sənədlər dayanır. Başqa sözlə desək, idarəetmənin təşkilati-hüquqi əsasları hazırlanır ki, idarəetmə tədbirləri də, məhz bu əsaslar üzərində həyata keçirilir. Eyni zamanda, istənilən sahədə lazımi səmərəliliyin əldə edilməsinin başlıca amillərindən biri də sahənin fəaliyyətini tənzimləyən müvafiq normativ-hüquqi bazanın olmasıdır. Birbaşa cəmiyyətin və istehsalın normal fəaliyyətinin təşkili baxımından xüsusi rola malik nəqliyyat sektoru üçün tənzimləyici bazanın əhəmiyyəti daha da çoxdur. Bu baxımdan da, nəqliyyat sektorunda səmərəli idarəetmə sisteminin yaradılması, nəqliyyat xidmətlərinin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyin təmini, xidmətlər bazarında ədalətli rəqabət mühitinin formalaşdırılması, xidmətlərin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, milli xidmətlər bazarının beynəlxalq bazara uyğunlaşdırılması və s. üçün ilk növbədə, müasir standartları və tələbatı özündə əks etdirən təkmil normativ-hüquqi bazanın yaradılması zəruridir. Bu baxımdan da, Azərbaycan Respublikasında son dövrlər nəqliyyat sektorunun sürətli inkişafı ilə yanaşı, mütəmadi olaraq yeni sənədlərin qəbulu və ya əvvəlkilərin təkmilləşdirilməsi ilə normativ-hüquqi bazanın zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatlardan aydın olur ki, nəqliyyat sektorunun dövlət tənzimlənməsində birinci dərəcəli məsələlər sırasında da, məhz nəqliyyat xidmətləri bazarı iştirakçılarının maraqları ilə ictimai maraqların uzlaşdırılmasını təmin edən yeni normativ-hüquqi bazanın yaradılması durur ki, bu da birbaşa nəqliyyatın

üzərinə düşən vəzifələrdən, onun fəaliyyət sferasından irəli gəlir. Təbii ki, qloballaşma, inteqrasiya, davamlı inkişaf kimi məsələlər milli nəqliyyat sistemlərinə də təsirsiz ötüşmür ki, bu da müvafiq normativ-hüquqi bazanın vaxtdan-vaxtda tədqiqi, təhlili və təkmilləşdirilməsini zəruri bir prosesə çevirir. Məhz bu istiqamətdə görülən işlər, aparılan araşdırmalar nəqliyyat növlərinin fəaliyyətinin kompleks tənzimlənməsinə vahid yanaşmanı nəzərdə tutan yeni normativ-hüquqi bazanın yaradılması və ya əvvəlki bazanın bu istiqamətdə təkmilləşdirilməsinə dəstək verə bilər [7,s.197-213].

Təbii ki, nəqliyyat sisteminin fəaliyyətinin dövlət tənzimlənməsinin əsası kimi normativ-hüquqi baza müxtəlif təşkilati-hüquqi formalara və mülkiyyət növlərinə əsaslanan nəqliyyat xidmətləri bazarı iştirakçılarının xüsusiyyətlərini nəzərə almalı, onların qarşılıqlı səmərəli fəaliyyətini, nəqliyyat xidmətləri istehlakçılarının hüquqlarının qorunmasını, nəqliyyatın və nəqliyyatdan istifadənin təhlükəsizliyini, eləcə də ətraf mühitin etibarlı mühafizəsini özündə əks etdirməlidir. Bu isə, yalnız ölkəmizdə nəqliyyat növlərinin fəaliyyətini tənzimləyən hüquqi bazanın beynəlxalq standartlara, eləcə də Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması ilə mümkündür.

Araşdırmalardan aydın olur ki, nəqliyyat sistemində inkişafın qanunvericilik bazasını mövcud sosial-iqtisadi vəziyyətin daha da yaxşılaşdırılmasına və onun inkişafına yönəldilən tədbirlər çoxluğu təşkil etməlidir. Bu baxımdan dövlət tənzimlənməsində normativ-hüquqi bazanın müəyyənləşdirilməsi sistemi real vəziyyəti əks etdirən və kompleks olmalıdır. Məhz buna görə də, milli nəqliyyat sisteminin bazar münasibətlərinə uyğun transformasiyası, eləcə də beynəlxalq aləmə sürətli inteqrasiyası idarəetmə nəzəriyyəsində və praktikasında yeni təşkilati-metodoloji yanaşmalar tələb edir. Bu baxımdan sistemin problemləri çox variantlı nəzəri mülahizələr və praktiki müşahidələr əsasında inkişaf etdirilməlidir [7; 10].

Məlumdur ki, nəqliyyat sisteminin qanunvericilik bazası Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar və milli qanunlar sistemindən ibarətdir. Ümumilikdə qanunvericilik bazası ümumi konseptual inkişafı təmin edən mexanizmlər sistemini nəzərdə tutulur. Başqa sözlə desək, qanunlar reallığı tənzimləyən və qarşıya qoyulmuş məqsədə nail olmaq üçün zəruri olan təşkilati-hüquqi və normativ mexanizmlər sistemini nəzərdə tutur.

Tədqiqatlardan aydın olur ki, ölkəmizdə nəqliyyat sahəsində qanunvericilik bazası qanunlar, fərmanlar, beynəlxalq müqavilə və sazişlərdən ibarətdir. Eyni zamanda, bu baza müstəqillik əldə edildikdən sonra çoxlu sayda qanunlarla daha da zənginləşmişdir. Azərbaycan Respublikasının "Nəqliyyat haqqında", "Avtomobil yolları haqqında", "Yol hərəkəti haqqında", "Avtomobil nəqliyyatı haqqında" və s. Qanunları bu sahənin inkişafını tənzimləyən əsas normativ sənədlərdəndir. Eyni zamanda, Azərbaycan Respublikasında dövlətin nəqliyyat siyasəti Konstitusiyanın müvafiq müddəalarına, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanlarına, Nazirlər Kabinetinin qərar və sərəncamlarına əsasən həyata keçirilir. Ümumilikdə isə, nəqliyyat qanunvericiliyi dedikdə, nəqliyyat münasibətlərini həyata keçirmək üçün nəqliyyat vasitələrindən istifadə ilə bağlı olaraq daşıma xidməti göstərən fiziki

və ya hüquqi şəxslə sifarişçi arasında əmələ gələn ictimai münasibətləri tənzimləyən normativ-hüquqi aktlar sistemi başa düşülür. Eyni zamanda, nəqliyyat qanunvericiliyi nəqliyyat hüququnun əsas anlayışı sayılan iki və çoxtərəfli müqavilələrinin tənzimlənməsində mühüm rol oynayır və bu müqavilələrin əsas hüquqi tənzimləmə mənbəyidir [1; 2; 5; 7].

Məlumdur ki, kütləvi istifadə və yüksək manevretmə xüsusiyyətlərinə görə avtomobil nəqliyyatı daha geniş yayılmışdır. Digər tərəfdən avtomobil nəqliyyatı həm də tamamlayıcı bir nəqliyyat növü olduğu üçün bu sahədə səmərəli idarəetmənin təşkili daha əhəmiyyətli hesab edilir. Belə ki, bir daşıma sifarişinin tamamlanmasında avtomobil nəqliyyatı eyni prosesdə bir neçə dəfə iştirak edir: yüklərin yükgöndərəndən nəqliyyat qovşağına və nəqliyyat qovşağından qəbul edənə çatdırılması. Ona görə də nəqliyyat sistemində səmərəli idarəetmənin təşkili istiqamətində araşdırmaların, yəni normativ-hüquqi bazanın təhlilinin avtomobil nəqliyyatı timsalında aparılması daha məqsədəuyğundur. Ümumilikdə isə, normativ-hüquqi baza ayrı-ayrı nəqliyyat növlərinin qarşılıqlı əlaqələrini də tənzimləməli və korporativ maraqları da nəzərə almalıdır.

Araşdırmalardan aydın olur ki, avtomobil nəqliyyatının səmərəli idarəedilməsinin başlıca məqsədi istehsal gücündən səmərəli istifadə etmək, xammalın və materialın, yarımfabrikat və ehtiyyat hissələrin qənaətlə xərclənməsi, iş yerinə yetirənlərin iş vaxtından daha rasional istifadə etmək, özünün dövriyyə vəsaitlərinin həmişə işə hazır vəziyyətdə saxlanılması, istehsal proseslərinin minimum vaxt və mühitdə yerinə yetirilməsinin təşkili, nəhayət son nəticədə məhsulun maya dəyərinin aşağı salınması və müəyyən istehsal həcmində mənfəətliliyin yüksəldilməsindən ibarətdir. Təbii ki, qarşıya qoyulmuş məsələləri həll etmək məqsədi ilə səmərəli istehsal münasibətlərinin formalaşması istehsalın təşkilində əsas yer tutur. Burada əmək vasitələrinin texniki vəziyyəti ilə əmək predmeti və kadrlar arasında münasibətlər təmin edilir, kollektivlərarası, kollektivdaxili iərarxik münasibətlər təşkil olunur. Eyni zamanda, səmərəli idarəetmə ilə istehsalın təşkili prosesində texnologiya ilə əmək vasitəsi və predmeti, texnologiyası və keyfiyyəti, keyfiyyəti və miqdarı, miqdarı və mühiti, mühiti və vaxtı arasında düzgün uyğunluq yaratmaq lazımdır.

Qeyd edildiyi kimi, nəqliyyat müəssisələrinin fəaliyyəti, onların qarşılıqlı münasibətləri, yük göndərən, yük alan, yükləmə-boşaltma məntəqələri, texniki xidmət və təmir müəssisələri arasındakı münasibətlər “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. Bu qanun 11 iyun 1999-cü il tarixində qəbul edilmiş və 27 iyul 1999-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə qüvvəyə minmişdir. Nəqliyyat qanunvericiliyinin mühüm tərkib hissəsi olan “Nəqliyyat haqqında” Qanun ölkənin nəqliyyat sistemində fəaliyyətin hüquqi, iqtisadi və təşkilatı əsaslarını müəyyənləşdirir [2].

Qanunun 8-ci maddəsi “Nəqliyyatda iqtisadi fəaliyyətin əsasları” adlanır ki, bu da səmərəli idarəetmənin təşkili üçün mühüm əhəmiyyət kəsb edir. Bu maddənin 1-ci bəndində yazılır ki, “Nəqliyyatda iqtisadi münasibətlərin əsasını nəqliyyat xidmətlərinə tələb və təkliflər bazarı formalaşdırır”. Qanunun digər bəndlərində isə nəqliyyat müəssisələri və daşıyıcıların fəaliyyətini tən-

zimləyən müddəalar qeyd edilmişdir. Məsələn, 1-ci maddədə qeyd olunur ki, nəqliyyat müəssisəsi qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması, texniki xidmət və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxsdir, daşıyıcı isə ödəniş və ya muzdla sərnişin, baqaj və poçt daşımaları üzrə xidmətlər göstərən, mülkiyyət, icarə hüququ və ya başqa qanuni əsaslarla nəqliyyat vasitələrinə malik olan hüquqi və ya fiziki şəxsdir [2].

"Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda yazılır ki, "Nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini kommersiya və təsərrüfat prinsipləri əsasında həyata keçirirlər" (maddə 8.2). Bu heç də o demək deyildir ki, nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini tam sərbəst, heç bir qanunauyğunluğu nəzərə almadan qura bilərlər. Ona görə də 8-ci maddənin 3-cü bəndində yazılır ki, "Nəqliyyat müəssisələri və daşıyıcılar nəqliyyat xidmətlərini və digər xidmətləri qanunvericiliyə uyğun bağlanmış müqavilələr əsasında həyata keçirirlər". Əlbəttə, bazar iqtisadiyyatı şəraitində bu maddənin tələbləri xüsusilə mühümdür. Ona görə ki, nəqliyyat xidmətlərinin 98%-i özəl sektorun üzərinə düşür ki, burada da kommersiya və təsərrüfat prinsipləri əsasdır. Bu baxımdan, 8-ci maddə bazar münasibətləri ilə tam ayaqlaşır. Amma qanunun 8.3. bəndinin "Nəqliyyat müəssisələri və daşıyıcılar nəqliyyat xidmətlərini və digər xidmətləri milli və dövlət maraqlarını rəhbər tutmaqla qanunvericiliyə uyğun bağlanmış müqavilələr əsasında həyata keçirirlər" kimi verilməsi daha məqsədəuyğun olardı [2].

"Nəqliyyat haqqında" qanunun daha bir maddəsində yazılır ki, "Daşıma və yükdaşıma şərtləri, nəqliyyat vasitələrindən istifadə qaydaları, nəqliyyat hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, əmək mühafizəsi, yanğına qarşı təhlükəsizlik, texniki-iqtisadi, ekoloji və sanitar normaların tələblərinə əməl olunması nəqliyyat münasibətlərinin bütün iştirakçıları üçün məcburi olan, müvafiq nəqliyyat növlərinin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar, həmçinin tərəflərin razılığı (bağladığı müqavilələr) ilə müəyyən edilir" (maddə 2.3). Göründüyü kimi nəqliyyat vasitələrinin sazlığı və daşıma işlərinin keyfiyyətliliyi, təhlükəsizliyi, eləcə də ucuz başa gəlməsi üçün, razılaşmaya əsasən sifarişçi, yükgöndərən və ya nəqliyyat vasitələrinin sahibləri məsuliyyət daşıyırlar. Bu o deməkdir ki, yuxarıda qeyd olunduğu kimi, əgər nəqliyyat vasitələrinin sazlığı üçün sifarişçi məsuliyyət daşımırsa, bu məsuliyyət digər tərəfin üzərinə düşür. Burada da məsuliyyətin bölüşdürülməsinin daha aydın təsbit edilməsi zəruridir. Eyni zamanda qanunun 16-cı maddəsində "Daşıyıcının məsuliyyəti" göstərilmişdir. Maddə 16.1-də qeyd olunur ki: "Daşyıcı sərnişinin təşlükəsizliyini, ona lazım olan şəraitin yaradılmasını, təhvil aldığı baqaj və yükün vaxtında daşınmasını və qorunmasını təmin etməlidir" [2].

Təbii ki, istər yuxarıda qeyd edilənlərə əməl olunması, istərsə də səmərəli idarəetmənin təşkili üçün daşıma işlərinin operativliyi xüsusilə vacibdir ki, bu da, ilk növbədə daşımada istifadə olunan nəqliyyat vasitələrinin texniki sazlıq, istismara yararlılıq vəziyyətindən çox asılıdır. Əks halda: Daşımaların yerinə yetirilməsi ilə əlaqədar öz vəzifələrini (öhdəliklərini) icra etmədikdə daşıyıcı və ya digər tərəf normativ hüquqi

aktlarla və həmçinin daşıma müqaviləsi ilə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır (maddə 16.2) [2].

Nəqliyyat vasitələrinin texniki sazlığına nəzarətin zərurliyi, bu sazlığın təmin edilməsinin iqtisadi səmərəliliyi "Nəqliyyat haqqında" qanunun 18-ci maddəsi ilə bir daha təsdiqlənir. Maddə, yükün və ya baqajın itirilməsi, əskik çıxması və zədələnməsinə (xarab olmasına) görə daşıyıcının məsuliyyətini əks etdirir. Bu maddənin 1-ci bəndində yazılır ki,: daşıyıcı müştəridən yükü və ya baqajı qəbul etdiyi andan onu yükalana təhvil verənədək həmin yükün və ya baqajın qorunmasını təmin etməlidir. Daşıma zamanı yollarda ləngimələrin əsas səbəblərindən biri də, yuxarıda qeyd edildiyi kimi, nəqliyyat vasitələrinin texniki nasazlığıdır. Ona görə də hər bir daşınmadan qabaq istifadə olunacaq avtonəqliyyat vasitələrinə profilaktiki xidmətlər göstərilməsi və lazımi texniki xidmət işlərinin aparılması zəruridir. Əks halda daşıyıcıdan asılı olan səbəbdən yükün və ya baqajın itirilməsi baş verərsə, bu zaman daşıyıcı müştəriyə dəymiş ziyanı maddə 18.3-də göstərilmiş qaydada ödəməyə borcludur. Eyni zamanda, yaxşı olardı ki, belə məsuliyyətlər təmir müəssisələri üçün də təyin ediləydi. Avtonəqliyyat vasitələrini təmir edən müəssisə, öz istehsalına müəyyən təminat verəydi. Bu təminat ya yürüş norması, ya da vaxt norması kimi təyin edilə bilər. Bu istiqamətdə müvafiq proqram və qərarlar qəbul edilsə də, hələ ki, real olaraq texniki xidmət və təmir müəssisələri yerinə yetirdikləri işlərə görə, hüquqi cəhətdən, heç bir məsuliyyət daşımırlar. Əslində isə, nəqliyyat vasitəsinə qoyulan hər bir manat vəsait yeni yürüş deməkdir. O cümlədən, təmir və ya texniki xidmətə də sərf edilən vəsait müəyyən yürüş deməkdir. Bu baxımdan da, texniki xidmət və təmir müəssisələrinin fəaliyyətinə dair müvafiq normativ-hüquqi sənədin qəbul edilməsi və bu sahədə zəmanətli xidmətlərə keçilməsi məqsədəuyğun olardı. Bu, həm də ondan irəli gəlir ki, son dövrlər bir "usta və ya təmir sexləri" bolluğu müşahidə edilsə də, avtoservis xidmətlərinin keyfiyyət yüksəlişi o qədər də hiss edilmir ki, bu da nəticədə daşımaların səmərəliliyini aşağı salır [2].

Araşdırmalardan aydın olur ki, inkişaf etmiş dövlətlərdə ayrı-ayrı təmir müəssisələrində avtonəqliyyat vasitələrinin əsaslı təmiri aparılmır. Nəqliyyat vasitələri müəyyən müddət istismardan sonra istehsalçı müəssisə tərəfindən geri alınır və əsaslı təmir də bu müəssisədə həyata keçirilir. Texniki xidmət və təmir müəssisələrinin fəaliyyətinin təşkili barədə daim beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi zəruridir.

Avtonəqliyyat vasitələrinin istismarı zamanı nəzərə alınmalı ən vacib məsələlərdən biri də təhlükəsizliyin və ekoloji tələblərin təmin edilməsidir. Araşdırmalar göstərir ki, yol-nəqliyyat hadisələrinin 55-60%-i nəqliyyat vasitələrinin texniki nasazlığı səbəbindən baş verir. Ona görə də istər təhlükəsizliyin, istərsə də ekoloji tələblərin təmin edilməsi üçün birinci növbədə avtonəqliyyat vasitələrinin texniki sazlığının təmin edilməsi zəruridir: Nəqliyyat müəssisələri və daşıyıcılar sərnişinlərin hərəkətinin təhlükəsizliyini, həmçinin ətraf mühitin mühafizəsini təmin etməyə borcludurlar ("Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 22.1). Bu tələbin ödənilməsinə isə ancaq müasir texnika və texnologiya ilə silahlanmış texniki xidmət və təmir müəssisələrinin yaradılması, təkmilləşdirilməsi və səmərəli

fəaliyyətinin təşkili ilə nail olmaq olar. Qanunda da qeyd olunur ki,: Nəqliyyat vasitələri, yollar, habelə nəqliyyatın işini təmin edən müvafiq texniki vasitələr (işlər, xidmətlər) dövlət standartları ilə müəyyən edilmiş insanın həyatı, səhhəti və əmlakının təhlükəsizliyinə, əməyin mühafizəsinə və ekoloji təhlükəsizliyə dair məcburi tələblərə uyğun olmalıdır (maddə 22.3).

Avtonəqliyyat vasitələrinə texinki xidmət və təmir müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bərabər bu müəssisələrin layihələndirilməsi zamanı da yuxarıdakı tələblərin nəzərə alınması zəruridir. Belə müəssisələr layihələndirilərkən boş gedişlərin miqdarının minimumluğu, kommunikasiya xətlərinə yaxınlığı, giriş-çıxış yollarının sərbəstliyi və s. tələblərlə yanaşı ətraf aləm (bitki və heyvan aləmi), atmosfer, təbii ehtiyatlar, faydalı qazıntılar və digər səbəblərin də nəzərə alınması vacibdir. “Nəqliyyat haqqında” qanunda da bu tələb öz əksini tapmışdır: Faydalı qazıntıların olduğu meydançalarda nəqliyyat müəssisələrinin layihələndirilməsi və tikintisi, eləcə də yeraltı qurğuların yerləşdirilməsi qadağandır. Müstəsna hallarda, buna müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə yol verilir (maddə 22.6). Yuxarıda göstərilən tələblərin nəzərə alınmadığı təqdirdə nəqliyyat müəssisələri (texniki xidmət və təmir) bu qanunun 22.7-ci maddəsilə təsbit edilmiş məsuliyyət daşıyırlar. Təkcə Bakı şəhərində yüzlərlə kiçik və orta avtotəmir müəssisələri fəaliyyət göstərir. Bu hal kiçik biznesin və sahibkarlığın inkişafı baxımından müsbət olsa da, təmir və texniki xidmətin hal-hazırkı keyfiyyəti baxımından qənaətbəxş hesab edilə bilməz. Çünki obyektlərdə nə texniki xidmət və təmirlə məşğul olan kadrların hazırlıq səviyyəsinə, nə də bu işlərin keyfiyyətinə heç kim zəmanət vermir və məsuliyyət daşımır. Ona görə də yaxşı olardı ki, müvafiq dövlət qurumları texniki xidmət və təmirlə məşğul olan servis müəssisələrinin, kiçik və orta sexlərin fəaliyyətinə birgə nəzarəti həyata keçirəydilər. Başqa sözlə avtotəmirlə məşğul olan fiziki və hüquqi şəxslərin sertifikatlaşdırılması məqsədəuyğun olardı. Bu, texniki xidmət və təmirin keyfiyyətinin yüksəldilməsinə kömək edər, eləcə də bu halda görülən işlərə, yerinə yetirilən xidmətlərə zəmanət verilməsi də mümkündür [2; 12].

Azərbaycan Respublikasında səmərəli nəqliyyat sisteminin formalaşmasında xüsusi əhəmiyyət kəsb edən sənədlərdən biri də “Avtomobil nəqliyyatı haqqında” qanundur. Ümumiyyətlə, avtomobil nəqliyyatı, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat xidmətlərinin təşkili və s. haqqında bəndlərlə zəngin, mükəmməl bir Qanunun qəbul edilməsi və qanunda daşıma prosesində iştirak edən bütün tərəflərin hüquq və vəzifələrinin dəqiq müəyyən olunması, ölkədə strukturunda Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin yaradılması bu sahədə inkişafı daha da sürətləndirən, eləcə də nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət edən mühüm addımdır. “Avtomobil nəqliyyatı haqqında” Qanunda taksi, avtobus və yük avtomobillərinin istismar qaydalarının aydın şəkildə öz əksini tapması, ekoloji normaları daha tez-tez pozan iri nəqliyyat vasitələrinin texniki baxışdan keçirilmə qaydalarının təkmilləşdirilməsi, respublika üzrə avtovağzalların (avtostansiyaların) konkret və vahid quruluşunun müəyyənləşdirilməsi, bu sahədə lisenziyalaşdırma işlərinin təkmilləşdirilməsi və s. avtonəqliyyat xidmətləri sahəsində ciddi irəliləyişlərə səbəb olacaqdır.

Təbii ki, hər bir sahədə səmərəli fəaliyyətin təşkili, yuxarıda qeyd edildiyi kimi, ilk növbədə müvafiq normativ-hüquqi bazanın yaradılmasını tələb edir. O cümlədən, bütün insanların gündəlik istifadə etdiyi və daha geniş yayılmış nəqliyyat növü olan avtomobil nəqliyyatı haqqında belə bir qanunun qəbul edilməsi istər idarəetmə sisteminin təşkili, istərsə də nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir [1]. Qanunun qəbul edilməsi avtomobil nəqliyyatının fəaliyyətinin səmərəli təşkilinə hesablanmış mühüm bir addımdır.

Məlumdur ki, bütün sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da qanunvericilik sisteminin mühüm tərkib hissələrindən biri də beynəlxalq səviyyəli konvensiyalar, sazişlər və s. sənədlərdir. Eyni zamanda, konkret olaraq Avropa məkanı üçün qüvvədə olan normativ-hüquqi sənədlər mövcuddur. Məsələn, Azərbaycan Respublikasının da 2002-ci ildən qoşulduğu, təhlükəli yüklərin quru yolla beynəlxalq daşımaları haqqında Avropa Sazişi avtomobil daşımalarını tənzimləyən mühüm aktlardan biridir. Eləcə də, bir çox Avropa ölkələrinin üzv olduğu Beynəlxalq Yükdaşıma Müqaviləsi Haqqinda Konvensiya da avtomobil nəqliyyatı sferasında mühüm beynəlxalq sənəddir. Bu Konvensiya beynəlxalq yükdaşıma müqaviləsi bağlanan zaman, icra olunan və ləğv edilən zaman tərəflərin tətbiq etdiyi prosedurları, habelə müqavilə şərtlərini icra etməməyə və lazımınca icra etməməyə görə daşıyıcının üzərinə düşən məsuliyyəti müəyyənləşdirir. Konvensiyada avtomobil daşınması zamanı yük sahibi və daşıyıcının əsas hüquq və vəzifələri, yükün daşınma üçün qəbul olunması və onun təyinat yerlərinə verilməsi qaydaları, iddia və tələbləri haqqında göstərişlər ifadə edilmişdir. 1959-cu ildə qəbul edilmiş bu Konvensiyanın əsas məqsədi üzv ölkələr arasında sərhəd-gömrük prosedurlarının sadələşdirilməsindən ibarətdir [1; 5; 8,s.102-113].

Ümumiyyətlə, Azərbaycan Respublikasının beynəlxalq aləmə sürətlə inteqrasiya etməsi, eləcə də ölkəmizin strateji əhəmiyyətli beynəlxalq nəqliyyat dəhlizlərinin əhatəsində yerləşməsi səbəbindən respublikamızın nəqliyyat sferasında son illər ərzində qoşulduğu beynəlxalq konvensiya və digər sənədlərin sayı onlarladır. Bütün hallarda isə qarşıda duran başlıca məqsəd xidmətlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə mane olan səbəblərin aradan qaldırılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, ayrı-ayrı ölkələrin daşıma potensialından səmərəli istifadənin təmin edilməsi və ümumilikdə davamlı inkişaf edən bir nəqliyyat sisteminin formalaşdırılması kimi ümumi məsələlərdir.

Araşdırmalardan aydın olur ki, nəqliyyat qanunvericiliyinin mühüm bir istiqamətini də məcəllələşdirilmiş aktlar təşkil edir. Hava Məcəlləsi, Gəmiçilik Məcəlləsi və s. nəqliyyat qanunvericiliyinin məcəlləşdirilmiş aktlarıdır. Eyni zamanda, bu məcəllələrin Mülki Məcəllədən əsas fərqi ondan ibarətdir ki, nəqliyyat məcəllələri sahədaxili xarakter daşıyır. Ümumiyyətlə, bir çox respublika və beynəlxalq səviyyəli normativ sənədlərin təhlili göstərir ki, bütün hallarda nəqliyyat daşımaları, nəqliyyat müəssisələri və daşıyıcılar arasındakı münasibətlər müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq bağlanmış iki və çoxtərəfli müqavilə əsasında tənzimlənir [5; 7; 8].

Beləliklə, səmərəli və davamlı inkişaf edən nəqliyyat sisteminin formalaşdırılması, nəqliyyat sistemində səmərəli idarəetmənin

formalaşdırılmasına dair normativ-hüquqi bazanın təhlili və qiymətləndirilməsi istiqamətində aparılan tədqiqatlardan bu nəticəyə gəlinir ki, nəqliyyat sisteminində müvafiq tənzimləməni həyata keçirmək üçün ölkəmizdə zəngin baza və təcrübə mövcuddur. Eyni zamanda, cəmiyyətdə və beynəlxalq aləmdə hər an dəyişikliklərin baş verməsini nəzərə alsaq, normativ-hüquqi bazanın da mütəmadi olaraq təkmilləşdirilməsinin zəruriliyi məlum olar. Bu baxımdan, mövcud normativ sənədlərin vaxtlı-vaxtında müvafiq dəyişiklik və ya əlavələr edilməsi ilə təkmilləşdirilməsi vacibdir. Belə ki, nəqliyyat sistemində daşıyıcı, yükgöndərən, nəqliyyat müəssisəsi və s. kimi bir neçə tərəf mövcuddur ki, bu subyektlərin arasında da müxtəlif məqsədli iqtisadi münasibətlər formalaşır. Məsələn, avtomobil nəqliyyatında əsas istehsal fondlarının istismarı sahəsində iqtisadi münasibətlərin bütün formalarının son nəticəyə – tələbatın ən az xərclərlə tam və keyfiyyətli ödənilməsinə yönəldilməsi məqsədəuyğun olardı. Bütün bunlar isə o deməkdir ki, daşıma münasibətləri sistemində hər bir agent son nəticənin alınmasına çalışmalı, öz işinin müsbət və mənfi nəticələrinə görə də haqq almalıdır. Ədalətli rəqabət və idarəetmə sisteminin əsas şərtlərindən biri də, məhz budur. Davamlı inkişaf edən nəqliyyat sistemində səmərəli idarəetmənin formalaşdırlması, eləcə də təhlükəsizliyin təmin edilməsi, daşımaların kəmiyyət və keyfiyyətinin yüksəldilməsi bu fəaliyyəti tənzimləyən normativ-hüquqi bazanın da mütəmadi olaraq təkmilləşdirilməsini zəruri edir.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. Azərbaycan Respublikasının “Avtomobil nəqliyyatı haqqında” Qanunu. Bakı şəhəri, 01 aprel 2008-ci il;
2. Azərbaycan Respublikasının “Nəqliyyat haqqında” Qanunu. Bakı şəhəri, 11 iyun 1999-cu il, № 683-IQ;
3. “Azərbaycan Respublikasinin Milli Təhlükəsizlik Konsepsiyasi”.
4. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram”ının təsdiq edilməsi haqqında 18 fevral 2003-cü il tarixli Fərmanı;
5. E.Ə.Əliyev “Qloballaşma dövründə beynəlxalq nəqliyyat daşımaları: hüquqi aspektlər”. Bakı, “Zərdabı LTD” MMC, 2006, 360s.;
6. S.Q.Cümşüdov, A.M.Əsədov “Nəqliyyat infrastrukturunun inkişaf istiqamətləri (avtomobil nəqliyyatı timsalında)”. “TI-MEDIA” NPM, Bakı, 2008, 152s.
7. A.M.Əsədov “Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri”. Bakı, 2013, “Avropa” nəşr., 352 səh.;
8. E.B.Həsənov “Nəqliyyat sisteminin səmərəli idarə edilməsində islahatların prioritet istiqamətləri”. AMEA İqtisadiyyat İnstitutu, 2009, fəlsəfə doktorluğu dissertasiya işi, 153 səh.;
9. А.Э.Горев, Е.М.Олещенко «Организация автомобильных перевозок и безопасность движения». М.:, Издательский центр «Академия», 2008, 256 с.;
10. Абалонин С.М. «Конкурентоспособность транспортных услуг». Москва, Академкнига, 2004, 299 стр.;
11. В.В.Донченко, А.П.Петрова «Проблемы организации деятельности по обеспечению безопасности перевозок пассажиров и грузов в автотранспортных предприятиях различных форм собственности», М.: Автополис-плюс, 2008, 164 с.;
12. В.Волгин «Автосервис. Торговые операции. Практическое пособие». М.:, Дашков и К, 2016, 420 стр.

## НОРМАТИВНО-ПРАВОВОЙ ОСНОВЫ СОВЕРШЕНСТВОВАНИЕ УПРАВЛЕНИЯ ТРАНСПОРТНОЙ СИСТЕМЫ

**Асадов Агиль Махияддин оглы,**
**доктор философии по экономических наук, доцент.**

В статье рассматриваются вопросы эффективного управления транспортной системой. Исследовал роль нормативно-правовой базы в этой области. Нормативно-правовая база анализируется как важный элемент надлежащего управления. В статье анализируются законы Азербайджанской Республики «О транспорте», «Об автомобилях», Воздушный кодекс, Кодекс судоходства и Международные конвенции, к которым присоединился Азербайджан. В частности, широко изучаются нормативные документы, связанные с регулированием деятельности автомобильного транспорта. В статье разъясняются технические проблемы автомобилей. Техническое состояние транспортных средств рассматривается с экологической точки зрения, а также с точки зрения эффективной организации перевозок.

В статье приводятся некоторые предложения и рекомендации по совершенствованию нормативной базы, регулирующей транспортную систему.

**Ключевые слова:** транспортная система, нормативные документы, регулирование, техническое обслуживание и ремонт, виды транспорта и др.

## REGULATORY AND LEGAL BASICS IMPROVEMENT OF MANAGEMENT IN TRANSPORT SYSTEM

**Asadov Agil Mahiyaddin,**
**PhD, associate professor.**

The article was explored the issues of efficient transport system management. The role of the regulatory framework in this area is being clarified. The regulatory basics is analyzed as an important element of good manage. The article analyzes the laws of the Republic of Azerbaijan "On Transport", "On Motor Transport", Air Code, Code of Shipping, and International Conventions joined by Azerbaijan. In particular, normative documents related to the regulation of road transport activities are widely studied. The article explains the technical issues of vehicles. The technical condition of the vehicles is considered from the environmental point of view, as well as from the point of view of the efficient organization of transportation.

The article provides some suggestions and recommendations for improving the regulatory framework manage the transport system.

**Key words:** Transport system, regulatory documents, regulation, maintenance and repair, types of transport, etc.

# XALQ-İQTİDAR BİRLİYİ BUGÜNKÜ SABİTLİYİN VƏ MÜSTƏQİLLİYİMİZIN ƏSAS TƏMİNATIDIR

**Müasir dünyada dövlətlərin gücü, onların müstəqillik dərəcəsi daxili sabitliyin, xalq-iqtidar birliyinin səviyyəsi ilə müəyyənləşir. Geosiyasi proseslərin təhlili göstərir ki, hər hansı ölkədə xalq-iqtidar birliyi təmin edilməyibsə, nə zəngin təbii sərvətlər, nə də hansısa xarici maraqlara xidmət edən "dəyərlər” o ölkəni sabit və davamlı inkişaf yoluna çıxara bilməz. Azərbaycanın yeni və ən yeni dövr tarixində baş verən proseslər xalq-iqtidar birliyinin mövcud olmamasının hansı təlatümlərə və faciələrə gətirib çıxardığını göstərmişdir. 1991-1992-ci illərdə ölkədə yaranmış idarəolunmaz vəziyyət, Azərbaycanın dərin böhrana düçar olması, ölkəni xaos, anarxiya, özbaşınalığın bürüməsi məhz xalq-iqtidar birliyinin təmin olunmamasının nəticəsi idi.**

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev ölkədə xalq-iqtidar birliyini təmin edə bilmişdir. Məhz xalq-iqtidar birliyinin təmin olunması Azərbaycanın həqiqi müstəqillik yoluna qədəm qoymasına şərait yaratmışdır. 2003-cü ildə ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev isə nəinki xalq-iqtidar birliyini möhkəmləndirmiş, həm də bu birliyin təminatçısı və qarantına – hər bir Azərbaycan vətəndaşının Prezidentinə çevrilmişdir. Azərbaycan tarixində İlham Əliyevin liderliyini ən orijinal şəkildə yalnız bu cür ifadə etmək mümkündür.

Dövlət başçısı İlham Əliyevin bütün fəaliyyəti milliyyətindən, dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən, cinsindən asılı olmayaraq hər bir vətəndaşa bərabər, tolerant, səmimi yanaşmadan və ən əsası azərbaycançılıq ideologiyasına sadiqlikdən xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə ali vəzifəyə seçilməsindən keçən dövr ərzində xatırlamalı olduğumuz daha bir məqam var. Ölkənin hər bir vətəndaşını, hətta vətən daşını sevən birinci VƏTƏNDAŞın siyasi olimpin zirvəsinə qalxarkən xalqı qarşısında səsləndirdiyi nitqdə mühüm bir məqam: "Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək

və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm”.

Bəli, bu, gənc, xarizmatik, praqmatik düşüncəli, işgüzar, xalqına, Vətəninə, millətinə bağlı yeni liderin sadəcə seçimsonrası vədi deyildi. Bu, Azərbaycan dövlətini, dövlətçiliyini möhkəmləndirmək, dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmaq üçün müəyyən edilmiş müdrik siyasi yolun müdrik xalqa açıqlaması idi. Vətəndaşın Prezidenti vətəndaşına hansı yolla gediləcəyini bəyan edirdi.

Ötən illər ərzində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yürüdülən sosial-iqtisadi siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların inkişafı sürətləndirilmiş, əhalinin rifah halı xeyli yaxşılaşdırılmışdır. Nəticədə Azərbaycan "Doing Business 2019” hesabatında dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilmiş, həmçinin dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan Respublikası 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider olmuşdur.

Məhz ölkə daxilində Prezident İlham Əliyevin liderliyində iqtidar-xalq birliyinin təmin olunması respublikamızın beynəlxalq aləmdə inamla addımlamasına qarant vermişdir. Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının hesabatlarında da dəfələrlə əksini tapmışdır. Məsələn, Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda "Siyasətçilərə ictimai etimad” adlanan kateqoriyası üzrə Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi 20 ölkədən biri olaraq qiymətləndirilmişdir. Bu göstərici ilə "Böyük İyirmilik” ölkələrinin hər 4-dən 3-nü geridə qoyan Azərbaycan nəinki yerləşdiyi Qafqaz regionunun ölkələrini, ümumilikdə SSRİ-nin dağılmasından sonra müstəqilliyini bərpa etmiş bütün dövlətləri qabaqlamışdır.

Prezident İlham Əliyev 2019-cu il oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi münasibətilə təşkil edilmiş tədbirdə bu məqama xüsusi toxunaraq demişdir: "Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu, nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur.

Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək".

Bir dövlətin varlığını beynəlxalq sistemdə təsdiq etməsinin əsas şərtlərindən biri onun daxili və xarici siyasətinin digər bir dövlətin diktəsi ilə deyil, milli maraqların mənafeyi baxımından həyata keçirməsidir. Ötən illər ərzində Azərbaycan təkcə yerləşdiyi Qafqaz geosiyasi məkanında deyil, ümumilikdə bütün dünyada öz siyasi nüfuzunu, müstəqil siyasət yürütdüyünü dəfələrlə təsdiq etmişdir.

Azərbaycan İlham Əliyevin Prezidentliyi dönəmində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 120 ölkəni öz sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır. Bütün bu qələbələr sübut edir ki, Azərbaycan dünya xəritəsində nəinki özünə layiq yerini tuta bilmişdir, həm də dünya birliyinin mütləq əksəriyyətinin rəğbətini, hörmətini, inamını qazanmışdır. Bu günlərdə ölkəmizdə keçirilən Dünya dini liderlərinin II Sammiti Azərbaycan dövlətinin və dünyada sülhün və sabitliyin bərqərar olması uğrunda yorulmadan fəaliyyət göstərən Azərbaycan Prezidentinin nüfuzunun göstəricisidir.

Dövlət başçısının xarici siyasətdə nümayiş etdirdiyi qətiyyətin təməlində isə daxili sosial-iqtisadi sabitliyin mövcudluğu, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi dayanır. Ölkədə bütün sahələrin dinamik inkişafının davamlı xarakter daşıması üçün ilk növbədə təhsilli, savadlı, dünyagörüşlü kadrların yetişdirilməsi əsas şərtlərdəndir. "Biz neft kapitalını insan kapitalına çevirəcəyik" deyən dövlət başçısı İlham Əliyevin bu strateji yanaşmasının bəhrələrini artıq hər birimiz görməkdəyik. Azərbaycanda istedadlı, savadlı, müasir dünyagörüşlü, əxlaqi keyfiyyətləri ilə seçilən gənclər ordusu formalaşıb. Yürüdülən siyasət, yaradılan şərait Azərbaycan vətəndaşına öz bilik və bacarıqlarını ümummilli inkişaf yolunda sərf etməsi üçün geniş imkanlar formalaşdırıb.

Bütün bunlar isə vətəndaşının maddi, mənəvi və fiziki təhlükəsizliyini təmin etməyə qadir olan oturuşmuş dövlətçilik sistemindən xəbər verir. Vətəndaş dövlətini, dövlətçiliyini qorumağı özünə mənəvi borc hesab edir. Bu isə ölkənin birinci VƏTƏNDAŞInın hər bir vətəndaşın Prezidenti olmaq kimi ali idealının reallaşdığını göstərir.

**Elnur KƏLBİZADƏ,**
**AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru.**

# GÜCLÜ LİDERİ OLAN XALQ YENİLMƏZDİR

***Tarixən inkişafı hədəfləyən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini gənc nəslin potensialı ilə uzlaşdırır və tərəqqiyönümlü siyasətin prioritetlərini müəyyənləşdirir. Əbədi müstəqillik, həmçinin planlaşdırılan nəticələrin əldə olunması üçün intellektual və sağlam gəncliyin yetişdirilməsi əsas məsələlərdən hesab edilir. Cəmiyyət üçün perspektivli gənclərin prototipində yaxşı təhsilli, intellektual, çevik, sosial-iqtisadi inkişafın tələblərinə adekvat fəaliyyət göstərmək bacarığına malik, eləcə də həyata keçirilən islahatların aparıcı qüvvəsinə çevrilə bilən cavan və dinamik zümrələr durur.***

Sadalanan məziyyətləri özündə birləşdirən gənc nəsillər cəmiyyətin elm, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etməklə, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Müsbət dəyişkənlik, o cümlədən inkişaf tendensiyaları hər nə qədər tərəqqini hədəfləyən ölkələr üçün real vəziyyətin qiymətləndirilməsində başlıca meyar hesab edilsələr də, tərəqqi naminə sabit və dəyişməz dəyərlər (ənənələrə sadiqlik, milli keçmişi yaddaşında həkk etmək və hər bir fəaliyyətində onları rəhbər tutmaq və s.) də var ki, onlar xalqın iradəsinin möhkəmliyində, varlığının əbədiyyətində bir o qədər həlledici amilləri formalaşdırırlar. Bu mənada Azərbaycanda həyata keçirilən gənclər siyasətinin reperində keçmişimizə, milli-mənəvi dəyərlərimizə bağlılıqla inkişafı hədəfləyən fəaliyyətin təşkilinə hesablanan harmonik və proqressiv tendensiyaları görürük. Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin gənclər siyasətilə bağlı müəyyənləşdirdiyi inkişaf strategiyasında, həmçinin islahatlar dövrünun intibahında səsləndirdiyi çıxışlarının hər birində keçmişə bağlılıq, gənc nəslə inam kimi çağırışların təsadüfi olmadığı qənaətinə cəsarətlə varmaq olar.

Ölkə Prezidenti müraciətlərində Azərbaycan gəncliyinin mənəvi ruhuna üz tutur, gənc nəslin vətən sevgisinə əsaslanır. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan gənci yeri gəldikdə döyüş meydanlarında zəfərlər üçün igidlik göstərmişdir. Gənclərimiz dünya mədəniyyətinə töhfələr vermişdir. Böyük elmi ixtiraları və kəşfləri ilə dünyanı heyrətə gətirən gənclərimiz az olmamışdır. Bu gün böyük iftixarla deyə bilərik ki, müasir Azərbaycan gəncliyi tarixi kökündən, genindən qidalanan milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalarımızın hər bir mirasını göz bəbəyi kimi qoruyub yaşadır. Onlar Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilir, müstəqilliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin in-

kişaf etdirilməsi prosesində də yaxından iştirak edir, tarixi nailiyyətlərin episentrində durublar. Azərbaycan gənci öz həyatını qurarkən öncə müstəqil ölkəmizin bugünü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Əlbəttə, buna gənclərimizin yüksək potensialı, əldə etdikləri bilikləri və güclü vətənpərvərlik hissləri tam imkan verir.

Prezidentin nitqlərində də ən vacib amil gənclərin bilikli, savadlı olmaları, yeni peşələri mənimsəmələri, dəyişən dövrün tələbləri ilə uyğunlaşmaları ön plana çəkilir. Bilik və savad gənclərin yaxşı təminatlı gələcəyini müəyyən edən dəyər kimi qiymətləndirilir. Deməli, gənclər savadlı böyüməli, o cümlədən dərin biliklərə yiyələnməli və daim mütaliəli olmalıdırlar. Bütün bunlar onlara iş tapmaqda, karyera qurmaqda, ölkəmizi ən yüksək səviyyələrdə təmsil etməkdə, bir sözlə, hərtərəfli inkişaf etmiş intellektual fərdin yetişməsində Azərbaycanın firavan gələcəyinə xidmət etmək nöqteyi-nəzərindən mühüm rol oynayır.

Gənc nəsillərimiz üçün müasir milli-mənəvi dəyərlərin, eləcə də inkişafları ilə bağlı intihab dövrünün formalaşmasının təməlində müdrik siyasi baxışlar və onların nəticələri durur. Əgər bu gün Azərbaycan gəncliyi yüksək intellektli aparıcı qüvvə kimi formalaşıbsa, bu prosesin ritmində davamlılıq göz oxşayırsa, onda birmənalı olaraq dövlətimizin yürütdüyü yaxın keçmişimizə bağlı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin tarix nöqteyi-nəzərindən başlanması və bərqərar olması Ümummilli Lider Heydər Əliyev fenomeninin şah əsərlərindəndir. Ulu Öndərin Azərbaycan xalqı üçün müəyyənləşdirdiyi gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Heydər Əliyevin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının qarantıdır. Ümummilli Lider həmişə gənclərimizə böyük ümidlər bəsləmiş, dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın xoşbəxt gələcəyi gənclərin əlindədir. Prezident İlham Əliyevin çıxışlarında səsləndirdiyi "Milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə alan gənclər müstəqil Azərbaycanı gələcəyə inamla aparacaqlar” fikri də siyasi varislik və dəyişməz hədəflər baxımından olduqca əhəmiyyətlidir.

Dövlət başçısının çıxışlarının demək olar ki, əksəriyyətində, o cümlədən son dövrlərdə ölkəmizdə keçirilən böyük islahatların mərkəzində Azərbaycan gənclərinin fəaliyyətinə xüsusi diqqət yetirilməsi gənclərə göstərilən böyük etimadın

ifadəsidir. Eyni zamanda bu etimad, diqqət, qayğı bizim qarşımızda böyük vəzifələr müəyyənləşdirir və məsuliyyətimizi artırır. Bu mənada Azərbaycan Milli Elmlər Akademiyasında, o cümlədən ölkəmizin ali təhsil müəssisələrində fəaliyyət göstərən elmi gəncliyin üzərinə də mühüm vəzifələr düşür. Hazırda ölkə elminin nailiyyətlərinin dünyanın inkişafına töhfələr verməsi, Azərbaycan həqiqətlərinin elmi obyektivlik prinsiplərinə əsaslanmaqla dünyada təbliğ edilməsi məhz bu vəzifələrdəndir. Həmin vəzifələrin yerinə yetirilməsi üçün son illər ərzində gənc alimlərimiz yorulmadan çalışırlar. AMEA-da elmlə təhsilin vəhdətinin yaradılması, elmin populyarlığının artırılması, Azərbaycan gəncliyinin potensialının müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi, gənc mütəxəssislərin dünya elminə inteqrasiyası, eləcə də onların sosial şəraitinin yaxşılaşdırılması, asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində çoxşaxəli işlərin həyata keçirilməsi gənc alim və mütəxəssislərin fəaliyyətini daha da stimullaşdırır. Alimlərimizin tədqiqatlarında Azərbaycanda tarixən formalaşmış dini və milli dözümlülük mühitinin, multikulturalizmin Azərbaycan modelinin elmi əsaslarla öyrənilməsi də mühüm yerlərdən birini tutur.

Müasir tariximizdə gənclərə milli-mənəvi dəyərlərin aşılanması prosesinin əsas hədəfində Azərbaycanın müstəqilliyini qorumaq, o cümlədən onları yad təsirlərdən mühafizə etmək məqsədləri durur. Məlumdur ki, respublikamız son illər hər sahədə ciddi irəliləyişlər əldə etmiş, siyasi arenada nüfuz baxımından xeyli güclənmişdir. İqtisadi müstəqilliyimizin qorunması istiqamətində aparılan balanslaşdırılmış siyasət öz hədəflərinə hər ötən gün daha da yaxınlaşmaqdadır. Lakin təbii ki, qazanılan uğurlar, böyüyən hədəflər ölkəmizə qarşı yönələn təhdidlərin miqyasının artmasına rəvac vermişdir. Bununla bağlı bir sıra qüvvələr Azərbaycan gənclərini milli dövlətçilik təfəkküründən və dəyərlərdən uzaqlaşdırmağa çalışırlar. Belə qüvvələr Azərbaycan dövləti əleyhinə yalan üzərində formalaşdırılan müzakirələrin təşkilinə çalışırlar. Yalan gerçəklik kimi təqdim edilməklə informasiya manipulyasiyası formalaşdırılır. Bu mənfur məqsədin gerçəkləşdirilməsi üçün ilk növbədə cəmiyyətimizin ən dinamik və çevik qüvvələri hədəfə alınır. Lakin Azərbaycan gəncləri adından bütün anti-Azərbaycan təbliğatı aparan xarici və yerli qüvvələrə bəyan edirik ki, bizim böyük ümidlərimiz və hədəflərimizlə Prezident İlham Əliyevin ideyaları və yürütdüyü siyasət tamamilə üst-üstə düşür. Gəncliyə güvənən, onun xoşbəxtliyi üçün çalışan lideri olan xalq yenilməzdir, məğlubedilməzdir!

**Famin SALMANOV,**
**AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent.**

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ LİDER FENOMENİ

**Çağdaş tariximizin görkəmli siması, böyük siyasətçisi olan Heydər Əliyev milyonlarla insan üçün ideal şəxsiyyətdir. Azərbaycanın yeni və ən yeni tarixi də məhz onun siyasəti və strategiyası ilə yaranıb. Ulu öndər dövlət idarəçiliyinin hər bir mərhələsində vətəninə, xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə yanaşıb, milli ideyalara daxilən bağlı olub. Azərbaycanın ümummilli lideri unikal bir siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıb.**

Heydər Əliyev zaman etibarilə dövlətçilik tariximizin yalnız 35 ilinə sahiblik edib. Fəqət əsrin üçdə birini ehtiva edən bu zaman kəsiyinin mahiyyətində xalqın yüzilliklərlə intizarında olduğu ideallar, niyyətlər, arzular gerçəkliyə çevrilib. Bu 35 il Azərbaycanda müstəqilliyin əbədi, daimi, dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstutision haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsi və hərtərəfli inkişafı kimi misilsiz tarixi prosesi özündə ehtiva edir. Azərbaycan əsrlər boyu əxz etdiyi idarəetmə ənənəsini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını, özünü idarə etmək bacarığını dünyaya bir daha nümayiş etdirib.

Ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycanda rəhbərlikdə olduğu dövrdə yaratdığı sosial-iqtisadi, siyasi, mənəvi-psixoloji baza sonrakı dövrdə – müstəqillik illərində Azərbaycan xalqı üçün çox böyük əhəmiyyət kəsb etdi. SSRİ-nin dağılması ərəfəsində 15 müttəfiq respublikadan yalnız 3-ü – Rusiya, Ukrayna və Azərbaycan öz daxili imkanları hesabına iqtisadi problemlərini həll etməyə qadir idi.

Ümummilli liderin diqqətçəkən idarəçilik keyfiyyətləri sırasında onun ən çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcək. Öz liderinin müdrik uzaq hədəflərə hesablanmış, çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən ağır, mürəkkəb vəziyyətlərdə belə arxayın idi. Təkcə bu səbəbdən ki, baş qaldıran təhlükələr, həyatın bu və ya digər mürəkkəblikləri Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Azərbaycan insanı əminliklə öz liderinin ən çətin dövlətçilik sınaqlarından üzüağ çıxacağını bilirdi. Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qalanda xalqın yeganə xilaskarı kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı.

Həmin ilin iyununda xilaskarlıq missiyasının nəticəsi kimi Azərbaycan xalqı Heydər Əliyevi özünün rəhbəri seçdi. Ulu öndərin rəhbərliyi altında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda uğurlu addımlar atıldı, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan hüquqi islahatlar həyata keçirildi, insan hüquq və azadlıqlarının təminatı sahəsində dönüş təmin edildi.

Bu mənada 90-cı illərdə Heydər Əliyevin xilaskarlıq missiyasına sığınan Azərbaycan cəmiyyəti böyük liderin tarixi rolunu heç də təkcə ölkəni təhlükədən xilas etməkdə görmürdü. Xalq Azərbaycanın xilasını geniş planda, ölkədə nəinki yeni siyasi, həm də iqtisadi və mənəvi situasiyanın yaradılması miqyasında nəzərdən keçirirdi. Başqa sözlə, Heydər Əliyevin xilaskarlıq missiyası dedikdə çox genişmiqyaslı, sistemli və ardıcıl həyata keçirilən islahatlar başa düşülürdü ki, bunlar Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməzliyini tarixi həqiqətə çevirmiş olacaqdı.

Heydər Əliyev müasir, sivil, demokratik dəyərlərə sahib, azad, müstəqil yaşayan bir milləti dünyanın diqqətinə çatdırdı. Ulu öndər bütün bəşəri dəyərləri özündə əks etdirən, ən ali ənənələri yaşadan və modern yeniliklərə qovuşan, yeni dünya düzənində əhəmiyyətli yer tutan tam bir dövlət yaratdı. Nəticə etibarilə indi Heydər Əliyev faktoru Azərbaycan dövləti və Azərbaycan xalqı ilə birlikdə vahid tam təşkil edir.

Göründüyü kimi, müasir Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan ulu öndər Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınaqlarından şərəflə çəxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, keçdiyi həyat yoluna nəzər yetirdikdə bir xalqın dünəni, bu günü, sabahı aydın görünür. Milli özünüdərkin ən yüksək siyasi idarəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Heydər Əliyevin adı, şəxsiyyəti ilə bağlıdır.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi naminə təşkilati-hüquqi tədbirlərlə yanaşı, həm də mükəmməl ideoloji-siyasi iş aparmış, soydaşlarımızın monolit qüvvəyə çevrilməsi üçün azərbaycançılıq ideologiyasını önə çəkmişdir.

Vurğulamaq lazımdır ki, Ukrayna-Azərbaycan dostluq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu dostluğun memarı isə ulu öndərimiz Heydər Əliyevdir. O, Ukraynada rəsmi səfərlərdə olarkən həmişə milli diasporumuzla yaxından maraqlanmış, onun monolit qüvvəyə çevrilmələri üçün soydaşlarımıza lazımi tövsiyələr vermişdir. Ukrayna-Azərbaycan əlaqələrinin möhkəmlənməsindəki tarixi xidmətlərinə görə Heydər Əliyev "Yaroslav Mudri" ordeninə layiq görülmüşdür.

Qeyd etmək lazımdır ki, Kiyev şəhərinin mərkəzi küçələrinin birində ümummilli lider Heydər Əliyevin əzəmətli heykəli ucalır.

Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdardır. Xalqımız ümummilli liderə həm də ona görə minnətdardır ki, İlham Əliyev kimi lideri bizə bəxş etdi. Çünki məhz Prezident cənab İlham Əliyevin titanik səyi nəticəsində bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən Prezident İlham Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir.

**Əfqan SALMANOV,**
**Azərbaycanın Xarkov şəhərindəki fəxri konsulu, "III dərəcəli Vətənə xidmət" ordenli.**

# DÖVLƏTİN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI İSTİQAMƏTİNDƏ HÜQUQİ DƏSTƏYİ YENİ MƏRHƏLƏDƏ

***Beynəlxalq aləmdə cərəyan edən iqtisadi və siyasi qeyri-sabitliyə baxmayaraq, sona yaxınlaşan 2019-cu il ölkəmiz üçün daha çox iqtisadi islahatlar, biznes mühitinin stimullaşdırılması, şəffaflığın artırılması, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, o cümlədən iqtisadi hüquqpozmalara qarşı effektiv müdafiə mexanizminin vacib aləti rolunda çıxış edəcək kommersiya məhkəmələrinin hüquqi bazasının formalaşdırılması ili kimi yadda qaldı.***

Həyata keçirilməkdə olan iqtisadi islahatlar çoxşaxəli olduğu qədər, həm də mürəkkəb proses kimi təhlil olunmalıdır. Belə ki, daha əvvəlki dövrə nəzər saldıqda aydın olur ki, iqtisadi sfera ilə əlaqədar həyata keçirilən hər bir hüquqi güzəştlər ilk növbədə qanunvericilikdə və normativ sənədlərdə öz əksini tapır. Daha sonra həmin güzəştlər tətbiq edilməyə başlanılaraq rəsmi sənədlərin, qanunvericilik aktlarının tətbiqindəki nöqsanlar aradan qaldırılır, şəffaflıq təmin olunur, sahibkarlar qarşısında daha böyük imkanlar yaradılır. Müəyyən maneələrin və nöqsanların hələ də olmasına baxmayaraq, ümumilikdə islahatlar artıq nəticə verməyə başlamışdır. İqtisadi göstəricilərin artması tendensiyası sürətlənmə, qanuniləşmə və şəffaflaşma prinsiplərinin reallaşmasına zəmin yaratmışdır

Hazırda əvvəlki dövrlərdə olduğu kimi, sahibkarın fəaliyyətinə hər hansı dövlət qurumunun vəzifəli şəxsləri tərəfindən birbaşa nəzarət, yaxud onun fəaliyyətinin bütün istiqamətlərdə yoxlama predmeti kimi nəzərdən keçirilməsi, əsassız müdaxilə, süründürməçiliyə məruz qalma halları olduqca azalmışdır. Yəni artıq bir neçə ildir ki, sahibkarlıq subyektləri fəaliyyətinin istiqamətindən asılı olaraq əvvəlki dövrlərdə olduğu kimi, onlarca orqan tərəfindən yoxlanmaya məruz qalmır, onlara qarşı ciddi tələblər irəli sürülmür.

Əsasən bu məsələlər fərdi şikayətlərin yerində yoxlanması ilə məhdudlaşdırılır. Lakin bu da özlüyündə yeni problemlərə yol açır. Məsələn, işəgötürən tərəfindən əmək qanunvericiliyinin tələblərini pozaraq işçi ilə bağlanmış əmək müqaviləsinə xitam verilən zaman, əmək müfəttişləri tərəfindən mübahisənin yerində araşdırılması mümkün olmadığından inzibati araşdırmanı tam əhatəli şəkildə həyata keçirməyə mövcud normallar müəyyən mənada çətinlik yaradır.

Sahibkarları əvvəllər narahat edən digər hallardan biri lisenziyalı fəaliyyət növlərinin çoxluğu idi. Nəticədə sahibkarlar özləri də qabaqcadan arzu etmədən qeyri-qanuni fəaliyyətin icracısına çevrilir və ya onsuz gərgin rəqabət mühitində olan iş adamları çətin duruma düşərək, reallaşdırmaq istədikləri ideyalarından uzaqlaşırdılar. Qeyd edilən islahatların aparılması ağır tələblər və şərtlər altında realizə olunan lisenziyalaşdırma problemlərini, demək olar ki deşifrə etmişdir.

İndi lisenziyalı fəaliyyət növləri dar bir çərçivəyədək məhdudlaşdırılıb və bu məsələlər qanunvericilikdə mümkün qədər öz hüquqi həllini tapıb. Həm lisenziyalı fəaliyyət növləri azaldılıb, həm də minimum tələblər səviyyəsində sadələşdirilmişdir.

Vergi və gömrük orqanlarının fəaliyyətində hüquq normalarının doğru-düzgün tətbiqi, bu sahədə mövcud qanunvericiliyin tələblərinə riayət olunması arzuolunan səviyyəyə çatmışdır.

İdxal və ixrac rüsumları daxili bazar münasibətlərinin ən əsas tənzimləyəcisidir. Bu məsələrə xüsusi olaraq diqqət artırılmalıdır. Göstərilən səbəbdən normativ sənədlər hazırda yenidən işlənməkdədir.

Sahibkarlıq fəaliyyəti ilə bağlı ən mühüm məsələlərdən biri də elektron xidmətlərin geniş istifadəsi ilə əlaqədardır. Artıq ümumi sayı 450-dən yuxarı olan xidmət alternativ olaraq elektron qaydada göstərilməkdədir. Lakin ayrı-ayrı icra strukturları tərəfindən idarə olunan bu xidmətlər və məlumatlar, onların emalı prosesi hələ də lazımi səviyyədə deyil, proqramların bir-birinə inteqrasiyası zəif təşkil olunub, yaxud bəzi hallarda, ümumiyyətlə, səmərəli deyildir. Bu problemin də həll edilməsi elektron xidmətlərin göstərilməsi sahəsində sahibkarların işini xeyli asanlaşdıracaqdır.

Nəhayət, hər bir sahibkarın hüququnu operativ şəkildə qoruyacaq, elektron resursların təkmil istifadəsi ilə fəaliyyəti üzrə nizamlanan, hüquqi əsaslar formalaşmış ayrıca bir məhkəmənin – Kommersiya məhkəmələrinin yaradılması reallığa çevrilmişdir. Vergi, gömrük, sosial müdafiə ödənişləri ilə bağlı məhkəmələrin icraatında olan işlərin xüsusi ixtisaslaşmış, peşəkar hakimlər tərəfindən aparılması başlıca amil, əsas şərt kimi müəyyən olunmuşdur. Yeni ildən paytaxtda və regionlarda kommersiya məhkəmələri fəaliyyətə başlayacaq, bu istiqamətdə qanunvericilikdə müvafiq dəyişikliklər edilmiş, texniki-təşkilati məsələlər isə hazırda yekunlaşmaq üzrədir.

**İlqar EYYUBOV,**
**hüquq üzrə fəlsəfə doktoru, vəkil.**

# ƏN GÜCLÜLƏR SIRASINDAKI ƏN İSLAHATÇI ÖLKƏ

*Azərbaycanın qüdrətli dövlətlər arasında qərarlaşmasının ABŞ tərəfindən elan olunması Prezident İlham Əliyevin tam müstəqil siyasətinə verilən növbəti yüksək dəyərdir*

***Dayanıqlı inkişaf və tərəqqi yolu, yüksələn reytinq və qazanılan iqtisadi-siyasi dividendlər, sistemli islahatlar və onun uğurlu nəticələri...***

***Bütün bunlar həm geoiqtisadi, həm də geosiyasi mövqelərini daim möhkəmləndirən Azərbaycanın əldə etdiyi müsbət göstəricilər, reallıqlardır. Əlbəttə ki, bu uğurları yalnız biz yox, beynəlxalq iqtisadi forumların, reytinq təşkilatlarının hesabatları da təsdiqləyir.***

Davos Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı”, Dünya Bankının "Doing Business”, "Moody's”, "Standard & Poor's”, "Fitch Ratings”, ABŞ-ın "The Heritage Foundation” analitik mərkəzinin "İqtisadi Azadlıq İndeksi”, ABŞ-ın "U.S.News & World Report” jurnalının hazırladıqları hesabatlarda, reytinq siyahılarında Azərbaycan, demək olar ki, hər il yüksəlişdədir.

Təbii ki, Azərbaycanın yüksək mövqelərdə qərarlaşması hər hansı reytinqlə bağlı deyil. Reytinq və hesabatlarda ölkəmizin mühüm yer tutması sadəcə bu gün Azərbaycana xaricdən baxışın necə olduğunun göstəricisidir.

Bu günlərdə Amerikanın "U.S.News & World Report” jurnalında dərc edilən dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycanın 80 ölkə arasında 45-ci yerdə qərarlaşması da növbəti uğurumuzdur. Əlbəttə ki, Cənubi Qafqazın lider dövlətinin ən güclü ölkələrin reytinqində bu mövqedə qərarlaşmasının təməlində də ölkənin inkişafı dayanır. Bu siyasətin müəllifi isə ən islahatçı Prezident adlandırılan cənab İlham Əliyevdir.

ABŞ-ın ən nüfuzlu siyasi nəşrlərinin birinin saytında dərc edilən reytinq siyahısı Pensilvaniya Universitetinin "BAV Group and Wharton School” qrupunun analitikləri tərəfindən tərtib edilib. Siyahı tərtib edilən zaman ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb.

İqtisadi vəziyyətə nəzər yetirdikdə görərik ki, son 15 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Azərbaycan hərbi qüdrətinə görə də dünyanın ən güclü ordularından

birinə sahibdir. Ordumuz dünyanın 50 ən güclü silahlı birləşmələri sırasındadır.

Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət Azərbaycanı dünya birliyinin etibarlı tərəfdaşına çevirib. BMT Təhlükəsizlik Şurasının müvəqqəti sədrliyi, Qoşulmama Hərəkatına, Türkdilli Dövlətlər Birliyinə sədrlik, Avrasiyanın enerji, nəqliyyat, tranzit və logistika mərkəzinə çevrilməsi Azərbaycanı dünyada söz sahibi edib.

Göründüyü kimi, bütün bu uğurlar Prezident İlham Əliyevin məqsədyönlü və prinsipial siyasətinin bəhrəsidir və reytinq sıralaması da bu siyasətə verilən növbəti beynəlxalq dəyərdir.

Azərbaycanın 3 ildə bu reytinq cədvəlində 24 pillə irəliləməsi də böyük uğurdur. "U.S.News & World Report" jurnalında 2017-ci ildə açıqlanan reytinqdə Azərbaycan 69-cu, 2018-ci ildə isə 5 pillə irəliləyərək 64-cü olmuşdu. Bu il isə ölkəmiz 19 pillə yüksəlib. Siyahıda ölkəmiz cari ildə əldə etdiyi uğurlara görə bir neçə Avropa ölkəsini - Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoyub.

Əlbəttə ki, bu siyahıda 80 ölkədən biri olmağın özü də bir uğurdur. Çünki onlar 200-ə yaxın ölkənin içindən seçilmiş ən nüfuzlulardır. Qonşularımız Gürcüstanla Ermənistan heç bu cədvələ salınmayıblar.

Dənizlərə birbaşa çıxışı olmayan, ərazisi kiçik bir ölkənin Avrasiyadakı mövqeyini dünya görür və qiymətləndirir. Prezident İlham Əliyevin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkədə aparılan kompleks islahatlar hər il yeni rekordlarla yadda qalır.

Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə sırasına daxil edilməsi də cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi sosial-iqtisadi, struktur və kadr islahatlarının nəticəsidir. Dünya Bankının hər il hazırladığı hesabat biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. Azərbaycanın uğurları isə cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, dərin iqtisadi islahatlarına verilən beynəlxalq qiymət olmaqla bərabər reallığa çevrilən yeniliklərin dünyanın ən nüfuzlu iqtisadi qurumlarının diqqətindən yayınmamasının əyani təzahürüdür.

Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin davamlı islahatları ilə Azərbaycan növbəti reytinq hesabatlarında mövqeyini daha da yaxşılaşdıracaq.

**Rəşad BAXŞƏLİYEV.**

# KADR VƏ STRUKTUR İSLAHATLARI PREZİDENT İLHAM ƏLİYEVİN STRATEJİ İDARƏETMƏ SİYASƏTİNƏ UYĞUN APARILIR

***Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq reallaşdırılan kadr və struktur islahatları müstəqilliyimizin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması məqsədi daşıyır. Artıq Prezident Administrasiyası və Nazirlər Kabinetinin yeni strukturu təsdiqlənib. Hazırda isə icraedici hakimiyyətdə struktur islahatları davam etdirilir, yerli icra hakimiyyəti qurumları qarşısında yeni tələblər qoyulur. Bu tələblər mərkəzi icra hakimiyyəti orqanlarında elektron hökumətin inkişafını sürətləndirir, mobil və məqsədyönlü fəaliyyəti stimullaşdırır, kölgə iqtisadiyyatından leqallaşmaya keçidi gerçəkləşdirir. Struktur islahatları, həmçinin dövlət--vətəndaş dialoqunun yeni mərhələyə daxil ol-***

**Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti .**

Prezident İlham Əliyev hələ Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında sürətlə dəyişən müasir dünyada daha səmərəli fəaliyyətin ümumi prinsiplərindən danışaraq, idarəetmənin çevik, məqsədyönlü və səmərəli gerçəkləşdirilməsi üçün islahatların sürətləndiriləcəyini vurğulamışdı. Şübhəsiz ki, bu zərurət dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın tərəqqisi və vətəndaşların rifahının daha da yaxşılaşdırılması ilə bağlı idi.

Dövlət başçısı sözügedən iclasda demişdi: “İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır – daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qu-

rumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib.

Buradan aydın görünür ki, dövlətimizin başçısı idarəetmədə şəffaflıq, yığcamlıq və demokratikliyə mühüm önəm verir, eyni zamanda, kadrlardan məsuliyyətli, dəqiq və fəal olmağı tələb edir. Prezident İlham Əliyev tərəfindən Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edilərkən, onların qarşısında konkret vəzifələr qoyulduğunu və həmin vəzifələrin icrasının zəruriliyini xüsusi vurğulaması bunun bariz ifadəsidir.

Ölkə rəhbəri adıçəkilən qəbulda dövlət məmurlarının vəzifəyə gəlir mənbəyi kimi baxmamalarını, xalqa xidmət etmələrini, başlıca missiyalarının, vəzifələrinin isə məhz bundan ibarət olduğunu tövsiyə edib. Prezident İlham Əliyev bununla bağlı yeni təyin olunan icra hakimiyyəti başçılarına bildirib: "Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud bütün olan problemləri, ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu, sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır".

Buradan, həm də belə bir qənaət hasil olur ki, dövlətimizin başçısı idarəetmədə islahatlar prosesini daim inkişaf etdirməkdə qərarlıdır. Prezident İlham Əliyev "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 yanvar 2019-cu il tarixli Fərmanı da məhz bu məqsədlə imzalayıb. Fərmanla qarşıya qoyulan əsas vəzifə isə Azərbaycanda dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması, habelə

dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin reallaşdırılmasıdır.

Burada bir məqamı da vurğulamaq istərdik. Dövlət başçısı tərəfindən son illərdə struktur islahatları çərçivəsində bir sıra qurumların fəaliyyəti dayandırılıb. Etiraf edək ki, həmin strukturlar, doğrudan da, öz üzərlərinə düşən vəzifələri müasir tələblər səviyyəsində yerinə yetirə bilmirdilər. Bir qismi də dövlət büdcəsindən maliyyə alır, ancaq ondan səmərəli şəkildə yararlanmırdılar. Məhz bütün bunlar nəzərə alınaraq, Prezident İlham Əliyev tərəfindən cari ilin əvvəlindən başlayaraq, struktur islahatları sürətləndirildi. Bu zaman strateji uğurların davamlılığının təmin edilməsi məqsədilə paralel strukturlar, səmərəliliyi lazımi səviyyədə nəzərə çarpmayan qurumlar və kifayət qədər çevik fəaliyyət mexanizminə malik olmayan təşkilatlar idarəetmə vahidi kimi əvəzləndi.

İdarəetmədə islahatlar prosesi ölkəmizin beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirib. Azərbaycan dünya reytinq cədvəllərində rəqabət qabiliyyəti dinamik yüksələn dövlət kimi qəbul edilib. Bu, beynəlxalq hesabatlarda da öz ifadəsini tapıb. Məsələn, Azərbaycan Dünya Bankının "Hökumətin səmərəliliyi" subindikatoru üzrə 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib. Belə ki, müqayisə olunan dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib. Respublikamız "Qlobal rəqabətlilik hesabatı"nda isə 140 ölkənin arasında məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci qərarlaşıb. "ASAN xidmət", DOST, ABAD, "Bir pəncərə" İxraca Dəstək Mərkəzi, Şəbəkə və s. xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi isə 100 faizə yaxınlaşıb.

Struktur islahatları kimi mühüm bir məsələyə xüsusi diqqət yetirən dövlətimizin başçısı İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu islahatların aparılmasına ciddi ehtiyac var. Bu səbəbdən də daha çevik, operativ idarəetmə mexanizminin yaradılması bundan sonra da davam etdiriləcəkdir. Çünki hazırda bəzi qurumlar bir-birinin fəaliyyətini təkrarlayırlar. Belə halda isə struktur islahatlarının həyata keçirilməsi zəruridir. Bu cür şəraitdə, şübhəsiz ki, daha səmərəli işləmək və iqtisadi inkişaf templərini daxili resurslar hesabına reallaşdırmaq mümkündür.

e-mail: www.xalqqazeti.com

# YENİ PARLAMENTİN FORMALAŞMASI İSLAHATLARIN DİNAMİZMİNİ DAHA DA GÜCLƏNDİRƏCƏK

***Məlum olduğu kimi, dekabrın 5-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisi buraxılıb, parlamentə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.***

**Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Xatırladaq ki, noyabrın 28-də hakim Yeni Azərbaycan Partiyası Siyasi Şurasının iclası keçirilib və partiyanı təmsil edən deputatlar Milli Məclisin buraxılması təşəbbüsü ilə çıxış ediblər. Bundan sonra, Milli Məclisin dekabrın 2-də keçirilən plenar iclasında YAP-dan olan deputatların təşəbbüsü müzakirə olunub və qərar qəbul edilib. Deputatlar parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət ediblər. Həmin gün Azərbaycan Prezidenti "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilən parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğunun dəqiqləşdirilməsi ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərib.

Dekabrın 4-də Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib və yekunda Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğun olduğu barədə qərar qəbul edilib. Dekabrın 5-də isə Prezident İlham Əliyev "Azərbaycan Respublikası Milli Məclisinin beşinci çağırışının buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" sərəncam imzalayıb.

Təbii ki, Milli Məclisin buraxılması ölkədə Azərbaycan Prezidentinin rəhbərliyi və birbaşa təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı islahatlar planının tərkib hissəsidir. Əslində, Prezident İlham Əliyev bu islahatlara hakimiyyətə gəldiyi gündən başlayıb. Sadəcə, 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərindən sonra dövlət başçısı islahatları sürətləndirmək niyyətini bəyan edib və

2019-cu ilin əvvəllərindən etibarən ciddi sosial islahatlara start verilib. Ardınca isə kadr və struktur islahatlarına başlanılıb. Milli Məclisin yeniləşdirilməsi təşəbbüsü də bu islahatların davamıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi bütün islahatların məqsəd və məramı, əslində, xalqın həyat şəraitini yaxşılaşdırmaqdır. Parlamentin yeniləşməsi və köhnə məmurların dəyişdirilməsi kursunu da ölkəyə yeni nəfəs verilməsi kimi qiymətləndirmək olar. Artıq dövlət idarəçiliyi sistemi birmənalı olaraq çeviklik və effektivlilik baxımından yeni mərhələyə qədəm qoyur. Bir qədər əvvəl Prezident Administrasiyası, Nazirlər Kabineti və yerli icra hakimiyyətləri səviyyəsində həyata keçirilmiş kadr dəyişikliklərini, struktur yeniləşmələrini buna nümunə göstərmək olar. Bir tərəfdən, yüksək vəzifələrə gənc, müasir təhsilli, enerjili kadrlar təyin edilir, digər tərəfdən, iqtisadi sahədə (vergilər, gömrük orqanları və s.) müxtəlif nazirlik və ya dövlət komitələri ya birləşdirmək, ya da ləğv etməklə idarəetmədə təkrarçılıq və paralellik aradan qaldırılır, büdcədən maliyyələşdirilən mərkəzi icra orqanlarının sayı azaldılır, dövlət büdcəsi vəsaitlərindən səmərəli istifadə olunması məqsədilə konkret addımlar atılır.

Əlbəttə, kadr islahatlarında yeni yüksək vəzifələrə təyin olunmuş gənclər, şübhəsiz ki, dünyada və ölkədə baş verən dəyişikliklərə daha çevik reaksiya verəcək, ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrə nail olmaq və dövlət siyasətini düzgün planlaşdırmaq üçün daha sağlam və düzgün qərarlar qəbul edəcəklər. Bütün bunlar Prezident İlham Əliyevin xalqın gözləntilərini və istəklərini dəqiqliklə görüb düzgün nəticələrə gəldiyini göstərir. Ona görə də tam arxayın olmaq mümkündür ki, Azərbaycan Prezidenti ölkəmizin milli maraqları ilə uzlaşan düşünülmüş və uzaqgörən siyasət həyata keçirir. Elə parlamentin buraxılması ilə bağlı qərar da bu qəbildəndir və əminik ki, bu addım da son nəticədə müsbət nəticələr verəcək.

Hazırda siyasi təhlilçilər Milli Məclisin buraxılması ilə bağlı qərarı düşünülmüş addım və uzaqgörən dövlət siyasəti kimi dəyərləndirirlər. Onların fikrincə, Cənubi Qafqaz regionunda aparıcı dövlətə çevrilmiş Azərbaycanda iqtisadiyyat, istehsal, sosial, təhsil və digər sahələrdə aparılan köklü islahatların, eləcə də ciddi struktur və kadr dəyişikliklərinin ardınca parlamentin buraxılması barədə qərar qanunauyğun addımdır, ölkədə keçirilən islahatların ruhuna tam uyğundur. Çünki qanunverici sahədə islahata çoxdan ehtiyac yaranmışdı. Ona görə də dövlət başçısının bu qərarı həm ölkə ictimaiyyəti tərəfindən böyük razılıq hissi ilə qarşılanır, həm də Azərbaycan dövlətçiliyinin qarşısında dayanan məqsəd və vəzifələr baxımından inqilabi xarakterlidir. İnanırıq ki, yaxın aylarda seçiləcək yeni parlament əsasən gənc və müasir düşüncəli insanlardan ibarət olacaq ki, onların gücü ilə ölkəmiz daha da qüdrətlənəcək.

**Paşa ƏMİRCANOV.**
www.xalqqazeti.com

# HƏR KƏSİN DOSTU

## "Könüllü DOST" proqramı ölkədə ümummilli hərəkata mühüm töhfədir

Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ölkəmizdə artıq ümummilli hərəkata və xüsusən gənclərimizin həyat tərzinə çevrilən könüllülük fəaliyyətinin daha geniş miqyas almasına təkan verir.

Dövlət başçısının 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) də dövlət sosial xidmətlərində vətəndaş məmnuniyyətinə doğru keyfiyyətcə yeni mərhələ açmaqla yanaşı, "Könüllü DOST" proqramı ilə ölkədə bu hərəkatın güclənməsində mühüm rol oynamaqdadır.

2019-cu ilin may ayında DOST Agentliyinin və 1 saylı DOST mərkəzinin açılışı zamanı dövlət başçısı çıxışında bildirmişdir: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

## DOST – "bir pəncərə"dən göstərilən tam şəffaf və operativ xidmətlər

Öncədən qeyd edək ki, DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ təqdimat üzərindən, vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və sadə prosedurlar əsasında göstərilməsinə xidmət edir. 2019-cu ilin may ayında fəaliyyətə başlayan 1 saylı DOST mərkəzində gün ərzində təxminən 400-450 nəfər vətəndaş müraciəti qeydə alınır. Burada vətəndaşlara "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 132 növdə xidmət göstərilir. Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət göstərən bu mərkəzdən artıq 65 min nəfərədək ölkə vətəndaşı faydalanıb. Daha diqqətçəkən məqam isə ondan ibarətdir ki, DOST xidmətlərindən məmnunluq səviyyəsi 95 faiz üzərindədir.

Ötən il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakının Xəzər rayonunda 2 saylı DOST mərkəzinin açılışı olub. Bu DOST mərkəzi də gün ərzində 250-300 vətəndaşı qəbul

etmək imkanına malikdir. Bakının Xəzər və Pirallahı rayonlarının əhalisi üçün nəzərdə tutulan bu mərkəz il ərzində 70 mindən artıq vətəndaşa xidmət edəcək. Burada da "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", həmçinin "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də var.

Beləliklə, bu mərkəz də vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət edib və "bir pəncərə"dən faydalanmasına imkan verir.

Xatırladaq ki, hər iki DOST mərkəzində "Könüllü DOST" proqramı üzrə könüllülər fəaliyyət göstərir. Ümumilikdə iki mərkəzdə 80 nəfər könüllü müraciət edən vətəndaşlara öz töhfəsini verir.

**DOST könüllüləri işlərini bacarıqla və böyük həvəslə yerinə yetirirlər**

1 saylı DOST mərkəzinə daxil olduqda ilk növbədə diqqəti çəkən məqam vətəndaşlara operativ və keyfiyyətli xidmət üçün səfərbər olmuş DOST könüllülərinin fəaliyyətidir. Könüllülər burada vətəndaşların qarşılanması və xidmət pəncərələrinə yönləndirilməsi, insan axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, elektron sistemlərdən istifadə, xidmət üzrə sənədlərin siyahısı ilə tanış edilməsi, müxtəlif anket, forma və s. doldurulmasında köməklik, əlillərə xüsusi diqqət və qayğı göstərilməsi, rəy sorğularının keçirilməsi və digər işləri bacarıqla və həm də böyük həvəslə yerinə yetirirlər. Ümumi işin təşkilində, vətəndaşların gülərüz qarşılanması və yola salınmasında onların əməyi böyükdür.

Burada fəaliyyət göstərən könüllülərin əksəriyyəti əsasən tələbələrdən ibarətdir. Onlar növbəlilik əsasında gün ərzində 3 saat xidmət göstərir, iki ayın yekununda isə məzun olurlar. Bundan sonra mərkəzə yeni könüllülərin seçimi başlayır.

**"DOST ailəsinə qoşulduqdan sonra çox şey əldə etdim..."**

DOST mərkəzində ilk həmsöhbətimiz "Gənc DOST" altproqramı çərçivəsində burada könüllü kimi çalışan Aydan Cəfərova oldu. Həmsöhbətimiz DOST ailəsinə qoşulduqdan sonra çox şey əldə etdiyini deyir: "Tələbə olaraq şəxsi bacarıqlarımı inkişaf etdirmək üçün könüllü proqramlarına qoşulmaq istəyirdim. Bu istiqamətdə araşdırma apararkən "Könüllü DOST" proqramına rast gəldim. İqtisadiyyat üzrə təhsil alıram. İqtisadiyyatın cəmiyyətin sosial rifahının artırılması ilə bağlı bir elm olduğunu nəzərə alıb, bu ünvana müraciət etməyimin məqsədəuyğun olacağını düşündüm. Elektron müraciət göndərdim, sonra müsahibədə iştirak edərək könüllü oldum..."

A.Cəfərova deyir ki, bu mərkəzdə intensiv bir iş rejimində işləyirlər: "Fikrimcə, könüllü olmağın bizə verdiyi ən önəmli üstünlük kommunikasiya qabiliyyətimizin yüksəlməsidir. Çünki hər gün vətəndaşlarla ünsiyyətdə oluruq. Əlbəttə, bu da bizim gələcək karyeramız üçün çox önəmlidir. Biz vətəndaşlara növbə çeki təqdim edirik. Bundan sonra onları qeydiyyatdan keçdikləri növbələrə uyğun yönləndirmək, mərkəzin xidmətindən məmnunluğuna dair sorğu keçirmək və s. vəzifələri icra edirik. Xidmət fəaliyyətimiz yalnız bunlardan ibarət deyil. Vətəndaşların ərizələrinin yazılmasında da onlara köməklik göstəririk. Məqsədimiz operativ xidmət göstərib, onların məmnunluğuna nail olmaqdır".

**"Sosial iş ixtisası üzrə nəzəri biliklərimi DOST mərkəzində praktiki olaraq tətbiq etdim..."**

Vətəndaşlara yardım göstərərək onların məmnunluğuna nail olmağa çalışan gənc könüllülərdən biri Həlimət Rizvanlı artıq 1 saylı DOST mərkəzində təcrübəçi kimi fəaliyyətini davam etdirir. O, DOST-un ilk könüllülərindən biri olub. İxtisası sosial işlə bağlı olduğundan burada könüllü kimi fəaliyyəti onun üçün çox vacib idi. Həlimət ali məktəbdə qazandığı nəzəri bilikləri DOST mərkəzində praktiki yönümdən tətbiq edir: "Mənim könüllülük fəaliyyətim "Master 2" ilə başladı. DOST mərkəzinə müraciət edən vətəndaşların əksəriyyəti sosial cəhətdən həssas, o cümlədən ahıl insanlar, fiziki məhdudiyyətli şəxslər olduğundan onlara xüsusi diqqətlə yanaşmaq lazımdır. Mən də daim bu prinsiplə işlədim. Agentlik tərəfindən bizim üçün davamlı şəkildə təlimlər təşkil olunur, müəyyən tədbirlər keçirilirdi. Qısa müddət ərzində sosial sahə ilə bağlı kifayət qədər bilik əldə etdim. İndi isə burada təcrübəçi kimi işləyirəm. Lakin uğurumun əsası, ilk növbədə, burada könüllü kimi fəaliyyətim oldu. Həqiqətən könüllülük özünü təsdiq etməyə, uğura, karyeraya yol açır".

**"Gümüşü DOST"lar da gənc könüllülərdən geri qalmırlar...**

DOST mərkəzində gənclərlə yanaşı, pensiya yaşında olan könüllülər də fəaliyyət göstərirlər. Onlar əsasən qeydiyyat bölməsində vətəndaşları maraqlandıran sualları cavablandırır, onları lazımi istiqamətə yönləndirirlər. DOST Agentliyinin könüllülərlə iş şöbəsinin müdiri Ruslan Mirzəliyev qeyd edir ki, pensiya yaşında olan könüllülər "Gümüşü DOST" altproqramı çərçivəsində fəaliyyət göstərirlər. Onun sözlərinə görə, "Gənc DOST" altproqramı ilə yanaşı, "Gümüşü DOST"a da kifayət qədər maraq var. "Gümüşü DOST"lar da gənc könüllülərdən geri qalmırlar.

R.Mirzəliyev vurğulayır ki, "Könüllü DOST" DOST mərkəzlərində fəaliyyət

göstərəcək könüllüləri birləşdirən bir proqramdır: "Biz bu proqram çərçivəsində fərqli layihələr həyata keçiririk. Məsələn, 15-29 yaşlı gənclər üçün "Gənc DOST" altproqramı mövcuddur. Bundan əlavə, "Gümüşü DOST" altproqramı çərçivəsində ahıl insanlar da könüllü kimi DOST mərkəzinə cəlb ediliblər".

**Ölkədə ilk dəfə olmaqla "Virtual DOST" altproqramı işə salınıb**

Öyrənirik ki, "Virtual DOST" altproqramı peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər üçün kompüter, planşet və ya smartfondan istifadə etməklə, ofis və evlərindən könüllü kimi fəaliyyət göstərmək imkanını yaratmaq məqsədi daşıyır: "Bu altproqram çərçivəsində təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqlar onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilir".

Hazırda 1 və 2 saylı DOST mərkəzlərində çalışan 80 könüllünün 5 nəfəri "Gümüşü DOST" altproqramı əsasında komandaya qoşulan 60-75 yaşlı təqaüdçülərdir. Mərkəzdə çalışan könüllüdən 8-i isə fiziki məhdudiyyətli şəxslərdir. Burada onların könüllü kimi rahat fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Gənclər könüllülük fəaliyyəti ilə həm iş təcrübələrini artırır, həm də əhalinin xüsusi həssas təbəqəsi ilə işləmək bacarığı əldə edirlər.

**"Könüllü DOST"un məzunlarından 17-si artıq DOST mərkəzinin əməkdaşıdır**

1 saylı DOST mərkəzində fəaliyyət göstərən könüllülərin əksəriyyəti ali məktəbi sosial işçi ixtisası üzrə bitirənlərdir. Həmin könüllülərə əldə etdikləri bilikləri təcrübədə tətbiq etməyə imkan verilib. Hazırda "Könüllü DOST"un 167 nəfər məzunu var və onlardan 17-si artıq DOST mərkəzinin əməkdaşı kimi fəaliyyətini davam etdirir. Bu tendensiyanın gələcəkdə də davam etdirilməsi vacib bilinir.

Fəaliyyəti müddətində seçilən könüllülərə agentlik tərəfindən müxtəlif vəzifələr təklif olunur. Agentliyin qiymətləndirmə mexanizmi də formalaşıb. Yəni könüllülərin gündəlik fəaliyyətləri qiymətləndirilir. Sonda isə hər dəfə məzun olan könüllüləri 3 komandaya bölməklə, onlara qrup layihəsi təqdim etmək imkanı verilir. Bu layihələr pensiya, əlillik və ya ekoloji sahələri əhatə edə bilər. Onlar öz layihələrini hazırlayıb təqdim edirlər. Çünki bu layihələr onların gələcək qiymətləndirilməsinə böyük təsir göstərir. Bununla bağlı agentliyin 3 səviyyə üzrə sertifikatlarının verilməsi də nəzərdə tutulub.

**DOST mərkəzində könüllü olmaq istəyənlər çoxdur**

DOST mərkəzində könüllü kimi çalışmaq üçün müraciət edənlər gündən-

günə artmaqdadır. Bütün müraciətlər diqqətlə analiz edilir, hətta könüllü kimi təcrübəsi olmayanlara, müxtəlif ixtisaslarda təhsil alanlara da şans verilir. 6585 nəfər yalnız "Gənc DOST" altproqramı çərçivəsində bu proqrama müraciət edib. Yeni DOST mərkəzləri açıldıqca daha çox gənc bu layihəyə cəlb olunacaq.

Hazırkı vəziyyət nəzərə alınmaqla, müxtəlif vasitələrdən istifadə edilərək ilkin seçim aparılır. Seçim prosesində elektron müraciət formasında bir xana var: gənclər 2-3 cümlə ilə orada nə üçün könüllü olduqlarını izah etməlidirlər. Əsas diqqət yetirilən məqam da elə məhz bu 2-3 cümləlik fikirdir. Yəni bir şəxsin könüllü olmaq üçün hansı motivasiyası var?! Könüllü seçilənlər əsasən sosial sahə üzrə təhsil alan tələbə və məzunlar, könüllü təcrübəsi olan gənclər olsa da, ümumilikdə DOST Agentliyi hər kəsə bu şansı verməyə çalışır. Pensiyaçılara isə elektron müraciətlə bərabər, birbaşa DOST mərkəzinə yaxınlaşıb müvafiq formanı doldurub "Gümüşü könüllü"lük üçün müraciət etmək imkanı yaradılıb.

## "Könüllü DOST" təşkilatının yaradılması planlaşdırılıb

"Könüllü DOST" proqramı çərçivəsində nəzərdə tutulan layihələrdən də söz açmaq yerinə düşər. DOST Agentliyindən bildirdilər ki, könüllülər üçün müxtəlif sahələr üzrə təlimlərin keçirilməsi də planlaşdırılır. Yeni açılan DOST mərkəzləri müxtəlif kateqoriyalara bölünəcəklər. Hər kateqoriyaya uyğun olaraq orada fəaliyyət göstərəcək könüllülərin sayı artıq məlumdur. Hər bir mərkəz üzrə könüllüləri idarə etmək üçün bir məsul şəxs müəyyənləşdiriləcək. O, həmin mərkəzə könüllülərin cəlb olunmasında müsahibələrin keçirilməsi və qiymətləndirilməsində iştirak edəcək.

"Gənc DOST" təşkilatının yaradılması da planlaşdırılan və nəzərdə tutulan məsələlərdəndir. "Gənc DOST" təşkilatı çərçivəsində könüllülərin daha uzun müddətə fəaliyyət göstərməsinə səy göstəriləcək. "Könüllü DOST" proqramının gənclər üçün əhəmiyyəti işgüzar vərdişlər əldə etmək, fərdi inkişaf, asudə vaxtın səmərəli keçirilməsi, yeni dostlar və karyera yolunda ilk uğurlu addımların təməli baxımından faydalıdır. Proqram dövlətçilik və vətənpərvərlik, ictimai-sosial məsuliyyətlilik, birlik və əməkdaşlıq, eləcə də qayğıkeşlik və yardımsevərlik prinsiplərini özündə ehtiva edir.

2019-2025-ci illər üzrə "DOST regional proqramı"na əsasən, Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin açılması nəzərdə tutulub. Təbii ki, DOST mərkəzləri şəbəkəsi genişləndikcə onların ölkədə könüllülük hərəkatına töhfələri də artacaq.

**Məhəmməd NƏRİMANOĞLU.**
www.azerbaijan-news.az

# MÜSTƏQİLLİYƏ GEDƏN YOL HEYDƏR ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

***Təhsillə gəncliyin üzvi surətdə vəhdət təşkil etməsi təbiidir. Müstəqil Azərbaycanın inkişafında, onun lider dövlətə çevrilməsində elm və təhsilin payı xüsusi çəkiyə malikdir.***

Məhz buna görə də hələ keçmiş sovetlər birliyi dövründə Ümummilli Lider Heydər Əliyev bu sahənin inkişafına daha çox diqqət yetirmiş, gənclərin savadlı, bilikli, hərtərəfli inkişafı üçün müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmiş Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində Prezident İlham Əliyev zəngin faktlara söykənən çıxışında bu məsələyə xüsusi diqqət yetirdi. Ölkə rəhbəri qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti xalqımız qarşısında böyük xidmətlər göstərib.

AXC-nin yadigarı olan Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirib. Ötən yüz il ərzində bu ali təhsil müəssisəsinin 200 minə yaxın məzunu müxtəlif sahələrdə bilik və bacarıqlarını göstərib. Onların arasından görkəmli elm adamları – alimlər, ictimai xadimlər, siyasətçilər, müxtəlif sahələrin mütəxəssisləri çıxıb.

Müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. O, həm sovet, həm müstəqillik illərində, eləcə də sonrakı dövrdə xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərib.

Həmin illəri unutmayan insanlar yaxşı xatırlayırlar ki, Ulu Öndər Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət yetirirdi. Gənclərin SSRİ-nin yüksək kateqoriyalı aparıcı ali təhsil müəssisələrində oxumaları üçün bütün imkanlardan istifadə edirdi. Məhz bu qayğının nəticəsi idi ki, o zamanlar hər il təxminən 800 nəfərə qədər gəncimiz Bakıda imtahanlar verib, Moskva, Sankt-Peterburq (Leninqrad) kimi nəhəng şəhərlərdəki aparıcı ali məktəblərdə oxuyub, mütəxəssis kimi yetişərək Azərbaycanın xalq təsərrüfatının inkişafında xidmət göstərirdilər. Bu, ilk növbədə Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradılması demək idi. Həmin illərdə yüksək təhsil almış kadrlar Azərbaycanı bu gün layiqincə təmsil edirlər.

Ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmışdı. Odur ki, Azərbaycan 1990-cı illərin əvvəllərində böyük fəlakətlə üz-üzə qalanda doğma xalqı Ümummilli Lideri haraya çağırdı. Çünki o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində Heydər Əliyevə böyük inam hissini saxlayırdı. Məhz buna görə xalq birmənalı şəkildə müstəqilliyə gedən yolu Heydər Əliyevin adı ilə bağlayır. Yaxın tariximizdən bilirik ki, Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan Ali Məc-

lisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və bununla bağlı qərar qəbul edildi. Daha bir inkarolunmaz fakt isə ondan ibarətdir ki, Ulu Öndər müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, bir qarış torpağımız da işğal olunmaz, xalqımız və dövlətimiz təcavüzə məruz qalmazdı.

Azərbaycan Prezidenti tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, gənclər də bu tarixi bilməlidirlər: "Mən dəfələrlə bunu demişəm. Biz – bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əlisilahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti – özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin".

Dövlət başçısının yubiley tədbirində vurğuladığı kimi, bizi bizdən çox sevən, istəyən ola bilməz. Bunun dəfələrlə şahidi olmuşuq. Bəzi xarici dairələr, guya, Azərbaycana kömək etmək istədiklərini bildirirlər. Bu saxta canıyananlıq məkrliliyini gizlədə bilmir. Azərbaycan Prezidenti də məhz bu məsələyə toxunaraq deyir: "...Siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz".

Daha bir məsələ: xaricdəki anti-Azərbaycan dairələr artıq açıq şəkildə bilirlər və etiraf da edirlər ki, burada sağlam müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr mövcuddur. Onlara pul təminatı da azaldığı üçün daha iyrənc bir yola əl atır, gəncləri əsas hədəf seçir, onları yoldan çıxarmaq, beyinlərini zəhərləmək istəyirlər. Lakin bu xalq ötən əsrin 90-cı illərindəki deyil. Ona görə də onların bu bəd niyyətləri həyata keçə bilmir. Çünki Azərbaycan gəncliyi vətənpərvərliyi, Vətənsevərliyi ilə tanınır. Buna görə də dövlət başçısı bu bəd niyyətə qarşı tələbə və müəllimləri ayıq-sayıq olmağa səslədi: müəllimlər gənclərə nəinki biliklər verməli, onları həm də vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər. Respublikamızın hərtərəfli inkişafının göstəricilərindən biri də internet istifadəçilərinin faizində öz əksini tapır. Belə ki, bu gün sosial şəbəkələrdən istifadə ölkə əhalisinin 80 faizini üstələyir. Bu həm də Azərbaycanda azad, demokratik cəmiyyət formalaşması, azad medianın mövcudluğu deməkdir. Bu, eyni zamanda Azərbaycandan qaçıb, xarici ölkələrdə öz doğma Vətəninə qarayaxma kampaniyası aparanlara sərt cavabdır.

Azərbaycan Prezidentinin istədiyi və tələbi odur ki, gənclər tarixi yaxşı bilməlidirlər: "...Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Dövlət başçısı müəllim peşəsinin çox şərəfli, məsuliyyətli, çox ağır olduğunu xüsusi vurğulayaraq qeyd etdi ki, onlar hər zaman tələbə qarşısında öz biliklərini nümayiş etdirməlidirlər: "...Tələbələr də indi hər şeyi görürlər, seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil".

Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Onlar ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla apara bilərlər. Azərbaycan Prezidenti hesab edir ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir – bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq.

**Məhəmməd NƏRİMANOĞLU.**
www.azerbaijan-news.az

# BEYNƏLXALQ TƏDBİRLƏRDƏ ÖLKƏMİZİN TALEYÜKLÜ MƏSƏLƏSİNƏ DAİM DİQQƏT ÇƏKİLİR

Bakıda keçirilən Dünya dini liderlərinin II Sammiti bir sıra qlobal problemlərin həllinə töhfə olacaq – "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" kimi vacib mövzular ətrafında ciddi müzakirələr aparıldı.

***İlham ƏLİYEV: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır"***

Əlbəttə, hər bir beynəlxalq tədbirdə olduğu kimi, Azərbaycanın dövlət başçısı fürsətdən istifadə edərək bu dəfə də dünyada baş verən hadisələr fonunda ölkəmizin bütün sahələrdə əldə etdiyi uğur və nailiyyətlərdən söz açdı, həlli vacib məsələləri diqqət mərkəzinə gətirdi. Həmin məsələlərdən biri də Ermənistanın təcavüzkar siyasəti, ərazilərimizin işğalı və bunun nəticəsində bir milyon azərbaycanlının öz tarixi yurdlarından zorla qovularaq qaçqın və köçkün şəraitində yaşamağa məcbur olmasıdır.

Beynəlxalq tədbirdə bir məqam xüsusi vurğulandı: "Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik".

Azərbaycan Prezidenti Dünya dini liderlərinin II Sammitindəki çıxışında onu da bildirdi ki, bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir: "...Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır".

Dövlət başçısı sammit iştirakçılarının nəzərinə çatdırdı ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə istinad ermənilər tərəfindən təhrif olunur. Belə ki, o zamanlar bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir: "...Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir: Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir. Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi,

o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür".

Həmin ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası

4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması haqqında açıq-aydın müddəalar var. Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar – Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin, nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir. Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

Qüds-Yerusəlimin ortodoks baş ravini Şlomo Amar belə tədbirlərin onların sıralarını artırdığını və daha çox sabitlik gətirdiyini vurğulayaraq dedi: "Azərbaycan dünya miqyasında elə bir ölkədir ki, burada bütün proseslər sabit, rəvan şəkildə həyata keçirilir. Prezident İlham Əliyev bu gün bir çox cəmiyyətlər üçün bir siyasi xadim kimi çox yaxşı nümunədir, öz fəaliyyəti ilə yaxşı örnəkdir. Biz görürük ki, burada dinlər arasında anlaşmaya xüsusi töhfə verilir. Siz, həmçinin xalqlar arasında da dostluq münasibətlərinin, sülhsevərlik mədəniyyətinin daha da inkişafına töhfə verirsiniz. Siz, əslində, öz səsinizlə bizim bu birliyimizi gücləndirirsiniz".

Sammit iştirakçılarının fikirlərini ümumiləşdirən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə vurğuladı ki, söz azadlığını nifrət çağırışlarına çevirənlərin əleyhinəyik: "Söz - Yaradanın insana əmanətidir, insan hər sözü üçün Allah qarşısında məsuliyyət və cavabdehlik daşıyır. Söz – Ana, Vətən, Nur, Məhəbbət, Cənnət də ola bilər, Söz – savaş, müharibə, ölüm, cəhənnəm də ola bilər. Bizim məqsədimiz təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq, İlahi Nurun ardınca getməyi Sözlə təbliğ etməkdir. Çünki bütün dini kitablarda deyildiyi kimi, iman gətirənlər qardaşdırlar! Hamımız babamız Adəmdən, Adəm isə torpaqdan yaranmışdır. Torpaq qardaşlarını birləşdirən cəhətlər isə onları ayıran və yadlaşdıran cəhətlərdən qat-qat üstün və dəyərlidir!"

Sammitdə yekdil qərara alındı ki, xüsusilə də Azərbaycan dini liderlər arasında körpü yaratmaq, dialoq yollarını gücləndirmək, müştərək insani dəyərləri dərinləşdirmək, multikulturalizm və dini dəyərlər vasitəsilə gənclərin düşüncəsini inkişaf etdirmək, həmçinin ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik bir ölkədir.

**Məhəmməd NƏRİMANOĞLU.**
www.azerbaijan-news.az

# AZAL PİLOTLARIN HAZIRLIĞI MƏRKƏZİNİN İMKANLARINI GENİŞLƏNDİRƏCƏK

**"Azərbaycan Hava Yolları" "FlightSafety İnternational" şirkətindən "Embraer E-190" tipli təyyarə üçün son nəsil aviasiya trenajoru əldə edir. Trenajor "Azərbaycan Hava Yolları" yanında Milli Aviasiya Akademiyasının Pilotların Hazırlığı Mərkəzində quraşdırılacaq.**

Müvafiq sazişi dekabrın 16-da Bakıda Azərbaycan tərəfdən AZAL-ın prezidenti Cahangir Əsgərov və Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayev, "FlightSafety İnternational" tərəfdən isə aviasiya trenajorları xidmətləri üzrə icraçı direktor Con Van Maren və satış üzrə direktor Filipp Delfur imzalayıbar. Müqavilənin ümumi dəyəri 11,5 milyon ABŞ dolları təşkil edir.

"FS1000 Embraer E190-E1 Level D Full Flight Simulator" yeni trenajor kompleksi "Buta Airways" aviaşirkətinin pilotlarının tam təlim və sertifikatlaşdırılması üçün imkan yaradacaq. Sözügedən trenajorun alınması ilə bağlı ilkin razılıq bu ilin noyabr ayında "Dubai Air Show- 2019" sərgisi çərçivəsində əldə edilib.

"Milli Aviasiya Akademiyası Azərbaycanın mülki aviasiyası üçün kadrların hazırlandığı yerdir. Buna görə biz onun maddi-texniki bazasının genişləndirilməsi üzərində daim çalışırıq. MAA-nın rektoru akademik Arif Paşayev ilə birlikdə akademiyanın ərazisində trenajor komleksi üçün nəzərdə tutulmuş və inşası sona çatmaqda olan binanın tikilməsi barədə qərar qəbul etmişdik. "Embraer E-190" və "Boeing 787 Dreamliner" tipli təyyarələr üçün aviasiya trenajorları yerləşdiriləcək. Bugünkü sazişin imzalanması aviasiya sahəsində kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılması üçün səylə çalışdığımızın daha bir təsdiqidir", – Cahangir Əsgərov bildirib.

Qeyd edək ki, sözügedən trenajorda Azərbaycanın aviaşirkətlərinin pilotları ilə yanaşı xarici aviaşirkətlərin də pilotları təlim keçəcək.

AZAL Pilotların Hazırlığı Mərkəzi 2010-cu ildən fəaliyyət göstərir. Mərkəz nəzəri və praktiki hazırlıq şöbələrindən ibarətdir. Nəzəri tədris şöbəsi hər il 7000-dən çox mülki aviasiya mütəxəssisinin 300-dən çox kvalifikasiyanın artırılması kurslarında iştirakını təmin edir. Təcrübə təlim şöbəsində peşəkar pilot bacarıqlarının əldə edilməsi və dəstəklənməsi üçün çox əhəmiyyətli olan dörd uçuş aviasiya trenajoru - "Airbus A319 / 320", "Boeing 757/767", "ATR-42/72", həmçinin "Mi-8AMT" vertolyotu fəaliyyət göstərir.

"FlightSafety" AZAL-ın bu qabaqcıl aviasiya trenajorunun təchizatçısı kimi bizi seçdiyindən çox qürur duyur. Sözügedən trenajor ən yüksək standart olan "D" səviyyəsinə uyğundur. Bu, AZAL-ın təhlükəsizliyə sadiqliyini və pilotlarına ən yüksək keyfiyyətli və effektiv təlim verməsinin əyani təsdiqidir. Aviaşirkət ilə münasibətlərimizin genişlənməsinə və Azərbaycanda olmağımıza ümid edirik", – deyə Con Van Maren qeyd edib.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# KADR İSLAHATLARI – TƏCRÜBƏ VƏ KREATİV İDEYALARIN VƏHDƏTİ

*Prezident İlham Əliyev idarəetmədə, qanunverici sistemlərdə müasir təfəkkürlü, proseslərə fərqli yanaşan gənclər üçün fəaliyyət meydanı yaradır*

**Ötən 2019-cu il Azərbaycanın iqtisadi, ictimai-siyasi həyatında yüksək nailiyyətlərin əldə edildiyi, həmçinin geniş sosial, sistemli struktur, kadr islahatlarının daha dinamik xarakter aldığı il kimi tarixə düşəcək.**

İctimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edən Azərbaycanda bir çox ölkələr üçün örnək ola biləcək davamlı islahatlar həyata keçirilməkdədir. Prezident İlham Əliyevin ilin əvvəlindən başladığı həm iqtisadi, həm struktur, həm də siyasi islahatları artıq ilkin bəhrəsini verməkdə və ölkəyə dividendlər gətirməkdədir. Bunu tək öz statistikama əsaslanmaqla deyil, nüfuzlu beynəlxalq reytinq təşkilatlarının hesabatlarına əsasən də söyləyirik. Ən azından Davos Ümumdünya İqtisadi Forumu və Dünya Bankının "Doing Business" hesabatlarında Azərbaycanın islahatlara meyillilik, rəhbərliyə olan inam əmsalına görə dünyada birinci onluqda qərarlaşmasını, ən çox islahat aparan ölkə seçilməsini göstərmək yetərlidir.

Göründüyü kimi, cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi, kadr və struktur islahatlar, ilk növbədə, ölkəmizin beynəlxalq imicini yüksəldir. Bu da beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Prezidentinin siyasi fəaliyyətinə, islahatlar kursuna verilən növbəti böyük dəyərdir.

Şamaxıda "ASAN Həyat" Kompleksinin açılışı zamanı bir qrup gənclə görüşdə də Prezident bu mövzuya toxunaraq institusional, sistem xarakterli islahatların davam etdiriləcəyini söylədi. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yenidən formalaşdığına, gənc nəslin nümayəndələrinin vəzifələrə təyin olunduğuna diqqət çəkən ölkə lideri fevral ayında keçiriləcək parlament seçkilərində iştirakla bağlı səsləndirdiyi fikirlərlə gənclərə yeni stimul verdi. Prezident hesab edir ki, artıq zaman yetişib, idarəetmə, qanunverici sistemlərdə yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır.

Cənab İlham Əliyev kadr siyasəti barədə mühafizəkar təfəkkürü aradan qaldırır və gənc nəslə şans verir, onlar üçün fəaliyyət meydanı yaradır. Ən islahatçı Prezident hər zaman güvəndiyi gənclər ordusuna etibar edir.

Ancaq Prezident söylədiyi kimi nəsillər arasında ziddiyyətlərə də yol verməк olmaz. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti ölkəyə ancaq xeyir gətirə bilər. Elə bu səbəbdən də xalqın mütləq əksəriyyəti bu sistemli islahatları yüksək qiymətləndirir və hər kəs islahatların ölkəmizə böyük uğurlar gətirəcəyinə inanır.

Təəssüfləndirici hal odur ki, hər zaman antiazərbaycançı qüvvələrin tapşırığını yerinə yetirən ölkə müxalifəti bu uğurlara da kölgə salmağa çalışır. Yəni müxalifət yenə

də öz "ampluasındadır”. Adətən, hər hansısa xarici qeyri-hökumət təşkilatının nümayəndəsinin Azərbaycanın əleyhinə səsləndirdiyi əsassız fikri əldə "bayraq” tutaraq hakimiyyətin üzərinə "hücum” çəkən aqressiv müxalifət sanki, nəyisə tapır. Dünya Bankının nüfuzlu "Doing Business” komandasının, Davos Forumunun yaydığı hesabatları görə-görə "sapı özümüzdən olan baltalar” həyata keçirilən böyük islahatlara da qara yaxmağa cəhd edirlər. İddia edirlər ki, guya islahatlar imitasiya xarakterlidir və əhalinin xeyrinə deyil, sırf hakimiyyətin öz maraqlarına xidmət edir. Halbuki islahatlar davamlı xarakter daşıyır və inkişafın daha da dərinləşməsinə xidmət edir.

Hər kəs şahidlik edir ki, Prezident məmurlara, kadrlara qarşı tələbkarlığı daha da artırır. Dövlət başçısı yeni vəzifəyə təyin etdiyi icra başçısını qəbul edərək qarşısında ciddi tapşırıqlar qoyur. Tələb edir ki, ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara uyğunlaşdırılmalıdır. Bunun üçün innovativ yanaşmalara, müxtəlif "start-up”lara daha çox ehtiyac duyulur. Şəhər və rayonlarda, ilk növbədə, iqtisadi inkişafa nail olunmalı, məşğulluq problemləri həllini tapmalıdır. Vətəndaşlarla məmurların təmas platforması genişləndirilməlidir.

Yəni, bir sözlə, "xalqın gözü tərəzidir” prinsipi qarşıdakı dövrdə məmurların fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri elan olunur. Dövlət başçısı bu proseslərin reallaşmaması fonunda cəza tədbirlərini də açıq şəkildə elan edir.

Bəs, görəsən, bütün bunlar xalqın sosial rifahının yaxşılaşdırılması üçün deyil, ancaq hakimiyyətin maraqlarına xidmət edən tapşırıqlardır?!

İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İslahat icmalı”nda da göstərilir ki, cənab İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq qanunverici, icraedici və məhkəmə hakimiyyətinin, habelə yerli özünüidarəetmə, maliyyə xidmətləri üzrə tənzimləmə və nəzarət sisteminin islahatları dövlət idarəetməsinin səmərəliliyini artırmaqla, ilk növbədə, vətəndaşların, iş adamlarının maraqlarına xidmət edir. Dövlət idarəetmə islahatları isə Prezidentin strateji idarəetmə siyasətinə uyğun aparılır.

Ümumiyyətlə, idadəetmə islahatlarının məqsədi dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması və Azərbaycanın yerli, regional, eləcə də qlobal çağırışlara daha yaxşı cavab verməsidir.

Bir daha bəlli olur ki, Azərbaycanın istənilən uğuruna sevinməyən, bəzi ünsürlər həyata heçirilən müsbət dəyişiklikləri görməzdən gəlirlər. Belə qənaət yaranır ki, bu dövlətin, xalqın xeyrinə nə varsa, onların ziyanınadır. Ona görə də xalq tarixin bütün dövrlərində onların fəaliyyətinə layiq olduqları qiyməti verib.

Bir sözlə, antiazərbaycançı şəbəkənin buyruq qullarının mənasız, boş-boş iddiaları hər zamankı kimi iflasa məhkumdur və bütün ölkə ictimaiyyəti görür ki, islahatlar Azərbaycanın dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur və kompleks xarakter daşıyır. Kadr islahatlarının həyata keçirilməsi əlbəttə ki, idarəetmənin təkmilləşdirilməsi məqsədinə xidmət edir.

URL:www.azerbaijan-news@mail.ru

# AZƏRBAYCAN BU GÜN AVRASİYANIN MÜHÜM NƏQLİYYAT MƏRKƏZLƏRİNDƏN BİRİDİR

**Azərbaycan region üçün vacib layihələrin təşəbbüskarı olmaqla yanaşı, həm də Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi vacib beynəlxalq layihələrin əsas həmicraçısı, beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların, o cümlədən multimodal infrastrukturun təşviqinə dəstək verən Şərq-Qərb və Cənub-Qərb avtomobil yolları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər yerli layihələrin icraçısıdır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

***Azərbaycan Prezidenti İlham Əliyev ötən il dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində 2019-cu ildə nəqliyyat sektoru istiqamətində regional əməkdaşlıqla bağlı görülən işləri müsbət qiymətləndirdiyini bildirib. Qeyd edib ki, Azərbaycan keçən il ərzində artıq mövcud olan nəqliyyat infrastrukturundan çox səmərəli şəkildə istifadə edib. Əvvəlki dövrlərdə yaradılan nəqliyyat infrastrukturu ölkəmizə əməkdaşlığın miqyasını genişləndirmək imkanı verib.***

Dövlətimizin başçısı, həmçinin Bakı-Tbilisi-Qars layihəsinin yekunlaşdığını, bu yol üzərində yüklərin uğurla qəbul edildiyini və ötürüldüyünü, artıq Əfqanıstan–Türkmənistan–Azərbaycan–Avropa dəmir yolu xətlərinin birləşdiyini, eyni zamanda, Rusiyadan da Azərbaycan üzərindən Türkiyəyə yüklərin daşınmasına başlandığını diqqətə çatdırıb.

Prezident İlham Əliyev daha sonra deyib: "Biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, Şimal-Cənub nəqliyyat dəhlizində də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan – açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilibdir".

Yeri gəlmişkən, son 16 il ərzində inkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanları, körpülər, tunellər və yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması ilə bağlı mühüm işlər görülüb.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilib, o cümlədən Avropa-

Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənib, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilib, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olub, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilib.

Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də ötən dövrdə digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı şərait yaradıb, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına nail olub.

Hazırda dünyanın bir sıra ölkələri tərəfindən Azərbaycanın tranzit imkanları yüksək qiymətləndirilir. Məsələn, Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi kimi Azərbaycanın nəqliyyat-tranzit potensialından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəli olduğu bildirilir. Ona görə də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması ölkəmizin mühüm tranzit uğurlarından sayılır. Bu marşrut 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının birgə təşəbbüsü ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa ölkələrinə qədər uzanır.

Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan bu gün regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Avropa İttifaqı ölkələri ilə bu sahədə uğurlu əməkdaşlıq həyata keçirilir. Ölkəmizin ərazisindən keçən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişlidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları həmin nəqliyyat dəhlizlərinin imkanlarını daha da genişləndirir. Bu imkanlar fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır. Statistik göstəricilər də bu fikri təsdiqləyir. Belə ki, 2018-ci ilin yanvar-noyabr aylarında təkcə dəmir yolu ilə təqribən 15 milyon ton yük daşınıb. 2019-cu ildə isə yükdaşımaların həcmi 13 milyon 950 min ton olub. Keçən il daşınan yüklərin əksəriyyəti tranzit yüklərdir.

Qeyd edək ki, 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu

xətti hazırda Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bu, həm də beynəlxalq əməkdaşlıq formatı yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir. Mətbuata müsahibəsində Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi bütün tərəflər üçün sərfəlidir. Lakin Rusiyadan Aralıq dənizindəki Mersin limanınadək daşımalar da Rusiya üçün yaxşı perspektivlər açacaq. Çünki bu ölkənin iqtisadiyyatı üçün Avropaya yükdaşımalarında marşrutların diversifikasiyası böyük maraq kəsb edir. Rusiyanın yükdaşımalarının 80 faizi Türkiyə ərazisinə dənizlə həyata keçirilir. Qalanları isə avtomobil nəqliyyatı vasitəsilə reallaşdırılır. Amma indiyədək dəmir yolu ilə yükdaşımaları olmayıb. Lakin Azərbaycanın sayəsində bu marşrutla da yüklər daşınacaq və yaxın iki il ərzində yükdaşımaların həcmini 500 min tona çatdırmaq mümkün olacaq. Azərbaycanın nəqliyyat infrastrukturu bütün maraqlı ölkələrə böyük tranzit imkanları yaradır.

Azərbaycan rəhbərliyi hazırda ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.

Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü “Bir kəmər, bir yol” strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub.

Onu da vurğulayaq ki, Azərbaycan müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla mühüm nəqliyyat mərkəzinə çevrilməklə bərabər, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığı genişləndirir. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında münasibətlərin dərinləşdirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü də nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində salınan, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi də daxil olmaqla yaradılan Azad Ticarət Zonasının da Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsində xüsusi əhəmiyyəti danılmazdır. Azad Ticarət Zonası beynəlxalq yükdaşıma və Avropa-Asiya

logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, yerli istehsalın təşviqi, “Made in Azerbaijan” brendinin dünya üzrə tanınmasında müstəsna xidmət göstərəcək. Bu zonanın regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməsi planlaşdırılır.

Bakı Beynəlxalq Dəniz Limanı ilə bağlı bir məqamı da xatırlatmaq istərdik. Qazaxıstanın Kurık Liman Bərə Kompleksi vasitəsilə indiyədək dörd milyon tondan çox yük daşınıb. Limanda hər gün yüklərin daşınması üçün eyni vaxtda dörd və ya səkkiz bərədən istifadə edilir. Keçən ilin on bir ayında liman vasitəsilə 1,2 milyon tondan çox müxtəlif yük daşınıb. Yüklərdən 760 min tonu idxal, 485 min tonu isə ixrac yönümlü olub.

Bu liman vasitəsilə taxıl, kömür, neft məhsulları, gübrələr, kimyəvi maddələr ixrac, ərzaq, sənaye avadanlıqları, tikinti materialları və digər mallar isə idxal olunur. Limana yüklər Çin və Mərkəzi Asiya ölkələrindən gəlir, onların əksəriyyəti tranzit yüklərdir. Yüklər Kurık Limanından Xəzər dənizi vasitəsilə Azərbaycana – Bakı Limanına, oradan isə Gürcüstan, Türkiyə və Avropa ölkələrinə göndərilir.

Qeyd edək ki, hazırda limandan Azərbaycana müntəzəm daşımalar mövcuddur. Ələt-Kurık-Ələt istiqamətində yükdaşımalar həyata keçirilir.

Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoyub. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Azərbaycan İran tərəfinə Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kreditin ayrılmasını nəzərdə tutub.

Gələcəkdə Şimal-Cənub və Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası nəzərdə tutulur. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır. Bundan Azərbaycanla yanaşı, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları istifadə edəcəklər.

Azərbaycanda son illər ərzində ölkənin müxtəlif bölgələrində yeni beynəlxalq aeroportların istifadəyə verilməsi, yeni yolların salınması, regional layihələrin icrasında aparıcı rol oynaması Azərbaycanın məqsədyönlü siyasətinin tərkib hissəsi kimi həm daxili nəqliyyat infrastrukturunun inkişafına töhfə verir, həm də Azərbaycanı Avrasiyanın nəqliyyat qovşağına çevirir.

www.xalqqazeti.com

# TANAP-ın AVROPA SƏRHƏDİNƏ ÇATMASI ÖTƏN İLİN MÜHÜM HADİSƏLƏRİNDƏN OLMUŞDUR

## *"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti TAP-ın da çəkilişi tamamlanmaq üzrədir*

**Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşan neft-qaz, ixrac, nəqliyyat və digər infrastruktur layihələri hazırda dünyada həyata keçirilən ən iri layihələrdəndir.**

1990-cı illərin ikinci yarısından üzübəri ölkəmiz Bakı-Novorossiysk (Şimal İxrac Boru Kəməri), Bakı-Supsa (Qərb İxrac Boru Kəməri), Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini çəkib. 13 ildən çoxdur "Şahdəniz" qazını Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri məhz BTC-nin təcrübəsinə əsaslanıb. BTƏ isə öz növbəsində daha böyük layihəyə – "Cənub qaz dəhlizi"nə yol açıb.

Azərbaycan dövləti neft-qaz layihələrindən daxil olan gəlirlərdən səmərəli istifadə edərək genişmiqyaslı infrastruktur layihələri həyata keçirib. Bunların arasında dünya səviyyəli elə layihələr var ki, onlar Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirib.

Bu il yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı keçirilmiş müşavirədə bunların tarixi layihələr olduğu vurğulanıb.

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) haqqında daha geniş bəhs edilib. Bu da təsadüfi deyil. Çünki TANAP-ın Avropa ilə birləşən hissəsi keçən il hazır olub. Bu münasibətlə noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində təntənəli mərasim keçirilib. Beləliklə, TANAP tam istismara daxil olub. Bu kəmər "Cənub qaz dəhlizi"nin "onurğa sütunu"nu təşkil edir.

TANAP sözügedən dəhlizi yaradan üç mühüm kəmərin ikincisi və ən böyüyüdür. O, Türkiyənin şərq hüdudlarında "Şahdəniz" qazını Azərbaycanın və Gürcüstanın ərazisi ilə daşıyan CQBK-ya (Cənubi Qafqaz Boru Kəməri) bağlanır. Xəttin digər ucu Yunanıstan-Türkiyə sərhədinə çatır və burada yerləşən Kipoi məntəqəsində TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) birləşir. Bu səbəbdən də TANAP-ı "Cənub qaz dəhlizi"nin birləşdirici halqası da adlandırırlar.

TANAP möhkəm bünövrə üzərində həyata keçirilən layihədir. Odur ki, ötən ilin yekunlarına həsr olunmuş müşavirədə ondan əvvəlki layihələr də xatırlanıb.

2018-ci ilin iyun ayında istifadəyə verilən TANAP artıq il yarımdan çoxdur ki, Azərbaycan qazını Türkiyəyə daşıyır. Məlum olduğu kimi, "Cənub qaz dəhlizi”nin əsas ehtiyat mənbəyi "Şahdəniz” yatağıdır. "Şahdəniz-2”dən ildə 16 milyard kubmetr qaz nəql olunacaq ki, bunun da 6 milyard kubmetrini TANAP vasitəsilə Türkiyə alacaq. Qalan 10 milyard kubmetr qazı isə TAP kəməri TANAP-dan qəbul edərək Avropaya çatdıracaq.

Keçən ilin sonunadək TANAP vasitəsilə Türkiyəyə 4 milyard kubmetrədək qaz nəql olunub. Qarşıdakı illərdə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bu baxımdan da TANAP təkcə Azərbaycan və Türkiyə, eləcə də region üçün deyil, bütün Avrasiya məkanı üçün önəm daşıyır.

TANAP kəmərinin çəkilməsi və istismara verilməsi "Şahdəniz-2”nin işlənməsi üçün mühüm amil rolunu oynayıb. Çünki qaz elə bir yanacaqdır ki, hasil edilməzdən əvvəl onun necə nəql olunacağı müəyyənləşdirilməlidir. Sözügedən müşavirədə Prezident İlham Əliyev TANAP-ı bu baxımdan da yüksək dəyərləndirmişdir: "Keçən il TANAP qaz kəməri istismara verildi. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Çünki TANAP "Cənub qaz dəhlizi”nin əsas hissəsidir. Məhz 2012-ci ildə TANAP üzrə imzalanmış sazişdən sonra "Şahdəniz-2” qaz-kondensat yatağının işlənilməsi üçün sanksiya verilmişdir. Əgər TANAP imzalanmasaydı, "Şahdəniz-2”nin işlənilməsi başlanmayacaqdı və bu gün biz bu əlavə qaz həcmini əldə edə bilməyəcəkdik. Bu, böyük problemlər yarada bilərdi. Ona görə həm TANAP üzrə sazişin imzalanması, həm də bu qaz kəmərinin vaxtından əvvəl istismara verilməsi və nəzərdə tutulmuş vəsaitə çox böyük qənaət edilməsi doğrudan da böyük tarixi nailiyyətimizdir”.

Xatırladaq ki, "Cənub qaz dəhlizi”nin dörd seqmentindən üçü – "Şahdəniz-2”, CQBK-nın genişləndirilməsi və TANAP layihələri müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir. Sonuncu hissə olan TAP-ın çəkilişi də artıq başa çatır. Keçən ilin yekunlarına həsr olunmuş müşavirədə bu layihənin icra səviyyəsinin 90 faizi ötdüyü qeyd edilib. Dövlət başçısı TAP-ın nəzərdə tutulmuş vaxtda, yəni bu il istismara veriləcəyinə əmin olduğunu bildirib.

**Flora SADIQLI.**
www.azerbaijan-news.az

# AZƏRBAYCAN – CƏNUBİ QAFQAZ REGİONUNUN LİDER DÖVLƏTİ

***Əsası ümummilli lider Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən demokratik proseslər və sosial-iqtisadi islahatlarla yanaşı, uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini respublikamıza yönəldib. Bütün bunlar isə beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın daha da güclənməsinə öz müsbət təsirini göstərib.***

Ölkəmiz son 16 il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Xüsusilə vurğulamaq lazımdır ki, respublikamızla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artıb, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənib. Azərbaycan "Avropa qonşuluq siyasətinə" qoşulub, respublikamızla Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb, bununla da siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənib və keyfiyyətcə yeni mərhələyə daxil olub.

Azərbaycan bu gün regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi də çıxış edir və dövlət başçısının bütün səyləri regionun inkişafına və sabitliyin qorunub saxlanılmasına yönəlib. Bunun bariz ifadəsi olaraq Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Gürcüstan-İran və digər əməkdaşlıq formatları formalaşıb.

Son 16 ildə müxtəlif regional əməkdaşlıq çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən Azərbaycan Respublikası ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilən Azərbaycan-Rusiya Regionlararası Forumuna, həmçinin Azərbaycan, Gürcüstan, İran və Türkiyənin xarici işlər nazirlərinin birinci dördtərəfli görüşünə də evsahibliyi edib.

Bütün bu qeyd edilənlər müasir dövrdə Azərbaycanın Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil uğurlu xarici siyasət həyata keçirdiyindən xəbər verir. Hazırda Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülən və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Bunun nəticəsidir ki, dövlətimizin gerçəkləşdirdiyi enerji layihələri, regional inteqrasiyanı sürətləndirən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Sadalananlar isə Azərbaycanın dünya miqyasında nüfuzunu artırmaqla yanaşı, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz Azərbaycanda formalaşıb. Respublikamız iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə dünya ölkələri arasında öncül yerlərdən birini tutub. Beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycanın potensial maliyyə və iqtisadi imkanları yüksək qiymətləndirilib.

Bütün bu uğurlar isə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsizliyini və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

**TANAP Azərbaycanın dəstəyi ilə reallaşan ən böyük regional layihədir**

Azərbaycanın təşəbbüsü ilə reallaşan Cənub Qaz Dəhlizinin xüsusi elementi olan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) yeni bir mərhələyə qədəm qoyması respublikamızın region ölkələri ilə əməkdaşlığını daha da sürətləndirəcək. Bununla bağlı iqtisadçı ekspert Vüqar Bayramov söhbət zamanı dedi: "TANAP Azərbaycan, bütövlükdə region üçün mühüm layihələrdəndir. Azərbaycan TANAP vasitəsilə Türkiyə bazarına əlavə olaraq 6 milyard kubmetr qaz göndərmək imkanı əldə edib. Eyni zamanda, icrası başa çatmaqda olan TAP kəməri vasitəsilə Azərbaycan Avropa bazarına ilkin mərhələdə 10, ikinci mərhələdə 20 milyard kubmetr qaz nəql edəcək. Gələcəkdə Avropa və Türkiyə bazarına çıxarılacaq Azərbaycan qazının həcmi 31 milyard kubmetri ötəcək. Cənub Qaz Dəhlizi, eyni zamanda, TANAP Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirməsi baxımından geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır".

V.Bayramov daha sonra bildirdi ki, bu layihə, eyni zamanda, Türkiyə və Gürcüstan üçün də çox vacibdir. Gürcüstan tranzit ölkədir. Layihənin reallaşması nəticəsində Türkiyə qaz idxalından asılılığını aradan qaldıracaq. Azərbaycan Türkiyəyə qaz ixracına görə ikinci ən böyük ölkəyə çevrilmək niyyətindədir. Bu, Azərbaycan, Gürcüstan və Türkiyə strateji əməkdaşlığının daha da güclənməsinə təkan verir.

Ekspertin sözlərinə görə, TANAP daxil olmaqla Cənub Qaz Dəhlizinin reallaşması birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsinin nəticəsidir. Dövlət başçısının qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi ilə bağlı müzakirələr aparılan zaman bu layihənin reallaşacağına çoxları ümid etmirdi. Layihənin xərclər smetası böyük idi, maliyyələşmə məsələləri vardı. Bütün bunlara baxmayaraq, Azərbaycanın dəstəyi hesabına region üçün ən böyük layihə reallaşdı. Ümumiyyətlə, Azərbaycanın dəstəyi və təşəbbüsü olmasaydı, Cənub Qaz Dəhlizinin gerçəkləşməsi mümkün deyildi. Layihə çərçivəsində Azərbaycan onunla müttəfiq olan ölkələrlə əlaqələrini daha da gücləndirdi. Region hələ uzun müddət dövlətimizin başçısının siyasi iradəsi nəticəsində reallaşan bu təşəbbüsdən fayda-

lana və öz enerji təhlükəsizliyini formalaşdıra biləcək.

**Azərbaycan regionun tranzit imkanlarını genişləndirir**

Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində də həlledici rol oynayır və bu, ölkəmizi mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Bu istiqamətdə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Abşeron Logistika Mərkəzi kimi layihələr artıq həyata keçirilib. Hazırda Şimal-Cənub, Şərq-Qərb və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri layihələrinin reallaşdırılması davam etdirilir, bu dəhlizlər müxtəlif qitələrdə yerləşən müxtəlif ölkələri birləşdirir.

İnfrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə ki, nəqliyyat-logistika sistemlərinin inkişafı iqtisadiyyatın gücləndirilməsində əhəmiyyətli rol oynayan daşımaların həcmini dinamik artırmağı, ölkəyə valyuta axınını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını, ümumilikdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini şərtləndirir.

Dövlətimizin başçısı çıxışlarının birində nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi ilə bağlı deyib: "Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Bizim dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə böyük rol oynayacaqdır. Regionda digər mühüm işlər də məhz bununla bağlıdır".

Son dövrlərdə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda sabit və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi qarşıya əsas vəzifə kimi qoyub.

Xatırladaq ki, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılıb.

Dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır.

Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür, Şimal-Cənub dəhlizi vasitəsilə 14-20 gün olması gözlənilir.

Yeri gəlmişkən, 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin olunub və cari ilin martında İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı sazil imzalanıb.

Azərbaycan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır və artıq yolun Rəşt-Astara hissəsinin tikintisinə 500 milyon dollar güzəştli kredit ayırılıb.

Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı layihənin ciddiliyini nəzərə alaraq investisiya yatırması ölkəmizə beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini qazandırıb.

**Azərbaycan regionun xarici ticarət əlaqələrində önəmli rol oynayır**

Son 16 ildə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkəmizin regionun xarici iqtisadi əlaqələrində də müsbət meyillərə təkan verib. Bu istiqamətdə regional təşkilatlarla aparılan ardıcıl iş öz müsbət nəticəsini verib, xarici ticarətin dinamikasına əhəmiyyətli təsir göstərib.

Respublikamızın xarici iqtisadi əlaqələrinin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik də təkmilləşdirilib, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanan yeni Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar qəbul edilib.

Siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün cəlbedici ölkəyə çevirməklə bərabər, regional ticarət əməkdaşlığına da müsbət təsir göstərib. Bu fikrin təsdiqi olaraq, son statistik rəqəmlərə nəzər salmaq istərdik. Belə ki, cilin yanvar-oktyabr aylarında Rusiyaya 533,9 milyon, Türkiyəyə 324,6 milyon, İsveçrəyə 147,7 milyon, Gürcüstana 131,5 milyon və Ukraynaya 39,8 milyon dollarlıq qeyri-neft sektoruna aid məhsul ixrac olunub.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 10 ayında Rusiyaya qeyri-neft ixracı 14 faiz, Türkiyəyə 10 faiz, Gürcüstana isə 23 faiz artıb.

**Vaqif BAYRAMOV.**
e-mail: www.xalqqazeti.com

# REGİONLARIN YÜKSƏLİŞİ HƏR ZAMAN PRİORİTET İSTİQAMƏTDİR

*İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında bölgələrin tərəqqisi istiqamətində həyata keçirilən layihələr uğurlu nəticələr verir*

***Dövlət və cəmiyyət həyatının bütün sahələrində sistemli, institusional islahatların, fundamental dəyişikliklərin aparıldığı 2019-cu ili başa vurmaq üzrəyik. İl ərzində ölkədə gedən ictimai-siyasi proseslərə, əldə edilən nailiyyətlərə nəzər yetirsək, həqiqətən də 2019-cu ili ölkəmiz, xalqımız adına uğurlu il hesab etmək olar.***

İlin əvvəlindən başlayan sosial-iqtisadi islahatlar həm əhalinin rifah halının yüksəlməsinə, həm ölkə iqtisadiyyatının, kənd təsərrüfatının, ümumilikdə regionların tərəqqisinə xidmət etmiş oldu. Regionların sosial-iqtisadi inkişafını şərtləndirən dövlət proqramının, dövlət investisiya layihələrinin icrası nəticəsində yeni avtomobil yolları çəkilib, içməli su təchizatı və kanalizasiya sistemləri yenilənib, sosial-iaşə obyektləri, mühüm sənaye müəssisələri, aqro və texnoparklar istifadəyə verilib.

**Bir ildə Şamaxıya 3-cü səfər**

Hər il olduğu kimi bu il də Prezident İlham Əliyev regionlara səfərlər edərək görülən işlərlə yerində tanış olub, müxtəlif sosial infrastrukturların açılışını edib, əhali ilə görüşərək problemləri ilə maraqlanıb və onların icrası ilə bağlı ciddi tapşırıqlar verib. İlin əvvəlində, fevral ayının 5-6-da Şamaxı, Ağsu və İsmayıllı rayonlarında baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərlə tanış olmaq üçün fevralın 7-də Şamaxıya səfər edən cənab Prezident evi dağılan, qəzalı duruma düşən sakinlərə mənəvi dəstək verərək dövlətin onlara yardımçı olacağına söz verdi. Verdiyi bütün sözlərə sadiqliyi ilə hər zaman xalqın etibarını, etimadını qazanan cənab İlham Əliyevin tapşırığı ilə zəlzələdən ziyan çəkən vətəndaşlara yeni mənzillər tikildi. Özü də əvvəlkindən daha möhtəşəm, daha əzəmətli. Dövlət başçısı yeni mənzillərinə köçən sakinlərin şəraiti ilə maraqlanmaq üçün martın 7-də yenidən Şamaxıya səfər etdi. Vətəndaşlarla görüşüb bir daha onların problemləri ilə maraqlandı və qəzalı evlərlə bağlı yenidən göstəriş verdi.

10 aydan sonra, dekabrın 5-də dövət başçısı verdiyi tapşırıqların icrası ilə maraqlanmaq üçün yenidən Şamaxıya üz tutdu. Yeni mənzillərinə köçən sakinlərin qonağı oldu. Söhbət əsnasında evin ağbirçəyi Xuraman Həsənovanın xalqa göstərdiyi diqqətə, qayğıya görə cənab İlham Əliyevə söylədiyi səmimi fikirlər diqqət çəkdi: "Bizim Prezidentimizdən heç bir yerdə yoxdur, bir dənədir, xanımı da, özü də. Allah övladlarının canını sağ eləsin, o bir oğlunu gözünə çıraq eləsin. Allaha şükür ki, Siz bu insanlara yardım edirsiniz, belə şərait yaradırsınız. Çox sağ olun, Allah Sizdən razı olsun. Ömrünüz uzun olsun, Sizə qurban olum. Mən bu sözləri bu evə görə demirəm. Siz gözəl insansınız. Belə Prezident heç bir yerdə yoxdur”.

Ağbirçək ananın səmimi fikirləri bir daha onu göstərir ki, xalq Prezidentinə hər zaman inanır və güvənir. Elə cənab İlham Əliyevə də güc verən budur – xalqın etimadı, güvəni...

Prezident isə dedi ki, zəlzələdən əziyyət çəkmiş vətəndaşların hər zaman yanındadır: "Necə ki, mən zəlzələdən dərhal sonra Şamaxıya gəldim. Bu gün də deməliyəm ki, bu məsələ daim diqqət mərkəzindədir. Təmirə, tikintiyə ehtiyacı olan axırıncı evə qədər bu, daim mənim diqqətimdə olacaqdır".

Söhbət əsnasında o da bəlli oldu ki, Şamaxıda zəlzələdən əziyyət çəkən sakinlərə 10 aya 580 fərdi ev, 44, 20 və 110 mənzildən ibarət hündürmərtəbəli üç bina tikilib. Bundan başqa, çoxlu bərpa işləri də görülüb. Təkcə Şamaxı rayonu üzrə 1175 evdə bərpa işləri aparılıb. Bu evlər, demək olar ki, yenidən tikilmiş evlərə bərabərdir.

Bütün bunlar bir daha təsdiq edir ki, dövlət hər zaman vətəndaşının yanındadır və vətəndaşların problemlərinin həlli daim diqqət mərkəzindədir. 10 ay ərzində bütün evlərin yenidən tikilməsi və təmir olunması isə misli görünməmiş hadisədir. Dövlətin vətəndaşların problemlərinə bu cür həssas münasibəti onun niyyətini, gücünü göstərir.

**Kompleks inkişaf planı təsdiqlənib**

Prezident Şamaxının sosial-iqtisadi inkişafı və gələcək planlar barədə də məlumat verərək rayon sakinlərinə xoş xəbərlər çatdırdı. Şamaxı rayonunun kompleks inkişaf planının artıq təsdiqləndiyini söyləyən dövlət başçısı rayon üçün kommunal texnika, müasir sərnişin avtobusları, müasir təcili tibbi yardım maşınlarının alınacağını da dedi.

Plana əsasən dayanacaqlar, şəhər təsərrüfatı tamamilə yenilənəcək. Şəhərdaxili yollara yenidən asfalt salınacaq: "Şamaxı qədim tarixi yerdir. Qədim xəritələrdə Şamaxının adı var. Adı əsrlərboyu xəritələrdə öz əksini tapan şəhərlər o qədər də çox deyil. Şamaxı o şəhərlərdəndir, tarixi şəhərdir, Şirvanın mərkəzidir. Elə zəlzələdən sonra Şirvanşahlar buradan Bakıya köçüblər, Bakıda saray tikiblər. Amma onların yeri buradır. Nəsiminin vətəni buradır. Biz bunu, əlbəttə ki, qiymətləndirməliyik".

Prezident həmçinin bu səfər zamanı Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışını da etdi. Ümumi uzunluğu 16 kilometr olan yol yenidən qurularaq 4 zolağa genişləndirilib.

Prezidentin tapşırığı ilə Şamaxı şəhərinin bütün daxili yolları, kənd yolları əsaslı şəkildə təmir ediləcək. Şəhərin içməli su problemi təxminən gələn ilin aprel-may aylarında həllini tapacaq və şamaxılılar təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Şamaxıda qazlaşdırma 95 faizdir. Elektrik enerjisi təchizatında isə heç bir problem yoxdur.

Hazırda Şamaxıda böyük üzüm bağları salınır, üzüm festivalı keçirilir, Şamaxı və Hacıqabul rayonlarının ərazisində ölkəmizin ən böyük aqroparkı salınır. O aqroparkın sahəsi 42 min hektardır və kənd təsərrüfatının inkişafına böyük dərəcədə təkan verəcək. Şamaxı ənənəvi üzümçülük rayonudur. Üzümçülüyün ənənələri bərpa edilir, iş yerləri açılır, o cümlədən ödənişli ictimai işlər yaradılır.

Göründüyü kimi, Şamaxı rayonunun kompleks inkişafı dövlət başçısının diqqət mərkəzindədir. Cənab Prezidentin rayonun sosial-

iqtisadi inkişafı ilə bağlı imzaladığı sənədlər də bunu bir daha təsdiqləyir.

**İlin ilk "ASAN Həyat" kompleksi**

Prezidentin Şamaxı səfəri daha bir tarixi hadisə ilə əlamətdar oldu. Ölkəmizdə sayca 16-cı, 2019-cu ildə isə ilk olan Şamaxı "ASAN Həyat" kompleksi açıldı. Cənab İlham Əliyevin intellektual məhsulu olan bu xidmət bu gün təkcə ölkəmizdə deyil, xaricdə də böyük rəğbətlə qarşılanır.

Elə statistik göstəricilərə də nəzər yetirsək görərik ki, ölkə əhalisi bu xidmətdən çox razıdır. Bugünədək ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyona yaxındır. 9 ay ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edib.

Ölkə üzrə sayca 16-cı olan bu kompleks Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət həyata keçiriləcək.

Kompleksin əməkdaşları ilə səmimi söhbət edən cənab İlham Əliyev "ASAN Xidmət"in yaranışından, üstünlüklərindən söz açaraq dedi ki, bu xidmət cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olub. Çünki ictimai xidmətlər sektoru həmişə çox problemli sektor olub və vətəndaşlar çox əziyyət çəkiblər.

Onu da diqqətə çatdıraq ki, bu il ölkəmizdə 5 "ASAN xidmət" mərkəzinin açılması nəzərdə tutulur. Şamaxıdan sonra hazırda tamamlanma işləri gedən Kürdəmir, Ağcabədi və Tovuzda da mərkəzlər açılacaq. Balakəndə isə gələn il istifadəyə veriləcək.

Dövlət başçısı bu xidmətin ərsəyə gəlməsi, imkanları barədə danışarkən vurğuladı: "ASAN bizim intellektual məhsulumuzdur. Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır. "Bakutel" sərgisində də mənə edilən təqdimatlar göstərir ki, biz artıq xidmətləri, o cümlədən peyk xidmətlərini, innovasiyalarla bağlı olan xidmətləri ixrac edirik. "ASAN xidmət" mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərir və bir neçə ölkə ilə bizim artıq anlaşma memorandumlarımız və sazişlər imzalanıbdır. ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür".

Bəli, Prezidentin də dediyi kimi Azərbaycanın intellektual brendi olan "ASAN həm də cənab İlham Əliyevin yürütdüyü siyasəti əks etdirir. Bu siyasət də hər bir sahədə şəffaflığın, dürüstlüyün olmasının tərəfdarıdır.

Bir sözlə, Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında bölgələr tərəqqi dövrünü yaşayır. Dövlət başçısının regionların inkişafı ilə bağlı verdiyi bütün vədlərə əməl etməsi, indiyədək heç bir proqram və layihənin təxirə salınmaması, regionların sosial-iqtisadi inkişafına dair dördüncü dövlət proqramının uğurlu icrası bölgələrin simasını büsbütün dəyişib.

**Rəşad BAXŞƏLİYEV.**
e-mail: www.azerbaijan-news.az

*RƏSMİ SƏNƏDLƏR*

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2020-ci İLİN "KÖNÜLLÜLƏR İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə **qərara alıram:**

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 30 dekabr 2019-cu il.

# Ə.C.ƏHMƏDZADƏNİN 1-ci DƏRƏCƏLİ "ƏMƏK" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq q**ərara alıram:**

Azərbaycan Respublikasında meliorasiya və su təsərrüfatı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə **Əhməd Cuma oğlu Əhmədzadə** 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 6 yanvar 2020-ci il

# X.B.YUSİFZADƏNİN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə **Xoşbəxt Bağı oğlu Yusifzadə** "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 13 yanvar 2020-ci il

# POÇT ÖDƏNİŞ XİDMƏTLƏRİ HAQQINDA SAZİŞƏ VƏ ONUN YEKUN PROTOKOLUNA QOŞULMAQ BARƏDƏ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikası 2016-cı il oktyabrın 6-da İstanbul şəhərində qəbul edilmiş Poçt ödəniş xidmətləri haqqında Sazişə və onun Yekun Protokoluna Azərbaycan Respublikasının ona dair bəyanatı ilə qoşulsun.

2. Azərbaycan Respublikasının aşağıdakı qanunları bu Qanun qüvvəyə mindiyi gündən ləğv edilsin:

2.1. "Ümumdünya Poçt İttifaqının "Poçt ödənişləri xidmətləri haqqında" Sazişinə qoşulmaq barəsində" Azərbaycan Respublikasının 2007-ci il 6 mart tarixli 259-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 400);

2.2. "Poçt ödəniş xidmətləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 569-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 336);

2.3. "Poçt ödəniş xidmətləri haqqında" Sazişə qoşulmaq barədə" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 517-IVQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 87);

2.4. "Poçt ödəniş xidmətləri haqqında" Sazişə qoşulmaq barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 169-VQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 427).

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 3 dekabr 2019-cu il

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**N A Z İ R L Ə R K A B İ N E T İ**

**Q Ə R A R**

**№ 509**

**Bakı şəhəri, 28 dekabr 2019-cu il**

**"Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması Qaydası"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 627 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Azərbaycan Respublikasının**
**Baş Naziri Əli Əsədov.**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 dekabr tarixli 509 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması**
**Q A Y D A S I**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun 7.4-cü maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının Dövlət Gerbinin (bundan sonra – Dövlət Gerbi) təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması qaydasını müəyyən edir.

1.2. Dövlət Gerbinin binalara, sərhəd nişanlarına vurulan təsviri ölçüsündən asılı olmayaraq, onun Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gerbinin Təsviri"nə əlavə edilən rəngli, rəngsiz və sxematik təsvirlərinə uyğun gəlməlidir.

**2. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirinin dövlət orqanlarının binalarının lövhələrində vurulması**

2.1. Dövlət Gerbinin təsviri "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun 6-cı maddəsi ilə müəyyən edilən binalarda yerləşdirilərkən, birmərtəbəli və çoxmərtəbəli binaların memarlıq xüsusiyyətləri aşağıdakı qaydada nəzərə alınmalıdır:

2.1.1. birmərtəbəli binada Dövlət Gerbinin təsviri (diametri 0,5 metr olmaqla) binanın əsas girişi tərəfindən örtük səviyyəsində və ya frontonunda və ya binanın giriş günlüyünün üzərində yerləşdirilir;

2.1.2. hündürlüyü 20 metrədək olan iki, üç, dörd, beş mərtəbəli binalarda Dövlət Gerbinin təsviri binanın sonuncu mərtəbəsinin örtük səviyyəsində və ya frontonunda (diametri 1 metrdən 1,5 metrədək)

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il və ortamüddətli dövr üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*(Çıxarış)*

*2019-cu ildə Mərkəzi Bankın pul siyasətinin başlıca hədəfi milli iqtisadiyyatda qiymətlər sabitliyinin təmin edilməsi olmuşdur. Aşağı və stabil inflyasiya əhalinin həyat səviyyəsinin qorunması, işgüzar fəaliyyət üçün əlverişli mühitin formalaşdırılması, əhali və biznesin maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması və milli valyutaya etibarın başlıca şərtlərindəndir.*

*Möhtərəm Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət və struktur-institusional islahatlar sayəsində 2019-cu ildə Azərbaycanda iqtisadi aktivlik üzrə müsbət dinamika qorunmuş, profisitli tədiyə balansı strateji valyuta ehtiyatlarının artmasına şərait yaratmışdır.*

*İnflyasiya səviyyəsinin 2019-cu il üçün qəbul edilmiş hədəf dəhlizində (4±2) formalaşması iqtisadi şərtlərdə müəyyənlik yaratmaqla iqtisadi fəallığa mühüm dəstək vermişdir.*

*2020-ci ildə də Mərkəzi Bankın həyata keçirəcəyi monetar siyasət qiymətlər sabitliyi istiqamətində əldə edilən nəticələrin möhkəmlənməsinə və inflyasiyanın aşağı birrəqəmli səviyyədə lövbərləşməsinə yönəldiləcəkdir. Bu zaman Mərkəzi Bank iqtisadi dinamikaya və xüsusilə qiymətlər sabitliyinə təsir edən başlıca xarici və daxili amilləri diqqət mərkəzində saxlayacaqdır. Dünya ərzaq qiymətlərinin artımı, enerji daşıyıcılarının qiymət dinamikası, kredit aktivliyinin, xüsusilə istehlak kreditlərinin artım sürəti, büdcə siyasəti və fiskal kəsirin maliyyələşmə mənbələrinin qiymət sabitliyinə təsir kanalları və digər amillər həyata keçiriləcək monetar siyasətdə nəzərə alınacaqdır.*

*Mərkəzi Bank 2020-ci ildən ölkədə maliyyə sabitliyinin gücləndirilməsi, maliyyə sektorunun inkişafı və real sektorun maliyyəyə çıxış imkanlarının artırılması istiqamətlərində kompleks tədbirlər görəcəkdir. Makroprudensial alətlərin tətbiqi ilə maliyyə sektoru sistem risklərdən qorunacaq, ən qabaqcıl təcrübəyə əsaslanan nəzarət çərçivəsi tətbiq olunacaqdır. Maliyyə sektorunun sabitliyi və inkişafı iqtisadi artım ilə yanaşı pul siyasətinin ötürücülüyünə də müsbət təsir edəcəkdir.*

*Eyni zamanda, ölkədə həm iqtisadi artımın sürətlənməsi, həm də makroiqtisadi sabitliyin, o cümlədən qiymətlər sabitliyinin təmin edilməsinin başlıca amilləri müxtəlif iqtisadi siyasət istiqamətlərinin sıx koordinasiyasından, mühüm struktur-institusional islahatların həyata keçirilməsindən asılı olacaqdır.*

## ...II. 2020-ci İL VƏ ORTAMÜDDƏTLİ DÖVRƏ PUL VƏ MALİYYƏ SABİTLİYİ SİYASƏTİ

2020-ci il və ortamüddətli dövr ölkədə yeni iqtisadi inkişaf modelinə keçid baxımından mühüm strateji horizont hesab olunur. Bu dövrdə də qiymətlər sabitliyi və maliyyə sektorunun stabilliyinin qorunması, habelə maliyyə sektorunun inkişafı makroiqtisadi və makroprudensial siyasətlərin mühüm prioritetlərindən olacaqdır.

Mərkəzi Bank makroiqtisadi və maliyyə sabitliyi vasitəsilə iqtisadi artım və sosial

rifahın yaxşılaşması üçün münbit şəraitin yaradılmasına dəstək verəcəkdir.

Pul siyasəti dayanıqlı iqtisadi artım üçün vacib şərtlərin təmin edilməsində mühüm rol oynayacaqdır. Pul siyasəti bundan sonra da işgüzar mühitin, sosial stabilliyin və rəqabət qabiliyyətinin mühüm elementi olan qiymət sabitliyinə fokuslaşacaqdır. İnflyasiyaya təsir imkanlarını genişləndirmək üçün pul siyasəti rejiminin təkmilləşdirilməsi işləri davam etdiriləcəkdir.

Maliyyə sektorunun dayanıqlığının gücləndirilməsi, maliyyə vasitəçiliyinin və maliyyə bazarlarının inkişafı istiqamətində səylər gücləndiriləcəkdir.

**2.1. Makroiqtisadi proqnozlar**

...2020-ci ildə də dövlət tələbi iqtisadi artımın mühüm amillərindən biri olaraq qalacaqdır. Büdcədə neftin qiymətinin ötən illə müqayisədə daha konservativ (55 dollar) götürülməsi perspektiv üçün fiskal dayanıqlığı dəstəkləyən amildir. 2020-ci il üzrə dövlət büdcəsinin hazırlanması zamanı fiskal qaydaya edilmiş yeniliklər iqtisadi artıma fiskal stimulların gücləndirilməsi məqsədini daşıyır. Növbəti ildə dövlət büdcəsi xərclərinin 2019-cu ilə nəzərən 6.8%, o cümlədən cari xərclərin 39.3% artacağı proqnozlaşdırılır. İl ərzində ötən illə müqayisədə əhəmiyyətli artan büdcə kəsirini maliyyələşdirmək üçün daxili borclanmadan daha çox istifadə edilməsi həm makroiqtisadi sabitliyin qorunması, həm də maliyyə bazarlarının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edərdi.

Hökumətin rəsmi proqnozlarına görə, 2020-ci ildə inflyasiya 4.6% olacaqdır ki, bu da əhalinin real gəlirlərinin artımına şərait yaradacaq səviyyədir.

Ümumilikdə, 2020-ci ildə daxili balans üzrə qeyd olunan proqnozların reallaşması makroiqtisadi siyasətin bütün istiqamətlərinin effektiv koordinasiyasından və mümkün xarici şokun təsirlərinin qabaqcadan hazırlanmış tədbirlər planı ilə minimallaşdırılmasından asılı olacaqdır.

**2.2. 2020-ci ilə pul siyasəti çərçivəsi**

2020-ci il və ortamüddətli dövrdə də pul siyasətinin prioritet məqsədi qiymət sabitliyinin Mərkəzi Bankın səlahiyyətləri çərçivəsində qorunması olacaqdır. Qiymət sabitliyinin pul siyasətinin digər məqsəd və vəzifələrindən mütləq üstünlüyü növbəti ildə də təmin ediləcəkdir. İnformasiya açıqlığı növbəti ildə də pul siyasətinin mühüm prinsiplərindən biri olacaqdır.

Qiymət sabitliyi istehlakçılar və biznes üçün əlverişli iqtisadi mühitin vacib elementidir. Aşağı inflyasiya milli valyutanın sabit alıcılıq qabiliyyətini təmin edir. Qiymət sabitliyi hesabına etimad qazanmış siyasət sahibkarlara və ev təsərrüfatlarına öz investisiya və istehlak planlarını ortamüddətli dövrə əminliklə tərtib etməyə imkan yaradır. Stabil aşağı inflyasiya gəlirlərin və yığımlarının dəyərsizləşməsinin qarşısını alaraq milli valyutada uzunmüddətli yığımları stimullaşdırır, dollarlaşmanı və faiz dərəcələrini azaldır. Bu da daxili investisiya potensialını artırır və iqtisadi inkişafa təkan verir. Aşağı inflyasiya sosial stabilliyin vacib elementi olmaqla aşağı gəlirli əhalinin istehlak səviyyəsini qoruyur və gəlir bərabərsizliyinin dərinləşməsinə mane olur.

2020-ci ildə də pul siyasətinin son hədəfi inflyasiyanın 4±2% dəhlizində saxlanılması təşkil edəcəkdir. Hədəf istehlak qiymətləri indeksinin illik, yəni son 12 ayda dəyişimi üzrə müəyyən edilmişdir. Bu hədəfə nail olmaq üçün Mərkəzi Bank arsenalında olan bütün alət və mexanizmlərdən adekvat istifadə edəcək, pul siyasətini həyata keçirərkən öz qərarlarının ardıcıllığı və nəticə əsaslı olmasını diqqətdə saxlayacaqdır.

Manatın məzənnəsinin dinamikası növbəti ildə də aşağı inflyasiyanın vacib şərtlərindən biri olacaqdır. Hesablamalara görə,

manatın möhkəmlənməsinin qiymətlərə azaldıcı təsiri ilə müqayisədə onun ucuzlaşmasının artırıcı təsiri daha yüksəkdir.

Mövcud məzənnə rejimi çərçivəsində Mərkəzi Bank manatın məzənnəsinin makroiqtisadi fundamentallar əsasında formalaşmasına şərait yaradacaqdır. Manatın məzənnəsinin uzunmüddətli dinamikasını müəyyənləşdirən başlıca amil tədiyə balansının vəziyyəti olacaqdır ki, bu da xarici şokların və kapital axınlarının təsiri ilə dəyişə bilər. Ona görə də başlıca ixrac məhsulları üzrə qiymətlərin dəyişimi və kapital axınları, eləcə də nominal və real effektiv məzənnələrin dinamikası daim monitorinq olunacaq, onların iqtisadiyyata və maliyyə bazarlarına təsirləri diqqətdə saxlanacaqdır. Xarici valyuta təklifi mənbələrinin diversifikasiyası, habelə dövlət tərəfindən valyuta təklifi və tələbinin effektiv tənzimlənməsi qarşıdakı dövrdə də valyuta bazarında uzunmüddətli tarazlığın əsas təminatçısı kimi çıxış edəcəkdir.

...Uçot dərəcəsinin trayektoriyasının inflyasiya hədəfi nəzərə alınmaqla müəyyənləşdirilməsi və vaxtında adekvat pul siyasəti qərarlarının qəbulu inflyasiyanın hədəfdən yayınma ehtimalını minimallaşdırmağa imkan verməlidir. Daxili və xarici risklərin reallaşmaması, bazarda gözlənilməz dəyişikliklərin baş verməməsi şəraitində 2020-ci ildə neytral faiz siyasəti ilə inflyasiya fonu üzərində nəzarəti itirmədən tam məşğulluğa və iqtisadi artıma maksimum dəstək həyata keçiriləcəkdir. İnflyasiya risklərinin aktivləşməsi halında isə faiz siyasətinin sərtləşmə istiqamətində dəyişməsi də mümkündür. Ümumiyyətlə, pul siyasətinin istər pulun dəyəri, istərsə də pulun kəmiyyəti hesabına izafi yumşaldılması masştablı neqativ nəticələrə gətirib çıxara bilər. Məcmu tələbin artım tempinin iqtisadiyyatın istehsalı genişləndirmək imkanlarının artımını qabaqlaması inflyasiyaya yol aça bilər. Bunu nəzərə alaraq Mərkəzi Bank inflyasiya risklərinin qiymətləndirilməsi və qərarların qəbulu zamanı konservativ mövqedən çıxış edəcəkdir.

İnflyasiya hədəfinə nail olmaq üçün Mərkəzi Bank sərəncamındakı pul siyasəti alətlərindən operativ istifadə edəcək. Bu alətlər üzrə kəmiyyət parametrləri aralıq hədəflərə nail olunması vəziyyətindən asılı olaraq çevik dəyişdiriləcəkdir.

...Mərkəzi Bank şəffaflığın yüksəldilməsi və pul siyasətinin effektiv kommunikasiyasını növbəti ildə də xüsusi diqqətdə saxlayacaqdır. İnformasiya açıqlığı siyasəti çərçivəsində pul siyasətinin məqsədi, prinsipləri, tədbirləri və nəticələri, eyni zamanda iqtisadi vəziyyətin qiymətləndirilməsi və inkişaf perspektivləri ilə bağlı maksimum operativ və tam açıq məlumatların verilməsi təmin olunacaqdır.

Mərkəzi Bankın qərar və niyyətlərini aydın kommunikasiya etməsi inflyasiya gözləntilərini idarə etmək üçün təsirli alətdir. İnflyasiya gözləntiləri həm cari inflyasiyanın dinamikasına, həm də iqtisadiyyatdakı faiz dərəcələrinə təsir göstərir. Aşağı inflyasiya gözləntiləri iqtisadiyyatın daxili və xarici risklərə qarşı davamlılığını artırır, iqtisadi artım və sosial rifah məqsədlərinə çatmaq üçün əlverişli şərait yaradır. Mərkəzi Bank özünün kommunikasiyası ilə ev təsərrüfatları və müəssisələrin inflyasiya gözləntilərini stabilləşdirməyə və inflyasiya hədəfinə uyğunlaşdırmağa çalışacaqdır.

2020-ci ildə də öncədən açıqlanmış qrafiklə pul siyasəti qərarları müvafiq şərhlərlə birlikdə ictimaiyyətin müzakirəsinə təqdim ediləcək, müntəzəm (ildə 4 dəfə) mətbuat konfransları keçiriləcəkdir (Əlavə 1). Mərkəzi Bankın qərarlarının səbəbləri və atılan addımlar barədə ətraflı məlumat bazar iştirakçılarına qərar qəbul edildikdən dərhal sonra veriləcəkdir. Kommunikasiya kanalları dairəsinin genişləndirilməsi diqqətdə saxlanılacaqdır.

2020-ci ildə bir sıra qlobal və ölkə üçün spesifik risklər inflyasiya hədəfinə nail olmağa təsir göstərə bilər.

...Risk balansını və qeyri-monetar faktorların təsir potensialını nəzərə almaqla inflyasiyanın hədəf diapozonu çərçivəsində saxlanılması əhəmiyyətli dərəcədə müxtəlif iqtisadi siyasət istiqamətlərinə yanaşmalardan asılı olacaqdır. Qeyri-müəyyənliklərin artdığı bir şəraitdə yalnız iqtisadi siyasətin bütün istiqamətləri, xüsusilə fiskal və monetar siyasət üzrə effektiv koordinasiya xarici şokların neqativ təsirlərinin minimallaşdırılmasına, o cümlədən, valyuta bazarında tarazlığın qorunmasına imkan verə bilər. Fiskal siyasətdə pro-tsiklliyə yol verilməməsi və fiskal qaydaların adekvat tətbiqi daxili risk amillərinin effektiv idarə edilməsi və beləliklə qiymət sabitliyinin dayanıqlığının əsas şərtlərindən biri olaraq qalacaqdır. Digər tərəfdən ölkədə həyata keçirilən struktur-institusional islahatlar rəqabət mühitini yaxşılaşdırmalıdır ki, bu da dayanıqlı qiymət sabitliyi üçün əhəmiyyətlidir.

### 2.3. Ortamüddətli dövrə pul siyasəti çərçivəsi

Mərkəzi Bank pul siyasəti rejiminin təkmilləşdirilməsi ilə inflyasiyaya təsir imkanlarının yüksəldilməsi istiqamətində fəaliyyətini 2020-ci ildə də davam etdirəcəkdir.

Pul siyasəti strategiyasının təkmilləşdirilməsi çərçivəsində Mərkəzi Bank Azərbaycanda inflyasiyanın hədəflənməsi rejiminə mərhələli keçid şərtlərinin reallaşdırılması istiqamətində işlərini davam etdirəcəkdir.

...Yeni rejimə keçid tədbirləri çərçivəsində Mərkəzi Bank özünün təhlil və proqnozlaşdırma potensialını və fəaliyyətinin şəffaflığını daha da yüksəldəcəkdir. Proqnozlaşdırmanın keyfiyyətinin artırılması inflyasiyanın gözlənilən səviyyəsi ilə onun hədəflənən səviyyəsi arasında fərqləri müəyyən etməyə və minimallaşdırmağa imkan verəcəkdir. Pul siyasətinin kommunikasiyasında edilən dəyişikliklər ictimaiyyətin diqqətini məzənnədən inflyasiyaya yönəldəcəkdir ki, bu da gözləntiləri dəyişməklə qiymət sabitliyinə nail olmağı dəstəkləyəcəkdir. Mərkəzi Bankın maliyyə və əməliyyat müstəqilliyinin qorunması da qiymət sabitliyini dəstəkləyən amillərdən biri olacaqdır. Yeni bank qanunvericiliyi Mərkəzi Bankın məsuliyyət-müstəqillik və şəffaflıq-hesabatlıq üzrə institusional əsaslarını daha da gücləndirməlidir.

### 2.4. Maliyyə sektorunun sabitliyi və inkişafı

2020-ci ildə maliyyə sektorunun risklərə qarşı dayanıqlığının yüksəldilməsi, maliyyə vasitəçiliyinin, pul və kapital bazarlarının dərinləşdirilməsi istiqamətində səylər artırılacaqdır. Maliyyə sektorunda resturuktrizasiya proseslərinin başa çatdırılması, problemli aktivlərin tənzimlənməsi üzrə təsirli tədbirlər görüləcəkdir. Bütün bunlar maliyyə sektorunun iqtisadi artımda rolunu yüksəltməlidir.

...Real sektor müəssisələrinin, xüsusən də orta və kiçik sahibkarlıq subyektlərinin ucuz və uzun müddətli maliyyə resurslarına çıxış imkanlarını artırmaq üçün hökumətlə birgə təşəbbüslər göstəriləcək. Qeyri-maliyyə sektorunda korporativ idarəetmənin geniş tətbiqi, kreditorların hüquqlarının qorunması mexanizminin gücləndirilməsi növbəti ildə də biznes kreditləşməsinin genişlənməsinin mühüm şərtlərindən olacaqdır.

Faiz dərəcələrinin azaldılması tədbirləri ilə bağlı 2020-ci ildə Mərkəzi Bankla bank ictimaiyyəti arasında fəal dialoq davam etdiriləcəkdir. Ölkədə nağdsız ödənişlərin genişlənməsi ilə kreditləşmənin resurs mən-

bələrinin artırılması, maliyyə bazarlarının bütün seqmentlərinin davamlı inkişafı, banklarda əməliyyat xərclərinin optimallaşması növbəti ildə də faiz dərəcələrinə azaldıcı təsir göstərən amil olacaqdır.

Maliyyə xidmətlərinə əlyetərliyin paytaxtdan kənarda da artırılması məqsədi ilə kredit institutlarının regional şəbəkəsinin genişləndirilməsi təşviq olunacaqdır. Bankların, habelə poçt sistemi daxil olmaqla bank olmayan kredit təşkilatlarının regional xidmət şəbəkəsi vasitəsilə bank xidmətlərinə çıxışın artırılması istiqamətində tədbirlər görüləcəkdir.

İnnovativ maliyyə alətlərinin tətbiqinin yayılması, mobil texnologiyaların bank sisteminə daha geniş inteqrasiyası kredit institutlarının əməliyyat xərclərinin, borcalanların isə vaxt itkisinin və inzibati xərclərinin aşağı salınmasına imkan verəcəkdir. Bu da öz növbəsində bazar subyektlərinin maliyyə xidmətlərinə sürətli çıxışının təmin olunması və borcun qiymətinin ucuzlaşması baxımından əhəmiyyətlidir.

Maliyyə bazarları üzrə normativ-hüquqi bazanın gücləndirilməsi istiqamətində səylər artırılacaqdır. "Sekyuritizasiya fəaliyyəti haqqında" Qanunun qəbulu üzrə işlərin davam etdirilməsi və əlaqədar normativ xarakterli aktların hazırlanması təmin ediləcəkdir. Törəmə maliyyə alətləri bazarı üzrə hüquqi çərçivənin də qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi nəzərdə tutulur. Beynəlxalq maliyyə institutlarının istiqrazlarının emissiyası və tədavülünü tənzimləyən xüsusi hüquqi çərçivə yaradılacaqdır. İnvestisiya fondlarının fəaliyyətinin təşviqi məqsədilə müvafiq hüquqi çərçivəyə yenidən baxılacaqdır.

...Nəzarətin təkmilləşdirilməsi məqsədi ilə sığortaçıların, sığorta vasitəçilərinin, o cümlədən xarici sığortaçıların və xarici sığorta brokerlərinin, onların Azərbaycandakı nümayəndəliklərinin, sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxslərin reyestrinin aparılması təmin ediləcəkdir. Sığorta ilə bağlı təbliğat-təşviqat işlərinin davam etdirilməsi, nəzarət çərçivəsində sığortaçılarda səyyar yoxlamaların həyata keçirilməsi də planlaşdırılır.

**2.5. Rəqəmsal ekosistemin inkişafı**

Nağdsız ödənişlərin inkişafı, elektron ödəniş xidmətlərinin və innovativ ödəniş texnologiyalarının tətbiqinin genişləndirilməsi Mərkəzi Bankın fəaliyyətinin prioritet istiqamətlərindən olacaqdır.

Dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq ölkədə vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin genişləndirilməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və ölkədə nağdsız cəmiyyətin formalaşdırılması istiqamətində fəaliyyət davam etdiriləcəkdir.

Bu sahədə həyata keçiriləcək ən mühüm layihələrdən biri "Ani ödəniş sistemi"nin yaradılması olacaqdır. Bu sistemin yaradılması ilə biznes strukturları, fiziki şəxslər və dövlət orqanları arasında hesablaşmaların məkanından və zamanından asılı olmayaraq 24/7/365 rejimində 5-10 saniyə ərzində tam başa çatdırılması mümkün olacaqdır.

Ödəniş xidmətləri üzrə tənzimləyici çərçivənin təkmilləşdirilməsi və nəzarətin gücləndirilməsi işləri də 2020-ci ildə davam etdiriləcəkdir. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun və ondan irəli gələn hüquqi aktların qəbulu istiqamətində işlər görüləcəkdir. Rəqəmsal ödənişlər sahəsində tənzimləyici test rejiminin tətbiqi imkanları qiymətləndiriləcək və "Baza bank xidmətləri paketi" layihəsi təşviq olunacaqdır. Ödəniş ekosistemində yerli və beynəlxalq maliyyə institutlarının fəaliyyətinin təhlili,

tətbiq edilən məhsulların qiymətləndirilməsi aparılacaqdır. Maliyyə inklüzivliyinin inkişafı üzrə yeni metodların tətbiqi, o cümlədən agent bankçılıq və ödəniş agenti şəbəkəsinin formalaşdırılması, bank olmayan ödəniş xidməti təchizatçılarının assosiasiyasının yaradılması nəzərdə tutulur. Rəqəmsal bankçılıq və rəqəmsal ödəniş texnologiyaları sahəsində innovativ həllərin tətbiqi, risklərin daha operativ idarə edilməsi məqsədi ilə tənzimləyici çərçivədə zəruri dəyişikliklər aparılacaqdır. Məsafəli bank xidmətlərinin tətbiqinin genişləndirilməsi təşviq olunacaqdır.

Müasir ödəniş sistemlərinin yaradılması ilə bərabər ümumi texnoloji inkişaf məsələləri də diqqətdə saxlanılır. Mərkəzi Bank ölkədə pilot olaraq ilk dəfə Blokçeyn texnologiyasına əsaslanan və bank sektorunun inkişafı üçün mühüm olan Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması layihəsini həyata keçirməkdədir. Layihə nəticəsində müştəri-bank münasibətlərinin rəqəmsallaşması məqsədi ilə fiziki və hüquqi şəxslər tərəfindən məsafədən bank hesablarının açılması üzrə biznes proseslər avtomatlaşacaqdır. Eyni zamanda, 2020-ci ildə innovativ maliyyə texnologiyalarının tətbiqinin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə açıq bankçılıq prinsip və standartlarının yaradılması prioritet olaraq seçilmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bütün dünyada olduğu kimi, Azərbaycanda da kiber təhlükəsizlik məsələlərini aktuallaşdırır. Bununla əlaqədar Mərkəzi Bank tərəfindən kiber təhdidlərə qarşı adekvat tədbirlərin görülməsi 2020-ci ildə də təmin ediləcəkdir.

Elektron ödəniş xidmətlərinin istifadəsi üzrə maarifləndirmə səviyyəsinin yüksəldilməsi istiqamətində səylər gücləndiriləcəkdir. Aidiyyatı dövlət qurumları ilə əməkdaşlıqda tədris müəssisələrində şagird və tələbələrə elektron ödəniş xidmətlərindən istifadə üzrə zəruri biliklərin öyrədilməsi istiqamətində işlər davam etdiriləcəkdir.

Ümumilikdə, Mərkəzi Bank qarşıdakı strateji dövrdə makroiqtisadi və maliyyə sabitliyinin dayanıqlığının gücləndirilməsi, maliyyəyə çıxış imkanlarının genişləndirilməsi istiqamətlərində qarşıya qoyulan prioritetləri vaxtında reallaşdırmağa çalışacaqdır.

Yaradılacaq sabitlik platformasında Möhtərəm Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən yeni nəsil islahatlar cəmiyyətin bütün təbəqələrinin iqtisadi inkişafdan faydalanmaq imkanlarını artıracaqdır.

***Əlavə 1***

## Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki

2020-ci ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

| | |
|---|---|
| 31 yanvar | 30 iyul |
| 19 mart | 18 sentyabr |
| 1 may | 30 oktyabr |
| 19 iyun | 18 dekabr |

Qeyd olunan tarixlərdən 31 yanvar, 1 may, 30 iyul və 30 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

# AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT MƏCƏLLƏSİNİN 320.1-ci MADDƏSİNİN BƏZİ MÜDDƏALARININ ŞƏRH EDİLMƏSİNƏ DAIR

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

15 noyabr 2019-cu il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədrlik edən), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Rəşad Mustafayev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor müdiri Eldar Əsgərovun, mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi Kamran Əkbərovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 320.1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş hüquq verən rəsmi sənədi saxtalaşdırma müddəasının şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, T.Alışanlının Cinayət Məcəlləsinin 29 və 320.1-ci maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə ittiham aktına əsasən o, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Dövlət İmtahan Mərkəzi) tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə 26 iyul 2018-ci il tarixində keçiriləcək qəbul imtahanında abituriyent qismində iştirak edəcək H.Quliyevin əvəzinə iştirak etməsinə dair təkliflə razılaşaraq, onun şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini əldə edərək imtahana gedib həmin sənədləri Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (bundan sonra – Xüsusi Dövlət Mühafizə Xidməti) əməkdaşlarına təqdim etmişdir. Xüsusi Dövlət Mühafizə Xid-

mətinin əməkdaşları tərəfindən T.Alışanlının H.Quliyev olmadığı müəyyən olunaraq imtahan zalına buraxılmasının qarşısı alınmışdır. Bununla da, T.Alışanlı Dövlət İmtahan Mərkəzi tərəfindən H.Quliyevin adına kodlaşdırılmış, imtahan vermək və müvəffəqiyyət balı topladığı halda ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olmaq hüququ verən rəsmi sənəd olan cavab kartına sonuncunun adından məlumatları yazmağa yönəlmiş əməlini öz iradəsindən asılı olmayan səbəbdən başa çatdıra bilməyərək rəsmi sənəd olan cavab kartını istifadə etmək məqsədilə saxtalaşdırmağa cəhd etmişdir.

Müraciətedənin mövqeyinə görə, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırmanın hansı hərəkətləri ehtiva etməsi konkret göstərilməmişdir. T.Alışanlı imtahana daxil olmaq üçün istifadə etdiyi sənədlərdə (şəxsiyyət vəsiqəsi və imtahana buraxılış vərəqəsində) hər hansı düzəliş və dəyişiklik etməmiş, habelə o, imtahanda iştirak etsə idi, cavab kartına H.Quliyevə aid məlumatları yazacaq və onun yerinə imtahan suallarını cavablandıracaqdı. Formal yanaşıldıqda T.Alışanlının cavab kartına yazacağı məlumatların yanlış olmadığı, məhz həmin cavab kartına yazılmalı olan məlumatlar olduğu müəyyən edilir. Bu baxımdan, T.Alışanlının qanunazidd davranışı özünü başqa şəxs, yəni H.Quliyev kimi təqdim etməsindən ibarətdir və bu əməldə Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş saxtalaşdırmanın mövcudluğu suallar yaradır.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi T.Alışanlının qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid olan məlumatların hüquq verən rəsmi sənədə daxil edilməsinin Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin dispozisiyasında göstərilən saxtalaşdırma hesab olunub-olunmamasına hüquqi aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 71-ci maddəsinin VIII hissəsinə əsasən, heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır.

Azərbaycan Respublikasında cinayətə görə məsuliyyəti müəyyən edən yeganə qanunvericilik aktı Cinayət Məcəlləsidir. Həmin Məcəllənin 10.1-ci maddəsinə görə, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Beləliklə, cinayət hüququnun mühüm prinsiplərindən olan qanunçuluq prinsipinə uyğun olaraq yalnız Cinayət Məcəlləsində nəzərdə tutulan halda əməlin cinayət sayılmasına, belə əməli törədən şəxsin təqsirli hesab edilərək cinayət məsuliyyətinə cəlb

edilməsinə yol verilir. Cinayət məsuliyyətinin əsasını cinayət tərkibinin əlamətlərini yaradan ictimai təhlükəli əməlin törədilməsi təşkil edir. Qanun cinayət sayılan əməlləri müəyyən edərkən həmin əməl üçün xarakterik olan əlamətləri də göstərir. Məhz bu əlamətlərin köməyi ilə törədilən hər hansı əməlin cinayət hüquq normasında nəzərdə tutulan cinayət olub-olmaması müəyyən edilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyinə görə, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair” 2011-ci il 17 mart tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin hüquq verən və ya vəzifədən azad edən rəsmi sənədi saxtalaşdırma maddəasının şərh edilməsi üçün bu maddənin dispozisiyasında nəzərdə tutulmuş cinayət əməlinin tərkib əlamətlərinin araşdırılması vacibdir.

Cinayət Məcəlləsinin qeyd edilən maddəsinə əsasən, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma əməli cinayət məsuliyyəti yaradır.

Göstərilən cinayət əməli “İdarəetmə qaydası əleyhinə olan cinayətlər” fəslinə aid edilmiş və cinayətin obyekti qismində dövlət idarəetmə fəaliyyəti ilə bağlı münasibətlər çıxış edir. Cinayətin predmetini isə hüquq verən və ya vəzifədən azad edən vəsiqə və ya digər rəsmi sənədlər, dövlət təltifləri, möhürlər, ştamplar və blanklar təşkil edir.

Bu əməlin predmetini təşkil edən rəsmi sənədin anlayışının və əlamətlərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, sənədlərin idarəetmədəki əhəmiyyəti, sənəd dövriyyəsi sahəsinin genişlənməsi, yeni növ sənədlərin, o cümlədən elektron sənədin əmələ gəlməsi, cinayət qanununda rəsmi sənəd anlayışının və əlamətlərinin açıqlanmaması cinayətin tövsifində müəyyən çətinliklər yaradır.

Sənədin rəsmi sənədə aid edilməsi üçün o, bir sıra əlamətlərə malik olmalıdır. Bunun üçün sənəd səlahiyyətli şəxs tərəfindən tərtib və təsdiq edilməli, müəyyən edilmiş formaya uyğun olmalı, vacib rekvizitləri

(möhürü, ştampı, imzanı və s.) əks etdirməlidir. Rəsmi sənədin əsas şərtlərindən biri də onun hüquqi əhəmiyyəti ilə bağlı olub təqdim edilə bilmə qabiliyyətinin, yəni sənəddə əks olunmuş məlumatın hüquq münasibətlərinə təsir etmək imkanının mövcud olmasını tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın 24-cü bəndinə əsasən, sənəd, ona rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədilə rəsmiləşdirilməlidir. Rəsmiləşdirmə sənədin imzalanması, təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsilə həyata keçirilir.

Beləliklə, rəsmi sənəd hüquq əhəmiyyətli faktları müəyyən edən, dövlət tərəfindən səlahiyyət verilmiş hüquqi və (və ya) fiziki şəxslər tərəfindən tərtib və təsdiq edilən, qanunla müəyyən olunmuş formaya malik olan, qeydiyyat, ciddi hesabatlılıq və dövriyyəsi nəzarət sisteminin təsiri altına düşən sənəddir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində təsbit edilən cinayətin predmetini təşkil edən rəsmi sənəd hüquqlar verməli və ya vəzifələrdən (öhdəliklərdən) azad etməlidir. Hüquqlar verməyən və ya vəzifələrdən azad etməyən sənədin saxtalaşdırılması, hazırlanması və ya satılması Cinayət Məcəlləsinin həmin maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaratmır. Beləliklə, hər hansı sənədin Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin predmeti qismində çıxış etməsi üçün onun hüquq münasibətlərinə (onların yaranmasına, dəyişdirilməsinə və xitamına) təsir etməklə hüquq və vəzifələr yaratması, eləcə də hüquqların həyata keçirilməsi və ya vəzifələrin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar kimi hüquqi nəticələrə səbəb olma xüsusiyyətinin mövcudluğu mütləqdir.

Bu cinayət əməli obyektiv cəhətdən aşağıdakı hərəkətlər vasitəsilə törədilə bilər:

– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi saxtalaşdırma;
– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi qanunsuz hazırlama, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama;
– hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi, habelə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı satma.

Saxtalaşdırma rəsmi sənədin məzmununun təhrif edilməsidir və saxta olmayan vəsiqəyə və ya rəsmi sənədə hər hansı vasitə ilə yanlış məlumatların daxil edilməsi, boş blankın belə məlumatlarla doldurulması, onun məzmununa dəyişikliklər edilməsi və s. üsullarla həyata keçirilir və bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir.

Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməli formal tərkibli olmaqla, dispozisiyasında göstərilən hərəkətlərdən hər hansı birinin edildiyi andan başa çatmış hesab olunur.

Cinayətin subyekti qismində ümumi subyekt olmaqla 16 yaşına çatmış anlaqlı fiziki şəxs çıxış edə bilər.

Subyektiv cəhətdən isə cinayət birbaşa qəsdlə törədilir. Cinayət Məcəlləsinin 320.1-ci maddəsinə görə, məqsəd (rəsmi sənəddən, dövlət təltifindən, ştampdan, möhürdən və blankdan istifadə etmək) cinayət tərkibinin zəruri əlamətidir və həmin əməllərin törədilməsində belə məqsəd olmazsa, bu cinayətin tərkibini yaratmır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın (bundan sonra – Qaydalar) 6.4-cü bəndində abituriyentin yol verməsi qadağan olunan hərəkətlər müəyyən edilmişdir. Belə hərəkətlərdən biri saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərməkdir.

Qaydaların 6.5-ci bəndinə əsasən, abituriyentin bu Qaydaların 6.4-cü bəndində göstərilən hərəkətlərə yol verməsi halları Dövlət İmtahan Mərkəzi tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 181-ci maddəsində təhsil haqqında qanunvericiliyin pozulması hesab edilən konkret əməllərə görə məsuliyyət müəyyən edilmişdir. Lakin həmin maddədə inzibati məsuliyyət yaradan əməllər sırasında imtahanların keçirilməsi qaydalarının pozulması, o cümlədən imtahanda başqasının yerinə iştirak etmə və ya imtahana öz yerinə başqasını göndərmə əməli nəzərdə tutulmamışdır.

Beləliklə, Qaydalarla saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək qadağan edilsə də, İnzibati Xətalar Məcəlləsində qeyd edilən əməllər inzibati xəta kimi nəzərdə tutulmamışdır.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında abituriyent qismində iştirak edən şəxslərə doldurulmaq üçün təqdim edilən cavab kartları hər il texniki tapşırıqla forması təsdiq olunan, hər bir abituriyentin adına tərtib edilməklə kodlaşdırılan, boş blank formasında olan hüquq verən rəsmi sənəddir. Cavab kartının verilən sual kitabçasındakı sualların cavablandırılması məqsədilə müvafiq abituriyent tərəfindən doldurulması nəticəsində həmin abituriyentin bilik səviyyəsi müəyyən edilir və bunun nəticəsində o, ali və ya orta ixtisas təhsili müəssisələrində təhsil almaq hüququ əldə etmiş olur.

Cavab kartını müvafiq abituriyentin deyil, başqa şəxsin doldurması hüquq verən rəsmi sənədin saxtalaşdırılması kimi xarakterizə edilməlidir. Belə ki, cavab kartının

başqa bir şəxs tərəfindən doldurulması nəticəsində cavab kartında müvafiq abituriyentin deyil, onun əvəzinə imtahanda iştirak edən şəxsin bilik səviyyəsinin nəticələri öz əksini tapır. Bu isə cavab kartının mahiyyət etibarilə saxtalaşdırılması deməkdir.

Digər tərəfdən, cavab kartının ikinci cədvəlində "özünüz haqqında məlumatı yazın, bəyannaməni oxuyun və imzalayın" qrafası mövcuddur ki, həmin hissədə abituriyent tərəfindən soyad, ad, ata adı, doğum yeri və doğum tarixi, ayı, günü, orta təhsil müəssisəsinin adı, yaşayış ünvanı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsinə dair məlumatlar şəxsən doldurulur, bundan sonra, həmin bənddə göstərilmiş "öz imzamla bu bənddə soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi göstərilən şəxs olduğumu təsdiq edirəm, əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyəti daşıyacağam" məzmunlu bəyannamənin qarşısında imza edilir. Bu baxımdan, imtahanda başqasının əvəzinə iştirak edən şəxs cavab kartına qanunsuz olaraq başqa şəxsin adından həmin şəxsə aid məlumatları daxil etməklə və həmin abituriyentin əvəzindən imzalamaqla hüquq verən rəsmi sənədi saxtalaşdırma əməlini törətmiş olur.

Bu əməli törədərkən şəxsin məqsədi hüquqazidd vasitə ilə, yəni saxtalaşdırdığı cavab kartından istifadə etməklə başqasının ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olunmasını təmin edərək onun hüquqi statusunu dəyişdirməkdir. Şəxsin belə davranışı idarəetmə sahəsindəki münasibətlərə xələl yetirir, ictimai, habelə şəxsi mənafelərə zərər vurur. Belə ki, öz yerinə imtahana başqasını göndərən şəxs digər abituriyentlərlə ədalətsiz və qanunazidd rəqabət apararaq son nəticədə onların hüquqlarını pozur. Belə əməllər, eyni zamanda, inkişaf edən müasir cəmiyyət üçün faydalı mütəxəssislərin hazırlanması prosesinə maneçilik yaradır, dövlət tərəfindən təmin edilən sosial ədalət prinsipinə və elmi dəyərlərə olan etimadı şübhə altına alır. Halbuki, təşkil edilən imtahanların məqsədi abituriyentlərin bilik səviyyəsini müəyyən etməklə onların əldə etdikləri nəticəyə uyğun olaraq sıralanması və müvafiq ali və ya orta ixtisas təhsili müəssisələrində yerləşdirilməsidir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, bu Qanunun 26.5-ci və 26.5-3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, müsabiqə yolu ilə həyata keçirilir.

Konstitusiyanın vətəndaşların vəzifələrinin əsasını müəyyən edən 72-ci maddəsinin II hissəsinə uyğun olaraq, hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Bu baxımdan, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hər bir şəxs hər hansı hərəkəti edərkən həmin hərəkətin

digər şəxslərin qanunla qorunan hüquqlarını, eləcə də qanunun tələblərini pozub-pozmadığını düşünməli və bununla bağlı məsuliyyətini dərk etməlidir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir;

– Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsində nəzərdə tutulmuş hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma rəsmi sənəd barəsində və onun üzərində elə qanunsuz hərəkətlərin edilməsini nəzərdə tutur ki, bu hərəkətlərin nəticəsində həmin sənədin sahibinin və ya istifadəçisinin hüquqi vəziyyəti dəyişir, o, əsassız və qanunsuz olaraq hər hansı hüquq əldə edir və ya vəzifədən azad edilir, eləcə də hüquqlarının həyata keçirilməsi və ya vəzifələrinin icrasında müəyyən üstünlüklər, güzəştlər, imtiyazlar əldə edir.

2. Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq hüququ verən rəsmi sənədə qanunsuz olaraq başqasının adından digər şəxs tərəfindən məlumatların daxil edilməsi, onun əvəzinə imzalanması və s. hərəkətlər rəsmi sənədin saxtalaşdırılması kimi qəbul olunmalı və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsi ilə tövsif edilməlidir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev.**

*ELM XADİMLƏRİ*

# AZƏRBAYCAN SƏHİYYƏSİNİN BANİSİ

***Görkəmli dövlət və elm xadimi, Azərbaycan səhiyyəsinin böyük təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Əliyevin tarixi xidmətlərini xalqımız daim yüksək qiymətləndirir. Yola saldığımız 2019-cu ilin noyabr ayının 26-da ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi həm də Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sistemi işçilərinin böyük bayramına çevrildi. Belə ki, o dövrdə Bakı Dövlət Universitetinin təməlini qoyan alimlərin (V.Razumovski, İ.Şirokoqorov, S.Davidenko və b.) böyük əksəriyyəti BDU-da fəaliyyət göstərən və onun ilk iki fakültəsindən biri olan tibb fakültəsinin təşkilində, həmçinin Azərbaycan səhiyyəsinin sürətli inkişafında yaxından iştirak etmişdilər.***

Azərbaycanın görkəmli tibb alimlərindən Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Kamil Balakişiyev, Fuad Əfəndiyev, Ümnisə Musabəyli və digərləri ilə birlikdə böyük dövlət və elm xadimi, Azərbaycan səhiyyəsinin banisi, əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin də bu fakültənin və onun kafedralarının təşəkkül tapmasında müstəsna xidmətləri olmuşdur.

Görkəmli alimin şərəfli ömrünün bütöv bir hissəsi BDU-nun bazasında yaradılan Azərbaycan Dövlət Tibb İnstitutu (indi Azərbaycan Tibb Universiteti) və respublikanın Səhiyyə Nazirliyi ilə sıx əlaqədə keçmişdir.

**Ömür yolu: ağrılı-acılı, təlatümlü, çətinliklərlə dolu illər**

1917-ci ildə İrəvan gimnaziyasını əla qiymətlərlə başa vuran Əziz Əliyev həkim olmaq arzusu ilə xeyriyyəçi-milyonçu Hacı Zeynalabdin Tağıyevdən maliyyə dəstəyi aldıqdan sonra Rusiyanın Sankt-Peterburq şəhərinə getmiş və orada dünyanın ən məşhur tibb ocaqlarından olan Hərbi Tibb Akademiyasına daxil olmuşdur. Bu, onun özünə, biliyinin gücünə inamından, fitri istedadından xəbər verirdi. Orada əla təhsillə yanaşı, dərsdənkənar vaxtlarda səpkili yatalaq əleyhinə təşkil edilmiş sanitariya-dezinfeksiya briqadasında işə düzələrək həm praktik tibbi vərdişlərə yiyələnmiş, həm də bunun müqabilində aldığı məvaciblə özünün və ailəsinin minimal xərclərini ödəyə bilmişdir.

Əziz Əliyev Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasının birinci kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra 1918-ci ilin yay tətili günlərində doğma yurdu İrəvana qayıdır. Böyük həvəslə vətəninə – əzizlərinin yanına gələn gənc Əziz Əliyev İrəvandan evlərinin erməni

millətçiləri tərəfindən işğal edildiyinin, daşnakların doğma yurdun və onun əsl sakinləri olan Azərbaycan türklərinin başlarına gətirdikləri işgəncələrin canlı şahidlərindən biri kimi ağır sarsıntılar keçirir. Əslində, müxtəlif dövrlərdə Azərbaycana köç etmiş vətənsiz - gəlmə ermənilər 1918-ci ildə həm də Qarabağda, Bakıda, Şamaxıda, Lənkəranda, Qubada və s. yurd yerlərimizdə Şaumyanın, Əmiryanın, Mikoyanın, qaniçən Andronikin, eyni zamanda bolşeviklərin rəhbərliyi ilə yerli azərbaycanlılara qarşı amansız soyqırımı aktları törədiblər.

Həmin illərin didərgin qurbanlarından biri də tariximizin parlaq simalarından birinə çevriləcək Əziz Əliyev və onun ailəsi olub. Bir müddət Naxçıvanın Şərur rayonunda və Şahtaxtı kəndində məskunlaşan didərgin ailələri burada da sakit buraxmayıblar. Erməni-bolşevik tandemi Naxçıvana silahlı basqınlar edərək qırğınlar, dağıntılar törədiblər. Soyqırımı dalğası bütöv Azərbaycanı bürüməkdə olanda əhalinin bir hissəsi Arazı adlayaraq Cənubi Azərbaycanın Ərəblər kəndinə keçib. Əziz Əliyevin də ailəsi onların arasında olub və anası bu işgəncələrə dözməyərək qürbətdə dünyasını dəyişib. Beləliklə, həmin illərdə azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımı qırğınları Əziz Əliyevi Sankt-Peterburqda yarımçıq qalmış tibb təhsilini başa çatdırmaqdan da məhrum edib.

Qaynar gənclik illərində bu qədər ağır məhrumiyyətlərlə üzləşən Əziz Əliyev ara sakitləşəndən sonra təsadüfən salamat qalan həmvətənləri ilə birlikdə yenidən Naxçıvana qayıdıb, orada həkim köməkçisi qismində əhaliyə tibbi yardımlar göstərib. O, 1923-cü ildə yarımçıq qalmış ali tibb təhsilini davam etdirə bilmək ümidi ilə ailəsi ilə birlikdə Bakıya köçüb. O zaman Leyli xanımla təzəcə ailə qurmuşdu. Oğlu Tamerlan Əliyev 2 yaşında, qızı Zərifə xanım isə dünyaya təzəcə göz açmışdı. Bu andan etibarən Əziz Əliyevin həyat və yaradıcılığının mühüm bir mərhələsinin təməli qoyulub.

O, Bakıya gələn kimi Xalq Komissarları Şurasında işə düzəlir və ona həvalə edilən bütün tapşırıqları böyük müvəffəqiyyətlə yerinə yetirir. Orada iş icraçısı, ümumi şöbənin müdir müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq, özünü dövlət işlərinin mükəmməl təşkilatçı və qurucusu kimi göstərə bilir. Əziz Əliyev 1923-cü ildə yenidən qəbul imtahanı verərək Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olur. Bu, onun qətiyyətli, möhkəm iradəli, təmkinli və son dərəcədə fitri istedada malik bir gənc olduğunu təsdiqləyən faktlardandır. Bakı Dövlət Universitetinin rəhbərliyi onun 1927-ci ildə tibb fakültəsini bitirdikdən sonra daxili xəstəliklər kafedrasında saxlanması haqqında qərar qəbul edir. Əziz Əliyev bu dövrdə özünü artıq püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi də göstərə bilir və həkimlik fəaliyyəti ilə yanaşı, ona həm də ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər də tapşırılırdı. O, bütün tapşırıqları son dərəcə dəqiqliklə yerinə yetirir, artıq ictimai xadim kimi formalaşırdı. Fədakar alim 1928-1929-cu illərdə Azərbaycan Xalq Səhiyyə Komissarlığında işə dəvət olunur və orada müalicə şöbəsinin müdiri vəzifəsində çalışmağa başlayır.

**O həm həkim, həm alim, həm də dövlət xadimi idi**

Əziz Əliyev 1929-cu ildə Azərbaycan Klinik İnstitutunun direktoru vəzifəsinə təyin olunur. 1932-ci ilə qədər bu instituta rəhbərlik edərək respublikanın tanınmış idarə rəhbərlərindən biri kimi geniş şöhrət qazanır. BDU-nun tibb fakültəsi öz fəaliyyətini dayandırdıqdan sonra 1930-cu ilin mayında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. Mahir təhsil və səhiyyə təşkilatçısı kimi tanınan Əziz Əliyev də bu mühüm prosesin icrasına cəlb edilir. 1932-ci ilin iyun ayında isə o, Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru (rektoru) vəzifəsinə təyin edilir və 6 ilə yaxın bir müddətdə bu vəzifəni şərəflə yerinə yetirir.

Professor Əziz Əliyev bu məsuliyyətli işə başlamazdan əvvəl bütöv bir həyat məktəbi keçərək, kifayət qədər təcrübəyə malik olur. Ona görə də o, ilk günlərdən təşkilatçılıq bacarığının imkanlarından istifadə edib, biri-birinin ardınca hazırladığı layihələri reallaşdırmağa başlayır. Onu narahat edən məsələlərdən biri də milli kadrların yetişdirilməsi idi. Ona görə də yüksək ixtisaslı həkimlərin, elmi işçilərin hazırlanması üçün ilk növbədə ana dilində dəyərli ədəbiyyatın yaradılması əsas vəzifə kimi qarşıya qoyulurdu. O, aydın dərk edirdi ki, ədəbiyyatsız, dərsliklərsiz tibbi fənləri tədris etmək mümkünsüzdür. Ona görə də Əziz Əliyev tibbin müxtəlif ixtisasları üzrə səriştəsi olan azərbaycanlı alimləri qısa müddətdə bir araya toplayıb ana dilində dərsliklər yazmağa sövq edirdi. Az vaxt içərisində bilavasitə onun rəhbərliyi altında Azərbaycan dilində 55 adda dərslik çap edilərək tələbələrin ixtiyarına verildi. Əziz Əliyevin təşəbbüsü ilə işıq üzü görən əsərlərdən özünün yazdığı "Klinik analizlər" kitabı, K.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", C.Hüseynovun "Patoloji anatomiya", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəylinin "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya", Q.Səfərov və Ə.Həsənovun "Bioloji kimya" və digər dərslik və dərs vəsaitləri, eləcə də M.Mirqasımovun, M.Topçubaşovun, M.Mirsəlimovun, M.Əfəndiyevin, Z.Məmmədovun və başqalarının qələmə aldıqları dərsliklər və digər kitablar Azərbaycanın tibb tarixində ən gözəl nəşrlərdir. Bu kitablar indi də dəyərini saxlayır və onların hər birinin işıq üzü görməsində Əziz Əliyevin müstəsna rolu danılmazdır.

Əziz Əliyev qısa müddətdə rus dilində olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsinə nail olur. Onun təşəbbüsü ilə "Boğaz, burun, qulaq xəstəlikləri", "Uşaq xəstəlikləri", "Farmakologiya kursu", "Histologiya" adlı kitablar və digər dərsliklər rus dilindən Azərbaycan dilinə tərcümə edilir. O vaxtlar kitab çap etdirmək üçün texniki təchizat çox zəif idi. Bakı Dövlət Universitetinin tibb fakültəsində milli tibbi kadrların yetişdirilməsinə bir o qədər də ciddi diqqət göstərilmirdi. Odur ki, professor Əziz Əliyev ali məktəblərə rəhbərlik etdiyi ilk illərdə hər şeyi yenidən başlamalı olur. Bu da həm çox vaxt tələb edir, həm də alimin işlərini qat-qat artırırdı.

Görkəmli alim Azərbaycan Dövlət Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırmağa başlayır. Onun səyi nəticəsində professor P.Rostovtsevin sədrliyi altında xüsusi Kitabxana komissiyası yaradılır və komissiya çox səmərəli fəaliyyət göstərir. Əziz Əliyevin yaratdığı Kitabxana komissiyası 1936-cı ildə (tibbi kitabxananın təməlinin qoyulmasının üçüncü ilində) oxuculara belə bir təlimat göndərir: "Kitabxana plan üzrə SSRİ-də nəşr olunan bütün təzə kitabları, o cümlədən dövri tibbi-bioloji ədəbiyyatı alır. Kitabxana bunlardan əlavə SSRİ-nin 231 elmi müəssisəsi və 87 xarici ölkə ilə kitab mübadiləsi aparır”. Bundan sonra tibbi kitabxananın özülünün möhkəmləndirilməsində, inkişafında və formalaşmasında ciddi dönüş yaranır.

Hazırda Azərbaycan Tibb Universitetinin kitabxanası 1 milyona yaxın kitab fonduna malikdir və onun əsasında elektron kitabxananın tam təşəkkül tapması üçün fundamental işlər görülür. Bu zəngin kitab fondunun bünövrəsini qoyan, şübhəsiz ölkəmizdə ilk tibbi kitabxananın yaradıcısı, banisi isə Əziz Əliyev olub.

Professor Əziz Əliyev, ümumiyyətlə, bütün şüurlu fəaliyyəti dövründə tibb nəşriyyatı yaratmağın, onu təkmilləşdirmək və inkişaf etdirməyin yolları haqqında düşünüb. O, bu sahədəki ideyalarını tədricən həyata keçirməyə başlayıb və institut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı”nı yaradıb. Professorun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı”nın nəşrinə başlanılıb. 1929-cu ildən etibarən o, "Azərbaycan Tibb Jurnalı”nın məsul katibi vəzifəsində çalışıb, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilib. Bu dövrdə jurnal ATİ-də yenicə təşkil edilmiş "Tibb nəşriyyatı”nda çap olunub. 1933-cü ildə, yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda” adlı çoxtirajlı qəzetin çapına başlanılıb. Hazırda bu qəzet "Təbib” adlanır və onun çapı Azərbaycan Tibb Universitetində davam etdirilir.

1933-cü il avqustun 4-dən etibarən Almaniyada qısamüddətli elmi ezamiyyətdə olan Əziz Əliyev oradan qayıtdıqdan sonra doktorluq dissertasiyası müdafiə edib və Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi SSRİ Elmlər Akademiyasının və Ümumittifaq Lenin Komsomolu Gənclər İttifaqı Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli və əhəmiyyətli elmi əsər olub.

Əziz Əliyevin qələmə aldığı "Klinik analizlər” kitabı tələbələr və gənc həkimlər tərəfindən rəğbətlə qarşılanıb və onların stolüstü kitablarından birinə çevrilib. Onun bir neçə elmi əsəri "Azərbaycan Tibb Jurnalı”nda çap edilib. Bunların ilk illərdə çap olunanlarına "Həzm zamanı qanın xloridləri” (1928), "Malyariyanın Karno metodu ilə müalicəsi” (1932), "Klinik analizlər üzrə rəhbərlik” (1933) və s. aiddir. Əziz Əliyev uzun müddət eksperimental nefritin öyrənilməsi problemi ilə də məşğul olub, elmi işlərinin əsas məğzini bu istiqamətə yönəldib. Görkəmli alim məharətlə elmi işlərini pedaqoji işlərlə uzlaşdıra bilib və fakültə terapiyası kafedrasında pedaqoji fəaliyyətini davam etdirib. Belə ki, o, 1

noyabr 1927-ci ildən BDU-nun tibb fakültəsinin diaqnostika kafedrasında ordinator və aspirant, 17 oktyabr 1930-cu ildən isə yenicə təşkil edilmiş Azərbaycan Dövlət Tibb İnstitutunun birinci terapiya və diyar patologiyası kafedrasında assistent və dosent vəzifələrində çalışıb.

**Vətənpərvər ziyalı**

Professor Əziz Əliyev ATİ-yə rəhbərlik etdiyi dövrdə 11 doktorluq və xeyli namizədlik dissertasiyası müdafiə edilib. Onun təşəbbüsü ilə kafedraların nəzdində təşkil edilən aspiranturada 4 il ərzində 30 tibb elmləri namizədi hazırlanıb. Onlardan 19-u milli kadr olub. Həmin dövrün çətinlikləri ilə qarşılıqlı müqayisədə bu, çox böyük rəqəm hesab edilməlidir. O, tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkib və onların peşəkar kimi yetişmələrində müstəsna rol oynayıb. Görkəmli alim Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanır, gənclərlə bağlı problemlər onu ciddi düşündürürdü. 1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanılıb. Sonralar həmin "şəhərcikdə" tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikilib və bu işlərin bünövrəsinin möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyev tərəfindən yerinə yetirilib, 2003-cü ildən etibarən isə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

1933-1934-cü illərdə ölkədə çörək qıtlığı yarandığından ATİ-nin tələbələrinin güzəranı xeyli ağırlaşıb. Vəziyyətdən çıxış yolu tapmaq üçün Əziz Əliyevin qayğısı sayəsində "Azad qadın" heykəlinin yaxınlığındakı orta məktəbin birinci mərtəbəsində tələbə yeməkxanası təşkil edilib. Burada tələbələrə gündə 500-600 qram çörəklə bərabər pulsuz yemək verilib və onları aclıqdan xilas etmək mümkün olub. Əziz Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunda "Rektorluq Fondu" yaradıb və həmin fondun hesabına ehtiyacı olan əlaçı tələbələrə hər il paltar, ayaqqabı aldırarmış ki, bu da bir növ tələbələri yaxşı oxumağa həvəsləndirərdi.

Professor hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın, Kiyevin, Xarkovun, Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edər, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradardı. Belə vaxtlarda o, özünü xeyriyyəçi kimi aparar, ölkədən xaricə gedən tələbələrə pul yardımı edər, onları öz hesabına geyindirərdi. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşaraq, onun yolunu şərəflə davam etdiriblər.

**Misilsiz xidmətlər**

Görkəmli səhiyyə təşkilatçısı və qurucusu Əziz Əliyev 1934-cü ildə Bakıda səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilir. Onun səhiyyənin bütün incəliklərini dərindən bil-

məsi və bildiklərini məharətlə həyata keçirməsi sayəsində cəmi bir neçə ay ərzində qarşıya qoyulan məsələlər yüksək səviyyədə öz həllini tapır və bundan sonra o, yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru vəzifəsinə qaytarılır. Ümumiyyətlə, Azərbaycanda səhiyyə sahəsinin hansı nöqtəsində zəiflik, geriləmə nəzərə çarpırdısa, Əziz Əliyevi dərhal həmin sahəyə cəlb edirdilər. Bu dəfə də bacarıqlı səhiyyə təşkilatçısı işlərini elə qurur ki, qısa müddətdə qlobal planları bacarıqla həyata keçirərək məqsədinə tam çatır və ona göstərilən etimadı hərtərəfli doğrulda bilir.

1936-1940-cı illərdə həm Azərbaycan Xalq Səhiyyə Komissarlığının, həm də ATİ-nin birgə təşəbbüsü sayəsində görkəmli alimin fəal iştirakı və rəhbərliyi altında malyariya və traxomaya qarşı mübarizəyə başlanılır. Bacarıqla həyata keçirilən ciddi tədbirlər nəticəsində ölkəmizdə tüğyan edən bu dəhşətli xəstəliklərin geniş miqyasda yayılmasının qarşısı alınır. Əziz Əliyevin rəhbərliyi altında müalicə-profilaktika məqsədilə ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları təşkil edilir. Bundan təxminən 10-15 il sonra görkəmli alimin qızı, akademik Zərifə xanım Əliyeva Azərbaycanda yenidən baş qaldıran traxoma xəstəliyinin profilaktikası və müalicəsinə xeyli vaxt sərf edərək atasının başladığı işləri müvəffəqiyyətlə davam etdirir, bu dəhşətli xəstəliyin epidemiyasının qarşısının alınmasına səy göstərərək məqsədinə tam nail olur.

Professor Əziz Əliyevin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. O, müəyyən müddətdə Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru olmaqla yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edib və 1937-ci ildə eyni zamanda paralel olaraq Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb.

Görkəmli alim 1938-ci ildən etibarən Azərbaycan Xalq Səhiyyə Komissarı vəzifəsində çalışaraq mükəmməl layihələr həyata keçirib, ölkədə səhiyyənin inkişafına güclü təkan verib.

Fədakar insan, görkəmli şəxsiyyət Əziz Əliyev İkinci Dünya müharibəsinin əvvəllərində alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana göndərilib. Son dərəcə çətin, eyni zamanda məsuliyyət tələb edən sahədə fəaliyyət göstərib və yerli xalqın hörmətini, məhəbbətini qazanıb. Əziz Əliyevin fəaliyyəti SSRİ rəhbərliyini həmişə heyran qoyub.

**Əziz Əliyev daim ön xətdə idi**

O, 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışıb, özünü yetkin və bacarıqlı dövlət xadimi kimi göstərərək böyük şöhrət qazanıb. Professor 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MİK-nın təlimatçısı, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, Sabunçu xəstəxanasında sıravi həkim, 1956-cı ildən həyatının sonuna qədər Azərbaycan Dövlət Həkimləri Tək-

milləşdirmə İnstitutunun rektoru vəzifələrində fəaliyyət göstərib.

Görkəmli alim I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olub.

Əziz Əliyevin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı əmək bayrağı" ordeni, "I Dərəcəli Vətən müharibəsi" ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illiyi" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR-in əməkdar həkimi" fəxri adı verilib. Ömrünün sonuna qədər rektor kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə, Dağıstanda bir sovxoz, Kaspiyskidə bir tibb məktəbi və s. Əziz Əliyevin adını daşıyır.

**Yaddaşlara əbədi həkk olunan insan**

Professor Əziz Əliyevin həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri övladlar valideyn tərbiyəsinə layiq və sadiq olublar. Ən şərəflisi və əhəmiyyətlisi də odur ki, onların övladları valideynlərinin nüfuzuna, himayəsinə arxalanmadan, heç kimdən kömək gözləmədən öz fitri istedadları, bacarıqları hesabına ucalıb və onların hər biri öz peşəsi sahəsində uğurlu nailiyyətlər qazanıb. Bu ailənin övladlarından Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra həyatını bütünlüklə Azərbaycanda oftalmologiya elminin inkişafına, bu sahədə yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasına, müalicəyə ehtiyacı olan saysız-hesabsız xəstələrin şəfa, dünya işığı tapmasına həsr edib. İnsanlara nur, şəfqət, ziya bəxş edib.

Akademik Zərifə xanım Əliyeva elm xəzinəsi tarixinə daxil olan nadir incilərdən, dünya şöhrətli alimlərdəndir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda da, Moskvada da eyni uğurla çalışan Zərifə xanım Əliyeva oftalmologiya sahəsində akademik səviyyəsinə yüksəlib və 1981-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının çox nüfuzlu mükafatı sayılan akademik Averbax mükafatına layiq görülüb.

Əziz Əliyevin qızı Ləzifə xanım bacarıqlı göz həkimi, ATİ-nin göz xəstəlikləri kafedrasının dosenti, digər qızı Dilbər xanım adlı-sanlı mühəndis-rabitəçi olub. Kiçik qızı Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyeva uzun müddət "Dan ulduzu" instrumental ansamblına rəhbərlik edib, tanınmış pianoçu və peşəkar musiqişünas kimi xatirələrə əbədi həkk olunub. Alimin böyük oğlu Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tamerlan Əliyev Azərbaycan Respublikasının tanınmış terapevtlərindən, görkəmli alimlərindən, əsl pedaqoq-müəllimlərdən olub. O, uzun müddət ATU-nun daxili xəstəliklər kafedrasının müdiri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş terapevti vəzifələrini yerinə yetirib. Əliyevlər ailəsinin kiçik övladı, akademik Cəmil Əliyev də həyatını tibb elminin inkişafına həsr edib, tibb elmləri doktoru, professor və akademik

zirvəsinə yüksəlib. O, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Milli Onkologiya mərkəzinin baş direktorudur. Akademik Cəmil Əliyevin elmi əsərləri təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da geniş yayılıb, müəllifinə layiqli nüfuz və şöhrət qazandırıb.

Xalqın qəlbində Əziz Əliyevin monumental heykəli əbədi olaraq çoxdan ucaldılıb. Bu yüksəkliyi, bu zirvəni İmran Qasımovun, Süleyman Rüstəmin, Mustafa bəy Topçubaşovun, Mirzə İbrahimovun, Rəsul Həmzətovun, Baxış Qəhrəmanovun, Abdulla Quliyevin, Həmid Rüstəmovun, M.S.Umaxanovun, Əhməd Musayevin, N.İ.Trufanovun, Əbdülvahab Süleymanovun, Həsən İsazadənin, Nəriman Əliyevin, Zəhra Quliyevanın, həmçinin Dursun Hüseynovun, Qurban Əliyevin, Böyükkişi Ağayevin, Həsən Sultanovun, Leyla Kərimovanın və başqalarının görkəmli dövlət və elm xadimi Əziz Əliyev haqqındakı xatirələrində aydın müşahidə etmək, bütün gözəlliyi ilə anlamaq olar.

1962-ci il iyul ayının 27-də Əziz Əliyevin daim xalq üçün, vətən üçün döyünən ürəyi qəflətən dayandı, o, əbədiyyətə qovuşdu. Həmin dövrdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışan akademik Vəli Axundovun göstərişi və xalqın arzusu ilə mərhum birinci Fəxri xiyabanda dəfn edildi.

Ümummilli Lider Heydər Əliyev Əziz Əliyevin 100 illik yubiley gecəsində çıxış edərkən Əziz Əliyevə xas olan xüsusiyyətlərin bütün incəliklərinə yaxşı bələd olduğunu söyləyib və onun insani keyfiyyətlərindən söhbət açaraq deyib: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx əlaqədə olurdu. Bütün tibb professorları onun dostları idi. Onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimlərlə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi”.

***

Görkəmli dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı, qayğıkeş alim, həkim və müəllim kimi yaddaşlara əbədi həkk olunan Azərbaycan Respublikasının Əməkdar həkimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin həyat və fəaliyyətinin zəngin irsi həm indiki, həm də gələcək nəsillərə örnəkdir. Anadan olmasının 123-cü ildönümünü qeyd etdiyimiz Əziz Məmmədkərim oğlu Əliyevin əziz xatirəsi qədirbilən xalqımızın, eləcə də xilaskarı olduğu bir çox xarici ölkə xalqlarının qəlbində daim yaşayır və yaşayacaqdır.

**Əhliman ƏMİRASLANOV,**
**Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik, SSRİ Dövlət mükafatı laureatı.**

*ELM XADİMLƏRİ*

# GÖRKƏMLİ ALİM, QAYĞIKEŞ MÜƏLLİM, BACARIQLI ELM TƏŞKİLATÇISI

Görkəmli şəxsiyyətlər, xüsusən, elm adamları haqqında yazılan məqalələrdə, adətən, qəhrəmanın bir keyfiyyəti daha çox qabardılır. Məsələn, "dünya şöhrətli neftçi-alim", "tarix elmimizin görkəmli sımalarından biri", "fəlsəfə elminə mühüm töhfələr vermiş filosof" və sair. İndi haqqında söz açdığımız dəyərli ziyalı barədə danışanda isə xüsusilə, qabardılmalı bir neçə məqam ortaya çıxır. Çünki, o, təkcə tibb elmləri doktoru, professor deyil, həm də görkəmli səhiyyə təşkilatçısı, yalnız ali məktəb müəllimi deyil, həm də təhsilin idarə edilməsində xüsusi xidmətləri olan mütəxəssis, təkcə gənc alimlərin elmi rəhbəri deyil, həm də elm sahəsinə çoxsaylı gənclərin cəlb edilməsinə nail olmuş qayğıkeş və müdrik ziyalı kimi nəcib keyfiyyətlərə malikdir. Belə ziyalılardan biri Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonrakı mərhələlərdən etibarən ümummilli lider Heydər Əliyevin fəal tərəfdaşlarından, milli səhiyyəmizin, tibb elmi və tibb təhsili sistemimizin yeni müstəvidə aparılan inkişaf trayektoriyasının ardıcıl təşkilatçılarından, bu sahələr üzrə professional tibb kadrları hazırlığının fədakar mütəxəssislərindən olan Vaqif Bilas oğlu Şadlinskidir.

Vaqif müəllim 1991-ci ildən Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, 1994-cü ildən ümumi işlər üzrə prorektoru, 1996–2001-ci illərdə isə tədris işləri üzrə prorektoru vəzifələrini yerinə yetirib. Vətənə, xalqa ləyaqətlə xidmət göstərən görkəmli alim ölkəmizin müstəqilliyinin ilk illərindən tibb elmi və tibb təhsilinin inkişafına dəyərli töhfələrini verir. O, həmçinin 1993-cü ildən Yeni Azərbaycan Partiyası sıralarında fəallıq göstərənlərin ön cərgəsində olub. Onun 1997-1998-ci illərdə prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyevin vəkili, 2003-cü il prezident seçkilərində isə cənab Prezidentimiz İlham Əliyevin səlahiyyətli nümayəndəsi kimi ölkənin müxtəlif regionlarında təbliğat və təşviqat qruplarının rəhbəri olarkən etdiyi çıxışlar rəğbətlə qarşılanıb.

V.Şadlinski çox çətin, lakin şərəfli və zəngin bir həyat yolu keçib. 1940-cı il yanvarın 24-də Qərbi Azərbaycanın (indiki qondarma Ermənistan) Vedi rayonunda ziyalı ailəsində dünyaya göz açan Vaqif 1948-ci ildə – 8 yaşında ikən ailəsi və digər azərbaycanlı soydaşları ilə birlikdə Stalin – Mikoyan cütlüyünün qurduğu mənfur plan əsasında erməni daşnakları tərəfindən dədə-baba yurdlarından kütləvi şəkildə deportasiyaya məruz qalıb. Erməni vandalizmi ilə üzləşən Şadlinskilər ailəsi Şəmkir rayonunun Leninkənd (indiki Çinarlı) qəsəbəsində məskunlaşıb.

Atası – əməkdar müəllim, "Lenin" ordenli Bilas müəllimin direktoru olduğu orta məktəbi bitirdikdən sonra gənc Vaqif

keçmiş SSRİ-nin ordu sıralarında hərbi xidmətə çağırılıb. Ordudan tərxis olunduqdan sonra – 1963-cü ildə N.Nərimanov adına ATİ-nin Stomatologiya fakültəsinə qəbul olunub. Hələ tələbə ikən əla təhsil nümunəsi göstərən gənc Vaqif həm də institutun ictimai həyatında fəal iştirak edib, tələbələrin yaxın dostuna, müəllimlərin istəklisinə çevrilib.

1968-ci ildə institutu fərqlənmə diplomu ilə bitirən gənc ATİ Elmi Şurasının qərarına əsasən, Terapevtik stomatologiya kafedrasında baş laborant vəzifəsində həkimlik fəaliyyətinə başlayıb. 1970-ci ilin iyun ayında isə öz xahişi ilə İnsan anatomiyası kafedrasında eyni vəzifəyə keçirilib və artıq 50 ildir ki, həmin kafedrada çalışaraq baş laborantlıqdan professor, kafedra müdiri vəzifələrinə, Əməkdar elm xadimi, akademiklik rütbələrinə qədər yüksəlib. Kafedrada fənnin tədrisi, təlim-tərbiyə işləri ilə məşğul olmaqla yanaşı, elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə də xüsusi həvəs göstərən V.Şadlinski Moskvada, Sankt-Peterburqda, Voronejdə, Minskdə, Kiyevdə, Xarkovda elmi ezamiyyətlərdə olub, anatomiya elminin sirlərinə dərindən yiyələnə bilmək imkanı əldə edib. Bunun nəticəsi kimi, o, 1982-ci ildə Tbilisidə namizədlik, 1999-cu ildə isə doktorluq dissertasiyalarını müdafiə edərək əvvəlcə tibb elmləri namizədi, sonra isə tibb elmləri doktoru elmi dərəcələrinə və professor elmi adına layiq görülüb.

İstedadlı Azərbaycan aliminin əsas elmi istiqamətini periferik sinir sisteminin struktur elementlərinin tədqiqi, onların mieloarxitektonikası, mielo və morfogenezinin qanunauyğunluqları, həmçinin kafedranın unikal elm və tədris muzeyindəki kəllə kolleksiyaları üzərində aparılan klassik antropometrik və müasir innovativ bioimpedansometrik metodlarla yerinə yetirilən elmi-tədqiqat işləri, eləcə də insanın endokrin və kiçik ekzokrin vəzilərinin fərdi, cinsi və yaş xüsusiyyətləri, onların nisbi normada və balneoloji təsirlər zamanı limfoid aparatı strukturları ilə qarşılıqlı əlaqələri, bütövlükdə, morfologiya elminin ən aktual problemlərindən olan endokrinologiya, ekzokrinologiya, limfologiya və immunologiya sahələrinin morfo-funksional xüsusiyyətlərinin tədqiqi nəticəsində əldə olunan dəlillərin səhiyyə praktikasına tətbiqi təşkil edir.

Professor V.Şadlinskinin “Normada və zobogen təsirlər şəraitində qalxanabənzər vəzin struktur homeostazı və morfo-funksional xüsusiyyətləri” mövzusuna aid doktorluq dissertasiyası işi xarici ölkə alimləri tərəfindən də etiraf edilir ki, bu vaxta qədər bu vəzin struktur elementlərinə, onun morfo-funksional xüsusiyyətlərinə həsr olunmuş elmi-tədqiqat işlərinin ən mükəmməlidir və praktik tibbə tətbiqi nöqteyi-nəzərindən də ən prioritetlərindəndir. Xarici ədəbiyyatda Azərbaycan aliminin elmi-tədqiqat işlərinə edilən çoxsaylı istinadlar da əsərin əhəmiyyətindən və yüksək keyfiyyətindən xəbər verir.

XX əsrin sonu, XXI əsrin əvvəllərində V.Şadlinski elmi məktəbinin yetirmələri tərəfindən müasir dövrün ən aktual problemlərindən sayılan borulu daxili orqanların divarlarında yerləşən vəzi-limfoid aparatının morfo-funksional xüsusiyyətlərinin tədqiqi geniş vüsət aldı. Kafedrada borulu və boşluqlu daxili orqanların divarlarında olan

vəzi və limfoid aparatlarının qarşılıqlı əlaqələrinin normada və balneoloji təsirlər zamanı kompleks şəkildə öyrənilməsindən əldə olunan nəticələr Azərbaycan morfologiya elminin beynəlxalq aləmə və inteqrasiya olunmasına möhkəm zəmin yaratdı. Elmi-tədqiqat işlərinin intensiv olaraq yerinə yetirilməsi öz bəhrələrini verdi və son 25 ildə kafedrada 8 elmlər doktoru, 29 tibb elmləri üzrə fəlsəfə doktoru hazırlandı. Vaqif müəllimin birbaşa elmi rəhbərliyi və məsləhətçiliyi ilə qeyd edilən zaman kəsiyində 7 elmlər doktoru, 17 tibb elmləri üzrə fəlsəfə doktorluğu dissertasiyası işi hazırlanıb. Görkəmli alim dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ, Almaniya, Türkiyə, İtaliya, Çin, İran, İspaniya, Rusiya Federasiyası, Kanada, Gürcüstan, Özbəkistan, Macarıstan, Polşa, İsrail, İngiltərə, MDB dövlətlərində keçirilən elmi konfrans, konqres, qurultay və simpoziumlarda iştirak edərək, Azərbaycan morfologiya elminin ləyaqətli təmsilçilərindən birinə çevrilib.

1995-ci ildə kafedranın müdiri seçilən V.Şadlinski hazırda da bu vəzifədə çalışır. İnsan anatomiyası fənni üzrə mühazirə və praktik məşğələlər apararaq yüksəkixtisaslı tibbi kadrların hazırlanmasına böyük əmək sərf edir.

Görkəmli alim elmi-pedaqoji fəaliyyəti dövründə 600-ə yaxın elmi əsərin, o cümlədən 15 monoqrafiya, 32 dərslik, 45 dərs vəsaiti və tədris-metodik tövsiyənin, 2 səmərələşdirici təklifin, kitab və rəhbərliklərin, onlarca elmi-kütləvi məqalənin müəllifidir. Onun Azərbaycan, rus və latın dillərində çapdan çıxan "Anatomiya atlası" kitabı Şərq ölkələri tarixində ilk anatomik atlasdır. O, həmçinin müasir dövr üçün latınca, Azərbaycanca, rusca, ingiliscə tərtib etdiyi "Anatomik terminologiya" kitabının, həmmüəlliflərlə birlikdə Azərbaycan, rus və ingilis dillərində çap etdirdiyi orijinal dərsliklərin, rezidentlər üçün Azərbaycan və rus dillərində hazırlanan ilk rəhbərliyin və kafedraya şöhrət gətirən, xalqımızın övladları üçün lazım olan digər qiymətli kitabların müəllifidir. Rus dilində yazılan sonuncu kitaba Moskva alimləri geniş rəy verib, onun məziyyətlərini yüksək dəyərləndiriblər.

2018-ci ildə rus alimlərinin və Azərbaycanın görkəmli alimi V.Şadlinskinin həmmüəllifliyi ilə Voronejdə çap olunan "Həzm və tənəffüs sistemi orqanlarının divarlarının çoxhüceyrəli vəziləri (Morfologiyanın funksional məsələləri)" adlı 278 səhifəlik monoqrafiya son illərin şedevri sayılan elmi əsərlərdəndir. Kitabda V.Şadlinski elmi məktəbinin yetirmələrinin də əsərlərinə çoxsaylı istinadlar edilib.

Professor V.Şadlinski kafedra müdiri vəzifəsində çalışdığı son 25 ildə tədrisin keyfiyyətinin yaxşılaşdırılması yolunda ATU-nun rəhbərliyi tərəfindən aparılan islahatlarda yaxından iştirak edərək, yüksək nəticələr əldə edib. 1996–2001-ci illərdə onun Azərbaycan Tibb Universitetinin tədris işləri üzrə prorektoru vəzifəsində çalışması, qeyd olunan islahatların təkcə bir kafedra daxilində deyil, ümumuniversitet səviyyəsində daha geniş miqyasda həyata keçirilməsinə zəmin yaradıb. Hazırda professor V.Şadlinski ATU-nun rektorunun tədrisin keyfiyyətinin yaxşılaşdırılması və

təkmilləşdirilməsi yolunda apardığı islahatlarda – aralıq sorğunun ATU-nun test mərkəzində keçirilməsində, elektron jurnala keçid prosesində, test fondunun yeni rakursda tərtibi məsələlərində və digər layihələrdə yaxından iştirak edərək, belə proqressiv yenilikləri ürəkdən dəstəkləyir, tələbələrin bacarıqlı, savadlı həkim kimi yetişmələrində mühüm əhəmiyyət kəsb edən yeniliklərin onlara qarşı təlim-tərbiyə tələbkarlıqlarını azaltmadan həyata keçirilməsinə yaxından kömək göstərir. O, təhsil və təlim-tərbiyə sahələrində əldə etdiyi müvəffəqiyyətlərə görə dəfələrlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və ATU-nun rektorluğunun Fəxri fərmanlarına, təşəkkürnamələrə layiq görülüb.

Görkəmli alimin səyi nəticəsində kafedra əməkdaşlarının xarici ölkə alimləri ilə inteqrasiyası, beynəlxalq əlaqələri daim genişləndirilir. Belə ki, 2000-ci ilin yanvar ayında M.İ.Seçenov adına Moskva Dövlət Tibb Akademiyasının (indiki Tibb Universitetinin) İnsan anatomiyası kafedrası, eləcə də Gürcüstan Elmi-Tədqiqat Eksperimental Morfologiya İnstitutu, daha sonra isə Gürcüstan Dövlət Tibb Universiteti nəzdində fəaliyyət göstərən Eksperimental Morfologiya İnstitutu ilə Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrası arasında elm və təhsil sahələrində qarşılıqlı əməkdaşlıq haqqında uzunmüddətli müqavilələr bağlanıb, SSRİ-nin süqutundan sonra keçmiş beynəlxalq əlaqələr yenidən bərpa edilibdir. Bunlardan əlavə, Vaqif müəllimin səyi sayəsində Türkiyə universitetlərinin tibb fakültələri, Başqırdıstan, Saratov, Voronej Tibb Universitetlərinin anatomiya kafedraları, eləcə də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ilə ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrası arasında elmi-tədqiqat və tədris işləri üzrə birgə əməkdaşlıq müqavilələri imzalanıb.

2017-ci ildə V.Şadlinskinin təşəbbüsü ilə İnsan anatomiyası kafedrasının unikal muzeyi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilib. O, 2018-ci ildə Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyini yaradıb və bu qurumun sədri seçilib. 2019-cu ildə İctimai Birliyin nəzdində "Nəzəri, klinik və eksperimental morfologiya jurnalı"nın təsis edilməsinə nail olub və həmin jurnalın baş redaktorudur.

Akademik V.Şadlinski 2018-ci ilin iyul-avqust aylarında – məzuniyyət dövründə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səhiyyə, elm və təhsil sahələrinə göstərdikləri diqqət və qayğının, həmçinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, eləcə də ATU-nun rəhbərliyinin yaxından köməyi sayəsində kafedranın yarızirzəmi halında olan yararsız otaqlarında əsaslı təmir və rekonstruksiya, yenidənqurma işləri aparaq, onu gözoxşayan tədris və elm mərkəzinə çevirib. Burada 80 yerlik mühazirə zalı, seksiya otaqları, elmi-tədqiqat işi laboratoriyaları yaradılıb. 2019-cu il fevralın 19-da səhiyyə naziri, professor Oqtay Şirəliyev və ATU-nun rektoru, professor Gəray Gəraybəyli mərkəzin açılışında iştirak edərək, təqdimatını keçirib və onu professor-müəllim heyətinin, tələbələrin istifadəsinə veriblər.

2019-cu il dekabrın 10-da kafedranın mühazirə zalında – Anatomik Teatrda professor V.Şadlinkinin təşkilatçılığı sayəsində kafedranın yaradılmasının 100 illik yubileyi keçirildi. ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbiri açaraq kafedranın tarixindən, onun ilk yaradıcılarından, eləcə də V.Şadlinskinin son 25 ildəki fəaliyyətindən bəhs edən nitqi söylədi. Tədbirdə iştirak edən təhsil naziri Ceyhun Bayramov, səhiyyə nazirinin müavini Elsevər Ağayev, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, professor Famil Mustafayev, eləcə də Türkiyədən, Rusiya Federasiyasından, Gürcüstandan, Başqırdıstandan gəlmiş nümayəndələr ürək sözlərini, təbriklərini söyləyərək bir daha Vaqif Şadlinskinin gördüyü işlərin möhtəşəmliyindən söz açdılar.

Professor V.Şadlinskinin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilib. O, müxtəlif illərdə "Əməkdar həkim" və "Əməkdar elm xadimi" fəxri adlarına, "SSRİ səhiyyə əlaçısı" döş nişanına, akademik Yusif Məmmədəliyev adına mükafata, Beynəlxalq Kadrlar Akademiyasının qızıl medalına, "Azərbaycanın 100 görkəmli alimi" layihəsinin fəxri diplomuna və digər mükafatlara layiq görülüb.

O, Rusiya Tibb Elmləri Akademiyası və Rusiya Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyası və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü, Nyu-York Akademiyasının, Beynəlxalq Morfoloqlar Assosiasiyası Koordinasiya Şurasının, Avropa Patoloqlar Cəmiyyəti İdarə Heyətinin üzvü seçilib.

Görkəmli alim respublikamızın və dünyanın bir sıra elmi jurnallarının redaksiya heyəti və redaksiya şuralarının üzvüdür.

Aqillər deyirlər ki, xoşbəxt o şəxsdir ki, işdə evi üçün, evdə isə işi üçün darıxır, hər ikisini eyni dərəcədə sevir. Zənnimizcə, Vaqif müəllim də həm işi, həm də ailəsi üçün eyni dərəcədə darıxan, onlar üçün hər əzaba qatlaşmağı bacaran böyük şəxsiyyətlərdəndir. O, alman dili müəllimi olan ömür-gün yoldaşı Solmaz xanımla birlikdə böyüdüb, boya-başa çatdırdıqları övladlarını da əsl azərbaycanlı ailəsinə xas olan tərzdə pərvazlandırıb, ərsəyə gətirib. Övladlarının dördü də tibb təhsillidir, Vətənə, xalqa və dövlətə ləyaqətlə xidmət göstərirlər.

ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları hesab edirlər ki, bu günlərdə 80 yaşını təntənə ilə qeyd edəcəkləri Vaqif Şadlinskini doğma Vətənimizdə XXI əsr anatomiya elmi məktəbinin yaradıcısı və qurucusu adlandırmağa haqları var. Qoy, bu səmimi fikirlərimiz Vaqif Şadlinski böyüklüyünə ünvanlanmış yubiley töhfəmiz olsun.

**Mübariz ALLAHVERDİYEV,**
**ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, Əməkdar müəllim, tibb elmləri doktoru.**

**Elçin XIDIROV,**
**kafedranın professoru, tibb elmləri doktoru.**

## *ELM XADİMLƏRİ*

# ZİYALI ÖMRÜ

**Elə insanlar var ki, onlar haqqında düşünəndə özündən asılı olmayaraq ürəyin işıqla dolur. Bu şəxslərin çöhrəsindəki ziyadan qəlbinə pay düşür. Elə bu qəbil insanların ümumi nişanəsinə çevrilmiş ziyalı kəlməsi də öz sirrini, mənasını bu məqamdan açmağa başlayır.**

**Ziyalılıq bir vəzifə deyil, taledir. Bu taleyi heç kəs özü seçmir. Tutduğu yol, yaşadığı həyat, başqalarının münasibəti insanın ziyalı taleyini müəyyənləşdirir. O da insanların qayğılarına, düşüncələrinə yaxınlığı ilə ziyalı taleyinin seçdiyi insanlardandır.**

Professor Alış Qasımovu ilk dəfə tanıyanda o, hələ xeyli gənc idi. Elmdə, pedaqoji fəaliyyətində ona uğur gətirən nailiyyətlərin çoxu hələ irəlidə idi. Bir çox yüksək titullar, rəsmi təltiflər də ad və soyadına ömrün növbəti dönəmlərində əlavə olunacaqdı.

Antik yunan filosofu Platon yazırdı ki, kamilliyə can atan insanlar üçün ən gərəklisi qanunlar haqqında elmdir. Ədalətə, haqqa, qanuna bağlılıq bəşər sivilizasiyasının qədim dövrlərindən həqiqətən də insanlığı səciyyələndirən, onu dünyanın ən ali varlığına, zinətinə çevirən ülvi keyfiyyət sayılıb. Yaşadığı zaman və məkandan asılı olmayaraq daxilindəki işığa doğru üz tutan, ədalətə tapınan insanlar bütün cəmiyyətlərdə sevilib-seçiliblər. Parlaq şəxsiyyətləri, yüksək mənəvi idealları ilə tanınan belə ziyalı şəxsiyyətlərin həyat amalı, ilk növbədə, onların cəmiyyətə fayda verən fəaliyyətində real təcəssümünü tapıb.

Ömrün indi 60-cı zirvəsinə ucalan Alış Qasımov da həyatının hər bir anında məhz belə olmağa çalışıb. Zəhməti, haqqı nahaqqın ayağına verməmək əzmini, yüksək məsuliyyəti, xalqımız, dövlətimiz üçün faydalı olmaq məqsədini bir an da özündən uzağa buraxmayıb.

Onun ömür yolu 1960-cı il yanvarın 10-da Beyləqan rayonunun Milabad kəndindən başlanır. Orta təhsilini doğulub böyüdüyü kənd məktəbində alıb. Elə o illərdən dərslərə marağı, çalışqanlığı, eşitdiyi və mütaliə etdiyi hər mətnin məzmununu, məqsədini dərindən qavraması ilə seçilirdi. Bütün bunlar onun istedadından və işıqlı gələcəyindən xəbər verirdi. Orta məktəbin son siniflərinə doğru qət etdi ki, hüquqşünas olacaq. 1977-ci ildə orta məktəbi bitirib Bakıya gəldi. Burada iki il fəhlə işlədi. Qarşıda əsgəri xidmət vardı. İki il də ordu sıralarında xidmətdə keçdi. Əsgərlikdən qayıtdıqdan sonra yenidən çalışdığı əmək kollektivinə qayıtdı. Hüquqşünas olmaq arzusu bir an da olsun onu tərk etmirdi. Gecə-gündüz imtahanlara hazırlaşırdı. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olundu. Axşam şöbəsində oxuyur, gündüzlər işləyirdi.

Universiteti uğurla başa vurub hüquqşünas ixtisasına yiyələndikdən sonra Ba-

kının Əzizbəyov rayon xalq məhkəməsində çox kiçik bir vəzifədə işləməyə başladı və pillə-pillə irəlilədi. 1989-cu ildə həyat yolu artıq müəyyən iş təcrübəsi toplamış cavan hüquqşünası yenidən məzunu olduğu BDU-ya gətirdi. Burada o, Hüquq fakültəsi dekanlığının metodisti kimi fəaliyyətə başladı. Həmin vaxtdan üzübəri – artıq 30 ildən çoxdur Alış Qasımov şərəfli müəllim ömrü yaşamaqdadır. O, metodistlikdən başlayaraq baş metodist, müəllim, baş müəllim, dosent, dekan müavini kimi vəzifələrdə çalışıb. 2002-ci ildən Mülki proses, əmək və ekologiya hüququ kafedrasının müdiri olub. 2011-ci ildən isə Əmək və ekologiya kafedrasının müdiridir.

1994-cü ildə o, "Əmək və bəzi mülki hüquq münasibətlərindən əmələ gələn əvəzli və əvəzsiz əmlak səlahiyyətlərinin qarşılıqlı əlaqə sistemi" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb. 2003-cü ildə isə hüquqşünas-alim "Azərbaycan Respublikasının əmək hüququnda qarşılıqlı maddi məsuliyyət" mövzusuna həsr olunmuş doktorluq işini müvəffəqiyyətlə müdafiə etməklə hüquq elmləri doktoru elmi dərəcəsi alıb. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Alış Qasımova 1997-ci il yanvarın 13-də dosent, 2010-cu il fevralın 5-də professor elmi adlarını verib. Ötən bu illər ərzində professor Alış Qasımov öz sahəsinin peşəkar mütəxəssislərindən biri kimi hüquqşünas alimlərin yetişdirilməsində böyük rol oynayıb. Onun elmi rəhbərliyi ilə onlarla gənc tədqiqat sahəsində uğurlar qazanaraq elmi dərəcələr alıb. Professor Alış Qasımov hazırda 10-dan çox doktorant və dissertantın elmi rəhbəridir.

Tələbələri onu çox sevirlər. Bu sevginin mənbəyi həm də Alış Qasımovun uzunmüddətli müəllimlik təcrübəsi ilə auditoriyalarda oxuduğu yaddaqalan mühazirələr, tələbələrlə səmimi ünsiyyət qurmaq bacarığı, onlara diqqət və qayğısıdır. Onun pedaqoji fəaliyyətinin əhatə dairəsi təkcə "Əmək hüququ", "Əmək hüququnun müasir problemləri", "Əmək mübahisələri və onların həlli qaydası"ndan oxuduğu mühazirələrlə məhdudlaşmır. Professor Alış Qasımov tələbələrin bilik mənbələrinə olan ehtiyaclarını nəzərə alaraq mütəmadi şəkildə yeni dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, elmi məqalələr yazır. Öz əsərlərində əmək hüququ elminin müasir tendensiyalarına xüsusi diqqət yönəldir. Təsadüfi deyil ki, o, 360-dan çox elmi əsərin, o cümlədən 3 dərsliyin, 13 dərs vəsaitinin, 10 monoqrafiyanın, 233 elmi məqalənin, 13 kitabın, 4 metodik vəsaitin, 17 tezisin, 150-dən artıq qəzet məqaləsinin müəllifidir. 80-ə yaxın tədris proqramı tərtib edib.

Amma hələ bütün bunlar da professor Alış Qasımovun elmi-yaradıcı fəaliyyətinin yalnız müəyyən bir hissəsidir. Görkəmli alim indiyədək 103 əsərin elmi redaktoru, 75 elmi əsərin rəyçisi olub. Onun əsərlərinin bir çoxu xarici ölkələrdə nəşr olunub və alimə ölkə hüdudlarından kənarda da nüfuz qazandırıb. Qələmə aldığı istənilən əsərlə ilk tanışlıq anlarından bunların nə qədər gərgin zəhmət hesabına başa gəldiyini, əsl peşəkar əməyinin nəticəsi kimi ortaya çıxdığını görürsən. Alış Qasımov xarakter

etibarilə tələbkar və prinsipial alim-müəllimdir. Bu tələbkarlığı isə ilk növbədə özünə qarşı yönəlib. Ona görə də alimin kitablarında, məqalələrində səthi yanaşmalara, bəsit məqamlara, başqaları tərəfindən irəli sürülmüş tezislərin dolayısı ilə təkrarına rast gəlməzsən. Professorun öz həmkarlarında, rəhbərlik etdiyi kafedranın əməkdaşlarında, yetirməsi olan alimlərdə görmək istədiyi ilk keyfiyyət məhz öz tədqiqatlarına yüksək məsuliyyətlə yanaşmalarıdır. Elə bunun nəticəsidir ki, Əmək və ekologiya kafedrası son illər bir-birindən sanballı araşdırmalar ortaya qoyub və bu da Alış Qasımovun bir elm təşkilatçısı kimi malik olduğu keyfiyyətlərin xoş töhfəsidir.

O, "Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri" elmi məcmuəsinin, "Qanun", "Dövlət və hüquq", "Hüquq və gənclik" jurnallarının, "AR DİN Polis Akademiyasının Elmi Xəbərləri", Ali Məhkəmənin bülleteninin redaksiya heyətinin üzvüdür. Professor Alış Qasımov həmçinin Moskvada nəşr olunan "Trudovoe pravo v Rossii i za rubejom" ("Rusiyada və xaricdə əmək hüququ"), "Probelı v Rossiyskom zakonodatelğstve" ("Rusiya qanunvericiliyində boşluqlar"), Minskdə nəşr olunan "Trudovoe i soüialğnoe pravo" ("Əmək və sosial hüquq") jurnallarının da redaksiya heyətində üzv kimi təmsil olunur. İndiyə qədər 35-dən çox beynəlxalq, 40-dan çox respublika səviyyəli elmi-praktik konfransda sanballı məruzələri, təqdimatları ilə Azərbaycanın hüquq elmini layiqincə təmsil edib.

Professor Alış Qasımovun peşəkar bacarıqlarından, öz sahəsinin eksperti kimi zəngin biliklərindən digər əlaqəli sahələrdə də geniş istifadə edilir. Alim Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Dövlət və hüquq" bölməsinin katibi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Hüquq elmləri üzrə Ekspert Şurasının üzvü, Ali Məhkəmə yanında Elmi-Məsləhət Şurasının, AMEA-nın Humanitar və ictimai elmlər bölməsinin nəzdində Hüquq elmləri üzrə Problem Şurasının üzvü olub. Uzun müddət hüquq üzrə elmi dərəcələr verən daimi və birdəfəlik dissertasiya şuralarının sədri və üzvü kimi fəaliyyət göstərib. Hazırda isə Bakı Dövlət Universitetində yaradılmış Dissertasiya Şurasının sədr müavinidir. Konstitusiya Məhkəməsinin plenumlarında "Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq maddələrinin şərh edilməsi"ndə ekspert qismində dəfələrlə iştirak etməsi onun yüksək ixtisaslı, bilikli və səriştəli hüquqşünas olmasının daha bir göstəricisidir. O həm də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvüdür.

Əsl ziyalı cəmiyyətdə gedən ictimai-siyasi proseslərə heç zaman biganə qalmır. Müəyyən bir əqidənin daşıyıcısı kimi öz mövqeyini ortaya qoyur. Aydın baxışları, tutduğu yolla onun rəyinə hörmət bəsləyən başqalarına, o cümlədən tələbələrinə düzgün yol göstərməyə çalışır. Bu mənada Alış Qasımov əqidə adamıdır. O, hər zaman Azərbaycan dövlətinin daha da qüdrətlənməsini istəyir. Cəmiyyətimizdə qanunun aliliyinin, insan hüquq və azadlıqlarının, vətəndaş cəmiyyətinin, sosial ədalətin bər-

qərar olmasına, yüksək siyasi mədəniyyətin formalaşmasına çalışır. Alim fəhmi ilə duyur ki, bütün bu amallara yetişməyin yeganə yolu cəmiyyətdəki ictimai-siyasi sabitliyin, davamlı inkişaf mühitinin qorunub saxlanmasından, insanların maariflənməsindən, xalqın birdən-birə inqilabi sıçrayışla deyil, sosial təkamül yolu ilə öz hədəflərinə doğru irəliləməsindən keçir. Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursudur. Bu kursu böyük əzmlə davam etdirərək ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü milli inkişaf siyasətidir.

Tanınmış alim təkcə praktik tədrislə kifayətlənməyi özü üçün məqbul saymır. Cəmiyyətin hüquqi cəhətdən yetkinləşməsi, ölkənin polis, məhkəmə, ədliyyə, prokurorluq sistemində həyata keçirilən mütərəqqi ruhlu islahatların vətəndaşlara adekvat şəkildə çatdırılması üçün biliyinin, qələminin gücünü əsirgəmir.

Cəmiyyətin hüquqi maarifləndirilməsi prosesində yaxından iştirak edir. Ayrı-ayrı məqalələrində Azərbaycanın qısa dövr ərzində keçdiyi demokratik inkişaf mərhələsinin mahiyyətini, ölkəmizdə liberal dəyərlərin təminatını sürətləndirən proseslərin inkişaf dinamikasını, iqtisadi tərəqqinin keyfiyyətcə yeni mərhələsi olan modernləşmə xəttinin əsas xüsusiyyətlərini açıb göstərməyə çalışır.

Alış müəllimin elmi, pedaqoji, ictimai fəaliyyəti də dövlət tərəfindən yüksək qiymətləndirilir. 2000-ci il fevralın 10-da Təhsil Nazirliyinin Kollegiyası onu yüksəkixtisaslı hüquqşünas kadrların hazırlanması sahəsindəki səmərəli fəaliyyətinə görə və BDU-nun 80 illik yubileyi münasibətilə fəxri fərmanla təltif edib. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli sərəncamı ilə "Tərəqqi” medalına layiq görülüb. Yüksəkixtisaslı kadrların hazırlanmasında səmərəli elmi-pedaqoji fəaliyyətinə görə 2010-cu il yanvarın 21-də Təhsil nazirinin əmri ilə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı, elm və təhsilin inkişafı sahəsində yüksək nailiyyətlər əldə etdiyinə, bu sahənin inkişafına xüsusi töhfə verdiyinə, Universitetin sosial-mədəni inkişafında fəal iştirak etdiyinə görə 2019-cu il noyabr ayının 25-də "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə, qanunvericiliyin təkmilləşdirilməsi və eyni zamanda, hüququn ayrı-ayrı sahələrinin inkişaf etdirilməsində verdiyi töhfələrə görə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin xüsusi medalı, habelə AHİK İcraiyyə Komitəsinin 13 aprel 2016-cı il tarixli qərarı ilə "Həmkarlar ittifaqında xidmətlərinə görə” medalı ilə təltif olunub. Bu mükafatların hər biri onun alim-müəllim əməyinə, xalqımızın maariflənməsinə, dövlətimizin inkişafına təmənnasız xidmətdə keçən mənalı illərinə verilmiş layiqli qiymətdir.

**Zahid CƏFƏROV,**
**Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru.**

*ELM XADİMLƏRİ*

# TƏCRÜBƏLİ PEDAQOQ, ZƏHMƏTKEŞ ALİM, NƏCİB İNSAN

***Bu yaxınlarda Azərbaycanın ilk ali təhsil ocağı – Bakı Dövlət Universiteti təntənəli şəkildə özünün 100 illiyini qeyd etdi. Ötən bu bir əsr ərzində təhsilimizin flaqmanı sayılan BDU yüzlərlə alim, müəllim və yaradıcı insanlar yetişdirib. Bunların arasında jurnalistika təhsilində danılmaz xidmətləri olan tanınmış ziyalılarımız da az olmayıb.***

Belə alimlərdən biri də bu gün özünün 80 yaşını qeyd edən, zəngin elmi-pedaqoji təcrübəyə malik olan və insani keyfiyyətləri ilə seçilən dəyərli həmkarımız professor Akif Rüstəmovdur.

A.Rüstəmov ADU-nun (indiki BDU) Jurnalistika fakültəsini bitirdikdən sonra ömürlük həyatını respublikanın bu nüfuzlu ali təhsil məktəbi ilə bağlamışdır. Əmək fəaliyyətinə adi laborantdan başlamış, daha sonra müəllim, baş müəllim, dosent, dekan müavini, dekan vəzifəsinə qədər yüksələ bilmişdir. Fakültədə çalışdığı 50 ilə yaxın dovrdə Akif müəllim qayğıkeş, eyni zamanda sadə, saf əqidəsi və məsləki olan, təbiətcə sakit və iddiasız ziyalı və nurlu bir sima kimi hamının hörmətini qazanmışdır. A.Rüstəmovun etdiyi yaxşılıqlar, qayğıkeş əməllər onu daim ucaldır, zirvələrə yüksəldir.

İllər keçir, dövr dəyişir, çoxları zamana uyğun hərəkət etməyə çalışır. Akif müəllim isə dəyişməz olaraq qalır. Ona görə o, sözdə də, əməldə də, davranışında və düşüncəsində də bütöv bir zəka sahibidir. Akif Rüstəmov gözəl ziyalı-alim və təcrübəli müəllim olmaqla yanaşı, təmkinli, ləyaqətli bir insandır. Və bu keyfiyyətləri o, təkcə öz doğma Bakı Dövlət Universitetində deyil, hətta bir arada dekan olduğu özəl ali məktəblərdə də nümayiş etdirə bilmişdir. Onu da deyim ki, özəllərə Akif müəllimin özünün nə həvəsi, nə də meyli var idi. Onun dalınca rektoratın adından dəfələrlə adam göndərilərdi, zənglər, xahişlər olardı. Akif Rüstəmovun özəllərdə calışdığı illər həmin ali məktəblər üçün "intibah dövrü" olmuşdur. O, BDU-nun tədris sistemini, intizam qaydalarını özəllərə keçirmək üçün çox səy göstərirdi.

Akif Rüstəmovun mənəvi zənginliyinə və daxili təmizliyinə yaxından bələd olduqca belə bir qənaətə gəlirsən ki, ona məxsus ləyaqət, ucalıq fitri xilqətdir. Müəllimlik bütün varlığı ilə onun işində, əməlində, nəcib hərəkətlərində özünü göstərir.

A.Rüstəmov BDU-nun Jurnalistika fakültəsinin dekanı olan vaxtlarda (1989-1999) çox adama çörək verib, işə dəvət edib, yardım göstərib. Dekan olanda iş yerini özününkü hesab etməyib, vəzifəni insanlara kömək etmək şansı kimi qiymətləndirib.

Tələbələri Akif müəllimi sevir, ona hörmətlə yanaşır. Hətta rəhbərliyin ona qıyımsılıq olan dövrlərdə də Akif Rüstəmov ləyaqətini qoruyub saxlamağı bacarıb, heç kəsin yanında minnətli olmayıb. Belə hallarda o deyirdi: "Mənim üçün ən böyük mükafat tələbələrin mənə olan hörmətidir. Tə-

ləbənin hörmətini və sevincini qazanmaqdan qiymətli nə ola bilər ki?.."

A.Rüstəmovun həmkarları heç zaman onun özu haqqında yüksək fikirdə olduğunu görməyiblər. Akif müəllim çox konkret insandır. Sözü birbaşa adamın üzünə deyər. Əgər nə isə xoşuna gəlməyibsə, qarşıdakı şəxsin kimliyindən asılı olmayaraq bunu gizlətməyəcəkdir.

İstər dekan olduğu illərdə, istər ondan sonrakı dövrlərdə tələbələr təhsil aldığı dörd il ərzində Akif müəllimin bir dəfə də olsun əsəbiləşdiyinin şahidi olmayıblar. Bəlkə də olubdur, lakin o, bunu heç kəsə hiss etdirməyibdir. A.Rüstəmov hər zaman işinə məsuliyyət və dəqiqliklə yanaşır, məhz buna görə də o, kollektivdə hörmət və nüfuz sahibi kimi tanınır.

Onun xarakterinin bir cəhətini də qeyd etmək istərdim. Bir müəllim kimi Akif Rüstəmov tələbkardır. Lakin bu tələbkarlığın özundə bir qayğı vardı, o, tələbələrini öz övladlarından ayırmır. A.Rüstəmov imtahanlar zamanı tələbələri incitməz, nəyə görəsə onlara aşağı qiymət verməz. Bunu tələbələr də, valideynlər də, digər müəllimlər də yaxşı bilirlər. O, ömrü boyu belə işləyib. Bu nöqteyi-nəzərdən A.Rüstəmov çoxlarına örnək ola bilər. Hesab edirəm ki, bu, bir ömrün mükəmməl ifadəsidir.

Akif Rüstəmov hər cəhətdən etibar edilən adamdır. Onun müsbət keyfiyyətlərinə indiki zamanda çox az-az adamlarda rast gəlmək olar. Bu mənada Akif müəllim onu tanıyanlar üçün qənimət adamdır. Akif müəllim sözün əsl mənasında cəfakeş müəllimdir, öz peşəsinin vurğunudur. Bunu fakültəmizdə onunla uzun illər çiyin-çiyinə çalışan digər pedaqoqlar da təsdiqləyə bilər. Gəlin onların da Akif müəllimə olan münasibətinə nəzər yetirək:

"Cahangir Məmmədli Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor: Akif Rüstəmov qırx beş ildən artıqdır ki, öz həlim xarakteri, ətrafına qayğıları, özündən çox ətrafdaşlarını düşünməyi ilə bizi heyran qoyur. Jurnalistika fakültəsinin bütün inkişafı onun gözü qarşısında kecib. Ən çətin dərs bölgülərində doğma-ögeyliyə bölmədən kafedralara kömək olub. Bəzən başqalarının işini gördüyü üçün əsəbiləşən vaxtları da olub, amma heç vaxt üzə vurmayıb. Adi müəllim çağında da, vəzifəli günlərində də Akif müəllimin dostları dəyişməz olub. Onun onillik dekanlıq dövrü tələbələrinin, dostlarının, iş yoldaşlarının demokratik dövrü kimi yadda qalıb. Akif müəllim təmənnasız dekan olub. O, tələbəyə hər şeydən əvvəl həmkar kimi baxır. Mən müxtəlif redaksiyalarda keçmiş məzunların onu necə qarşıladığının şahidi olmuşam. O görüş anlarında ürəyimdən bir həsəd də qopub. Lakin dərhal hiss etmişəm ki, elə mən özüm də bu bəstəboy, iddiasız, təmənnasız, səmimi insanı çox sevirəm – dost kimi və bir də ən çətin anda köməyə gələn iş yoldaşı kimi".

Mahmud Mahmudov, dosent: "Akif müəllimin müsbət keyfiyyətlərindən biri onun haqsızlığa yol verməməsidir. Bunu təkcə bir faktın timsalında görmək olar. Keçən əsrin doxsanıncı illərinin əvvəllərində, ölkənin qarmaqarışıq dövründə universitetin keçmiş rəhbərliyinin iki ağsaqqal müəllimlərimizə – Nəsir İmanquliyevə və Seyfulla Əliyevə haradansa sərt münasibəti ortaya çıxmışdır. Rəsmi yığıncaqlarda Akif müəllimə dəfələrlə deyilmişdir.

– Onların hər ikisinin işdən azad olunması barədə təqdimat yaz!

Akif müəllim isə qəti etirazını bildirmişdi:

– Nəsir İmanquliyev də, Seyfulla Əliyev də mənim müəllimlərim olub. Buna görə də tapşırığınız mənim üçün imkan xaricindədir. Yalnız özümün işdən azad olunmağım barədə ərizə yaza bilərəm.

Qətiyyətini, inadını görüb keçmiş rəhbərlik daha təkid etməmiş, məsələdən hali olan həmin müəllimlər isə Akif müəllimə öz minnətdarlığını bildirmişdilər".

Əli Hacıyev, baş müəllim: "Heç kəsə sirr deyil ki, Jurnalistika fakültəsi digər fakültələrdən seçilir. Burada təhsil alanların əksəriyyəti hələ tələbə ikən kütləvi informasiya vasitələri ilə əlaqə saxlayır. Odur ki, informasiya sarıdan da korluq çəkmirlər. Bəzən onların verdiyi "qəliz" suallara elə cavab verməlisən ki, səndən narazı qalmasınlar. Beləlari ilə işləmək də asan deyil. Xüsusilə, Akif müəllimin dekan olduğu illər. Həmin dövr respublikanın ağır günləri idi. Qarabağ müharibəsi, ölkədəki ağır ictimai-siyasi vəziyyət, mitinqlər, sui-qəsdlər, jurnalistlərin döyülməsi, bir sözlə, sabitliyin pozulması tələbələri də hərəkətə gətirmişdi. Bu dövr mən deyərdim ki, Akif müəllim hər bir tələbəni düzgün istiqamətləndirməyi də bacarırdı... Bu illər Akif müəllimin kollektivin hər bir üzvünə eyni münasibət bəslədiyini, ayrı-seçkiliyə yol vermədiyini, həmin qanlı-qadalı günlərdə onları necə qoruduğunun şahidiyəm".

A.Rüstəmov bir neçə sanballı dərs vəsaitinin, çoxsaylı elmi məqalələrin müəllifidir. Onun ikicildlik "Jurnalistika" və "Xarici ölkələrin jurnalistika tarixi" dərs vəsaitləri, "Mətbuat azadlığı və jurnalist fəaliyyəti", "İnformasiya təhlükəsizliyi və mətbuat", "KİV-in fəaliyyətində auditoriyanın rolu", "İnformasiya cəmiyyətində KİV-in artan rolu", "Jurnalistika və beynəlxalq terrorizm problemi", "İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti", "Cəmiyyət və jurnalistika" sərlövhəli yazıları elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Lakin onun əsas əsərləri tələbələrdir. O tələbələr ki, daxil olduğu auditoriyaya müəllimin əmanət verdiyi bilikləri və öyüd-nəsihətləti götürür. Akif müəllim çox həvəslə bildiklərini tələbələrinə ötürməyi bacarır. Və bu gün onun biliyindən qida alan neçə-neçə tələbənin səsi yüksək kabinetlərdən, nüfuzlu mətbu orqanlardan, efir kanallarından gəlir. Mən Akif müəllimin onlarla keçmiş tələbəsini tanıyıram ki, jurnalistika sahəsində özlərinə layiq və müəlliminə qürur gətirən zirvəyə qalxmışlar.

Akif müəllim nümunəvi ailə başçısı, iki oğul, bir qız atası və üç nəvə babasıdır. Oğlanlarından biri – Azər bu yaxınlarda ABŞ-ın şəhərlərindən birində müvəffəqiyyətlə magistraturanı bitirib.

Akif müəllim hər zaman olduğu kimi, indi də fakültəmizdə dərs dediyi tələbələrin jurnalistika peşəsinə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmir. O, bu gün də yetirmələrinin əhatəsində, ona çox doğma olan kollektivdədir.

80 az yaş deyil. Akif müəllimin bu rəqəmlə fəxr etməyə haqqı var. Həmin haqqı o, qələmindən çıxan dərslikləri və çoxsaylı məqalələri, saysız-hesabsız tələbələri, zəngin müəllimlik fəaliyyəti ilə qazanıb. Ləyaqətli insan, ağsaqqal müəllimə bundan sonra da elmi-pedaqoji işində uğurlar və insan üçün ən gərəkli olan cansağlığı arzulayırıq.

**Ayaz MUSAYEV,**
**BDU-nun Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının baş müəllimi.**

*YENİ KİTABLAR*

# AKADEMİK RAMİZ MEHDİYEVİN "AZƏRBAYCANIN İNKİŞAFINI XXI ƏSRİN ÇAĞIRIŞLARINA UYĞUNLAŞDIRAN LİDER" ADLI KİTABI ÇAPDAN ÇIXIB

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin "Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider" adlı kitabı çapdan çıxıb. AMEA-dan bildirilib ki, kitabda şərh edilən məsələlər akademik Ramiz Mehdiyevin Prezident İlham Əliyevin Administrasiyasının rəhbəri vəzifəsində işlədiyi 16 il ərzində müşahidə etdiklərinin nəticəsidir.**

"Mənim üçün müasir Azərbaycanın inkişaf tarixi ilə bağlı açıq suallar qalmayıb. Ölkənin ümdə problemlərinin həllində iştirak etməli olanlar qeyri-ordinar transformasiyaların şahidlərinə çevrilir, ən mühüm məqamları gözləri ilə görmək və onun həqiqi miqyasını real zaman rejimində qiymətləndirmək imkanı əldə edirlər. O zaman istər-istəməz inanırsan ki, insanın quruculuq istedadının bənzərsizliyi mahiyyət etibarilə heç də təsadüfi deyil" – bu fikirlərlə başlayan kitab Azərbaycanın dövlət başçısı vəzifəsində böyük siyasi və görkəmli dövlət xadimi Heydər Əliyevdən sonra ölkəmizin sükanını böyük bacarıqla idarə edən Prezident İlham Əliyev haqqında kitabın bir fəslidir.

Qloballaşma proseslərinin fəallaşdığı şəraitdə, yeni minilliyin əvvəlində Azərbaycanın üzləşdiyi təhdidlər, XXI əsrin əvvəlinin reallıqları, dövlətin inkişafının yeni mərhələsində onun qarşısında duran mürəkkəb məsələlərin öhdəsindən gəlmək, Azərbaycanın inkişafı ilə bağlı genişmiqyaslı planları həyata keçirmək və İlham Əliyevdən ümummilli lider Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursunu davam etdirmək üçün zəruri olan xüsusi qabiliyyətlər tələb edildiyini yazan akademik Azərbaycanın inkişafında 2003-cü ilin oktyabrından başlanan yeni mərhələnin mahiyyətini təhlil edib: "Prezident İlham Əliyev ölkənin innovasiya texnologiyaları əsasında ümumi modernləşdirilməsinə yönəlmiş dövlət idarəçilik sistemini reallaşdırmağa başladı".

İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın həyatında keyfiyyətcə yeni mərhələnin əsasının qoyulduğunu vurğulayan akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin öz vəzifələrinin icrasına "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" (noyabr 2003), "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının dövlət proqramının təsdiq edilməsi haqqında (2004-2008)" (fevral 2004) fərmanları ilə ölkənin sosial-iqtisadi inkişafının sürətini müəyyən edərək start verdiyini bildirib. Kitabda qeyd olunur ki, hərtərəfli düşünülmüş iqtisadi siyasət sayəsində Azərbaycanın xeyli irəliləməsi, neft amilindən asılılığın əhəmiyyətli dərəcədə azalması, "Neftdən asılı dövlət" modelinin artıq keçmişdə qalaraq iqtisadiyyatın şaxələndirilməsində ciddi uğurlar qazanılması, dövlətin sahibkarlığa və aqrar sənaye kompleksinə ciddi kömək göstərməsi, bu illər ərzində vergi-büdcə siyasətinin iqtisadi artımın ən mühüm amilinə çevrilməsi, Azərbaycanın ərzaq mallarının əksəriyyəti üzrə özünü təmin etmək səviyyəsinə çatması, ölkənin güclü ordusu və güclü xarici siyasətinin olması, ictimai-siyasi sabitliyin, icra intizamının təmin edilməsi, vətəndaşların

hər sahədə məsuliyyətinin artırılması, həmçinin ölkə rəhbərliyinin ölçülüb-biçilmiş hərəkətləri Azərbaycanın qüdrətli dövlət olmasını göstərir və bütün bunlar dövlət səviyyəsində aparılan islahatların əsasını təşkil edir.

Müəllif Azərbaycanda həyatın bütün sahələrində islahatlar strategiyasını müəyyənləşdirən Prezident İlham Əliyevin təkcə ölkənin deyil, dünyanın müxtəlif KİV-lərində də fəaliyyətinin çox yüksək qiymətləndirildiyini qeyd edib. Türkiyənin NTV telekanalına müsahibəsində İlham Əliyevin əsl siyasətçi olduğunu nəzərə çatdıran ABŞ dövlət katibinin Avrasiya regionunda münaqişələr və Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Stiven Mann Azərbaycan xalqının İlham Əliyevin timsalında çox yaxşı Prezidenti olduğunu vurğulayaraq əlavə edib: "Hesab edirəm ki, ölkədə siyasi islahatlar davam etdiriləcək, neftdən alınan gəlirlər sıravi vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldiləcək".

Bundan əlavə, kitabda "The American Interest" nəşrində Amerika Xarici Siyasət Şurası yanında Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru, "Azərbaycan müstəqillik günündən sonra" adlı kitabın müəllifi Svante Kornellin məqaləsində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatların, onların regionda inkişafa təsirinin təhlili təqdim edilir: "S.Kornellin fikrincə, ölkədə cari islahatlar əsl vaxtına düşüb. Budəfəki islahatlar 2015-ci ildə neftin qiymətinin azalması ilə bağlıdır, hərçənd Azərbaycanda bundan əvvəl də islahatlar aparılırdı. Məsələn, 1999-cu ildə Norveç modeli üzrə Dövlət Neft Fondu yaradıldı. 2012-ci ildə Azərbaycanda "ASAN xidmət" işə salındı". Müəllif hesab edir ki, "ASAN xidmət" sayəsində vətəndaşlarla dövlət qulluqçuları arasında əlaqələr məhdudlaşdırılıb, korrupsiya faktları aradan qaldırılıb.

Kitabda dünyanın aparıcı nəşrlərindən olan "Harvard Business Review" jurnalında (sentyabr 2000-ci il) dərc edilmiş "Tanınmış lider olmağın yolu" sərlövhəli məqalənin müəllifləri Robert Qoffi və Haret Consun fikirləri dərc olunub. Onlar yazırlar: "İntuisiya siyasi liderin əvəzedilməz keyfiyyətidir. Belə adamlar haqqında deyirlər ki, onlar şəraiti yaxşı hiss edirlər. Onlar ətraf mühitdən gələn siqnalları instinktiv olaraq qəbul edir və nə baş verəcəyini əvvəlcədən duya bilirlər, hərçənd bu hadisələrin bütün təfərrüatını onlara heç kəs izah etməyib. O, ən kiçik eyhamların mənasını başa düşür və müşahidə qabiliyyəti az olan insanların nəzərindən qaçan cəmiyyətdə əhval-ruhiyyənin cüzi dəyişmələrini izləyir. Bütün görkəmli şəxsiyyətlər kəskin intuisiyaya malik olan insanlardır".

Kitabın "Postneft dövrünün islahatları" adlı bölməsində isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin postneft dövründə iqtisadiyyatı bacarıqla idarə edərək ölkəni yeni inkişaf yollarına çıxarmasından, 2016-cı ildə Azərbaycan iqtisadiyyatında xarici şokların və əsas ticarət tərəfdaşlarının resessiyasının təsiri altında baş vermiş qısamüddətli tənəzzülün 2017-ci ildə sabitləşmə və 2018-ci ildə iqtisadi artımla əvəz olunmasından danışılır. Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən qısa müddətdə mühüm qərarların qəbul edilməsinin əsas istiqamətlərindən söz açılır.

AMEA-nın "Elm" nəşriyyatında çıxan və 168 səhifədən ibarət olan əsərdə öz əksini tapan materiallar Azərbaycan və rus dillərində təqdim edilir.

*YENİ KİTABLAR*

# Prezident İlham Əliyev: İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq, dünyada islam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, islam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz islamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

"İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 95-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının Ramazan ayı münasibətilə iftar mərasimində iştirakı zamanı söylədiyi nitqində yer alıb.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin mayından avqust ayınadək olan dövrü əhatə edir.

Çoxcildliyin 95-ci kitabına Prezident İlham Əliyevin Azərbaycana rəsmi səfərə gəlmiş Polşa Respublikasının Prezidenti Andjey Duda, Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Sürəyya Sadi Bilgiç, ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli, UNESKO-nun baş direktoru Odre Azule ilə görüşlərinə və danışıqlarına dair materiallar daxil edilib. Nəşrdə Azərbaycan Prezidentinin Çin, Almaniya, Rusiya, ABŞ, Səudiyyə Ərəbistanı və digər dövlətlərin, Avropa İttifaqının, NATO-nun, Ümumdünya Gömrük Təşkilatının, Dünya Bankının yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi barədə xəbərlər verilib.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin 28 May – Respublika Günü münasibətilə keçirilmiş rəsmi qəbulda nitqinin mətni, XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında, Bakıda bir sıra infrastruktur obyektlərinin, paytaxtın Pirallahı rayonunda məcburi köçkünlər üçün salınmış yeni yaşayış kompleksinin açılış mərasimlərində iştirakı, həmçinin iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirə haqqında informasiyalarla tanış ola bilər.

Prezident İlham Əliyevin "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Azərbaycan xalqına təbriki, "Tarixi şəhərlərdə kütləvi turizm" beynəlxalq memarlıq forumunun, "Bakı ürək günləri" VI Beynəlxalq Konqresinin və Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransının, Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinin, "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda Vyanada keçirilmiş beynəlxalq konfransın iştirakçılarına məktubları və digər məktublar da yeni nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 95-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## YENİ NƏŞRLƏR

*Günel Məliklinin müəllifi olduğu aşağıda göstərilən üç əsəri*
*"Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzində yenicə çapdan çıxmışdır.*

### "İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər"

Bu kitabda dövlət başçısı cənab İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər problemi araşdırılır. Burada milli prioritetlərdə tarix və müasirlik məsələsi, Azərbaycanın xarici siyasət doktrinası və xarici siyasət strategiyası milli dövlət maraqlarının formalaşdırılması baxımından nəzərdən keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev hələ hakimiyyətə gəlişindən xeyli öncə bəyan etmişdi ki, mənim siyasi kursum Heydər Əliyev strategiyasnın tərkib hissəsi, onun davamıdır. Ulu öndərin siyasəti dəyişməz olaraq qalacaq və Azərbaycan xalqının gələcək təminatının, işıqlı, firavan həyatının qarantının əsas atributu kimi davam etdiriləcək. Heydər Əliyev siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmağa xidmət edəcəkdir. Oxucuların diqqətinə yetirilən bu tədqiqatda müasir Azərbaycanın siyasi idarəçiliyində milli prioritetlərin təmin olunmasında cənab Prezident İlham Əliyevin səyləri və atdığı addımları sistemli şəkildə, cərəyan edən siyasi hadisələrin tarixi və məntiqi ardıcıllığı fonunda araşdırılır. Kitabda üç fəsil boyunca ardıcıl olaraq bir sıra məsələlərə münasibət bildirilir. O cümlədən, siyasi prioritetlərin həyata keçməsi üçün Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasının istiqamətləri göstərilir. Müəllif əsaslandırmağa çalışır ki, demokratik dəyərlərə nail olmaq yolunda yeni ideoloji oriyentirlərin axtarışı necə həyata keçirilir, burada milli özünəməxsusluq nədən ibarətdir. Və aparılan təhlillər təsdiq edir ki, xalqın rəyi ilə hesablaşmaq və yeni düzgün qərarlar qəbul etmək, ən çətin məsələlərin həllində xalq ilə bir olmaq prinsipi üzərində qurulan siyasət dövlət başçısı cənab İlham Əliyevin amalı və iş prinsipidir. Monoqrafiyada XX əsrdə Azərbaycanın milli dövlətçiliyə doğru keçdiyi tarixi yol və XX-XXI əsrlərdə milli mədəniyyətin formalaşmasında siyasi münasibətlərin rolu təhlil olunur, müstəqilliyə doğru aparan yolda ümummilli lider Heydər Əliyev fenomeni və milli prioritetlərin təyin edilməsində cənab Prezident İlham Əliyevin rolu araşdırılır. Bundan başqa, Azərbaycanın gələcəyini formalaşdıran müasir siyasi strategiya nəzərdən keçirilir. Monoqrafiya müəllimlər, tədqiqatçılar, doktorantlar, tələbələr, mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

### "Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu"

Monoqrafiyada sosial siyasətin tarixi inkişafı və sosial sabitlik anlayışı, sosial siyasətin vəzifələri və reallaşdırma mexanizmləri nəzərdən keçirilir. Sosial siyasətin tədqiqinin nəzəri-metodoloji aspektlərinə diqqət ayırsaq görərik ki, sosial siyasət iki ayrı anlama sahib olub, həm bir akademik intizamın adını, həm də ictimai rifahı təmin etmək üçün edilən cəmiyyət tənzimləmələrini həyata keçirmək üçün is-

tifadə edilir. Belə ki, dövlətin sosial siyasəti onun öz vətəndaşları ilə bağlılığını sübut edən ən effektiv mexanizmidir. Dövlət öz müstəqilliyini möhkəmləndirmək, təhlükəsizliyini təmin etmək üçün həyata keçirdiyi sosial siyasət vasitəsilə cəmiyyətdə sosial bazanı daha da genişləndirir və vətəndaşlar arasında siyasi dəstək qazanır. Aydındır ki, səmərəli sosial siyasət cəmiyyətin siyasi sabitliyinin təmin edilməsində ən güclü vasitədir. Günel Məliklinin “Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu” kitabının yazılmasında əsas məqsəd mövzunun öyrənilməsi zamanı sistemli və kompleks yanaşmadan istifadə etməklə sosial siyasətin təkmilləşdirilməsi və gücləndirilməsi yollarının təhlilini həyata keçirməkdir. Eyni zamanda, sosial siyasətin nəzəri-metodoloji problemlərinin öyrənilməsi, inkişaf meyillərinin araşdırılması da bu tədqiqatın məqsəd və vəzifələri sırasındadır. Bütövlükdə monoqrafiyada Azərbaycan Respublikasının sosial siyasətinin əsas istiqamətləri araşdırılır, milli rifah səviyyəsinin inkişaf problemlərinə diqqət yetirilir. Azərbaycanda sosial inkişafın təkmilləşdirilməsi istiqamətində həyata keçirilən sosial siyasət, milli təhlükəsizliyin təmin edilməsində sosial siyasətin yeri və rolu ətraflı təhlil edilir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**“Bir əsrin xəzinəsi. Bakı Dövlət Universiteti – 100 il”**

Kitabda müsəlman Şərqinin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin 100 illik tarixi dövrü, keçdiyi şərəfli yol araşdırılmışdır. Bakı Dövlət Universitetinin böyük potensialı, inkişaf istiqamətləri dünya təhsil sisteminə inteqrasiyası, fakültələri, elmi-tədqiqatların son texnologiyalarının tətbiqi, məzunları haqqında geniş məlumat verilir. Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin Bakı Dövlət Universiteti ilə bağlı fikirləri, çıxışları, bu təhsil ocağının yubiley mərhələlərində iştirakları geniş və əhatəli şəkildə öz əksini tapır. Müəllif Günel Məlikli qeyd edir ki, 100 il bu ali təhsil ocağının fəaliyyətini dəyərləndirmək üçün böyük tarixdir. Özünün şanlı tarixi boyu universitet ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatımızın inkişafına dəyərli töhfələr vermiş, neçə-neçə tanınmış dövlət xadimi, dünya şöhrətli alim, mədəniyyət və incəsənət dühası yetişdirmişdir. Bakı Dövlət Universitetinin mühüm xidmətlərindən biri də bu məbədin Azərbaycanda ali təhsil sisteminin əsasını, bünövrəsini qoymasıdır. Əlbəttə, bu bir ildə formalaşmadı, tədricən, dünya təcrübəsini öyrənməklə, onun Azərbaycan şəraitinə və ənənələrinə uyğunlaşdırılması ilə baş verdi. Zaman bütün ilkləri, başlanğıcları öz sərt sınağından keçirdiyi kimi, Bakı Dövlət Universitetinin təşəbbüslərini, təcrübələrini də sınaqdan keçirmişdir. Onlardan yalnız təhsil ictimaiyyəti tərəfindən qəbul olunmuşlar, uğurlu sayılanlar universitet təhsilinin səviyyəsini yüksəltmək amalına xidmət etmişdir. Kitabda ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan Dövlətçiliyinin banisi kimi çoxşaxəli fəaliyyətinin nəticəsi olaraq Bakı Dövlət Universitetinin inkişafının mühüm məqamları təhlil edilir, Prezident İlham Əliyevin həmin kursu uğurla, yaradıcılıqla davam etdirməsi məsələləri bilavasitə araşdırılır. Kitab müəllimlər, tədqiqatçılar, doktorantlar, tələbələr üçün mükəmməl vəsaitdir.

www.respublica-news.az

*YENİ NƏŞR*

## "İCTİMAİ VƏ HUMANİTAR ELMLƏRİN, EFİR MƏKANININ PROBLEMLƏRİ HAQQINDA DÜŞÜNCƏLƏR"

**"İndi cəmiyyətimiz qarşısında, ilk növbədə, elmi elita qarşısında mühüm vəzifələrin həlli məsələsi dayanır. Əsas məqsədimiz ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı və biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir".**

Bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevin Azərbaycan və rus dillərində yenicə çapdan çıxmış "İctimai və humanitar elmlərin, efir məkanının problemləri haqqında düşüncələr" kitabında yer alıb. Kitab iki aktual mövzudan bəhs edir: "İctimai və humanitar elmlər: zaman kontekstində baxış", "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr".

Bu gün Azərbaycan dövlətinin çox uğurlu sosial-iqtisadi siyasət həyata keçirdiyini, yeniləşmə prosesinin ölkə həyatının bütün sahələrini əhatə etdiyini, o cümlədən elmin inkişafı istiqamətində Prezident İlham Əliyev tərəfindən mühüm qərarlar qəbul edildiyini vurğulayan müəllif elmi elitanın həyata keçirəcəyi strateji planların mahiyyətini açıqlayaraq aktual istiqamətləri diqqətə çatdırıb. Akademik yazır: "Bu gün dünya Azərbaycanı yenidən kəşf edir. Ölkəmizə olan bu diqqət və marağın əsasında Prezident İlham Əliyevin fədakar əməyi dayanır. Artıq politoloji tədqiqatlarda "Azərbaycan modeli" haqqında fikirlər səslənir". Alim bu qənaətə gəlir ki, inkişafın belə bir zamanında önləyici proqnozlar sistemini müəyyənləşdirmək üçün işlər görülməlidir. Milli elm infrastrukturunun formalaşması üçün dövlətə konkret konsepsiya təqdim edilməlidir. Bu, dünya elminin insanlara, elmə və təhsilə münasibətdə irəli sürdüyü standartlara cavab verən bir konsepsiya olmalıdır.

Azərbaycanın efir məkanında mövcud problemlər və vəzifələr barədə mülahizələrində akademik Ramiz Mehdiyev müstəqillik illərində ölkəmizdə KİV-in azad fəaliyyəti üçün hər cür şərait yaradıldığını, hüquqi bazanın olduğunu vurğulayır, milli-mənəvi dəyərlərimizin qorunmasında, azərbaycançılıq ideyasının təbliğində, Azərbaycan dilinin, mədəniyyətinin, ölkəmizlə bağlı tarixi həqiqətlərin yayılmasında radio və televiziyanın roluna diqqət çəkir. Onun fikrincə, bu gün televiziya kanallarımız milli-mənəvi dəyərlərin təbliği, ictimai əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi, vətənpərvərlik, uşaqların və yeniyetmələrin intellektual inkişafı və digər sahələr üzrə keyfiyyətli maarifləndirmə proqramları nümayiş etdirmək iqtidarındadır. Bununla yanaşı, müəllif efir məkanındakı problemləri və onların qarşısını almağın yollarını da göstərib.

## MÜNDƏRİCAT

*Ramiz Mehdiyev.* Azərbaycanın inkişafini XXI əsrin çağırışlarına uyğunlaşdıran lider ........... **3**
*Məhərrəm Əliyev.* XX əsrin fenomen şəxsiyyəti ........................................................................ **17**
*Ziyad Səmədzadə.* İlham Əliyev: Biz elə etməliyik ki, xalqımız daha yaxşı yaşasın, heç bir sosial gərginlik olmasın ..................................................................................................... **22**
*Elmar Məmmədyarov.* Azərbaycanın xarici siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlarımıza uyğun olaraq uğurla həyata keçirilir ......................................................... **32**
*Əhliman Əmiraslanov.* Türk dünyası və parlamentarizm ........................................................ **42**
*Gövhər Baxşəliyeva.* Zəmanəmizin dahi Azərbaycanlısı ......................................................... **46**
*Fikrət Məmmədov.* Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı ........................ **52**
*Mübariz Qurbanlı.* Heydər Əliyev yolu Azərbaycanı daha yüksək zirvələrə aparacaq ............ **62**
*Hüseynbala Mirələmov.* İlham Əliyev elə Azərbaycan deməkdir! ........................................... **65**
*Fuad Muradov.* Yeni ildə soydaşlarımız azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşəcəklər ............................................................................................................................. **74**
*İlham Məmmədzadə.* Azərbaycanın liderlik strategiyası .......................................................... **82**
*Nurlana Əliyeva.* Xilaskar lider ................................................................................................. **90**
*İbrahim Quliyev.* Qəhrəmanlıq, rəşadət rəmzi ........................................................................... **97**
*Əkbər Qoşalı.* Heydər Əliyev fondu: xeyirxahlıq ocağı, ümid yeri ......................................... **101**
*Elman Nəsirov.* İslahatçı prezident ........................................................................................... **108**
*Kamilə Əliyeva.* Azərbaycanı dünyanın qüdrətli dövlətlərindən birinə çevirən lider ............... **114**
*Həbib Həsənov.* Heydər Əliyev və Azərbaycanın nəqliyyat infrastrukturu ...............................**118**
*Etibar Əliyev.* Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinin optimal təminolunma strategiyası ............................................................................................................. **127**
*Fikrət Yusifov.* Azərbaycan dəmir yolları uğurla müasirləşir .................................................... **132**
*Qulu Novruzov, Vaqif Bayramov.* Azərbaycan Respublikasının gömrük sistemində aparılan islahatlar: hüquqi tənzimlənmə və perspektiv inkişaf istiqamətləri ......................................... **137**
*Mirəli Kazimov.* Şəffafliq – Azərbaycanin müasir vergi siyasətinin əsas cəhətlərindən biri kimi ............................................................................................................. **141**
*Əvəz Ələkbərov.* Azərbaycan bu gün dünyada ən islahatçı və sabit ölkə kimi tanınır .............. **145**
*Şahin Bayramov.* Mingəçevir Dövlət Universiteti müasirləşmə yolundadır ............................. **149**
*Nihal Y. Nuri.* İmplementation of international electoral standards into the legislation of the Republic of Azerbaijan .............................................................................................. **155**
*Rəsmiyyə Abdullayeva.* İcbari tibbi sığorta mərhələli şəkildə tətbiq olunacaqdır ..................... **162**
*X.R.Məmmədov.* Postsovet məkanında milli azlıqların təhsil hüquqları dövlətdaxili və beynəlxalq-hüquqi təminatı .............................................................................................. **165**
*Aqil Əsədov.* Nəqliyyat sistemində idarəetmənin təkmilləşdirilməsinin normativ-hüquqi əsasları .............................................................................................................. **172**
*Elnur Kəlbizadə.* Xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqilliyimizin əsas təminatıdır ................................................................................................................... **181**
*Famin Salmanov.* Güclü lideri olan xalq yenilməzdir ............................................................... **184**
*Əfqan Salmanov.* Dövlət idarəçiliyində lider fenomeni ............................................................ **187**
*İlqar Eyyubov.* Dövlətin qeyri-neft sektorunun inkişafı istiqamətində hüquqi dəstəyi yeni mərhələdə ............................................................................................................. **189**
*Rəşad Baxşəliyev.* Ən güclülər sırasındaki ən islahatçı ölkə ..................................................... **191**

Kadr və struktur islahatları Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun aparılır ....193
*Paşa Əmircanov.* Yeni parlamentin formalaşması islahatların dinamizmini daha da gücləndirəcək .... 196
*Məhəmməd Nərimanoğlu.* Hər kəsin dostu .... 198
*Məhəmməd Nərimanoğlu.* Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır ....203
*Məhəmməd Nərimanoğlu.* Beynəlxalq tədbirlərdə ölkəmizin taleyüklü məsələsinə daim diqqət çəkilir ....206
AZAL pilotların hazirlığı mərkəzinin imkanlarını genişləndirəcək ....208
Kadr islahatları – təcrübə və kreativ ideyaların vəhdəti ....209
Azərbaycan bu gün avrasiyanın mühüm nəqliyyat mərkəzlərindən biridir ....211
*Flora Sadıqlı.* TANAP-ın Avropa sərhədinə çatması ötən ilin mühüm hadisələrindən olmuşdur ....215
*Vaqif Bayramov.* Azərbaycan – Cənubi Qafqaz regionunun lider dövləti .... 217
*Rəşad Baxşəliyev.* Regionların yüksəlişi hər zaman prioritet istiqamətdir ....221

## *RƏSMİ SƏNƏDLƏR*

Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında ....224
Ə.C.Əhmədzadənin 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında .... 225
X.B.Yusifzadənin “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında .... 225
Poçt ödəniş xidmətləri haqqında sazişə və onun yekun protokoluna qoşulmaq barədə ....226
“Azərbaycan Respublikasının dövlət gerbinin təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması Qaydası”nın təsdiq edilməsi haqqında .... 227
Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il və ortamüddətli dövr üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatı .... 229
Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı ....235

## *ELM XADİMLƏRİ*

*Əhliman Əmiraslanov.* Azərbaycan səhiyyəsinin banisi .... 242
*Mübariz Allahverdiyev, Elçin Xıdırov.* Görkəmli alim, qayğıkeş müəllim, bacarıqlı elm təşkilatçısı ....250
*Zahid Cəfərov.* Ziyalı ömrü ....255
*Ayaz Musayev.* Təcrübəli pedaqoq, zəhmətkeş alim, nəcib insan ....259

## *YENİ KİTABLAR*

Akademik Ramiz Mehdiyevin “Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran lider” adlı kitabı çapdan çıxıb ....262
Prezident İlham Əliyev: İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir ....264
Yeni nəşrlər ....265
“İctimai və humanitar elmlərin, efir məkanının problemləri haqqında düşüncələr” ....267

**Jurnal Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində 19 fevral 2020-ci il tarixdə qeydə alınmışdır (Şəhadətnamə № 11479)**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

"Hüquqi müstəvi" elmi-nəzəri, təcrübi jurnalın
Redaksiyası" MMC-nin direktoru:
**Faiq HÜSEYNOV, hüquqşünas.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

«Adiloğlu» nəşriyyatı.
Ofset üsulu ilə çap edilmişdir.
Sifariş 46.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 45. Tirajı 300.

Ünvan: AZ 1102. Bakı şəh., Nəsimi r-nu, Tbilisi pr, 44.
Telefon: (+994 55) 339-75-77, (+994 50) 593-27-77
E-poçt: adiloglu2000@gmail.com

**Bank of Baku ASC-nin "MXD" filialı**

**AZN**

| | |
|---|---|
| **Müştəri kodu** | **A48398** |
| **Hesab sahibi** | **"Hüquqi müstəvi elmi-nəzəri, təcrübi jurnalının redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti** |
| **Hesab nömrəsi** | **38090000184190A72** |
| **VÖEN** | **1306401681** |
| **İBAN** | **AZ34JBBK00038090000184190A72** |
| **Bankın adı** | **Bank of Baku ASC-nin "MXD" filialı** |
| **VÖEN** | **1700038881** |
| **KOD** | **506924** |
| **Müxbir hesab** | **AZ27NABZ01350100000000007944** |
| **S.W.I.F.T** | **JBBKAZ22** |

ISSN 2218-5178